AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

## XIII cild

## ŞƏKİ, QƏBƏLƏ, OĞUZ, QAX, ZAQATALA, BALAKƏN, FOLKLORU

BAKI – 2005

Azərbaycan  Milli Elmlər Akademiyası
Folklor İnstitutu Elmi Şurasının
qərarı ilə çap olunur

**Tərtibçilər:** **f.e.d., prof. İSRAFİL ABBASLI**
**f.e.n. ORUC ƏLİYEV**
**f.e.n. MƏTANƏT ABDULLAYEVA**

**Elmi redaktor: f.e.d. HÜSEYN İSMAYILOV**

**Rəyçilər:** **f.e.n. TƏHMASİB FƏRZƏLİYEV**
**f.e.n. RAMİL ƏLİYEV**

**Nəşrinə məsul:** **f.e.n. ƏZİZ ƏLƏKBƏRLİ**

**Azərbaycan folkloru antologiyası, XIII  kitab, (Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru),** Bakı, "Səda" nəşriyyatı, 2005.

Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəşr etdirdiyi "Azərbaycan folkloru antologiyası" seriyasından çap olunan bu dəfəki cilddə Azərbaycanın folklor materialları ilə zəngin olan **Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən** bölgələrinin folklor inciləri toplanmışdır.

ISBN-586874-138-2

©"Səda" nəşriyyatı, 2005

# ÇOXCİLDLİ "AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI"NIN (AFA) NƏŞR OLUNMUŞ KİTABLARI

**1. AFA, I.** Naxçıvan folkloru, tərtib edənlər: Təhmasib Fərzəliyev, Məhərrəm Qasımlı, elmi redaktoru və "Ön söz"ün müəllifi İsrafil Abbasov, rəyçilər: Vəli Əliyev, Bəhlul Abdulla, Bakı, "Sabah" nəşriyyatı, 1994.

**2. AFA, II.** İraq-Türkman folkloru, tərtibçilər: filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, doktor Əbdüllətif Bəndəroğlu, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri doktoru, professor Azad Nəbiyev, filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, Bakı, "Ağrıdağ" nəşriyyatı, 1999.

**3. AFA, III.** Göyçə folkloru, toplayıb tərtib edəni, Hüseyn İsmayılov, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: fiollogiya elmləri doktoru, professor Qara Namazov, filologiya elmləri namizədi Oruc Əliyev, Bakı, "Səda" nəşriyyatı, 2000.

**4. AFA, IV.** Şəki folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Oruc Əliyev, Hikmət Əbdülhəlimov, Ramazan Qafarov, Vaqif Aslan elmi redaktoru və "Ön söz"ün müəllifi filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, sənətşünaslıq namizədi Faiq Çələbi, Bakı, "Səda" nəşriyyatı, 2000.

5. AFA, V. Qarabağ folkloru, toplayanlar: İsrafil Abbaslı, Təhmasib Fərzəliyev, Nəcəf Nazim (Quliyev), tərtib edəni və "Ön söz"ün müəllifi filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, redaktorları: filologiya elmləri doktoru, professor Yaşar Qarayev, filologiya elmləri namizədi, dosent Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri doktoru Bəhlul Abdulla, filologiya elmləri namizədi Oruc Əliyev, "Bakı", "Səda" nəşriyyatı, 2001.

**6. AFA, VI.** Şəki folkloru, tərtib edəni: Hikmət Əbdülhəlimov, elmi redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, "Ön söz"ün müəllifi sənətşünaslıq namizədi Faiq Çə-

ləbi, rəyçi filologiya elmləri namizədi Hüseyn İsmayılov. Bakı, "Səda" nəşriyyatı, 2002.

**7. AFA, VII.** Qaraqoyunlu folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Qurban Süleymanov, elmi redaktoru filologiya elmləri doktoru, professor Qara Namazov, rəyçilər, filologiya elmləri doktoru İsrafil Abbaslı, filologiya elmləri namizədi Oruc Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2002.

**8. AFA, VIII.** Ağbaba folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Tacir Qurbanov, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçi filologiya elmləri namizədi Əziz Ələkbərli, Bakı, "Səda" nəşriyyatı, 2003.

**9. AFA, IX.** Gəncəbasar folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Raziyə Quliyeva, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçilər filologiya elmləri namizədi Sərxan Xavəri, Ağaverdi Xəlil, Bakı, "Səda" nəşriyyatı, 2004.

**10. AFA, X.** İrəvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, filologiya elmləri namizədi Əziz Ələkbərli, redaktoru prof. İsrafil Abbasov, rəyçilər: AMEA-nın müxbir üzvü Teymur Bünyadov, prof. Qara Namazov.

**11. AFA, XI.** Şirvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elmləri doktoru Seyfəddin Qəniyev, redaktoru filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri Oruc Əliyev, Ağaverdi Xəlil.

**12. AFA, XII.** Zəngəzur folkloru, toplayıcılar f.e.d. Vəli Nəbioğlu, f.e.n. Muxtar Kazımoğlu, f.e.n. Əfzələddin Əsgər; tərtib edənlər: Əfzələddin Əsgər, Muxtar Kazımoğlu; redaktoru filologiya elmləri doktoru Hüseyn İsmayılov; rəyçilər: f.e.n. Təhmasib Fərzəliyev, f.e.n. Oruc Əliyev.

## *ÖN SÖZ*

*Azərbaycan folklorunun vahid atlasını yaratmaq üçün folklor örnəklərini regionlar üzrə toplamaq işi ardıcıl olaraq davam etdirilir. Şəki-Zaqatala bölgəsindən (Şəki, Qax, Zaqatala, Balakən, Oğuz, Qəbələ rayonları) toplanmış bu rəngarəng nümunələr bu sahədə atılan növbəti addımdır.*

*Müxtəlif bölgələrdən, o cümlədən Şəki-Zaqatala regionundan toplanmış örnəklər Azərbaycan folklorunun tərkib hissəsi olmaqla yanaşı, ümumtürk və ümumdünya folklorunun da tərkib hissəsidir. Başqa sözlə, örnəklər bir zərrə, bir damla qədər də olsa, həm ümumazərbaycan, həm ümumtürk, həm də ümumdünya folklor xəzinəsinə öz töhfəsini verir. Ona görə də regionlardan toplanmış bu örnəklərin antologiyaların səhifələrində yer almasına, geniş oxucu kütləsinin nəzərinə çatdırılmasına, tədqiqatçıların araşdırma obyektinə çevrilməsinə ehtiyac duyulmaqdadır.*

*Son dövrdə Şəki-Zaqatala regionu üzrə bir sıra tədbirlər - 1983-cü il iyunun 11-də Şəkidə ilk dəfə olaraq Gülüş bayramı, 1993-cü il oktyabrın 19-22-də Azərbaycan folklorunun toplanması, nəşri və tədqiqi problemləri ilə bağlı regional folklor müşavirəsi, 2005-ci il mayın 16-da Baş Layısqılı Molla Cuma ilə bağlı elmi konfrans keçirilmişdir.*

*2004-cü ildə «Azərbaycan folklorunun regional xüsusiyyətləri (Şəki-Zaqatala folklor nümunələri əsasında)» mövzusunda namizədlik dissertasiyası müdafiə olunmuşdur. Dissertasiyada Şəki-Zaqatala regionundan toplanmış folklor örnəkləri tədqiqata cəlb olunmuş və bu örnəklərin spesifik cəhətləri müqayisəli şəkildə araşdırılmışdır.*

*Böyük Qafqaz sıra dağlar silsiləsinin cənub-qərb hissəsində yerləşən Şəki-Zaqatala regionu şimaldan Dağıstan Muxtar Respublikası, qərbdən Gürcüstan Respublikası, şərqdən Girdmançay dərəsi, cənubdan isə Alazan-Əyriçay çökəkliyi ilə sərhəddir.*

*Region ərazisinin Alazan, Mazımçay, Balakənçay, Talaçay, Kişçay, Əyriçay, Gürmükçay, Qaşqaçay, Ağçay, Əlican və s. kimi əsas çayları vardır.*

*Region zəngin bitki örtüyünə malik olduğundan hətta bu, özünü kənd, oba adlarında da göstərir: Göyəm, Zoğalbinə, Əzgilli (Zaqatala), Almalı, Fındıqlı (Qax), Yemişənli, Söyüdlü (Oğuz), Şabalıd (Şəki) və s.*

*Regionun milli etnik tərkibi çox zəngindir. Şəki-Zaqatala zonasında Azərbaycan türkləri ilə yanaşı, avarlar, saxurlar, ingiloylar, gürcülər, udilər, yəhudilər, ləzgilər yaşayır.*

*Çox maraqlı faktdır ki, milli etniklərin kompakt yaşadığı bu ərazidə qədim türk adət-ənənələrini milli azlıqlar da öz folklor nümunələrində qoruyub saxlamışlar. Regiondan toplanmış örnəklərdə bu özünü qabarıq şəkildə göstərir. Məsələn, avarların, saxurların, ingiloyların və başqalarının söylədiyi, özününküləşdirdiyi demək olar ki, hər bir örnəyin qədim türk qəlibləşmiş variantı mövcuddur (Bax: «Şəki-Zaqatala bölgəsində yaşayan milli azlıqların (ləzgi, avar, ingiloy, ərəşdi və s.) toy adətlərində spesifik cəhətlər», «Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə» Folklor Konfransının materialları, Bakı, 2004, səh.254-255).*

*Şəki-Zaqatala regionunun coğrafi arealı, fauna, florası, məişəti, həyat tərzi, milli adət-ənənələri, koloritli dil faktorları (sözlərin intonasiyası, spesifik lüğət vahidləri – nübgar (ingiloy), nübgər (udi), nubar (ləzgi), nüybər, nübar (Azərbaycan dilində); Azərbaycan dilində şivə fərqləri mövcud olduğu kimi etniklərin də dil fərqləri mövcuddur. Belə ki, bir kəndin danışığı o biri kəndin danışığından necə fərqlənirsə, bir udinin, bir ləzginin, digər millətlərin dili bir-birindən eləcə fərqlənir. Məsələn: Qəbələ rayonunun Nic udiləri işığa işığ deyirlərsə, Oğuz udiləri xaş deyir. Qıza Nic udiləri xüyər, Oğuz udiləri isə xinər deyir və s.) spesifik məzmun və süjet fərqləri yaradır. Məsələn, mövsüm və mərasimlərdə, xüsusilə də toy və dəfndə, istər gedişatında, süfrə mədəniyyətində, müxtəlif ayinlərin keçirilməsində spesifik məqamlar («Diş toyu» (udilərdə), «Tuti nugbari» (ingiloylarda), «iməcilər» (avarlarda) və s.) vardır. Lakin bütün bunlara baxmayaraq, hər bir örnəkdə türk ənənəsi yaşayır. Çünki milli azlıqlar azərbaycanlılarla o qədər qaynayıb-qarışmışdır ki, hətta qədim türk sözləri belə onların leksikonuna daxil olmuşdur. Milli azlıqları qətiyyən azərbaycanlılardan ayıra bilmərik. Çünki mərhum tarix elmləri doktoru Qəmərşah Cavadovun təbirincə desək, «Azərbaycanda məskunlaşan bu xalqlara sözün əsl mənasında tarixi abidə gözü ilə baxmaq və onların yaşadığı arealı tarixi-linqvistik qoruq elan etmək lazımdır».*

*Şəki-Zaqatala regionu tarixi keşməkeşləri olan bir ərazidir. Bu regionun ərazisi tarixən tez-tez yadellilərin işğalına məruz qalmışdır. Səlcuq-Oğuzlarının başçılığı ilə türk tayfaları (onların tərkibində qıpçaqlar, monqollar, tatarlar və s. vardı) bu əraziyə basqın etmişdilər ki, bu da özünü yer, yurd adlarında (Qıpçaq kəndi (Qax rayo-*

*nunda), Şamlı kəndi (Qəbələ rayonunda), Qaxmuğal kəndi (Qax rayonunda), Bucaq kəndi (Oğuz rayonunda) və s.) və regiondan toplanmış örnəklərdə də özünü göstərməkdədir. (Bax: E.Nuriyev. «Azərbaycan SSR Şəki-Zaqatala zonasının toponimiyası», «Elm», Bakı, 2001, səh: 34, 37, 39-40) Məsələn:*

*Şarəyin boz dağları,*
*Bürüdü toz dağları.*
*Əlini ver əlimə*
*Keçək tez bu dağları və s.*

*Beləliklə, region ərazisində yaranmış folklor örnəklərinin hansı dövrdə, hansı şəraitdə meydana gəlməsini örnəklərin süjetindən və tarixi-arxeoloji mənbələrdən təxminən müəyyənləşdirmək mümkündür.*

*Belə ki, regiona aid tarixi abidələr orada baş vermiş tarixi proseslərin güzgüsüdür. Tarixin qan yaddaşı olan bu abidələrlə bağlı yaranan folklor örnəkləri də onların mənşəyindən xəbər verir. «Minarələr dağı», «Komrad», «Dambatan», «Qızıl qaya» və s. bu kimi nümunələr regionun tarixi, ictimai-siyasi həyat tərzini əks etdirir.*

*Region ərazisi həm də Oğuzların yaşadığı bir məkandır. Bunu nəinki abidələr, hətta 1950-ci illərdə arxeoloq Saleh Qazıyev tərəfindən aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunan maddi mədəniyyət nümunələri bir daha təsdiq edir.*

*Qəbələ kənd xarabalığında, Oğuz rayonunun Qarabaldır, Xalxal, Sincan, Kərimli kəndləri ərazisində dördkünc formada 1,2 m-dən 3,1-mə çatan qəbirlər aşkara çıxarılmışdır. Bu ərazidə mövcud olmuş 5 kurqan (2-si insanların səhvi ucbatından məhv edilmişdir. Üçü hal-hazırda saxlanılır. Kitabın sonundakı şəkillərə bax.), qədim qala yerləri - Gavur qala, Surxay xan qalası (Oğuz rayonunun Filfilli kəndində), Qəbələ kənd xarabalığı və s. region ərazisinin tarixinin təxminən VII əsrə, hətta lap qədimlərə gedib çıxdığını göstərir.*

*Nəhayət, Şəki-Zaqatala regionu zəngin söz bilicilərinin məkanıdır.*

*Azərbaycan folkloru incilərini sinəsində gəzdirən bu bilicilərimizin bəzisi dünyasını dəyişsə də, bəzisi söylədikləri bu incilərin tezliklə nəşri gerçəkliyinin canlı şahidləri olmaq istəyirlər (Sinəsi sözlü-sovlu söyləyicilərimizin bir qisminin fotosu topluda öz əksinit tapmışdır).*

*Bu regionda yaşayıb-yaratmış el sənətkarlarının (Aşıq Cahangir Dalğın, Aşıq Valeh, Aşıq Sirac, Aşıq Ramazan, Muxaxlı Aşıq Əli və s.) yaradıcılığından nümunələr topluda öz əksini tapmışdır. Bu nümunələrin toplanmasında böyük iş görmüş Folklor İnstitutunun el-*

*mi işçisi hal-hazırda dünyasını dəyişmiş Şəki Zona Elmi Mərkəzinin (ŞZEM) Azad Ozanın adını yad etməmək mümkün deyildir.*

*Örnəklərin toplanmasında və bu kitabın ərsəyə gəlməsində Şəki Zona Elmi Mərkəzinin əməkdaşlarının fəaliyyəti böyükdür. Materialların çox hissəsi 1990-1991-ci illərdə toplanıb təqdim olunmuşdur. Hətta ŞZEM-də indiyədək toplanmış folklor örnəkləri və bunlara uyğun olaraq eksponatlar əsasında Folklor muzeyi yaradılmışdır.*

*Başda ŞZEM-in direktoru Geologiya – minerologiya elmləri doktoru, professor Zəkəriyyə Əlizadə olmaqla, direktor müavini Sənətşünaslıq namizədi Nərgiz Əsgərzadə, «Folklorşünaslıq və el sənətləri» laboratoriyasının müdiri filologiya elmləri namizədi Ulduz Mürşüdova, Mərkəzin baş elmi işçisi, pedaqoji elmlər namizədi Əli Süleymanovun, Mərkəzin mərhum əməkdaşı Seyid Ələsgərovun və Sevinc Qədirovanın xidmətləri danılmazdır.*

*Toplunun ərsəyə gəlməsində birinci növbədə filologiya elmləri doktoru, professor İsrafil Abbaslının əməyi böyükdür. O, toplunun bütün materiallarını nəzər süzgəcindən keçirmiş, layiqli tövsiyələrini vermişdir.*

*Toplunun ərsəyə gəlməsində bir sıra imkanlardan istifadə etdiyimiz Oğuz rayon İcra rəhbərliyinə, şəxsən Firuz müəllimə və İlhamə xanıma, Yaşar, Mübariz və Ələddin (Balakən rayonunun Qazma kəndi) qardaşlarımıza, Oğuz və Qəbələ rayonlarının Tarix-diyarşünaslıq muzeylərinin direktorları Arizə xanıma və Xalis müəllimə, Mirzəbəyli kəndindən Tofiq müəllimə, Qüdrət müəllimə, Vəndam kəndindən Qədim əmiyə, Ruzi əmiyə, Zaqatala rayonundan şəxsən Qəhrəman müəllimə, Məhəmməd Şabanoğluna, toplunun sonunda verilmiş xəritənin tərtib olunmasında dəyərli məsləhətlərini vermiş Coğrafiya elmləri doktoru, professor Eyyubalı müəllimə, Əlyazmalar İnstitutunun kitabxanaçısı Umxanım xanıma, əlyazmaların transliterasiyasında böyük rolu olan Əlyazmalar İnstitutun elmi işçisi Şəlalə xanıma və onların simasında İnstitutun bütün əməkdaşlarına, Tarix, Etnoqrafiya, Coğrafiya İnstitutlarının və Bakı Dövlət Universitetinin kitabxana və arxiv əməkdaşlarına, şəxsən filologiya fakültəsinin müəllimi Səmayə xanıma və AMEA Coğrafiya İnstitutunun elmi işçisi Zöhrə xanıma milli azlıqların dilində olan nümunələrin tərcüməsi ilə bağlı göstərdiyi köməkliyə görə Sona, Elmira, Rahilə, Nəzakət, Nərminə xanımlara, öz dərin minnətdarlığımızı bildiririk.*

*Kitabda janrlar üzrə verilən nümunələrin mənbəyini göstərmək məqsədi ilə xüsusi kodlaşdırma sistemindən istifadə olunmuşdur. Hər bir nümunənin sonunda mötərizə içərisində onun mənbəyini*

*göstərən kod işarələri verilir. Mötərizə içərisində verilən kodda böyük «S» hərfi «söyləyici» sözünün ilk hərfidir, ondan sonrakı rəqəm həmin söyləyicinin ümumi söyləyicilər siyahısında neçənci olduğunu göstərir, böyük «T» hərfi «toplayıcı» sözünün ilk hərfidir, ondan sonrakı rəqəm həmin toplayıcının ümumi toplayıcılar siyahısında neçənci olduğununu göstərir, böyük «Ə» hərfi «ədəbiyyat» sözünün ilk hərfidir, ondan sonrakı rəqəm həmin ədəbiyyatın ümumi ədəbiyyat siyahısında neçənci olduğununu göstərir, kiçik «s» hərfi «səhifə» sözünün ilk hərfidir, ondan sonrakı rəqəm həmin ədəbiyyatın səhifəsini göstərir, məsələn:*

*Folklor nümunəsindən sonra verilən (S.1, T.1) kodu aşağıdakı mənanı ifadə edir: S.1 - bu nümunə söyləyicilər siyahısındakı 1 nömrəli söyləyicinin, yəni Balakən rayonunun Qasbinə kənd sakini Adil Qımrıyevin dilindən, T.1 - toplayıcılar siyahısındakı 1 nömrəli toplayıcı, yəni Zaqatala rayonunun Muxax kənd sakini Abidət Əmirova tərəfindən qələmə alınmışdır.*

*Folklor nümunəsindən sonra verilən (Ə.1, s.1) kodu aşağıdakı mənanı ifadə edir: Ə.1 - bu nümunə ədəbiyyat siyahısındakı 1 nömrəli ədəbiyyatdan, yəni «Abdulla Padarlı. Seçilmiş şerlər (toplayanı və tərtib edəni Əzizə Cəfərzadə), «Gənclik», Bakı, 1979» kitabından, s.1 – 1-ci səhifədən alınmışdır.*

*Folklor nümunəsindən sonra verilən (T.1) kodu aşağıdakı mənanı ifadə edir: bu nümunənin söyləyicisi məlum deyil və toplayıcılar siyahısındakı 1 nömrəli toplayıcı, yəni Zaqatala rayonunun Muxax kənd sakini Abidət Əmirova tərəfindən qələmə alınmışdır.*

*Ulduz işarəsi ilə göstərilmiş sözlərin izahı qeydlər və şərhlər bölməsində verilmişdir.*

*Toplunun sonunda mətndaxili dialekt və ərəb-fars mənşəli sözlərin lüğəti, mətndaxili işlənən bəzi məqamların izah və şərhləri, mifoloji və folklor obrazları, əşya və predmet adları, spesifik toy adətləri, spesifik geyim və bəzək əşyalarının, mahnı və rəqslərin adları verilmişdir. Regionu əks etdirən fotoşəkillər və xəritə topluya xüsusi zənginlik verir.*

*Bizcə, bu toplu Şəki-Zaqatala regionunun tarixi inkişafı, xalqın milli adət-ənənələri haqqında tam təsəvvür yaradacaqdır.*

*MƏTANƏT YAQUB QIZI ABDULLAYEVA*
*Folklor İnstitutunun böyük elmi işçisi,*
*filologiya elmləri namizədi*

# MİFOLOJİ MƏTNLƏR

Allah insannarı yaratannan sonra peyğəmbərlərdən birini qöndəriy dirilix suyunun dalıncax ki, gətirip versin insannara.

Peyğəmbər qayıdanbaş yolda yatiy ki, dincini alsın. Bu vax iki qarğa gəlip dirilix suyu olan bardağı yıxıp o sudan içiy. Ona qörə də qarğalar 300 il yeşiyi. Ama bu su insannara çatmadiyi üçün onnar az yeşiyi **(S.206, T.12).**

***

Qabaxlar insannarın boyu on metrəymiş. Özü də min il yeşiyirmişlər. Bi qun hoların fikrinə allahlıx düşiy. Allah da hoları kiçəltip bizim qunumuza saliy, ömürlərini də qodəldiy **(S.206, T.12).**

***

Bi tayfa varmış. Honun baççısının uşağı yoxiymiş. Çox qurbannan, nəzir-niyazdan sora honun bir oğlu oliy. Uşax dörd-beş yeşinə çatiy, ama yerimiyi. Tayfa baççısı fikirrəşiy: «Bə mən ölənnən sora şikəsd oğluma kim baxcax?»

Bi qunusu ho tayfanın üsdünə duşmannar hücum eliyi. Hamısı kişiləri öldüriy, arvat-uşaxları yesir eliyip apariylər. İntası şikəsd uşağı aparmiylər ki, qurt-quş yisin.

Bi qurt uşağı yuvasına apariy. Başdiyi uşağı böyütməğə. Neçə illərdən sora uşağın ayaxları açiliy. Özü də bööyüb elə pəhlivan oliy ki, ad-sanı hər yerə yeyiliy.

Düşmannar honun sorağını eşidip gəliylər öldurmağa. Ama oğlan hoların hamsını qıriy. Sora da gedip tayfasını kutariy **(S.206, T.12).**

***

Bir kişi oya çıxıy. Bi keyik göriy. İsdiyi vursun, bi də göriy ki, keyik bi arvada çöyrüldü, acıxlı-acıxlı baxdı, sora da yox oldu.

Kişi qorxiy, daa oya getmiyi **(S.206, T.12)**.

***

Diyillər ki, Yernən Göy bir-biriynən çox yaxınmış.

Günnərin bi günüsü bir arvad çörək bişirirmiş. Bu vaxd uşağın burnu axır. İsdiyi ki, çörəhnən uşağın burnunu silsin.

Göydən bir yaylıx düşür. Arvadın yaylığa hayfı gəlir. Çörəkdən bir az qopardıp uşağın burnunu silir. U vaxd göy qəzəplənir, yerdən çox-çox uzaqlaşır **(S.206, T.12)**.

***

Bi kişi səfərə çıxmali oliy. Honun arvadı həmeylə oliy. Habu kişi qoz ağacınnan beşig düzəldiy. Arvadına tapşıriy ki, oğlumu habu beşigdə yatdiy.

Gəlnin uşağı ölü oliy. Kişinin qorxusnnan gəlin uşaği yeşiriy. Beşigdə daş qoyuf yırğaliyi. Kişi gələndə isdiyi uşağa baxsın, gəlin diyi ki, yatıpdı, uyatma. Kişi bir az gözdiyi, sabru tükəniy. Axırsı üzünü açıf baxıy, iksi də mat qaliy. Gəlin mat oliy ki, bir qunnux uşax: «Nə anam var, nə atam. Yaranmişəm daşdan mən» - diyə-diyə oxuyi **(S.206, T.12)**.

***

Bir gəlin gidiy Arazdan su doldurmağa. Bir də qoriy sudan bir cavan oğlan başı çıxıp baxiy. Bir qun helə, beş qun belə. Gəlin qorxudan hiş kəsə hiş nə dimiyi. Göriylər gəlin günnən-günə əriyi. Axırsı baldızı qılığına girip örgəniy, qardaşına diyi.

Kişi tüfəngi götürüp arvadı güdiy.

Göriy arvadı çeyə çatan kimi oğlanın başı sudan çıxdı. Tüfəngnən honu vuriy. Bir də qoriy bütün Araz qana bələndi. Göbəkdən yuxarı adam, aşağı balıx olan bir ölü qöqə qalxıb suya düşdü, yox oldu. Kişini ho saat titrətmə tutiy. Bir-iki qun yeşiyənnən sora kişi öliy **(S.206, T.12)**.

***

Bir kəntdə çox ölü öliymiş. Adamlar bir kişini durğuziylər qobursannıxda. Diyilər, biz sənnən soruşanda ki, ölü bastırmağa yer varmı? Diyərsən, yox. Bəlkəm honda ölən azalar.

Kişi razılaşiy. Camaat gəlip soruşiy:

- Ölü basdırmağa yer varmı?

Kişi bir yerə, bir qoqə baxiy. Diyi:

- Niyə yoxdu? Allah böyük, altı gen. Nə qədər istəsavuz yer var.

Ho söz Allahın xoşuna gəliy. Daha ho kətdə ölü az oliy **(S.206, T.12)**.

***

Dünyada nə ki, yel, külək var, hamsı Yel babanın əlindədi. Xırman sovrulanda camahat Yel babanı köməyə çağıriy. Yel baba da gəliy xırmanı sovuriy. Dən qaliy adamlara, samanı Yel baba öz altına apariy **(S.206, T.12)**.

***

Bi kişinin çox qözəl qızı oliy. Qız bi oğlanı isdiyirmiş. Ancax atası zornan honu istəmədiği adama veriy. Qız Allaha yalvariy ki, özünü qöqlərə qaldırsın. Oğlan da istədiği qızı qorsun. Ancax qora bilmiyi. Allaha yalvariy ki, özünü yenə qöqlərə qaldırsın. Heləcə qız qünəşə, oğlan aya döniy. Gecələr oğlan, gündüzlər qız işıx salıp bir-birini axtariylər **(S.206, T.12)**.

# İNAM VƏ ETİQADLAR

## ANDLAR

Cənnətin qapıları haqqı **(S.206, T.12)**.
Çərşənbə bava haqqı **(S.144, T.30)**.
Hacı Nörüz bava haqqı **(S.186, T.30)**.
İsdi təndir haqqı **(S.144, T.30)**.
İsdi zindan haqqı **(S.144, T.30)**.
Kösöy haqqı **(S.144, T.30)**.
Məhəmməd Əfəndi haqqı **(S.102, T.30)**.
Nörüz babanın göru haqqı **(S.186, T.30)**.
Quranın yarpaqları haqqı **(S.206, T.12)**.
Ocağın içində qəbrim olsun **(S.3, T.12)**.
«Sarı pir» haqqı **(S.136, T.32)**.
Sənə baxan üzüm ənsəyə dönsün **(S.3, T.12)**.
«Soltan Şıxəmir» haqqı **(S.136, T.32)**.
Şeyx bava haqqı **(S.102, T.30)**.
Un - urvat haqqı **(S.107, T.12)**.
Yeddi qurban kəsib, yeddi iç doydurub,yeddi pirə sığınıb tapdığım balamın canı haqqı **(S.206, T.12)**.
Yel bava haqqı **(S.144, T.30)**.

## İNANCLAR

Adna günü baş yumax olmaz, bedbaxçılıq olar **(S.28, T.30)**.

Adna günü bu yannan ho yana sicim (ip, kəndir) qurullar. Birisi honun üsdüynən Həccə gedir. Kimin yolu yaxşıdırca, yolu axıracan gedə bilir. Kimin yolu pis, bağlıdırsa, yarıda yıxılıp ölür **(S.25, T.30)**.

Ağac bar gətirməyəndə onun ortasından misdən mismar vurar, ya da kı qurban qanı sürtəllər **(S.69, T.30)**.

Arılar göyü qara buludlar bürüyən zaman öz yuvalarında durmayıb, bal toplamağa gedirsə, deməli, yağış yağmayacaq. Əgər ala – torandan pətəkdən çıxmayıb içəridə vızıldayırsa, onda yağış yağacaq **(Ə.5, s.37)**.

Ayaqqabıları soyunanda üzüsdə düşsə, ya da bir-birinin üsdünə düşsə, səən sözüvü danışıllar **(S.69, T.30)**.

Balakən - Zaqatala bölgəsnidə bir qadın yazda barama qurdunun toxumundan çıxması üçün qurdun toxumdan çıxma ərəfəsində toxumu götürüb buğda və çörək qırıntıları ilə qarışdıraraq balaca bir torbaya tökür ağzını sapla bağlayırdı. Toxum çıxacağı vaxt qadın sapı açır, torbanı öz dizinə bağlayırdı. Torba təsadüfən sap qırılıb aşağı düşənə qədər qadının dizinə bağlı qalardı **(Ə.5, s.105)**.

Balakəndə göyərçin ovlanmaz, çünki bu , bir bəlanın, bədbəxtliyin başlanğıcı hesab olunur **(Ə.5, s.101)**.

Barama şaxı qoyulan gün evi süpürmürdülər ki, bar-bərəkət də süpürülüb gedər. Çöldən evə heç nə gətirmirdilər ki, evə, ipəkqurduna bəla, xəstəlik gələr **(Ə.5, s.50)**.

Barama üçün şax qoyulandan sonra qurd şaxa çıxmırdısa, qayğanaq bişirirdilər. Çünki yumurta xeyir-bərəkət gətirirdi **(Ə.5, s.51)**.

Birisi tutduğu halı yazığı gəlip buraxsa, hal honun yeddi arxa-dönəninə dəyip dolaşmaz **(S.206, T.12)**.

Birisi qrip tutanda sağlam adam deyir: «Üsdüm unnudu» **(S.69, T.30)**.

Camaat arasında qız - gəlinlər mehriban yaşamış ailədən gülbəngi gətirməyi yaxşı əlamət hesab edirlər **(Ə.5, s.65)**.

Cuma günü paltar yumazdar **(S.145, T.30)**.

Cuma günü paltar yuyan adam sağlamlığını itirir **(S.69, T.30)**.

Cuma günü gecə vaxdı sabun əritməzdər **(S.173, T.30)**.

Çay içəndə çayın xatasının birsi çayın üzündə dursa, qonax gələcək, untası çayın xatasınnan birsi çayın dibində dursa, qonax gələcək, qalacaq **(S.69, T.30)**.

Çayın xatası uzundusa, uzun, arıx; balaca, kökdüsə kök qonax gələcək **(S.69, T.30)**.

Çəkilən süd dişdərini nöyüt şüşələrinə tökəllərmiş **(S.71, T.30)**.

Çurək yimağa oturanda gərək «bismillahirrəhmanirrəhim» diyəsən. Çünki çinlər də sənnən oliylər. «Bismillah» deyəndə holar durup gediylər **(S.206, T.12)**.

Duzu bu dünyada dağıtsan, o dünyada qozüvnan yığmalı olarsan **(S.206, T.12)**.

Əncir ağacı - uzun zaman yağış yağsaydı (Katex kəndində), qadınlardan biri əncir ağacına qırmızı parça bağlayaraq «mən bağladım, sən də bağla yağışı» - deyir. Ancaq əksinə, uzun müddət quraqlıq olanda isə yenə qadınlardan biri əncir ağacına ğoy əsgi (parça) bağlayardı **(Ə.5, s.94)**.

Ərə getməmiş qızlar, adətən kəmər taxmırdılar. Ərə gedən hər bir qızın kəməri olmalı idi. Kəmər qızlar üçün təkcə bəzək vasitəsi deyildi. Kəməri gəlin gedən vaxt gəlinin belinə bağlayırdılar. Kəməri oğlan uşağı bağlamalı idi. Kəmərdə sehrli bir gücün olduğuna hamı inanırdı.
Bu kəmərlər gümüş sikkələrlə bəzədilir, qiymətli daşlarla və naxışlarla, işləmələrlə zinətləndirilirdi. Kəmərin üzərinə mina qatı, yaxud qızıl suyu çəkilirdi. Qızıl əşyaların içərisində başqa şeylər olmaya da bilər. Lakin gümüş kəmər və gümüş üzük mütləq olmalı idi. Çünki gümüşün şər ruhları qovduğuna, insanı pis qədər – qismətdən qoruduğuna inanmışlar. Bu səbəbdəndir ki, düyməçədə, sinəbənddə, kəmərdə əsas bəzək vasitəsi gümüşdür **(Ə.5, s.65-66)**.

Gec yeriyən, gec dil açan uşaqları (Balakən rayonunun Katex kəndində dağdağanın ortasında təbii şəkildə iri bir yarıq əmələ gəlmişdir) ağacın ortasındakı yarıqdan keçirir və niyyət edirlər **(Ə.5, s.104)**.

Gecə vaxdı qayçı işlətmax, məhlə süpürmax, yerə qaynar su tökmax, paltarı adamın üsdündə tikmax olmaz **(S.206, T.12)**.

Gəlin köçəndə barmağını bala batırıb qapının üst çərçivəsinə sürtərmiş. Bununla evin içində, əri evində mehriban münasibət, şirin ünsiyyət yaranmasını təmin edərlər. Sonra isə balı oğlan uşağına yedirərmişlər. Bu yolla gəlinə ailə həyatının şirinliyini arzulayar, bal kimi ömür, şirin övlad diləyərlər **(Ə.5, s.37)**.

Hədik bişirirlərmiş. Katex kəndində hədiyin içərisinə iribuynuzlu heyvanın qurudulmuş dilini, alt çənəsi ilə birlikdə hədiyə salardılar ki, uşaq tez dil açsın, dişi tez çıxsın **(Ə.5, s.104)**.

Xalça toxunan zaman bi adam ölürsə, toxunan xalçaya bi ağ düymə tikillərki, genə ölən olmasın. Düyməni axırıncı naxışın üsdünə tikillər.

Xalça toxunuf yerə sərilləndə də habu düymə xalçanın üsdündə qalar **(S.186, T.30)**.

Xamır yoğuranda tullanarsa, qonax gələr **(S.159, T.30)**.

İlk dəfə nübar yiyəndə diyillər:
- Dişimin, başımın ağrısı məən isdəmiyənlərə getsin **(S.159, T.30)**.

İnsan əzaları haqqında inanc:
Başın adı-savabı- dövlətdi.
Qaşın adı-qələmi-qüdrətdi.
Gözün adı-nuri-Məhəmmət.
Qulaxların adı- Söyüddü cənnət,
Burunun adı-iysi-cənnət,
Dilin adı-kəlmeyi-şəhadət,
Əllərin adı dəstəmazi –sünnət,
Ayaxların adı turabı Adəm,
Vücudun nəsibi- qismət **(S.149, T.30)**.

İki - üç dəfə salavat çöyürüf düyünlənmiş sapı dilin alıtına qoyullar. Niyyətin yerinə yetişsəydi, düyün açılardı, yox əgənəm yerinə yetməzdisə, düyün açılmazmış **(S.152, T.30)**.

İpəkqurdu bəslənən yerdə - çardağın dirəyində deşikli daş asardılar. İnanardılar ki, bu deşikli daş ipəkqurdunu pis gözdən, xata - baladan qoruyacaq.

Bu daşa «baramadaşı» da deyirdilər. Bəzən gümxananın qarşısında ev heyvanının kəlləsini, yaxud ön dirəyə nal vururdular. Ağ soğan da asırdılar **(Ə.5, s.105).**

İpəkqurdları təzə çıxanda onların bir hissəsi «qırıldı», bəhanısi ilə ayırıb gözə gəlməmək üçün başqa gizli bir yerdə baxır, yemləyirdilər və həmin qurdlardan alınan baramanı satırdılar. Bu pula qoyun alıb qurban kəsirdilər **(Ə.5, s.50)**.

İynəni sapsız qoyanda iynə diyir: məni lüt qoyanı lüt olsun **(S.71, T.30)**.

Kağızı xırdalama, borcumuz çox olar **(S.159, T.30)**.

Kasanın içinə sü töküp iynə ataralar. İynə suyun ortasında dayanarsa, niyyət yerinə yetirmiş, yox dayanmırdırsa, yerinə yetməzmiş **(S.152, T.30)**.

Kəl buynuzu insanları pis gözdən qoruyan vasitəçi olur **(Ə.5, s.94).**

Köçərilər dağa köçəndə, bi də qızılgüllər açanda yağış yağır **(S.109, T.30)**.

Körpə dünyaya gələndə qapının aşağısına şiş qoyullar ki, pis gözlərə şiş batsın **(S.98, T.30)**.

Kişi papağını başuva qoysan, keçallaşarsan **(S.71, T.30)**.

Kümxanada kiminsə gözü qaldığını hiss edəndə bəd nəzəri kümxanadan qovmaq üçün mollaya dua yazdırırdılar.

Kümxanada qurdlar xəstələnsəydi; a) yanar qırmızı közü götürür, bir-bir su ilə dolu cama atır, hər közü tulladıqca son günlərdə kümxanaya gələnlərin adlarını çəkir, əgər kiminsə adı çəkiləndə köz aşağı, camın dibinə enirdisə, demək, qurdlara məhz həmin adamın gözü dəymişdi. Onda həmin közü götürüb əzir, külə döndərir və yola səpirdilər **(Ə.5, s.50)**.

Kümxanaya girən şəxs qızıl əşya, yaxud saat gətirə bilməzdi. Əğər qızıl əşya olan kimsə kümxanaya giribsə, bu, Allahın bəlası hesab olunurdu **(Ə.5, s.49)**.

Qabağına boş qabnan çıxsalar, yoldan qayıt **(S.206, T.12)**.

Qardaşı olan bacı gün batannan sora baş yumaz **(S.69, T.30)**.

Qaşıx yerə düşsə, arvat qonağı, yaba, pıçax düşsə, kişi qonağı, çay qaşığı düşsə uşax gəlcək **(S.69, T.30)**.

Qayçını ağzı açıx qoymax olmaz, düşmanuvun ağzı açılar, diyillər **(S.69, T.30)**.

Qazan ağzıüsdə dursa, arvat kişi arasında dava olar- diyillər **(S.183, T.30)**.

Qorxup gecə yatmıyana atın tükünü yandırıp tüşdüsünü verillər **(S.213, T.30)**.

Qorxunu götürmax üçün ərsini suya salıp uşağı səksəndirsən, honda qorxusu çıxar **(S.150, T.30)**.

Qırxı çıxmamış uşax evdə tək qalsa, cin gəlib honu öz uşağıynan dəgişər **(S.206, T.12)**.

Qiymətli əşyası, malı oğurlanmış şəxs elə, obaya soraq salır ki, aparılmış şey gətirilsin, yoxsa «qadax çaxaram!». Əgər ocaxda «qadax çalınsa, bu ailənin başına bədbəxtlik gələcək. Ağaca mıx vurur. O inanır ki, oğrunun ruhu o ağaca mıxlanıb və tezliklə onun bədəni də həmin cəzanı çəkəcək **(Ə.5, s.50)**.

Qurd bəslənərkən gecə vaxtı evdən od vermək, qonşu həyətindən əldə su səhəngi ilə keçib getmək günah sayılırdı; belə edəndə həmin ev sahibinin ya mal- qarası, ya da ipəkqurdları zərər çəkməli idi **(Ə.5, s.50)**.

Lalə və sarı rəngli çiçəklər də ipəkqurdu üçün «bəla gətirən» əlamət hesab edilirdi **(Ə.5, s.50)**.

Nəhrəni natəmiz, murdar yerdə saxlamaq, nəhrənin üstündən keçmək olmazdı. Yaxşı yağ çıxardan nəhrəni pis gözdən, nəpəkdən qorumaq üçün üstündən dağdağan çöpü asardılar **(Ə.5, s.69)**.

Nəvəni təzə Aya göstərib deyərdilər:
Təzə ay, səndən ayaq istərəm,
Dəmirdən dayaq istərəm.
Günəşdən mayaq istərəm.
Körpə də günnən-günə böyüyüb, aya-günə dönərdi **(T.43)**.

O dünyada bir ağac var, honun hər yarpağı bu dünyadakı bir adamdı. Yarpax düşəndə ho yarpağın yəəsi ölür **(S.206, T.12)**.

Ocağa tüpürmək günah sayılırdı **(Ə.5, s.63)**.

Ocağın murdar su ilə söndürülməsi bəd əlamət hesab olunurdu **(Ə.5, s.63)**.

Ocaxdan gecə vaxtı isdi kül tullamazdar, guya cin, şeytannarın ayağı yanar, səə xətər toxunar **(S.89, T.30)**.

Oğuzda yağış yağdırmaq üçün qurbağa öldürür, yağışı kəsmək üçün isə iki ağacı xaçvari yağışın altına qoyullar **(S.89, T.30)**.

## Leylətül-qədr

Oruc ayında Allah-Taala ən çox sevdiyi peyğəmbər Məhəmmədə bütün ağacları səcdə etdirir. O gecəyə "Leylətül-qədr" deyirlər. Həmin gecə bütün ağacların budaqları yerə dəyir. Ona görə də indi də bərk tufan olub ağacları külək sındırıb tökəndə deyirlər ki, kim Allahdan nə istəsə, yerinə yetirilir.

Ulduz göydən axanda deyirlər ki, insan ürəyindəki arzusunu bərkdən çaşmayıb deyə bilsə, arzusu yerinə yetir **(S.168; T.22)**.

Ölü basdırılan gün paltar yumazdar **(S.145, T.30)**.

Ölünü tək qoymazdar, yoxsa şeytan gəlip imanını aparar, o dünyadan imansız gedər **(S.69, T.30)**.

Övlarda qırmızı isdovut asanda göz dəyməz **(S.206, T.12)**.

Öyün qapısını axşam açıx qoyallarki, öyə bərəkət gəlsin **(S.71, T.30)**.

Palaz toxuyub qurtaranda onu hanadan ayıranda, gücü ağacı deyilən bir ağac var, onu bir nəfər at minən kimi minib sürüyə-sürüyə küçəyə çıxır. Onun qabağına arvad və ya qız çıxsa yadda tutduğu hamilə qadının qızı, kişi və ya oğlan çıxsa, oğlu olacaq **(S.23, T.12)**.

Saç kəsiləndə saçı qapının künc - bucağına dürtüllərki, yəəsinin başı ağrımasın **(S.69, T.30)**.

Sağ qulağın səs eliyəndə yaxşılığınnan, sol qulağın səs eliyəndə pisdiyinnən (sağ yanağın alışanda yaxşılığınnan, sol yanağın alışanda pisdiyinnən) danışıllar **(S.69, T.30)**.

Sarmaşıx çiçək açanda neybətdi **(S.71, T.30)**.

Sökülmüş paltarı əyində tikəndə belə deyirlər ki, (Tülü kəndində) o kəsin paltarına iynə batırılırsa, onun ruhu, bəxti bağlanar **(Ə.5)**. Oğuz variantında şərə düşər-deyirlər, ona görə də bəladan uzaq olmaq üçün paltarı tikilən kəs gərək «ağzında şap tutsun» **(S.71, T.30)**.

Süpürgəni dik qoyallarki kəraxatdıx olmasın **(S.159, T.30)**.

Şər vaxdı parça kəsməzdər **(S.159, T.30)**.

Tağda xiyarrar tökmiyəndə çərşənbə günü səhər heç kimnən danışmiyəsən, gediysən çaylağa, bir vedra qumu doldurasan, genə heç kimnən danışmıyıb gəliysən dirrigə, xiyar tağlarının üsdünə qumu xışmaynan töküysən, xiyar tökücax **(S.206, T.12)**.

Tezə uşax dünyaya gələndə nabələt (yad adam) gələndə uşağı onun üsdünə aparırıllarki, uşax çilləyə düşməsin **(S.98, T.30)**.

Təzə doğulan uşax qırxa düşməsin, bednazara gəlməsin diyənə qapının ağzına şiş qoyullar, balaca qıfıl asıllar **(S.170, T.30)**.

Təzə evə köçəndə burada ilk dəfə ocaq yandırmaq üçün odu obada yaxşı, mehriban varlı bir evdən götürməyə çalışırdılar. İnanardılarki, belə evdən, belə ocaqdan götürülən od yeni evə xoşbəxtlik gətirəcək **(Ə.5, s.63)**.

Toyuğun quyruğunu yiyəndə adam üş gün gözəl olur **(S.71, T.30)**.

Uşaqlar yazda bənövşə və sarıgül toplamağa gedəndə «Ağ daş, qara daş, mənə bir yoldaş» deyə oxuya-oxuya axtardıqlarını tapacaqlarına inanırdılar **(Ə.5, s.89)**.

Uzanmış adamın üstündən keçməyi bu gün də pis hal hesab edirlər. Güman edirlər ki, yatmış adamın üstündən keçmək ona xəstəlik və halsızlıq gətirir. Hətta uşaqlar ayağını uzadaraq oturmuş bir adamın ayağının üzərindən keçərlərsə, həmin adamı geri keçirtdirirlər ki, xətər toxunmasın **(Ə.5, s.91-92)**.

Uzax yerə gedənin dalıncax öy süpürməzdər, ho adama zərər toxunar **(S.69, T.30)**.

Yasdığın üsdünə ayax bassan, yiyəsinin başı ağrıyar **(S.206, T.12)**.

Yenicə yeriməyə, dil açmağa başlayan uşaqların paltarlarının çiyninə dağdağan ağacından bir parça tikilir, yaxud biləyinə iplə bağlanır ki, bu da uşağı pis gözdən qoruyurdu. Dağdağan olmasa, onu heyva ağacı əvəz edirdi. İnsanlar inanırdılar ki, heyva ağacı insan bədəninə daxil olan müxtəlif ruhları bədəndən çıxarıb qovur və insan əvvəlki halına qayıdır, sağlamlığına qovuşur **(Ə.5, s.93)**.

Yazda birinci dəfə sel gələndə kim honun suyunnan içsə, bütün xəsdəlikləri sağalar **(S.206, T.12)**.

Yiməh yeyəndə əldən yerə çörəh düşəndə diyillərki, söyüncüsən, ho tikəni ye (axşam düşəndə ho tikəni yiməzdər) **(S.71, T.30)**.

Zahı gəlin qırxa düşməsin diyənə qapının başına qıfıl vurullar ki, pis niyyətdi adamların dili qıfıl kimi bağlansın **(S.98, T.30)**.

Zaqatalada əvvəllər quraqlıq əkinə-biçinə zərər verəndə dağdakı Xalacı gölünə gedər, gölə çatana yaxın kürklərini çıxarıb tərs geyərdilər. Qocalar gölün qırağında namaz qılar, gətirdikləri qurbanlıq heyvanı kəsib yeyərdilər. İnanırdılar ki, bununla Allahı rəhmə gətirər, təbiət qüvvələrinə ovsunla (kürkün astarını geyməklə) təsir edə bilərlər **(Ə.5, s.59)**.

Zaqatalada və Katexdə yağışın yağması üçün kürkü tərsinə geyərək dua edər, «sadağa» verərdilər **(Ə.5, s.59)**.

Zoğal ağacının yanına gedəndə təmiz olasan gərək, honun pir kimi hörmətini saxlayasan gərək, «bismillah» iliyəsən, yoxsa ziyanı dəyər **(S.7, T.30)**.

## YUXUYOZMALAR

Adamı dərtdi görmək nisgildi **(S.74, T.30)**.
Ağ sudan keçmək yaxşılıqdı **(S.74, T.30)**.
Ağlıyan görmək ziyannıxdı **(S.140, T.30)**.
Ağaca çıxan adam görsən, honun (kimiki yuxuda görmüsən) baxdı lap yaxşı olar **(S.140, T.30)**.
Almanı hamilə arvat görsə, qızı olceh **(S.1440 T.30)**.
At – ucalıxdı **(S.206, T.12)**.
Barama görsən, bərəkətdi **(S.179, T.30)**.

Bazara getmək xeyir iş tutmaqdı **(S.179, T.30)**.

Bulannıx su pisdi. Ho tayfadan kimsə ho suya əl vursa, holardan biri vəfat eyləyər **(S.140, T.30)**.

Bulax, əgənəm hamilə arvat görsə, oğlu olceh **(S.186, T.30)**.

Camuş pisdi, əzrayıldı **(S.74, T.30)**.

Çimməh, xəstəlihdi **(S.71, T.30)**.

Çiy ət –çiy sözdü **(S.145, T.30)**.

Dana alanın işləri yaxşı gedər **(S.159, T.30)**.

Dəvə - yaxşı şeydi **(S.74, T.30)**.

Dəyirman gördükdə insanın bəxti açılar **(S.159, T.30)**.

Duru su aydınnıxdı, ho evdə yetişən uşaq varsa, honun baxdı açılar, talehi yaxşı olar, ho suda əlini-üzünü yusa, ho da yaxşıdı **(S.140, T.30)**.

Duru su- üsdünnən keçmax, nə arzun varsa düzəlceh **(S.150, T.30)**.

Duz-göz yaşıdı **(S.140, T.30)**.

Fındıx, yumurta səsdi **(S.179, T.30)**.

Heyva - ho adamın qohum-qardaşlarından kimsə sarılıx xəsdəliyinə tutulacax **(S.140, T.30)**.

İlan düşmandı **(S.98, T.30)**.

İlan əjdahadı **(S.170, T.30)**.

İlan yoldu **(S.171, T.30)**.

İlan ziyaratdı **(S.89, T.30)**.

İt – qocalıxdı **(S.206, T.12)**.

İt tutsa – düşmandı **(S.179, T.30)**.

Qoyun pisdi, qırğındı **(S.69, T.30)**.

Qoz səsdi, ağacı meyvəli ğörmək, çoxlu uşağın olceh **(S.145, T.30)**.

Ocax, od yanması-işıxdı, bərəkətdi **(S.140, T.30)**.

Od, yanğın, yumurta görəndə qurda baxan öy yəəsi bol məhsul olacağına inanırdı **(S.179, T.30)**.

Odda yanmax- təhlükədi **(S.179, T.30)**.

Ölüynən görüşüp- öpüşmək bedbaxçılıxdı **(S.71, T.30)**.

Olü (pis ölü), bedbaxtçılıqdı **(S.71, T.30)**.

Övün yanması pisdi **(S.140, T.30)**.

Palaz - yol getməkdi **(S.28, T.30)**.

Palçığa düşmək - pisdi, qorxuludu **(S.173, T.30)**.

Paltar geymək, darrıxdı **(S.71, T.30)**.

Papax- hamilə arvat geysə, oğlu olceh **(S.206, T.12)**.

Pəncərədən keçib qayıtsov, anan öləcək **(S.206, T.12)**.

Pul, qoz- səsdi **(S.145, T.30)**.

Saç- uzun yol, saçı kəsməh yolu qısaltmaxdı **(S.71, T.30)**.
Sudan keçməh badbaxçılıqdı **(S.159, T.30)**.
Surfa bolluxdu **(S.140, T.30)**.
Şəkər – aydınnıxdı **(S.140, T.30)**.
Şirin şeylər yaxşıdı **(S.74, T.30)**.
Təndir- qaburdu **(S.206, T.12)**.
Toyda oynamax pisdi – yasdı **(S.152, T.30)**.
Tut - qar yağmaxdı **(S.152, T.30)**.
Uçan görsə- baxdı yaxşı olar **(S.140, T.30)**.
Uçmax-ömrü uzatmaxdı **(S.206, T.120)**.
Üzük-nişan taxmaxdı **(S.179, T.30)**.
Yaşıl bağ- yaxşıdı **(S.179, T.30)**.
Yaylıx- ayrılıxdı **(S.145, T.30)**.
Yaylıx- yaxşıdı **(S.150, T.30)**.
Yığnax- yasdı **(S.202, T.30)**.
Yuxuda məhləni supurmax pisdi **(S.140, T.30)**.
Yuxuda pis ölü görəndə soğan, kömür, bi loxma da çörək dala baxmayıb atıllar ki, bedbaxlıx olmasın **(S.71, T.30)**.
Yuxuda yumurta qeybətdi, kimsə sənin haqqında danışır **(S.140, T.30)**.

## BEDNAZAR

Məhəmməd Əleyhüssəlamdan bir ifritə qarının xoşu gəlmirmiş. Ho xeylax fikirrəşir, gecəni günüzə, dağı arana qatıp bir bednazara diyir:

- Məəm Məhəmməd peyğəmbərdən xoşum gəlmir. Ona nəzər elə.

Bednazarın da gözü daşa dəysəydi, daş parça-parça olarmış.

Günnərin bi günüsü peyğəmbər meçitdə vəz eliyəndə bednazar hona dikəlip baxır, nəzər kəsilir. Ho sahat peyğəmbəri üşütmə tutur, duva oxuya-oxuya dal-dalı gedir, divara dirənir. Ho vaxdan peyğəmbərdə üşütmə qalır.

Soradan peyğəmbərin dal-dalı çəkildiyi yeri ömürrük saxlamaq üçün divara yer düzəldillər.

Ho vaxdan meçitdərdə «mehrab» tikillərki, əfəndilər, mollalar özdərini peyğəmbərə oxşatmax üçün hora söykənsinnər **(T.43)**.

***

Birisi üzüm isdiyirmiş. Ağaca-zada da çıxa bilmirmiş.

Üzümə baxır, baxır. Biddən yadına düşür: «Axı, mən bunu bacarıram. Hi! - iliyən kimi bi salxım üzüm düşür üsdünə.

Gözə bax ha!
O birisi baxır, baxır, gözü daşı parçalayır.
Birisi də diyirki, gözə bax ey, daşı parçalayır. Pay, atonnan! Göz olarmış.
Bu sözü eşidən kimi kişinin gözü çıxıp düşür oycuna **(S.109, T.30)**.

***

Günnərin bi günüsü atın belində keçirdim. Qayim kişi diyən bi dənə bednazar vardı. Gözü daş dələrdi. Məni görüp didi ki, bax, əsil ləzgi belə olar, ha!
Bu sözü diyən kimi atın başınnan xəndəyə düşdüm **(S.158, T.30)**.

## ALQIŞLAR

Ağır yatıf, yüngül durannardan olasan **(S.28, T.30)**.
Bağdadda xurma yiyəsən **(S.136, T.32)**.
Bir qoyub, min götürəsən **(S.136, T.32)**.
Boyun uzansın, kürəyin ennənsin **(S.140, T.30)**.
Cənnət xələti giyəsən **(S.136, T.32)**.
Cənnət qapıları üzünə açıq olsun **(S.107, T.12)**.
Çırağın başa kimi yansın **(S.107, T.12)**.
Çörəyinin duzu olsun **(S.140, T.30)**.
Elədiyin yaxşılıqlar qabağuva gəlsin **(S.23, T.12)**.
Əziyyətinə Allah cavab yazsın **(S.203, T.4)**.
Günün yağlı olsun **(S.75, T.12)**.
Gülər üznən, dadlı söznən uğraşasan **(S.135, T.12)**.
Hamısı səni görəsi olsun **(S.140, T.30)**.
Xeyrə calanasan **(S.135, T.12)**.
İstədiyin adama çörək verib, süfrə açasan **(S.208, T.12)**.
İşuv quleyli olsun **(S.206, T.12)**.
Kişi olub kişilərə qoşulsun **(S.135, T.12)**.
Odana nur çilənsin **(S.135, T.12)**.
Oğlan düşmən toxmağıdı, dədələri, nənələri ilə birgə alqış yiyəsi olsun **(S.135, T.12)**.
Pis günün belə bolluqda keçsin **(S.23, T.12)**.
Sağ canınnan xeyir görəsən **(S.75, T.12)**.
Sarı Pir saa köməy olsun **(S.194, T.33)**.
Səni görüm qohum - qardaşa güvənəsən **(S.76, T.12)**.
Səni görüm yeddi oğulla bir surfuya əl uzadasan **(S.77, T.30)**.
Şirnisi yeyilsin **(S.135, T.12)**.

Ya rəbbi, qonşunu abadannıx eləginən, öləndə soruşullar ki, atan, anan kimdi, yaxın qoşu **(S.77, T.30)**.

Yaşın yüzü haxlasın **(S.203, T.12)**.

## QARĞIŞLAR

Adın yeddi yerə qoyulsun **(S.135, T.12)**.
Ağzın buzlasın **(S.135, T.12)**.
Ağzın qulağının dibinə getsin **(S.159, T.30)**.
Ağzına pambıq qoyulsun **(S.159, T.30)**.
Aduv yoşünsün **(S.137, T.12)**.
Adun dəfdərdən silinsin **(S.107, T.12)**.
Al duvağın qaraya boyansın **(S.137, T.12)**.
Allah layuğuvu versin **(S.67, T.30)**.
Allahın barmaqları yoxuyduki, gözuva soxsun, gözun çıxsın **(S.107, T.12)**.
Ata minən itə dönsün **(S.69, T.30)**.
Atdan düşəsən, atın büdrəsin, iyarın dönsün **(S.137, T.12)**.
Bay olmuyasan **(S.107, T.12)**.
Başın böyüsün **(S.195, T.30)**.
Başuu bosdan çəpərinə qoyum, bosdana göz dəyməsin **(S.195, T.30)**.
Binəsi batsın **(S.137, T.12)**.
Binəsində seyir-seyir cincar əssin **(S.137, T.12)**.
Boynun buruq qalsın **(S.107, T.12)**.
Boyuvu yerə soxum, çaydan o tərəfdə **(S.195, T.30)**.
Boğazına boğma çıxsın **(S.107, T.12)**.
Boğazına xora çıxsın **(S.137, T.12)**.
Burjununnan budanasan **(S.10, T.30)**.
Böyuva Varxiyan qamışı ölçüm **(S.206, T.12)**.
Böyürə - böyürə qalasan **(S.107, T.12)**.
Canınnan yanasan **(S.137, T.12)**.
Ciyərua ərsin dağı çəkilsin **(S.208, T.12)**.
Çarxın çöyrülsün **(S.24, T.12)**.
Çatdıyıb öləsən **(S.24, T.12)**.
Çənəə çüyü düşsün **(S.195, T.30)**.
Dalağın şişsin **(S.107, T.12)**.
Doqqazın bağlı qalsın **(S.136, T.12)**.
Dəli olub çöllərə düşəsən **(S.123, T.12)**.
Dəfdəruu dalıma atım **(S.195, T.30)**.
Əlin su bardağında, dilin çörəkdə qalsın **(S.67, T.30)**.

Əllərua pambıx qoyum **(S.137, T.12)**.
Ərkək qoz olasan **(S.195, T.30)**.
Gedər - gəlməzə gedəsən **(S.137, T.12)**.
Göbələk ömrü yaşayasan **(S.107, T.12)**.
Gözün qapıda qalsın, gələnin olmasın **(S.77, T.30)**.
Gözua qara su gəlsin **(S.107, T.12)**.
Göy əskiyə büküm **(S.195, T.30)**.
Göydən əlləruv üzülsün, yerdən ayaqların, daşın üstə qalasan **(S.137, T.12)**.
Görüm səni əldə, ayaxda qalasan **(S.75, T.12)**.
Heç kəsin gəlmiyəcəyi ölümün olsun **(S.24, T.12)**.
Xaşqalam yiyəsən **(S.137, T.12)**.
Xınan cüyüd olsun, boğçan bağlı **(S.136, T.12)**.
Kor olasan əzzizlərini görmək üçün, kar olasan isdəklilərinin səsini eşitmək üçün, tamarzu qalasan **(S.77, T.30)**.
Kor, topal olasan **(S.107, T.12)**.
Kümən qaralsın **(S.195, T.30)**.
Kündən küt düşsün **(S.195, T.30)**.
Köküüz kələnsin **(S.195, T.30)**.
Qayalara suvanasan **(S.137, T.12)**.
Qanına bələnib gələsən **(S.137, T.12)**.
Qapıdan girip pəncərədən çıxasan **(S.67, T.30)**.
Qapın qaralsın **(S.67, T.30)**.
Qapını özgələr açıb örtsün **(S.75, T.12)**.
Qapının üsdə yuyulasan **(S.136, T.12)**.
Qara pərdələr asılsın **(S.137, T.12)**.
Qara torpağın alıtına gedəsən **(S.137, T.12)**.
Qaraya batasan **(S.137, T.12)**.
Qayalara suvaşasan **(S.137, T.12)**.
Qulağına yuyucu barmağı girsin **(S.107, T.12)**.
Qurd kimi ac olasan **(S.135 T.12)**.
Qırıntıya düşəsən **(S.137, T.12)**.
Qışda yorğansız, yayda ayransız qalasan **(S.137, T.12)**.
Qərinəsi batsın **(S.137, T.12)**.
Qələmində gedəsən **(S.137, T.12)**.
Malın mirəs qalsın **(S.69, T.30)**.
Mağarın yanmasın, xonçan qurulmasın **(S.208, T.12)**.
Məni vıran əlin, qolun qurusun **(S.208, T.12)**.
Mənə eliyəni Allah vursun, mənə eliyəsinə də Allah çatsın, məni

vurasını da Allah vursun **(S.179, T.30)**.

Nə öləsən, nə diriləsən, nə dosd köməyə gəlsin, nə düşmən iliyuu vursun. Ömrün olduxca zülüm çəkəsən **(S.179, T.30)**.

Od olub tüstün ərşə çıxsın **(S.123, T.12)**.

Odun, ocağın qaralsın **(S.103, T.30)**.

Ölümün it ölümü olsun **(S.23, T.12)**.

Öləndə dilin «lailahaillallah» tutmasın **(S.24, T.5)**.

Öpgan bişsin **(S.159, T.30)**.

Piltə-piltə olasan **(S.69, T.30)**.

Saha toy mağarı qayrılmasın **(S.186, T.30)**.

Saralıb muma dönəsən **(S.200, T.48)**.

Saçın biləgünə bağlansın **(S.209, T.12)**.

Sağ canın sayil olsun **(S.136, T.12)**.

Sümüyün sınsın **(S.107, T.12)**.

Səni itirim, boş oturum **(S.195, T.30)**.

Səni görüm bəy oturmayasan **(S.208, T.10)**.

Səni görüm güvənməyəsən **(S.136, T.32)**.

Səni öldürənin kösövü qaralsın **(S.48, T.43)**.

Səsin ərşə gəlsin **(S.135, T.12)**.

Səən heç gora sağ baş aparma **(S.159, T.30)**.

Səən üreyin məəm üreyimnən su işsin **(S.159, T.30)**.

Səən göbəyin partdasın **(S.159, T.30)**.

Şaxuu bəzəyim **(S.69, T.30)**.

Şaxın qara bəzənsin **(S.69, T.30)**.

Şiklün şərdə qalsın **(S.159, T.30)**.

Şilpim olasan **(S.135, T.12)**.

Torpax qoyum başına **(S.75, T.12)**.

Təponnan vurulasan **(S.114, T.30)**.

Umacın dağılıf aşa qismət olmasın **(S.69, T.30)**.

Urux-turuğun qırılsın **(S.69, T.30)**.

Üzua qara torpax qoyum **(S.137, T.12)**.

Üstünü uşaq batırmasın **(S.136, T.12)**.

Ya rəbbim, kim mənim əziyyətimi itiripsə, huna çəkdiyim əziyyət hunun qabağına gəlsin, pis iləmişəm, pis gəlsin, yaxşı iləmişəm, yaxşı, ölməsin ölməyə nə varki? **(S.77, T.30)**

Yanın yerdə, gözün qapıda qalsın **(S.123, T.12)**.

Yeddi qıznan bir dərədə qal **(S.159, T.30)**.

Yeddi molla gəlincə meyidin yerdə qalsın **(S.136, T.12)**.

Yediyin irinə dönsün **(S.136, T.12)**.

Yer paltarı olasan **(S.136, T.12)**.
Yerdə yerin yansın, göydə göyün **(S.136, T.12)**.
Yurdun qanqallıq olsun **(S.24, T.12)**.
Yurdun tikanlı olsun **(S.23, T.12)**.
Yurdunda cincar-gandalaş bitsin **(S.23, T.12)**.
Zatın kəsilsin **(S.107, T.12)**.

## CEYRANIN OVÇUYA QARĞIŞI

Atdın dəydi gözünə,
Qan töküldü topuğuna, dizinə.
Qayıtdı baxdı balasının üzünə.
Gəl, ay ovçu, gələn yolun burulsun.
Məni vuran əlin, qolun qurusun!
Qəssab olub maral əti satmayasan!
Qəssab olub bu dünyada cismcə artmayasan! **(S.69, T.30)**

# MÖVSÜM VƏ MƏRASİM NƏĞMƏLƏRİ

## ƏMƏK NƏĞMƏLƏRİ
## (HOLAVAR VƏ SAYAÇI SÖZLƏRİ)

Qara kəl, ilin barı,
De dərdin bilim barı.
Məni mağmun eləmə,
Açılsın dilim barı **(T.43)**.

Qoyun var, kərə gəzər,
Qoyun var, bərə gəzər.
Gidib dağları gəzər
Gəlib övləri bəzər **(T.43)**.

Di bayrama nə qaldı,
Bir əllicə gün qaldı.
Əlli günu gəl bir say
Qurbannıx qoyun qaldı **(S.76, T.12)**.

Qoşa qulax qoyunum,
Südü bulax qoyunum.
Əti, sütü verməsən
Hardan alax, qoyunum **(T.43)**.

## İMƏCİ NƏĞMƏLƏRİ

Çay daşı, çaylax daşı,
Çaylağın xırda daşı.
Getmişdim iməciyə... **(Ə.5. s.30)**

İpim, ipim, ip olsun,
İpim tərlan quş olsun.
Hürü qızdar içində
Divlər iləcin olsun **(S.59, T.30)**.

Ay desənə, desənə,
Soyub limon yesənə.

Mən bir cüt hayla deyim
Sən birini desənə **(Ə.5, s.30)**.

Ay deyərəm, deyərəm,
Soyub limon yeyərəm.
Sən bir  cüt hayla desən
Mən beşini deyərəm **(Ə.5, s.30)**.

...Ay nazik bədən,
Ayrı  qaldım səndən.
De, nədən? Nədən? .. **(Ə.5, s.30)**

## NEHRƏ NƏĞMƏSİ

Nehrəm ol, nehrəm ol, nehrəm ol.
Tez ol, tez ol, tez ol.
Evimə qonax gəlifdi, gəlifdi.
Aşı yavan qalıfdı.
At başınca yağ ol, yağ ol,
Göz yaşınca ayran ol, ayran ol.
Çalxa, çalxa, yağ olsun,
Gəlnin üzü ağ olsun.
Gəlin gəldi sallandı,
Bəy gələndə allandı.
Dimmə, dimmə dilbağa,
Dinənnən olmaz ağa.
Dilin dərdin əlacı,
Dillən bir az, ay bacı.
Taqətimiz üzüldü,
Dinən dodaq büzüldü,
Dinən dodaqlar gülsün
Dərd - qəmimiz üzülsün **(S.113, T.43)**.

## DOĞUM MƏRASİMİ İLƏ BAĞLI NƏĞMƏ

Bu mərasimdə 4-5 nəfər iştirak edir. Uşağı  tutanlardan biri oxuyur, o birilər xorla «lailahə illəllah» deyirlər.

Hacılar haca gedər,
Əhd edər, gecə gedər.
Bir yumurta içində
Qırx - əlli cücə gedər.
Lailahə - illəllah, lailahə - illəllah.

Hacıların hamıynan,
Şirinlər əsaynan,
Dörd mənsəbdi, dörd məqam
Hər məqamda bir imam.
Lailahə - illəllah, lailaha - illəllah.

Kəbənin dörd tərəfi,
Qara örtükdü tamam.
Layla deyib düşdük yola,
Yolda halım necə ola
Nur ilə qəbrim dola.
Lailahə - illəllah, lailahə - illəllah.

Məhəmməd anadan oldu,
Nur göydən düşdü doldu.
Yüz min kafər dinə gəldi.
Lailahə - illəllah, lailahə - illəllah.

Məhəmməd anadan düşdü
Huri qızlarla görüşdü.
Yüz min kitab ələ keçdi.
Lailahə - illəllah, lailahə – illəllah.

Ərşdən bir qapı açıldı,
Yaxşı ilə yaman seçildi.
Dünyaya nur saçıldı.
Məhəmməd olan gecə.
Möminə  xələt biçildi.
Lailahə - illəllah, lailahə – illəllah **(S.23, T.12)**.

## YAĞIŞ YAĞDIRMAQ MƏQSƏDİLƏ KEÇİRİLƏN MƏRASİM

### Lailah gəzmək

Yay fəsli gəlip hər tərəf yanıp quruyan vaxtdı adamlarımız müxtəlif ayinlər icra edərdilər. Sadağa, nəzir-niyaz paylanar, sulu, südlü ərişdə bişirərdilər (Hər evdən bir şey, un, süd, duz və s. gətirməklə). Belə vaxtlarda kəndin oğlanları «Lailah» gəzərdilər. Oyun belə təşkil olunardı.

14-18 yaşlı oğlanlar bir qucax gəndalaş (talalılar ona  əngili deyirlər) qırıb gətirirdilər. Sonra gəndalaşın yoğun hissəsini bir yerdə möh-

kəm bağlayırlar. Oğlanlardan biri üst paltarını soyunub həmin bağlamanın içinə girir. Qalan oğlanlar da onu evbəev gəzdirib xorla ucadan oxuyardılar:

La – ilahə – illallah,
Yağış yağsın, ya allah.
Bolluq olsun, ya allah.

Adamlar bu səsi uzaqdan eşidər və yekə bir qabda, səhəngdə, cürdəkdə (saxsıdan su qabıdır), su hazırlayıb gözləyərdilər. Dəsdə gəlip qapıya çatanda suyu gəndalaşın içindəki oğlanın üstünə əndərib deyəllər:

- Aman, ya allah! Bax, belə yağış yağsın, bolluq olsun! Sora da imkanına görə konfetdən, kaletdən (peçenye) və s. şirniyyatdan pay verərdilər **(T.12)**.

## QODU-QODU

Şəkidə qodu-qodu oyununu yağışlı günlərdə oynayırlar. Belə hesab edilir ki, qodu-qodu gəzəndə yağış kəsilir.

Adətən, bu oyunu uzun sürən yağışlar yağanda oynayırlar. Uşaqlar müqəvva düzəldib, onu əllərində gəzdirə-gəzdirə müxtəlif evlərə gedirlər. Uşaqlar qodu-qodu gəzəndə aşağıdakı nəğmələri avazla oxuyurlar:

Bulut get - gün gəl,
Bulut get - gün gəl.
Keçəl qızı evdə qoy,
Nazlı qızı götür, gəl.
Qodu-qodu dursana,
Çömçəni doldursana.
Qoduya durub baxsana,
Qodunu yola salsana.
Qodu batdı palçığa,
Qarmaladım, çıxartdım.
Qızıl qaya içindən
Qırmızı gün çıxartdım.

Ev sahibi uşaqların qabağına tez çıxmırdısa, belə bir nəğmə oxuyardılar:

Verənin oğlu olsun,
Verməyənin qızı olsun.
Adı Fatma, qaşları çatma,
O da çatdasın ölsün.

Ev sahibləri uşaqların qabağına çıxıb onların çömçəsinə qənddən, yumurtadan, şirnidən, düyüdən bir şey qoyardılar. Beləliklə uşaqlar

qapı-qapı gəzərdi.

Əgər uşaqların qabağına çıxıb, onlara pay verməyən olardısa uşaqlar:

Qara çətir,
Qapıda yatır.
Əl vurmayın
Şıllaq atır

- nəğməsini oxuyub başqa qapıya gedərdilər. Nəhayət, uşaqlar yığdıqları payları bir evə gətirərdilər. Ev sahibəsi uşaqlar fərəhlənsin deyə onların gətirdikləri payların üstünə evdən də nə isə əlavə edib, uşaqlar üçün bir yemək hazırlayıb onları sevindirərdilər. Bəzən də yığdıqları payları bölüb, hər uşaq öz evinə gedərdi. Qodu - qodudan sonra gün çıxan vaxtlar da olub. Günün çıxması gələcək qodu-qodu oynamağa marağı artırardı **(S.118, T.47)**.

## YAZIN GƏLİŞİ İLƏ BAĞLI İNANCLAR, DEYİMLƏR

Birinci çərşənbədə hava-havaya ənir. Yəni havalar isdiləşir.

İkinci çərşənbədə hava suya ənir. Yəni suyu isdiləşdirir, çayların buzu əriyir, sular artır, çay və göllər daha buz bağlamır.

Üçüncü çərşənbədə hava yerə ənir. Torpağı isidir, torpağın canına isdi keçir, daha dommur. Ho vaxdan dağlarda, marxallarda qar uçqunu başlayır.

Əsasən, üçüncü çərşənbədə səməni qoyulardı.

Dördüncü çərşənbədə - hava ağaca ənir. Ağaclar, otlar göyərir **(S.195, T.30)**.

## ÇİLLƏLƏR

Birinci – böyük çillə-dekabrın 22-dən fevralın 1-nə qədər – 40 gün davam edir.

Balaca çillə – 20 gün davam edir. Çillə – beçə – 10 gün – fevralın 20- dən martın 2-dək davam edir.

Martın 2-dən 7-dək – Xora veçə – (ikinci çərşənbə) davam edir.

Bərdəcüz (üçüncü çərşənbə) - martın 12-dək -5 gün davam edir.

............. (dördüncü çərşənbə) 3 gün davam edir **(S.1950, T.30)**.

***

Kiçik çillə böyük çilləyə deyir:

- Səən ömrün məndə olsaydı, insanları baca yuxarı dırmaşdırardım, atdara qulun tullatdırardım **(S.195, T.30)**.

***

Diyillər ki, ərik, şafdalı çiçəkliyəndə, gecə-günüz bərabərləşir **(S.195, T.30)**.

***

Bi günüsü zoğal çiçəkliyəndə şeytan gəlip hoon dibində yatıf, yuxuluyuf qalır. Avqustun axırı, sentyabrın əvvəli ayılıf görürkü hamısı meyvələr dəyif kutarıf, zoğal da yavaş-yavaş qızarır.

Guya zoğalı yiyif kutarcax, insannara qalmıycax.

Zoğal tez çiçəkliyir diyənə heylə bilirki tez çatır **(S.195, T.30)**.

***

Aprel-may aylarında qızılgüllər açan vax, sifdə yaz yağışı yağanda şimşək çaxar, quzuqarnı bitər. Uşaxlar da quzuqarnını yığallarmış. Oxuya-oxuya:

- Quzuqarnı, dombalan, çıx!
Dombalmasan, qızar, çıx! -

diyə - diyə oxuyarlarmış **(S.195, T.30)**.

## ORUCLUQ BAYRAMI

Bizdə, əsasən iki dini bayram keçirilir. Orucluqla Qurban bayramı. Bunların arasında 70 qun vaxt var. Əvvəl Orucluq bayramı gəliy. Bayrama 30 qun qalmış oruclux ayı başdiyir. Adamlar 30 qün - hər qün oruc tutiy. Həmin ayda hamı bir-birinə çurək payliyi. Yəni bir övdə 30 çurek bişirilir, 30 övə paylaniy. Bayramın əvvəl qünü uşaxlar qohum-qoşunu gəzip yumurta yığıylər. Sonra oxuyillər:

Həsərəm, hüsərəm,
Yumurta vermiyəndən küsərəm.
Yumurta verənə oğlan olsun,
Vermiyənə qız olsun,
Adı da Fatma olsun,
Qaşdarı çatma olsun.
Baxtı da qara olsun.

Öv sahibi çıxıb uşaxlara yumurta veriy. Axşam analar uşaxları yığan yumurtaları soğan qabığı tökülmüş suda bişirir, olur qırmızı. Səhərisi bütün uşaxlar, cavannar başdiyirlər bayram gəzmağa. Bütün qohum-qonşuya gidib bayramı təbrik edir, əvəzində çay-çörək yiyillər. Həmin qun bütün övlər aş bişirir.

Diyillər ki, orucluq başdiyan qun cənnətin qapıları açıliy. Ölənlərin

ruhları bayram qünü övlərinə qayıtıy. 70 qün sonra Qurban bayramı gəliy. Bayram qünü qün çıxmamışdən qurban (qoyun və ya mal, üç illik mal da 7 qurban payı olur) kəsiliy. Ən azı 7 övə paylaniy. Qurbannıx mal övün 15 yişdən yuxarı bütün üzvlərinin adına kəsilə bilər **(S.206, T.12)**.

Oruca bir gün qalmış müddət «ərapa» («ərəfə») günü adlanır. Hamı bayram süfrəsi hazırlayır. Günortadan sonra məscidə gedilir, ölülər yad edilir, «qulpu çıxarılır».

Oruc başlayan gündən oruc tutanlar, orucu açıb namaza «təlbeh namazı» na məscidə gedirlər. Qurandan ayələr oxunur. Nəsihətli söhbətlər aparılır, «zikr çalınır». Sonra hər kəs əlində, cibində gətirdiyi şirniyyatı paylayır, dağılıb evə gedir. Evdə qadınlar, uşaqlar oruc tutan ata – babalarına «hörmət etməyə» - ona oruc açacaq vaxtda sevdiyi yeməyi, meyvə və çərəzi hazırlamağa, xoş rəftar etməyə çalışırdılar. Bununla oruc tutana göstərilən ehtiram sayəsində özünə də «savab» çatacağına inanılır.

Oruc qurtaran günün ertəsi «oruc bayramı» daha haylı-küylü, daha sevincli olurdu. Hər kəs bir-birini təbrik edir: «Bayramın mübarək» deyir, «mübarək bayramın olsun» cavabını alır. Bayram namazından sonra sakinlər kəndə çıxır, doğmaları, qonşuları təbrik edir, bayramlaşmağa azı yeddi evə gedirlər. Hər evdə səhərdən şirniyyat və ləziz yeməklərlə bəzəldilmiş süfrə hazır olur. Təamlardan dadıb, «orucun qəbul olsun» deyib, dua edib başqa evə keçərlər. Hətta dərdi-səri olanlar da bu bayramda nikbin, gümrah görünürlər **(Ə.5, s.26)**.

## QURBAN BAYRAMI

1920-ci ildə doğulmuş, Katex kənd sakini Əsəb Kərim oğlu Kərimovun verdiyi məlumata görə qurban bayramından əvvəlki gecə «yığnaq» olurdu. Hərə öz evindən bacardığını gətirib bir evdə səhərə qədər damburla çalıb oxuyar, Yunus Əmrənin «ilahilər» indən deyərdilər. Yığnaq gecəsi yatanı oturduğu döşəyə qalın sapla tikirdilər, üz-gözünü kömürlə qaralayırdılar. Bu səbəbdən hamı çalışırdı ki, yatmasın. Mürgüləyəni isə «cəzalandıraraq» gecə qonşunun «alma lignisi»ndən azı bir pud alma gətirməyə göndərirdilər. Əvvəllər çox gözəl alma olardı və almanı saxlamaq üçün altına və üstünə «çadı» döşənən talvar: alma çardağı düzəldərdilər.

Əksər hallarda «yığnaq» lar tək-tək obalarda, bəzən isə bir neçə oba bir yerdə təşkil olunurdu və sübhədək davam edirdi. Bayram namazından sonra qurban kəsilirdi və indi də belədir. Adətən 3-cü qurban görən mal kəsilər və əti 7 yerə bölünərdi. Möminliyi və din-

darlığı ilə seçilən Balakən, Zaqatala camaatı gedib meşədə qurban kəsərdilər **(Ə.5, s.25)**.

(Oğuzda qurban bayramında qara qoç kəsilərmiş –**(S.195; T.30)**.

## MÖVLUD MƏRASİMİ

Balakən, Zaqatala, Qax bölgəsində dini mərasimlərdən xüsusi özəlliyi ilə seçiləni mövlud məclisləridir.

Balakən, Zaqatala ərazisində elə bir ailə, elə bir nəsil olmaz ki, mövlud məclisi keçirməmiş olsun.

Yunis İmrədən "İlahilər" oxunur. Sonra mövlud duası oxunur.

Məclis iştirakçılarına şərbət gətirilir. Şərbəti süd və şəkərlə, yaxud balla, bəzən adi suya şəkər qatmaqla hazırlayırlar. İnarırlar ki, içilən şərbət cənnətdəki abi-kövsər kimi, zəm-zəm suyu kimi müqəddəsdir. Duadan sonra ev sahibi əl yumaq üçün su gətirir, süfrə açır, halva ilə çay, sonra isə yemək gətirir. Bu bölgənin sevimli yeməyi olan çığırtma, qabaqlı-lobyalı aş (plov), yaxud kənarları naxışla eşilən xəngəl bişirilir. Burada yeyilib-içilənlər Allah yolunda verilən sadağa hesab olunur **(Ə.5, s.25)**.

## TOY ADƏT - ƏNƏNƏLƏRİ, NƏĞMƏLƏRİ

Qız bəyənməyə gedən oğlan qızgilin öyünün yanında bitən qoz ağacına çıxıf qıza göz qoyarmış **(S.170, T.30)**.

***

Sifdədən atası, anası, qızın özü də yaxşıca tanınan öylərə «görücü» gedərmiş. «Görücü» qıza tapşırıx verərəmiş. Tabaxdakı suyu yerə dağıtmıyıf aftafaya tökə bilsə, honnan öy arvadı çıxarmış. «Görücü» qızın tərbiyəsi ilə də maraxlanardı. Helə habuna görə də «Kərzəyinə bax, bezini al, anasına bax, qızını - diyirdilər» **(S.10, T.30)**.

***

Qız öyünnən gələn «görücü» oğlan öyünə qız öyündə gördüyünü söylüyür. Xeylax sora qıza elçi gedillər. Sifdə razı olmurlar. Oduki qapının ağzını yağır eliyillər. Oğlan öyünnən qız öyü qabax – qabağa duruf diyişillər.

**Oğlan övü:**
Dəmirçi dəmir ilə,
İşdiyir kömür ilə,
Biz sizdən qız isdırıx,
Allahın əmri ilə,
Salam meleyk, sallıca.

**Qız övü**
Dəmirçi dəmir ilə,
İşdiyir kömür ilə.
Biz sizə qız vermirik,
Allahın əmri ilə,
Salam məleyk, sallıca.

**Oğlan övü:**
Əmir dayını gətirax,
Öy yanına oturax,
Sizi borca batırax,
Əmisi qızı, verin qızı.
Şəmsi qızı, verin qızı.

**Qız övü:**
Ha yeri, hamam yeri,
Sən boyda saman yeri,
Qızılgül xırmanınnan,
Tap meşin xarə.

**Qız övü:**
Sular səvuxdu, nənəcan,
Hamamlar çoxdu, nənəcan,
Hamama getmax isdiram,
Başmağım yoxdu, nənəcan.

**Oğlan övü:**
Nənöv sağa qurban olsun,
Nə yalvariysən nənövə,
Oğlan gidipdi bazara,
Başmax alıp qöndərcax,
Yengəyə verip göndərcax.
Alma almağa gəlmişıx.
Oğlan adamıyıx,
Aparmağa gəlmişıx **(S.206, T.12)**.

***

Habu vax, qızı verməsələr, qaçırdardılar.
Toylarda oxunan «Qız qaçırtma», burada yerinə duşur.

Oğlan öyüynən qız öyünün adamları iki dəsdə ayrılır. Oğlan adamları «Yallı» ya oxşuyan hərəkətdərnən oynuya-oynuya oxuyullar.

- A quda, quda, can quda,
Canım, ciyərim quda.
Elçin var olsun, quda.
Nazpəriyə gəlmişəm,
Qızpəriyə gəlmişəm.
Ho qızı bizdən eyləmə,
Tumanı dizdən eyləmə.

Habunnan sora üş dəfə qız öyünə gəlillər.

Sifdə:
**Oğlan adamı:**
-Can-can, bacı,

**Qız adamı:**
-Şirin can, bacı.

**Oğlan adamı:**
Ho qızı bizdən eyləmə,
Tumanı dizdən eyləmə.

**Qız adamı:**
Atası, anası öydə yoxdu.

**Oğlan adamı:**
Cəhənnəmə ver, gora ver,
Ayrana ver, şora ver.
Oğlan öyününadamları dala qayıdır.

**İkinci dəfə:**
**Oğlan adamı:**
-Can- can, bacı.
**Qız adamı:**
-Şirin can, bacı.

**Oğlan adamı:**
-Ho qızı bizdən eyləmə,
Tumanı dizdən eyləmə.

**Qız adamı:**
-Əmisi, qardaşı öydə yoxdu.

**Oğlan adamı:**
-Cəhənnəmə ver, gora ver.
İt kütünnən paylı quda.

**Üçüncü dəfə:**
**Oğlan adamı:**
-Can-can, bacı.

**Qız adamı:**
-Şirin can, bacı.

**Oğlan adamı:**
Ho qızı bizdən eyləmə,
Tumanı dizdən eyləmə.

**Qız adamı:**
Bizdən sizə qız yoxdu **(S.96, T.30)**.

***

Habu vaxt oğlan öyünnən qız öyü adamları arasında dava-dalaş başdıyır. Qızı zornan qaçırdıllar.

Razılıx olanda toya hazırlıx olardı.

Daşalda qız toyu olmazdı. Ağızda lili çalınardı. Tabax çalıf oynuyırdılar. Daşalda Kor dərəyə yirmiyə yaxın atdı mənzil armuduna qədər çapbalıydılar **(S.38, T.30)**.

Qumlaxda «Ysdən aşırma» oynuyurdular. Kişilər arvat paltarını giyif oynuyurdular.
«Turullayı»nı qarmonnan oynuyardılar. Habu oyunu arvatdar oynuyardılar. Əl çala-çala yuxarıya atıla-atıla oynuyardılar. Nağara, zurnaynan «Daşbulağı, qozağacı» havasını da oynuyardılar **(S.195, T.30)**.

Dağlara qar yağıfdı,
Yumul, bənöyşəm, yumul.
Dağlara gün çıxıfdı,
Açıl, bənöyşəm, açıl **(S.114, T.30)**.

***

Habu mahnını oxuyanda bədəni əsdirə-əsdirə ayağa qalxardılar.
Sifdə «xınayaxdı» olardı. «Xınayaxdı»da sufra salınardı. Oturan adamların qabağına mis sini, şümşat qaşıxlar qoyardılar...
Qızın əlinə xına yaxardılar. Mahnı oxuyardılar:

Yaruvu sevəsən on dörd yeşinnən,
Gözdüyəsən onnan saha yar olsun.
Oturuf - duranda qədruu bilsin.
Alçaxdan danışıf, alçaxdan gülsün **(S.10, T.30)**.

***

Xınayaxdının axırında paltar kəsilərdi. Qıza xonçada parça, paltar, işlənməmiş iynə, sap, qayçı və ayrı tikiş şeyləri gətirilərdi.
Qızı gəlin köçməyə hazırlayardılar. Varrı aylədə əyninə qanoozdan bafdalı tuman, zəxaradan köynək giydirərdilər. Köynəyin yaxasında qızıl düymələr olardı. Köynəyin üsdünnən labada giydirərdilər. Honun da düymələri qızıl olardı. Başına tül salınardı. Tülün qabağında qızıl qarmaxlar olardı. Qızın saçdarı tülün içində görünməzdi. Üzünə də duvax salınardı. Duvağın üsdündə qızıl pilləklər olunardı. Ayağında burnudik başmax olardı. Köçənətən gərdəhdən çıxmazdı.
Kasıf aylədə köynək, üsdən də çəpgən geydirərdilər. Başına qırmızı, ən çox soğanı ipək yaylıx, üsdünnən də soğanı kəlağay salınardı. Qız toyunun səhərsi qızın gəlin köçməsi, oğlan toyu başlanırmış. Qızı aparmağa kəcavə, kasıf toyudusa, araba gələrmiş. Şəki- Zaqatala regionunda gəlini zurnaynan, nağaraynan aparırmışlar **(S.10, T.30)**.

***

Toyda mahnılar oxuyardılar. «Hacı Nəbi qızı», «Ay Maral xanım» mahnıları da habu mahnılardandı.

**Hacı Nəbi qızı**

- Hacnəbi qızı, gül sultanı,
  Qaşdarın gösdər, alım mən səən.
- Qaşdarım görüf neynirsən, məən,
  Ciblərdə qələm görmüyüfsən?
- Hacnəbi qızı, gül sultanı,
  Saçını gösdər, alım mən səni.
- Saçımı görüf neynirsən məni?
  Talada sünbül görmüyüfsənmi? **(S.136, T.32)**

**«Ay Maral» xanım**

At gəlir aparmağa,
Ay Maral xanım.
Tozdarı qoparmağa
Ay lilay-lilay.
Yığılın, qohum-qardaş,
Ay Maral xanım.
Qoymayın aparmağa,
Ay lilay-lilay.
O gələn leydi, atdı,
Ay maral xanım?
Ata minmək muratdı,
Ay lilay, lilay.
O günə qurban olum,
Ay Maral xanım,
Qardaş murada çatdı.
Ay lilay, lilay.
O at Qırat döyülmü,
Ay Maral xanım?
Başda hirat döyülmü,
Ay lilay-lilay?
Sevən sevənə çatmaq,
Ay Maral xanım.
Böyük murat döyülmü,
Ay lilay, lilay.

Qonşumuzdan qız gedir,
Ay Maral xanım.
Qızıl gedir, qız gedir,
Ay lilay, lilay.
Min tümən versələr də
Ay Maral xanım
Yenə də ucuz gedir,
Ay lilay, lilay.
At gəlir aparmağa,
Ay Maral xanım.
Atları otarmağa,
Ay lilay, lilay
Açın darvazaları,
Ay Maral xanım,
Gəlini aparmağa.
Ay lilay, lilay.
At gəlir aparmağa,
Ay Maral xanım.
Nalını qoparmağa
Ay lilay, lilay
Oğlan bacısı hanı,
Ay Maral xanım?
Oynasın yanı–yanı,
Ay lilay-lilay.

Gəlini bəzəmişik,
Ay Maral xanım.
Gəlsin aparsın onu,
Ay lilay-lilay.

Bacuv boyuva qurban
Ay Maral xanım,
Olum boyuva qurban,
Ay lilay, lilay **(S.142, T.12)**.

## OĞUZ TOYLARI

Toylar payızda olardı. Başdıx olmuyuf. Atalar öz aralarında cavanların taleyini həll edirdilər. Sora razılığa gəlirdilər. Razılıxdan sora toya hazırrıx olardı. Nə çatışmırdısa, öz aralarında danışıp bölüşərdilər. Sora Allah mübarək eliyən diyirdilər.

Nişan dəbdəbəli olmazdı. Gəlinə gedərdilər. Gəlinin cehizini farmaşa yığardılar.

Gəlinin üzünü qırmızı kəlayağı ilə örtərdilər. Başına çutqu vurar (torba kimi; saçı içərisinə keçirərdilər), məzər taxardılar. Qırçınnı tuman geydirərdilər.

Toy qızsız olardı. Qızın toydan xəbəri olmazmış. Toy döyülüp qurtarandan sora sabahısı gəlni gətirərdilər **(S.190, T.30)**.

***

...Oğlan toyunda şax bəzənərdi. Fındıxdan tutmuş qırqovula qədər. Şaxın lap başına qırqovulu qoyub oğlanın qabağına qoyardılar.

Oğlan toyunda Gömrü, Musaxanı, Pəhlivani havaları oynanarmış.

Bəyin oğurranması olarmış. Bəyin papağı oğurranarmış Qızın, oğlanın atası, anası razılığa gələnnən sora şirinçay olurmuş **(S.198, T.30)**.

## BALAKƏN RAYONUNUN QAZMA KƏND TOYU

Oğlannan qız görüşüb söhbətdərini keçirdillər, bir-biriynən dedixləri düz gələndə hana üzmağa (indiki nişan) gedirlər. Söz göturmağa.

Öydə usdol düzəlif oğlan öyünnən on adam galıf söz kəsiflər. Süt pulu olup.

Qız öyü necə isdiyipsə, o cür olup. Hər öyə uyğun.

Qız öyündə qız adamları corap götürüf gəlillərmiş.

Toyux öldürüf getmə diyillərmş. Bu da qız toyuna hazırrıxda olurmuş.

Sorakı gün də toy çalınarmış.

Oğlan öyü qız öyünə qızı aparmağa gələndə yol pulu, mal vərirdilər. Qızı bəzədirdilər. Bəzənmiş furqunnu atdar olardı.

Atın quyruğunu düyərdilər, yəhərrəyərdilər, bəzəyərdilər. Üsdünə də qotazdı həybə qoyardılar. Bi qoçax oğlan (oğlanın sağdişi) ata minərdi. Atın yəhərinə də qırmızı kəlağayı bağlayardılar. Oğlan atı sürüp qız öyü-

nün içinə girməliydi. Nətəər qorxardılar. Həylə gəlirdiki at.

At qaça-qaça gəlirdi, kövürürdü. Bir qırmızı yaylıx da qız öyünün adamları bağlayırdılar ata. At gələn vaxt qızı bəzəyirdilər. Ot rəngində, yaşıl paltar, soğanı rəngli kəlağay, ya də bəzəkli gülbəngi örtərdilər.

Qızıl kəmər taxar, mumasan (sinəbənd) asardılar. Bilərzik taxar, başa düyməçə (saçlar düyməçənin içinə qoyulardı), belbağı üsdünnən də döşdük bağlayırdılar. Döşdüyün ətəyində düyməsi olardı.

Bəzi kətdərdə xınayaxdı olup, bəzilərində isə olmuyup.

Qızın yanında yançılar (yengələr) olardı.

Ana qızını örgədip yola salardı: Hündürün altınnan, alçağın üsdünnən, söz götürənin, yer oturanın. Başı aşağı. Getdiyin yerdə otur, həyatıvı puzma. Yançıların birinin əlində Balakən halvası, o birisində lampa olardı.

Lampanı yerə qoyup gəilni üç dəfə fırradardılar. Sora bir çörək gələrdi. Çörəyi (sacda bişən lavaşı) gəlinnən qaynana bölərdilər. Həvlə söz varıydıki, kim çörəyi çox götürsə, honun sözü ötgəm olar.

Çörək bölünəndən sora bölmədə (nəlbəkidə) bal gələrdi.

Sifdə qaynana balı gəlinin ağzına, sora gəlin qaynananın ağzına sürtərdiki, dili şirin olsun.

Faytunda, atın başına soğanı, qırmızı rəngli kəlağayı bağlıyıp gəlini aparallarmış.

Oğlan öyünə gəlillər. Gəlin həmin gün qonax qalır. Sabahısı gün toy günortayacan olur. Qoyun, toyux pay verillər. Yerli oyunnar, ləzgi havası üstündə oynuyullarmış. Nağara- zurna toyu olur. Təmbur çalaradılar. (Nağara zurnadan əvvəl). Haylalar (Balakən mahnıları) oxuyardılar. Savax (üz duvağı olan günü, qız üzə çıxan günü) qız öyü bayda aşı aparardılar. Yengələr, qızdar oynuyardılar **(S.179, 171, 32, T.30)**.

## HAYLALAR
## (Balakənə məxsus nəğmələr, tənburla oxunur)
## (S.15, T.30)

Ata vuran yüyəndi, aman, aman.
Ay, xırda-xırda diyəndi, liləyi-liləyi,
Qalsın, ax, yadımızda, aman, aman,
Ax, Ərəbi dindirəndi, liləyi-liləyi.
Əllərini yağla sən, ah, liləyi,
Ağ sinələri dağla sən, ah, liləyi,

Yazılar yazmaginən ,
Artezyan qazmaginən.
Qulağımız səsdədi
Ürəyimizi üzməginən.

Hər maşına minmirəm,
Dinmirəm, dindirmirəm.
Bir gün səni görmüyəndə
Vallah, diyə bilmirəm.

Düşmənin göz yaşı var,
Çəylağın ağ daşı var.
Mən ölüm, ayıp eləmiyin,
Hər şeyin oz  yaşı var.

Pillələri gözdüyax,
Dost, arabir söz diyax.
Çox da görrəm naz eliyir,
Gəl, hələlik gözdüyax.

Qaldır, ho qazan qapağı,
Ağzında var duvağı.
Bütün millətə dərməndi
Bu Balakən torpağı.

Yortdan, yuvadan köşmürəm,
Özümə dost seşmirəm.
Balakən adını çəkdim
Hələ Qazmanı dimirəm.

Yağış olup yağmışam,
Dostdarıma baxmışam.
Sıqanı aşıxcan bilip
Balakəndə qalmışam.

Damburumun beş bəndinə,
Şirin-şirin qəndinə.
Mən özüm quzu kəsərəm
Qazmanın bu kəndinə.

Qoy, cəhrəni mən əyirim,
Ho yannara çeyirim.
Diyirsiz ki, oxuginən
Hansı havada diyim?

Ağ üzündə xalsanmı,
Görürəm, ya xansanmı.
Niyə dimirsən oxuginən
Mən ölüm, lalsanmı?

Ağ yeylığı yüyürəm,
Xırda- xırda diyirəm.
Ay bacım, başa düşginən
Balakən havası diyirəm.

Ay aman, can aman.
Can sənə qurban aman.
Balakən havası diyirəm.

Qolumda olan dəridi,
Daşda Quran bahridi.
Bizim Qazma torpağı,
Hər cür dərdə dərməndi.

Bağlı qıfil aşdımı,
Aşdımı, dalaşdımı.
Mənim sizə oxuduğum
Ay bala, sizə xoşdumu?!

Maşına mimməliyəm,
Açıq göznən görməliyəm.
Hər aşıx bildiyin diyir
Bacardığımı diməliyəm.

Artezyan qazdırginən,
O tərəfə yazdırginən.
Sən allah, aman, aman,
Kitaba yazdırginən.

Yazılar yazırsanmı,
Sözümü danırsanmı.
Salma sözümü qəribliyə
Sən mənə qulax asırsanmı?

Arabada oxdumu,
Burda yoldaşlar yoxdumu.
Çalıram, oxuyuram
Bu hesapda yoxdumu?

Ələkdə un əliyirdim,
Saşdarıvı telliyirdim.
Sən məni dönə-dönə bağışda,
O vaxt hököm eliyirdim.

Qızılgülü dərməlidi,
Çəmənə sərməlidi.
Mən başa düşə bilmirəm
Sifdə sözü kim deməlidi?

Bizim bağlar bağ olsun,
Açılsın yeylağ olsun.
Mən heş baxa bilmədim,
Sənin  cibin dolu olsun.

Dambur telini burax,
Cərgə quruf oturax.
Hindi ver bizə icazə
Balakən havası diyax.

Əldə olan sazdarı, ay Leyli,
Üsdündə qotazdarı, ay Leyli,
Niyə oxşar görükür, ay Leyli,
Balakənin qızdarı, ay Leyli?

Yaman düşdüm  küləyə, ay Leyli,
Salam verdim mələyə, ay Leyli,
Gəlsin can Balakənə, ay Leyli,
Güzəl görmax isdiyən, ay Leyli,
Gəlsin can Balakənə, ay Leyli!

Artezyan qazıalacaq, ay Leyli,
Məktuplar yazılacax, ay Leyli.
Sən Allah, aman Allah,
Hamısı yazılacaq, ay Leyli.

Əldə olan sazdarı,
Üstündə qotazdarı.
Rəngindən, vah, nur damır
Ay dərmən, Balakənin qızdarı!

Ay dosdarım, yaza gəlsin,
Oynasın, düzə gəlsin.
Gözəl görmax isdiyən
Vallah, Balakənə gəlsin.

Hər maşına mimmirəm,
Mən yalannan dimirəm.
Sözün düzünü danışmışam
Billah,  yalan dimirəm,

Göz üstündə qaş döymü?
Üzük üsdə daş döymü?
Gedax başqa yerlərə, a qardaş,
Balakən qızdarı işıxlı döymü?

Çöldə siz, burda biçin,
Hər hesapdan keçin,
Mənim habu didiyimi
Siz hesapdan keçin.

Dosdun yadında qalmaz,
Söz didiyim yalan olmaz.
Bu didiyim sözdərdə
Heş bir vaxd yalan olmaz.

At gəlir səki-səki,
Ay dərmən, həyətdə
Biçdiyim ləki,
Biz söhbətə başdırıx,
Durun, ay qardaş, evə çəki.

Gözdən çıxan yaşdımı,
Ay qaradımı, qaşdımı,
Mən sənnən soruşuram,
Sənin üçün xoşdumu?

Xançala taxdımı qını,
Sözünü didimi, hanı.
Çox çalıp, çox oxumuşam
Verirsızmı  halallığı?

Ojağa qoydum sajı,
Yidim bal, oldu ajı,
Sən Allah, hallaığın,
Verin diyirəm, bizim.

Cəhrəni əyirirəm,
Buyana çöyürürəm.
Havamı mən dəyişdim
İncimiyin, çöyürürəm.

Ağ üzümdə xalsansanmı,
Əl- ayaxdan lalsanmı.
Mən sənə söz dimişəm,
Mən ölüm, dildən lalsanmı?

Əlimi  yağlayıram,
Sinələr dağlıyıram.
Qurban olum, ölürəm,
Hələlik saxlayıram.

Əl-ayağın əsdimi,
Otun kökün kəsdimi.
Oyun havası çaldım
Ay Allah, bəsdimi?

Bağların barı vardı,
Heyvası, narı vardı.
Nəsrəddin yaxşı bilərdi
Sən Allah, neçə oğlu vardı.

Qara olsun, qaş olsun,
Çəylax dolu daş olsun.
Mənim can bu qardaşım
Ay aman, gözünə işıx dolsun.

Bayax sözdərimi dimişəm,
Hər obaya getmişəm.
Didiyimi bir qanginən
Didiyivi, qurban olum, ay bala,
Mən səni  eşitmişəm.

Ağ almanı alası,
Sirr sözdərə qalası.
Allah səni saxlasın,
Ələddin Nəsrəddin balası.

Dağları ay aşası,
Dosdumun ay peşəsi.
Vallah, vah, dərməndi,

Balakənin meşəsi.
Öyünü yapbağ olar,
Hər şeyi tapbağ olar.
Qış ayında getsən, ay bacım,
Vallah, yem tapbağ olar.

Bizim bağın bağlarıdı,
Hər yerin  dağlarıdı.
Sizlər yaxşı dinmiyin,
Ay, bu Balakənin dağlarıdı.

Dosdumun çox yaşı var,
Qarası var, qaşı var.
Bu bizim  can dağlarda,
Ay dərmən, yaşamğa imkan var.

Ələyi əliyipdi,
Sözünü cümləliyipdi.
Bizim dağların şabalıdı
Hindi təzə çiçəkliyipdi.

Bağçalarda bar olar,
Heyva olar, nar olar.
Vallah, aj qalan insan
O dağda dayanıf dolanar.

Bütün aj qalan insannar,
Balakən dağında dolanar.

Dört tufarı qurağın,
Halqa quruf oturağın.
Xeyli çalıf, mən oxudum
Gəlin, belə oturağın.
Hər yerdə mən biçərdim,
Yort- yuvadan köçərdim.
O anamın sağlığında
Zəhər olsa, mən içərdim.

## TƏNBUR MAHNILARI (S.82, T.30).

Dambur mahnısı diyax,
Lampanı alışdırın,
Ay dili, dili.
Şüşəni yaraşdırın,
Ay dili, dili.

Yarım mənnən küsüpdü,
Ay dili, dili.
Siz Allah, barışdırın,
Ay dili, dili

Ho görükən papaxdı,
Dünya yaşıl yarpaxdı.
Çalışmaxdan nə çıxar?
Axırımız torpaxdı.

Haftafam axa qaldı,
Köynəyim yaxa qaldı.
Bu dükanın qızdarı
Heydərə baxa qaldı.

## QƏBƏLƏ TOYLARI

Qız toyu olmazıdı. Qızı oğlan öyünə hazırrayardılar. Əyninə çəhrayı nazik güllü ipək paltar geydirər, üzünə qırmızı kəlağayı örtərdilər. Sora nağara-zurnaynan qızı düşürdərdilər. Oğlan öyünə gətirərdilər.

Qaynana gəlinin ayağı altına qırmızı kəlağayı açar, gəlin də o kəlağayının üsdünnən keçib gedərdi.

Gəlinin ayağı altına məcməyi, bir aftafa, bi də boşqap qoyullar. Gəlin məcməyidən keçməli, boşqabı qırmalı, suyu da dağıtmalıdır.

Məcməyi misdən olardı.

Sora ipəyin üsdünnən keçərdilər. Sora gərdəyə gələrdilər. Gəlin oturmamışdan əvvəl onun yerində qucağında oğlan uşağı olan bi dənə cavan gəlin otuzdurardılarki, gəlinin oğlu olsun.

Dizdayağı olur. Qaynana gəlinə deyir: gamış, inək, oğlumu da səə verirəm. Bu sözdən sora gəlin oturur.

Oğlan öyü qız öyünnən mis qab, bir də mismar isdiyir. Mismarı öyün divarına vurullar. Mis qabı çala-çala gəlillər… **(S.98, T.30)**

«Əynimə hava rəngində göy paltar (fəslə görə), ayağıma göy duflu, başıma da hava rəngində ipək şal örtdülər.

Məni yola salan vaxdı anam nəsyət elədi: Bala, böyüyü böyük, kiçiyi kiçik kimi tanı. Səən səsin yaxşı gəlsin.

Oğlan öyünə çatanda ayağımın atda su qoydular. Boşqap qoydular. Boşqabı sındırdım. Suyu da dağıtdım, aydınnıx olsun diyənə. Məni çıxartdılar eyvana. Üzəçıxdıda da hərə bir hədiyyə ilə gəlmişdi- sabun, pul və s. **(S.7, T.30)**.

**Nəvənin toyunda nənənin təbriki:**
Nişan örpəyi başında, ay mübarək!
Sürmə qələm qaşında, ay mübarək!
Gözəl tana qulaxda, ay mübarək!
Qızıl üzük barmaxda, ay mübarək!
Əlvan boya dırnaxda, ay mübarək! **(S.7, T.30)**

**Nənənin arzusu:**
-Nənən qurban qamətivə, boyuva,
Ay usdalar, bir hava çalın, balam girsin oyuna.
Qoca nənə bu nəvənin toyuna
Qol qaldırıp süzə– süzə oynasın **(S.7, T.30).**

Keşmişdə qız toyu ayrı olardı, oğlan toyu ayrı.

Kişilər durup məzə qayırardılar. Bir-birinin çiyninə ayaxlarını qoyup yallı gedərdilər. Sora bir qoca kişi nehrə çalxalayardı. Bir də baxırdınki, başını qaşıya-qaşıya biti başınnan çıxarıp nehrənin üsdünə tulluyup öldürərdi.

**Gəlin tərifi**

Uzun küçə yolun olsun,
Lülə barmax qolun olsun.
Həman oğlan yarın olsun.
Gəlin xoş gəldin, gəldin,
Başına döndüyüm, xoş gəldin!
Bəy ocağına, xoş gəldin!

Bacaları palçıxlıdı,
Əbbəkləri qılçıxlıdı.
Gəlin anası acıxlıdı.
Başına dönüm, xoş gəldin!
Bizim ellərə xoş gəldin! **(S.64, T.30)**

Qırmızı paltar, göy dulflu, ağ kəlağayı, qırmızısını da üsdünə salardılar. Gəlin öydən çıxanda anası nəsihət eliyir:

− Ata öyündəki, xasiyyətdəruu bu palazın altına qoyup gedərsən ha! Laldimməz.

Oğlan öyündə təhnəni qoyardılar. Gəlini üsdündə oturdardılar.

Gəlini üzə çıxardanda örtüyü götürüp verərdilər qaynananın əlinə. Gəlinin ağzına yamşax vurardılar... **(S.174, T.30)**

Qızı əvvəlcədən sınağa çəkərdilər. Bi vedrə suyu qoyardılar qabağınaki, aftabaya töksün. Tökə bilməsəydi, deməli, pinti qızdı.

Bizdə atı bəzəyərdilər… **(S.10, T.30)**

Gəlin üçün yer düzəldirlər.

Dörd rəng- qırmızı, ağ, yaşıl, mavi rənglərdən istifadə olunurdu (sarı rəngdən istifadə olunmazdı. Ayrılıq rəmzi kimi başa düşülür) Bu rənglər kəlayağının üstündə olardı. Qızın başına cutqu bağlanardı. Qıraqlarında qızıl olardı. Saçı onun içərisinə qoyardılar. Sonra yenə dörd rəngdən ibarət bir parça salınardı. Yenə də üstündən bir parça (isti havada nazik, soyuq havada məxmər parça) salınardı.

Ayağına başmaq geydirirdilər. Araba ilə aparardılar. Qızı oğlan evinə gətirərdilər. Üç gün, üç gecə toy olardı. Gəlinin başına qənd, düyü səpərdilərki, bolluq olsun... **(S.174, T.30)**.

Qədim toylarda «vağzalı» əvəzinə «gəlin atdandı» müsiqisi olardı. Az da olsa fərqi var.

Gəlin deyər, dur atdan,
Bacımsan, dur atdan.
Al kəmərin, vur atdan.

Qədim toylarda dirədöymə, ərturma getmək oynamax vardı.

Toylar iki gün çəkərdi. Məzəli oyunlar olardı.

At çapmax, muşduluxlar almax, ötüşmək olardı.

Atın boynuna rəngli kəlağayılar bağlayırdılar. Gəlin atda olardı. Gəlini həndiki kimi bəzəmirdilərki. Gəlinin üzünü ağ örtüknən örtərdilər. Gəlinin belinə gümüş kəmər bağlayardılar.

Bəyi tərifləyərdilər.

Xon düzəldərdilər. Xonun içərisində paltar, meyvalar, qırqovul və s. Qoyardılar. Əlli dənə boşqab qoyardılarki, gəlin sındırsın. Boşqab-dan keçirərdilər. Bir qazan bişmiş yemək qoyardılar, gəlinin ayağının altdakı, gəlinin ayağı sayalı olsun.

Çoxlu xon gətirərdilər.

Toyda çoxlu havalar olardı.

«Havarı», «Bağdadur», «Pəhlivani» «Dağlı», «Böyürtkəni», «Daş bulağı, qoz ağacı», «Ənzəli», «Turullayı» (qarşı-qarşıya hay-huy eliyə-eliyə, nəsə diyə- diyə tullanardılar, nağara çalğısıynan) **(S.189, T.30)**.

Qıznan oğlanı görüşdürənnən sora bəlgə verərdilər. Sora qız toyuna hazırlıx gedərdi. Qapalı şəkildə.

Yallı gedərdilər. Tabaxda, mecbayıda çalırdılar. Ağızda lili çalırdılar.

Qız toyunnan üş gün sora oğlan toyu olardı.
Qızı arabaynan, atnan aparıllardı.
Oğlan öyündə iki- üş gün toy olardı. Müxtəlif oyun havaları olardı.
Zurna, dubbək çalardılar. Yaşdı kişilər «Saat bağı, mahut çuxa, gəl öldürmə məni, ay qara göz» mahnısına asda-asda oynuyardılar.
Atı, arabanı bəziyərdilər.
Gəlinin belini bağlamaq adəti olmuyup **(S.134, T.30)**.

## QAX RAYONUNUN İLİSU KƏND TOYU

Toy ərəfəsində nişanlı qızı onun qohumları, yaxın adamları, dostları qonaq çağırardılar.

Toy günü gəlin gətirməyə gedənə kimi kəndin igid cavanları at minib gedərdilər qız evinə. Gəlini ata mindirərdilər, atlılar atlarını çapıb gedərdilər oğlan evinə muşduluğa. Kim birinci çatıb gəlinin gəlişini xəbər verərdisə, ona pay verərdilər.

Toy günündən sonrakı gün bəyin adamları (yançılar) ayıq, sərvaxt olmalıdırlar. Bəyi oğurlaya bilərlər. Ona görə də yançılar bəyin yerindən getməsinə, çağrılmasına yol verməzdilər. Ona görə də yançılar bəyin yerindən getməsini, çağrılmasına yol vermirdilər. İşdi, bəy oğurlanarsa, onu yançılar pul verib alardılar. Toyun ikinci günü «qazax dağıldı» olarmış. Yəni toy yekunlaşdırılarmış. Bunun üçün qoç kəsilir, sürhü bişirilərmiş. Bu xərci də yançlıar çəkərlərmiş. Bəs yançılar bu xərci haradan əldə edirlərmiş? Onun mənbələri çoxdur. Birinci, toyun səhəri günü bəyi təbrik etmək üçün gələnlər xonçadakı sirnini götürüb əvəzində pul verməlidirlər.

İkinci, yançılar onların köməkçiləri uşaq oğurlayardılar. Uşağı toy həyətində qıçından, bədənindən (xəta olmayası şəkildə) asardılar. Uşaq qışqırar, ağlayar. Onun harayına gələn atası, anası, babası gələr, pul verib uşağı alardılar.

Toy həyətinə kim gələrsə, onu stola dəvət edib şirni, bir stəkan çaxır verər, ondan pul tələb edərdilər.

Bəyi görmək üçün xərcsiz irəli soxulmaq, qapını sındırmaq (adətən, bəy otaqda olur) təşəbbüsləri də olarmış. Yançılar, onların köməkçiləri kəndirdən kəmənd atar, onları geri çəkər, ondan qanun-qayda ilə bəylə görüşməyi tələb edərdilər, yəni xərcləri ver, bəylə görüş. Bütün bunları toyda şən əhvali–ruhiyyə yaratmaq, toyu şənləndirmək məqsədi ilə edərdilər. «Qazax dağıldı» günü (toyun sonrakı günü) bişirilən xəmir xörəyi (sürhü) hamıya çatar, hamı ondan yeyər, sonra evlərinə dağılardılar.

Üç-dörd gündən sonra bəyin qohumları bir-bir bəylə gəlini qonaq çağırırdılar. Bundan əlavə olaraq gəlin atası, sonra isə onları bəyin valideyni qonaq çağırardıki, buna da ayaqaçdı deyirlər **(S.129, T.12)**.

## OĞUZ TOYLARI

Bizim toyları şənləndirən «Zorxana» diyilən güləş 5 saat ərzində keçirilirdi. Rəhim dayı, Əlfəddin, Daşağılda İsmayıl dayı varıydı ki, bu adamlar ən məşhur güləşçi idilər. Toylarımızda «Zopu-zopu» oynayırdılar. «Qazax Kərəm» havasına oynayardılar. Bu hava «Yanıq Kərəm»ə oxşayırdı. Yeyin oyundu. Qız öyündə xınayaxdı olardı. Şənbi günü. Həmin gecə oğlan öyündə də oğlan toyu olardı. Çay qutuları olardı. Həmin qutuları dınqıldadıp qızdarı oynadardılar. Səhər ertə zurnaçı zurnasını pərgərliyir saat 5-ə kimi. Saat 5-də toy kəsilir, gedillər gəlini gətməyə. Gəlin hazırlanır. Yaşıl (ot rəngi) paltar, üzünə də qırmızı kəlağayı örtülərdi. Gəlini atdandırırlar. Gəlini gətirərdilər. Başına noğul, şirni tökərdilər. Bəyi aparardılar bacısının öyünə qoyardılar. Burada qonaqlıq olardı. Dəllək gətirərdilər. Dəllək bəyi hazırlayardı. Sonra aparardılar gəlinin yanına. (Toyda şax bəzəmək olardı. Şaxın üsdünə alma, armud, ləpə, şirni asardılar. Şaxın başına da toyux asardılar. Diri toyux. Şaxı camahatın qabağınnan aparardılar. Hamı xapaşdıyırdı ho şaxı.)

Toyun sonunda toyuğu güllə ilə vurardılar. O dəqiqə toyuğu şaxın üsdünnən götürüp bişirərdilər.

Şaxı toyun sonunda bəynən gəlin sökərdi).

Toyun səhərisi günü üzəçıxdıda camahatı yığıllar öyə. Gəlinin üzünnən duvağı ancax oğlan özü götürür. Oğlana da qız öyünnən bir dörə (bulud) aş gəlir. Sağ dişnən sol dişə də xonça qoyullar; əl yaylığı, dəsmal, corab və s. **(S.88, T.30).**

***

Ər öyünə gəlin köçən qızın adı bednam olanda honun saçını kəsif biləyinə bağlayar, başına qatıx sürtər, özünü də eşşəyə tərs mindirif atası öyünə qaytarardılar. "Saçın biləgünə bağlansın» məsəli də buradan qalıb **(S.206, T.12)**.

***

Qıza toy eləmirdilər. Eləcə «Xırda» eliyirdilər.

«Xırda»da qıza cehiz gətirərdilər. Qıza qonaxlıq verərdilər.

Qızı gəlin köçürəndə üzünə qırmızı kəlağayı salardılar. Sora aparardılar.

Oğlan öyündə bir mismar verərdilər qızaki, gəldiyi öydə barıya

çalsın. Diyərdilərki, sən bu öydə  bu mismar kimi bərk otur.

Toyda nanaylar oxunardı. Yallı gedərdilər. Çırtıx çala- çala oxuyup-oynuyardılar.

**Nanay mahnısı**

Qaya başında təndir,
Hoy-hoy,  hop-hop can.
Odun gətir, gəl yandır.
Hoy-hoy, hop-hop can.

Dadanmamış kəkliyi,
Hoy-hoy, hop-hop can.
Al qoynuna dadandır,
Hoy-hoy, hop- hop can.

Gəlini öküz arabasıynan gətirərdilər. Palaz salardılar.

Gəlin gələndə əllərində bağlama öyün başına çıxardırlar. Ordan başdıyarlar alma atmağa gəlinə. Gəlinin gəlişi uğurru olsun.

Belə əyləncəli  oyunnar olardı. Gəlinin başına konfet tökərdilər. Çörəyi (yuxanı) verərdilər əlinə. Çörəyi gəlinin o çiyninə, bu çiyninə tullayardılar.

Yəni bərəkətdi, varrı olsun. Sonra isə çörəyi təknəyə qoyup yiyərdilər.

Gəlin bir gün qabax gələrdi. Oğlan toyu iki- üç gün olardı.

Gəlin tərifi olardı.

**Gəlin tərifi**

Gəlin xoş gəldin, xoş gəldin.
Anam xoş gəldin, xoş  gəldin,
Dədənə verdik bir dana,
Dədənnən aldıx bir sona.
Dədən qalıp yana-yana,
Gəlin xoş gəldin xoş gəldin.

Gəlin deyər, yoxdu anan,
Burnunnan aldular tanan.
Qaynanan da sənin anan,
Gəlin xoş gəldin, xoş gəldin.

Gəlin deyər, yoxdu qardaşım,
Qarrı dağları necə aşım,
Şirin də sənin qardaşın,
Gəlin xoş gəldin, xoş gəldin.

Gəlin deyər, yoxdu bibim,
Mən bu yunu necə didim,
Vəzifə də sənin bibin,
Gəlin xoş gəldin, xoş gəldin.

Bəy tərifi  də olardı. Kim bi dənə öküz kəsər, bu camahata qonaxlıq verərsə, bəyi o adam tərifləyərdi.

Qızı üzə çıxardanda oturdurdular düz öyün ortasında. Xamır təhnəsini ağzı aşağı çörürdülər, altına da su qoyurdular. Təhnəni qoyup gəlini də oturdardılar onun üsdündə. Gələrdi bu gəlin tezə gəlinin ağzına yamşax verərdi **(S.174, T.30)**.

***

O vaxdı toy olanda  qabaxcadan, bir həfdə qabax oğlan öyü toya

hazırraşardı.

Toy üç gün olardı.

Birinci gün qara zürna, nağara (xanəndə olmurdu) çalırdılar.

İkinci gün çalıb -oxuyardılar.

Üçüncü gün gedip gəlini gətirirdilər. Gəlini gətirənnən sora toy dağılardı.

Ağ corabın ağına,
Gül tikərəm bağına.
Məni isdiyən gəlsin
Xalxalın gül bağına.

Belə deyip oxuyardılar.

Toyda oturannarın otuz-altmış adamını çağırardılarki, dur səni öyə - döyrana çağırıram (pul verməyə).

Aş bişirilərdi. Aşı yiyip pul verəllərdi. Kimin nəyə imkanı çatsaydı, verərdi.

Gəlin gətirməzdən bəy durardı.
Boynuna parça salardılar.
Alnına da pul yapışdırallardı.
Mağarın bəzəyinə fikir verməzdilər.

Qışda mağarın ortasında ocax yandırılardı. Üsdünə çatma (ağaşdan) sac qoyallardı. Üsdünə də kül tökəllərdi. Onun üsdünə də mal başı (sümük) qoyallardı. Sümüyə nöyüt tökə – tökə, toyu onnan işıxlandırardılar. Sonra ocaxlar yandırılardı.

Bizim toylarda yallı olmazmış. «Havarı», «Tala» və başqa havalar olur.

Ortalığa xalça salınıp güləş olardı.

Yaylığı yerə salıp götürmək olardı ağıznan.

Qonaxlıx olardı. Ağsaqqallar olardı. Subaylar olmazdı. Qırxdan yuxarı yaşı olannar yığışardı. Bəy gələrdi. Bəyə üzə çıxdı olardı.

Ulara aş verərdilər **(S.46, T.30)**.

### Qız toyunda oxunan nəğmələr

Nə durmusan sinavardan yuxarı,
Saa dəysin sinavarın buxarı,
Ağzında qənfit, cübündə suxarı,
Ay can alan canın olaydım, ay qız,
Yatanda yorğanın olaydım, ay qız **(S.10, T.30)**.

### «Yallı» gedərkən oxunan nəğmə:

Ərik ağacı,
Ərin ağacı.
Ərkinaz bacı,

Bizə gələsin **(S.96, T.30)**.

## TOYLARDA İFA OLUNAN XALQ MAHNI VƏ OYUNLARI

### SALAMƏLİ TALİCO

Salaməli çağıraq, salaməli, salaməli,
Qatar-qatar oynuyaq, talimali, talico.
Qatar- qatar qızlardan, salaməli, salaməli,
Hamı birdən oynuyaq, salaməli, talico.

Ay bacı, hardan diyax, salaməli, salaməli,
Bağçadan, bağdan diyax, talimali, talico.
Yavaşcadan oturub, salaməli, salaməli,
Alagöz yardan diyax, talimali, talico.

Mahnını dedim hərif, salaməli, salaməli,
Döndərif qərif- qərif, salaməli , salaməli.
Ürəyini bileydim, salaməli, salaməli.
Ciyər, bağrını dəlif, talimali, talico.

İreyhan əkdim düzə, salaməli, salaməli,
Cücərif çıxdı üzə , talimali talico.
İreyhan boylu yarım, salaməli, salaməli,
Niyə gəlmirsən bizə, talimali, talico.

Gəlinlər gedir işə, salaməli, salaməli,
Maral gedir enişə, talimali, talico.
Yasdığında gül olum, salaməli, salaməli,
Yorğanında bənövşə, talimali, talico

Su da sirat döyülmü, salaməli, salaməli,
Qış da hirat döyülmü, talimali , talico.
Sevən sevəni almax, salaməli, salaməli,
Böyük murat döyülmü, talimali , talico **(S.136, T.32)**.

### ŞAXİ BOYNU VAR, ŞAX GƏREY

Suya saldım qaşığı,
Dindirməyin aşığı, şaxı boynu var, şax gərey.
Ay Allah hara getdi,
Könlümün yaraşığı, şaxı boynu var, şax gərey.

Şaxı boynu var, şax gərey,
Qara gözü var, qaş gərey,
Şirin dili var, səs gərey **(S.136, T.32)**.

## SALAMALEYKLƏR

Toylarda oxunur. Beş adam bir tərəfdə, beş adam da onlara qarşı tərəfdə dayanıb deyişirlər.

Xanımbalanın həmyerlisi Gülmə ilə deyişməsi:

## SALAMALEYK, SALAMALEYK, TALİ, MALİ, TALİCO

Alma versən, sayaram,
Salamaleyk, salamaleyk.
İpək versən, boyaram,
Tali, mali, talico.
Mahnı dimağa qalşa,
Salamaleyk, salamaleyk.
Səni dala qoyaram,
Tali, mali, talico.

Ağac başında qarğa,
Salamaleyk, salamaleyk.
Ağzında var qabırğa,
Tali, mali, talico.
Sənin kimi şeyləri
Salamaleyk, salamaleyk.
Yolla, məni buyruğa,
Tali, mali, talico.

Oxu bülbülüm, oxu,
Salamaleyk, salamaleyk.
İpəkdən yaylıq toxu,
Tali, mali, talico.
Mənnən mahnı dimağa,
Salamaleyk, salamaleyk,
Bakıda məktəb oxu,
Tali, mali, talico.
Qoyunu qatdım yatağa,
Salamaleyk, salamaleyk.
Mən keçdim baş otağa,
Tali, mali, talico.

Gördüm yarım yatıbdı,
Salamaleyk, salamaleyk.
Qıymadım oyatmağa
Tali, mali, talico.

Otaqda lampa yanar,
Salamaleyk, salamaleyk.
Usdol üsdə dayanar.
Tali, mali, talico.
Oxu, bülbülüm, oxü,
Salamaleyk, salamaleyk.
Bəlkə yarım oyanar,
Tali,  mali, talico.

Mahnı desam yanarsan,
Salamaleyk, salamaleyk.
Deməsəm də yanarsan,
Tali, mali, talico.
Səndə ustalıq olsa
Salamaleyk, salamaleyk.
Bu sözləri qanarsan,
Tali, mali talico.
Mahnı desəm, olar yüz,

Salamaleyk, salamaleyk.
Qoluna mərcanı düz.
Tali, mali talico.
Eşqinlə sevən yarın
Salamaleyk, salamaleyk,
Dünya malından əziz,
Tali, mali, talico.

Mahnıynan deyim səni,
Salamaleyk, salamaleyk.
Amanat deyim səni,
Tali, mali, talico.
Salamaleyk, salamaleyk.
Gəl dost, iyniyim səni.
Tali, mali, talico.

Salamaleyk, talican,
Dali, mali dalico.
- Ayrılmarıx, gül-gül,
- Barışmarıx, gül-gül.
-Aşa tökən sərbət olsa,
-Biz içmarıx, gül-gül.

Sən məni bilərsənmi,
Dindirsəm, bilərsənmi,
Yazıb kağız göndərsəm,
Oxuya bilərsənmi?**(S.91, T.12)**

## BALAKƏN RAYONUNUN KATEX KƏND TOYLARI

Əvvəlcə qız istəyən oğlan anasına bu barədə söz açardı. Sonra evinə elçilər getmək üçün nəslin-toxumun ağsaqqalı-sözüötəni xəbərdar edilər, qız evinə gedilərdi. Razılıq olsa, qız üçün aşağıdakılar tələb olunardı:

1. Bir ədəd «tavat» kəmər;
2. Gümüş bilərzik;
3. Düyməçə;
4. Mumasan;
5. Bafta;
6. Darayı dizlik;
7. Kəlağayı, yaxud gülbəngi;
8. İki ədəd xasa çit köynək;
9. Döşlük bağı;
10. Bir ədəd gümüş üzük

Qız evinin tələb etdikləri alınandan sonra toy günü müəyyənləşir və toya hazırlıq başlayırdı.

Toy günü imkana baxıb, azı bir fayton olmaqla (beş - altı fayton da ola bilərdi), xüsusən bəzədilmiş atla qız evinə gedirdilər. Bəyin yaxınlarından olan atlı atını qız evinin pilləkanlarına çıxarar, otağın qənşərinəcən yeridərdi. Atlının əlində iri bir şiş kabab, şişə taxılmış çörək olardı. Qız evində uşaqlar həsrətlə gözləyərdilər bu atlını. Pilləkanlar üsdündə atlı yəhərinə yaylıq bağlanar, yalnız bundan sonra bəy evindən gələn atlı pilləkanlardan endirilərdi. Valideynləri – anası, bacıları, xalaları, bibiləri, qonşular, digər

yaxınları ilə görüşəndən sonra gəlini faytona mindirər, oğlan evinə aparardılar. Faytonu olmayan yerlərdən gəlini at belində, bəzi yerlərdə isə kəl arabalarında gətirərdilər. İyirminci yüzilliyin otuzuncu illərinədək gəlin gələndə oğlan evinə girişdə durup xəncərlə doqqazı kəsirdilər, oğlan evindən bir nəfər əlində məcməyi, sini ilə gəlirdi. Qız evindən xəncərlə gələn, oğlan evinin darvazasına xəncərlə vuran şəxs xəncəri məcməyi, siniyə vurur. Bəzi sini deşilirdi. Bundan sonra darvaza açılır, qız evindən gələn xəncərli şəxs olğan evindən öz payını istəyirdi. Onun payı əvvəlcədən tutulub saxlanılan toyuqlar olmalı idi. Əgər payı olmasa idi, gələn yenicə tara çıxmış toyuqların bir neçəsini tüfənglə vurup salar, halallaşıb gedərdi **(Ə.5, S.32)**.

***

Katexli Əsəd dayı maraqlı bir adəti xatırlayır: Toy olanda oğlan evindən qız evinə gələnlərin qarşısına bir ləngərə aşla çıxardılar. Oğlan evindən bir nəfər irəli çıxıb əlini vurmadan bu aşı yeməli idi. Bir nəfər də əvvəl aş yeyənin qarşısına çıxmalı, onu çiyninə qaldırıb atmalaı idi. Bu hadisə Sumayıl kəndində baş veriridi.

«Üz duvağı» toyun üçüncü günüdür. Həmin gün gəlin evi qohumlarla tanış olur, onlarla birgə həyətdə toy xonçası qoyulan yerə yaxın oturub onun yeni olan məkana, şəraitə tamaşa edir.

«Toy xonçası»na hər cür ləziz xörəklər, boyanmış yumurtalar, müxtəlif şirnilər, ortasına isə ütülmüş, içi çıxarılmış, bütöv şəkildə bişirilmiş xoruz «ayaq üstə» qoyulardı. Süfrədə xonçaya yaxın bəyin dostları əllərində çubuqla oturardılar. Özünə güvənən gənclərdən biri damburun, yaxud zurnanın müşayiəti ilə oynaya-oynaya bir göz qırpımında xonçadan bir şey götürüb yeyə bilən şəxs alqışlanır, ona ehtiram göstərilirdi **(Ə.5, s.33)**.

## BÖLGƏYƏ MƏXSUS MARAQLI BİR ADƏT

İpəkqurdu «üçdən duranda» (üç yaşına çatanda) onların bir hissəsini götürüb cürbəcür şirniyyat və meyvə ilə bərabər nişanlı qızın evinə yollayardılar. Həmin ipəkqurdlarını nişanlı qız yalnız özü üçün yemləyib böyüdürdü. Hasilə gətirdiyi barama satışından alınan pulu yalnız nişanlı qızın özünə verirdilər. O da özünə cehiz üçün gərək olan şeyləri alırdı **(Ə.5, S.51)**.

***

Diyillərki, qız ərə gedənnən sora da ata öyündə gözü olur. Oduki, qız atası öyünə gələndə qardaşdarı diyirki, qızın gözü öydə qalıbıdı

diyənə duz daşı da ağlıyırki, məni də özü ilə aparcıtdı **(S.98, T.30)**.

## ZAQATALA RAYONUNUN TALA KƏND TOYLARI

Toya qədər qız bəyəmmə olardı. 18 oğlan, 18 nəfər də qız olardı. Tək ola bilməzdi. Cüt olmalıdır. Qabax-qabağa dayanardılar. Bir-birilərinə baxardılar. Belə söyləyillər ki, bu qızdardan birinin adı Sənəm idi. Onun qabağındakı oğlanın adı isə Məhəmməd idi.

Sənəmə eşq (aşiq) oldu. Olar bir-birilərini sevdilər.

Oğlanın dosdarı Sənəmdən soruşur ki, toy ilamax üçün, xeyir iş üçün nağara-zurna isdırsan, dəf-sümsümü?

Qadın toyudu bu.

Sənəm diyir:

– Dəf-sümsü isdırıx.

Çöldə düddəknən nağara çalıllar.

Məhəmməd oxuyur:

–Sudan gələn Sənəm qız,
Ay dili, dili.
Səni sevən mənəm qız,
Ay dili, dili.
Səni sevənnər çoxdu,
Ay dili, dili.
Cəfa çəkən mənəm qız,
Ay dili, dili

Hindi Məhəmməd Sənəmi təbrikləyir, xoş xəbərlər diyir, zəhmətini çəkir. Qıraxdan baxanlar Sənəmin gözəlliyinə görə onu qapazdamağa çalışıllar.

Qız da razı olur. Nikax iliyillər. Məhəmməd Sənəmə diyir:

–Mən sənə eşq oldum, söyündüm.

Sənəm də Məhəmmədə diyir:

–Mən də səni sevdim. Amin.

Nikaxı kəsillər. Nikaxda hindiki kimi əmoğlu, dayoğlu, başqası olmur. Özdəri nikaxlarını kəsdirillər.

Qız toyu olur. Qız toyunda qıza açıx qırmızı güllü paltar giydirillər (Hayatı güllü, çiçəkli olsun). Başına alafa (tül kimi olur) örtüllər.

Sənəmi faytunnan gətirillər Məhəmmədin həyətinə. Çünki at da, faytun da muraddı. Ona görə də gəlini faytunnan gətirillər. Sənəm qız Məhəmmədin həyətində faytunnan düşəndə Məhəmməd honun barmağına gümüş üzüğü keçirdir. Sora çörəyi bala batırıb Sənəmin ağzına, Sənəm də Məhəmədin ağzına sürtür (Dilləri şirin olsun). Başına şirni, ən çoxsu da

düyü töküllər (Bu qızın hayatı şirin, bərəkətdi olsun).

Sora çörək gətirirlər. Çörəyi Məhəmmətnən Sənəmin arasında bölüllər. Çörəyi böləndə biri uzun, biri güdək olmamalıdır. Eyni olmalıdır (Onların sözdəri, ürəqləri bir olsun. Bunnarın həyatdarı da yaxşı olsun).

Toyları şənləndirmək üçün mahnı oxuyullar, diyişillər. Məhəmməd ayağını Sənəmin ayağının yanına, Sənəm də öz ayağını Məhəmmədin ayağının yanına qoyur. Sora da diyişillər. Sənəm qız diyir:

–Ay Məhəmməd, sən mənimsən, Məhəmməd, sən mənimsən. Ürəyimsən, ciyərimsən, şəkərimsən. Hayatımız, necə ki, şirin olsun, can diyip, can eşidək. Hindi Məhəmməd diyir:

–Ay Sənəm qız, səni sevdim,
Üreyim arxayın oldu.
Hayatım xoşbaxt oldu...
Gözəllığimız getmiyacax.
Heş bir adam bizə
Göz eləmiyacax.
Şirin muncux (yəni göz muncuğu)
alcax belimizdə.
Küçəyə çıxanda, ay Məhəmməd,
ay Sənəm qız,
Başqası baxanda
göz dəymiyacax...
Məhəmmədnən Sənəm qıza.
Sənəm qız diyir:
–Ay Məhəmməd, canımsan, bülbülümsən.

Sənəm qız bir də diyir ki, mən Məhəmməd adlı oğlanı sevirəm.

Sənəm qız qazandı. Olar razılaşdılar.

Sora toya hazırlıx başlandı. Toy nağara-sümsüynən, tampurnan olardı. Oğlan toyunda ləzgi havası (ləzginka) olardı. Yerə padnus qoyardılar. Padnusun içindən qırağa çıxmaq olmazdı. Elə ordaca oynuyurdular.

«Hava» oyunu – arxeyin kişi oyunu idi. Yavaş-yavaş oynuyurdular.

Sənəm qızı faytunnan düşürdəndə Məhəmmədin papağını oğramaq isdiyillər. Papağı oğruya bilseydilər, qaytarmax üçün pul, ya da qoç verərdilər. Bəy özünü yığşdırmalıydıki papağı oğurranmasın. Bəyi gizdədərdirlər (Mənim Məhsətlə övlənməyim də maraxlı olup. Mənim bir sözümə görə: Allah sənnən razı qalsın, -sözlərinə görə Məhsət mənə gəldi)... **(S.82, T.30)**

***

Diyillərki, Carda Murad Hasil diyən adam olup. Honun da bi dənə

gözəl qızı olup. Samavar qaynatanda camahatın gözü honda olupdu. Hamı hona heyran idi. Murat Hasil də toyda olur. Murat Hasil başdıyır toyda oynamağa. Bir oğlan da Murat Hasilin qızına eşq (aşiq) olur. Oğlana diyillərki, bu kişi ho qızın atasıdı. Oğlan da oyuna girir. Qızın atasıynan üz-üzə oynuyur. Oynuya-oynuya diyir:

–Yuxarı başda Qaladu,
Altı Zakataladu,
Murat Hasilin qızı
Nə yumruca baladu.

Bu sözü dimaxnan Murat Hasil diyir:

–Qızımı verdim mənnən oyniyan habu oğlana. 50 yerdən gələn elçilərə verməmişdim qızımı.

Verdi Murat Hasil qızını habu oğlana. Bizim Tala kəndində diyillərki bir dənə də qız varıydı. Hamı hona heyran qalmışdı. Görənnər hona söz qoşup diyirdi:

Samavarı qaynatan,
Əldə çaynik oynatan.
Of, sənə qurban olum
Qaş atda göz oynatan **(S.82, T.30)**.

## BALAKƏN TOYLARI

Qızı bəyənənnən sora elçi gedilərdi. Əyər qız evi qızı vermək isdəmirdisə, qapı ağzındakı ayaqqabıların üsdünə soğan qoyardılar. Yəni boş yerə gəlmisiz. Lap övdə verərik desələr də çölə çıxanda məlum olur.

Razılıx olanda isə elçilərə çay qoyulardı. Çay qoymax yarı razılıx idi. Ancax elçilər də şərt kəsillərki, hərinizi eşitməyincə sayı içmiciyih. Razılıx olannan sora çaylar içilirdi.

Qız toyu olardı. Sora oğlan toyuna hazırrıx gedərdi. Faytunnan gəlini gətirərdilər. Dağ yerinnən atnan gələrdi. Gəlinnən birlikdə atbaşı çəkən, toyux vuran, köməkçilər, 10-12 nəfər bəy evinin qabağında durardılar. Diyərdilər ki, gətirin. Malı gətirərdilər. Malın qulağını kəsərdilər ki, bu mal gəlinindi. Toyux vurup gətirərdilər. Toyux vurannar (öldürənnər) 5-6 nəfər olardı. Ya toyuğu vurup gəlinə gətirərdilər, ya da toyuğun müqabilində pul verərdilər. Danışıq kutarannan sora gəlini bəyin həyətinə buraxardılar. Gəlinin sağ, sol yengəsi olurdu. Sağ, sol yengə gəlinnən bir yerdə sabahsı günü gəlin üzə çıxannan sora gedərdilər. Bir nəfər də sandıx sahibi də olmalı idi. Ona da pul verərdilər. Oğlan toyu başlanırdı. Bəy çıxarılmalı idi. Sağ və sol diş-

nən. Bir də halva güdən (xonça tutan). Böyük ağacdan şax bəzəyərdilər. Şaxa meyvələr, şirnilər, yumurtalar və s. keçirərdilər. Bu şaxdan kimsə nəsə oğurramax isdiyir. Xonça qoruyan şaxı qoruyur ki, heş kim heş nə oğurramasın. Axırda bəynən gəlin sökərdi. Toy kutaranda bəy halva qazanının qabağında oturur. Hamı gəlip gəlinnən oynayır. Bəy də oynuyannara bu halvadan verərdi. Onlar da əvəzində pul verərdilər.

Gəlin gələndə bəy gəlinə balnan çörək verərdi. Gəlinin ayağının altına boşqab qoyardılar. Boşqabın qırılmasını bu cür yozurdular ki, gəlinin bü övdə sözü ötkəm olsun.

Oğlan toyunda üç cür oyun olardı.

1. Tək-tək oyun
2. Silkələmə (Ayax silkələyən). Bu oyuna yeyin hava da deyillər.
3. Cüt oyun – Ya qız-oğlan, ya qız-qız, ya da oğlan-oğlan qarşı-qarşıya oynuyardılar. Sora toy yekunlaşdırılardı. Toyda bəyin oğurranması olardı. Bəy oğurannmasın diyə damda, çardaxda gizlədərdilər **(S.51, T.30)**.

## ZAQATALA TOYLARI

U vaxtlar bizdə qızı imsəcilərdə bəyənirdilər. Oğlan evə gəlib ata-anasına diyərdi ki, mən u qızı isdiram.

Gelinin üzü görünməzdi. Qırmızı paltar giydirərdilər. Başına qırmızı kəlağay ürtərdilər. Gəlini də faytunnan aparardılar (xüsusi faytunçu varıydıki toylara u gidərdi. Övə gətirəndə gəlinin başında qaynana çörək bölür, bala batırıb onun ağzına qoyur ki, dili şirin olsun **(S.80, T.30)**.

## DƏFN MƏRASİMİ, OXŞAMALAR, AĞILAR, ŞİVƏNLƏR

Ölən üçün 1, 2, 3, 7, 40, 52 və il verilir. Bu regionda ölənin əlli ikinci günündə də yas sahibi ehsan verir. Həmin gün meyitin əti sümüyündən ayrılır, o, əziyyət çəkir. Odur ki, Quran oxutdurub ehsan verirlər ki, ölü əziyyət çəkməsin. Ölü ətrafında ağı söylənib ağlaşma qurulur. Ağlaş bitdikdən sonra meyiti basdırmağa aparırlar **(S.195, T.30)**.

***

Dəfndən əvvəl meyit basdıralacaq yer çubuqla, qamışla ölçülüb qazılır. «Boyuva Varxiyan qamışı ölçüm» qarğışı məhz buradan meydana gəlmişdir.

Meyit basdırmağa aparılarkən hası meyit boş olurdusa, unun qəbrinə xəlvət daş salardilarki dalınca adam aparmasın.

Balakən və Zaqatala rayonlarında belə adət var. Ölü yerində zikr çalınır. 70 min zikr çalınıp ölüyə bağışdanır. 70 kişi tərəfindən hündür səslə «lailahəillallah» - deyə oxunur.

Bir cümə axşamı 1 , 3, 52 olardı.

52-nin duasını 7 dəfə oxuyallardı. Süddü yimək bişirəllərdi.

Meyit basdırılmağa aparılanda hansı meyit bərkimirdisə, boş olurdusa, unun qəbrinə xəlvət daş salardılar ki, dalıncax adam aparmasın **(S.79, T.30)**.

***

Dəfndə ölünü o dəqiqə basdırırlar.

Ölünü yaş məqamına görə rəngli parçaya bürüyərdilər. Qocanı qara, cavanı qrmızı, orta yaşlını yaşıl parçaya bürüyərdilər.

Ölüyə də cavandısa qızılı, yaşıl, soğanı rəngli paltar geydirərdilər **(S.79, T.30)**.

***

Üç adna olardı. 52 olmazdı. Dəfndə ölü sahibinə üç gün yemək gətirərmişlər. Ağılar söylənilir. Ölünü Şax üstündə aparallarmış. Şaxın üstünü də bəzəyirlərmiş. Ona görə belə qarğış da yaranıb: «Şaxuu bəziyim» **(S.103, T.30)**.

## AĞI - LAYLALAR

Aralıx yollu
Əyni darayı donnu,
Dizinəcən çəkməli,
Dizinnən yuxarı düyməli,
Özü Koroğl nərəli **(S.152, T.30)**.

***

Əbbəh səndə, duz səndə,
Ağ örpəyin əsəndə.
Balam yadıma düşür
Xaçmazdı qız köçəndə **(S.57, T.39)**.

***

Yar eşiyində yasdığım daşıydı,
Altım qar, üsdüm yağışıydı.
Ay mənim əzizdərim, doğmalarım,
Günüm horda gözəl, həm də xoşuydu **(S.60, T.30)**.

***

Aralıx yoluna,

Əyninin darayı donuna,
Get-get yolun olsun.
Saraydan öyün olsun.
Mədnədə, Məkkədə yerin olsun.
Hürü, Pəri qızdarı yoldaşın olsun.
Lay-lay, balam, ay lay-lay,
Gəlin balam, ay lay-lay **(S.152, T.30)**.
***
Özün çox ağlıyıf doydun,
Saralıf gül kimi soldun.
Balaları yetim qoydun,
Anam lay-lay, anam lay-lay.
Çox oddara yanan lay-lay **(S.44, T.30)**.
***
Fələk saldı səni dərdə,
Gəlif öldün qərif eldə
Bizi qoydun yaman gündə
Anam lay-lay, anam, lay-lay,
Çox oddara yanan, lay-lay **(S.44, T.30)**.
***
Yeylaxlarda ay qabaxlı,
Baxçalarda gül yanaxlı,
Maral baxışdı,
Gelin olmamış
Toy xınasını qurt aparmış
Oğuz gözəli,
Gelin balam, ay lay-lay,
Ağ otağı ağlar qalmış,
Taxdına quşdar qommuş.
Saa kimlər qarğamış,
Elun xına tutmasın,
Çöyür günə tutmasın,
Gelin balam, ay lay-lay **(S.10, T.30)**.
***
Dalımın dağı,
Dərdimin ortağı,
Ürəyimin yağı,
Başımın tacı,
Təhnəmin çörəyi,

Damımın dirəyi,
Məhləmin bəzəyi,
Yaramın davası,
Qəlbimin özü,
Ürəyimin sözü,
Yanan ürəyimin sərin suyu,
Aşıf- daşan qəlbimin
Təsginini itirmişəm.
Başıma yığılannar,
Dərdimə ortax olannar,
Dərdimə yanannar.
Lay-lay, balam, a laylay,
Gelin balam, a laylay **(S.10, T.30)**.

***

Bala bala dönərmiş,
Balnan yağa dönərmiş,
Bala deməkdən ay bala,
Birdənəm mənim,
Bağrım qana dönərmiş **(S.37, T.30)**.

***

Bura niyə gəlmişəm,
Diyə-gülə gəlmişəm,
Sənin meyiduu mən
Meyidimə qatıb, ay bala,
Ağlamağa gəlmişəm **(S.37, T.30)**.

***

Gül əkdim bitsin diyip,
Quruyup bitsin diyip,
Niyə səən öyrətdilər, can bala,
Axırın itsin diyip.
Lay-lay, balam, a lay-lay,
Ceyran balam, a lay-lay **(S.179, T.30)**.

***

Can bala, o da yandı, yel əsdi,
Mənim balam bu işıxlı dünyanı qoyup,
Axrətdə vatan salmağa
Mənim balam tələsdi.
Lay-lay, balam, a lay-lay **(S.179, T.30)**.

***

Qarğaya quş deməmnəm,
Uçmasa quş dimənəm.
Tay - tuşun gəlsə, sənsiz qapıya
Düşməsə, düş, dimənəm **(S.179, T.30)**.

***

Yaylığın bürüşməsin,
Gözdə, suya düşməsin.
Büynə, soraya, balam,
Gələr, diyip yolunu gözdəmə,
Gələr, diyip ürəyimə düşməsin **(S.179, T.30)**.

***

Arın var arxanada,
Barın var barxanada.
Tikdiyində oturmayan
Balasını böyüdüp,
Dalınnan baxıp
Quvalanmayan,
Nəyin var gorxanada? **(S.179, T.30)**

## ÖLÜ YUYANDA OXUNAN NƏĞMƏ

(5-6 nəfərdən biri oxuyur, hamı «lailahəillallah» deyir)

Lailahə elib düşdüm yola,
Yolda halım necə ola?
İmanınla qəbrim dola,
Lailahəillallah.

Lailahə diyər dağlar, daşlar,
İllallah diyər qardaşlar.
Səcdəyə enər ağaclar,
Lailahəillallah.

Dörd mənsəbdi, dörd məqam,
Hər məqamda bir imam.
Kəbənin dörd tərəfi
Qara örtükdü tamam.
Hacıların hamıyla,
Şeyxin də əlhəmiylə
Lailahə gəlmişəm,
İllallaha gəlmişəm.
Açın cənnət qapıların,
Bir diləyə gəlmişəm.
Dağlarıyla, daşlarıyla,
Qurdlarıyla, quşlarıyla,
Həmsadiq yoldaşlarıyla,
Lailahəillallah.
Lailahəillallah **(S.23, T.12)**.

## AĞILAR

Ay bacı, eylə sabır,
Dünyada gördüm qabır.
Ah çəkib, ağlamaxdan
Qalmadı məndə abır **(S.47, T.12).**

Ay da keçər, ağlama,
İl də keçər, ağlama.
Fələk bağlar qapını
Bir gün açar, ağlama **(S.169 , T.29).**

Aman- aman, ağlaram,
Halım yaman, ağlaram.
Əlimdən nakam getmiş
Qardaş, deyib ağlaram **(S.133, T.12).**

Arpa biçdim, dərd oldu,
Şirrim xana ərz oldu.
Əzizlər itirmişəm
Ölüm mənə dərd oldu **(S.136, T.12)**

Atamın taxdı qara,
Boynuma yıxdı qara.
Mən niyə yaranmışam
Bu qədər baxdı qara? **(S.136, T.12)**

Atamın atı qara,
Minib gedəydim Cara.
Yarammamış olaydım
Ay, belə bəxti qara **(S.47, T.12).**

Aşiqəm yasa gəlir,
Yolları basa gəlir.
Sağlığında gəlməyən
Öləndə yaşa gəlir **(S.47, T.12).**

Aşıq haranı gəzir,
Ooçu bərəni gəzir.
Can burda, cəsəd burda,
Fikrin haranı gəzir? **(S.47, T.12)**

Aşığam yol açılar,
Gün çıxar yol açılar.
Qəbrim qoy yol ağzına
Sevgilim yola çıxar **(S.55, T.37).**

Ağ alma allanıncah,
Budaxdan sallanıncah.
Mən sənnən əl üzmərəm
Qəbirə sallanıncah **(S.47, T.12).**

Ağ dəvə düzdə varmı,
Axtar gör, düzdə varmı.
İtirmişəm qardaşı
Bizdə yox, sizdə varmı? **(S.93, T.50)**

Ağ çitin zolağıyam,
Çöllərin bu lağıyam.
Ana, dəymə xətrimə
Üç ilin qonağıyam **(S.47, T.12).**

Ağacda yaşıl yarpaq,
Saraldı, düşdü yarpaq.
Baş altına daş qoyub
Tökdülər qara torpaq **(S.160, T.12).**

Bazarda atlaz ağlar,
İynəsi batmaz ağlar.
Təkcə anası ölən
Gecəsi yatmaz ağlar **(S.133, T.12).**

Bacılar bacısıyam,
Şirinlər acısıyam.
Harda belə ölən var
Mən onun bacısıyam **(S.160, T.28).**

Bağda bitən kələmlər,
Rəngli-rəngli qələmlər.
İstəkli yarı ölən
Ölməsə də vərəmlər **(S.169, T.29).**

Bir quş uçdu küləkdən,
Qolum sındı biləkdən.
Ayrılıb gedən anam
Halallıq ver, ürəkdən **(S.47, T.12).**

Boz atın niyə getdi,
Nə dedim niyə getdi.
Öydən bir arxa gedər
İkisi niyə getdi **(S.47, T.12).**

Bu dərə uzun dərə,
Mən də öldüm min kərə,
Sənsiz dura bilmərəm
Apar məni də qəbrə **(S.169, T.29).**

Bulaq başı qaradı,
Davan daşı qaradı.
Bu mənim qara baxdım
Binə başdan qaradı **(S.47, T.12).**

Bulaq başında badam,
Bu həyatda mən yadam.
Oynayıram, gülürəm
Elə bilirsiz şadam **(S.169, T.29).**

Bülbülün bağrı sarı,
Baxçası, bağı sarı.
Sənin xırda külfətin
Ağlayır zarı-zarı **(S.169, T.29).**

Qabırım qazılıbdı,
Daşlara yazılıbdı.
Başıma gələsilər
Daşıma yazılıbdı **(S.45, T.20).**

Qabrım Qanıx deyilmi,
Su bulanıx deyilmi.
Dərd əlindən ölməyim
Sizə yanıx deyilmi? **(S.169, T.29)**

Qabur dibində otur,
Salam verəndə götür.
Öləndə sağ tərəfdən
Nərdiyannan sən götür **(S.47, T.12).**

Qanıx qırağındayam,
Ləmpə çırağındayam.
İtirmişəm yarımı
Onun sorağındayam **(S.108, T.16).**

Qara qaş altdadı,
Nazbalış baş altdadı.
Sizi nisgil qoymazdım
Əllərim daş altdadı **(S.169, T.29).**

Qardaş məni yandırdı,
Keçənnəri qandırdı.
Şərbət bilib duz verdi
Ürəyimi yandırdı **(S.160, T.28).**

Qardaşın qələm qaşı,
Otuz ikidi yaşı.
Axtarıb hardan tapım
Sənin kimi qardaşı? **(S.160, T.28)**

Qardaşın qara daşı,
Yandırır dağı daşı.
İtirmşəm, tapbıram
Şümal boylu qardaşı **(S.160, T.28).**

Qax başında qala var,
Qaxda karvansara var.
Mənim cavan canımda
Sağalmayan yara var **(S.47, T.12).**

Qəbirstan bir kənd oldu,
Nədənsə erkən doldu.
Viran qalsın buranı
Hər kim gəldi, bənd oldu**(S.160, T.28)**

Dağlarda qar səsi var,

Çöldə maral səsi var.
Atın ifcil nallanır
Səndə səfər səsi var **(S.23, T.12).**

Daha sizə gəlmərəm,
Lap gəl desə, gəlmərəm.
Vurannar elə vurdu
Heç özümə gəlmərəm **(S.169, T.29)**

Dağda çiskin olurmu,
Duman çiskin durmu.
Ağla gözüm, çox ağla.
Bundan pis gün olurmu?**(S.47, T.12)**

Dağlardan yığdım ağ daş,
Cibim dolu qarandaş.
İtirdi bacı səni
Anan ölsün, ay qardaş **(S.160, T.28).**

Dağnan yenişimdi,
Çarxnan dönüşümüdü,
Gəldim sizi görməyə
Bəlkə son görüşümdü **(S.174, T.30).**

Dağlar düzə dönəydi,
Ulduz yerə enəydi.
Balamı fələk aldı
Dünyada bir dənəydi **(S.174, T.30).**

Dedim sana, az ağla,
Gedən oldun, az ağla.
Mənnən keçən günlərin
Bir kağıza yaz, ağla **(Ə.5, S.27).**

Dərdli-dərdli ağlama,
Ürəyimi dağlama.
Dərdim onsuz da çoxdu
Dərdi dərdə bağlama **(S.169, T.29).**

Dərdim qalalar yıxar,
Qala balalar yıxar.
Dərdimizi danışsam
Yüz min qalalar **yıxar (S.204, T.12).**

Dərdim dəryada qaldı,
İşim fəryada qaldı.
Ölməyimə yanmıram
Ovladım yada qaldı **(S.47, T.12).**

Dərya Qanıx deyilmi,
Su bulanıx deyilmi,
Bax, bu dərddən mən ölsəm,
Sənə yanıx deyilmi? **(S.47, T.12)**

Dəryada dərdim qaldı,
Əzrayıl canım aldı.
Canım almax dərt deyil
Yarım özgəyə qaldı **(S.45, T.12).**

Dur gedək Beşbulağa,
Suyu sərxoş bulağa.
Sən dərtdi, mən yaralı
Tökək qan-yaş bulağa **(S.160, T.28)**

Dəryada naxa balıx,
Üsdü göy, altı Qanıx.
Səbr edin, ay qızlar
Hamıda var bu yanıx **(S.160, T.28).**

Eləmi, dəli qoyun,
Başıma dəli oyun.
Mən qardaş itirmişəm
Adımı dəli qoyun **(S.136, T.12).**

Eləmi, il düyünü,
İlməsi il düyünü.
Dərdimin çoxluğunnan
Unutdum bildiyimi **(S.136, T.12).**

Yad et cavan çağımı,

Sındırma budağımı.
Yol üsdə qəbrim qazı
Dost görsün torpağımı **(S.169, T.29)**

Yarımadım yara mən,
Vaxtsız geydim qara mən.
Cəfa çəkdim, can üzdüm
Çıxmadım kənara mən **(S.23, T.12).**

Yağış yağır, səsi var,
Yağdıqca həvəsi var.
Cavan ölən balamın
Torpaqda da səsi var **(S.169, T.29).**

Yetiməm, atam yoxdu,
Qəribəm, vətən yoxdu.
Düşmüşəm qərib yerə
Səsimə yetən yoxdu **(S.47, T.12).**

Yolda yesir ağlıyır,
Güldən dəsdə bağlıyır.
Dostum ayrılıp getdi
Ürəyim qan ağlıyır **(S.45, T.20).**

Kababam qanım yandı,
Çevrildim, yanım yandı.
Can evimdə ciyərim
Ağzımda dilim yandı **(S.23, T.12).**

Mən aşıq, gəzdim, gəldim,
Otunu əzdim, gəldim.
Sənin qəbrini görüb
Əlimi üzdüm, gəldim (Ə.5, S.28).

Məçitdə yatan oğlan,
Köynəyi kətan oğlan,
Nişanlın əldən gedir,
Bixəbər yatan oğlan **(S.45, T.20).**
Məhlədə qoç yatıbdı,
Qoç buynuza çatıbdı.
Hey, bu yarın əlləri
Qızıl qana batıpdı **(S.93, T.12).**

Məhləyə su düşübdü,
Limonlar büruşübdü.
Qardaş, sənin dərdinnən
Bacın xəstə düşübdü **(S.47, T.12).**

Məhlədə ot bitibdi,
Otun kökü itibdi.
Mən anamdan ayrılan
Bu gün dörd ay bitibdi **(S.47, T.12).**

Məggəyə gedən hacı,
Başında qoyan tacı.
Dünyada qərip şeydi
Qardaş olmayan bacı **(S.47, T.12).**

Od isti, aləm isti,
Odundan alıb isti.
Ayağımdan od tutdu
Başımdan çıxdı tüstü **(S.23, T.12).**

Palıdın tiri mənəm,
Yer altda çürümənəm.
Gəlsinlər ziyarata
Qızların piri mənəm **(S.47, T.12).**

Çatanatan ağlaram,
Yatanatan ağlaram.
Torpağın torpağıma
Qatanatan ağlaram **(S.169, T.29).**

Çayda sular dağılmaz,
Xam su içən sağ olmaz.
Bala dərdi çəkənnər
Ömrü boyu sağalmaz **(S.160, T.28).**
Çiçəyim açmayaydı,

Açılıb saçmayaydı.
Gözlərimdən axan yaş
Bir qara daş olaydı **(S.160, T.28).**

Sarı armud dəyibdi,
Baş budaxdan əyibdi.
Ay mənim əziz dostum,
Güllə hara dəyibdi? **(S.47, T.12)**

Sağa sarı yaraşır,
Gur saçların sarmaşır.
Belə ölən kəslərə
Ağlamax lap yaraşır **(S.160, T.28).**

Su aşağı lil gedər,
İstəklimə dil gedər.
Qardaşımın dalınca
Dəstə-dəstə el gedər **(S.93, T.50).**

Suya getmə, susallar,
Su yolunda pusallar.
Sənin ipək saçınnan
Heykələ bağ kəsəllər **(S.23, T.12).**

Sən məni ağlar qoydun,
Sinəmə dağlar qoydun.
Bükdün mənim boynumu
Gözümü ağlar qoydun **(S.169, T.29)**

Tikişi bilən işlər,
Ağ corabı naxışlar.
Söyləsəm, ağlayarsan
Başıma gələn işlər **(S.160, T.28).**

Xancal üsdə ağ mahi,
Mən çəkirəm bu ahi.
Mən ki, yanıb tököllən
Yol vermə sən, ilahi **(S.136, T.12).**
Xəsdəyəm, bükülmüşəm,
Xəzəltək tökülmüşəm.
Toy paltarı istədim
Kəfənə bükülmüşəm **(S.133, T.44).**

Sağa qardaş ağlasın,
Qurulu bardaş ağlasın.
Mən ağlıya bilmirəm
Sağa dağ-daş ağlasın **(S.160, T.28).**

Gedirəm yolum Şirək,
Sürəkdi dəmir dirək.
Neynirəm gen dünyanı
Sınrıbdı cavan ürək **(S.47, T.12).**

Gedən, yolun haradı,
Cüt köynəkdə yaradı.
Baxma mənim dilimə
Ürəyimdə yaradı **(S.47, T.12).**

Gecə uzun, ay batmaz,
Dərd əhli gecə yatmaz.
Mən təki bəxti qara
Allah bir də yaratmaz **(S.107, T.12).**

Göz yaşım bir-bir düşür,
Axaraq bir-bir düşür.
Qoşa keçirən günlər
Yadıma bir-bir düşür **(S.169, T.29).**

Gözlərim qaş atdadı,
Yasdığım baş atdadı.
Doğru diyə bilmirəm
Barmağım daş atdadı **(S.169, T.29).**

Göydə ulduz paradı,
Tamam canım yaradı.
Gecə vağyada gördüm
Mənim baxdım qaradı **(S.45, T.20).**

Göydə uçan quba qaz,

Dərdim çox, dərmanım az.
Mən ölmüşün dərdini
Xuda deyilsə bilməz **(S.47, T.12).**

Görünən qara dağlar,
Ətəyi duman dağlar.
Mən dərdimi söyləsəm
Eşidənlər qan ağlar **(S.47, T.12).**

Gəl məni dindirməyin,
Qəmliyəm, dindirməyin.
Hər yandan yaralıyam
Od verib, yandırmayın **(S.136, T.32)**

Gəlinlər gedər bağa,
Saçı dəyər yarpağa.
Gəlinlərdə adətdi
Gedər, girər torpağa **(S.23, T.12).**

Ölürəm, üsdümə gəl,
Yanıram, tüsdümə gəl.
Bəlkə görə bilmədim
Qəbrimin üsdünə gəl **(S.160, T.28).**

Əzzim aralara,
Dərman qoy yaralara.
Fələk də qənim olub
Biz bəxti qaralara **(S.47, T.12).**

Əzzim bağrı qara,
Bir quş, var bağrı yara.
Lalədən gözəl gül yox
Onun da bağrı qara **(S.45, T.20).**

Əziz bacım, yaz, ağla,
Payız ağla, yaz ağla.
Bir-bir deyim dərdimi
Sən kağıza yaz, ağla **(S.108, T.16).**

Əzizim aman olar,
Sovursa saman olar.
Qardaşsız bacıların
Günü çox yaman olar **(S.200, T.48).**

Əzizim qərib getdi,
Arzusun qərib getdi.
Əvvəl aman vermədi
Qönçəsin qərib getdi **(S.108, T.16).**

Əzizim dağ başıdı,
Dağ üşdü, dağ başıdı.
Dağda bir toy tutuldu
Şabaşı göz yaşıdı **(S.45, T.20).**

Əzizim xana gərək,
Qurum ağ xana gərək.
Mən dərdimi deməyə
Bir xəlvətxana gərək **(S.136, T.32).**

Əzizim kəfənləndi,
Ömiür axır kəfənləndi.
Yenə də of deməzdim
Məni yad kəfənlədi **(S.136, T.32).**

Əzrayıl canım alır,
Dərdim dəryaya qalır.
Alma canım, əzrayıl,
Balalar yetim qalır **(S.160, T.28).**

Əymə, mənim tağımı,
Sındırma, budağımı.
Yol üsdə basdır məni
Yar görsün torpağımı **(S.160, T.28).**

Ələk dolu barama,
Yaxşı pisi arama
Anam çırağı tutsun
Bacım baxsın yarama **(S.133, T.12)**

Qəlbimə daş bağlaram
Əzizim yaş bağlaram,
Ay qardaş, səndən ötrü
Yuyaram, yaş bağlaram.**(S.136, T.32)**

## MƏZAR ÜSTƏ DEYİŞMƏ

### Yar eşqiynən mən gəzirəm məzarı

Diyillərki bi gəlinin əri ölübmüş. Əri ölən gəlin qəbirsannığa gəlir. Qəbirsannıxda dərtdi - dərtdi gəzərkən habu gəlini çoxdan sövən bi oğlan habu gəlinin yanna gəlif diyir:

**Oğlan:**
Qaralar giyinmisən
Yasdadı başın.
Qüdrətdən çəkilip
Qaradı qaşın.
Ölən atandımı, yoxsa qardaşın,
Ahu gözdüm, nə gəzirsən məzarı?

**Gəlin:**
Qaralar giymişəm
Yasdadı başım.
Qüdrətdən çəkilip
Qaradı qaşım.
Ölən atam döylü, ya da qardışım.
Yar eşqiynən mən gəzirəm məzarı.

**Oğlan:**
Nə müddətdi, sən habura gəldiyin,
Ağlayıban çeşmi - yaşın sildiyin,
Nə müddətdi səən yarın öldüyü,
Ahu gözdüm, nə gəzirsən məzarı?

**Gəlin:**
Duman gəlif dağlarını bürümüş,
Çisgin gəlif ağır elə yerimiş.
Yeddi ildi məəm yarım öldüyü,
Yar eşqiynən mən gəzirəm məzarı.

**Oğlan:**
Duman gəlif dağlarını bürümüş,
Çisgin gəlif ağır elə yerimiş.
Yeddi ildə səən yarın çürümüş,
Ahu gözdüm, nə gəzirsən məzarı?
**(S.167, T.30)**

## BAYATILAR

A qız, adın Mirvari,
Gəl başımın sərdarı.
Səni diyip gəlmişəm
Bağda gizdən, dər narı **(T.43).**

A qız, adın Gülcahan,
Əlimdədi gül yaxan.
Məni atıp getmə, gəl
Nə diyər, yannan baxan **(T.43).**

A süsənim, sünbülüm,
Tər çiçəyim, tər gülüm.
Sən ol mənim sevgilim
Həm sevinim, həm gülüm **(T.43).**

Adındı sənin Püsdə,
Qoşa narın döş üsdə.
Mina gərdən, incə bel
Salmısan məni xəsdə **(T.43).**

Ay adı Fatma gəlin,
Qaşdarı çatma gəlin.
Qaynanan xəsdələnip
Axşamnan yatma, gəlin
**(T.43).**

Ay bacı, gedək bağa,
Güllü - çiçəkli bağa.
Ürəyim qutu deyil
Açıp gösdərim sağa
**(S.200, T.48).**

Ay biləndər, biləndər,
Üzünü mənə döndər.
Gəl tutuşaq əl-ələ
Apar məni, gülün dər **(T.48).**

Ay qız, adın Zərqələm,
Qaşa çəkmisən qələm.
Qaşın məni çalıpdı
Gecə qoymur dincələm **(T.43).**

Ay qız, adın Hürüdü,
Canım dərtdən çürüdü.
Səni atıp getmədim
Nə öləsi yeridi **(T.43).**

Ay qız, adın Gülara,
Əl uzatdım çinara.
Gülərmi, danışarmı
Dünyada bəxdi qara?
**(S.47, T.12)**

Ay qız, adın Güldəsdə,
Dərdinnən düşdüm xəsdə.
Ol dərdimin dərmanı
Əlacım yox heş kəsdə
**(S.134, T.30).**

Ay qız, adın Gülcahan,
Əlimdədi gül yaxan.
Məni atıp getmə, gəl
Nə diyər yannan baxan **(T.43).**

Ay doğdu, batmadımı,
Sevən yar yatmadımı.
Səni yaradan Allah
Məni yaratmadımı?
**(S..204, T.12)**

Ay doğub hara gedir,
Doğduqca hara gedir.
Atanın pisi olmaz
De, fikrin hara gedir?
**(S.47, T.12)**

Ay işıxlı gecədi,
Kilim deyil, keçədi.
Mənim yaşım on səkkiz
Sənin yaşın neçədi?
**(S.107, T.12)**

Ay yanında halə var,
Ot üstündə jalə var.
Yara dəyip dolaşma
Gözündə piyalə var **(T.43).**

Ay oğlan, aşiq oğlan,
Öyə yaraşıx oğlan.
Sözü gerçək, özü yox
İşi dolaşıx oğlan **(T.43).**

Ay sarı sancax oğlan,
Qızdan utancax, oğlan.
Anam xəbər tutuncax
Qoşulax, qaçax, oğlan
**(T.43).**

Ay saçı burma gəlin,
Uzaxda durma, gəlin.
Qaynanan sənə qurban
Aranı vurma, gəlin **(T.43).**

Ay ulduza allanar,
İşıx yerə sallanar.
Qız-gəlinlər toylara
Gedəndə sığallanar **(T.43).**

Ay üzün ala döndü,
Doşabın bala döndü.
Hər birimiz bir çiçək
Sevgimiz bala döndü **(T.43).**

Ay gözümün qarası,
Quzu ceyran balası.
Heç bir oğlan tapmadım
Bircə məni alası **(S.47, T.12).**

Ay gəlin, tezə gəlin,
Əlində kuzə gəlin.
Qədəmlərin mübarək
Xoş gəldin, bizə, gəlin **(T.43).**

Ayaxqabı altdadı,
Yağ vurmadım, çatdadı.
Mən yarıma söz atdım
Yarım kirpik qatdadı **(T.43).**

Ayağında qara məs,
Qara məsi yerə bas.
Ay məni sevən yarım
Elçilərin hanı bəs?
**(S.133, T.44)**

Aynada ayı gördüm,
Qaşında yayı gördüm.
Yüz gözəlin içində
Özümə tayı  gördüm **(T.43)**.

Aynadan işıx düşdü,
Öyə yaraşıx düşdü.
Ömür keşdi, gün keşdi
Üzə qırışıx düşdü **(T.43)**.

Ayrılıq da bir divar,
Həsrət adlı bir di var.
Sən yoxsan, dünyam da yox
Birdi heçlik, birdi var
**(S.42, T.40)**.

Ayım, ulduzum, ay qız,
Gecəm, gündüzüm, ay qız.
Gəlginən qardaşıma
Olum baldızın, ay qız **(S.47, T.12)**.

Ala gözdər süzüldü,
Neçə dodax büzüldü.
Məni yardan edənlər
Ölüp, itdi, üzüldü **(T.43)**.

Aldım, atdım havaya,
Düşdü divanxanaya.
Əgər məni sevirsən
Gedək kəbinxanaya **(S.47, T.12)**.

Alma dilim-dilimdi,
Ötmə dil-dil, din hindi.
Məni yardan eliyən
Zəhər, acı dilimdi **(T.43)**.

Almayam, soyma məni,
Qabıxsız qoyma məni.
Anamın bir qızıyam
Cavabsız qoyma məni **(T.49)**.

Almalar zədəlidi,
Sevgilim hədəlidi.
Sevgilimə söz olmaz
Mənnən ötrü dəlidi **(T.43)**.

Alçax dağdan dağ olmaz,
Bağında calax olmaz.
Mərd kişinin övladı
Ölər, üzə ağ olmaz **(T.43)**.

Alçax dağdan dağ olmaz,
Şilgirlikdə bağ olmaz.
Yad yerdən qız sevənin
Ürəyində yağ olmaz **(T.43)**.

Ana qızın qız dağı,
Qız ananın budağı.
Qız  qoşulup gidəndə
Çıxar ana cızdağı **(T.43)**.

Armudam, qaxla məni,
Qoxlayıp saxla məni.
Yarım gəlincə ölsəm
Sandıxda saxla məni **(S.47, T.12)**.

Armudu əkdim düzə,
Gecə döndü, gündüzə.
Ürəyimi vermişəm
Qələm qaş, ala gözə **(T.43)**.

Armudu əkmə düzə,
Hər gecə gəlmə bizə.
Qəlbimə od salmısan
Biddən gələrik gözə **(T.43)**.

Arxalığın zil qara,
İndi düşmüşəm dara.
Dünyada gün görmədim
Mən yazıx baxdı qara
**(S.108, T.16)**.

Atanın var-döyləti,
Dingildədər öyrəti.
Qapıda toxmax kimi
Başa dəyər minnəti **(T.43)**.

Atlı gəldi, atlandım,
Yaşlı gəldi, qatlandım.
Hamısı yalan sözdü
Yar gəldi, urvatlandım **(T.43)**.

Atın ayağı səkir,
Başında qara kəkil.
Qız atdanıp gedəndə
Peyğəmbər olsun vəkil
**(S.107, T.12)**.

Atın qulanı gəldi,
Dalda qalanı gəldi.
Qəribsiyən könlümün
Dərdi alanı gəldi **(T.43)**.
Atına, can atına,

Əyninin xalatına.
Qızıl yəhər yaraşır
Yarın kəhər atına **(S.47, T.12)**.

Axşamlar səhəriylə,
Boz atın yəhəriylə.
Qardaşım itkin düşüb
Çağırdım bayatiylə **(S.47, T.12)**.

Aşiqəm əjdahanı,
İlanı, əjdahanı,
Doymaz şirin ləbindən
Aşiqin ac dəhanı **(S.182, T.30)**.

Aşığam, ay qız məni,
Yıxılsam, durğuz məni.
Hara belə gedirsən
Yad yerdə qoyub məni?
**(S.47, T.12)**

Ağ düyünün aşıyam,
Corabın naxışıyam.
Qızlar, sizin dəsdədə
Mən dəsdənin başıyam
**(S.47, T.12)**.

Ağ çiti qara basma,
Ayağın yerə basma.
Hərə bir söz desə də
Heç kəsə qulaq asma
**(S.47, T.12)**.

Ağaşda alma qaldı,
Qazanda dolma qaldı.
Bədsülə qismət oldum
Ay, ilim qalmaqaldı **(T.43)**.

Ağaca verdim dayax,
Sındı dayax, nə sayax.
Gitdim yarım görməyə
Çıxdı yola bədayax **(T.43)**.

Ağaclar bürüm-bürüm,
Əy büdağı, mən dərim.
Yarın gözü yoldadı
Hona sovqat göndərim **(T.43)**.

Ağaclar topa-topa,
Qar yağır lopa-lopa.
Kimin dərdi olardı
Sevən sevəni tapa **(S.123, T.15)**.

Ağacın burcu mənəm,
Açılmaz burcu mənəm.
Hər gün səninlə olsam
Gülərəm, incimənəm **(S.160, T.48)**.

Ağlayaram, sızlaram,
Sızlayar hər gün yaram.
Öz xoşunla gəlməsən
Gərək özüm yalvaram **(T.43)**.

Bala baba balası,
Bala dağın lalası.
Balaya qurban olsun
Həm atası, anası **(T.43)**.

Balakənin dağına,
Çöyrülüf bax sağuva.
Bir-iki mahnı diyax
Balakən oylağına **(S.1, T.12)**.

Baldırğandan bal olmaz,
Qoyma xaldan xal olmaz.
Xamır yiyən gözəlin
Dili çıxar, lal olmaz **(T.43)**.

Baxçada dolanmışam,
Can-başdan sulanmışam.
Baxçada oğlan görüb
Çəpərdən boylanmışam **(T.43)**.
Baxçasız, barsız adam,

Heyvasız, narsız adam.
Qalaysız misə bənzər
Dünyada arsız adam **(S.157, T.44)**.

Baş gəlin yaşmaqdadı,
Ayağı başmaqdadı.
Gəzəyən arvadların
Meyili qaçmaqdadı **(T.43)**.

Başında ağ şalı var,
Ağ şala  oxşarı var.
Özü avar balası
Muğala oxşarı var **(S.47, T.12)**.

Baca boyu tüsdüdü,
Ocax öydən isdidi.
Gəlin gözəl olsa da
Qaynanası pis didi **(T.43)**.

Bağça barsız olanın,
Heyva, narsız olanın.
Fələk versin layğını
Ehtibarsız olanın **(S.47, T.12)**.

Bağça-bağlar solmadı,
Gülün dərdim, qalmadı.
Bülbül yandı, yaxıldı
Güllər yada salmadı **(T.43)**.

Bizim yerin dağları,
Gözəldi yaz çağları.
Saçım qara qalaydı
Olmaya ağarmağı **(T.43)**.

Bir ev qurdum qalalı,
Övü xalça-xanalı.
Of, sənə qurban olum,
Üskük ağız Talalı **(S.194, T.33)**.
Biçin biçip gəlirəm,
Ağ su içip gəlirəm.
Yarım, sənin dərdinnən
Göydən uçup gəlirəm
**(S.136, T.32)**.

Boynu bükük bənöyşə,
Sərilip düzə, döşə.
Dərip yara göndərdim
Ətirrənsin həmeyşə **(T.43)**.

Boşamısan arvadı,
Gidip tutmusan yadı.
Davadı axşam, sabah.
Ağzınnan getmir dadı **(T.43)**.

Bu bağda yoşan bitər,
Altında kəklik itər.
Mən yara nə dedim ki,
Ağ üzündə durdu tər
**(S.47, T.12)**.

Bu qala Car qaladı,
Altı Zaqataladı.
Yar dərdini çəkməkdən
Cavan ömrüm qaradı
**(S.47, T.12)**.

Bu dağların əyrisi,
Qara qoyun dərisi.
Yüz illərlə yaşasın
Zaqatala pərisi **(S.47, T.12)**.

Bu dağı mən aşaram,
Bulud görsəm, çaşaram.
Mən bir qaynar qazanam
Əl vurmayın daşaram
**(S.23, T.12)**.

Bu dəfi çalan gəlsin,
Çalıb oynuyan gəlsin.

Biznən mahnı diməyə
Bərabər bilən gəlsin
**(S.107, T.15)**.

Bu qaya Qızıl qaya,
Yolları hazır qaya.
Sürülər keçən zaman
Sayını yazır qaya **(S.21, T.40)**.

Bu yolu izdiyirəm,
Tüfəngi düzdüyürəm.
İtirmişəm o yarı
Yolunu gözdüyürəm
**(S.47, T.12)**.

Bu mahnı həng iləndi,
Kəlməsi bənd iləndi.
Deməyin, eşqə düşüb
Söhbətim dərd iləndi
**(S.47, T.12)**.

Bu təpə daşlı təpə,
Səndən kim aşdı təpə.
Ovçuya xəbər yetir
Maralın qaçdı, təpə **(T.49)**.

Bulax suyu durulsun,
Bakıya tel vurulsun.
Məni ayrı salanın
Balaları qırılsın!
**(S.47, T.12)**

Bulax üstə bulannam,
Su daşıyıb, sulannam.
Bulaxda oğlan görsəm
Yarım bilib, tullannam **(T.43)**.

Bulaxda  sarı sular,
Su gəlip nova dolar.
Allaha pis gəlməsin
Nə qansız xalxdı bular
**(S.108, T.16)**.

Buludum, ay buludum,
Səni necə unudum.
Mən sənnən su istədim
Sən verdin udum-udum
**(T.43)**.

Buğdası gürganədi.
Yar sevdim bir danədi.
Olmuşam yar dəlisi
Deyirlər divanədi **(S.47, T.12)**.

Bülbül qonubdu bağa,
Bağ da söylədi mağa.
Bir sözüm var deyəsi
Kimlə yolluyum sağa
**(S.160, T.28)**.

Bülbül gülsüz ötməzmiş,
Gül tikansız bitməzmiş.
Əli yardan üzülənin
Əli işə yetməzmiş **(S.62, T.44)**.

Bülbülüm üzə çıxar,
Həmişə düzə çıxar.
Mahnı diməyə qalsa
Deyərəm, yüzə çıxar **(S.47, T.12)**.

Bıçağın sapı tasma,
Tasmadan boyun asma.
Sən mənim yarımsansa
Hər sözə qulax asma
**(S.108, T.16)**.

Cardan aşağı Tala,
Ortada Zaqatala.

Balam dərdə düşübdü
Xuda, sənnən bi çara
**(S.160, T.28)**.

Cardan limon almışam,
Onu çaya salmışam.
Gözəl, göyçək bacıma
Şanlı məktub yazmışam
**(S.47, T.12)**.

Cimcilimdən çay olmaz,
Yaz gitməsə yay olmaz.
Tay tayını taparsa
Ömür-günü zay olmaz **(T.43)**.

Cənnət yolu dolama,
Cənnət axtar, qovlama,
Cənnət yarın qoynunda
Xəbər göndər, anama **(T.43)**.

Corabın ağına bax,
Dəstələ, bağına bax.
Mən yadına düşəndə
Yaqublu dağına bax
**(S.60, T.30)**.

Çay qırağı toxmacar,
Yel əsər, burcun açar.
Yarım buxovlu getdi
Haray, mənə bir açar
**(S.47, T.12)**.

Çay daşdı, daşı gəldi,
Düz getdi, naşı gəldi.
Qonşudan aş gəlincə
Gözümün yaşı gəldi **(T.43)**.

Çaya saldım qaşığı,
Oldum ellər aşığı.
Qardaşsız bacıların
Olmuyup yaraşığı **(T.43)**.

Çaylar axar, lillənər,
Bağ-bağçalar güllənər.
Körpəmizə can qurban
Görək nə vaxd dillənər? **(T.43)**

Çaylaxda daş olaydım,
Ağacda quş olaydım.
Yuva qurub qoynunda
Sənə yoldaş olaydım **(T.43)**.

Çeşmə yolu suludu,
Su da suyun quludu.
Məhəbbətin yolları
Çeşmələrin yoludu **(T.43)**.

Çeşmə suyu sərindi,
Sərin yeri dərindi.
Sudan içən qızların
Hərəsi bi gəlindi **(T.43)**.

Çox görmüşəm, gülən də,
Ağlayan da, gülən də.
Mənimçün dünya gülür
Nazlı yarım güləndə
**(S.192, T.43)**.

Çıxaydım hündür dağa,
Baxaydım Allah, sağa.
Balam gələsi bilsəm
Qoç kəsərdim sadağa
**(S.160 T.28)**.

Çıxdım dağlar döşünə,
Baxdım öylər tuşuna.
Sarıca döşdük oluf
Sarılaydım döşünə **(S.22, T.30)**.

Çıxdım çinar başına,
Baxdım öylər tuşuna.

Orda bir oğlan sövdüm
Oxşar cənnət quşuna
**(S.119, T.47)**.

Çəpər basdım ucunnan,
Yaylıx götdüm xurcunnan.
Bir cüt öpüş isdədim
Qonşumuzun qızınnan
**(S.157, T.44)**.

Çəpəri hörməmişəm,
Nə desə, gülməmişəm.
Mənə bir yar seçdilər
Ömrümdə görməmişəm
**(S.47, T.12)**.

Damburun teli nazik,
Qolunda var bilərzik.
Bu gün bir qız görmüşəm
Beli boynundan nazik
**(Ə.5, S.28)**.

Damburun teli uzun,
Şantalar düzüm-düzüm.
Bir bu yana baxsana
Ay mənim ala gözlüm
**(S.47, T.12)**.

Damın damın üstədi,
Yar dodağı püstədi.
Öpüş almaq istədim
O da mənnən istədi **(T.43)**.

Danışır xımır-xımır,
Öküzdən qaymaq umur.
Özü cənnət bağında
Özgəsinə göz yumur **(T.43)**.
Darını əkdim düzə,
Barını verdi bizə.
Yarnan yolda görüşdüm,
Örpək çəkmişdi üzə **(T.43)**.

Daxçada duz qalmadı,
Bulaxda buz qalmadı.
Bu yıxılmış Muxaxda
Mağag bir qız qalmadı
**(S.206, T.12)**.

Daş üsdünə daş qoydum,
Balış üsdə baş qoydum.
Hu günnər harda qaldı
Gözdərimdə yaş qoydum **(T.43)**.

Daşağılın qızdarı,
Dingədamax özdəri.
Müşdərini qolayar
Yola baxar gözdəri **(T.43)**.

Daşağılın daşdarı,
Çataxlaşıp başdarı.
Ağzı şirin söhbətdə
Bəlli deyil yaşdarı **(T.43)**.

Dağ başında darvaza,
Əl bağladım namaza.
Sən ki, məni almırdın
Niyə saldın ağıza? **(S.47, T.12)**

Dağa-daşa hay  düşər,
Ceyran-cüyür hürküşər.
Yardan kam alanmasam
Ürəyimə xal düşər
**(S.134, T.30)**.

Dağda maral durupdu,
Buynuzuunu burupdu.
Baxdımın qabağında
Qafqaz dağı durupdu
**(S.47, T.12)**.
Dağda maral tək otlar,
Gah səksənər, gah otlar.

Sənsiz yaram sağalmaz
Gəl yarama səp otlar
**(S.23, T.12)**.

Dağda maralım çoxdu,
Səbrü-qərarım çoxdu.
Bostanı dolu döyüp
Tağda yaralım çoxdu
**(S.133, T.44)**.

Dağda payız olanda,
Sarı çiçək solanda.
Yara nişan göndərin
On beş yaşa dolanda **(T.49)**.

Dağda səni görmüşəm,
Elə bil ki, ölmüşəm.
Niyə mənə dimirsən,
Mən ki, səni görmüşəm
**(S.47, T.12)**.

Dağdan atdım bir qaya,
Süründüm aydan-aya.
Cavan ömrüm zay gedir
Günləri saya-saya
**(S.47, T.12)**.

Dağdan dağa gəzərəm,
Quşlara dil yazaram.
Bir quş məni aldatdı
Ona dərman yazaram
**(S.47, T.12)**.

Dağdan endim dərəyə,
Sinəm döndü kürəyə.
Dərədə yar görmüşəm
Od salıbdı ürəyə **(T.43)**.
Dağdağanın dağdadı,
Yarpağı budaxdadı.
Bir gözəli sevmişəm
Yolları uzaxdadı **(T.43)**.

Dağlar başı qaralsın,
Qaralanda qar alsın.
Yar gəzməyən baxçanı
Qaralsın, qara qalsın **(T.43)**.

Dağlar dağlara qaldı,
Otu sarala qaldı.
Abdumecidin dağı
Yenə marala qaldı **(S.92, T.12)**.

Dağlarda qoyun olar,
Toylarda oyun olar.
Dərd çəkmə, əziz qardaş,
Gələndə toyun olar **(S.47, T.12)**.

Dağlarda bir maraldı,
Maral əti halaldı.
Taxsırım varsa öldür
Qanım sənə halaldı **(S.47, T.12)**.

Dağlarda, meşələrdə,
Şam yandı şüşələrdə.
Hamı ana qoynunda
Mən qaldım küçələrdə
**(S.123, T.15)**.

Dağların daşı daşdı,
Daşanda dağdan aşdı.
Fələyin küt qılıncı
Qoyma, bizə yoldaşdı **(T.43)**.

Dağısdan dağ yeridi,
Gürcüsdan bağ yeridi.
Yaşasın Paşan kəndi
Qızdarın çağ yeridi **(S.47, T.12)**.
Dimə, sözü tərsinə,
Mina gərdən, tər sinə.

Sevgi tanrı payıdı
Yozma onu tərsinə
**(S.134, T.30)**.

Dolanar aylar gəlin,
Gərilər, yaylar, gəlin.
Sirrini yaxşı saxla
Açsan yayılar, gəlin **(T.43)**.

Dünya özü bütündü,
Hu da ölüm-itimdi.
Yaxşıları gedipdi
Qalan yetim-yütümdü
**(S.122, T.43)**.

Dəvə baxdı nalbəndə,
Üzü döndü Dərbəndə.
Düz söz deyə bilmirik
Desək, qoymazdar kəndə
**(T.43)**.

Dəvə yolu lehmədi,
Yükü qoydum, çəkmədi.
Dəvəsi ölmüş ərəb
Beli əyri təkkədi **(T.43)**.

Dəyirman daşdı gərək,
Yar qara qaşdı gərək.
Neynirəm qoca yarı
Yar on beş yaşdı gərək
**(S.62, T.44)**.

Dəmir idim, əyildim,
Düyməlәnip, düyüldüm.
Hu vəfasız dünyada
Nə sevindim, nə güldüm **(T.43)**.

Dən yoxsa, sünbül olmaz,
Yaz olmasa gül olmaz.
Güllər vaxsız solanda
Gül üsdə bülbül olmaz **(T.43)**.

Dərbənd yolu isdidi,
Bağçaları hisdidi.
Gəlin gedək yaylağa
Yaylax yolun üsdüdü **(T.43)**.

Dərbənt üsdü barıdı,
Əl çatmaz, yuxarıdı.
Fikir çəkmə, ay oğlan,
Meylim sənə sarıdı **(S.47, T.12)**.

Dərd çoxdu, aça bilməz,
Soyuqdu su, içə bilməz.
Ürəkdə yara çoxdu
Hər yerdə aça bilməz
**(S.55, T.37)**.

Dərdimi dağa diyim,
Yarpağa, bağa diyim.
Bahar xəzan olupdu
Sapa, saplağa diyim **(T.43)**.

Dərisi tumacdadı,
Aldığı qumaşdadı,
Qonşuda aş bişibdi
Nəfisi o aşdadı **(T.43)**.

Dərya suyu lal olar,
Çayda qalmaqal olar.
Axar gedər dənizə
Dayanar, bihal olar **(T.43)**.

Dəryada Naxa balıx,
Altı su, üsdü Qanıx.
Yoldaş tək səndə deyil
Məndə də var o yanıx
**(S.160, T.28)**.
Dərə dağa səmtdidi,
Yanı çaya, bəntdidi.
Dumanı başdan aşıp

Hu da mən tək dərtdidi **(T.43)**.

Dərə döşü yasdıdı,
İti bıçax pasdıdı.
Gözdə özün nəpəkdən
Dil bəd, ayax pastıdı **(T.43)**.

Dərədə qaldı incim,
Oyuldu qəmdən içim.
Yardan ayran istədim
Yerdə qaldı sərnicim
**(T.43)**.

Dərədə daşım qaldı,
Yuvada quşum qaldı.
Ayrı gəzip dolandım
Gözümdə yaşım qaldı **(T.43)**.

Dərəyəm, düz olaydım,
Dillərdə söz olaydım.
Nişannımın yanında
Bəxdəvər qız olaydım **(T.43)**.

Dəsmal yusan, açılmaz,
Saçaqları saçılmaz.
Mənim bu sınıx könlüm
Tar çalsan da açılmaz
**(S.47, T.12)**.

Dəhrəçidən dəhrə al,
Bəhrə verip, bəhrə al.
Hər dulusa inanma
Nehrəçidən nehrə al **(T.43)**.

Evləri yaxın yarım,
Boyuna baxım yarım.
Gözdərin göz götürmür
Heykəli taxın, yarım
**(S.153, T.43)**.

Elin də laləsi var,
Qəlbində naləsi var.
Gedirsən, cavana get
Qocanın bəlası var
**(T.49)**.

Elə ağlamaq olmaz,
Sinə dağlamaq olmaz.
Əhdə vəfasız yara
Ürək bağlamaq olmaz **(T.49)**.

Eləmi xal-xal oldu,
Gül dərdim, xal-xal oldu.
Gülü güldən seçincə
Ürəyim xal-xal oldu **(T.43)**.

Eşidin, qohum-qardaş,
Hər gündə tökürəm yaş.
Xiffət çəkən bacının
Dərdini bilmir qardaş? **(S.55, T.37)**

Eşşəkdən at olarmı,
Çulu qat-qat olarmı.
Qəlbi xayın olanın
Öyü abat olarmı? **(T.43)**

Əziziyəm dərmansız,
Yaram sızdar, dərmansız.
Təbibə de: gəlməsin
Yar sağaldar, dərmansız **(T.43)**.

Əziziyəm ho yandı,
Ho alışdı, o yandı.
Yardan ötrü göynədim
Mən alışdım, o yandı **(T.43)**.
Əziziyəm göy nədi,
Tütək nədi, ney nədi.
Dünya zalım dünyadı
Ələsgəri neynədi? **(T.43)**

Əziziyəm ayımsan,
Ulduzumsan, ayımsan.
Salma məni gözümdən
Sən ki mənim payımsan **(T.49)**.

Əziziyəm asdana,
Anam qoymaz bosdana.
Könül kağız, dil qələm
Yazsam, sığmaz dasdana **(T.43)**.

Əziziyəm bağ banı,
Gül baxçanın bağbanı.
Gülü calax elə sən
Honnan gözəl bağ hanı? **(T.43)**

Əziziyəm bağ hanı,
Bülbül hanı, bağ hanı.
Bülbülü uçurdanı
Qan qussun, çıxsın canı **(T.43)**.

Əziziyəm bənd olmaz,
Gəlin gələr, bənd olmaz.
Nəvə şirindi baldan
Ona bənzər qənd olmaz **(T.43)**.

Əziziyəm dağda qar,
Dağın gücü qolda var.
Çox güvənmə varına
Fələk vurar, dağıdar **(T.43)**.

Əziziyəm düzəm mən,
Əməlimə düzəm mən.
İsdərəmki incini.
Zərif sapa düzəm mən **(T.43)**.
Əziziyəm düzəndə,
Kirpih məndə, göz səndə.
Yar yarın atıp gedər
Bir-birinnən küsəndə **(T.43)**.

Əziziyəm dəymə, din,
Şad könlümü əymə, din.
Sənnən ötrü bağ saldım
Gül butasın əymədin **(T.43)**.

Əziziyəm zara mən,
Düşdüm yayda qara mən.
Gətirin dağdan qarı
Honu verim yara, mən **(T.43)**.

Əziziyəm zər kəmər,
Zəri yığan dərd əmər.
Zəri yığıb qorusan
Arxasıynan şər gələr **(T.43)**.

Əziziyəm Zəringül,
Zər üstünə sərin gül.
Gülü şehli dər, iynə
Yoxsa solar, sərin gül **(T.43)**.

Əziziyəm ilmələr,
Bülbül ağlar, gül mələr.
Könlümə yar düşüpdü
Köynək altda düymələr **(T.43)**.

Əziziyəm incidi,
İnci mərcan, inci dürr.
Yaman öylad, bəd qonşu
Qohum-qardaş incidi **(T.43)**.

Əziziyəm incə dağ,
Dərələri nimçə dağ.
Yaylax yerdə yar sevdim
Qaşdarı qələmçə, dağ **(T.43)**.
Əziziyəm incələr,
Ay keçər, il incələr.
Yar yarına yetişsə
Ürəkləri dincələr **(T.43)**.

Əziziyəm yara di,
Hər daşa, divara di.
Divarın nə xəbəri
Nə diyirsən yara di **(T.43)**.

Əziziyəm yarama,
Məlhəm ol, gəl, yarama.
Yarım mənnən küsüpdü
Duz səpilip yarama **(T.43)**.

Əziziyəm yarı qar,
Yarı külək, yarı qar.
Bahar gözü yaşdıdı
Yağar yağış, yarı qar **(T.43)**.

Əziziyəm yem işi,
Bosdan, qarpız, yemişi.
Səhər durup axdardım
Bosdanımın yemişin **(T.43)**.

Əziziyəm kim oldu,
Məə nəsib kim oldu.
Eşqə düşən  ilk günnən
Hər bir dərdim min oldu **(T.43)**.

Əziziyəm meşədi,
Kol dibi bənöyşədi,
Yar məndən üz döndərip
Könlüm sınıx şüşədi  **(S.11, T.43)**.

Əziziyəm mən sənsiz,
Kitab, dəftər, qələmsiz.
Əcəl gəldi, ölmədim
Sən öldürdün əcəlsiz **(T.43)**.
Əziziyəm mərd Alı,
Namərdi qov, mərd alı.
Namərt mərdə neyliyər
Mərddən qaçar dal-dalı **(T.43)**.

Əziziyəm mərdana,
Sözü danış mərdana.
Qorxaxdan igit olmaz
İgit gərək mərdana **(S.85, T.43)**.

Əziziyəm Nargilə,
Narı dər gilə-gilə.
Ürəyimin gözüdü
O dərdiyin hər gilə **(T.43)**.

Əziziyəm nədəndi,
Dünya gəldi - gedəndi.
Ölüm hakdan olsa da
Ayrı düşən bədəndi **(T.43)**.

Əziziyəm oyan gül,
Oyan baxca, bu yan gül.
Tez açılıb, tez soldun
Məni mağmın qoyan gül
**(S.174, T.43)**.

Əziziyəm sarı dən,
Yarı küləş, yarı dən.
Fələk, sənə neynədik
Qırdın bizi dənbədəm **(T.43)**.

Əziziyəm sünbülüm,
Sənsən mənim öz gülüm.
Yaşadırsan məni sən
Sənsiz ötməz bi günüm **(T.43)**.

Əziziyəm üzdə gəz,
Üzdə  dolan, üzdə gəz.
Gözüm üzə baxanda
Eyləyipdi üzdə gəz **(T.43)**.
Əziziyəm ürək üz,
Ürkək baxış, ürkək üz.
Mən sənə can demişəm
Dimədimki ürək üz **(T.43)**.

Əziziyəm şam dama,
Yanaram dama-dama.
Pərvanəyəm, qoymaram
Şam əriyə, şam dama **(T.43)**.

Əziziyəm ha günnən,
Ho həsrətdən, hu günnən.
Qapın bağlı qalaydı
Qızı verən hu günnən **(T.43)**.

Əziziyəm helə yaz,
Eli dolan, helə yaz.
Yad el səni dinnəməz
Nə yazırsan helə yaz **(T.43)**.

Əziziyəm Həlimə,
Adın yatır dilimə.
İncə belin incəsi
Yaraşıxdı belimə **(T.43)**.

Əziziyəm canım üz,
Canım dərip, canım üz.
Axı, sənə can didim
Demədimki canım üz **(T.43)**.

Əziziyəm gül biçin,
Ağlaram için-için.
Üç gündü yarım gedən
Ağlaram honun üçün **(T.43)**.

Əziziyəm gül yana,
Bülbül qala, gül yana.
Bülbül ilə gül gəlsin
Qoşa dursun yan-yana **(T.43)**.

Əziziyəm gül yana,
Gül açıla, gül yana.
Gülü şaxta vuranda
Bülbül ağlar, gül yana **(T.43)**.

Əziziyəm gül üzüm,
Dərmədim, qaldı üzüm.
Deyilməmiş sözüm var
Yollarda qaldı gözüm **(T.43)**.

Əziziyəm gül, ənbər,
Güllər üstə su əndər.
Maxbər döşək, gül yasdıx
Mənə üzünü çöndər **(T.43)**.

Əziziyəm gülbuta,
Gül üstündə gül buta.
Məni apar özünnən
Əlimnnən tuta-tuta **(T.43)**.

Əziziyəm güldə mən,
Bülbül də mən, gül də mən.
Dodağın gül yarpağı
Yarpaq olum gündə mən **(T.43)**.

Əziziyəm gül-gülə,
Bülbül gülə, gül-gülə.
Sal qolunu boynuma
Calaq olsun gül-gülə **(T.43)**.

Əziziyəm gündə mən,
Xamır sənsən, kündə mən,
Köç sevgilim, gəl bizə,
Niyə gəlim gündə mən? **(T.43)**

Əziziyəm Ər dağı,
Ağla, doldur çardağı.
Bahar qurax gəlipdi,
Üsdə əndər bardağı **(T.43)**.

Əziziyəm, bəydaşı,
Ağır olar bəy daşı.
Cavan ilən ömür sür
Qoca ilən yi aşı **(T.43)**.

Əziziyəm, dağlıyam,
Sinəm dəfdər, dağlıyam.
Anam, bacım gələydi
Dərdim ona ağlıyam **(T.43)**.

Əziziyəm, dilimlə,
Qarpızı kəs, dilimlə.
Yarım inciyən gündən
Düşmən oldum dilimlə **(S.192, T.43)**

Əziziyəm, ilmələr,
Naxış salar, ilmələr.
Vəfasız yar yarına
Qan uddurar, il mələr **(T.43)**.

Əzizim ayran olmaz,
Yağ olmaz, ayran olmaz.
Yarı özüm sevmişəm
Honu ayıran olmaz **(T.43)**.

Əzizim anar, ağlar,
Yar yara yanar, ağlar.
Qərip yerə düşsə yar
Günnərin sanar ağlar **(T.43)**.

Əzizim Ala qapı,
Bıcağın ala sapı.
Səni məndən eyləyən
Dilənsin qapı-qapı **(S.41, T.40)**.

Əzizim aran dadı,
Sirr sözüm arandadı.
Mən sevdim, sən sevmədin
Ayıbım haramdadı? **(T.43)**
Əzizim axar gedər,
İldırım çaxar, gedər.
Bu dünyaya gələnlər
Bəyənməz, çıxar gedər **(T.43)**.

Əzizim ağlar, gəzər,
Dərələr, dağlar gəzər.
Yar yardan ayrı düşsə
Qəlbini dağlar gəzər **(T.43)**.

Əzizim bal dodaxda,
Qatdım ona qaymax da.
Dadanlar doymaz onnan
Dadı qalar damaxda **(S.134, T.30)**.

Əzizim başda qaldı,
Ov atdım, qaşda qaldı.
Mən sevdim, o, sevmədi
Gözlərim yaşda qaldı **(T.43)**.

Əzizim bağa gəlsin,
Yol verin, bağa gəlsin.
Aç zülfünü, tök üzə
Boynuma bağla, gəlsin **(T.43)**.

Əzizim bizdə qaldı,
Karvanı düzdə qaldı.
Yarım getdi, gəlmədi
Kababı közdə qaldı **(T.43)**.

Əzizim bülbüləm mən,
Gül üzünə, gülüm mən.
Məni atıb getmisən
Qoymadınkı güləm mən
**(S.85, T.43)**

Əzizim qala- qala,
Qız qarıyır qala-qala.
Düşmən öyümü yıxdı
Yanımda qala-qala **(T.43)**.

Əzizim qara baxdım,
Ağ baxdım, qarabaxdım.
Qüzeydə lalə dərdim
Güneydə qara baxdım

**(S.153, T.43)**

Əzizim qara qaşdan,
Qar yağıpdı obaşdan.
Hamıdan küsməh olmaz
İllah qohum-qardaşdan **(T.43)**.

Əzizim qarlı gərək,
Dağlar da qarlı gərək.
Özü pis oğlan deyil
Vəfası varmı görək? **(T.49)**

Əzizim qaşda mənəm,
Üzündə qaş da mənəm.
Yarım ova çıxıpdı
Axtarsa quş da mənəm **(T.43)**.

Əzizim qotur qozum,
Budağı çətir, qozum.
Yağlı qozun yimişəm
Gələn il gətir, qozum **(T.43)**.

Əzizim qumral quzu,
Üs - başı xal-xal quzu.
Körpələrdən körpədi
Çatışmayır buynuzu **(T.43)**.

Əzizim qərib ölləm,
Yoxdu məkanım, ölləm.
Ellər də qərif ağlar
Gün keçər, qərib ölləm
**(S.63, T.30)**

Əzizim dalda yeri,
Dalda gəz, dalda yeri.
İki könül bir olsa
Taparlar dağda yeri **(T.43)**.
Əzizim dağda mənəm,
Dağ çəkən dağ da mənəm.
Duman bürüyüp dağı
Honu dağıdan mənəm **(T.43)**.

Əzizim dildə gəzər,
Xoş kəlam dildə gəzər.
Könül sevən gözəli
Göz arar, dil də gəzər
**(S.134, T.30)**.

Əzizim dindir məni,
Faytuna mindir, məni.
Faytunum yolda sınıp
Yarıma göndər məni **(T.43)**.

Əzizim dolan bağı,
Dola qola qolbağı.
Qəlp didiyin şüşədi
Sınsa neynər yamağı? **(T.43)**

Əzizim düzdə qala,
Düz ola, düzdə qala.
Məni yardan eliyən
Yar- deyə, düzdə qala **(T.43)**.

Əzizim düçar oldum,
Yar beli qucar oldum.
Hayıf, cavan çağımda
Külə döndüm, xar oldum
**(S.11, T.43)**.

Əzizim dən-dən oldu,
Gül əkdim, dən-dən oldu.
İllər ilən sevişdik
Ayrılıx birdən oldu **(T.43)**.

Əzizim dərə məndən,
Dağ səndən, dərə məndən.
Yar yara can-can desə
Yol məndən, bərə məndən **(T.43)**.
Əzizim el qardaşı,
Qardaş sevməz qardaşı.
Şeytanı odda yansın
Qırdı qardaş qardaşı **(T.43)**.

Əzizim ellər ayrısı,
Güllər, bülbüllər ayrısı.
Bir gün dözə bilmirdim
Oldum illər ayrısı **(T.43)**.

Əzizim el-obadan,
Kəbədən, Kərbəladan.
Hifz etsin səni Tanrı
Bütün dərtdən, bəladan
**(S.134, T.30)**.

Əzizim zər nədəndi,
Zər gələndi, gedəndi.
Zəri kimlər yığıpsa
Honu da tərk edəndi **(T.43)**.

Əzizim incimərəm,
Dürr sənsən, inci mənəm.
Çəkib dilim çıxarsan
Uf - deyib incəmərəm **(S.85, T.43)**.

Əzizim incə-incə,
Ay dağlar incə-incə.
Gözüm yolda qalıpdı
Yarım öyə gəlincə **(T.43)**.

Əzizim incə-incə,
Gül butadan dər incə.
Ürəyim tel-tel oldu
Gülü xardan dərincə **(T.43)**.

Əzizim yad  olmasın,
Ağzında dad olmasın.

Dosdarı unudanlar
Ömrümdə şad olmasın
**(S.153, T.43)**.

Əzizim yaz çağıdı,
Yar yarın qonağıdı.
Könlümə lalə düşüb
O yarın yanağıdı **(S.85, T.43)**.

Əzizim yaz gələydi,
Göllərə qaz gələydi.
Sevgilim bu sözlərdən
Qayıdıp tez gələydi
**(S.47, T.12)**.

Əzizim yana gəlləm,
Dərdə dərmana gəlləm.
Özün olsan təbibim
Dirilləm, cana gəlləm **(T.43)**.

Əzizim yanar dərdim,
Yandıxca yanar dərdim.
Gül baxçadan gül dərdim
Qalana yanar dərdim **(T.43)**.

Əzizim yar aşıxdı,
Yar yolu sarmaşıxdı.
Öy neynər pəncərəni
Yarın özü işıxdı **(T.43)**.

Əzizim yar bağına,
Nişan tax barmağına.
Mən gül olum, sən yarpaq
Bükülüm yarpağına **(T.43)**.

Əzizim yar incidi,
Hamıdan birincidi.
Mən hona nə didimki
Xoş sözümnən incidi **(T.43)**.
Əzizim yar gələndə,
Söyünəndə, güləndə.
Maxbər döşəh, gül yasdıx
Gül tökülə, güləndə **(T.43)**.

Əzizim yar, a bağlar,

Yar gələr, yara bağlar.
Yarı vəfasız olan
Ürəyi yara bağlar **(T.43)**.

Əzizim yar, a məni,
Sızladır yara məni.
Canım yarın xəsdəsi
Yar gələ, yara məni **(T.43)**.

Əzizim yara bağlar,
Özgəsi qara bağlar.
Kəbinsiz ərə gedən
Ürəyi yara bağlar **(T.43)**.

Əzizim yara məni,
Sızladır yara məni.
Pünhan dərdim qanan yox
Təbibsiz yara məni **(T.43)**.

Əzizim yaram azdı,
Ovçu çox, maral azdı,
Ağlama, anam, bacım,
Ölmərəm yaram azdı
**(S.182, T.30)**

Əzizim yarə gəldim,
Alışdım narə gəldim.
Alışmağım bir yana
Çəkildim darə, gəldim
**(S.182, T.30)**

Əzizim yol salardım,
Karvanın bol salardım.
Elə vaxdım olurdu
Boynuna qol salardım
**(S.182, T.30)**

Əzizim köşdü dağlar,
Çınqıllı, döşdü dağlar.
Məni maşa dağlamaz
Bir uzun saçdı dağlar **(T.43)**.

Əzizim molla Asi,
Hodu meçid mollası.
Özgəyə öyüt verir
Meçitdə olur asi **(T.43)**.

Əzizim nar ağacı,
Başa giyəllər tacı.
Oğlanın nə günahı
Qız baxmasa qıyğacı **(T.43)**.

Əzizim narın alma,
Yetişip narın alma.
Narın yardan yar olmaz
Tələsip narın alma **(T.43)**.

Əzizim neynir məni,
Meyçilər neynir məni.
Gedin o, yara deyin,
Ölürəm, neynir məni?
**(S.174, T.43)**

Əzizim nər divanı,
Yamandı nər divanı.
Könlüm qalxmaq istəyir
Sınıxdı nərdivanı **(T.43)**.

Əzizim oxlamazdım,
Gül dərib, qoxlamazdım.
Bilsəydim vəfasızsan,
Atardım, saxlamazdım **(T.43)**.
Əzizim Sina dağlar,
Sirr var, sinə dağlar.
Sirri vermə özgəyə
Qoy qalsın sinə dağlar **(T.43)**.

Əzizim su tavağı,
Su töküm, yu tavağı.

Helə zəhləmi töküf
Toşunun qaşqabağı **(S.69, T.30)**.

Əzizim Sınıx qala,
Sınıxdı, sınıx qala.
Səni kimlər sındırıp
Yaşdı  göz, sınıx qala **(T.43)**.

Əzizim taxda olar,
Qış gələr, şaxda olar.
Fikrini cəm elə dur
Gözəllər baxda olar **(T.43)**.

Əzizim tezə gəlin,
Oğula məzə gəlin.
Dilini yaxşı saxla
Zəhmətin bizə, gəlin **(T.43)**.

Əzizim Torpaxqala,
Yer qala, torpax qala.
Özün itip-batsan da
Həmişə torpax qala **(T.43)**.

Əzizim fincan qaldı,
Əridim, bir can qaldı.
Fincanı aparma, gəl
Gözüm dalıncan qaldı **(T.43)**.

Əzizim üzü qara,
Qaranın üzü qara.
Gedirəm yar yanına
Əliboş, üzü qara **(T.49)**.
Əzizim üzüm  qaldı,
Dərmədim, gözüm qaldı.
Sən mənimsən, mən sənin
Ürəkdə sözüm qaldı **(T.43)**.

Əzizim çay daşdandı,
Daşmağı ho başdandı.
Yar yarı dindirməsə
İnan, qəlbi daşdandı **(T.43)**.

Əzizim çırax alma,
Qoşudan irax alma.
Gözəldi qoşu qızı
Yaddara sorax salma **(T.43)**.

Əzizim şaxtasına,
Yaz gələ, şaxta sına.
Yar da dözər yarının
Qışına, şaxdasına **(T.43)**.

Əzizim şirin olsun,
Narı dər, şirin olsun.
Qəlb-qəlbə qoşulanda
Dilləri şirin olsun **(S.84, T.43)**.

Əzizim şərdən  keçməz,
Şər nədi, zərdən içməz.
Qız gölü qızan zaman
Yaxşını hərdən seçməz **(T.43)**.

Əzizim haça dağlar,
Sirrini aça dağlar.
Sinəm kimi sənə də
Kim çəkip haça dağlar? **(T.43)**

Əzizim can alandı,
Can verip, can alandı.
Mənə söz verən gözəl
Gör kimlərə calandı? **(T.43)**
Əzizim cana gəldim,
Dərdinnən cana gəldim.
Qulpu sınıp fincanın
Sənə fincana gəldim **(T.43)**.

Əzizim cərgə dağlar,
Dərəsi kölgə dağlar.

Suyunu süz, ver bizə
Gözləyir ölkə, dağlar **(T.43)**.

Əzizim girər bağa,
Dəyər başı yarpağa.
Mən sənnən ayrı düşsəm
Necə qoyullam torpağa
**(S.47, T.12)**

Əzizim gül bağınnan,
Gülün dər yarpağınnan.
Dodağın gül yarpağı
Yar öpsün dodağınnan **(T.43)**.

Əzizim gül, a bağlar,
Gül ağlar, gülən ağlar.
Bülbül gözü qan yaşdı
Ömrünü gülə bağlar **(T.43)**.

Əzizim güllü masa,
Batıbdı xardan yasa.
Yasa gələn ağlamaz
Ürəkdən odlanmasa **(T.43)**.

Əzizim gülən dəmlər,
Oynayıp - gülən dəmlər.
İndi gülənlər gülsün
Getdi mən gülən dəmlər
**(T.43)**.

Əzizim gündə gəlləm,
Ayaxda gündə gəlləm.
Yarı özüm sevmişəm
Gedərəm, gündə gəlləm **(T.43)**.

Əzizim gəzə-gəzə,
Körpəni gətir bizə.
Çiynınə daş tik, gətir
Körpə gəlməsin gözə **(T.43)**.

Əzizim əzən yerdə,
Bağlarda gəzən yerdə.
Elə yadıma düşdü
Ayrılıx üzən yerdə **(S.47, T.12)**.

Əzizim Ər dağına,
Yar gələr yaylağına.
Özüm özünə qurban
Sora da yeylağına **(T.43)**.

Əzizim, alma məni,
Sevdaya salma məni.
Sənnən ev tikən olmaz
Yazığam, alma məni **(T.43)**.

Əzizim, qalınca bax,
Bar verməz, qalınca bax.
Viran qalsa yaxşıdı
Düşmana qalınca bax **(S.47, T.12)**.

Əzizim, dağda yağı,
Day neynəyir dayağı.
Ömür keçər, gün keçər
Haqdan umar dayağı **(T.43)**.

Əzizim, havax baxım,
Üzünə havax baxım?
Ay qız, bir söylə görüm,
Mən səə havax baxım?
**(S.57, T.30)**

Əzizim, gül dən-dəndi,
Sevgilim gül bədəndi.
Sevgisi od, alovdu
Tüsdü bilməm nədəndi? **(T.43)**

Əzizinəm düz də var,
Dərə də var, düz də var.

Ay lüm-lüm udan əyri,
Bi dimirsən, düz də var **(T.43)**.

Əzizinəm zəhərdi,
Zəhirmardan betərdi.
Əzabın, dərdin mənə
Ölümdən də betərdi
**(S.134, T.30)**

Əzizinəm yada sən,
Sal aşiqin yada sən.
Etməzmi könlüm qübar
Bir gün baxsan yada sən
**(S.192, T.43)**

Əzizinəm yaratmaz,
Nadan oğul yaratmaz.
Fağır, hardan biləsən
Sevən ürək yar atmaz
**(S.192, T.43)**

Əzizinəm o tayə çək,
Bu taydan o taya çək.
At zülfün, mən yapışım
Məni də o tayə çək
**(S.119, T.47)**.

Əzizinəm sal yana,
Dara zülfün sal yana.
Əhsən söylə, sağ ol de
Məni yada salsana **(S.134, T.30)**.

Əzizinəm söz oldu,
Söhbət oldu, söz oldu.
Yar yaylığı düşmüşdü
Götürmədim, söz oldu
**(S.47, T.12)**.

Əzizinəm gül azardan,
Yol keçər Gülazardan.
Arzum budu xar olsun
Qurtarsın gül azardan
**(S.119, T.47)**.

Əzizinəm gözəldi,
Könül sevən gözəldi.
Sən qəlbini aş mənə
Söyləyim iş düzəldi **(S.134, T.30)**.

Əzizinəm, qanadı,
Yaram yenə qanadı.
Qızılgül bağçasında
Süzdü bayquş qanadı
**(S.192, T.43)**.

Əzizim dücar oldum,
Yar beli qucar oldum.
Heyif cavan çağımda
Külə döndüm, xar oldum
**(T.43)**.

Əzizim Varxiyana,
Yol gedir Varxiyana.
Sinəmi dağlıyanın
Su gelen arxı yana **(S.28, T.30)**.

Əzrayıldı can alan,
Canım bevəfa qalan.
Ay düşmən, canın yansın
Qardaşı itgin salan **(S.47, T.12)**.

Əzgili əzməmiş ol,
Könlümü gəzməmiş ol.
Özüm gəldin, özün get
Canımı üzməmiş ol **(T.43)**.

Əzizim məzə gəlləm,
Geyinip, tezə gəlləm.

Hər gün təzə geyinsəm
Bədnəzər gözə gəlləm **(T.43)**.

Əlim divara dəydi,
Gözü xumara dəydi.
«Çor» diyəndə, «can» didim
Nə didim, yara dəydi **(T.43)**.

Əlim əlimdə deyil,
Əlim belimdə deyil.
Mən çıxıban gələrdim
Mənim əlimdə deyil
**(S.47, T.12)**.

Ələ batar tikənlər,
Sözlə ürək sökənlər.
Özləriylə gəzdirər
İynə, sancaq, tikənlər
**(T.43)**.

Ərdəbül haşa məni,
Döndərip daşa məni.
İstəmirdin, olmazdın
Gəl gedək, boşa məni
**(S.182, T.30)**.

Ərdəbül hərdə-hürdə,
Tük üsdə yaşıl pərdə.
Qızın ala gözdəri
Məni də salıp dərdə
**(S.182, T.30)**.

Əsgər gedir atıyla,
Atıyla, Qıratıyla.
Qardaş yada düşəndə
Çağırdım bayatıyla
**(S.47, T.12)**.

Ətirri gül dəsdəsi,
Oldum hunun xəstəsi.
Bülbül gülə aşıxdı
Aləmə düşüb səsi **(T.43)**.

Ətirri gül yarpağı,
Yarpağında gül yağı.
Yarım bağa girəndə
Ətirrənər gül bağı **(T.43)**.

Faytunda özü varmı,
Diyəsi sözü varmı.
Qolunda qızıl saat
Əlində sazı varmı?
**(S.204, T.12)**

Fındığı yığdım qaba,
Onu qoydum dolaba.
Kimin yarı olmasa
Öyü qalar xaraba **(T.43)**.

Fələklər məni sınar,
Ulduzlar məni qınar.
Yar məni sevip – seçip
Yaddar alışar, yanar **(T.43)**.

Gedirdim Balakənə,
Rasd gəldim gül əkənə.
Mənim qorxum nədəndi
Ömrüm belə tükənə
**(S.206, T.12)**.

Gedirəm əməl eylər,
Əlləri gəl-gəl eylər.
O gözlər ki, səndə var
Qorxuram əngəl eylər
**(S.47, T.12)**.

Gedirəm Pərvizana,

Ayax qoy nərdivana.
Yar qədrini yar bilər
Nə bilər hər divana
**(S.133, T.44)**.

Gedirəm, yolum budu,
Ən böyük zülüm budu.
Yar ölüb, yara gəlmək
Əcəlsiz ölüm budu **(S.55, T.37)**.

Gedirəm, əziz Allah,
Oxudum qulfuallah.
Təqsirimi bilmirəm
Günahım nədi Allah? **(S.62, T.37)**

Getmə-getmə ölürəm,
Sən gedirsən, bilirəm.
Sən bulud ol, mən yağış
Yağa-yağa gəlirəm
**(S.160, T.28)**.

Gecələr yatan yerə,
Gün gedər batan yerə.
Sinəmi nişan qoydum
Yar oxun atan yerə
**(S.119, T.47)**.

Gecənin qaranlığı,
Gecə keçdim Qanığı.
Ölüncə yaddan çıxmaz
Sevən yarın yanığı
**(S.108, T.16)**.
Gilənaram, giləyəm,
Helə bilmə laləyəm.
Özüm çirkin olsam da
Öz yarıma gərəyəm **(T.43)**.

Gül gülə düşdü, neynim,
Gül suya düşdü, neynim.
Qismətlər paylananda
Payıma düşdü, neynim?
**(S.47, T.12)**

Gül əkdim, kölgələndi,
Ləçəkləri zərdəndi.
Gəldim yarı görmədim
Başıma qar ələndi **(T.43)**.

Gülbəngim həşdi-hüşdü,
Bir ucu suya düşdü.
Hayıf mənim bu ömrüm
Qədir bilməzə düşdü
**(S.62, T.44)**.

Gülzanda zoğal sarı,
Zoğal çiçəyi sarı.
Yarı görmək isdəyən
Getsin bulağı sarı
**(S.1, T.12)**.

Gülzanda göy arı,
Zoğal çiçəyi sarı.
Sərin su isdiyənnər
Getsin bulağa sarı **(S.1, T.12)**.

Güllük kəndi Qaxdadı,
Qax xeyli uzaxdadı,
Məni yarsız bilməyin
Yarım var, iraxdadı
**(S.194, T.33)**.

Güllər açıp, bağdadı,
Şamamalar tağdadı.
Bağdan gülüm köçüpdü
Bülbül gözü dağdadı **(T.43)**.

Güllər düymə-düymədi,
Şehdən boynun əymədi.

Baxçasından gül dərdim
Yar xətrimə dəymədi **(T.43)**.

Güllər düyməyə düşdü,
Əlim gülə ilişdi.
Sən güllərin gözüsən
Gözüm gözə vərdişdi **(T.43)**.

Güllər solubdu bağdan,
Qoxusu yox, uzaxdan.
Bağban, belin qırılsın
Niyə baxdın qıraxdan? **(T.43)**

Gülləri üzüm, bala,
Yaxova düzüm, bala,
Daşalda bi toy eylə
Doyuncax süzüm, bala **(S.28, T.30)**

Gülü bağdan dərsənə,
Pəncərəyə sərsənə.
Məni görmək isdəsən
Zaqatalaya gəlsənə **(S.47, T.12)**.

Gülü dərdim budaxdan,
Ətri gəldi uzaxdan.
Allah gülü saxlasın
Dolu, qardan, sazaxdan **(T.43)**.

Gülü əkdim qələmə,
Qələmə əl eləmə.
Sirr sözü yaxşı saxla
Car eləmə aləmə **(T.43)**.
Gül, gülüm, güllər gülsün,
Gül, gülüm, ellər gülsün.
Oxu bülbülüm, oxu
Dilini dillər bilsin **(T.43)**.

Gülə şehdən dən düşdü,
Bülbül yandı, ötüşdü.
Gül yasdığın üstündə
Cəriməsi öpüşdü **(T.43)**.

Gün düşdü bizim bağa,
Qar gəldi sizin dağa.
Sən qapıdan girən gün
Canım verrəm sadağa **(T.43)**.

Gün batar köndələni,
Kim bilər ho biləni.
Şeytana nə gəlipdi
Dindirə hər öləni **(T.43)**.

Gün qalxır sinə-sinə,
Dağların sinəsinə.
Aləmə sığmaz qızım
Sığıb yar sinəsinə **(S.209, T.12)**.

Gün doğdu, dağ dalınnan,
Təri tökdü alınnan.
Gözü yaşdı yar gördüm
Ayrı gəzir yarınnan **(T.43)**.

Gün olupdu günorta,
Yük üsdədi yumurta.
Umudum tək sənədi
Qardaş, məni unutma **(S.47, T.12)**

Günəş olup yanaydım,
Qarannığı danaydım.
Dünyaya işıx saçıp
Dövr edip dolanaydım **(T.43)**.
Göz üstündə qara saç,
Ömür yolu dolanbac.
Bir dərdin min dərmanı
Ölümə yoxdu əlac **(T.43)**.

Gözün axanda gördüm,
Oda yaxanda gördüm.

Dünən məə ho toyda
Oğrun baxanda gördüm **(S.57, T.30)**

Gözəldi, ha gözəldi,
Bütün işlər düzəldi.
Güllə yanaşı qoysan
Yenə yarın gözəldi **(S.47, T.12)**.

Gözəldə vəfa gərək,
Çəkməyə səfa gərək.
Gözəllər naz-naz olar
Nazına cəfa gərək **(S.85, T.43)**.

Gözəli seç gözəldən,
Halını bil əzəldən.
Gözəli təklikdə sev
Sevməsən, çıxar əldən **(T.43)**.

Göy kol idim, daşdandım,
İçilməyə başdandım.
Helə bildim mələyəm,
Bəyənən yox, yaşdandım **(T.43)**.

Göy təpə qarı neynər,
Dərdəcər narı neynər.
Yarı gözəl olannar
Təzədən yarı neynər? **(T.43)**

Göy üzü daş saxlamaz,
Hər yetən gül qoxlamaz.
Dişin sağlam olarsa
Əl dəyəndə laxlamaz **(T.43)**.
Göy üzündə bədir ay,
Ömrüm gedir qoyma zay.
Cin İslamın canına
Həsrət qalan canım, vay
**(S.160, T.28)**.

Göy üzündə göydən sac,
Qızmadı, xalq qaldı ac.
Xalq qədrini bilən Şah
Qoy geyinsin zərdən tac
**(T.43)**.

Göydə bulud qaradı,
Yar zülfnü daradı.
Açdım könül dəfdərin
Gördüm, para-paradı
**(S.153, T.43)**.

Göydə bulud olaydım,
Boşalaydım, dolaydım.
Yarım qonax gələndə
Yanında mən qalaydım
**(T.43)**.

Göydə bulut, yarı yaz,
Yarı bulut, yarı yaz.
Qurban olduğum, Allah
Sevən yarı yara yaz
**(S.47, T.12)**.

Göydə ulduz ağlamaz,
Sağlam dişdər laxlamaz.
Yaxşı yarın yaxşısı
Yarnan küsü saxlamaz **(T.43)**.

Göydə ulduz yüz, gərək,
Öz nişanlım qız gərək.
Xəlvət otax, bi də mən
İkimiz yalqız gərək **(T.43)**.
Göydə ulduz necəsən,
Aydan - aya uçasan.
Qərib yerdəki bacım
Yaxşısanmı, necəsən?
**(S.108, T.16)**

Göydə ulduz paradı,
Açsam üzüm qaradı.

Oğul, oğul olarsa
Gəlinlər nəkaradı? **(T.43)**

Göydə ulduz parladı,
Qışın günü qarladı.
Yar-yardan ayrılsa da
Yarın qəlbi yarladı **(T.43)**.

Göydə Günəş fırlanar,
Altında ocaq yanar.
Yer günəşin balası
Bala başa dolanar **(T.43)**.

Göydəki əyribılan,
Gedib dağlarda dolan.
Yarımı bura gəti
Qədəminə mən qurban
**(S.47, T.12)**

Göydən bulut asıldı,
Dərdim dərdə qatıldı.
Gözüm yetim qalanda
Yurdum yada satıldı **(T.43)**.

Göydən yerə nur əndi,
Yar sevənə güvəndi.
Yar mənnən küsüp gedip
Bilmirəm heç nədəndi?
**(S.47, T.12)**

Göydən uçan laçınlar,
Dərya, dəngiz keçillər.
Mənə yarımdan xəbər
Yetirin göyərçinnər
**(S.47, T.12)**.

Göydən uçan göy arı,
Zoğal çiçəyi sarı.
Yeddi qat yerə girsin
Sözünnən dönən yarı
**(S.47, T.12)**.

Göydən uçan göy qazım,
Əlimdə tavar, qazım.
Ünvanı mən bilmirəm
Mən məktuf necə yazım?
**(S.47, T.12)**

Göyərçinəm, göydəyəm,
Nə qaz, nə də ördəyəm.
Dərdim dağlardan ağır
Uca bilməm, yerdəyəm
**(S.47, T.12)**

Göldəki duru susan,
Sən allahın qulusan.
Könlünü kimlər alıp
Mənnən ayrı durursan
**(S.47, T.12)**.

Gəl bacı, mahnı diyax,
Limonu soyup yiyax.
İkimiz bir parçadan
Həmişə bir köynək geyax
**(S.47, T.12)**.

Gəl bura mahnı diyax,
Limonu soyub yiyax.
Bizə hamısı birdi
Sizə hansından diyax?
**(S.47, T.12)**

Gəl qızlar, mahnı qoşax,
Mahnı oxuyax, coşax.
Gözəl oğlan oynasın
Oynasın, biz də baxax
**(S.107, T.12)**.

Gəlin gəldi, yelləndi,
Qaynanaya dilləndi.

Qaynanın başına
Qaynar qazan ələndi **(T.43)**.

Gəlin gəldi, xan gəldi,
Saçını qırxan gəldi.
Bir əlində dəyənək
Evləri yıxan gəldi **(T.43)**.

Gəlin gələn atdanar,
Kekli dala qatdanar.
Gəlin öyün gülüdü
Göz götürməz, oddanar **(T.43)**.

Gəlip görə həmdəmim,
Uça gedə dərd-qəmim.
Gəzək cənnət bağını
Qoymuya mən dərd əmim **(T.43)**.

Gəlirdim o qıraxnan,
Gülü biçdim, oraxnan.
İtirmişəm yarımı
Gəzirəm mən soraxnan **(T.43)**.

Gəmi gəlir, yanda dur,
Qış yetişip, gündə dur.
Gözdə gülüm, gələrəm
Xəlvət yerdə, tində dur **(T.43)**.

Gətirmişəm gəlini,
Darayıbdı telini.
Can qaynana-qaynana
Yaxşı saxla dilini **(T.43)**.
Halva bişipdi qozdan,
Qəndi gəlip Tovuzdan.
Abır-həya saxla sən
Arvat, uşax, hu qızdan **(T.43)**.

Heyva- nar yiyə-yiyə,
Bağça, bar diyə-diyə.
Elə canın cıxacax
Sevən yar diyə-diyə **(S.47, T.12)**.

Hicrana düşdü yolum,
Yağıdır sağım, solum.
Vətənnən ayrı düşdüm
Qandallanıpdı qolum **(S.47, T.12)**.

Ho dağ, hu dağ arası,
Tutdum ceyran balası.
Bala ceyran qaçıpdı
Axır gözüm qorası **(T.43)**.

Hu qala, sərin qala,
Suları sərin qala.
Öpüş versin yar yara
Qoy ürək sərin qala **(T.43)**.

Hu dağlar, qəmli dağlar,
Dərəsi nəmli dağlar.
Dərədə aslan yatıp
Düşməni dəmli dağlar **(T.43)**.

Hu dağların maralı,
Oyçu, get gəz aralı.
Tüfəngin sınsın, oyçu,
Məni qoydun yaralı **(T.43)**.

Hu dağın başı daşdı,
Dibinin daşı yaşdı.
Daşdı yoldan keçəndə
Gözümə yar sataşdı **(T.43)**.
Hu nəvə bal dadandı,
Adamı aldadandı.
Öy dolusu toyu var
Sözdəri bal dadandı **(T.43)**.

Hu xalı xaldan gözəl,
Dövlətdən, maldan gözəl.
Üsdü naxış-naxışdı
Alı da aldan gözəl **(T.43)**.

Hu çaylar dimməz qalar,
Buzdarı sımmaz, qalar.
Yaxşıları yer udar
Yerində qammaz qalar **(T.43)**.

Hündür dağdan qar göndər,
Bağdan üzüb nar göndər.
Ya dərdimə ortağ ol,
Ya dərmanın var, göndər
**(S.47, T.12)**

Hündür öyün işığı,
Dindirmiyin aşığı.
Gedipdi, gələsidi
Könlümün yaraşığı **(S.47, T.12)**.

Həyətdə arıxana,
Arı yığıldı şana.
Yarım getdi əsgərə
Qaldım mən yana-yana
**(S.47, T.12)**.

Həyətdə qoşa çinar,
Qoşa yanaşı çinar.
Yar həyətə girəndə
Yarpağı döşə çinar **(S.47, T.12)**.

Hər budaxda gülüm var,
Söz deməyə dilim var.
Gizlətmə, gəl açıq de
Ürəyində kimin var? **(T.49)**
Həfdə keçdi, ay oldu,
Yaz ötüşdü, yay oldu.
Gözləmişəm, gəlmədin
Gözüm yaşı çay oldu **(T.43)**.

Xalxalın göy meşəsi,
Gülüydü bənöyşəsi.
Könülsüz gedən qızın
Ağlamaxdı peşəsi
**(S.57, T.30)**.

Xalça gözəl xalıynan,
Müşdərisi dalıynan.
Xalını bəyəmmişəm
Naxışının alıynan **(T.43)**.

Xançal altında bıçax,
Maral axdaran qoçax.
Mənnən başqa yar sevsən
Bağrıva batsın bıçax
**(S.47, T.12)**.

Xaçmazda bahar oldu,
Çörəyimiz az oldu.
Gül didilər, ağladın
Ürəyim dağ - dağ oldu
**(S.57, T.30)**.

Xəzangüləm, budama,
Xallarım dama-dama.
Payızda gül açaram
Xoş gələrəm adama **(T.43)**.

İynə sancdım divara,
Elçi göndərdim yara.
Elçiyə yoxdu zaval
Özüm elçiyəm yara!
**(S.47, T.12)**

İynənin sarı sapı,
Görünür sizin qapı.
Məni yardan ayıran
Dilənsin qapı-qapı! **(S.47, T.12)**

İynədən sancax olmaz,
Oğlan utancax olmaz.
Ay qız, məni sancma sən
Bir belə sancmax olmaz **(T.43)**.

İki dağın arası,
Dağda maral balası.
Biccə sənmi qalmışdın
Məni dərdə salası? **(S.47, T.12)**

İkimiz gedək toya,
Donunu qara boya.
Sən mənə bax, mən sənə
Bəlkəm gözümüz doya
**(S.40, T.39)**.

İl gələr saniyədə,
Saatda, saniyədə.
Yaşamax qənimətdi
Yaşasan saniyə də **(T.43)**.

İlana bax, ilana,
Çaylar gəlir bulana.
Oğlan, sənə gəlmərəm
And içmişəm Qurana **(S.93, T.50)**.

İlisuda qala var,
Qaxda karvansara var.
Sizin Sarıbaş boyda
Bizim Tovlatala var **(S.31, T.50)**.

İllər göydə oynadı,
Qazan kimi qaynadı.
Yarəb, sən çat imdada
Yağı qannan doymadı **(T.43)**.
İncil dəyib dərildi,
Nimçələrə sərildi.
Sona gördüm göllərdə
Sinələri gərildi **(T.43)**.

İncilim, ay incilim,
Sənsən mənim sevgilim.
Gülünü gizlətmisən
De, yerini mən bilim **(T.43)**.

İpək aldım, bez oldu,
Şəkər aldım, duz oldu.
Bir kərə hamama girdim
Baltakəsməz buz oldu
**(S.8, T.6)**.

İreyhan əkilipdi,
Yarpağı tökülüpdü.
Əziz qardaşın şəkli
Aynada çəkilipdi **(S.47, T.12)**.

İreyhan əksən, bitər,
Yada can versən, itər.
Can versən qardaşa ver
Yaman günuza yetər
**(S.107, T.12)**

İsdəkanı mənə ver,
Dolduruban yenə ver.
Əgər cənnət isdəsən
Qızı isdiyənə ver
**(S.107, T.12)**.

İsdəkanı ələ ver,
Dolduruban silə ver.
Əl yanar ələ vermə
Bölməsiynən belə ver
**(S.47, T.12)**.

İsdəkanım bir dəstdi,
Dəsi də mənə bəsdi.
Ömür gödək, vaxt uzun
Yol getməyə tələsdi **(T.43)**.

İsdəkanın ağ olsun,
İçi dolu yağ olsun.
Mahnı çox, gecə qısa
Eşidənlər sağ olsun

**(S.107, T.12)**.

İsitmə tutdu məni,
Tutdu, qurutdu məni.
Ay mənim əziz dosdum,
Nə tez unutdun məni
**(S.47, T.12)**.

İşdən xəbər olmadan,
Olma adam aldadan.
Kişisənsə üzə de
Söz danışma, daldadan **(T.43)**.

Kabab yansa köz ağla,
Dil alışsa söz ağla.
Mən yadına düşəndə
Bu dağları gəz, ağla
**(S.153, T.12)**.

Kağız yazdım qaradan,
Qələmi zərxaradan.
Yarın ceri-cehizi
Məni qoydu paradan **(T.43)**.

Kağızım, al kağızım,
Dilin yox, lal kağızım.
Get yarımın yanına
Hal-xəbər, al kağızım
**(S.107, T.12)**.

Kağızın ağına bax,
Çöyürüb sağına bax.
Mən yadına düşəndə
İlisu dağına bax **(S.108, T.16)**.

Kağızın ağına bax,
Çöyürüf sağına bax.
Yar yaduva düşəndə
Oğuzun dağına bax **(S.60, T.30)**.

Keklimi yana eylə,
Tara bir yana eylə.
Mən sənə gələsiyəm
İşi bir yana eylə **(S.40, T.39)**.

Kotana bax, kotana,
Kotan macı tutana.
Min bir lənət yaraşır
Vətənini satana **(T.49)**.

Kür daşdı, dağlar aşdı,
Dağ da dağa yanaşdı.
Ara vuran olmasa
Cəmi xalqlar qardaşdı **(T.43)**.

Közbarax gözdə qara,
Göz qara gözdə qara.
Gözləməhdən yoruldum
Qalmadı gözdə qara **(S.47, T.12)**.

Köynəyin tasma-tasma,
Hər yanda qızıl asma.
Hərə bir qiybət qırır
Olara qulax asma **(S.47, T.12)**.

Köynək tik, ağına bax,
Sədəf düz, sağına bax.
Yar yadına düşəndə
Zaqatala dağına bax **(S.123, T.15)**.
Köhnə qazan qarası,
İsdi hansı, qar hansı.
Qazan dibi köhnəlif
Tapılmayır çarası **(T.43)**.

Kəkliyəm, qondum daşa,
Daş dəysin qammaz başa.
Öyündə yox urvalıx
Gözü düşüp daş-qaşa **(T.43)**.

Qaz gələr, göydən gedər,
Gözəllər toydan gedər.
Yarım işdi yar olsa
Tez gələr, öydən gedər **(T.43)**.

Qazan qaynar daşmazmı,
Yar yara darışmazmı.
Qurban olduğum Allah,
Küsülü barışmazmı? **(S.47, T.12)**

Qazanda aşım qaldı,
Budaqda quşum qaldı,
Elçilərim qayıdıb
Gözüm də yaşlı qaldı **(T.43)**.

Qazanda bişmiş gərəh,
İçində kişmiş gərəh.
Dibində aş qazmağı
Hu da sərilmiş gərəh **(T.43)**.

Qazanda qaymaq olmaz,
Qaymaxdan doymax olmaz.
Ana elə şirindi
Anadan doymax olmaz **(S.47, T.12)**.

Qaya dağa daldadı,
Başı qalmaqaldadı.
Dağ uçulub, tökülüb
Yaman bərbad haldadı **(T.43)**.
Qaymaq yedim qayada,
Pendir qalıb mayada.
Qaymaq dodaxlı yarım
Salar məni o, yada **(T.43)**.

Qaynana qarıyıbdı,
Belini sarıyıbdı.
Görən hansı qaynana
Gəlinnən yarıyıbdı **(T.43)**.

Qaynar samavar daşar,
Hündür dağları aşar.
Dosdarın qaydasıdı
Gah küsər, gah barışar **(S.47, T.12)**.

Qala başı - bürc olar,
Pilləsi bürünc olar.
Mən dalaşsam, incimə
Sən dalaşsan güc olar **(T.43)**.

Qala dibi qalandı,
Yarı dərdə salandı.
Kim desə yardan doydum
Başdan-başa yalandı **(T.43)**.

Qaldım odun içində,
Od da odun içində.
Gözüm gözə dəyəndə
Yandım odun içində **(T.43)**.

Qanım qara zil kimi,
Üzün qızılgül kimi.
Mən sənə həsrət qaldım
Bənövşəylə gül kimi **(S.47, T.12)**.

Qanıx daşar, Kür daşar,
Suyu daha gur aşar.
Mən dərdimi danışsam,
Kafir ona ağlaşar **(S.177, T.44)**.
Qanığın qıraqları,
Qızıldan qarmaqları.
Şeh düşmüş gülə bənzər
Yarımın yanaxları **(S.47, T.12)**.

Qapqara qaşın sənin,
Yaşıldı başın sənin.
Talada savux salan
Albalı üzün sənin **(S.4, T.12)**.

Qar yağır hirsdi-hirsdi,
Gün çıxar olar isdi.
Zalımın qılıncınnan
Qəribin ahı pisdi **(S.47, T.12).**

Qar gələr yağış ilən,
Qar qalar, qar qış ilən
Dünyaya kim gəlibdi?
Hər dua, alqış ilən **(T.43)**.

Qara at qaşdı getdi,
Dindidən aşdı getdi.
Muşdulux bizə düşür
Bəylər barışdı getdi **(S.47, T.12)**.

Qara ata minsənə,
Atı yorğa sürsənə.
Bacın səni gözləyir
Əziz qardaş, gəlsənə **(S.47, T.12)**.

Qara atımı nallaram,
Kan dibinə bağlaram.
Özüm sevən olmasa
Ökürrüyüf ağlaram **(S.144, T.30)**

Qara atın qulağı,
Samur çayın bulağı.
Köçüb hara gedirsən
Yalqız öyün çırağı? **(S.157, T.44)**
Qara atın yelini,
Sürdür Muğan elini.
Qurban olum qardaşa
Gətiribdi gəlini **(S.153, T.12)**.

Qara qaşın qarası,
Göz oxşar ay parası.
Ağlımı başdan alıp
Tapılmayır çarası **(T.43)**.

Qara qoyun dağdadı,
Yeylax yeri sağdadı.
Süt-qaymağın dimirəm
Dələməsi yağ dadı **(T.43)**.

Qara qızın qarası,
Özü ceyran balası.
Yar dərdinnən xəstədi
Sağalmayır yarası **(T.43)**.

Qara dönüb ağ olmaz,
Ulduzdan çiraq olmaz.
Dərdi - bəla sovuşub
Bizlərdən uzaq olmaz **(T.43)**.

Qara yazı yazmışam,
Yolu-rizi azmışam.
Yarım getdi, gəlmədi
Gözdən qora sızmışam **(T.43)**.

Qara kişmiş oleydim,
Aşı bişmiş oleydim.
Mən də bəxdəvər olup
Yada düşmüş oleydim **(T.43)**.

Qara oğlan, qaş oğlan,
Gözləri sərxoş oğlan.
Sənə çox minnətim var
Nərdiyannan düş, oğlan**(S.169, T.29)**

Qara saçı hörməzdər,
Məni sənə verməzdər.
Gəl ikimiz cüt gəzək
Qaranlıqdı görməzdər
**(S.209, T.12)**.

Qara üz xalı neylər,
Mal yeməz malı neylər.
Ömrü yüz il də olsa
Hambal hambalı neylər?

**(T.43)**

Qara günün qarası,
Açılaydı, parası.
Xəncər kəssə sağalar
Sağalmaz dil yarası **(T.43)**.

Qarabaldır meşəsi,
Güldəndi bənövşəsi.
Yad yerə gedən qızın
Ağlamaxdı peşəsi
**(S.47, T.12)**.

Qaradolaq kəndin başı,
Gimgəyə yığarlar daşı.
Bayramlardan bayrama
Süzəllər qozlu aşı
**(S.31, T.50)**.

Qaraya qara baxma,
Tül altdan yara baxma.
Yar yara yaraşanda
Cənnətdi qara daxma **(T.43)**.

Qaranquş bala bəslər,
Dağın dalınnan səslər.
Zornan verilən qızdar
Allahdan ölüm isdər!
**(S.108, T.16)**
Qaranquş hava eylər,
Hündürdə yuva eylər.
Dərd bilən bacı olsa
Dərdimə dava eylər
**(S.108, T.16)**.

Qaranquş havadadı,
Əl çatmaz yuvadadı.
Bir əlim Allah yolu
Bir əlim duvadadı
**(S.108, T.16)**.

Qaranquşum qaşdadı,
Oxumağa başladı.
Elm, bilik axtarsan
Yaşda deyil, başdadı **(T.43)**.

Qaratoyuq qarası,
Uçdu, qaldı balası.
Ömür boyu sağalmaz
Yarın vuran yarası **(T.43)**.

Qardaş qoyun kimidi,
Sana gör neçə mindi.
Soruşmax ayıb deyil
Sevdiyin qız kimindi?
**(S.95, T.50)**

Qardaş qoyuna gedər,
Baxar boyuna gedər.
Əlində şimşək düdük
Bəylər toyuna gedər
**(S.95, T.50)**.

Qardaşım Car qalada,
Gözləyən var Talada.
Gözləməkdən yoruldum
Xabarı yox hala da
**(S.107, T.12)**.

Qardaşım Qaladadı,
Öz yurdu Taladadı.
İsmarışla gəlmədi
Heç bilmirəm hardadı
**(S.95, T.50)**.

Qardaşın qara qaşı,
İyirmi birdi yaşı.
Axdarım hardan tapım
Ona bir tay yoldaşı?

**(S.108, T.16)**

Qardaşın qara atı,
Ağzında salavatı.
Bəyə oxşuyan qardaş
Allahın amanatı **(S.107, T.12)**.

Qarmonu qatdamışam,
Nar kimi çatdamışam.
Gəlinə xələt verin
Yolunda od dadmışam **(T.43)**.

Qarpızı pıçaqladım,
Yanların saçaqladım.
Yarım yada düşəndə
Yasdığı qucaqladım
**(S.63, T.43)**.

Qarşımda çırax yanır,
Baxdıqca irax yanır.
Bu şərab nə şərabdı
İçdikcə ürək yanır
**(S.107, T.12)**.

Qarışqalar qaynadı,
Yel dağıtdı, qoymadı.
Yar yolunda can verdim
Dodaq büzdü, saymadı
**(T.43)**.
Qarğıdalı qardadı,
Sarı teli hardadı?
Gəlin ərə dul gəlip
Günü ahu-zardadı **(T.43)**.

Qarğıdalı saçağı,
Yarpağında bıçağı.
Saçağını qaynat, iç
Tez sağaldar naçağı **(T.43)**.

Qatını qatdamısan,
Nar kimi çatdamısan.
Hak qapısı bağlıdı
Üsdünnən addamısan **(T.43)**.

Qax başında Qaladı,
Bura Zaqataladı.
Qala düzünnən bəri
Gözəl-göyçək Taladı **(S.47, T.12)**

Qarpızı əkdim düzə,
Düzləri gəzə-gəzə.
Xəsdə olsam, sağallam
Qayıdıp gəlsən bizə **(T.43)**.

Qaxdan aldım alifa,
Ucları dörd tərəfə.
Quş oluban uçaydım
Atam olan tərəfə **(S.47, T.12)**.

Qaşları çatma oğlan,
Atı oynatma, oğlan.
Əgər məni sevirsən
Gecələr yatma, oğlan **(S.47, T.12)**

Qaşların var qələmnən,
Gözlərim doymur sənnən.
Ayrılmarıq deyirdin
Nə tez ayrıldın mənnən**(S.136, T.32)**
Qaşların qara döymü,
Gözlərin ala döymü.
Mən sevən gözəl oğlan
Nə ufdan bala döymü? **(S.136, T.32)**

Qaşların şümşad kimi,
Nə durupsan yad kimi.
Sən yad kimi baxanda
Ürək yanır od kimi **(S.47, T.12)**.

Qaşların əymələri,

Paltarın əymələri.
Əynində ipək köynək
Mən onun düymələri**(S.160, T.28)**

Qaşı çatma gözəlim,
Yalqız yatma, gözəlim.
Yalqız yatsan, qorxarsan
Nazı satma, gözəlim **(T.43)**.

Qaşın kaman olubdu,
Halın yaman olubdu.
Qaş-qabaq yerlə gedir
Dağda duman olubdu **(T.43)**.

Qımır – Bazar kənd yolu,
Gül-çiçəkdi yol dolu.
Qız burda, oğlan burda,
Neynirəm Çobankolu?**(S.132, T.12)**

Qoz ağacı koldadı,
Habu oğlan yoldadı.
Sireyin yola salmışam
Bu gün gözüm yoldadı
**(S.144, T.30)**

Qoz üstə qoz dayanmaz,
Yar yarınnan doyanmaz.
Səs salıram dağ – daşa
Bəxtim yatır, oyanmaz
**(S.144, T.30)**

Qoyma, maralı qoyma,
Ovçu, maralı qoyma.
Sən ki qaçıp kutardın
Məni yaralı qoyma
**(S.47, T.12)**.

Qoyun olub mələrəm,
Qurd oluban ularam.
Sən gəzdiyin yolları
Duzlaq edip yalaram **(T.43)**.

Qoyun gəzər quzuynan,
Ayağının tozuynan.
Qaynana öyüt verər
Gəlin oynar nazıynan **(T.43)**.

Qoyun gəldi Qaxlara,
Yayıldı yaylaxlara.
Bacısı qurban olsun
Saz çalan barmaxlara
**(S.31, T.17)**.

Qoyun gəlir quzuynan,
Ayağının tozuynan.
Qardaş bizə yad oldu
Yad qızının sözüynən
**(S.93, T.50)**.

Qoyun gələr, duz isdər,
Aran dağdan buz isdər.
Ana, sənə muşdulux
Kiçik qardaş qız isdər
**(S.93, T.50)**.

Qoyunu quzu əmdi,
Qoymayın yeli nəmdi.
Yaylağa hay düşüpdü
Çobanın özü dəmdi **(T.43)**.

Qolum düşdü biləkdən,
Unum keçməz ələkdən.
Mənimki belə gəlib
Çərxi dönmüş fələkdən **(T.43)**.

Qolunda saatdımı?
Zənciri polatdımı?
Əlindəki ağ yaylıx
Yar verən sovqatdımı?
**(S.47, T.12)**

Qonşu qonşuya baxdı,
Hasar çəkdi, calandı.
Qız verib, qız aldılar
Görün, necə xoşbaxdı **(T.43)**.

Qurban helə gəlinə,
Əlimi verip əlimə.
Xasiyyəti dəyişip
Bal ələnip dilinə **(T.43)**.

Qur-qur uçar yuvasına,
Leysan yağar havasına.
Balam sırkolu baladı
Qurbanam balasına **(S.28, T.30)**.

Quru ağac göyərməz,
Budağın yerə əyməz.
Yüz illərnən gözdəsən
Barını sənə verməz **(T.43)**.

Qız qızıla dönüpdü,
Göydən yerə ənipdi.
Qonşusu namərt çıxıp
Müşdərisi dönübdü **(T.43)**.

Qız gözü qızmış olar,
Yol gedər, azmış olar,
Halvaçıynan zurnaçı,
Kitabın yazmış olar **(T.43)**.
Qızıl üzük qaşlandı,
Barmaqlara tuşlandı.
Yarı göndər, tez gəlsin
Ömür keçdi, yaşlandı **(T.43)**.

Qızıl üzük laxlaldı,
Yara verdim, saxladı.
Yar məni aldadıbdı
Demə, üzük saxtadı **(T.43)**.

Qızıl üzük oymadı,
Qaşı daşdan qoymadı.
Əyil, üzündən öpüm,
Bəlkə fələk qoymadı **(T.43)**.

Qızıl üzük taxmazsan,
Sən qızıla baxmazsan.
Hansı çayın suyusan
Bir təpədə axmazsan **(T.49)**.

Qızıl üzük taxmaram,
Yad oğlana baxmaram.
Məni yandırsalar da
Sevgilimi atmaram **(T.49)**.

Qızıl üzük, tək barmax,
Başıma batdı qarmax.
Hər igidin işi deyil
Dosduğu başa vurmax **(S.47, T.12)**.

Qızıl gül incə-incə,
Dərilipdi hindicə.
Mən səni unutmaram.
Ta qəbirə gedincə **(T.43)**.

Qızıl gülün sarısı,
Getdi əldən yarısı.
Ləçəyinə şeh düşüb
Üzdə qalıp sarısı **(T.43)**.
Qızıl güləm, bağlama,
Ürəyimi dağlama.
Ana, getdim yar gilə
Dalımcan gəl, ağlama **(T.43)**.

Qızılgüllər qönçədi,
Ləçəkləri nimçədi.
Dərin, aparın yara
Qaşları qələmçədi **(T.43)**.

Qızılgüllər dən-dəndi,

Göz yaşdarı şehdəndi.
Alma, bir an canımı
Hu an da ömürdəndi **(T.43)**.

Qızılgülü budama,
Su axar dama-dama.
Su dirilik çeşməsi
Su vermə, hər adama **(T.43)**.

Qızılgülü dər incə,
Gözlə gülüm, dərincə.
Qızılgül yasdığımız
Yatax qalax, ölüncə **(T.43)**.

Qızılgülü dərərəm,
Güldən çələng, hörərəm.
Sən get şirin yuxuya,
Mən işimi görərəm **(T.43)**.

Qızılgülüm ağ, sarı,
Eşqi böləydim yarı.
Mən oduna yananda
Sən də yanaydın, barı **(T.43)**.

Qızılgüləm, dəsdəyəm,
Dərilməmiş püsdəyəm.
Gedin hu yara diyin
Gəlip görsün xəsdəyəm **(T.43)**.
Qırmızı yasdıq üzü,
Kimə tapşırdın bizi.
Ah tutsun, şahmar vursun
Səni saxlayan qızı **(S.23, T.12)**.

Qırx qız gördüm Zəyəmdə,
Gül budağın əyəndə.
Dedim bizə gəlsənə
Şamamalar dəyəndə **(S.47, T.12)**.

Qənt qoymuşam qətdənə,
Qəntdəri dənə-dənə.
Səndən mənə yar olmaz
Yalvardım dönə-dönə **(T.43)**.

Qəribin öz dağları,
Alıpdı toz dağları.
Gedərəm, yenə gəlləm
Gəzərəm boz dağları **(S.182, T.30)**.

Qəribəm, qərib quşam,
Yuvam yox, harda düşəm.
Yurd üsdündə yuvasız
Görün, necə bayquşam **(S.47, T.12)**

Qərənfilim yandı gəl,
Xış kökə dayandı, gəl.
Gecə gəlip, gecə get
Yatannar oyandı, gəl **(T.43)**.

Qərənfiləm ağ, sarı,
Mən də baharın barı.
Bağban paxıl olmasa
Bağ neyniyər hasarı? **(T.43)**

Lalə düzə əkildi,
Duman dağa səpildi.
Duman, çəkil dağlardan
Yar bəlkə qonax gəldi **(T.43)**
Laləyəm, gülə bəndəm,
Başında telə bəndəm.
Sən məni atıp getdin
Mən sənə hələ bəndəm **(T.43)**.

Lampa yandı, hisləndi,
Yetimçə qız pisləndi.
Analı qız böyüdü
Hamıdan çox istəndi **(T.43)**.

Lampa üsdə şüşəsən,

Sınıp yerə düşəsən.
Əyər mənə gəlməsən
Əldən-ələ düşəsən
**(S.107, T.15)**.

Limonu dilim-dilim,
Oxusana, bülbülüm.
Niyə mənə yad oldun
Ala gözdü sevgilim?
**(S.47, T.12)**

Maşın gəlir Muxaxdan,
Yar gəlir oxumaxdan.
Qurudu bu barmaxlar
Ona məktub yazmaxdan
**(S.47, T.12)**.

Maşın gəlir yan verir,
Dəymə, yaram qan verir.
Cəbhədəki şəhidlər
Vətən üçün can verir
**(S.47, T.12)**.

Mahnı didim havadan,
Bülbül uçdu yuvadan.
Hər gündə bir pilləkən
Könlüm düşür havadan
**(S.169, T.29)**.
Mahnı mahnı eylərəm,
Üç mahnı borc eylərəm.
Məclisin xətri üçün
Canım qurban eylərəm
**(S.107, T.12)**.

Mahnı mahnının başı,
Mahnı bilməyən naşı.
Mahnı elə bir şeydi
Qərib yerin yoldaşı
**(S.107, T.12)**.

Mahnını dedim taza,
Şirin-şirin avaza.
Əziz dosd oturupdu
Dərdimə dərman yaza
**(S.169, T.29)**.

Mahnını yoldaş başlar,
Ağ üzlər, qələm qaşlar.
Gəl bura, mahnı diyax
Qulax asın, yoldaşlar
**(S.169, T.29)**.

Mahnının usdasıyam,
Bir gülün dəstəsiyəm.
Gözəl, sənin dərdinnən
İllərin xəsdəsiyəm **(S.47, T.12)**.

Meçidin bucağında,
Şam yanar ocağında.
Baş qoyup can verəydim
Yarımın qucağında **(S.47, T.12)**.

Meçitin hərrəməsi,
İçində nar dənəsi.
Sevdiyin o qız gəlir
Bilmirəm nə verəsi?
**(S.123, T.15)**
Məhlədə arıxana,
Arı yığılan şana.
Yarın boynu oxşuyur
Bi dəsdə ireyhana
**(S.136, T.32)**.

Məhlədə otun taya,
Kölgəsi düşdü çaya.
Mənim bacım oxşuyur
Soyulmuş yumurtaya
**(S.47, T.12)**.

Məhlədə tiyan olar,
Tiyanı yuyan olar.
Çox bizə gəlib-getmə
Anama diyən olar
**(S.47, T.12)**.

Məhlədə çinar əhtac,
Yağış buluda möhtac.
Dilin qurusun düşman
Qoydun sevənə möhtac
**(S.204, T.12)**.

Məhlədə şirin nardı,
Oyannan gələn yardı.
Gəlin gözəl gəlindi
Köynəyi bir az dardı
**(S.47, T.12)**.

Məhlədə hasar, barı,
Üsdə düzmüşəm narı.
Dörd yanım qarovuldu,
Görə bilmirəm yarı **(S.47, T.12)**.

Məhlədə calğa bağı,
Dibində yaşıl xalı.
Üsdündə namaz qılan
Musa, peyğəmbər, Əli
**(S.47, T.12)**
Məhlədə gül anbarı,
Gül bitməz gül anbarı.
Mənim elə atam var
Dünyalar barabarı **(S.47, T.12)**.

Məhlədəki albalı,
Dibinə saldım xalı.
Sərçə kimi pırtlayır
Birqadir Məmmədvalı
**(S.160, T.28)**.

Məhlədəki Cəbirdi,
Cəbir döylü, qəbirdi.
Dərdə qalsa ölərdik
Allah verən səbirdi
**(S.47, T.12)**.

Məhləmizdə var ərik,
İkimiz ona şərik.
Uzaqdakı, a qardaş,
Biz nə vaxt görüşərik?
**(S.47, T.12)**

Məktubun ağa dönsün,
Ərisin yağa dönsün,
Gəlirsənsə özün gəl
Ürəyim dağa dönsün **(T.43)**.

Məktubun ağına bax,
Çöyürüb sağına bax.
Mən yadına düşəndə
Hinqazur dağına bax
**(S.142, T.12)**.

Mən aşiq ay ulduzu,
Könül sevir bir qızı.
Fələkdən arzum budu
Bizə yetirə ruzu **(T.43)**.

Mən aşiq axar gedər,
Dos ürək yaxar gedər.
Düşmən üzü çürüsün
Ayağa baxar gedər **(T.43)**.

Mən aşiq irisini,
Sevip seç, birisini.
Mənə cavanı gərək
Neynirəm irisini **(T.43)**.

Mən aşiq yar oynuna,
Doldurdun nar qoynuna.

Mən mixəyəm, sən də gül
Dola məni boynuna **(T.43)**.

Mən aşiq yaraşanı,
Şirindi qara şanı.
Şirin canım istəsə
Verərəm yara canı **(T.43)**.

Mən aşiq Leyli dağı,
Neynərəm Leyli dağı.
Gecə-gündüz yadımnan
Çıxmayır Leyli dağı **(T.43)**.

Mən aşiq Tala şanı,
Ayır tök, talaşanı.
Yekə-yekə danışıp
Qopartma talaşanı **(T.43)**.

Mən aşiq tən olması,
Bölünüb tən alması.
Şirin acı dadsa da
Yenə vətən alması **(T.43)**.

Mən aşiq çaydan qala,
Çay daşa, çaydan qala.
Allaha rəvadımı
Mərd ölə, nadan qala **(T.43)**.

Mən aşiq, bələd ağlar,
Dərdimə bələd ağlar.
Bilməm, günahım nədi
Yar məni belə dağlar **(S.192, T.43)**

Mən aşiqəm ağına,
Şirin demə ağına.
Namərdə boyun əymə
Qara deyər ağına **(T.43)**

Mən aşiqəm bir inci,
Nə danış, nə də inci.
Hu dünya bi cənnətdi
Yarın qoynu birinci **(T.43)**.

Mən aşiqəm incədən,
İncə sünbül, incə dən.
İnsan kobudluğundan
Ağac sınar incədən **(T.43)**.

Mən aşiqəm yad əli,
Ya divanə, ya dəli.
Qəbrim od tutup yanar
Sənə dəysə yad əli **(S.182, T.30)**.

Mən aşiqəm kamansız,
Könül sızdar, kamansız.
Eşk oduna yanmıyan
Gora gedər, imansız **(T.43)**.

Mən aşiqəm sarısın,
Yar yaramı sarısın.
Yaddar yara sarımaz,
Anama di, sarısın **(T.43)**.

Mən aşiqəm sınanam,
Şüşədənəm, sınanam.
Mən ki, əşya döylüyəm
Bərkdə, boşda sınanam **(T.43)**.
Mən aşiqəm xal-xala,
Göndər gedim Xalxala.
Üzünə bir xal qoydur
Qoy yaraşsın xal xala **(T.43)**.

Mən aşiqəm çaydadı,
Çaynik dəmli, çay dadı.
Çayı elə dəmləki
Hunda olsun çay dadı **(T.43)**.

Mən aşiqəm şümşada,
Ağzı gətirməz dada.

Ləkəsiz bir adımı
Verməram min pis ada **(T.43)**.

Mən aşiqəm göz əllər,
Durna gözdü gözəllər.
Qara teli ay üzə
Dəsdə-dəsdə düzəllər **(T.43)**.

Mən aşiqəm ər qıza,
Könül vermə hər qıza.
Axdar, dolan dünyanı
Könlünü ver tər qıza **(T.43)**.

Mən aşiqəm, yazmaram,
Dinərəm aram - aram.
Yalan sözü danışsam
Olsun çörəyim haram **(T.43)**.

Mən aşiqəm, yayına,
Səndə qaşın yayına.
Qorxuram müjgan çalam
Üzündən göz yayına **(S.182, T.30)**.

Mən aşiğam, naz olar,
Qışın axrı yaz olar.
İki könül bir olsa
Toy-bayramı saz olar **(T.43)**.
Mən aşıq ala bəndəm,
Yaşıla, ala bəndəm.
Dindirməyin, qəmliyəm
Ağ üzdə xala bəndəm **(T.43)**.

Mən aşıq alı neynər,
Yar sevən xalı neynər.
Qaşı qələmçə olan
Ayda hilalı neynər? **(T.43)**

Mən aşıq doğru sözə,
Can qurban doğru sözə.
Ürək yalan götürməz
Meydandı doğru sözə **(S.85, T.43)**.

Mən aşıq yar aşığı,
Yar yarın yaraşığı.
Yarım gedib indicə
Öyün yox yaraşığı **(T.43)**.

Mən aşıq kölgələndi,
Ay doğdu, kölgələndi.
Yarımı göndər, gəlsin
Xəyalım kölgələndi **(T.43)**.

Mən aşıq mərdanədi,
Dişləri dürdanədi.
Vəfalı yar dayanar,
Qaçanı divanədi **(T.43)**.

Mən aşıq neynən gələr,
Əlifi beynən gələr.
Habu zamanın qızdarı
Zurnasız toynan gələr **(T.43)**.

Mən aşıq para-para,
Əlim dəydi divara.
Ata, ana, neyləyim?
Satdın məni dinara **(T.43)**.
Mən aşıq sevgi sinə,
Baxmaram özgəsinə.
Ömürlük ərsiz qalar
Göz yuman sevgisinə **(T.43)**.

Mən aşıq su yeridi,
Yaylaqdı, su yeridi.
Mən yarımla barışdım
Yad altdan su yeridi **(T.43)**.

Mən aşıq çəmənlikdə,
Görüşdük çəmənlikdə.

Əhdə vəfa qılmadın
Tez soldu çəmənlik də **(S.192, T.43)**.

Mən aşıq şəkər canım,
Hər dərdi çəkər canım.
Cavan bacı itirdim
Ürəyə çökər canım **(T.43)**.

Mən aşıq, Malıxlıdı,
Atları alıxlıdı.
Əyil, üzünnən öpüm
Ürəyim yanıxlıdı **(T.43)**.

Mən aşıx Qalabəndəm,
Qalaya qalabəndəm.
Dərt bilən, hal anlıyan
Bir əhlihala bəndəm **(T.43)**.

Mən aşıx doğru sözə,
Can qurban doğru sözə,
Ürək yalan götürməz
Meydandı doğru sözə **(T.43)**.

Mən aşıx dərə sinə,
Su axar dərəsinə.
Gün düşə qüzeylərə
Axa su dərəsinə **(T.43)**.
Mən aşıx yadda qalmaz,
Söz itər, yadda qalmaz.
Yamanlıx yaman şeydi
Yaxşılıx yadda qalmaz **(T.43)**.

Mən aşıx pünhan gəzər,
Canımda canan gəzər.
Vəfasıza can desən
Sallanar, yan-yan gəzər **(T.43)**.

Mən aşığam el qızı,
Heylə gəlir el qızı.
Habunu görənnər diyir
Gör nə gəlir el qızı **(S.114, T.30)**.

Mən bülbülə dönəydim,
Gül üsdünə qonaydım.
Dilin necə şirindi
Ürəyini biləydim
**(S.47, T.12)**.

Mən gedirəm Mazıma,
Əldə çalan sazıma.
Allahdan arzum budu
Sən düşəydin yadıma
**(S.47, T.12)**.

Mən gedirəm oyana,
Bu dünyadan doysana.
Bu dünya haram olsun
Səni əldən qoyana
**(S.107, T.12)**.

Mən güləm, həm bülbüləm,
Bülbül dili bilmənəm.
Yar, sən gül, mən də gülüm
Sən gülməsən, gülmənəm
**(S.123, T.15)**.

Mənim adım Salatın,
Ardınca sür, sal atın.
Üzüm üzə möhdacdı
Məni üzdə, al satın **(T.43)**.

Mənim yolum kəndədi,
Yaxşı nə var kəntdədi.
Mənim könlüm səndədi
Sənin könlün kimdədi?
**(S.107, T.12)**

Mənə ana isdərəm,

Ana yana isdərəm.
Anaynan danışmağa
Xəlbətxana isdərəm
**(S.76, T.12)**.

Məzər bağı çiləkə,
Üsdünə düşdü ləkə.
Yaraşığa düşməyir
Sən olmayan mərəkə
**(S.200, T.48)**.

Məzər biçim qırmızı,
Kim sevir kimin qızı.
Elə xoşuma gəlir
Əhməd dayının qızı
**(S.108, T.16)**.

Naxış vurun qazana,
Xəbər verin ozana.
Ozan hələ gəlmiyip
Lənət ara puzana **(T.43)**.

Nə demişəm mən sənə,
Lənət yoldan dönənə.
Sənə oxşar kimim var
Dürdanəsən, dürdanə **(T.43)**.

O yandan atlı gəlir,
Atlı - heybatlı gəlir.
Ayağında qara məs
Qızıl saatlı gəlir **(S.107, T.12)**.

O tayda duran oğlan,
Bığını buran, oğlan.
Gəl apar, məni sizə
Sevgisi olan, oğlan
**(S.133, T.44)**.

O gün bu gün olaydı,
Zülfü dügün olaydı.
Sənlə keçən günlərim
Bir də bu gün olaydı
**(S.47, T.12)**.

Od qəti, ocax qala,
Hörmət elə saqqala.
Sən bir gözəl məşuqə
Qismət oldun çaqqala
**(S.47, T.12)**.

Od salmışam qalyana,
Tüstü qalxır hər yana.
Məni səndən edəni,
Olsun dəli-divana **(T.43)**.

Oda pərvanə düşər,
Atəşim cana düşər.
Sehirri baxışımdan
Ürəyim qana düşər **(S.153, T.43)**.

Odur anbardar Alı,
Pis deyil onun halı.
Qorx boğazında qalar
Camahatın bu malı
**(S.80, T.12)**.

Oyandan gələn varmı,
Bir xəbər bilən varmı.
Ağ üzdü, qara qaşdı
Yarımı görən varmı?
**(S.107, T.12)**

Oyandı can, oyandı,
Pəncərədən boylandı.
Qardaş tikən zal otax
Gün - işığa boyandı
**(S.107, T.12)**.

Oyçi, maralı qoyma,
Qaşdı, maralı qoyma.
Ata, qovma anamı
Bizi yaralı qoyma!
**(S.47, T.12)**

Ot yığılıb, dəstədi.
Canım yardan xəstədi.
Can deyəndə çor didi
Öləndə can istədi **(T.43)**.

Otaxda sazım qaldı,
Üsdə qotazım qaldı.
Əsgər gedən can bala
Boyunda gözüm qaldı
**(S.47, T.12)**.

Otuya, ay otuya,
Tütün tökdüm qutuya.
Mənim yarım oxşuyır
Bir qutu çayotuya
**(S.47, T.12)**.

Oturmuşdum daş üsdə,
Yarpaq düşdü baş üsdə.
Yarım dedi məktub yaz
Mən də dedim, baş üsdə **(T.49)**.
Ox atmışam mərdana,
Ox dəymədi, heç yana.
Vəfasızdan yar sevdim
Oldum dəli-divana **(T.43)**.

Oxuyur əzan balam,
Geyinip bəzən, balam.
Boyuva anan qurban
Ağrıya dözən, balam
**(S.47, T.12)**.

Ocax qala, kül götür,
Dodax tərpət, dil götür.
Mahnı bilən deyiləm
Gəl yaxamdan əl götür
**(S.47, T.12)**.

Ocaxda çər olaydım,
İlxıda nər olaydım.
Könül sevən gözəlin
Üzündə tər olaydım **(T.43)**.

Ocağa asdım sacı,
Bal yedim, oldum acı.
Mən səni isdəmirəm
Gəl olax qardaş – bacı
**(S.47, T.12)**.

Oğuzda ilan olmaz,
Dərdimi bilən olmaz.
Özüm deyib ağlaram
Göz yaşım silən olmaz
**(S.41, T.40)**.

Oğuzun yolu dağdı,
Harası sulu bağdı.
Sənə bağlı özüm ollam
Nə qədər canım sağdı
**(S.41, T.40)**.
Özünü gözlə başdan,
Qəfil atılan daşdan.
Yaman gözdən, nəpəkdən,
Bir də qohum-qardaşdan **(T.43)**.

Öylərim dağ dibində,
Pəncərə bağ tinində.
Qızıl üzük olaydım
Barmağuvun birində
**(S.200, T.48)**.

Paprosum işdə qaldı,

Tüstüsü döşdə qaldı,
İştahamı pozubdu
Yeməyim teşdə qaldı **(T.43)**.

Paxlavalar teşdəmə,
Üsdü yaylıq, işdəmə.
Süpürgəyə ər didin
Apar saxla, hüşdəmə **(T.43)**.

Piyalalar ya dolar,
Ya boşalar, ya dolar.
Yaxşı günün dostları
Yaman gündə yad olar
**(S.23, T.12)**.

Poçta bağlama saldım,
Gözü yol üsdə qaldım.
Yeddi aydan sora mən
Oğlumdan məktub aldım
**(S.80, T.12)**.

Pəncərəmiz yan-yana,
Bürünüpdü dumana.
Duman, çəni qovluyun
Baxım sizin seyvana
**(T.43)**.

Pəncərəmiz millidi,
Öyümüz zibillidi.
Siz Allah, qoyun gəlsin
Yarı şirin dillidi
**(S.47, T.12)**.

Pəncərəni açma, yar,
Yar yolundan qaçma, yar.
Yar gələndə qapına
Dildən zəhər saçma, yar **(T.43)**.

Sazandaram sazımda,
Qış gedip yaz yazanda.
Mən nə çarə eləyim
Xudam belə yazanda?
**(S.47, T.12)**

Sazın zili zilləmə,
Dərdim çoxdu, gölləmə.
Dünya eniş – yoxuşdu
Sən də qazıb belləmə **(T.43)**.

Sazın içi çömçədi,
Üsdə bəzək qönçədi.
Telim telinə bənzər
Çalanda qəlbimcədi **(T.43)**.

Samavar yana-yana,
Buğlanır yana-yana.
Danışırıq kağıznan
Dil qalır yana-yana
**(S.47, T.12)**.

Samovar quran gəlsin,
Burğusun buran gəlsin.
Mənnən mahnı diməyə
Bərabər duran gəlsin
**(S.47, T.12)**.

Sandıx üsdə gəzərəm,
Sandığa gül düzərəm.
Atamın bir qızıyam
Ufdan-ufdan gəzərəm
**(S.47, T.12)**.

Sancağı sancma döşə,
Özünü salma işə.
Allah bəla yollasın
Ara vuran keşişə **(T.43)**.

Sarmaşığı saxlama,

Saxlamısan qoxlama.
Ömür gödək, gün gödək
Pis yaxşını yoxlama **(T.43)**.

Sarı köynək qatlıdı,
Ye xörəyi datlıdı.
Qardaşa toy tutmağa
Bacılar muratlıdı
**(S.107, T.12)**.

Sarı köynək el tafda,
Yudum, sərdim otaxda.
Səhərdən bir yel əsdi
Gül qalmadı butaxda
**(S.123, T.15)**.

Sarı simlər sazdadı,
Gülün fəsli yazdadı.
Gözəllərin gözəli
Yar yanında nazdadı
**(T.43)**.

Sarı soğan soyuldu,
Təmiz qaba qoyuldu.
Yarım təzə qız alıp
Bağrım başı oyuldu
**(T.43)**.
Sarı tütün bükümü,
Söylə, könlündəkini.
Mənim könlüm nə bilsin
Sənin könlündəkini?
**(S.177, T.44)**

Sarıbaşda anam var,
Məndən ona salam var.
Yarəb, anam deyirmi
Qürbətlikdə balam var?
**(S.76, T.12)**

Sağda sıfır olaydım,
Soldakını alaydım.
Ən şirin arzum budu
Göylərə ucalaydım **(T.43)**.

Sağsağan sarı olmaz,
Qocalar, qarı olmaz.
Seçip sonalayanın
Qeyrətli yarı olmaz **(T.43)**.

Sevgilim qız gərəkdi,
Sevməyə göz gərəkdi.
Ördəkdən turac olmaz
Ördəyə qaz gərəkdi
**(S.85, T.43)**.

Sevgilimə söz olar,
Hər nə desə, düz olar.
Qaynana, sən eşitmə
Sən eşitsən yüz olar **(T.43)**.

Seyvanımız yan-yana,
Dolan, qayıt bu yana.
Helə gəlip, helə get
Qoyma, yatan oyana
**(T.43)**.

Sirrimi atdım oda,
Od tutdu, yandı hu da.
Vurğun könül yananda
İsinmədi hu oda **(T.43)**.

Stol üstü sinimz,
Birdi bizim dinimiz.
Ayrılıb ayrı düşsək
Nədi bizim günümüz?
**(S.47, T.12)**

Su axdı, bağa düşdü,

Ayax basdım, sürüşdü.
Yarım getdi, gəlmədi
Gələn yolu enişdi **(T.43)**.

Su ilanı olaydım,
Dolçalara dolaydım.
Qaraqaşdı qızların
Nişannısı olaydım
**(S.107, T.12)**.

Su gəldi lilləndirdi,
Hər yeri gölləndirdi.
Mən peşiman deyildim
Dərd məni dilləndirdi
**(S.133, T.44)**.

Su gəlir axmaq ilə,
Qayalar yıxmaq ilə.
Gözəldən gözmü doyar
Uzaqdan baxmaq ilə?
**(S.47, T.12)**

Su gəlir gildir-gildir,
O gələn yarımgildi.
Mən yarımı tanıdım
Bizim əhdimiz birdi
**(S.107, T.12)**.
Su gələr, yannan gedər,
Ömür, gün cannan gedər.
Bağdan getsə nə varki,
Gedən bağbannan gedər **(T.43)**.

Su gələr, aşar gedər,
Axdıxca şar-şar edər.
Həyat şirin, gün gödək
Bir ömür yaşar, gedər **(T.43)**.

Suya gedən sənəm yar,
Səni sevən mənəm yar.
Sevdiyimə peşmanam
Özgəsini sevən yar **(S.108, T.16)**.

Sular burula qaldı,
Lili durula qaldı.
Gözləməkdən yoruldum
Gözüm yorula qaldı **(T.43)**.

Susamışam, su yoxdu,
Su çoxdu, verən yoxdu.
Düşmüşəm qərib kəndə
Qədrimi bilən yoxdu **(S.1, T.12)**.

Südün üzü pərdədi,
Daşıp, yarsı yerdədi.
Bi gözəl qız sevmişəm
Hu da gidip, ərdədi **(T.43)**.

Sümbülü sər xırmana,
Zülfü dara, sal yana.
Qoy, üzünnən yar öpsün
Qalmasın yana-yana **(T.43)**.

Sünbüllər çin-çin oldu,
Yay gəldi, biçin oldu.
Sən məni atıp getdin
Bilmirəm neyçin oldu? **(T.43)**
Sürahilər baş-başa,
Qələm çəkilip qaşa.
Bir elə niyyətim var
Yarəb, gələrmi başa?
**(S.47, T.12)**

Sınavarım qaynadı,
Yar yarınnan doymadı.
Ortaya şeytan düşüp
Nənəm gəldi, qoymadı **(T.43)**.

Sırğa taxdım qulağa,

Suya endim bulağa.
Demə, sırğa saxtadı
Atdım, getdi uzağa **(T.43)**.

Sıx budaxlı meşələr,
Yaşıl yarpax incilər.
Buz bulağı səpsərin
Gələn içər, dincələr **(T.43)**.

Sözlər sözü gətirər,
Sözlər xəbər gətirər.
Sözə sahib olmasan
Sənə bəla gətirər **(S.134, T.30)**.

Sən bir gülsən solmuyan,
Bir quyusan dolmuyan.
Sən elə bir cavansan
Bərabəri olmayan **(S.47, T.12)**.

Sən gülüm, bülbülümsən,
Danışan xoş dilimsən.
Səndən başqa yarım yox
Sən mənim sevgilimsən **(T.43)**.

Sənsən mənim gülgəzim,
Sevimlisən əzizim.
Sən güllərdən gözəlsən
Qoyma, başqa gül gəzim **(T.43)**.
Səngər bulağı sərin,
Suyunnan içməyə gəlin.
Yanında sıralanmış
Dağlara gəzməyə gəlin
**(S.31, T.17)**.

Sənəyi aldım, ana,
Suya yollandım, ana.
Bu virana qalmışda
Mən susuz qaldım, ana
**(S.47, T.12)**.

Sənək suyu sərindi,
Dəniz dibi dərindi.
Sevmədiyin qızların
Hər biri bir gəlindi **(T.43)**.

Sərgi yarım olaydı,
Xurcun payın olaydı.
Nər igidlərdən biri
Mənim yarım olaydı **(T.43)**.

Səsim səsə yovuşar,
Ünüm dağlardan aşar.
Öydə səsin gələndə
Çöldə dilin dolaşar
**(S.47, T.12)**.

Şirəyin o üzündə,
Qoyun otlar düzündə.
Qoşa xallar görmüşəm
Yarımın ağ üzündə
**(S.47, T.12)**.

Talada atlar idi,
Göy çəmən otlar idi.
Mənim bağrım keçədi
Daş olsa çatlar idi
**(S.23, T.12)**.
Tambur çala bilmirəm,
Əldən sala bilmirəm.
Vallah, ay qız, gözəlsən
Gözdən sala bilmirəm
**(S.107, T.12)**.

Tampurun beş bəndinə,
Qız gedibdi kəndinə.
O xuda kömək olsun
İkimizin dərdinə **(S.47, T.12)**.

Tampurun teli uzun,

Şantalar düzüm-düzüm.
Bir biz yana baxsana
Ay mənim alagözlüm
**(S.194, T.33)**.

Tampurun nazik sapı,
Məhlənin hündür tapı.
Elə yadıma düşüp
Qardaşın şirin gapı **(S.68, T.12)**.

Tarını ver köklüyüm,
Tellərini yoxluyum.
Qardaş, şəklini göndər
Yadigarcün saxlıyım **(S.47, T.12)**.

Təzə tər bənöyşəni,
Şehli dər bənöyşəni.
Gözü yolda qalan var
Tez göndər, bənöyşəni **(T.43)**.

Telləri burma oğlan,
Uzaxda durma, oğlan.
Ürəyim yaralıdı
Gəl honu qırma, oğlan **(T.43)**.

Tikmə yaylıq işdədim,
Üstünü nəxışdədim.
Yarım məndən küsəndə
Alt dodağın dişdədim **(T.43)**.

Tikmə tikdim olmadı,
Suya saldım, solmadı.
Elçi, dilin qurusun
Mən deyən yar olmadı **(T.43)**.

Toy başlanan bu gündü,
Tanış olan beş gündü.
Dosdar varsa şad olsun
Düşmənlərə düyündü **(S.47, T.12)**

Torbada saz oleydim,
Yorğada qaz oleydim.
Bəxdi açıx, günü ağ
Keçəlcə qız olaydım **(T.43)**.

Toxda, ürəyim toxda,
Nə yatmısan otaxda.
Bir kədərli yel gəlib
Gül qoymadı butaxda **(S.62, T.44)**

Tsaxurlu bir ad imiş,
Qadalar beqzad imiş.
Havadan ötmə, tsaxur
Nə göyçək qızlar imiş **(S.55, T.37)**

Tumay qatıx, Dardoqqaz,
Göl içinə düşdü qaz.
Aman Allah, can Allah,
Sevəni sevənə yaz **(S.194, T.33)**

Tut ağacı tut kimi,
Tut da bitər ot kimi.
Şirin- şəkər dadı var
Yeyən olar od kimi **(T.43)**.

Tütünü yığdım laydan,
Yarım gözəldi aydan.
Yarıma köynək biçdim
Tafdası var humaydan **(S.47, T.12)**

Tütəyim qarğıdandı,
Naləsi ağrıdandı.
Mənim kimi honun da
Ürəyi dərd udandı **(T.43)**.

Tısbağa boydan qısa,
Ot yiyər busa-busa.

Çanağınnan çıxıpdı
Bəyəmmir, batıp yasa **(T.43)**.

Tək qalıb evdə kişi,
Ağrıyır onun dişi.
Yazıq arvadların
Qurtarmır heç vaxt işi **(S.80, T.12)**

Təpəyəm dağa bəndəm,
Meşəyəm, bağa bəndəm.
Xəsdəni mən neylərəm
Bir canı sağa bəndəm **(T.43)**.

Tərim bənöyşədəndi,
Dünya gəldi, gedəndi.
Gəl qovuşax, bir olax
Ayrılıx de, nədəndi? **(T.43)**

Tərlan gəlib bu bağa,
Qonub uca budağa.
Ölü olsam, dirilləm
Dəysə dodaq-dodağa **(T.49)**.

Uzun saçın qarası,
Qatda, qalsın parası.
Yar boynuna sal, dola
Yoxdu bunun çarası **(T.43)**.
Uzun çinar, sal çinar,
Get aranda qal, çinar.
Yarın öyə gələndə
Üsdə kölgə sal, çinar **(S.47, T.12)**.

Ulduz yerə ənibdi,
Bəxd ulduzum sönüpdü.
Bəxdim yatıp, oyammaz
Üzqoylu dönüpdü **(T.43)**.

Uruz yolu budumu,
Arxı dolu sudumu.
Unutmaram deyirdin
Etibarın budumu? **(S.47, T.12)**

Usdol üsdə samovar,
Padnos içində nə var.
Qara kekil, qumral göz
Elə yar olsa, nə var? **(S.47, T.12)**

Usdol üsdə fanaram,
Od vursalar, yanaram.
Sən ordan qaş-göz elə,
Mən arifəm qanaram **(S.47, T.12)**

Usdol üsdü vaz nədi,
Yazdığın kağız nədi.
Əgər məni sevirsən
Yanındakı qız nədi? **(S.47, T.12)**

Usdul üsdə bağlama,
Mən gedirəm ağlama.
Gedirəm, gələcəyəm
Özgəyə bel bağlama **(S.47, T.12)**.

Usdol üsdə üzüm var,
Üzüm, səndə gözüm var.
Nə çox dünyada gözəl
Bircə səndə gözüm var
**(S.47, T.12)**
Üzüyün qaşı yandı,
Dəyirman daşı yandı.
Pulum yox nişan verim
Qəlbimin başı yandı **(T.49)**.

Üzümdə var sarılıq,
Nə yamandı ayrılıq.
Özündən gəl sən inci
Gör nə günə qalırıq **(T.49)**.

Yad gördü dedi məni,
Dərd oydu, yedi məni.
Vəfasıza sirr verdim

Aləmə dedi məni **(T.49)**.

Yada açma yaxanı,
Qoy yadın çıxsın canı.
Yaddan sənə yar olmaz
Yarın kimi yar hanı? **(T.43)**

Yaz başı bosdan çıxar,
Şirin söz dosdan çıxar.
Könlüm yas içindədi
Yar gəlsə yasdan çıxar
**(S.55, T.37)**

Yaya döndüm, yaylandım,
Ox atana paylandım.
Eşkin ağlım apardı
Dəli oldum, zaylandım **(T.43)**.

Yaylax yolu asdana,
Girmə, gülüm, bosdana.
Könlüm dərdə düşüpdü
Yazsan, sığmaz dasdana **(T.43)**.

Yaylıx aldım allıdı,
Üsdü qara xallıdı,

Neynəmişəm yara mən
Öydə qiylü-qallıdı? **(T.43)**

Yaylığa baxma, yarım,
Su olub, axma, yarım.
Özgə yardan yar olmaz
Daldadan baxma yarım **(T.43)**.

Yaylığı alma yarım,
Al yerə salma, yarım.
Yaylıx da ayrılıxdı
Boynuma salma, yarım **(T.43)**.

Yaylığı kirri qardaş,
Qəmli, fikirri qardaş.
Sənə bəylik yaraşır
Dur gəl, fikirri qardaş
**(S.47, T.12)**

Yaylığı kirri dosdum,
Beyni fikirri dosdum.
Nə saralıp solupsan
Ufdan kəkilli dosdum?
**(S.177, T.44)**

Yaylığım həşdi - hüşdü,
Bir ucu suya düşdü.
Hayıf, bu cavan canım
Cavankən küyə düşdü **(S.47, T.12)**

Yanağında xal qara,
Yarı çəkipdi dara.
Dərtdi könül qan ağlar
Bağlar cannan xar-xara **(T.43)**.

Yandım, yandım, köz olsun,
Külü gözünə dolsun.
Sarı pirin duası
Canına qənim olsun **(S.194, T.33)**.
Yandım-yandım kül oldum,
Su altında lil oldum.
Dağlardan ağır canım
Xəzəldən yüngül oldum
**(S.55, T.37)**

Yar da yarın gülüdü,
Gülüdü, bülbülüdü.
Yarı yardan eliyən
Yarın acı dilidi **(T.43)**.

Yar gəldi bu diyara,
Könlümə etdi çara.
Gözəl bir qız görmüşəm

Ay camallı, göz qara **(T.49)**.

Yaralandım yanımdan,
Quşlar döydü qapımdan.
Elə bir dərdə düşdüm
Bezar oldum canımdan **(T.43)**.

Yaralıyam yar sənnən,
Quşlar doymur, qar sənnən.
Bilmirəm nə iş oldu
Bezar oldu yar sənnən**(S.47, T.12)**

Yarım gedən il oldu,
Quru baxça gül oldu.
Aləmə bir il olsa
Mağa yeddi il oldu **(S.107, T.12)**.

Yarın gözü badamı,
Aşıx çalsın havamı.
Toya girip oynayım
Yarım alsın qadamı **(T.43)**.

Yasdıx üsdü yasdıdı,
İti bıçax pasdıdı.
Düşmənə bel bağlama
Ürəyi qisaslıdı **(T.43)**.
Yatıpsan oyan, dağlar,
Al yaşıl boyan, dağlar.
Bura zülmətxanadı
Necədi o yan, dağlar?**(S.47, T.12)**

Yaxşı olar yaz çağı,
Gəlinlərin qolçağı.
Yaman günə qalaydı
Adamların alçağı **(T.43)**.

Yaş gözlərə dolmasın,
Qızılgüllər solmasın.
Hər zaman arzum budu
Müharibə olmasın **(S.47, T.12)**.

Yer qazanın paxırı,
Oğlan, qaytar naxırı.
Mən səni isdəmirəm
Budu, sözün axırı **(S.47, T.12)**.

Yolda izim qalıpdı,
Göydə gözüm qalıpdı.
Gözdərin çaldı məni
Getmə, sözüm qalıpdı **(T.43)**.

Yorulupdu, işi var,
Əl dəyməyin, işi var.
Məni sevən oğlanın
İki qızıl dişi var **(S.62, T.44)**.

Yorğanı qatdamışam,
Ox kimi atdamışam.
Ay müşdəri, dər apar
Nar kimi partdamışam **(T.43)**.

Yorğanı yığdım yükə,
Yatmayıp bükə-bükə.
Bacımı yola saldım
Göz yaşı tökə-tökə **(T.43)**.

Yumurtadan yun olmaz,
Daş üyütsən un olmaz.
Üsdə günü gələnin
Ömür günü gün olmaz **(T.43)**.

Yumurtadan yun olmaz,
Sındırsan kasa dolmaz.
Özgə danası güdsən
Çatısı əldə qalmaz **(T.43)**.

Yumurtanın sarısı,
İşdim qaldı yarısı.
Bir gecə qonax saxla
İnsaf dinin yarsı **(S.47, T.12)**.

Yurd yox, Taladan savay,
Gül yox, laladan savay.
Anam necə əzizdi
Körpə baladan savay **(S.51, T.30)**.

Yük üsdündə tucu var,
Tucunun qırx ucu var.
Qız vəkili verməsə
Oğlanın nə gücü var? **(S.107, T.12)**

Yük üstə güllü xalça,
Kim qaldıra, kim aça.
O yara qurban olum
Dindirə, könlüm aça **(T.43)**.
Zaqatalanın düzü,
Gəzdim Bakı, Tiflisi.
Ölüm Allah işidi
Unutmayın, siz bizi **(S.47, T.12)**.
Zoğallar allanıpdı,
Al geyip allanıpdı.
Yar görən kimdən küsüp
Üz-gözü allanıpdı **(T.43)**.

Zülfün tökülüf üzə,
Sallanır süzə-süzə.
Gecə keçdi gəlmədi
Umud qaldı günüzə **(T.49)**.

Zülfünü bənd eylərəm,
Fal açıb, rəmd eylərəm.
Yarımla barışmaram
Dilimi qənd eylərəm
**(S.153, T.43)**.

Zər üstündə zərəndaz,
Qış gedib, gəlipdi yaz.
Gözləmişəm, gəlmədin
Kəsdi məni tərs ayaz **(T.43)**.

Zəri alsan zərgərdən,
Yoxla, qalma sərgərdən.
Gözəllərin tənbəli
Yatar, çıxmaz kölgədən **(T.43)**.

Zərincə bax, zərincə,
Yarın qəlbi nə incə.
Saxlamışam zərincə
Yarım bizə gəlincə **(T.43)**.

## MÜƏLLİFLİ BAYATILAR

**Muradova Hafizat (T.12; 30)**

Aman, aman, ay aman,
Ayrılıx olup yaman.
Sən əhdinnən  dönmə, gəl
Sənə qalıp bir güman.

Aşıq gələr saz ilə,
Ördək ilə, qaz ilə.
Toyun mübarək olsun
Bəyəndiyin qız ilə.

Bazarda alma satsın,
Daim köməyə çatsın.
Heç kim yəqin isdəməz
Bir gün də xəsdə yatsın.

Bazardan aldım tacı,
Baxma mana qıyqacı,
Sən hamıdan igidsən
Qəhrəman mana bacı.

Bazardan aldım tacı,
Nə aldım oldu acı.
Sən hamıdan qəşəngsən
Bizim İradə bacı.

Barıya qoydum bir daş,
Üsdünə yazdım yaddaş.
Hamıdan çox yaraşır
Böyük bacıya qardaş.

Bağçalar gülnən dolsun,
Ürəklərdə ruh olsun.
Arzularım budu ki,
Dünyamızda sülh olsun.

Çaylar daşıb olub sel,
Toyuna yığışıp el.
Sən harada qalmısan
Mərcan gözlüm, Qaratel?

Çalxalayıram nəhrə,
Taxçada durur dəhrə.
Çox görməyə isdiram
Sevimli nəvəm Zöhrə.

Daxılda var min manat,
O da sizə amanat.
Ölkələr arasında
Olmasın heç xayanat.

Dağlardan enən ayı,
Bildinmi qoyun sayı?
Ömrün çox uzun olsun
Çoban Əmrullah dayı.

Deliyə olmasın ar,
Ürəyimi tutma dar.
Hər dünyaya gelenin
Hamısında  ölüm var.

Deyillər ki, dağlıdı,
Özü lap ağıllıdı.
Qardaşın kobut sözü
Bacı üçün yağlıdı.

Düz sözü özüm dedi,
Sevinc yaşlar  gözümdedi.
Hərə yüz il yaşamasa
Günah onun özündedi.

Əlimə aldım qaşıxdı,
Süfrəyə yaraşıxdı.
Dörd bacının qardaşı
Gözlərimə işıxdı.

Əlimə aldım nizə,
Qardaşım gedib bizə.
Bu mənim mahnılarım
Yadigar qalsın sizə.

Əlinə qələm alan,
Ay məni dərdə salan.
Məhəbbət gerçəkdisə
Olmasın bunda yalan.

Əsdi dağlar küləyi,
Uzaq elə kələyi.
Allah, sən qəbul eylə
Sevənnərin diləyi.

Gedirdim tövşə-tövşə,
Birdən çıxdım hövüşə.
Darıxıram səninçün
Əziz baldız Bənöyşə.

Gülü dərmişəm genə,
Bağışlayıram sənə.
Ayrılıx yaman şeydi
Qismət olsun düşmənə.

Göz yetirdim çətrinə,
Qızılgülün ətrinə.
Ay qız, səni saxladım
Uşaxların xətrinə.

Göydə uçan durna, qaz,
Qanadında tampur, saz.
Hər dəfdərin başında
Mən baxdıqaranı yaz.
Gəzmişəm çölü, düzü,
Qar üsdündə var izi.
Balaların toyunda
Oynadarsan sən bizi.

Gəlirəm əsə-əsə,
Kim bu dərdimi bilsə.
Qardaşıma yaxşı bax
Əziz gəlin Minasə.

Heç bir kəsə uymayın,
Pis işə qoşulmayın.
İnsaf edin, balalar,
Məni yaşdı qoymayın.

Heç kəsə söz atmaram,
Ara-bərə qatmaram.
Özgəyə dərd gələndə
Gecələri yatmaram.

Hündür dağlar aşginən,
Dağa mahnı qoşginən.
Səni qonaq edillər
Saxla atı, düşginən.

Həmişə çıplaxdı at,
Tuta bildim nahayat.
Mahnılar həvəskarı
Muradova Hafizat.

Köynəyi geydim, darmı,
Onu geyən de, yarmı.
Nə qədər çalışsam da
Qədrimi bilən varmı?

Qaldırdım perdə,
Mən də bu yerdə.
Heçkəs düşmesin,
Mən düşən derdə.
Qızılgülü dərərsən,
Dərip yara verərsən.

Ay mənim əziz gülüm,
Axşam bizə gələrsən.

Maqazindən ağ aldım,
Aldım, sumkama saldım.
Xəsdə idim, ölürdüm
Səni gördüm, sağaldım.

Mən arzuma çatıram,
Yasdığa baş  atıram.
Axşamatan işlədim
Yorulmuşam, yatıram.

Mən özüm Hafizatam,
Candan da bir babatam.
Çıxıb gedib Bilallar
Bununçün narahatam.

Məhlədə toyux gəzir,
Düşmənnən duyux gəzir.
Çoxdandı görməmişəm
Böyük qardaşım Nəzir.

Nə tez böyüdü balam,
Dərd unuduldu  tamam.
Toyunun vaxdı ötür
Yoxmu xəbərin İmam?

Öydə rahat yatmadım,
Heç kəsə söz atmadım.
Yaxşılığa çalışdım
Əvəzini tapmadım.

Öydə rahat yatmadım,
Heç kəsə söz atmadım.
Hamıya qardaş didim
Əsil qardaş tapmadım.
Sizə gəlsəm ad olar,
Gəlməsəm də yad olar.
Gəliş-gediş çox olsa
Qohumlar da şad olar.

Suvagili su basdı,
Sel bu yolları kəsdi.
Əhsən, bu adamlara
Selin qabağın kəsdi.

Sözümdə yoxdu yalan,
Mən danışdım, sən inan.
Hamı gedib tək qalıb
Yazıxdı ata-anan.

Sən gəzirsən hər yanı,
Yox imiş pulun sanı.
Ay qız, sən xoş gəlmisən.
Sənin nişannın hanı?

Səhər tezdən oyandım,
Hamını oyax sandım.
Deməyin, mahnı yoxdu
Yorulmuşam, dayandım.

Tütün çəkən yalançı,
Onnan betərdi yançı.
Hamısınnan oğruyır
Doymursanmı çanaxçı?

Tök xörəyə sumaxdı,
Sarımsax da, sumaxdı,
Məni cavan yaşadan
Mahnıdı, oxumaqdı.

Tərəzi gəlib milə,
Burda işlənib hiylə.
Doğrusunu diyəndə
Ağzına vurar şillə.
Ürəkdə arzular çox,
Xəsdəyəm, təhərim yox.
Yarım çox uzaqdadı
Mimməyə kəhərim yox.

Varlılar çox mal alar,
Yoxsullar derdə salar.
Vaxtı çatıb öləndə
Malı da miras qalar.

**20 yanvar hadisələri ilə bağlı bayatılar**

Analar döydü dizlər,
Ürəkmi buna dözər?
Düşmənə nifrət ilə
Yumuldu şəhid gözlər.

Düşmən əli bir alət,
Zor işlətdi cinayət.
Bizim dinc əhaliyə
Eylədilər xəyanat.

Hasar çəkdi hər yanı,
Qırdı insan – insanı.
Gözü yaşlı qoydular
Bizim Azərbaycanı.

İnsanlar batıp qana,
Hamı qalıp yana-yana.
Balaları şəhiddi
Dözərmi yazıx ana?

İnsanların yox sayı,
Eşidilmir harayı.
Qanlı bazara döndü
Bu ilki yanvar ayı.

Küçələrdə qanlı iz,
Analarsa döyür diz.
Bu ilki dəhşət günü
Unutmarıq heç vaxt biz.

Unudulmaz bu anlar,
Bu günahsız qurbanlar.
Bir də dünyanı görməz
Ölüp gedən cavannar.

Ürəkləri dağladı,
Sinə dolu ağladı.
Günahımız nə idi
Bizi yasa bağladı?

Ver ağıllı meslahat,
Gəl qorxusuz yerə çat.
Tank altında əzildi
Bu günahsız camahat.

**Aşıq Sənəm (Ə.3; 5)**

Ay qaraşalvar oğlan,
Üzündə xal var, oğlan.
Anam sənə qız verməz
Gəl, ona yalvar, oğlan.

Ay qız, adın Səlminaz,
Kağız verim, otur yaz.
İkimizin toyu var
Üstə gələn qara yaz.

Ay qız, mənim payımsan,
Göy üzündə ayımsan.
Mən səni çox istərəm
Yaxşı mənim tayımsan.

Ay qız, çıxma çəkilə,
İpək köynək sökülə.

Baxmaqnan gözmü doyar
Səndə olan şəkilə?

Ay doğdu batan yerdə,
Can-cana qatan yerdə.
Dosta yadigar verdim
Yaxından ötən yerdə.

Ay doğdu bədir, Allah,
Bu sözlər nədir, Allah.
Cavana cavan yazan
Üstəki qadir Allah!

Ay doğdu, qadir Allah,
Sevdamız nədi, Allah.
Muraz üsdə qalanın
Murazın yetir, Allah!

Ay doğubdu bizlərə,
Qulaq verin sözlərə.
Bu canım qurban olsun
Yalqız qalan qızlara.

Ay mənim neçə yaram,
Sızıldar gecə yaram.
Sən bilmə, allah bilir
Mən sənə necə yaram.

Ay Sənəm, qalx ayağa,
Su doldur, qalx ayağa.
İllər xəstəsi canım
Yar gəldi, qalx ayağa!

Ay gedib batan yerdə,
Can-cana qatan yerdə.
Ağ üzündən öpəydim
Sarmaşıb yatan yerdə.
Ayağında məsi var,
Qoynunda məməsi var.
Əl salıb incitməyin
Onun da yiyəsi var.

Alma tək soydun məni,
Yeməmiş doydun məni.
Nədi günahım mənim
Yandırıb oydun məni?

Arxalığı biçərlər,
Qırağından tikərlər.
Mən səndən soruşuram
Tükü nəylə seçərlər?

Arxalığın aldımı,
Qıraqları şaldımı.
Qonşudakı o yarın
Dodaqları baldımı?

Atılar top qoşuna,
Vurular mərd başına.
Nə insafsız zabitdi
Baxmayır göz yaşına?

Aşağıdan su doldurur,
Yuxarıdan bulandırır.
O yanda bir gəlin var
Vallah, məni yandırır.

Aşiqəm Güləndama,
Şeh qonub gül əndama.
Bir tafta köynək olam
Yapışam gül əndama.

Aşıqlara, sazlara,
Tamburda qotazlara.
Bu canım qurban olsun
Gəlinlərə, qızlara.
Ağ almanı ataydım,
Atıb əldə tutaydım.
Ay qız, nikahlın olub
Bircə ömür yataydım.

Ağ almanı soymazsan,
Xalq sözünə uymazsan.
Çox etiqad eylərəm
Sözüm yerdə qoymazsan.

Ağ papaq geyən molla,
Dayan, söz deyən, molla.
Arzumanın olmasın
Kəbinim kəsən molla!

Ağac başında qabaq,
Yarpağı tabaq-tabaq.
Sizin kimi şeylərin
Ağzına bir şapalaq.

Ağac başında qarğa,
Ağzım dolu qovurğa.
Sizin kimin şeyləri
Yolda mana buyurğa.

Ağac yandı köz oldu,
Əyri kösöy düz oldu,
Əziz yara, deyəsən
Dəyən bircə söz oldu.

Ağacdakı xurmalar,
Qız, yaxanda düymələr.
Qız, üstündə qan olar
Qaş-gözün az sürmələ.

Ağacdan kəsdim budaq,
Yerə düşüncə tutaq.
Bundan bizə yar olmaz
Gəl, təzədən yar tutaq.
Bazardan aldım qutu,
İçində kəklikotu.
Dizin üstə baş qoyum
Çimdikləmə, düz otu.

Barmağı üzük yarım,
Qolu bilərzik yarım.
Əyil üzündən öpüm
Dodağı nazik yarım.

Barmağında bir üzük,
Sağ qolunda bilərzik.
Mən ona qurban olum
Boynumdan beli nazik.

Barmağından çıxdı qan,
Mən and içdim, sən inan.
Gəlib yadıma düşdü
Səninlə keçən zaman.

Baxdım iraq görükür,
Çöldə çıraq görükür.
O dostumun köynəyi
Zolaq-zolaq görükür.

Bağa su düşdü, neynim,
Tənək su içdi, neynim.
Allah pay paylayanda
Mənə bu düşdü, neynim?

Bağda bağbanın ollam,
Saxla bağbanın ollam.
Əgər könlün istəsə
Gəlib qurbanın ollam.

Biz hara, bura hara,
Bizi saldılar tora.
Bizi tora salanı
İmansız getsin gora.
Bir cüt quş var gül üstə,
Bir cüt göz var yol üstə.
Allah, məni öldürmə,
Toyum vardır il üstə.

Boz at mindim, boz oldu,

Yorğa sürdüm, toz oldu.
Qız, yaylığın düşmüşdü
Mən götürdüm, söz oldu.

Boz atın boylamasın,
Çək başın oynamasın.
Gəlirsən səhərdən gəl
Ürəyim oynamasın.

Bostanda yemiş olar,
Yeməmiş dəymiş olar.
Oğlanı dərdə salan
Qız deyən ölmüş olar.

Bu daşdan aşmaq olmaz,
Kağızdan başmaq olmaz.
Küsülü yar ötürdüm
Daha barışmaq olmaz.

Bu dərə, uzun dərə,
Yazılubdı dəftərə.
Burda işim düzəlmir
Mən gedirəm əsgərə.

Bu yoldan işləyəydim,
Xəncər gümüşləyəydim.
Eşq ilə yarı sevib
Üzündən dişləyəydim.

Bu yoldan yol ayrılar,
Zülmündən tel ayrılar.
Namərdlə yoldaş olan
Mərddən də tez ayrılar.
Bu yoldan xanım gedər,
Ardınca canım gedər.
Bir yerdə yaralandım
Min yerdən qanım gedər.

Bu yolun iki qatı,
Səllim buraxdım atı.
Çox da baha demərəm,
Yüz manatdı qıymatı.

Bu fayton bizim olsun,
Topları qızıl olsun.
Biz alası qızların
Ömürü uzun olsun.

Bu gecə ziyan gecə,
Yar boyun əyən gecə.
Cəsəddə canmı qalar
Əl-ələ dəyən gecə?

Bu gecə nə gecədi,
Ay ülkərdən ucadı.
Şeyx olub bir biləydim
Yarın halı necədi?

Bu gecə toy olacaq,
Qız-gəlin oyanacaq.
İlan vurmuş anası
Qızını qoymayacaq.

Bu gün bayram elərik,
Bağda seyran elərik.
Yar bayrama gəlməsə
Bayramı tərk elərik.

Bulaxda beş yaxa var,
Gümüşdən aftafa var.
Maral qızın başında
İpəkdən alafa var.
Buxarı qurum oldu,
Yandıqca qurum oldu.
Yoldaşların içində
O qıza zülüm oldu.

Buxarı pis olarmış,
Yandıqca his olarmış.
Özgə dərdlərə şükür

Yar dərdi pis olarmış.

Buğdalar köklü nədi,
Yar sevdim bir dənədi.
Olmuşam yar dəlisi
Deyirlər divanədi.

Büzmə köynəy büzülsün,
İncə belin üzülsün.
Siftə gedən gecəsi
Yardan əlin üzülsün!

Car yoluna gələsən,
Əsgər paltarı geyəsən.
Kağız yazıb yollaram
Qum kəndinə gələsən.

Cara gedən bir yoldu,
Biri sağ, biri soldu.
İki sinən arası
Damağa gedən yoldu.

Cara gedən yardılar,
Qızıl gülü dərdilər.
Var olsun bu el-oba
Yarı yara verdilər.

Çay daşı, çaylaq daşı,
Edək tambur savaşı.
Qaynata quzu kəssin
Gəlin bişirsin aşı.
Çıxdım hündür çinara,
Xəbər yolladım Cara.
Məndən çox salam olsun
Sevdiyim əziz yara.

Çöldə tutdum bir ceyran,
Mən sənə oldum heyran.
Əyil üzünnən öpüm
Hürünün qızı Məryəm.

Dama buğda səpərlər,
Çıxma, boyun görərlər.
Sənin sümbül saçından
Heykələ bağ hörərlər.

Dağdan-dağa gəzərəm,
Quşlara dil yazaram.
Bir quş məni aldatdı
Daha quşdan bezaram.

Dağlar başı dolama,
Bəylər gedir salama.
Yar özü bostançıdı
Məndən istər şamama.

Dağlarda, meşələrdə,
Şam yanar şüşələrdə.
Sən girdin yar qoynuna
Mən qaldım guşələrdə.

Dağların bulağına,
Köynəyin zoğalına.
Məmələrin ağzıma
Üzün də ki, bir yana.

Divardan tambur asdım,
Ay mənim əziz dostum.
Hər nə dedin, sən dedin
Mən nə dedim, sən küsdün?
Dillən tamburum, dillən,
Bəzərəm səni gülnən.
Əsmər yarım, göz süzmə
Dilləndir məni, dillən.

Dostum, başına gələr,
Sürmə qaşına gələr.
Bir neçə hayla desəm
Sənin xoşuna gələr.

Dəryada qızıl balıq,
Üstü göy, altı Qanıq.
Çox istədim, gəlmədin
Canıma qoydun yanıq.

Dəryalar üzə-üzə,
Üzübən çıxdım düzə.
Bir Allah kömək olsun
Bu bizim ikimizə.

Əziziyəm baş bağlar,
Başın yuyar, yaş bağlar.
Yarından ayrı düşən
Ürəyinə daş bağlar.

Əzizim hara gəlsin,
Zülfünü dara gəlsin.
Mənsiz bayram eləsən
Bayramın qara gəlsin.

Əzizim gül üzənə,
Gün düşdü Gülüzənə.
Sənəmi görmək istəsən
Gəlginən Gülüzənə.

Əl vuraram qaşığa,
Söz deyərəm aşığa.
Mən səni alacağam
Evimə yaraşığa.
Əl yaylığı açılmaz,
Saçaqları saçılmaz.
Bu mənim sönmüş göylüm
Yar görməsə açılmaz.

Əlimdəki sazımdı,
Sazım mənə lazımdı.
Gülüm olmayan yerlər
Mənə nəyə lazımdı?

Əlinə can, əlinə,
Tamburun beş telinə,
Aç qolların sarmaşım
Sənin incə belinə.

Gedirəm, yol üstəyəm,
Bülbüləm, gül üstəyəm.
Əzrayıl, alma canım
Nişanlı, toy üstəyəm.

Getdim gördüm Qanığı,
Suları bulanığı.
Ölsəm də yaddan çıxmaz
Əziz yarın yanığı.

Gəl oturub çay içək,
Göy qılasdan don geyək.
İlqar üstə durmağa
Quran gəti, and içək.

Gəldi gölün zamanı,
Ay canımın cananı.
Bircə görmək istərəm
Uzaqdakı cavanı.

Gəlinə bax, gəlinə,
Sarmaşaydım belinə.
O qızın incə beli
Haçaq düşər əlimə?
Hayla haylanın başı,
Hayla bilməyən naşı.
Hayla bilmək yaxşıdı
Qərib yerin yoldaşı.

Haylaya girdim bağa,
Qızıl gülü dərmağa.
Qızıl gül də bəhanə
Sevən yarı görmağa.

Hündür dağların düzü,
Canına al bu sözü.

Qərib canı yandırır
Cavanölmüşün qızı.

İsdəkənə sal şəkər,
İstambul ordu tökər.
Yar yadıma düşəndə
Ürək yanıb qan tökər.

Qamış taladan azar,
Yar görüb ağılım azar.
Mən bir gözəl sevmişəm
Açmamış gülə bənzər.

Qar yağır kürək-kürək,
Damları dirək-dirək.
Qonşuda bir qız gördüm
Öpməyə ürək gərək.

Qara atın yalmanı,
Göyə atdım almanı.
Oynatmaqçın istərəm
Qoynundakı almanı.

Qara qazan asaydım,
Alta çırpı basaydım.
Sözündən dönən qızı
Saçlarından asaydım.
Qaradağın başına,
Qurban olum qaşına.
Qırmızı döşlük olub
Sarılaydım döşünə.

Qarğı tək oydun məni,
Soğan tək soydun məni.
Nə kölgədə bəslədin
Nə günə qoydun məni?

Qaşları qələm-qələm,
Pulum yox, səni alam.
Səni gürcü aparsın
Mən gəlib satın alam.

Qaşların qaradandı,
Haq bizi yaradandı.
Qurban olduğum Allah
Bu sevda haradandı?

Qoyun- quzu qarışdı,
Cavan canım alışdı.
Sən Şəkidə, mən burda
Bu necə ismarışdı?

Qoruqda qoyun-quzu,
Qoyuna verdim duzu.
Dövlətə susamayın
İgidə verin qızı.

Quşların cürə-cürə,
Uçar gedər hündürə.
Qız, mənimlə dostlux et
Düşmənlər hürə-hürə.

Qızıl kəmər taxarsan,
Öz canına baxarsan.
Bir azca səbir eylə
O zülümdən çıxarsan.
Meşədə dad şan gəlin,
Qurşağı qurşan gəlin.
Ərin xoryaddı sənin
Gəl ondan boşan, gəlin!

Mən gələrəm Ağdaşdan,
Sən kirpikdən, mən qaşdan
Nə atam yox, nə anam
Yaranmışam ağ daşdan.

Məsinə, can məsinə,
Ağ qolun düyməsinə.
Bu canım qurban olsun
Balamın kirvəsinə.

Məhlədə bitər söyüd,
Yarpağı gömgöy söyüd.
Kiçikcə bir yar sevdim
Xudam, sən özün böyüt!

Namaz qıldım sünnətə,
Adam saldım minnətə.
Atanı ilan vursun,
Anan getsin cənnətə.

Naxırda ağ inəyim,
Ağılda sağ inəyim.
Kömürdən qara yandı
Kağızdan ağ ürəyim.

O qıza bax, o qıza,
Çəpərdən baxır bizə.
Qızı mənə verməsəz
Axirət olmaz sizə.

Oturmuşdum binədə,
Tambur çaldım sinədə.
Üç ildən bir görsəm də
Unutmaram genə də.
Oxuyan Sənəmdimi,
Gözlərində nəmdimi.
Görənlərdən xəbər al
Əvvəlki Sənəmdimi?

Ocağa qazan asım,
Altına odun basım.
Mən burda hayla deyim
Siz ordan qulaq asın.

Oğlan, otur daş üstə,
Yumru papaq baş üstə.
Oğlan deyər: bir öpüş
Qızlar deyər: baş üstə!

Padnosa əl vuruldu,
Carda mizan quruldu.
Yarım ötüb gedəndə
Tiflisə tel vuruldu.

Palutun yeri mənəm,
Torpaqda çürümənəm.
Gəlsinlər ziyarətə
Qızların piri mənəm.

Papiros çəkməginən,
Qutunu əyməginən.
Ay dostum, gəl yaxına
Yandırıb tökməginən.

Paprusu yandırarsan,
Asanca qandırarsan.
Ay incə belli yarım
Nə məni yandırarsan?!

Paprusu çəkər dostum,
Dodağı şəkər dostum.
Sən paprusu çəkəndə
Mən sənə nökər dostum.
Samavar dolub daşar,
O gül kimə yaraşar.
O gül bizim olmasa
Tamam dağ-daş ağlaşar.

Sarayda tütün düzən,
Qələmqaş, gözlər süzən.
Gözüm sənə düşdübdü
Köynəyi çoxlu düzən.

Seyrana gedən olsa,
Qızıl gül görən olsa.
Yazıb kağız göndərrəm
Dostuma, gedən olsa.

Seyrəcin o üzündə,

Ceyran otlar düzündə.
Qoşa xallar görmüşəm
Yarımın ağ üzündə.

Su gəlir bəndər-bəndər,
Dağlardan qarı əndər!
Dərmansız dərdə düşdüm
Al dərmanı, tez göndər!

Su gəlir qalxa-qalxa,
O qızın adı Zalxa.
Bu gün bir yar sevmişəm
Qardaşdan qorxa-qorxa.

Suya gedən sarı qız,
Sarı köynək, sarı qız.
Gözləri şah alması
Özü dünya malı qız.

Sən mənim ovum, ay qız,
Çaxmağım, qovum, ay qız.
Yoldaşıma gəlsənə
Qurbanın olum, ay qız.
Sənəm eli çağırır,
Siyah teli çağırır.
Sinəm üstə əzrayıl
Dilim yarı çağırır.

Səhər getdim dükənə,
Sataşdım gül əkənə.
Mənim qorxum ondadı
Yarsız ömrüm tükənə.

Talaya yol salaydım,
Xırmanı bol salaydım.
Mən istəyən gözəlin
Qoynuna əl salaydım.

Tambur ilən, saz ilən,
Ördək ilən, qaz ilən.
Bircə gecə yataydım
Sevdiciyim qız ilən.

Tambur saz oldu, neynim,
Ördək qaz oldu, neynim.
Mən bir azara düşdüm
Səbəb qız oldu, neynim?

Tambur çalan tək barmaq,
Kəmərin qızıl qarmaq.
Oğlan, sənə eyibdi
Məni sevib, onu almaq.

Tambur çalan gəlinə,
Xına yaxıb telinə.
El qurban, ulus qurban
Sənin dadlı dilinə.

Tambur çalır siminə
Düşmüşəm həvəsinə.
Bir neçə hayla deyim
Yarımın həvəsinə.
Tamburu as divardan,
Xəbər ver əsmər yardan.
Tanrıma yalvarmışam
Səni qurtarsın dardan.

Tamburu daldan üzüm,
Tellərin düzüm, düzüm
Əyil üzündən öpüm
Sən mənim qumral gözüm.

Tamburun qolu uzun,
Qoluna mərcan düzüm.
Yarım var, uzaqdadı
Mən buna necə dözüm?

Tamburun dili mənim,
Dilim bülbüldü mənim.
Yarımdan ayrılalı

Hər günüm ildi mənim.

Tamburun yeddi bəndi,
Bazardan aldım qəndi.
Kor olaydı gözlərim
Gördüm, ürəyim yandı.

Tamburun sapı uzun,
Çantaylar düzüm-düzüm.
Əyil üzündən öpüm
Sən mənim qumral gözüm.

Tamburun teli laldı,
Bazardan aldım, baldı.
Qızlara qurban olum
Gəlinlər ayrı maldı.

Tamburun teli mənəm,
Şirvanın yeli mənəm.
Girəydim qız qoynuna
Cənnətin gülü mənəm.
Tamburun üzü taxta,
İkimiz bir otaxda.
Mən nə çarə eləyim
Allah verməyən baxta!

Taxt üstündə yatmışam,
Əlimdə şam tutmuşam.
Yadıma yar düşübdü
Dünyanı unutmuşam.

Tullanıb girdim bağa,
Başım dəydi yarpağa.
Qorxa-qorxa gedirdim
Gözüm sataşdı sağa.

Tutdum bağı şərikə,
Dişlədim, oldu ləkə.
Necə yaman olurmuş
Yar olmayan mərəkə.

Tüfəng olub ataydım,
Bir mənzilə çataydım.
Döşün üstə baş qoyub
Şirin yuxu yataydım.

Tökərəm qan-yaşını,
Qaraldır qız qaşını.
Bilmirəm ki, hardadı
Gözümüzün işığı?

Tənək əkdim, bağ olsun,
Bağ artırdım, dağ olsun.
Bir neçə hayla dedim
Eşidənlər sağ olsun.

Xəncərimi bağlaram,
Düşmənləri dağlaram.
Yadıma yar düşəndə
Tifil kimi ağlaram.

Xəncərin bağı tasma,
Tasmadan qoyun asma.
Düşmən dili çox olar
Hər dilə qulaq asma!

Üstündəki aya bax,
Bu evdəki toya bax.
Toyda yarım oynayır
Halal olsun, boya bax!

Yazı yaza bilmirəm,
Qara poza bilmirəm.
Vətən orda, mən burda
Ayrı dözə bilmirəm.

Yar köynəyi bizdədi,
Düymələri düzdədi.
Getdim yarı görməyə
Dedilər: Tiflisdədi.

Yarım aldatdı məni,

Qürbətə atdı məni.
Ana, yazdığın kağız
Yaman ağlatdı məni.

Yarım, üzündə zərdə,
Düşmüşəm mən bu dərdə.
Vallah, dözə bilmirəm
Yarım olmayan yerdə.

Yarımın adı Mirzə,
Göndərmişəm Tiflisə.
Sovqatın istəmirəm
Sağlığı gəlsin bizə.

Yarımın zülfü qara,
Ağ üzdə zülfü qara.
Hər kim mana eləsə
Tapşırram zülfüqara.

Yağış yağar Şirvana,
Gün doğar hər bir yana.
O deyilmi, yar gəlir
Şam kimi yana-yana?

Yol uzunu gedirəm,
Bilmirəm nə edirəm.
Ay qız, sənin dərdinnən
Baş götürüb gedirəm.

Yoldaşım, hayla diyək,
Soyub gərməyin yiyək.
Bizə hamısı birdi
Sənə hansını deyək?

Yolumuz qaratikən,
Kimdi papiros çəkən.
Qara qaşlı olmusan
Məni yandırıb tökən!

Zərnə yolun düz gördüm,
Bir qəmzəli qız gördüm.
Saçları üç yüz manat
Hələ mən ucuz gördüm.

## HAYLALAR (Ə.5, S.80-87)

Ay Allah, deyənim yox,
Al yaşıl geyənim yox.
Beş il səngərdə qalsam
Gəlmədi, deyənim yox.

Ay deyərəm, deyərəm
Soyub limon yeyərəm.
Sən bir cüt hayla desən,
Mən beşini deyərəm.

Ay desənə, desənə,
Soyub limon yesənə.
Mən bir cüt hayla deyim,
Sən birin desənə.
Ay doğdu, aydın olsun,
Doğduqca aydın olsun
Ay ana, oğlun gəlir,
Gözlərin aydın olsun.

Apar, yaylığı apar,
Ucunda mixək tapar.
Məndən yaxşı yar tapsan,
Gəl məni nökər apar.

Aşiqəm, Leyli, ahdı,
Leyli demək günahdı.
O dağdan çıxan duman,
O da, mən çəkən ahdı.

Ağac başında adam,
Mən bu obada yadam.
Elə, danışıb güldüm
Düşmənlər bilsin şadam.

Ağacı mən oyaram,
Qabığını soyaram.
Sənin kimi oğlanı
Mən yalqızmı qoyaram?

Bazardan aldım  qəndi,
Tamburun yeddi bəndi.
Görünsə görməyəydin,
Görüb ürəyim yandı.

Balakənin meşəsi,
Gözəldi bənövşəsin.
Könülsüz gedən qızın
Ağlamaqdı peşəsi.

Bağça bağa bağlıdı,
Heyva nara bağlıdı,
Oxuduğum bu mahnı
Bir qardaşa bağlıdı.

Bu gecə uyumamışam,
Yaş yerə qoymamışam.
Sən məndən doyubsansa
Mən səndən doymamışam.

Baxçada bar yaxşıdı,
Heyvadan nar yaxşıdı.
Sevməyə gəlin göyçək,
Hamıdan yar yaxşıdı.

Qal qızlar, mahnı diyax
Limonu soyub yiyax.
Bizə hamısı birdi
Sizə hansını diyax.

Qanıx daşanda bilər,
Su qovuşanda bilər.
Dost dostun qədrini
Ayrı düşəndə bilər.

Qanıxda balıq çoxdu,
Tutub verənim yoxdu.
Mən çox hayla bilirəm
Qiymət verənim yoxdu.

Qanığın o üzündə,
Atı sürdüm düzündə.
Mən yarımı tanırım
Qoşa xal var üzündə.

Qara atın qulağı,
Çit köynəyin zolağı.
Gedibdi, gələr yəqin
İki küzün çırağı.

Qaşların qaş-qaş üsdə,
Xoş gəldin, can-baş üsdə.
Yıxılsın düşmən evi
Qalmasın daş-daş üsdə.

Qonşuda toy olacaq,
Qız-gəlin oynayacaq.
Canı yanmış anası
Qızı toya qoymayacaq.

Dambur çalan beş barmax,
Beşi də qızıl baprmax.
Hər qızın işi döyül
Yazını başa vermax.

Dambur çaldım sinədən,
Mən gəlirdim binədən.
Qoymadılar ölüncə
Köçürdülər dünyadan.

Damburun beş bəndinə,
Dost gedibdi kəndinə.
Bu canım qurban olsun
Yarımın gül rənginə.

Damburu çala- çala,
Canıma od sala.
Oh! Sana qurban olum,
Gözdəri göyçək bala.

Dağ başında quş durmaz,
Yaz gələndə, qış durmaz.
Xırda-xırda de gəlsin,
Mənim dilim  dinc durmaz.

Dağdağan ağacları,
Bar gətirməz başları.
Oğlanı yoldan eylər
Qızın qələm qaşları.

Dağlarbaşı ala qar,
Ala çolpa, ala qar.
Çox qarlar yağmışdı
Yağmamışdı belə qar.
Dağın başına daşı,
Gecə bişirdim aşı.
Kündəni yastılayıb
Sürtəcəyəm xaş-xaşı.

Dağıstanın kolları,
Burma-burma yolları.
Siz gələsin bilseydim,
Süpürərdim yolları.

Dəryada ələmim var,
Qızıldan qələmim var.
Yaxından görüşsəydik
Uzaqdan salamım var.

Mazımın o üzündə,
At oynatdım düzündə.
Bir cüt murad demişdim
O da qaldı gözündə.

Mana bacı neynəsin,
Dərdi kimə söyləsin.
Qaraları vurdular
Allah rəhmət eyləsin.

Maşın gəlir Muxaxdan,
Yaz gəlir oxumaxdan
Baş barmağım ağrıdı
Yara məktub yazmaxdan.

Mindirdilər maşına,
Apardılar qoşuna.
Çörəyi qızartmağa
Köz qayırın başına.

Muxax başı Çardaxlar,
Su dolduran bardaxlar.
Bir-bir  yadıma düşür
O gidi keçən vaxtlar.
Mən aşiqəm, gəlmişəm,
Yuyub yaylıq sərmişəm.
Gəldim bura şadlığa
Ağlamağa gəlmişəm.

Mən özüm Tülüdənəm,
Sözümü yeridənəm.
Mənə iki desələr
Mən beşini deyərəm.

Məhlədə qoca balı,
Yoxdu canımın halı.
Anası bir şey döyül
Qızı var, dünya malı.

O qızın ağ salı var,
Ağ şala oxşarı var.
Özü avar balası
Muğala oxşarı var.

Samovar duran yerdə,

Burğusu buran yerdə.
Ət gedib, sümük qaldı
Qız səni görən yerdə.

Su altında lil oldum,
Yana-yana kül oldum.
Dost-tanışın içində
Bəxti qara kül oldum.

Suda mindim gəmiyə,
Kişmişi yeyə-yeyə.
Cavan ömrüm çürüdü
Sevən yar deyə-deyə.

Suya gedək ikimiz,
Gülbəngidən yükümüz.
Maxmır döşək, gül yastıq
Soyun yataq ikimiz.
Sərin qarlı dağlarım,
Yolları gül bağlarım.
Sənnən keçən günləri
Yada salıb ağlarım.

Tala yolu kənd oldu,
Bostan əkdim, hənd oldu,
Yarımı gözdamaxdan
Gözdərim qannan doldu.

Talanın yasdı yolu,
Gəlib su başdı yolu.
Gedirdim dost görmağa
Düşmən də kəsdi yolu.

Tütünü yığdım laydan,
Qardaş gəlir o taydan.
Qardaşsız bacıların
Günü keçir ah - vaynan.

Uzunboylu nigarım,
Yandı bağrım, çırağım.
Uzunboy əldən getdi
Haray, pərvərdigarım.

Çanqaldakı kəndirə,
Motaldakı pendirə,
Çörağı bişirmağa,
Od salıram təndirə.

Çağırdım Sənəm deyib,
Hay verdi mənəm deyib.
Yaxın otur yanıma
Sən mənim Sonam deyib.

Havada laçın ağlar,
Göydə göyərçin ağlar.
Sən yadıma düşəndə
Başımda laçın ağlar.
Əkmisən günəbaxan,
Əllərə xına yaxan.

Dursa gülən olsun
Neynirəm yerə baxan.

## TALA MAHNILARI (Ə.13, s.144-146)

Ay Oruc, arabanı,
Asta çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı…

Bu meşə meşə dögü,
Gülü bənövşə dögü.
Vüsala nə deyərəm,
Ayrılıq peşə dögü.

Car qalanın əmiri,
Dəmirçi, döy dəmiri.
Dost, beləmi keçəcək

İkimizin  ömürü?!

Əzizlərim, qalasız,
Şəhər  olmaz qalasız.
İndi biz gedər olduq,
Siz salamat qalasız…

Məhləyə saldım gaba,
Mollalar geyən əba.
Sənə canımız qurban,
Ay bizim Şeyx baba.

Tambur çala bilmirəm,
Əldən sala bilmirəm.
Vallah, göyçəksən, maşu,
Gözdən sala bilmirəm.

Yuxarı məhləm getdi,
Əlimdən dəhrəm getdi,
Göy  maşu, göyçək maşu,
Xoyundan  zəhləm getdi.

Yüzügümün qaşısan,
Nə yumuru maşusan.
Mən deyəni demədin,
Car  çaylağın daşısan.

# LAYLALAR, NAZLAMALAR

Domşalı, ay domşalı,
İçi dolu yağ- şanı.
Yağ olmasın, bal olsun,
Balamın canı sağ olsun
**(S.120, T.30)**

Qız qızıl yumrusu,
Yerə düşər parıldar.
Oğlan təzək qırığı
Qapıda durar xırıldar **(S.90, T.30)**.

Laylay dedim adına,
Əli yetişsin dadına,
Laylay çaldım adına,
Peyğəmbər çatsın dadına
**(S.90, T.30)**

Süd divi, qaymax divi,
Qurbandı sağa bivi.
Ağ ayı, qonur ayı,
Qurbandı sağa dayı.

Çayda, dənizdə gəmi,
Qurbandı sağa əmi.
Car, Qala, Muxax Tala,
Qurbandı sağa xala **(S.206, T.12)**.

Balam, ömrün çox olsun,
Könlün, gözün tox olsun.
Sənə layla deyərəm
Düşmənlərin yox olsun.
Laylay beşiyim, laylay.
Evim, eşiyim laylay
**(S.136, T.32)**

Balama sünbül demərəm,
boynun əyri tutar,
Balama gül demərəm, gülün
ömrü az olar.
Balama bülbül demərəm,
bülbülün gözü kor olar.
Laylay, balam, laylay,
Şirin balama laylay
**(S.136, T.32)**

Balam yatar beşikdə,
Bülbül oxur eşikdə.
Balam yaxşı yuxlasın,
Mən durmuşam keşikdə,
Laylay, balam, a laylay.
Körpə balama laylay
**(S.136, T.32)**

Qızıl üzük laxlasın,
Anan onu saxlasın.
Dörd bacyıa bir qardaş,
Səni Allah saxlasın.
Laylay, həyatım, laylay.
Qolum, qanatım laylay
**(S.136, T.32)**

Laylay didim uçağuv,
Daim yansın ucağuv.
Allahdan arzum budu,
Kor qalmasın ucağuv**(S.206, T.12)**

Bu dağdan duman aşar,
Düzündə ceyran yaşar.
Görən körpə, gül balam,
Nə vaxt gəzər, dil açar? **(T.43)**

Layla dedim, yel oldu,
Ürəyim tel-tel oldu.
Balam getdi yuxuya
Yasdığına gül doldu **(T.43)**.

# UŞAQ FOLKLORU

## DÜZGÜLƏR

Çətənə qoz, çətənə qoz,
Birisi fındıx, birsi qoz.
Sürdüm Oxud yoluna,
Oxud yolu daşdıdı.
Yarın gözü yaşdıdı.
Maralların ürkütdüm,
Qulağını qırpıtdım
Hacdan gələn hacılar,
Yaman dili acılar,
Haq qapısı kilitdi,
İçində gül yaylığım ititdi
**(S.59; T.30)**.

Bibli qoz, bibli qoz,
Nənəm verdi iki qoz.
Mindim qozun boynuna,
Çıxdım Tərkəş yoluna.
Tərkəş yolu dərbədər,
İçində meymun gəzər.
Meymunun balaları
Qulaxların qırpıtdı.
Dağdan gələn hacılar,
Yaman dili acılar,
Vurdu qolum sındırdı,
Qolum qazanda qaynar,
Oğlax bucaxda oynar.
Oğlax deyil, qəmişdi,
Beş barmagı gümüşdü.
Gümüşü verdim tatə,
Tat mənə qənət verdi,
Qənətdəndim uçmağa
Haq qapısı açmağa
**(S.28; T.30)**.

Cətənə qoz, cətənə qoz,
Birsi kək, birsi qoz.
Mindim qozun boynuna,
Çıxdım Tərkəş yoluna.
Tərkəş yolu dərbədər,
İçində meymun gəzər.
Meymunnarı ülkütdüm,
Qulaxların qırpıtdım.
...Həsən bəyin nəyi var,
Çaqqır-çuqqur çayı var.
Göyə çıxan atı var,
Göy muncuxlu atı var
**(S.69; T.30)**.

Sini qoz, sini qoz,
Birsi yəhər, birsi boz.
Mindim bozun boynuna.
Sürdüm Ərəb yoluna.
Ərəb yolu dərbədər,
İçində meymun gəzər,
Meymunnarı hülkütdüm,
Qulaxların qırpızdım
Dağda gəzən xocalar,
Vurdu qolum sındırdı.
Qolum qazanda qaynadı,
Yanında oğlax oynadı.
Oğlağı vurdum yerə,
Yer məə darı verdi.
Darını verdim quşa,
Quş məə qanat verdi.
Qanatdandım uçmağa,
Haq qapısın açmağa,
Haq qapısı kilitdi.
İçində gül yaylığım ititdi
**(S.102; T.30)**.

Damda baca,
Boyu çinardan uca.
Damda baca, damda uca,
Damda baca, hamıdan qoca.
Dama-dama köynəyim,
Qotaz- qotaz sallanar,
Körpə balam allanar.
Bacadan tüstü çıxdı,
Ocaxdan isti çıxdı,
İsti mənə gərəkdi,
Donum biccə çərəkdi.
Çərəyi ver arşına,
Dola çiti başua.
Çitdən bi don biçmişəm,
Üsdündə and içmişəm.
Anda inammadılar.
Oduma yammadılar.
Səsim gəldi ücadan,
Ucalıx yerin olsun.
Deyək,  güləh, oynuyax,
Qazan kimi qaynıyax
**(S.113; T.43)**.

Çətənə qoz, çətənə qoz,
Biri yəhər, biri boz
Mindim bozun boynuna,
Sürdüm Xal-xal yoluna.
Xal-xal yolu daşdıdı,
Yarın gözü yaşdıdı.
Meymunnarı hürkütdüm,
Qulağını qırpıtdım,
Haqdan gələn hacılar
Yaman dili acılar,
Qol-qanadım sındırdı.
Məni oda yandırdı.
Qolum qazanda qaynar,
Körpəm qucaxda oynar.
Qəmbər getdi oduna,
Qargı batdı buduna,
Qargı deyil, qamışdı,
Beş barmagı gümüşdü.
Gümüşü verdim quşa,
Quş mənə qanat verdi.
Qanatdandım uçmağa,
Haq qapısın açmağa.
Haq qapısı kilitdi.
Gəl, oxu bizim dili.
Bizim dil ala-baxta,
Yuvası dar otaxda **(S.54; T.43)**.

Üsüdüm, ay, üşüdüm,
Dağdan alma düşürdüm.
Almaları yedilər,
Mənə zulum eylədilr.
Dərd əlindən bezaram,
Dərin quyu qazaram.
Dərin quyu, beş keçi,
Hanı onun örkeci?
Örkec qaya başında,
«Hay» eylədim, gəlmədi,
Çüyüd  verdim, yemədi.
Çüyüd qazanda qaynar,
Qəmbər bucaqda oynar.
Qəmbər getdi oduna,
Qargı batdı buduna.
Qarğı deyli, qamışdı,
Beş barmağı gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını verdim quşa,
Quş mənə qanad verdi.
Qandlandım uçmağa,
Haq qapısın açmağa.
Kəlamı oxumağa **(S.113; T.30)**.

Qolbağım qolda qaldı,
Tellərim dalda qaldı.
Telimi yaya- yaya,
Gecələr baxdım Aya
Ay məni aydınladı,

Gecə məni qınadı.
Yer dolandı başıma,
Xəbər ver yoldaşıma.
Girdim yarın bağına,
Keçdim şolu - sağına.
Gülü üzüb dərəndə,
Öz yarıma verəndə,
Qardaş çıxdı qarşıma.
Nələr gəldi başıma?
Qardaş ürək parası,
Dərdlərimin dəvası,
Qardaş mənə hayandı,
O, qeydimə qalandı
**(S.113; T.43)**.

Bacadan baxan pərələn göz,
Biri kək, biri boz.
Mindim bozun boynuna,
Çıxdım Muxax yoluna.
Mixax yolu dərbədər,
İçində meymin gəzər.
... Haqq qapısı açıxdı,
İçi dolu palçıxdı.
Damdan- dama toz gedər,
İçində bir qız gedər.
Dartdım incisin üzdüm,
O qaldı düzə-düzə **(S.56; T.1)**.

Kasıp-kusup, şil, topal,
Varlıya olmuşdu mal.
İl uzunu işlədik,
Süpürərdik, silərdik.
Sohuqlardı əlimiz,
Əzilərdi belimiz.
Nə qarnımız doyardı,
Nə bizi adam sayardı.
Bəylər, xanlar, hacılar,
O dilləri acılar,

Borc altında işlərdik.
Hamılı qana yetərdik
Azad ola bilmədik.
Xırmandakı dənimiz,
Qırxılmamış yunumuz
Bəy əllərdən alardı,
Bizə xəzan qalardı.
Keçən günlər gəlməsin,
Bir də gözüm görməsin.
Yamandı keçən zaman
Nələr çəkdik, ay aman
**(S.119; T.47)**

## SANAMALAR

Günnərin bi günüsü bir uşax ağlıya-ağlıya öyə gəlir. Anasına diyir:

- Ana, mənim atam kimdi?
Uşağın anası cavab verir:
- Əlı, Vəli, Pirvəli,
İksi unnan irəli,
Pambıx satan, bez satan,
Rəhmətdik səən atan,
Birsi də donbalıf yatan
**(S.195; T.30)**.

Əlif əbbəg, bey pendir,
Cim-cicim, ölkəm sıcım,
Dağar dalı, dalıma sarı,
Dərman yolu burdan uxarı
**(S.195; T.30)**.

Əlif, bey, tey, sey, cim, hey, ra, zal,
Yumala getsin yük atda
**(S.195; T.30)**

Habu axdardı,

Habu tapdı,
Habu bişirdi,
Habu yidi,
Bəbəyə heş nə qalmadı
**(S.69; T.30)**.

Hənifə cici Heyranalı,
Qaşıxları oğruyuf Bayramalı,
Cim-cicim, ölkəm sıcım,
Dağar dalı, dalıma sarı,
Dəərman yolu haburdan yuxarı
**(S.69; T.30)**.

Qız işi, ev-eşik işi, paltar tikişi,
Köhnə yamax, balduramax, yun daramax,
Sarı sarayı üfürür,
Qabı-qacağı küfürür,
Lobyası nət, şorbası nət,
Lobyalı aş,
Bi təndir lavaş **(S.205; T.30)**.

Para əbbəyin parası,
Lənbəki doğraması,
Altı həsir, üstü kilim,
Yat yetim, tərliyincən.
(Altı həsir, üstü kilim,
Yuxla yetim, doyuncax)
**(S.69; T.30)**.

Baş barmax- yemax yiyax,
Başala barmax-nə yiyax?
Uzun hacı-Allah verənnən yiyax,
Qıl turacı- Allah verməsə,
Xırdaca bacı- Oğurruyuf yiyax
**(S.159; T.30)**.

Biri-birə,
İkisi- iynə,
Üçü-ütü,
Dördü- döşək,
Beşi-beşik,
Altısı-ayaq,
Yeddisi-dayaq,
Səkkizi- sərçə,
Doqquzu-doqqaz,
Onu- oraq,
Onbiri-daraq.
Həsən bəyin
Evini yaraq.
-Bəs Həsən bəy neyləsin?
-Saqqız alıb çiynəsin
**(S.65; T.43)**.

**Uşağın nənəyə nəsihəti:**
İşin, gücün yoxdu, nənə,
Habu gün hana toxuma, nənə.
Hana toxusan, çilk olar,
Məni saxlasan, mülk olar
**(S.144; T.30)**.

## CIRNATMALAR, DOLAMALAR, ATMACALAR

Adın nədi?
Qasım
Xəndəkdən asım.
Vur çatdasın **(S.195; T.30)**.

- Adın nədi?
Mülayim.
Sərt oluf nağayrasısan?
**(S.195; T.30)**

Nuru, Nuru, ay Nuru,
Ayranı duru, yağı yumru
**(S.195; T.30)**

- Halley Məmmət,
  Salley İsgəndər,
  Nağara Nuru,

Kos Kamal **(S.195; T.30)**.

Olsa bir az yağ
Keyfim olar çağ
**(S.47; T.12)**.

Dizində yamax,
Bir kasa qaymax,
Yeşin oldu on beş- əluvə keçənin tut boynun eş.
Yeşin oldu otuz- çatana bi tompuz.
Yeşin oldu qırx- camahata qoy bi nıx.
Yeşin oldu əlli- camahata olcusan bəlli.
Yeşin oldu atmış- hər bir xeyir- şərə çatmış.
Yeşin oldu yetmiş- hər yerdə özünə dost tutuf, öy tikmiş.
Yeşin oldu səysən- özün üçün vər ehsan.
Yeşin oldu doxsan- heş bir xeyir- şərdə yoxsan.
Yeşin oldu yüz- habu işıxlı dünyadan əluvu üz **(S.199; T.30)**.

## DOLAMALAR (S.195; T.30)

- Deginən, arı!
- Arı.
- Anbara sarı.

- Deginən, bacı!
- Bacı.
- Lobya macı.

- Deginən, əmi!
- Əmi.
- Dəllək əmi.

-Deginən, camış!
-Camış.
-Boyuva qamış.

-Deginən, nağıl!
-Nağıl.
-Hər kəs öyünə dağıl!

-Deginən, nənə!
-Nənə.
-Ağzuva bişmiş gənə.

-Deginən, xala!
-Xala.
-Təndiri qala,
Aş bişirim, çömçəni yala.

-Deginən, qulax!
-Qulax.
-Bir helə burax,
Bir belə burax.

-Deginən, tap-tapış!
-Tap-tapış.
-Qalx, qulağınnan yapış.

-Deginən, sora!
-Sora.
-Soğan doğra!

## ATMACALAR (T.43)

Armud alanda Armudalı dayı, almayanda Murtuzalı dayı.
Baba yaxşı, burnu pis?!
Evində görüm, evimdə görmə.
Xanı gör, Xanəhmədi gör.
Nə ətməngə adamsan (yungul xasiyyət)
Sən nəsən ki, oğul- qızın nə olsun?!

## TƏMSİLLƏR

Sarı pişik (T.43)
Sarı pişik saraldı,
Körpəcədi, maraldı.
Çox təmizdi bu pişik,
Üz yuyanda görmüşük.
Yumağı yumaladı,
Sican bilib qovladı.
Uzun quyruq sallandı,
Yumaq üçtə tullandı.
Hamı baxdı aldandı,
Elə bildi aslandı.

**Pişik (T.43)**
Bir pişiyim var idi,
İş yeri anbar idi.
İşə gedib gələrdi,
Otağı damdar idi.
Yastıga baş atardı.
Xorul- xorul yatardı.
Siçan girsə anbara.
Mitilini atardı.

**Qarğalar (T.43)**

Qarğa qondu ağaca,
Oxudu bir balaca.
Qarr, qarr!- deyib
bağırdı,
Göydən qarı çağırdı.
Çöllər qara boyandı,
Qarha- qarlar dayandı.
Ac qaldılar qargalar,
Dadmadı qardan nahar.
Bilsəydilər ac qalar,
Salmazdılar qarha- qarr.

## UŞAQ OYUNLARI

### KÖMBƏ-KÖMBƏ OYUNU (S.206; T.12)

Uşaqlar palaz üstündə dövrə vurub diz üstə otururlar. Sonra əllərini irəli uzadıb ovuclarını, gah da əllərinin arxasını yerə qoya-qoya deyillər:

Kömbə-kömbə,
Qoz kömbə
Gah belə, gah da belə,..
Gumbulub?!..

«Gumbulub» sözü yüksəkdən deyilir, dərhal hamı bir-birinin ağzına baxardı. Heç kəs dodaqlarını aralayıb göstərməməli, yəni gülməməli idi.

Dözə bilməyib gülən cərimələnməli idi. Axı, «cumbulub» sözünün tələffüzündə dodaqlar irəliyə gəlir, kip birləşir, gulməli vəziyyət yaranır. Cərimə olunan oyunçu ortalıqda belini əyib gözlərini yumur. O biri oyunçular isə onun belini yavaşca döyəcləyir və xorla oxuyurlar:

Dögəllər, dögəllər,
Arxın suyunu bögəllər.
Dakqada duz qalmadı.
Çuvalda un qalmadı.
Elçilərin əlindən
Obada qız qalmadı.

Üstdəki əl kimindi? Uşaqlar əllərini döyülən uşağın belində saxlıyıllar. Düzgün cavab verənə gədər uşağın belində saxlıyıllar. Düzgün cavab verənə qədər uşaq döyülür. Cavab düz olanda usaq ayağa durur, oyun yenidən başlanır.

## ÜZÜK-ÜZÜK OYUNU (S.119; T.47)

Şəkidə toy məclislərində ən çox dəbdə olan oyünlardan biri üzük-üzük oyunuydy. Oyunun qaydası belədi: 9 dənə misdən, ya da gümüşdən qayrılmış xususi fincanlar düzülürdü bir siniyə. Bir nəfər aşağı qoyulmuş fincanlardan birinin içinə üzüyü qoyub, sinini oyun üçün oturan adamların qavağına gətirərdi. Oyun iştirakçısı sini gəzdirənin üzünə diqqətlə baxar, özünü elə göstərərdi ki, guya o bununla üzüyün hansı fincanın altında olduğunu bilir. Sonra fincanlardan birini qaldırardı. Üzük çıxmiyəndə hamı gülüşərdi.

Qaldırılmış boş fincan yenə ağzı aşağı siniyə qoyulub o biri oyunçuların qabağına tutulardı. Havı löyündə oyun davam etdirilərdi. Kim üzüyü tapardısa, o şəxs oyunun qalibi sayılardı. Əvvəlcədən qoyulan şərtə əsasən qalib gələn oyunda iştirak edənnərdən danışılan sayda pul udardı. Bəzən də gələcək dövriyyənin pulunun nə qədər olacağı barədə öz təklifini verərdi. Belə hallar da olurdu ki, uduzan adamlar məclisə paylamaq üçün halva alırdılar.

## MƏRƏ-QUYUDİBİ OYUNU (S.67; T.30)

Altı çala qazıllar. Üç-üç, qabax-qabağa. Hər çalaya beş dənə daş qoyullar. Ortadakına altı daş qoyullar. Habu quyu – ana quyu olur. Oyunda iki nəfər olur. Hoların üç çaladan savayı çalası da olur. Habu çala mərə olur. Oyun başdanır. Sifdəki oyunçu bı çaladan daşdarı götürüp ho birsi çalalara paylıyır. Sora ho birsi oyunçu habu işi bi də eliyir. Oyunçulardan birsi daşdarı çalalara paylıyanda, əgənəm axırıncı daşı cütdəşirsə, oyunu ho udur, daşdarı öz mərəsinə qoyur.

Oyun həblə keçir. Ən çox daş yıgan adam oyunu udur.

## ŞORTAĞAC (S.152; T.30)

Oyunda dörd nəfər iştirak edir. Ortada şortağaca balaca yer düəlilər. Honu dik qoyullar. Ağacın başı yumru olur. İksi bir tərəfdə, iksi isə ho birsi tərəfdə olur. Oyun başdıyan kimi hamsı birdən şortağacı vurup ayrıca qazılmış mərəyə öz ağacını qoyur. Vura bilmiyəni işdədillər. Oyunu udan şortağacı vurandı.

## CORABALTI OYUNU (S.25; T.30)

Corapları düzdəşdirip altına üzük qoyullar. Sora:
Ya bundadı, ya honda,
Halva – halış
Qaratikan kolunda – diyə-diyə üzüyü tapıllar.

## TOPQALAX OYUNU (S.195; T.30)

Yazda mal - qaranın tükü tökülündə uşaxlar tökülən tükü yığıf içinə daş qoyuf balaca top düzəldirdilər.

Oyunda doqquz nəfər olur. Dört- dört paylanıllar. Doqquzunnan birsi döş (neytral) olur. Habu adam yuxarıda ola bilir.

Oyunun şərti-Yuxarı hissə əsas olurdu. Yuxarıda daynan bir oyunçu topu atır, əlində qalax (ağacdan qayrılmış oyun aləti) olan ho birsi oyunçu topu aşağıya atır, yuxarıda duran oyunçular aşağıda mənzilə qaçışıllar. Mənzil sifdədən diyilən yerdə qoyulardı.

Hər iki dəsdə üçün eyni idi . İntası bi nəfər oyunçudan savayı. Topu yuxarı atanda honu dala qaytarmax üçün.

Aşağıda duran dəsdənin oyunçuları topu dala qaytarmalıdılar. Sora yuxarıda duran bi oyunçu topu dala qaytarır.

Əgənəm aşağıda dəsdənin oyunçularınnan birsi yuxarı dəsdənin oyunçularınnan birsini vura bilsə, hobirsilər uduzullar. Yuxarı dəsdənin yerinə keçillər.

Oyun genə olur. Oyunun axrında xalları sayıllar.

Hası dəsdənin oyunçuları yuxarda çox olursa, holar oyunu udullar.

## QALAQURMA (S.118; T.47)

Qalaqurma qoz, yaxud fındıqla da olur. İkı - üç uşaq, hərəsi 1, 2 dənə qozu yerdə sıra ilə düzürlər. Qozların düzüldüyü yerdən 4-5 m uzaqlıqda sərhəd müəyyənləşdirilir. Uşaqlar həmin sərhəddən yerdə qurulan qozları qala (nisbətən böyük qoz) ilə vurmağa çalışırlar. Birinci uşaq qalanı qozlara doğru atır. Əyər yerdə düzülən qoza qala dəyib, onu sıradan çıxarıbsa, uşaq həmin qozu götürüb gözləyir. Sonra həmin qayda ilə ikinci, üçüncü uşaqlar da yerdə düzülən qozları qalaları ilə vururlar. Hər üç uşaq sərhəddən qoz atdıqdan sonra qalalar sıra ilə düzülən qozların əks tərəfinə

keçmiş olur. İndi yerdə qalan qozları, əvvəlkinin əks istiqamətində, qalaların durduğu yerdən vurullar. Bu şərtlə ki, sıra ilə düzülən qozlardan kimin qalası uzaqda olsa, o əvvəlcə yerdəki qozları vurur. Bu qayda ilə, yerdəki qozlar qurtarırsa yenidən, hərə 2 dənə yerə qoz vurur, oyun yenidən həmin qayda ilə davam etdirilir. Əgər yerdə qurulan qozları hər iki tərəfdən vurduqdan sonra yerdə vurulmamış qoz qalarsa, qalan qozları yenə vurmağa başlayırlar. Oyun göstərilən qayda ilə davam edir.

## YUVALAMA (S.118; T.47)

Uşaqlar maili vəziyyətdə bir taxta qoyur, yaxud mailli bir yer seçib, taxtanın yuxarı tərəfindən bir-bir qozu buraxırlar. Qoz yumalanıb müəyyən bir yerdə dayanır. Uşaqlar qozu növbə ilə buraxırlar. Yumalanan qoz yerdə get-gedə çoxalır. Hansı uşağın yumaladığı qoz yerdəki qozlardan birinə toxunarsa, o uşaq yerdəki qozları götürür. Oyun yenidən başlanılır, əvvəlki qayda ilə davam edir.

## AŞIQ QOZ OYUNU (S.118; T.47)

İki, üç uşaq hərəsi yerə 1, ya 2 qozu sıra ilə düzürlər.Uşaqlar yerə düzülən qozlardan 2-3 m məsafədə, aşıq-bəy deyib aşıqlarını uçurdullar. Kimin aşığı yerdəki qozlardan uzaqdadırsa, o uşaq əvvəlcə yerdə qurulan qozları aşıxla vurur.

Aşıx-bəy deyib, aşığı uçanda əyər aşıx bəy oturarsa, o uşaq yerdən bir qoz götürüb, o biri uşaqlar hələ aşıxlarını uçmamış yerdə qalan qozları aşıxla vurur, əyər onun aşığı qoza dəyib saya üzü üstə düşürsə, vurduğu qozu götürüb, sonra qalan qozları vurur. Əyər aşıx uçmadı, heç birinin aşığı bəy oturmayıbsa, aşığı uzaqda olan uşaq, aşıxla yerdəki qozları vurur. Onun aşığı qozlara dəyməyibsə iki, üç uşaq qozları aşıxla vurur. Əyər yerdə qoz qalıbsa, onda uşaqlar əks tərəfdən yerdəki qozları vurur. Yenə kimin aşığı yerdə qurulan qozlardan lap uzaqda olarsa, o uşaqda başlanılır. Əyər yerdə qoz qalmayıbsa, onda yenidən yerə qoz qoyulub, oyun əvvəlki qayda ilə davam etdirilir.

Aşığı birinci dəfə uçan uşaq elə məsafədə durur ki, ondan üstdə aşıq uçan yerdəki qozları vura bilməsin. Əyər yerdəki qozlara çox yaxın yerdə aşığı uçan olsa, ondan üstdə aşıx uçan yerdəki qozları vura bilər, qozları aparar.

(Aşığın saya üzünə-həkkar; o biri üzünə-çoqqar deyilir)

## DƏHNƏLİ OYUNU (S.118; T.47)

Bu oyunda şərt hündürlükdən atlana bilməkdi.

Kor təyin olunur. Kor yarım əyilmiş halda dayanır. Oyunçular onun üstündən atlanır. Uşaqlar korun üstündən atılıb keçəndə əllərini korun dalına söykəyib, onun üstündən atlanırlar. Uşaqların hamısı korun üstündən atlanıb keçəndən sonra kor duruşunu bir qədər hündürləşdirir.

1 dəfə keçəndə hamı-əvvəlidi dəhnəli

2. « » -İkincidə heç dəyməz.

3. « » -Üçdə zirəng keçərlər.

4. « » -Dörddə qılınc əyərlər.

5. « » -Beşdə Xanbabanın atın minərlər.

6. « » -Atın qıçı sınıtdı.

7. « » -Apardılar həkimə.

8. « » -Həkim dedi nə vecimə-sözlərini təkrar edirlər.

Kor duruşunu tədricən yeddi dəfə hündürləndirirlər. Korun hündürlüyü artdıqca üstündən atlanmaq da çətinləşir. Kim korun üstündən keçə bilməyib, qalsa o uşaq kor olur. Kor dəyişilir. Oyun yenə həmin qayda ilə yenidən başlanılır.

## ÇÖRTMƏK- ÇÖRTMƏK OYUNU (S.118; T.47)

Uşaqların hər biri özünə uyğun, boylarına, canlarına uyğun bir dəyənək tapır, yumrux boyda bir dənə çörtmək yonurlar. Kor təyin olunur. Qalan oyunçuların hər biri, bir-birindən 2 m aralıda yalax qazıb, dəyənəklərinin ucunu həmin yalağa qoyub, koru gözləyirlər. Kor bir qədər aralıdan, əlindki dəyənəyi ilə çörtməyi vura-vura gətirib oyunçulara yaxınlaşır. Əyər kor çörtməyi oyunçuların hər hansı birinin qazdığı yalağına sala bilsə, onda kor dəyişilir. Ona görə də kor çörtməyi yaxınlaşdırdıqda, o biri oyunçular çörtməyi vura-vura gətirib, hər hansı birinə yaxınlaşır. Bu vaxt çörtməyi vurub uzaxlaşdırmasalar, onda çörtmək kimin yalağına düşsə, o adam kor olur. Əyər çörtməyi vuran oyunçudan qabaq kor öz ağacını onun yalağına qoyarsa, yenə kor dəyişilir. Əyər kor çörtməyi gətirib, yalaxda olan dəyənəyə toxundursa, onda yenə kor dəyişilir. Kor çörtməyi yalaxlara qoyulan dəyənəklərə toxundurmaqla, yaxud boş yalağa öz ağacını qoymaqla korluqdan azad olur.

## YANILTMAC

Ocaq, mən səni qığılcımlandırmadım,
Səni qığılcımlandıran qığılcımlandırdı.
Sən qığılcımlanmasaydın da
Mən səni qığılcımlandıracaydım **(S.76; T.12)**.

Qırx gün qızın, yüz qırx gün qızın **(S.76; T.12)**.

Bağ başqa, bağça başqa **(S.76; T.12)**.

Ay cümə axşamı, gəl cümə axşamı axşamlaşax. Sən cumə axşamı gəlsən də mən axşamlaşacağam. Sən axşamlaşmasan da mən axşamlaşacağam **(S.76; T.12)**.

Ay sarımsax qardaş, gəl sarımsaxlaşax. Sən sarımsaxlaşmasan da mən sarımsaxlaşacağam, sarımsaxlaşmasan da **(T.43)**.

Qax addadım, çox yedim,
Çox addadım, qax yedim **(S.76; T.12)**.

Köhnə kirpi körpə kirpini köhnə kərkiynən kərkikləyirdi. Körpə kirpi köhnə kirpiyə dedi:

- Ay köhnə kirpi, sən məəm kimi körpə kirpini köhnə kərkiynən niyə kərkiləyirsən?

Köhnə kirpi körpə kirpiyə belə didi:

-Mən köhnə kirpi sən körpə kirpini köhnə kərkiynən kərkiləyirəmki, sən məni incidirsən **(T.43)**.

## TAPMACALAR

Ağzı açıx Sayəmət,
İçi qızıl qiyamat,
Yaş vuraram, quru çıxar,
Səy-yalo Məhəmməd **(S.59; T.30).** (Təndir)

Biri ağdı, biri qara,
Ağa tapılar çara,
Qaraya tapılmaz çara **(T.43)**. (Alt və üst dünya)
Höyuş qoyuram, quru çıxır **(S.101; T.30)**. (Çörək)

Boğazı qırmızı,
Başı boz.
Həmeyşə gəzər şişqoz **(S.101; T.30)**. (Hind toyuğunun xoruzu)

Özü qabax boydadı,
Qarnı tabax boydadı,
Xəlbətcə yiyif-içər
Əl dəysə özün çəkər **(T.43)**. (Tısbağa)

Özü dəlik-dəlikdi,
Hər bir öyə gərəkdi **(T.43)** (Aşsüzən)

Sarı-sarı saralar,
Tellərini yar alar.
Biccə gün ho olmasa,
Rəngim saralır, solar **(T.43)**. (Taxıl)

Saxlayarsan, qocalar,
Öldürərsən, ucalar **(T.43)**. (Toxmacar; barama qurdu üçün yarpaqlarından istifadə olunan tut ağacları)

Üsdü tumar-tumardı,
İçi qabar-qabardı.
Sürfada əl-əl gəzər,
De honnan harda vardı? **(T.43)** (Nar)

Beş-beş
On beş (Cavannıx)

İkidə bucax,
Üşdə heç **(T.43)**. (Ölüm)

Yayda donur, qışda açılır **(S.205; T.30)**. (Nəfəs)

Bi öy tikdim, dirəksiz,
İçinə quş qoydum, ürəksiz **(S.152; T.30)**. (Qəbir; ölü, canı yox)

Yəhəri qıldan, quşqunu qızıldan **(S.152; T.30)**. (Atın yəhəri)

Qoyunun abbası qədər harası olur? **(S.152; T.30)** (Böyrək)

Beş başı var, dörd canı,
Yüz barmağı, on ayağı **(S.12; T.43)**. (Cənazədəki meyit)

Suya girər, gillənər,
Sudan çıxar, dillənər **(S.12; T.43)**. (Zəncir)

Nə daşı var, nə taxdası,
Nə zəri var, nə bafdası.
Çaylar üsdə körpü salar,
Sütunları sudan olar **(S.78; T.43)**. (Buz)

Gecə oddanır, günüz qatdanır **(S.152; T.30)**. (İşıq)

Anaxanım atdandı,
Qol- qanadı qatdandı **(S.78; T.43)**. (Kələm)

Habu meşə, gül meşəm,
Altı tər bənöyşəli,
Bi kişinin min oğlu,
Hamısı da bi peşəli **(S.78; T.43)**. (Bal arısı)

İki fanar, günüz yanar, gecə sönər **(S.78; T.43)**. (Göz)

Üç hecalı bir sözü, özünün var min gözü **(S.78; T.43)**. (Aşsüzən)

Anam, atam var mənim,
Suda xatam var mənim.
Dörd anadan olmuşam,
On iki atam var mənim **(T.43)**. (Buz)

Fiy, fiy, fiyinbaz,
İki kəsəyən oyunbaz,
Yuvaya girər çıxmaz,
Molla, gəl, dua yaz **(S.128; T.30)**. (Açar, qıfıl)

Ho nədiki, iki başı var, səkkiz ayağı? **(S.61; T.30)** (Bir inək, bir balası)

Lək-ləkdi, nə soğan döylü, nə  sarımsax **(T.21)**.     (Tavanın tirləri)

Tıs-tıs tısıldıyır, tısbağa döylü,
Qur-qur qurulduyur, qurbağa döylü.
Başında daqqa, əlində ləngər,
Pəhlivan döylü **(T.21)**.     (Samovar)

Dağda daqqıldar, suda şabbıldar **(T.21)**.     (Balta)

İçi maxbər, çölü zər,
Ağac ilən döyəllər,
Xörəhlərdə yiyəllər **(T.43)**.     (Şabalıd)

Uzun-uzun ulama,
Ucuna qıl dolama.
Gedər Şəki bağına,
Gələr bizə salama **(S.28; T.30)**.     (Oxlov)

Yol üsdə yoğun abay **(S.70; T.30)**.     (Təndir)

Kifdə  yiyif bığlarımı yağlaram,
Qara atımı qaya dibinə bağlaram **(S.195; T.30)**.     (Xəncər)

Ay qoç, hardan gəlirsən,
Qannı qaya dibinnən.
Qanın niyə quruyup?
Allah belə buyurup **(S.64; T.30)**.     (Qoyunun quyruğu)
Sarıdı saman döyül,
Yazılıdı Quran döyül **(S.64; T.30)**.     (Qızıl)

Ha gedir Zeynal xanım,
Hu gedir Zeynal xanım.
Hes yorulmur Zeynal xanım **(S.64; T.30)**.     (Su)

Yumrudu, alma deyil,
İşıxlıdı, lampa deyil.
Bəs nədi? **(T.49)**     (Günəş)

Yupyumruca  üzü var,

Yüz əllicə gözü var,
Ağzı yuxarı baxar.
Altından yağış yağar **(T.49)**. (Ələk)

Bizim damda bir kişi var,
Təpəsində 3 dişi var **(T.49)**. (Yaba)

İki qıçı var çarpazı,
Sıxsam, parçalar atlası **(T.49)**. (Qayçı)

Bizdə bir kişi var,
Köndələn yatışı var **(T.49)**. (Sandıq)

Baxsan onun üzünə,
Görünərsən özünə **(T.49)**. (Güzgü)

Qara quşu quyruğunnan asallar,
Ələ alıb düz qazana basallar **(T.49)**. (Çömçə)

Gah yüyürdüm o təpiyə,
Gah yüyürdüm bu təpiyə.
Ayağım düşdü küpəyə **(T.49)**. (Çəkmə)

Balacıyam, sarıyam,
Deməyinki, darıyam.
Sizə çörək oluram
Zəmilərin barıyam **(T.49)**. (Buğda)

Bağda sürünər, gəzər,
Az-az görünər, gəzər.
Oxşayır bir yumağa
Qorxuram əl vurmağa **(T.49)**. (Kirpi)

O nədiki, dərya kimi bulammaz,
O nədiki, dünya onsuz dolammaz **(T.49)**. (Xeyirxaxlıq)

İncə belli xanımdı,
Nə ciyərim, canımdı.
Zərif naxışlar tökər,

Əl dəyəndə sökülər **(T.43)**. (Hörümçək və toru)
Kürüm-kürüm kürünər,
Bürüm-bürüm bürünər.
Göz dəyərsə üzünə
Ərim - ərim ərinər **(T.43)**. (Qar)

Altdan sarı geyinər, üstdən kürkə bürünər.
Xanım kimi nazdanar, ətirrənif sallanar **(T.43)**. (Heyva)

Gecə - günüz sudadı,
Sudan alır o dadı.
Görən hası xörəkdi,
Onda yoxdu su dadı **(T.43)**. (Balıq kababı).

Gözdəri qaynar, havada oynar.
Ağlar, ha ağlar, alışar, yanar **(T.43)**. (İldırım)

Teldən incə ucu var, honda elin gücü var **(T.43)**. (Sünbul)

Quşlardan hansı quşdu, ildə bi yumurta yumurtduyur? Yumurtası qar üsdə qalar, cücə çıxan kimi anası ölər? **(S.75; T.12)**
**(**Cavabı?)

Göydə inək-danalar,
Əmcəyinnən bal damar.
Südü sanki çeşmədi,
Dana süddən işmədi **(T.43)**. (İncil)
Qara keçi aldandı,
Məmələri baldandı,
Gedip çıxdı ağaca
Qoyma ölər, sallandı **(T.43)**. (Qara üzüm)

O nədi ki, yüzdü onun barmağı,
Səkkiz ayax üsdə durmağı,
Çox əcəbdi, beş gedib, dörd qayıtmağı **(S.209; T.12)**.
(Cənazə, tabut)
Bağdan gəldim almayla,
Qapını açdım, içəri girdim.
Payladım 62 adama **(S.133; T.44)**. (Salam)

Ay anası qara, oğlu qırmızı qız **(T.8)**. (Peç)
Telləri var, sazı yoxdu,

Dişləri var, ağzı yoxdu **(T.8)**. (Qarğıdalı)

O nədi ki, parıltısı var,
İşığı yox, gün çıxanda yox olur.
Gün batanda çox olur **(T.8)**. (Ulduzlar)

Dörd lap,
Bir tap.
Əyri xiyar
Xanbaba **(S.123; T.15)**. (Dəvə)

Qənddən şirindi,
Zəhərdən acı.
Ay dayı, ay dayı,
Papağın ağacda qaldı **(S.136; T.32)**. (Qoz)

Nar dənəsi,
Nur dənəsi,
Yer üzünün
Bir dənəsi **(S.136; T.32)**. (Quran)

Toxudum, hördüm,
Büründüm yatdım.
Bir gün özümü
Özüm oyatdım **(S.76; T.12)**. (İpəkqurdu)

O nədiki, istisi var, tüstüsü yox **(S.76; T.12)**. (Elektirk peçi)

Səhər çıxır, axşam girir **(S.76; T.12)**. (Toyuq)

İçi yaney qiyamat,
Yaş tökdüm, quru çıxdı,
Məhəmmədə salavat **(S.206; T.12)**. (Təndir)

Agacdan düşdü daş kimi,
İçi süttü aş kimi **(S.68; T.12)**. (Qoz)

Bir balaca mil daşı,
Hərləyir dağı – daşı **(S.168; T.22)**. (Qoz)

Canlı çəpər, yaxına gedərsən, səni çəkər,
Üstünə baxarsan, pişik peyini.
Yiməyə nədi? Dadı ləzzətli, qənd- şəkər **(S.168; T.22)**.
(Böyurtkən)

Mənim bir kəndirim var,
Ha yığıram, yığılmır **(S.176; T.12)**. (Yol)

Ağ dəvə alcax gedər,
Qolunda qolçax gedr.
Ağ dəvənin gözdəri,
Yerə dəyər dizdəri **(S.195; T.30)**. (Çəyirtkə)

Babam mənnən bar isdər,
Hayva qoyup, nar isdər.
Çalınmamış qatıxdan
Çalxanmamış yağ istər **(S.195; T.30)**. (Cavabı: ?)

Nə-nə var?
Nardan şirin nə var?
Əl tutmaz, buçax kəsməz
Ondan şirin nə var? **(S.100; T.25)** (Yuxu)

Zər anası var bunun,
Zərdən libası var bunun.
Xəncəriynən kəsin, kəsin
Yenə nəfəsi var bunun **(S.100; T.25).** (Şaftalı çərdəyi)

**Tapmaca – bağlama**

Atam mənim atamdı,
Mən atamın qızıyam.
Atam mənim oğlumdu,
Bəs mən kimin qızıyam?

**Cavabı:** Atanı cəza məqsədilə zirzəmidə ac-susuz saxlayıllar ki, ölsün. Bu atanın da yeganə qızı varmış. Bu qız ərdə imiş. Körpə uşağı varıymış. Ana körpəsini sütnən bəsləyirdi.

Qızı atasının yanına ancax alt paltarında buraxıllar. Ona görə atasına yimək apara bilmir. Qız çox fikirrəşir, axırsı uşağını başqa yiməklərnən saxlayır, döşündəki südü atasına verip, onu 40 gün saxlayır. Bunu heş kəs bilmir. Ata ölmür, sağ qalır.

Məkkəmə gəlir, öz hak-sabını çürütməyə başdıyır. Soruşullar:

–Bu kişi niyə ölmüyüp? Biz bu qızı atasının yanına alt paltarında buraxmışdıx ki, heç nə apara bilməsin. Bəs nətəər olup ki, bu kişi ölmüyüp?

Qız:

–Atamı buraxın, mən habu hadisəni danışaram.

Məkkəmə diyir:

–Dinən, sora buraxax.

Qız diyir:

–Yox, buraxın, diyim.

Atasını buraxıllar. Onda bu tapmaca-bağlamanı söylüyür. Bu iş də burda bitir **(S.88; T.30)**.

## AÇMACALAR

İki dost olur. Birisi dabax (yəni gön aşılamağnan), ho birisi isə dəlləhliknən məşğul olur. Bi günüsü dəllək dabağın yanna gəlif görurki, suyun içində əlləşir. Honnan soruşur:

9-u üçə vura bilməmisən?

Dabax cavaf verir: 9-u üçə vurmağına vurmuşam, 32-yə çatmamışam **(S.145; T.30)**.

**AÇMASI:** 9 ay işləmişəm, bi şey artıra bilməmişəm, hələ də çayda gön yuyuram.

***

Üç yoldaş idik, yol gedirdik. Bir alma ağacı gördük. Ağacda üç alma vardı. Hərəmiz birini üzdük. Yerdə neçəsi qaldı?

**AÇMASI** – ikisi qaldı. Ona görə də alma üzənin adı Hərəmizdi **(S.65; T.43)**.

***

Namaz, namaz, ay namaz,
Ət meçit, su qıvla,
Hər iyid honu annamaz.

**AÇMASI:** Bi namaz qılanı balina udur. Namaz vaxdı içəri baxır , hər yan ətdi, çölə baxır ki, hər yan sudu. Hona görə də habu sözdəri söylüyür. Bu tapmaca-bağlamanın cavabı namaz qılan adamdı **(S.180; T.30)**.

## QIFILBƏNDLƏR

Ho nədiki, körpə yiyər balasın?
Ho nədiki, atar, gedər danasın?
Ho nədiki çəkər dilin bəlasın?
Ho nədiki, qoyar, gedər obasın?
Ho nədiki, gecədən ağlar yasın?
İnsanlara vay xəbərin yetirər!

**AÇMASI:**
Ho pişikdi, körpə yiyər balasın,
Ho dovşandı, atar gedər danasın,
Qırqovuldu, çəkər dilin bəlasın,
Ho bülbüldü, qoyar gedər obasın,
Ho qur-qurdu, çöpdən qurar yuvasın.
Ho bayquşdu, gecədən ağlar yasın,
İnsanlara vay xəbərin yetirər **(T.43)**.

***

O nəydi, göydən yerə sallandı?
O nəydi, hər nə verdim allandı?
O nəydi, dırnağınnan nallandı?
Cənnətin açarın kim verdi, getdi?

**AÇMASI**
O, yağışıydı, göydən yerə sallandı.
O, uşağıydı, hər nə verdin, allandı.
O, Döldölüydü, dirnağınnan nallandı.
O, Cənabi- Cəbreyildi, on iki imama açarı verdi də, getdi **(S.64; T.30)**.

***

O nədiki, mələr, keçər?
O nədiki, gələr, keçər?
O nədiki, dələr, keçər?
Yarası çox, qanı azdı.

**AÇMASI**
O güllədi, mələr, keçər.
O omürdü, gələr, keçər,

O sözdü ki, dələr, keçər,
Yarası çox, qanı azdı **(T.38)**.

***

Ho nədiki, daraxnan darana?
Ho nədiki, yayda getməz arana?
Ho nədiki, usdası yox, mıxı yox?
Əl çatmıyan qüdrətdən yarana.

**AÇMASI**
Ho yundu, daraxnan darana.
Ho qoyundu, yayda getməz arana.
Yernən göydü usdası yox, mıxı yox.
Əl çatmıyan qudrətdən yaranıp **(T.43)**.

# ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## DÖVLƏT GƏLMƏYƏN QAPI OLMAZ, QƏDRİNİ BİLƏN OLSA

Çox-çox qədim zamanlarda kasıb çoban varıydı. Ho varlı-döylətdi bir ağanın qoyunnarını dağda, daşda otarardı. Ağanın oğlu, uşağı yoxuydu. İntası var-döyləti başınnan aşırdı. Diyillərki ho vaxdar Allah yerdəymiş. Kimin nə şikayəti varıydısa, isdəyini sözsüz yerinə yetirərmiş. Çoban bir qarnı ac, bir qarnı tox dinməz-söyləməz ağanın qoyunnarını otarardı. Qoyunnarı güdən, bəsliyən çoban, yiyən, keflənən ağaydı. Günnərin bi günüsü necə olursa ağa çobanı döyür. Çoban ağanın yanınnan qaçır.

Əlacsız qalan çoban arvadına diyir:

-Arvat, kisəni silkələ, bəlkə dibində bir az un qalıp.

Arvat kisəni silkəliyip unu yoğurur. İki kündə olur. Sınıx sacda yapır. Sacın bi tərəfi sınığıydı diyənə yapılmış xəmirin yarsı külə dönür. Bişmiş para çörəyi qoltuğuna vuran çoban arvadına diyir:

-Mən ho qibleyi-aləmin yanına gedirəm. Salamat ol.

Arvat diyir:

-A kişi, ağlun olsun. Ağluu başua top eylə. Allah səni yanına buraxmaz.

Kişi daş atıb başını tutdu. İki ayağını bir başmağa dirədi. Gedirəm, vəssalam.

Çoban yol keçənnən, tanış-bilişlərdən soruşa-soruşa Allahın yanına çatıp diyir:

- Qibleyi-aləm, hər şey saa əyandı. İşdiyən mən, dişdiyən ağa. Helə eyləki ağa işdəsin, nökər dişdəsin.

Allah diyir:

- Get, arxayın ol. Sənin ağavın ağlını başınnan alıcam. Yiyip-içip honun döylətinnən kefini çəkərsən.

Çoban kefi kök, damağı çağ öyə gəlir. Gecə yatır. Üzuza xeyirri sabahlar açılsın. Sabah açılır. Ağa gejdənnən çobanın yanına gəlir. Honnan üzür isdiyir. “Məni bağışdayasan, gərək. Sənə bir işim düşüp. Gərək yox diməyəsən. Mən yuxuda bizi yaradan ho böyük Allahı - Qibleyi-aləmi görmüşəm. Ho maa didiki sən Həccə getməsən, hamsı var-döylətini saa haram edip, özüu da cəhənnəmə vasil edəcəm.

- Amanın günüdü. Habu mal-döylət hamsı səən ixdiyarındadı, mən gitdim.

Ağa ho gedən oldu. Çoban ağanın hamsı var-döylətini dəyər-dəyməzinə satdı, yedi. Bir dişi qoynu qalmışdı. Honu da neçə dəfə bazara

aparmışdı, axsaxıydı diyənə alan olmamışdı.

Günnər keçdi. Qoyun quzuladı. Ha vaxsa ağa həcdən qayıtdı. Çoban qoyunu sağıp südünü qatıx elədi. Kürkün altına qoyup ağanı görməyə gedəndə arvat didi:

- A kişi, gitmə, ağanın yanında üzüqara olcusan. Hamı çobana tamaşa eliyirdi. Çobanın üs-başı cılım-cındır, yırtıx kürk əynində yola düzəldi. Arvadı da dalıncan.

Çobanın arvadı busa-busa gedip ağanın qapısı dalında dayanır. Çoban ağaya salam verip, hal-əhval tutannan sora ağa çobannan qoyunnarın halını soruşur. Çoban yalannan ağaya qoyunnarın qayadan uçduğunu, qurt apardığını, uçquna düşüp öldüyünü diyip kürkün altındakı içi qatıxnan dolu dopunu çağardıp ağanın qabağına qoyup diyir:

-Biccə baş qoyun qalıp. Ho da təzə quzuluyup. Habu dopudakı qatığı da səə nübarrıx gətirmişəm.

Ağanın bərk acığı tutur. İçi qatıxnan dolu dopunu çobanın üsdünə tolazdıyır. Dopunun ağzı açılıp çobanın üz-gözünü qatıxnan buluyur. Çoban qaçıp qapıdan çıxanda arvadıynan rasdaşır. Arvadı diyir:

-A kişi, saa dimədim, getmə! Ağanın yanında üzüqara olcusan!

Çoban halını pozmuyup diyir:

-Ay arvat, görmürsən, üzü ağ gəlirəm!

Ho günnən bəri genə də çoban dağda-daşda xaxın qoyunnarını otarır. Görənnərdən kiminin yazığı gəlir, kimsi diyir:

-Döylət gəlmiyən qapı olmaz, qədrini bilən olsa **(T.43).**

## DAŞ

Qədim zamannarda bir varrı kişi varıydı. Ho ho qədər xəsisiydiki honnan bir şey almax olmurdu. Hamı aclıxdan qırılırdı. Xəsis kişi süd gölündə üzürdü. Ho qabaxdan qalan çörəh qırıxlarını da kasıplara qıymırdı. Hamı hona yalvarıp yaxarıp çörək isdiyirdi. Ho deyirdi:

-Dinuzdan, imanuzdan məə versəz də sizə çörəh verən döylüyəm.

Zulum ərşə çıxmışdı. Adamlar aclıxdan qırılırdı. Oğurrux, adam öldürməh dünyanı başına götürmüşdü. Xəsisinsə daş bağrı daşıydı. Hamı bir ağızdan Allaha duva eliyip yalvarırdıki “yarəbb, sən habu xəsisi daşa döndər“. Allah xaxın səsini eşidir. Çaparax xəsisi daşa döndərir. Ho vaxdan insannar honnan hayıf çıxmax üçün daşı kəsir, qala divarlara qoyur. Xəsisin var-döyləti də daşdarın içində qalır. Hindi də insannar xəsisin var-döylətini daşdarın arasından tapanda söyünür **(T.43).**

## DAMBATAN

Bi mollanın arvadı ölür. Ölәndә vәsi eliyirki öylәnәndә maa oxşuyan qıznan öylәn. Arvat ölür. Bir il keçir. Molla hәr yanı gәzip dolaşır. Gözü qızına sataşır. Hona baxıp görürkü arvadına oxşuyur. Qızına öylәnmәh isdәyini diyir. Qız da habuna dözә bilmiyip Allah-Taalaya yalvarırki ya mәni quş elә, ya daki damımızı yerә batır.

Yer yarılıp öylәri yerә batır. Öyün yerindә dә qurqura oxşuyan göl әmәlә gәlir **(S.50;T.43).**

***

Kәndin ortasında Qara mәhlәdә bir-birinin yaxınlığında iki bulaq var. İki dәnә Dambatan bulağı.

Diyildiyinә görә iki ortax vardı. Bir dәfә exnaxaş vaxdı hoların birinin oğlu, o birisinin qızı olur. Hoların kәbini göydә kәsilibmiş. Bu ortaxlar arasında qohumluq yaranır. Bu vax oğlan evindә bir cadugәr qarı ev yiyәsinә diyir ki, sizin gәlniiz kasıp aylәdәndi, ho sizә heç bir xoşbaxlıx gәtirmiycәh. Gedin bir varlı aylәdәn qız alın.

O vaxd cadugәrin sözünә çox inanıllar. Başqa qapıya gedillәr. Bu da qız evinә bir bedbaxçılıx gәtirir. Qıza daha çox.

Xәsdәlәnip yorğan-döşәyә düşür. Mә'lum olur ki, oğlan evindә başqa qıznan toydu.

Udilәrdә belә adәt var ki, qız gәlәn günü qızı oğlana tapşırmıllar. Bәy kirvәgildә qalır. Sabahsı günü, gәlini bәyә tapşıran günü qız evindә başqa hal vardı.

Qız bitәәr yasdığa dirәndi, üzünü göyә tütüp:

-Mәәm nә vәzyәtә düşdüyüm sәә әyandı. Mәәm canımı al. Ama bir şәrtnәn. Hәmin oğlanın yaşadığı yeri dә bulağa döndәr.

Diyillәrki, ürәyi tәmiz adamların arzusu çin olur.

Qızın ağzından söz çıxar-çıxmaz qıznan oğlanın yaşadığı evin altı lәrzәyә gәlir. İki quyu әmәlә gәlir. İçәrisi suynan dolur.

Diyillәrki, hәmin bulaqların suyu nakam qızın göz yaşlarıdı **(S.143, 155; T.19).**

## QIZIL QAYA

Qәdim zamanlarda Qarabulax kәndindә bir kasıp kişi yaşıyırdı. Kasıbın vur-tut bi qızıl öküzü varıydı. Kәndin varrı, döylәtdi din xadimi bi günüsü kasıbı yanına çağırıp diyir:

-Mәә sabahdan daş daşıycısan. Helә daşki ho daşdan bizim çaylaxda olmasın.

Kasıp and-aman eliyirki mәn bi baş öküznәn habu işi görә bilmәnәm.

-İşdi daşımasan dərivi boğazından çağardıcam - diyə qorxuzur.

Kasıp əlacsız qalıp razılıx verir. Daşın hansı karxanada olduğunu soruşanda varrı hona zulum verir. Kasıp tək öküznən özünü arabaya qoşup ağlıya-ağlıya dağlara yollanır. Qaf dağına çatanda bi kişiyə ras düşür. Kişi honnan soruşur:

-A fağır, niyə ağlıyırsan?

Kasıp başına gələn əhvalatdarı danışır. Kişi huna diyir:

-Mən Xızır Əleyhüssəlamam. Sənə kömək eliycəm. İntası habunu bi kəs bilməməlidi. Habu işdən sora kasıp daşı daşıyıp kutarır. Varrı Qızıl Qayanın dibində bir meçit tikir. Sora da kasıpdan soruşurki səndə habu fərasət, habu güc, mətanət hardandı?

Kasıp tutduğu işdən ibaralıxnan diyir:

-Mənə Xızır Əleyhüssəlam kömək elədi. Daşı da habu qayadan qızıl öküznən daşımışam. Habu vax ildırım çaxdı, göy guruldadı. Tufan başladı. Bir ərəsət qopduki, gəl görəsən. Ho vaxdan hu qayanın adı qızıl öküzün adıynan "Qızıl qaya" qalıp **(T.43).**

## MƏLƏKLƏR HAQQINDA

Diyillərki bi oğlan, bi qız məleykəsi varıymış. Habu qız məleykəsi ərə getməh isdiyirmiş. Oğlan öylənməh isdəmir. Oğlan çox diyir, qız az eşidir. Axırsı diyir:

-Bi şərtim var. Heş vax ağlmazsan.

Qız razı olmur. Holar öylənillər. Hoların iki oğlu olur. Oğlannarın sifdəsi ölür. Ana ağlamax isdiyir. Ərinin sözdəri yadına düşür. Tez sakitdəşir, özünü ələ alır.

Aradan xeylax keçir. İkinci oğlu ölür. Ana habu dəfə özünü saxlıya bilmiyif ağlıyır. Honda əri diyir:

-Mən səə diməmişdimki ağlama.

Ana bitəər sakitdəşir. Habunnan xeylax keçir.

Bi günüsü arvat-kişi yolnan gedillərmiş. Kişi diyir:

-Sifdə böyük oğluu çağır, səə su versin.

Ana oğlunu çağırır. Oğlu anasına su verip diyir:

-Mən haburda cənnətə düşmüşəm.

Genə yol gedillər. Ananın ürəyi yanır. Kişi diyir:

-Habu dəfə balca oğluu çağır.

Ana balaca oğlunu çağırır. Balaca oğlunun səsi dərinnən gəlir. Anasına diyir:

-Mən sel, suyun içindəyəm. Məni habu günə salan sən oldun.

Kişi diyir:

-Mən səə diməmişdimki ağlama. Səə habu günüyçün dimişəm daa **(S.69; T.30).**

## DƏMİRÇİNİN AQİBƏTİ

Əlibala 10 yaşında ikən atadan, anadan yetim qalır. Yaşadıqları şəhərdə yaxın qohumları olmadığına görə atasının dostu onu öz himayəsinə götürür. Əlibala ev işlərinə kömək edirdi. Dükana usta üçün günorta yeməyi aparmaq, su doldurmaq, malları naxıra sürmək, mallar üçün ot gətirmək, məhlədə təmizlik işləri görmək ona baxırdı. Əlibalaya iş görmək sarıdan heç nə demirdilər. O hər işi vaxtında səliqə ilə yerinə yetirirdi.

Əlibala həyət-bacada elə səliqə-sahman yaratmışdı ki, evə gəlib-gedənin hamısı onu tərifləyirdi: yaxşı uşaqdı, üzü yoladı, səliqəlidi, iş bacarandı.

Əlibala ev işlərini qurtarandan sonra xanımdan icazə alıb, dəmirçixanaya gedərdi. Usta nə düzəltsə onunla maraqlanar, öyrənmək istəyərdi.

Əlibala 13-14 yaşına çatanda artıq dəmirçixanada sərbəst işləyirdi. Çox vaxt usta ona müxtəlif şeylər qayırmağı da tapşırardı. Əlibala artıq dəmirçiliyin bütün sirlərinə yiyələnmişdi. Onu şəhərdə hamı tanıyardı.

Əlibala qazandığı pulu hər axşam aparıb ustanın qabağına qoyurdu. Usta da pulun bir hissəsini Əlibalaya verərdi. Əlibala bir səhər öz evindən durub ustasıgilə gələr, usta ilə səhər yeməyi yeyib sonra dükana gedərdi. Axşam yenə ustagilə gəlib həm pul verər, həm də onlarda yeyib-içib sonra öz evinə gedirdi.

Bir gün Əlibala işdən evə gəlir. Yeməkdən sonra usta Əlibalanı saxlayır, vəsiyyət edib, dükanı Əlibalaya bağışlayır. Əlibala artıq ustasına pul vermir. Evinə nə lazımdırsa hamısını alır. Əlibala məhlə-bacasını, evini sahmana salır, az-çox ehtiyat pulu da toplayır.

Usdanın arvadı onu öz övladı kimi istəyirdi. Bir gün axşam yeməyindən sonra arvad süfrəyə çay verə-verə söhbətə başlayır:

-Ay Əlibala, oğul, artın sənin ev-eşik olan vaxtın ötür. Niyə tərpənmirsən? Biz artıq qocalmışıq. Sənin toyunu görmək arzusundayıq. Axı biz səni özümüzə övlad samışıq.

Əlibala utanır, qızarır, başını yerə dikib, bir qədərdən sonra çayını içib, heç bir cavab vermədən evinə gedir.

Əlibalanın dostlarından biri ondan razılıq cavabını alıb, ustasına çatdırır ki, onlar kimi məsləhət bilsələr mən ona narazı olmaram.

Əlibalanın evi şahın evinə yaxın yerdə idi. Şahın eyvanından Əlibalanın məhləsi açıq görünürdü.

Əlibalanın toyundan bir qədər sonra Şah Əlibalanın məhləsində gözəl bir qadın görür. Şah bu gözəli ələ keçirmək üçün çox vasitələrə əl atır. Qarılar göndərir ki, o gözəli ələ keçirsin. Gəlin özünü elə aparır ki, gələn qarılar cürət edib ona bir söz deyə bilmirlər. Şah tədbiri dəyişməli olur.

Bir gün Şah Əlibalanı yanına çağırıb deyir:

-Sənə bir həftə vaxt verirəm. Bir həftəyə qədər 40 min mismar düzəlib gətirərsən. Bir həftəyə kimi bu işi tamamlamasan, boynunu vurduracağam.

O gündən Əlibala dükanın qabağında oturur. Sifariş götürmür. Şahın bu hərəkəti haqda düşünür.

Axşam Əlibala evə qayıdanda gəlin ondan soruşur ki, sən Şahın dediklərini düzəltdinmi? Vaxt tamam olana qədər tamamlaya bilərsənmi?

Əlibala cavab verir ki, düzələr, Allah kərimdi. Vaxt tamam olan günü səhər tezdən Əlibalanın qapısı döyülür. Əlibala yuxudan ayılıb öz-özünə deyir ki, yəqin Şahın adamları gəlib, məni aparacaqlar.

Əlibala gedib məhlə qapısını açır. Görür ki, doğrudan da Şahın adamlarıdı. Şahın adamları qapı açılan kimi Əlibalaya deyirlər, tez ol, get dükanını aç, 40 dənə mismar hazırla. Şah ölüb, tabut düzəltdirmək lazımdı. Əlibala Şahın adamlarına Allaha təvəkkül, düzəldərəm deyir. Dükana gedib mismarı verir. Qayıdıb gəlir evə. Gəlin xəbər alır ki, nə oldu, Şahın tapşırdığı şeyləri verdin?

Əlibala əhvalatı başdan ayağa kimi gəlinə danışıb deyir: Mən Allaha sığındım. Həmişə Allaha təvəkkül dedim. 40 min mismarı 40 mismar eyləyən Allahdı. Ona pənah gətirən naümid qalmaz **(S.118; T.47)**

## YOLÇUNUN QONAQ QALMASI

Qədim zamannarda bir kişi səfərə çıxır. Az gedir, düz gedir, axşam alatoranlığında bir kəndə çatır. Yorğun-yorğun yolçu kəndin kənarında olan tək öyün qapısını döyür. Qapını bir arvat açır. Yolçu diyir:

-Məni beycə tanrı qonağı eliyin.

Arvat diyir:

-Tanrıya da qurban olum, qonağına da.

Qonaq öyə girir. Yiyip-içənnən sonra soruşur:

-Sənin nəyin var, nəyin yoxdu?

-Heç nəyim yoxdu, -deyir arvat.

-Ərin var?

-Yox.

-Uşağın var?

-Yox.
-Malın var?
-Yox...
Kişi axırsı diyir:
-Habular bir yana, pişiyin var?
-Ho da yoxdu.
Kişi diyir: -Honda mən gitdim, habu öydə qala bilmərəm.
Arvat diyir:
-Olmaz, qalmalısan. Gecənin habu vaxdında hara gidirsən?
Kişi diyir:
-Səninki itə atmağa bi daşın yoxdu, mən habu öydə gecələyə bilmərəm.
Arvat diyir:
-Niyə gecəliyə bilməzsən?
Kişi diyir:
Ona görə ki, beycə habu öyə Allahın yolladığı bəla ya səə, ya da məə toxunacax **(S.36; T.43)**

## PALAN İÇİ ÇIXARIR

Qədim zamanlarda bir palan tikən usta var imiş.

O, palan tikməkdə mahir usta idi. Ona görə də onun pulu başdan aşırdı. Həm də çox xəsis idi. Qazandığı pulları dişinin dibini sovurub yığmışdı. Bir gün o, yığdığı pulları arvadından xəlvəti köhnə palanın içinə tikir. Günlər keçir. Bir kasıb kişi əlimyandıda palançının qapısına gəlir. Palançı evdə yox idi. Arvad çox rəhimdil adam idi. Kasıba yazığı gəlib köhnə palanlardan birini kasıba təzə palanın qiymətinə satır. Kasıb kişi köhnə palanı götürüb gedəndən sonra palançı gəlir. Görür ki, köhnə palanların içində pul tikdiyi palan yoxa çıxıb. Arvaddan soruşur ki, burada bir köhnə palan var idi, onu hara qoymusan. Arvad qorxusundan and-aman eləyir ki, mən palan, filan görməmişəm. Palançı hirsindən arvadı o qədər döyür ki, «nə yemisən, turşulu sıyıq».

Palançı cəmi köhnə palanları söküb, içini çıxarıb baxanda kim isə onu bərkdən çağırır. Palançı palan sökməklə başı qarışmışdı. Arvad çağıranın qabağına gedir. Qayıdıb palançıya deyir:
-Səni bərk çağıran var.
Palançı arvada deyir:
-Get de ki, əlində bərk işi var.
Arvad palançının dediyi sözləri çağırana deyir:
-Əlində bərk işi var!

Çağıran soruşur:
-Axı onun nə bərk işi ola bilər?
Arvad deyir:
-Nə olasıdı? Köhnə palan içi çıxarır **(T.43)**

## İP ƏYİRƏN QADIN

Deyirlər dünya binə salandan qadınlar kişiləri aldadıblar.
Adətən kişi çöl işləri ilə məşğul olardı. Axşam evə gələndə arvad əlindəki ip yumağını tələsik buxarının bacasından çardağa atırmış. Kişi arvadının belə zəhmətkeş, evcanlı olmasını görüb onu daha da çox sevərmiş. İllər, aylar bir-birini əvəz edir. Bir gün arvad xəstələnir. Vaxt tamam olur. Arvad canını tapşırır. Kişi arvadına ağlamaqdan əldən düşür. Ona hamı təsəlli verir. Kişi deyir:
-Mən onu çardaxdakı ip yumaqları ilə ağlamaq istəyirəm.
Arvadın yeddisi çıxandan sonra kişi deyir: "Çardağa çıxım görüm ip yumaqlarını siçanlar kəsməyib ki?"...
Kişi çardağa çıxanda nə görsə yaxşıdı? Cəmi bir dənə yumaq var.
O günnən kişinin göz yaşları quruyub. Öz-özünə deyinir: "Bu tünbətün qızı öləncə məni aldadıbmış" **(T.43)**

## KÜLƏK ƏSDİRƏYDİN

Qədim zamannarda peyğəmbərlər müəyyən vaxda Allahdan Allahlığını onlara tapşırmağı isdiyillər. Allah da onların bir sözünü iki eləmir.
Bir dəfə peyğəmbərlərdən biri Allahdan allahlıq tələb eliyir ki, bir illiyə allahlığı mənə ver. Qoy ümmətlərim aclıqdan qırılmasın.
Allah da öz allahlığını etibar eləyib ona verir, qıraqdan tamaşa eliyir. Peyğəmbər insannara qeyrət, qüvvət, ağıl verib, taxıl, tərəvəz, bosdan, hər şey əkdirir. Allahın köməkliyi ilə hər şey bol məhsul verdi. Taxılı da yığıb-yığışdımaq olmurdu. Hamının uçmağa qanadı yoxuydu. Hər yerdə elə bolluq yaranmışdı ki, gəl görəsən. Taxılı un eliyib birinci məhsulun çörəyini yedikdə zəhər kimi acı oldu. Hamı aclıxdan əzab-əziyyət çəkirdi. Peyğəmbər Allaha dua eliyip yalvarırki, bu nə sirrdi?
Bu qədər bol məhsul yetişdirməyim əhlə əyandı. İndi çörək acı, zəhər kimidi, ümmətlərim acındanqırılır. Allah tərəfindən nida gəlir: «Ya peyğəmbər, mən səni özümdən əqilli, kamallı, qeyrətli bildim. Allahlığımı sənə verdim. Sən taxıl çiçəyə dolanda külək əsdirmisənmi?»

Peyğəmbər deyir:
-Xeyr, qibleyi-aləm. Elə ona görədiki taxıl acıdı.
İş tamam peyğəmbərin başını qatmışdı. Külək məsələsi tamam yaddan çıxmışdı.
O vaxtdan Allah heç kəsə öz Allahlığını vermiyipki, hərə bildiyi kimi Allahlıx eləsə dünyanın altı üstünə çevrilər **(T.43)**

## BƏRƏKƏTİNİ ÇƏK

Peyğəmbərlərdən biri Allahdan allahlıq tələb eləyir ki, insanlar arasında haqq-ədalət yaratsın. Allah da öz allahlığını ona verip kənardan peyğəmbərə tamaşa edirmiş. Bu vaxt iki nəfər dəyirmana dən gətirir üyütməyə. Dağarın sahibi dəni donluğa töküb çölə çıxanda çuvalın sahibi dağar sahibinin dənini oğurlayıb çuvala dolduranda peyğəmbər istədi ki, dəyirmanın daşını onun üstünə atıb çuval sahibini öldürsün. O saat rəbbi-təala əzmişan əlini qabağa verib daşı saxlayır. Deyir:
-Belə allahlıq eləmək olmaz. Allah təmkinli padşahdı. Ona tələsmək, darıxmaq lazım gəlmir. Get, yerində əyləş. Çuvalın bərəkətini çək, dağara ver. Dağarın kiçik olmasına baxma. Onun bərəkəti kasıba bəs elər.
Deyilənə görə o peyğəmbər hələ də allahlıq iddiası eləməyib **(T.43)**

## ÖZÜNDƏN BETƏRİNİ GÖRMƏMİSƏN

Biri varıydı, biri yoxuydu. Bir ata, bir oğul varıydı. Oğul həmişə dəyirmana gedər, dəni tezliklə üyüdüb gələrdi. Atası ona deyərdi:
-Oğul, nə tez gəldin dəyirmandan.
Demə, oğlan canlı, cüssəli, qolu qüvvətli imiş. Özünə gümanı gəldiyinə görə dəyirmanın daşına əlinin dabanını verib dayandırır, üyünən kimin dəni isə donluqdan çıxartdırıb öz dənini tökərmiş. Oğul öz-özünə deyərmiş "kimin nə haqqı var mənə gözün üstə qaşın var deyə?" Atası deyir:
-Ay oğul, bir vaxt gələr, səndən də qolu güclü gələr, onda neylərsən?
Oğul atasına məhəl qoymazdı. Günlərin bir günündə oğlan yenə dəyirmana yollandı. Atası paltarını dəyişib dəyirmana yollandı. Dəyirmana çatanda oğlu dənin yarısını üyüdüb un eləmişdi. Atası dəyirmana girən kimi haray qoparıb deyir:
-Bu saat dəni çıxar donluqdan! Növbə mənimdi!
Oğlan o saat sağ əlinin dabanını dəyirmanın daşına verib dayandırdı və dedi:
-Nə deyirsən, növbə mənimdi, mən də dənimi üyüdürəm.

Atası yavaşcadan dedi:
-Dəni donluxdan çıxart.
Oğlan atasının kim olduğunu bilməyib, sakitcə dəni üyüdəndə atası bir barmağı ilə daşı dayandırdı. Oğlanın gözləri bərələ qaldı. Öz-özünə dedi: «Deməli, atam deyən qoluzorlu bu imiş.» O saat oğlan dəni donluqdan çıxarıb kənarda dayandı. Atası tezliklə dəni donluğa töküb üyütdü. Evə yollandı. Atası evə gəlib paltarını dəyişdi. üz-gözünü səliqəyə salıb, dinməz-söyləməz buxarının yanında yasdığa dirsəkləndi. Oğlu gecdən-gec dəni üyüdüb evə gələndə atası dedi:
-Ay oğul, nə yaman gec gəldin dəyirmandan?
Oğlu dedi:
-Sən deyən qoluzorlu gəlib çıxmışdı dəyirmana. Mən dəyirmanın daşını əlimin dabanı ilə dayandırdığım halda o, bir barmağı ilə dayandırdı, belə adama kimin gücü çatar? Mən də dənin yarısını üyütmüşdüm. Gördüm ki, bu iş o işdən deyil. Tezliklə öz dənimi donluqdan çıxarıb, onun dənini üyütməyə başladım. Sonra da öz dənimi üyüdüb gəldim. Mən də həmişə onun kimi edirdim. Amma bu zalım oğlu dəyirmanın daşını bircə barmağı ilə dayandırdı. Demə, sən deyən qoluzorlu buymuş **(T.43).**

## GƏRAZ

Keçmişdə Gəraz bir kət oluf. Habu kəndin camahatı oğurruxnan, yol kəsməhnən məşğul olubmuş. Özdəri də tərkisalatıydılar. Hona görə də Allah-Taala holara var-döyləti vermirdi. Hoların ayləsi tərbiyəsiz, ana-bacı tanımırdı. Hona görə ayrı kəntdən ho kəndə gəlip-gedən olmazdı. Öyüt-nəsyət eşitməzdilər.
Bi günüsü ho kəndə bir ağıllı, başbilən dərviş gəlir. Kət camahatı honun başına yığışır. Ho diyir:
-Mən sizin camahata sehirri dua oxuycam, siz «amin» diyin.
Dərviş oxuduxca hamı «amin» diyir. Duanı oxuyup: Allah-Taala sizə bəla göndərsin - diyip yox olur. Ho günüsü tufan-nifrin qopur. Kət camahatı sel-suya batır. Ho vaxdan ho dərvişin kim olduğunu heş kim bilmir. Gördüm diyən yoxdu **(T.43).**

## AT YİYƏR, AMA GÖYŞƏMƏZ

Böyük qardaşın adı Alı olur, kiçiyininki Nəsir. Bular bir at alıllar. Atı alıb gətirillər.
Qış olur. Töləyə bağlıyıllar. Təzə olan minihdi. Tez-tez bu balaca

qardaş gedip baxır. Qardaşına gəlip diyir:

-Qardaş, axı at xəsdələnipdi.

Diyir:

-Nə bilirsən?

Diyir:

-Göyşəmir.

Bu da durur gəlir. Gecə yarıdı. Hara getsinnər? Neynəsinnər? Axırsı bi qoşu İdris kişi varmış, çağırıllar. İdris kişi gəlip diyirki, vallah, bu soyuxluyupdu, bunu minip çapbax lazımdı çoxlu tərliyincən. Nəsə bu atı gecə vaxdı minip kənt içi yuxarı, kənt içi aşağı sürüllər. At qantərə batır. Gətrip bağlıyıllar. Bu balaca qardaş gənə oturur bunun yanında, əlində çırax. At göyşəmirki, göyşəmir. Nəsə, sabah açılır, gedillər atı olan bir kişinin yanınaki, gəl, bax, bizim bu at göyşəmir axı, xəsdələnipdi.

Bu kişi diyir:

-A bala, at göyşüyən şey döyül, at yiyər, intası göyşəməz.

Bunnan sora başa düşüllərki at göyşəməz **(S.46; T.30)**

## SÜLEYMAN PEYĞƏMBƏRLƏ QUŞLAR

Süleyman peyğəmbər quşların dilini bilirmiş.

Gəlip quşlara xərc (vergi) qoyurlar. Ördəyə, qaza, o birsi quşdara, nə bilim, nəyə, nəyə.

Birəbitdənə çatanda diyirki, mən balacayam, xərcim özimə bab olsun.

Diyir:

-Unda səni azad ilədim. Get, balaca bi şeysən. Ama bi tapşırığım var. Get ağaşdardan bi çöp gətir, ya əyri olmasın, ya düz.

Dünya peyda olannan hələ də axdarır, tapa bilmir **(T.43).**

## SÜLEYMAN PEYĞƏMBƏRLƏ QUZĞUN

Süleyman peyğəmbər bir gecə həyətə çıxıp qırağa baxıp görürki hava çox qaralıp, soyux düşüp, sulu qar yağır.

Yayın isdi vaxdı olmağına baxmayaraq qar yağması peyğəmbərin marağına səbəb olur. Gözdiyirki görəh habu işin axrı nəynən kutarcax?! Sulu qar qara çöyrilir. Həyət-baca ağ qara bürünür. Qar bərk yağır. Dayanmadan yağan qar damın ətəyinə çatanda dayanır. İsdi, zəif külək əsməyə başdıyır. Qar yavaş-yavaş əriyip suya çöyrülür. İsdi, zəif

əsən külək yeri-yatağı qurudup sifdəki hala gətirir.

Süleyman peyğəmbər quşdarın, heyvannarın, balıxların, cücülərin dilini bilirmiş. Gejdənnən insannarı, quşdarı və heyvannarı çağırıp holardan soruşurki beycə nə hadisə olup?

Heç kəs habu suala cavap verə bilmir. Holar diyillər:

-Bizim heç şeydən xəbərimiz yoxdu.

Əlıəci kəsilən pyğəmbər soruşur:

-Görün, habu meclisə gəlməyən adam, heyvan, quş varmı?

Vəzir, vəkillər axdarıllar. Görüllər, bir ağacın dibində yuxuya getmiş quzğun var. Honu yuxudan oyadıp Süleyman peyğəmbərin hüzuruna gətirillər. Peyğəmbər quzğunnan sual eliyir.

-Beycə nolup, diyə bilərsənmi?

Quzğun dil açıb diyir:

-Peyğəmbər sağ olsun, acığıız tutmasa, diyərəm.

Peyğəmbər tax-tacına and içirki, səə toxummaram. Süleyman peyğəmbər tax-tacına and içənnən sora heş bir kəsə acığı tutup onu öldürməzmiş. Sora quzğun başına gələn əhvalatı peyğəmbərə olduğu kimi danışır:

-Mən neçə günüydüki acıydım. Gecə yuxulamışdım. Səhər ayılanda gördümkü başımın yönü habu yanadı. Düz uçup gəldim. Gördüm bir ağacın altında canavar bir heyvanı parçalayıp. Acıydım diyənə ho qədər yidimki özümü havaya qaldıra bilmədim. Ho ağacın dibindəcə yatdım. Gecənin bir aləmi hava qaraldı. Soyux düşdü. Sulu qar yağmağa başladı. Qar tez-tez yağırdı. Hamı yuxudaydı. İntası oyağıydım. Qar yağa-yağa üsdümü örtdü. Xeylax qar üsdümü örtdü. Ayaxlarımı dəbərtdimki qarın altında qalıp boğulmuyum. Qar gecə də yağırdı. Habu vax dimdiyimi qardan çölə uzatdım. İsdi, zəif külək əsməyə başdadı. Qarı yavaş-yavaş əritdi. Küləh yeri, yatağı qurudup sifdəki hala saldı. Səhər açılanda yer, göy gənə də ho yer, göy idi.

Süleyman peyğəmbərin quzğuna baxşeyişi habu oldu:

-Səni həmeyşə sərvaxd olasan.

Ho vaxdan quzğun harada cəmdək olsa, honnan xəbər tutur **(S.130; T.43)**

## BELƏ DƏ QALMAZ

Biri varıydı, biri yoxuydu. Bir cütçü varıydı. Cütcünün öküzünün bir tayı qışda götürüm düşüp ölmüşdü. Cütçü çox kasıbıydı diyənə bazardan bi nəfər qul alıp gətirir. Qulu qalan öküzdərə taylaşdırıp cütə qoşur, torpağı şumluyur. Habu vax bir dünyagörmüş, müdrük, pirani qoca gəlir. Salam verip soruşur:

-Habu yazığın günahı nədiki, honu qoşup əldən salırsan?

Cütçü diyir:
-Öküz almağa pulum çatmadı, honun yerinə qul aldım. Səə nə? Mən öz pulumu qoşuram.
Qoca təmkinlə diyir:
-Aç burax, habu yazığı. Honun yerinə al bu pulları. Get bazardan öküz al, qoş cütə. Cütçü qulu boyunduruqdan açıp diyir:
-Hara isdiyirsən, gedə bilərsən.
Bir neçə vax qul dilənçilik eliyir, Sora kəndin naxırına gedip mal otarır. Bi günüsü müdrük qoca azad elədiyi qula ras düşür. Honnan soruşur:
-Necəsən, kefin, əhvalın? Daha rahatsanmı?
Qul hona belə diyir:
-Belə də qalmaz.
Müdrik, dünyagörmüş qoca didiyi sözə peşman olur. Öz-özünə diyir: "Sireyin boyunduruğun altınnan açdırıp buraxmışam, gənə də naşükürdü?"
Bir neçə vaxdan sora məmləkətin qazısı ölür. Ho vax ədalət vardısa da, zəlalət də varıydı. Bir adam gedəndə, ya öləndə yenisini seçmək üçün quş uçurdardılar. Habu dönə də belə oldu. Qazı seçmək üçün hamı yığılmışdı. Döylət quşu kimin başına qonsaydı, ho adam kim olseydi iş başına qoyardılar. Hamı da razı qalardı.
Döylət quşunu uçurdular. Naxırçı qul da hordaydı. Döylət quşu səmada dörə vurup naxırçı qulun başına qondu. Honu qazı tə'yin elədilər.
Bir günüsü dünyagörmüş müdrük qoca qazını görməyə gedir. Hamı qazıya razılığını bildirirdi. Sireyin boyunduruğun altınnan açdırıp buraxdırdığı qul, habu gün qazı vəzifəsində durduğuna görə dünyagörmüş müdrük qoca fəxr eliyir.
Qazı müdrük dünyagörmüş qocanı görüp qəbul edip və diyir:
-Mənə görə qulluq?
Müdrük dünyagörmüş qoca honun necə yaşamasınnan maraxlandıxda diyir:
-Belə də qalmaz. Habu fani dünyaya etibar yoxdu.
Qoca kor-peşman öyə qayıdır. Bi neçə vaxdan sora ölkənin paççahı ölür. Ama yığışıp paççah təyin olunan düzə gəlir. Genə dölət quşu uçururlar. Quş gənə də qulun (qazının) başına qonur. Qul paççah taxtında əyləşib ədalətli qanunlar verir, əhalinin günü-güzəranı yaxşılaşmağa başlayır.
Bir neçə vaxdan sora müdrik dünyagörmüş qoca öz dosdunu görməyə gedir. Honu qızıl taxd üsdündə görüp söyünür. Hal-əhval tutur.
Paççah diyir:
-Belə də qalmaz. Fani dünyadı. Etibar yoxdu.
Müdrik, dünyagörmüş qoca öz-özünə deyinir: "İşə bax, sireyin

habunu boyunduruğun altından açdırmışam, didiyi sözə bax...“ Qoca kor-peşman öyə qayıdır. Bir neçə ildən sora müdrik, dünyagörmüş qoca gənə öz dosdunu görməyə gidir. Honu saraya buraxmıllar. Diyillər, sənin dosdun paççah ölüp.

Müdrik, dünyagörmüş qoca paççahın qabrunun yerini öyrənir. Qaburustannığa gidir. Qaburun başında dayanır, sehirri duva oxuyur. Qabrun baş tərəfindən bir qapı açılır. İçəri girəndə nə görsə yaxşıdı? Dosdu əlində təsbeh, cənnətdə oturup, huri mələklər də honun xidmətində dayanıpdı.

Dünyagörmüş, müdrik qoca dostunun kef-əhvalını soruşanda dosdu diyir: -Şükür Allaha, səə dimədim, belə qalmaz? Fani dünyaya etibar yoxdu.

Müdrik dünyagörmüş, nurani qoca öyə tələsəndə dostu diyir:

-Getmə, habura gələnə daha qayıtdı yoxdu. Qayıdarsan, peşman olarsan. Ho, dosdunun sözünə baxmayıp, öylərinə sarı yollandı.

Çöldə nə qaburstannıx, nə də bi kət, şəhər varıydı. Özü də bərk acmışdı. Cibində bir neçə xırda pul sikkələri var idi. Pulu hara apardısa işə keçirə bilmədi. Çox gəzip dolandıqdan sonra dostunun sözünü yadına saldı. Habura gələn dala qayıtmır. Qayıdan da fani dünyada peşman olur.

Ho, Allaha duva oxuyub soruşdu:

-Ya rəbb, habu nə sirrdi, məni agah elə. Allah tərəfindən cavap gəlirki ya qulum, sən dostun ilə söhbət edəndə fani dunyada min il keçir.

Müdrik, dünyagörmüş, nurani qoca Allaha duva eliyip yalvarırki, mən habunnan belə fani dünyada yaşamax isdəmirəm. Məni haqq dünyasına qəbul elə. Ho saat Allah-Taala Həzrət Əzrayılı göndərip diyir: “Get, ho müdrik, dynyagörmüş, nurani qocanın canını al. Qalsa, günah işdədə bilər“**(T.43)**

## FİTVA

Qədim zamannarda bi mömin kişi yaşayırdı. Ho, hara getsəydi isdəkli atıynan gedərdi. At da honun qulluğundaydı.

Bi günüsü necə olursa, atın dəliliyi tutur. Mömin kişi nağayrırsa at hona əl verməyir. Əldən-dildən düşən kişi and içir ki, “habu and haqqı, səni tutsam, belinnən yerə düşən deyiləm“. Axırsı, mömin kişi atı tutur. Minib istədiyi yönə gidir. Kişi su başına çıxmax isdiyir. And içmişdi diyənə, atın belindən düşə bilmir.

Kəndi-kəsəyi ələk-vələk iliyir, honun dərdinə əlac iliyən tapılmırki, tapılmır. Uzax kənddə baş əfəndi yaşıyırmış. Atını çapıb ho kəndə gidir. Əfəndini tapır. Başına gələni əfəndiyə nağıl eliyir. Hona

yalvarır, ilan dili çağardır. Məni habu bəladan kutar - diyir.
Əfəndi mömin kişidən istədiyi qədər pul alıp diyir:
-Gedəh ağacın yanna, ağaca çıx, sonra yerə düş.
Mömin kişi əfəndi diyən kimi eliyir. Sora əfəndi kişidən soruşur:
-Sən hardan düşdün yerə?
-Ağaşdan.
-Həyindi atını min, sür get evinə. Habu da səən fitvan **(T.43).**

## QARIN QARDAŞDAN QABAĞADI

Qədim zamannarda bir qarı var idi. Onun ən istəkli yeganə qardaşı var idi. Qarının qardaşı qəflətən ölür. Qarı baş-gözünü yolub diyir:
-Qardaşımı dəfn-kəfn eləməyə qoymaram. O, mənimlə qalmalıdı.
Qarı bir yana olur, yas yerinə gələnlər bir yana.
Bu vaxt dünyagörmüş bir müdrik qoca deyir ki, "qarı ilə meyiti bir otağa qoyun, çörək təknəsini də tavandan asın, qapını da qıfıllayın. Sonrası ilən işiniz olmasın".
Qarı qəmdən nə yemir, nə içmir. Qarı bir neçə gün ac qalır. Qapı çöldən qıfıllı, çölə çıxmağa imkanı yoxdu. Aclıq onu gündən-günə əldən salırdı. Əli çörək təknəsinə çatmırdı. Otaqda da kətil yox idi ki, qarı ayağının altına qoyub təknədən bir tikə çörək alıb yesin. Bu vaxt qarı qardaşının meyitini ayağı altına çəkib üstünə çıxıb təknədən çörəyi alıb yeyir.
Bu vaxt qarıya deyirlər: "Nə üçün qardaşını ayaq altına alıb çörək yedin?"
Qarı deyir: "Qarın qardaşdan qabağadı"**(T.43)**

## MARAL-QIZ

Habu Daşalda Usub bava diyən bi dənə pir adamın göççək bi qızı varmış. Hər axşam ho namaz vaxdı sənəgi götrüf suya gidər, gec də qayıdarmış. Atası honu busur. Göörki habu qız sənəgi qoyuf karvan yoluynan gidir. Habu qızı öldürmax isdiyəndə qız yoxa çıxır. Öyə gəlib qızı öydə göör. Qızdan harda olmasını soruşur.
Qız: "ho oyların yarasin sariyirəm - diyib yoxa çıxır. Atası qızını tapbır. Ho qız da marala çöyrülüf gözdən itir **(S.110;T.30)**.

## ÇATDAMIŞ QAYA

Daşalda dağlarda yeşiyən bi kişinin arvadı varmış. Gecələr kişsi

yuxuya gedən kimi qayaya üz tuturmuş. Kişsi honu tutub soruşanda arvadı danışmır. Kişini habu qayaya gətirir. Arvat habu qayadakı maralların yanna gedər, holarıı sağıf üzünnən muçar, sağdığı sütə kəkotuynan maya vurar, pendir düzəldib öyə gətirərdi.

Kişi habuları görüb fikirrənir:

İntası nə xeyri?

Qaya maralların ayax səsinnən yerilir. Kişi qobuya düşür. Ho arvat da marala çöyrülüf yoxa çıxır.

Hindi hora Çatdamış qaya diyillər **(S.48; T.43).**

## MİNARƏLƏR DAĞI

Bir qıznan bir oğlan bir-birlərini isdiyillər. Qızı ayrısı da sevir. Hona görə də rəqib oğlan habu işi pozmax isdiyir. Ho oğlan belə diyirki, gəl, ho Minarələr dağınnan ov ovluyax.

Oğlan dağa çıxır. İntası düşə bilmir. Bir qoca oğlanın nişannısını dağın yanna aparır. Qızın səsini eşidən oğlan yavaş-yavaş dağdan düşür.

Düşmən görürki, genə heş nə eliyə bilmədi, oğlana diyirki, çöyrül ho qayanın kəlləsinə bax!

Oğlan dağa baxıb: "Mən haburdan nətəər sağ-salamat düşmüşəm?" - diyib ürəyi partdıyıb ölür **(S.48; T.43)**

## KOMRAT

U vax Qəbələdə Həzrət Əli dava eləyəndə hordan bir arvat alır. Öylənir. Eşidirki hardasa qırğındı. Çıxıp gedir. Ora gedəndə arvat da hamiləymiş. Arvadına bilərzik verip diyir:

-Qızımız olsa adını Fatma qoyarsan, oğlumuz olsa Murat. Bu bilərziyi də qoluna bağlıyarsan.

Qadının oğlu olur. Adını Murat qoyullar. Murat tez-tez bööyürdü. Həzrət Əli yeddi ildən sora təzədən bura gəlir. Murat yekə uşax olubmuş. Həzrət Əli atnan gəlirmiş. Gələndə görürkü bir dəsdə uşax çiling-ağac oynuyur. Biri bulara ad qoyur. Həzrət Əli ona diyirki niyə belə iliyirsən?

Oğlan diyirki, uşaqlar sözümə baxmıllar.

Həzrət Əli Murada diyir:

-Qorxmursan?

Murat diyir:

-Heş bi şeydən qorxmuram. Tək Allahdan qorxuram.

Diyir:

-Bə niyə tək Allahdan qorxursan?
Diyir:
-Allah məə bəla verər.
Diyir:
-Mənnən qorxmursan?
Diyir:
-Yox.
Diyir:
-Bu boyda adamnan qorxmursan?
Diyir:
-Yox!
Diyir:
-Məəm sol ayağımın üsdündə yata bilərsən ağzı aşağı?
Diyir:
-Sol ayağın üsdündə yata bilmərəm. Sol ayağın qüvvəsi az olur. Mən səən sağ ayağıvın üsdündə yataram.
-A bala, adın nədi sənin?
-Murat.
Murat Həzrət Əlinin sağ ayağının üsdündə ağzı aşağı yatır.
Həzrət Əli -Ko Murat! - diyip onu atır. Murat gedip dağın təpəsinə batır. Uşağın düşdüyü yer çuxur qalır.
Arvat gözdüyür, oğlu gəlmir.
Həzrət Əli arvatdan soruşur:
-Noolupdu?
Arvat diyir:
-Murat gəlmiyip.
Həzrət Əli diyir:
-Gələr.
Həzrət Əli hindi bilirki dağa atdığı öz oğluydu. Belə fikirrəşə-fikirrəşə sabah açılır.
Həzrət Əli əhvalatı arvadına danışıp, diyir:
-Sözümə baxmadı diyənə mən də onu hora atdım.
Həzrət Əli camahata diyirki bu günnən bura ziyaratdı. Uşağı olmuyannar, qırxa düşənnər bu ziyarata gəlsin.
İndi də bura ağır ziyaratdı. Adına da Komrat diyillər **(S.7; T.30)**

## FƏHRƏT ARXI

Muxas kəndində Fəhrət addı bir pəhlivan varmış. Fəhrət Dərənc-lərdə (Dəhnələr) bir dəyirman düzəldir. Diyillərki, Göbürdən Caluda

qədər yekə bir arx qazıb. Habu arxın bi ucunu dəərmana aparıb.

Fəhrət habu arxı qazmaxnan muxasdıları azardan kutarıf. Kəndin camahatı qara su içməhdən azara tutulurmuş. Fəhrət də habu arxnan ağ su gətrib camahatı habu azardan kutarıfb

Diyllərki, Fəhrət bi qızı isdiyirmiş. Ho arxı qazıp kutaran kimi habu qıznan öylənməh isdiyir. İntası arada gəzən fakqur-küp qarısı Fəhrətin öldü xəbərini qıza çatdırır. Qız özünü öldürür.

Qayadan beyqafıl düşən daş da Fəhrətin başına düşür, ho da ölür.

Ho vaxdan habu arxa "Fəhrət arxı" diyillər **(S.199; T.30)**

## AMAN EVİ

Diyllərki, Filfillidə qışın şaxdalı günüydü. Nifrin göz aşmağa qoymurdu. Həblə çətin vaxdı bir atdı qara bata-bata gedirdi. Atdının qucağında balaca oğlan uşağı da vardı. Soyux hər ikisini əldən salmışdı. Uşax daa soyuğa dözə bilmirdi. Axırsı holar yol üstündəki öyə çatdılar. Ata yer tapdığına xeylax söyündü, bir az özünə gəldi. Ho öydə uşağı öz kürkünə bürüyüb qucağında yatızdırdı. İntası nə aman isdiyib girdikləri habu öy, nə də kürkün isdisi uşağı kutarmadı. Uşax donub öldü. Ho öyə ho vaxdan habu günədək "Aman öyü" diyillər **(T.3)**

## ƏLİCAN ÇAYI

Keşmiş zamannarda Vardannı (indiki Kərimli) kəndində kasıb bi aylə varmış. Ər-arvat gecə-günüz hona-buna nökərçilih eliyib dolanırmış. Züryət sarıdan tamarzıymışlar. Axırsı bir oğlannarı olur. Uşağın adını Əli qoyullar. Di gəl ki, habu yazıx aylə bedbaxd olur. Günnərin bi günüsü Əli anasıynan çayın qırağına çırpı yığmağa çıxır. Habu vax bərk leysan yağır. Beyqafıl gələn sel Əlini aparır. Ana çay yuxarı qaça-qaça şivən qopardır: "Əli, can bala"- diyə-diyə dizinə-başına döyür. Heyləki, oğlunu selin əlinnən ala bilmiycəyini görənnən sora özünü çaya atır. Oğluynan bi yerdə ölür. Ho vaxdan habu çaya "Əlican" diyillər **(T.46).**

## XORUZ RƏVAYƏTİ

Teymur Ləng Qəbələni alandan sora Nici də tutur. Adamların yarsı qaçır, yarsı da qamışdığa girir. Kişilər arvat-uşağın keşiyini çəkillər.

Gecə vaxdı kişilər kətdən taxıl, dana-duna, toyux, cücə gətrif yiyillər.

Holar hamsını kəsip yiyillər, xoruzu kəsmiyip saxlıyıllar. Bilmillərki, bu xoruz holarən başına oyun açacax.

Teymur Ləng həmin qamışdığın yanından keçəndə bir xoruz bannıyır. O da diyir ki, adam olmuyan yerdə xoruz bannamaz.

Döyüş başdıyır. Hər iki tərəfdən ölən-itən olur.

Diyillər ki, Teymur Ləng bu döyüşdə ayağından möhkəm yaralanır. Teymurun adamları öz yaralılarını, ağır yaralı olan Teymuru da sağaldıllar, ama o, taydaxman qalır.

Bu rəvayətə görə guya Teymur burda axsax olur.

Təpədə olanlar da öz adamlarını basdırıllar. Bura ziyarət yeri olur. Heç kəs bilmir ki, bu ziyarət yeri necə yaranıp?! Bu təpədə ölənlər bir nəs xoruzun ucbatından ölüplər.

Bura Toyuxqıran, Xoruzqıran da diyillər **(S.105; T30).**

## MƏMMƏDAMAN DAĞI

Rəvayətə görə Məmmədzaman adlı birisi gözəl bir qızı sevirmiş. Bu izdivaca qızın ata-anası razı deyildi.

Məmmədzaman öz sevgilisini götürüb qaçır. Həm özünü, həm də sevgilisini qorumaq üçün Məmmədzaman dağına pənah aparır. Bu dağda gizlənə bilirlər. Həmin vaxtdan bu dağ Məmmədzaman – Məmmədaman dağı adlanır. Çünki bu dağ onlara aman verir, onları qoruyur.

İllər keçdikcə Məmmədzaman dəyişib Məmmədaman adlanıb **(S.103; T.30).**

## KAR DAŞ

Xalxal kəndindən yuxarıda böyük bir daş var. Adına Kar daş diyillərdi. Oa təzə qoşulan cavan uşaxlar bu daşı görüp diyillərki, bu nə yekə daşdı. O birsilər diyirki, bu daşa Kar daş diyillər. Hindi axşam qayıdanda görərsən. Hindi tələsirik, gedirik.

Axşam qayıdanda buna diyillərki, sən get hu daşın dalında dur, biz səni çağırceyih. Sən eşitmicisən. Hu da gedip durur ho daşın dalında. Ha gözdüyür, görürkü bunu çağıran olmur. Yarım sahat olardı, bir sahat olardı, daa keçir bu yana. Keçəndə görürkü, hamı çıxıp gedipdi. Meşəlik yer. Qorxur. Çığıra-çığıra huların dalınca qaçır.

Hu daşa hununçun Kar daş diyillər, adamları beləcə aldatdığına görə **(S.46; T. 30).**

## AĞULUQ

Qədim zamannarda, biz dünyada olmuyanda, bi çoban yaşıyırdı. Çobanın o qədər qoyun-quzusu varıydıki, sayı-hesabı bilinmirdi. Yadellilər el-obanı, kəndi-kəsəyi soyup talan edir, yandırıp, yernən yeksan edirdilər. Qış vaxdıydı. Genə də yadellilər elə-obaya, kəndə-kəsəyə basqın edip, mal-qaranı aparmax isdədilər. Habu əhvalatı eşidən çoban qar yağmasına baxmayaraq, dağlara öz sürüləriynən üz tutur. Az gedillər, çox gedillər, bilmillər nə qədər yol gedillər. Bir yaşıl meşəliyə rasd gəlillər. Qoyunnara, özlərinə sığınacaq yeri düzəldillər. Qışın oğlan çağında qoyun-quzuya ot-ələf hardandı? Bir azdan sora qoyun-quzu qırılır. Çobanı ağlamax tutur. Səsi dərələri-təpələri bürüyür. Kət əhalisi çobanın səsinə yığılır. Ho, qoyunnarı gösdərip, bir bayatı oxuyur:

Əzizim ağlar qoyun,
Ac qalar, ağlar qoyun.
Yem bilip yidirmişəm
Yemində ağu var, qoyun.

O vaxdan çoban o yerin adını "Ağuluq" qoyur. Hindi isə ho kəndin yalnız adı qalıp. Habu kət yeri Oğuz rayonunun Xal-xal kəndinin başında yerləşibmiş. Soradan kət camahatı horanı bəyəmmiyip yığışıp məsləhəddəşir. Hamı topluxnan hindiki "Top"kəndinə köçüllər. Kəndin adını da Top qoyullar. Çoban da habu zərərverici ağacın adını "ağu" ağacı - (yə'ni yolka) qoyur **(S.189; T.43).**

## ƏR DAĞI

Bu dağ Oğuz rayonunun Yaqublu kəndi yanında yerləşir. Bu dağda bir daş var, yerli əhali o daşı ziyarət edir. Bə'zi adamlar "Əli dağı" da deyirlər bu dağa. Qədim zamanlarda burada əfsanəvi qəhrəman yaşayırmış, Onun adına "Ər" deyirmişlər. O, öz xalqını, elini yadellilərdən qoruyarmış. Ona "Nər" kişi də deyərdilər. O, Allaha inanan mömin bəndə imiş. İbadətə "Ər" dağına gedirmiş. Orada yastı daşın üstündə ibadət edib qayıdarmış. Ər ibadət edəndə bədəni yumşalıb muma dönərmiş. Dava zamanı isə ona nə qılınc, nə də ox batardı. Qılınc ona dəyəndə iki para olub cingiltiylə yerə düşərmiş. Ox dəyəndə ucu əyilib koğaya dönərmiş. Ər ilə bir kəs davada vuruşa bilməzmiş.

Bir gün bir şeytan cildli insan peyda olur. Ərin bütün sirlərinə bələd olub, düşmənə xəbər verir, o, ibadətə gedəndə düşmən xəlvəti onun başının üstünü alır. Şeytan isə bunun başını qatır. Düşmənlər

Ərin boynunu arxadan qılıncla elə vurur ki, Ərin boynunu üzən qılıncın ağzı ibadət elədiyi daşa dəyib iki para olur.

İndi o vaxtlardan çox əsrlər keçib. Əfsanəvi qəhrəman Ərinin ulu ruhu, deyirlər, yaşayır. Ərin ulu ruhunun yadına düşmənin, şeytanın hiyləsi düşəndə duman qalxır. Bu duman da göz yaşına dönüb torpağa inci kimi səpələnir. Ata -babalar deyərdilər ki, günəşli gündə havada bulud olmayanda Ər dağından bir parça bulud qalxan kimi yağış gözlənilir. O saat ot biçən otunu, xırman döyən xırmanını, paltar yuyan paltarını yığıb quraq yerlərə qoyardılar. Elin dilində indi də belə bir bayatı gəzir:

Əziziyəm, "Ər" dağı,
Gətir, doldur çardağı.
Yaz quraqlıq gələndə
Üstə əndər bardağı **(S.26; T.43).**

## YERSİZ GƏLDİ, YERLİ QAÇ

Çox-çox qədim zamanlarda insanlar bir-biri ilə dost-mehriban yaşayırdılar. Sevincini, kədərini, qazancını, varını bir-biri ilə bölüşərdilər. Kimin nəyə ehtiyacı olsa, olan olmayana əl tutardı. O vaxt nə pul, nə də ziynət şeyləri vardı.

Bu dövrdə bir mahir bağban yaşayırdı. O, dünyanı cənnətə döndərmək üçün Gülüstani-İrəm bağına oxşar bağ salmışdı. Bağda ilboyu gül-gülü, bülbül-bülbülü çağırarmış. Yüz yaşında qoca meyvəsindən dadsa, on beş yaşında novcavan olarmış. Bağda hər cür meyvə tapılardı: "Quş iliyi, can dərmanı". O vaxt insanlar paxıllıq nədi bilməzmiş. Tamahkarlıq heç kəsin ağlına gəlməzdi. Hamı bir dildə danışar, bir-birini başa düşərdilər. Günlər, aylar belə ötüb keçərdi.

Günlərin bir günündə bağbanın qapısına haradansa bir dilənçi gəlib çıxır. Dilənçinin nə paltarı, nə də ayaqqabısı vardı. Bir həsir, bir Məmmədnəsir idi. Əlində itdən qorunmaq üçün əyri-üyrü ağacdan əl ağacı tutmuş, çiyninə yetmiş yerdən yamağı olan torba asmışdı.

Bağban dilənçini görən kimi ona yazığı gəldi, ürəkdən halına yandı. Diləniçini evə dəvət elədi. Qarnını doyurdu, çimizdirdi, arvadının köynəyindən keçirib geyindirdi. Oğulluğa götürdü. Dedi:

-Bundan belə dilənçiliyin daşını at. Bağdakı güllərə, çiçəklərə, ağaclara xidmət elə. Qoy günün güllər, çiçəklər kimi gözəl, ətirli, təravətli olsun.

Bağban bir neçə ildən sonra bağın ən səfalı yerində altı dəryadan nəm çəkən, başı buluda dəyən yarlı-yaraşıqlı bir imarət tikdirdi. Şahlar tamaşasına gəlirmiş. Sonra da dilənçini gözəllər gözəli olan

mələksima qızla evləndirir. İllər keçir. Dilənçi oğul-uşaq sahibi olur. Bağban qocalıb əldən düşür. Ona güllərin, çiçəklərin təsiri də kömək etmir. Öz qarısı ilə bağın bir küncündəki komasına çəkilib yaşayır.

Günlərin bir günü dilənçi bağbanı yanına çağırıb deyir:

-Sabahdan bu komanı atmaq lazımdır. Əgər söküb atmasan, başını bədənindən ayıracağam! Özün bil!

Bağban ağlaya-ağlaya deyir:

-Axı nəyə görə? Sənə çörək verib, adam elədiyimə görə?

Dilənçi:

-Mənim altı dəryadan nəm çəkən, baş buluda dəyən, tamaşasına şahlar gələn binamı yaraşıqdan salır, -deyib bağbanı bağdan qovur, komasını yerlə-yeksan eləyir: "Get buradan! Özünə layiq yer tap! Sənin yerin bura deyil! Bura mənim yerimdi! Ata-babam burada kök salıb!"

Bağbanın gözünün yaşı dağ çayına qarışıb selə dönür. Bağa tökülür. Bağı sel, su götürür. Nə dilənçidən, nə güllü-çiçəkli bağdan, nə də altı dəryadan nəm çəkən, başı buluda dəyən, tamaşasına şahlar gələn imarətdən əsər-əlamət qalır. Eşidən, bilənlər buranı "Qarabağ" adlandırır. Bağban bir küncə çəkilib deyinir: "Yersiz gəldi, yerli qaç". Bu söz bağbanın dilindən çıxan kimi bir quş olub dünyaya yayılır **(S.33; T.43).**

## LOĞMANIN SINAĞININ AQİBƏTİ

Bir loğman öz qardaşıynan yaşayırmış. Qardaşı çörəh təhnəsinin yerini bilirmiş. Hordan çörəyi götrüb yiyirmiş. Günnərin bi günüsü loğman qardaşını sınağa çəkir. Arvadına diyirki, çörək təhnəsinin qapısını bağla. Ho da bağlıyır. Qardaşı çörəh təhnəsini axdarır. Hora vurnuxur, bura vurnuxur, tapbırki, tapbır. Gedib un tayını tapır. Unnan başdıyır yeməyə. Yihayi, un gəlib bağırsağında olur daş. Qardaşı ölür. Loğman diyirki, honun ölümünə bayıs mənəm. Qoy, habunu yarım görüm habu nədən ölübdü. Yarıb görürkü, bağırsağın bi yeri sümük olub. Ho sümüyü götrüb dəmirçiyə pıçax qayırtdırır.

Sora bosdana gedir. Bosdançı hona qarpız verir. Ho qarpızı habu sümüklü pıçaxnan kəsib pıçağı yerə batırıb yatır. Durub görürkü, pıçax var, sümük yoxdu. Honda diyir:

-Ay məəm loğman başım, əgənəm qardaşıma qarpız versəydim, sümük əriyərdi, ho da ölməzdi **(S.195; T.30)**.

## HƏR KƏTDƏ ÖYÜN OLSUN

Bi kişi ölür. Öləndə oğluna vəsi eliyirki, oğlum, çalış hər kətdə

Qumlaxda, Xalxalda, Bayanda, hər yerdə bi öyün olsun. Oğul atasını basdırannan sora öz-özünə fikirrəşir: «Başdıyım öy tikməyə».

Qumlaxdan başdıyır öy tikməyə. Xalxalda, Qumlaxda, Tayıflıda öy tikir. Görürkü, daa pulu-parası qalmıyıp öy tikməyə. Gedir bi başbilənin yanna. Atasının elədiyi vəsini habu başbilənə söylüyür. Başbilən diyirki, ay oğul, atan diyibki, hər kətdə bi dosdun olsunki, horalara gedəndə zulum çəkmiyəsən. Başbilənin sözü honun ağlına batır. Hər kətdə bi dos tapır.

Ho günnən işdəri qaydasında gedir **(S.195; T.30)**.

## TƏKLİK YAMAN DƏRDDİ

İki qardaş varmış. Honnarın beş dəvəsi varmış. Habu dəvələri öz aralarında bölməh isdiyillər, intası beş dəvəni nətəər bölsünnər?

Axırsı çöp tutullar. Böyük qardaşa bir, balaca qardaşa dört dəvə düşür. Böyük qardaş yol üsdündə olur. Hodu, böyük qardaş özünün bir dəvəsini də balaca qardaşa verirki, yüklərini aparsın. Balaca qardaş yola çıxır. Sifdə öz dəvələrini, sora qardaşının dəvəsini yüklüyürkü, hona çox da ağırrıx düşməsin.

Yolda dəvələri yemliyəndə sifdə qardaşının dəvəsini yemliyir.

Mənzil başına çatan kimi də sifdə qardaşının dəvəsinin yüklərini boşaldır. İntası görürkü, qardaşının dəvəsi gün-günnən arıxlıyır. Habu honun fikrini eliyir. Balaca qardaş dala qayıdır. Qardaşının öyü honun öyünün yanında olur. Hodu, qardaşının dəvəsini verib öz öylərinə getmək isdiyəndə qardaşı soruşur:

-Dəvə niyə arıxlıyıb?

Balaca qardaş Allah-Taalaya diyir:

-Bi dənə sən şahidsən ki, mən habu dəvəyə necə qullux eləmişəm.

Birdən qeybdən Allah-Taalanın səsi gəlir:

-Ho sənin dəvəni sifdə, sora öz dəvələrini yemliyib, sifdə öz dəvələrini yüklüyüb, sora səən dəvəvi yüklüyürdü. Sifdə səən dəvəvin yükünü boşaldıb, sora öz dəvəsinin yükünü boşaldıbdı. Honda böyük qardaş diyir:

-Bəs habunun dərdi nədi?

Habu vax dəvə dil açıb diyir:

-Təhlikdən. Ho dəvələr yatanda bir-birinə söykənirdi. Mn tək qalırdım. Təhlik yaman dərtdi **(S.195; T.30)**.

## KƏSİLMİŞ ÇÖRƏYİ BİRLƏŞDİRMƏH OLMAZ

Qədim zamannar alimlər, müəllimlər, usdalar, sənətkarlar öz bildiklərini xalxa çatdırmağı özlərinə borc biliplər. Bir usda varıymış. Usdanın üç şəyirdi olur. Usda öz şəyiddərini götürüp səfərə çıxır. Az gedillər, düz gedillər, düzün yarsında bir tənha koma görüllər. Axşamçağıydı. Holar koma yəəsinə qonağ olullar. Koma yəəsinin beş yetimi varıydı. Aylə ho qədər kasıpıydıki, yiməyə bi tikə çörəkləri yoxuydu. Bi inəhləri varıydı. Aylə habu inəyin südüynən dolanırdı. Yetimli arvat qonaxları gülər üznən qarşıladı. Qonaxları tezə inəh südünə qonax etdi. Qonaxlar tezə inəh südünü içip öy yəəsinə razılıx etdilər. Beycə horda qaldılar. Yatıp yuxuya getdilər. Gecənin bir yarısı usda şəyirdləri oyadıp diyir:

-Durun, inəyin başını kəsin! Şəyirdlər köməkləşip inəyin başını kəsillər.

Usda şəyirddərə diyir:

--Gəlin, qaçax.

Ho yetimli arvadın öyünnən qaça-qaça gejdənnən bi yerə çatıllar. Haburda tezə öy tikməh üçün binörə yeri qazmaq üçün daş töküp vic çəkmişdilər. Usda şəyirdlərə diyir:

-Çaparax binörənin yerini qazıp daşnan doldurun. Şəyirddər binörə yerini qazıp daşnan doldurullar.

Usda diyir:

-Hindi gəlin, şəhərə gedəh.

Ac-susuz şəhərə çatan şəyirdlər görüllərki, faytonçu bir əhili döyür. Şəyirdlər usdaya diyillər:

-Gə habu əhili faytonçunun əlinnən alax.

Usda diyir:

-Qoy döysün, hayfını alsın.

Şəyirddər ustanın sözünnən pis olullar. "Ay usda, səə süd verənin inəyini bizə kəsdirdin, dinmədik. Yəəsini tanımadığın yerdə bizə binörə qazdırıp daş töhdürdün, dinmədik. Hindi də biz deyənin tərsinə gedirsən. Sənnən bizə usda olmaz".

Usda nə qədər eləsə də, şəyirdlər ayrılıb gedillər. Usda diyir:

-Qoyun, axırıncı dəfə sizə bi söz deyim. Ayrılsanız peşman olarsız. Gecə siz şirin yuxuda olanda əzrayil yetimli arvadın canını almağa gəlmişdi. Əzrayılla razılaşıp arvadın yerinə inəyi hona qurban verdik. Arvat ölsəydi, uşaxlar acınnan ölə bilərdi. Binörə yerində üç küp qızıl varıydı. Hindi sehrli dua oxuyacam, səhər ho qızılları yetimli arvat tapcax. Habu faytonçunu döyən əhil kişi faytonçunun ağası olup. Bu vaxt ho faytonçunu işlədip qazancını vermiyip. Faytonçuya ho qədər zulum eliyipki, gəl görəsən. Hindi onun var-döləti əlindən çıxıp kasıb düşüp. Faytonçunun pulunu verməyə pulu çatmıyıp. Faytonçu da

pulunun yerinə honu döyür.

Şəyirddər usdanın belə sehirbaz, ağıllı olmasına görə honnan üzür isdiyillər. Usda diyir:

-Kəsilmiş çörəyi birləşdirməh olmaz. Siz də öz çörəyizi öz əlizlə kəsdiiz **(T.43)**.

## XORUZ BARINI UÇURUB

Keşmişdə bi bənna varıydı. U vax layıxlı usdalar azıydı. Günnərin bi günü bir tamahkir qapı-qapı gəzip diyərmiş "mən barı usdasıyam, barı qayırıram, tayım-bərabərim yoxdu".

Hamı onu dövrəyə alır. Birsi qabağa durup çox gopçu usdanı aparıp barı qayırtdırır, usda barını ilan əyrisi qayırır. Öy yəəsi barının əyrisini tezədən qayırır. Usda gənə öz bildiyini eliyir. Barı kutaranda az qalırki yıxılsın. Usda barıya dalını söyküyürkü barı uçmasın. Öy yəəsinnən pulunu isdiyir. Öy yəəsi diyir:

-Gedək öyə, çaydan, çörəhdən yi, iç. Bi hour dincivi al, puluvu al, get.

Tamah usdanı üsdəliyir. Söz vaxdına çəkər, diyillər. Gün günortaydı. Usda surfanın qırağında oturup tutduğu işdən loğa-loğa danışırdı. Birdən sarı xoruz bannamağa təzə qayrılmış barının üsdünə çıxır, qanatdarını yannarına çırpıp bannıyır. Xoruzun qanatdarını zərbinnən barı uçup dağılır, yernən bir olur. Öy yəəsi uçulmuş barını usdaya gösdərip diyir: -Həblə də barı qayırallar?

Öy yəəsi usdanın pulunu vermir. Usda qazının yanna şikayətə gedip diyir:

-Öy yəəsinnən aldığım pulun yarsını səə vercəm, habu işi məəm xeyrimə yaz.

Qazı işi usdanın xeyrinə yazır. Öy yəəsi and-aman eliyirki, usda barını əyri qayırıp, barı da uçup dağılıp, yernən bir olup. Qazı diyir:

-Barını kimin xoruzu uçurdup?

Öy yəəsi diyir:

-Mənim.

Qazı diyir:

Habu işdə usdanın nə günahı var? Kişinin pulun ver.

Öy yəəsi usdanın pulunu verip öyə yollanır. Hirsinnən bilmir, neynəsin. Xoruzu taxsırkar bilip diyir:

-Sən vaxsız-vədəsiz bannnamasaydın, barı uşmazdı. Ho, habunu diyip xoruzun başını kəsir. Ho vaxdan habu vaxda kimi vaxsız bannıyan xoruzun başını kəsəllər **(T.43)**.

## ÜÇ YETİM QARDAŞ

Keşmişdə bi əkinçinin üç oğlu varıydı. Oğlannar böyüyüp ərsəyə çatmışdılar. Bi günüsü ataları öz ömrünü öyladlarına tapşırıp dünyadan köçür haqq dünyasına.

Qardaşdar başsız qalıp özdərinə qardaşın birisini başçı seçmək isdiyillər. Holar məsləhət bilillərki, bizə yol gösdərən başçı, böyük olsun.

Böyük qardaş diyir:

-Mənnən sizə başçı olmaz.

Holar diyillər:

-Biz sənin hər əmrinə tabe olarıx. Oduki, bizə yol gösdərən başçı ol.

Böyük qardaş diyir:

-Honda sabahdan bizim qara kəli dabbağa satax.

Qardaşdar gejdənnən qara kəli ipdən açıp dabbağın yanna aparanda böyük qardaş diyir:

-Qoyun, kəl beycə bizdə qalsın. Sabah aparıp dabbağa satarsız. Qardaşdar qara kəli qaytarıp öz yerinə bağlıyıllar.

Bi günsü böyük qardaş diyir:

Hindiki, belə oldu, bizim habu köhnə öyümüzü uçurdax. Qardaşdar bel, külüng götürüp öyü dağıtmağa hazırlaşıllar. Holar öyün bir neçə kərpicini qoparanda böyük qardaş diyir:

-Qoyun, beycə qonax qalsın. Sabahdan öyü uçurarsız.

Üçüncü gün böyük qardaş diyir:

Gejdənnən dəryazdarı götürüp təzə baş çıxardan həkarat yerini kökdən biçərsiz.

Qardaşlar gejdənnən dəryazdarını çiyinnərinə alıp taxıl zəmisinə yollanıllar. Əkini bi neçə sov biçənə kimi böyük qardaş holarin başdarı üsdünü kəsdirir. Əmr eliyirki, beycə bəsdir! Böyük qardaş qardaşlara diyir: Hindi bildimki, mənnən sizə böyük başcı, yol gösdərən olar. Biz birbirimizi eşidə bilərik. Ho günnən qardaşdar dosdux ilədilər, yidilər, ömür sürdülər. Hoonçun atalar diyiplər: “Güc dosduxda, birrikdədi“ **(T.43)**.

## HAQLI SÖZ

Keçmişdə iki qonşu yaşıyırmış. Honnardan birsi xeyirxah, birsi şər, pisniyyət adam idi. Xeyirxah qonşu kasıblıxnan dolanırdı. Pisniyyət qonşu honu incidirdi. Gah mal-qarasını, gah da toyux-cücəsini oğurruyar, hona qara yaxardı.

Bi günüsü xeyirxah qonşu xəsdələnir. Pisniyyət qonşudan savayı hamı hona baş çəkməyə gəlmişdi. Tezliknən sağalır. Günnərin bi gü-

nüsü pisniyyət qonşu xəsdələnir. Xeyirxah qonşu hona köməyə gedir. Bir həfdə içində honu dirildir. Pisniyyət qonşu: Mən ki, xəsdə olanda səən yanna gəlməmişdim. Sən niyə gəldin? Üsdəlik də məən sağaltdın.

-Mən səə baş çəkməsəydim, day honda olardım səə tay!..

Beyqafıl pisniyyət qonşu ölür. Hamı diyirki, pis qonşunu dərt yox, xeyirxah qonşunun haqlı sözü öldürdü **(T.43)**.

## GÜNAHKAR ADAM

Qədim zamannarda bir zalım adam yaşıyırmış. O, 99 adam öldürəndən sonra öz günahlarını boynuna alıb deyir:

-Gör mən neyləmişəm?

Gedib bu əhvalatı dünyagörmüş bir müdrik qocaya danışır. Müdrik qoca ona deyir: "Get dörd yol ayrıcında bostan ək. Bostan məhsulundan yoldan keçənlərə, ürəyi yanana, yetimə, yesirə payla. Bəlkə sənin günahını Allah bağışlaya.

O, yol ayrıcında bostan əkib məhsulundan yoldan keçənlərə, ürəyi yanana, yetimə, yesirə paylayır.

Günlərin bir günü bostançı görürkü, yoldan bir yolçu keçir. Qarşısını kəsib deyir:

-İsdi vaxtdı. Gəl sənə yemiş-qarpız verim, ye, susuzluğunu yatır.

Yolçu deyir:

-Əl çək, tələsirəm.

Yolçunun təri təpəsindən tökülür. Bostandakı yemiş-qarpızdan yeyib, susuzluğunu yatırmaq istəmir. Bostançı yalvarır: "Ay başına dolanım, bu bostan pulsuzdu, ehsandı, gəlib-gedənlərə paylayıram". Yolçu bostançını itələyib yıxır. Bostançı ayağa qalxıb onu boğub öldürür.

Sonra bostançı peşmançılıq çəkir. Bu da mənim yaxşılığımın əvəzi. Günahlarımın biri də artdı, oldu yüz.

Bostançı yenə dünyagörmüş müdrik qocanın yanına gedir.

-Bu qədər günahı Allah mənə bağışlamaz. Yolçunun əhvalatını ona danışır.

Müdrik dünyagörmüş qoca deyir:

-Bu öldürdüklərinin hamısı belə günah üstündə ölubmu?

-Bəli - deyir.

Onda səndə günah yoxdur. İnanmırsan get söyüd ağacını kəs, bir tonqal qala. Söyüd kösövlərindən götürüb başı aşağı torpağa sanc. Göyərdi, sənin günahlarını bil ki, Allah bağışlayıb. Göyərmədi, günah-

karsan.

Bostançı söyüd ağacını kəsib, doğrayır, sonra da tonqal qalayır, yanmış kösövləri başı aşağı torpağa sancır. Kösövlər bir neçə gündən sonra göyərməyə başlayır. Qol-budaq atır.

Ona görə də xalq arasında belə bir misal var: "Səni öldürənin kösövü göyərər"**(S.48; T.43)**.

## ALA QOYUN, QARA QOYUN, BAŞIMI YERƏ QOYUM

Diyillərki, bi molla varmış. Habu molla gündə namaz qılırmış. Habunu görən çoban namazı öyrənmək isdiyir. Bi günüsü mollaya diyir:

-Molla, mən də namaz qılmax isdiyirəm. İntası namaz qılanda maa da nə didiyuu öyrət, mən də diyim.

Molla bi az fikirrəşib diyir:

-Ala qoyun, qara qoyun,
Başımı yerə qoyum.

Çoban ho günnən habu sözdəri diyə-diyə namaz qılır.

İllər keçir. Bi günüsü molla da ölür, çoban da. Holarıbasdırıllar.

Bi günüsü diyillərki, molla çobanı alladıbdı diyənə Allah-Taalanın qəzəbinə gəlib. Habunu yoxlamax üçün qaburları açıb görüllərki, çobanın qabrunda molla, mollanın qabrunda çoban. Çoban cənnətdik, molla cəhənnəmlik olub **(S.90; T.30)**.

## DƏRTDİ DƏRTDİNİ QANAR

Bi kişi oğurrux eliyir. Qayda-qanuna görə oğurrux eliyənnən hası qoluynan oğurrux eliyibsə hu qolu kəsilməliymiş. Ho kişidən soruşullarki, hası qolunnan oğurrux eləmisən. Ho da diyirki, sol əlimnən. Hona görə də honun sol qolunu kəsillər. Qolunu kəsən kimi də qaynar yağa salıllar ki, qanı kəssin.

Kişi habu boyda zuluma dözür, heş nıqqırını da çıxartmır.

Kişini yola salıllar. Ho yolda ayrı qolu kəsiy adama rasd düşür. Honu görən kimi zulum-zulum ağlıyır. Habunu paççaha çatdırıllar. Paççah ho kişini yanına çağrıb diyir:

-Səən qoluu kəsəndə heş nıqqırın çıxmadı, bə hindi niyə ağlıyırsan?

Kişi diyir:

-Honu görən kimi öz dərdim yadıma düşdü. Dərtdi dərtdini qanar – diyiblər **(S.195; T.30)**.

## YEL ƏSİB, QOZ TÖKÜLÜB

Diyillərki, iki nəfər Muxasdı Şəkidə texnikuma giribdi. Hoların da külfətdəri çoxuydu diyənə dolana bilmirdilər.

Bi dəfə ho tələbələrdən birsi iki günnüyə icazə alıb kəndə gəlir, öylərinə baş çəkir, bir az puldan-paradan götürüb qayıdır. Yoldaşı honnan xəbər alır:

-Kətdə nə var, nə yox?

-Sağ-salamatdıxdı. Biilki qoza qoz çatmaz. Ağaşdarın başı doludu. Mən gələn günüsü ürəyin isdiyən küləh əsdi. Qozdar tıpbatıpnan töküldü yerə. Hindi oğul isdiyir hoları yığa, apara sata.

-Qozun qalası (4 ədəd qoz bir qala hesab edilir) bazarda neçəyədi?

-Honu bilmədim, intası belə girəvəni əldən vermək olmaz.

-Əşi, bizə nə düşüb həblə. Ho cür qozu qoymuşux horda gəlib haburda oxuyurux. Gəl gedək.

-Getdik.

Habu iki Muxasdı biccə qoza görə texnikumnan qovulur.

Soradan çox peşman olullar.

Hindi söz düşəndə kim kiməsə lazım olmayan yeri təklif edəndə “Helə bilirsən, horlda yel əsib, qoz tökülüb?“ – diyillər **(T.21)**.

## ŞABALID

Qədim zamanlarda Şabalıt adında qara bir qız varıydı. Qız həddibuluğa çatanda helə gözəlləşmişdiki honun dərdinnən dəli-divanə olmuşdular. Qız qaraydı, intası suyu şiriniydi. Kim hona elçi düşürdüsə, dili ilə honu sancır, heş kimi bəyənmirdi. Bi günüsü qızı isdiyən oğlan honu görməyə gəlir. Oğlan qızın dərdinnən dəli-divanəydi. Oğlan nə qədər yalvardısa, qız hona razılıx vermirdi. Qız diyirdi:

-Mən şahlar şahının oğlunu isdiyirəm. Oğlan nə qədər yanıxlıydıki, ağlıya-ağlıya diyir:

-Yarəbb, sən habu qızı ya göyə göndər, ya ağaca döndər. Habu sözdən sonra qız ho sahat dönüp enliyarpaqlı ağac oldu. Payız vaxdı görüllərki ağacda yumru-yumru tikan yetişip. Adamlar isdiyirki, ho tikannarı əlləriynən qopartsınnar. Əllərinə tikan batır. Hirsdənip honu ağacnan döyəclədilər. Diməginən qızın acı dilləri tikana dönüp adamları sancır, oğlanın hayfını hona yaxın duran adamlardan alırmış. Ho vaxdan bir tapbaca var:

İçi maxbər, çölü zər,
Ağacnan döyəllər.
Xörəhlərdə yiyəllər.

Ho vaxdan ağacın adına qızın adını qoyullar. Qız şahlar şahının oğlunu

isdiyirmiş. Ona görə də “Şah palıt - şabalıt“ adı meydana gəlip **(T.43)**.

## ARI İLƏ İLANIN MÜBAHİSƏSİ

İlan diyirki, səən zəhərin mənimkinnən çoxdu. İntası heş kəs sənnən qorxmur.

Arı da diyirki, yox, səən zəhərin çoxdu.

Axırsı arı diyir:

-Gəl, yoxluyax.

Bir yatmış adamın yanna gedillər. Sifdə ilan adamı vurub, gözə görükmür. Gözə görükən arı olur.

Adam arını görüp ayağını bi az oxalıyıb tezədən yatır.

Sora başqa bi yatmış adamı arı vurur, ilan gözə görükür. Adam honu görən kimi ürəyi partdıyıp ölür **(S.195; T.30)**.

## ÇƏLTİK

Keşmişdə insannar çörəyin nə olduğunu bilmirdilər. Holar ələf, cır meyvə yeyip yaşıyırdılar.

Bi qətrəhim paççah varıydı. Habu paççahın özünün ayləsinin həkarat yerində çəltiy becərirdilər. Çəltiyi paççahın özünün ayləsinin rızqıydı. Qalan kasıp-kusup ot-ələf, cır meyvə yeyip yaşıyırdı.

Başqa bir paççahın həkarat yerində əkinçi yaşıyırdı. Çəltih xırmanı vaxdı əkinçi əyninə tüklü tərəfi çöyrülmüş kürk giyip zalım paççahın xırmanına gitdiki, bi sıxma toxum gətsin. Ho xırmana çatanda soruşullarki, “nəyə gəlmisən?“. Əkinçi diyirki, “kəl itirmişəm“.

Əkinçini yıxıp ho qədər döyüllərki, ho yumbalana-yumbalana çəltih həmbizinin üsdünə çıxır. Çəltih tühlü kürkə yapışır, döyülmüş əkinçi gücnən qaçıp canını kutarır. Öyə gəlip kürkü daraxnan darıyır, yerə tökülən toxumları yığıp saxlıyır. Tezəcə yaz girəndə çəltih toxumlarını “bismillah“ -deyip ucdarını dişdəyip əkirki, şeytan qarışmasın. Əkinçinin məhsulu ilbəil artıp çoxalır. Qətrəhim paççaha xəbər çatırki, qonşu paççahın əkinçisi sənin çəltiyini oğurruyup və həkarat yerində bol məhsul yetişdirip. Paççahın gözdəri çıxır kəlləsinə, ho sahat əmr iliyirki, “əkinçini məəm yanıma gətirin“. Əkinçini paççahın yanna gətirəndə, ho özüynən bi sıxma çəltih götürür. Paççah əkinçidən soruşur: “Sənin nə ixdiyarın varki, mənim çəltiyimi oğurruyup həkarat yerində əkip məhsul da yetişdirirsən?“

Əkinçi and-aman iliyirki, habu toxum sizin toxumnan döyül, özü əkdiyi toxumu paççaha gösdərir. Toxumları bir-biriynən tutuşdurup görüllərki, əkinçinin toxumunun başdarı kəsiy, paççahın toxumlarının

başı doludu. Padşah şeytannıx iliyəni ho sahat dara çəkdirir. Əkinçini buraxır. Ho vaxdan düyünün başında əkinçinin dişdəyi qalıp **(T.43)**.

## BAŞQA VARİANTI

Diyllərki, keşmişdə özgə həkarat yerlərində çəltih əkillərmiş. Habu bizim həkərat yerlərində çəltih olurmuş. Bi günüsü bizim camahat hoların həkarat yerlərinnən çəltih oğurruyup gətirip əkillər. Çəltih bolluca çatır. Xəbər gedip çatır özgə yerin yəəsinə. Honda Peyğəmbər habulara kömək eliyir. Bir-bir düyülərin başını dişdiyip atır yerə. Məsələ bööyür. Habularnan dalaşmax isdiyillər. Başı kəsiy düyüləri mərəkəyə töküllər. Özgə yerin yəəsi düyülərin başındakı kəsiyləri görüp sakitdəşir. Honda diyillərki, habu düyülərin başındakı kəsiy ho Peyğəmbərin dişdəyiydiki qalıp **(S.195; T.30)**.

## TƏRKİSALAT QASIM

Oğuzun Bucax kəndində Qasımı hamı dinsiz adam kimi tanıyırdı. Hona Tərikisalat Qasım diyəllərdi. Əslində isə heş kim honu yaxşı tanımırdı.

Günnərin bi günüsü bi nəfər zəvvar Məkkəyə gedir. Pulu kutarıb qayıda bilmir. Hona diyillərki, haburda səən yerrin olur. Hona disən ho saa köməh eliyər. Bucaxlı bilirki, habu Tərkisalat Qasımdı. Ho namaz qılmağa Bucaxdan Məkkəyə gəlirmiş.

Bi dəfə honnan görüşə bilmir, geşkir. İntası sora honnan görüşüb dərdini söylüyür.

Tərkisalat Qasım honnan şərt kəsir. Gözünü yumsun, bi dəki, habu sırrı ölüncən heş kimə diməsin. Bucaxlı and içib, gözünü yumur. Gözünü açanda özünü Bucaxda görür. Heş kimə habu sırrı aşmır. Ho vaxdadəkki, Tərkisalat Qasım ölür. Tərkisalat Qasıma heş kim Qur’an oxumur. Ölüsü yerdə qalır. Bucaxlı tez özünü hora çatdırıb Qur’an oxumağa başdıyır. Camahat honu nəhlətdiyəndə ho olanı başdıyır danışmağa. Diyirki, habu adam pirdi. Heş kim honun kimi olammaz. Ho haburdan Məkkəyə namaz qılmağa gedirdi. Kaş, mən də honun kimi oleydım.

Habu sözdəri eşidən camahat donub qalır. Sora ho birsi mollalar da hona Qur’an oxumağa başdiyir **(S.195; T.30)**.

## DAŞDƏMİR ƏFƏNDİ

Günnərin bi günüsü Daşalda Ulu çay daşıb kəndi basıbmış. Daşdəmir əfəndi hasasını götrüb çayın içinnən yuxarı gidir. Hamı honu yolunnan döndərməh isdiyir. Hoysa dönmür. Çayın içinnən gedir. Hasasını yerə vurub: "Tufu kafır, qayıt öz yerinnən ax, maha nağarcısan, məlun?"- diyir.

Doordan da, su ho axarını dəyişib yatağına keçir.

Belə diyillər ki, Daşdəmir Əfəndinin ho hasası hazırda qohumlarında qalır **(S.66; T.30)**.

# HACI PƏNAHLA BAĞLI RƏVAYƏTLƏR

## TOY GECƏSİ

Günnərin bi günüsü Pənah öz əmisi oğlu Hazəl, bi dəki, kətçisiynən Ağdaşa toya çağrılır. Birrikdə yola düşüllər. Axşam toy olan yerə çatıllar. Ho vaxlar toylar iki gün olurdu. Holar da helə toyun birinci günü gəlmişdilər. Sifdə günü toy günortadan sora başdıyır, gecə camahat dağılıncan olurdu. Hindi də beləydi.

Holar yiyib-içir, toya tamaşa eliyir, oynuyurdular. Gecə yarsı görüllərki, toy camahatı yavaş-yavaş dağılışır, intası holarıı gecələməyə öyə aparan yoxdu. Kətçisi Pənahın qulağına diyir:

-Ay Pənah, diyəsən helə çöldə gecəliyəsi olceyih.

Bi az fikirrəşib Pənah dillənir:

-Ağlıma bi şey gəlib. Ya camahat bizi öyünə aparsın, ya daki haburda biznən səhəri aşsın. Ho toy bəyini yanna çağrır:

-Ay qardaş oğlu, biz qərib adamlarıx, bizə yol havası "Zorxana" çaldırsana.

-Ba ayıb sözdükün... - diyə toybəyi üzünü çalğıçılara tutub qışqırır:

-Ay usda, habu qonaxlara bi "Zorxana" çal görüm.

Hava çalınır. Pənah qolunu, qıçını çırmalıyıb düşür otraya. Bi dörə vurub tən ortada durub diyir:

-Qoçax kimdi, çıxsın meydana! Məə Pənah nəsli diyəllər. Döşünə döyən varsa, çıxsın qabağa! Ho sahat aşırıb əzrayıl kimi yapışım döşünə. Kimdi ho qoçax? Genə başdıyır gəzişməyə. İntası bi qoçax tapılmır.

Hannan-hana Hazəl əmioğlusu yavaş-yavaş yerinnən tərpənir. Qolqıçını çırmalıyıb yaxınnaşır hona. Sifdə qaydaya görə əl verib görüşür, addarını diyillər. Hazəl soruşur:

-Əmoğlu, başdıyaxmı?

Camahat helə bilirki, ho “əmioğlu“ sözünü helə-belə diyir.
-Yox, gəl, bi dörə vurax, sora.
Pənah düşür qabağa. Hazəl də arxasınca. Dörə başa çatan kimi Hazəl vax tapıb yaxşıca qolaylanıb Pənahın kürəyinin ortasınnan helə bi şapalax vurduki, çoxu qorxusunnan üzünü tutur. Tərəcə dalınnan baxan arvatdar qışqırışıllar. Camahat arasına pıçhapıç düşür.
-Hindi zalım uşağı dava eliycəh.
İntası Pənah heş halını da pozmur, dala çöyrülür, yavaşca soruşur:
-Əmoğlu, xeyir ola, nədi helə?
Heş helə-belə, kürəyinə milçəh qommuşdu. Hürkütmək isdiyirdim.
-Olan şeydi, əmoğlu, Ay ustad, niyə səsiiz gəlmir? Bi çalın görəh!
Habunu görənnən sora ustad zalım oğlunun ağzı nəydi, çalmıyaydı.
Camahat hələ özünə gəlməmişdi. Çalğıçılar başdıyıllar. Pənah soruşur:
-Ay əmoğlu, başdıyaxmı?
-Hara tələsirsən? Mənim gedəsi yerim yoxdu, səhərəcən burdayam. Gəl, bi dörə də vurax.
Hindi də Hazəl düşür qabağa. Çalğıçıların qabağına çatanda Pənah Hazəlin kürəyinə helə bi qapaz ilişdirirki, yalan olmasın səsi kəndə yayılır. Təzədən arvatdar qışqırışıllar. Səsə itdər də hürməyə başdıyır.
Hamı diyir:
-Daa habu zalım uşaxlarını ayırmax olmaz...
Hazəl başını qaldırır:
-Əmoğlu, ho nə səsiydi helə?
-Əşi, köpək oğlunun milçəyi əl çəkmiyib hindi də gəlib səən belua çıxmışdı honu...
-Öldürə bildinmi, barı?
-Diyəsən, hə.
-Ay sağ ol, əmoğlu. Hindi başdıya bilərikmi?
-Hə, başdamax olar. Ay ustad, sizə nə olub diyəsən yorulmusuz, çalın görək.
Hava təzdən çalınır. İki Muxasdı Ağdaşda başdıyır, nə başdıyır. Hamı tezədən axışıb gəlir. Tərəcələr də yaddan çıxır. Arvatdar da tamaşaya durullar. Oyun bir az davam eliyir.
Axırsı toy sahibiynən bi ağsakqal özdərini qabağa verib:
-Ay oğul, bəsdi, gecə çoxdan keçib, qalanını da səhər davam eliyərsiz, - diyillər.
Qocalar ortaya düşüb holarıgücnən ayırıllar. Hindi hamı holarıöyünə aparmax isdiyirdi. Gecələməyə yer tapbıyan üş kətdi düz bi həfdə horda qonax qalır. İmkanı olan holarıöyünə aparıb əlinnən gələn hörməti eliyir **(T.21)**.

## NAMƏLUM QONAQ
## (Hacı Pənahla bağlı ikinci rəvayət)

Diyillərki, cavannıxda Hacı Pənahın pəhlivanlığı bütün yaxın-yörə kətdərə yayılıbmış. Heş kəs honnan döş-döşə gələ bilmirmiş.

Yekə bədənni, ennikürək ucaboylu, gücdü habu cavanın səsi uzax kətdərə də gedib çıxıbmış. Bi dəfə axşamçağı kəndə bi nabələt adam gəlir. Pənahı soruşur.

-Ay qonax, hası Pənah? -diyə hona sualnan cavab verillər.

-Pəhlivan Pənahı diyirəm də!

-Xeyir ola, sən honu neynirsən?

Pəhlivan Pənah hara, sən hara?

Honnan güləşmək isdiyirəm.

-A kişi, səən hona gücün çatmaz. Honun yaanda səən nə bədənin var ki?

-Yox, mən habu boyda yolu basa-basa gəlmişəmki Pənahnan güləşim. Ayrı söz lazım döylü. Siz honu məə tanıdın, sorası ilə işiiz olmasın. Honu nə qədər dilə tutullarsa, sözünün üsdündə durub diyir:

-Yox, mən honnan güləşməliyəm.

Axırsı əcalsız qalıb honu Pənahgilə aparıllar. Pənah öydə olmur. Gözdüyüllərki, zəmidən qayıtsın.

Axırsı Pənah gəlib qonaxnan görüşür. Xoş-beşdən sora mətləb üsdünə gəlir, fikrini diyir. Pənah qonaxnan razılaşır:

-Səhər namazınnan sora meçitin yaanda hak-hesabı çürüdərik. Ho vaxda qədər camahat da toplaşar.

-Yox, gəl, hindi güləşək.

-A kişi, uzax yol gəlmisən, yorulmusan, gecə yat, dincuu al, səhər gedəh zəmilərimizə də tamaşa elə, sora güləşərik. Axı, axşamın xeyrinnən gündüzün şəri yaxşıdı.

Pənahın habu fikri qonağın ağlına batır. Razılaşır. Bi dəki, razılaşmıyıb nağayrasıydıki?

Honda Pənahın subay bacısı da öydə idi. Ho da qardaşınnan dala qalmazmış. İntası qolunun gücünə az adam bələdiydi.

Axşam surfaya gətirilənnən yiyib-içib yatıllar. Qonax yorğunuydu diyə daş kimi yatır. Bi də ayılıb görürkü, gün çıxıb. Ho geyinib-kecinir. Ha qulax verirki, öydən kişi səsi eşitsin, intası eşitmir.

-Ay bacı, bəs Pənah hanı?- diyə souruşur.

-Qardaşım səən çox gözdədi, gördükün şirin yuxudasan, qıymadı oyatmağa. Özü zəmiyə getdi. Didiki, qoy qonax yatsın, oyananda

yerimizi nişan verərsən,  gəlib tapar.

-Diməli, aradan çıxıb. Habı sözdər qızın xətrinə  dəyir. İntası özünü saxlıyır. Qonax zəminin səmtini öyrənir, getməh isdiyəndə çarıxlarını tapbır. Axırsı qızı çağırır:

-Ay bacı, bə məəm çarıxlarım hanı? Tapbıram.

-Bıy, başıma xeyir, ay qonax. Lap yadımnan çıxıb, habu qoşumuzun axmax iti var. Nə əlinə keşdi, aparır. Hodu, axşam qardaşım holarıgötürüb ho pərdinin altına qoyduki, it aparmasın. Səhər gedəndə də yadınnan çıxıb heş götürüb yerə qoymadı. Hodu ey, horda, al giyin.

Çarıxları horda görən kimi qonağın gözdəri çıxır kəlləsinə. Ho pərdinin altınnan çarıxları çıxartmax olar? - diyə fikirrəşir.

Nə başuuzu ağrıdım, qonax ha çalışır, ha əlləşir, intası pərdini tük qədər də tərpədə bilmir. Günortayacan qalır məhətdəl. Axırsı qıza yalvarmağa başdıyırki, qardaşını çağırtdırsın, gəlib honun çarıxlarını çıxarıb versin. Axırsı qız diyir:

-Qardaşım tapşırdıki, qonax durannan sora özü çarıxlarını götürüb gəlsin yanımıza. Neynəyim, genə qonaxsan da. Çarıxlarını verməyinə verim, intası qardaşıma mənim adımı verməyəsən ha.

Qonax inanmır. Qız ikiəlli güc verib pərdinin ucunu qaldırır. Habunu görən qonağın gözdəri təzədən çıxır kəlləsinə, özünü itirir. Qız qışqırır:

-Ədə, mitil oğlu, mitil, tez ol, götür çarıxlarını. Yoxsa...

Qonax tez çarıxlarının pərdinin altınnan çıxardıb bir qıza baxır, bir çarıxlara, bir də özünə. Nə çarıxlarda çarıx abrı, nə də qonaxda qonax abrı qalmışdı. Habunnan sora yüz il qala ho çarıxlardan çarıx olmazdı. Zarafat döylü, damın ağırrığı üsdünə düşmüşdü. Qonax bitəər holarıayaxlarına keçirib suyu süzülə-süzülə həyətdən çıxır. Honu bi daha gördüm diyən olmur, ho gedən olur **(T.21)**.

## DƏRRAKƏ
## (Hacı Pənahla bağlı üçüncü rəvayət)

Daşalçay Muxas kəndinin yanınan keçir. Dəli çaydı. Sel gələndə helə qudururki, nəriltisinnən dağ-daş tərpənir, qulax tutulur. Qocalar diyirki, Daşalçay quduranda gözdər görməsin.

Keşmişdə habu çay Muxasdıları qorxudub.

Genə də günnərin bi günüsü Daşalçayın dəliliyi tutur, yolu pis hala salır. Hamı yolu düzəltməyə çıxır. Hacı Pənah da holarınn içindəymiş. İş qızışır.

Hacı Pənah görürki,  honnan bi az aralı camahat yığışıb  ot tayası boyda olan bi daşı yerinnən tərpədə bilmillər. Ho da hora gedir.

-Ay uşaq, qırağa çəkilin!

Hacı Pənah baxıb görürki, daşı tərpətmək çətindi. Gülür, diyir:

-Ə, nə qarışqa kimi tökülmüsüz daşın üsdünə. Ə, gedin işizi görün. Nə var honda, özüm çıxarıp ataram honu.

Kimisi diyir: Habu kişi ağlını itirip. Habu dəyqə dəlliyə salıf qarnını cıracax.

Kimisi də diyir:

-Habu bizi ələ salır. Habu qədər camahatdan gücdü olceh?

Hacı Pənah camahata diyir:

-Gedin, bir araba odun gətirin!

Camahat bir şey qammır. İntası bi araba odun gətirillər. Hacı Pənah habu odunu ho daşın üsdünə tökdürüb böyük tonqal qalatdırır. Daş qıpqırmızı qızaranda honun üsdünə su töküllər. Daş parça-parça olur. Yol da salıllar. Hamı honun ağlına "bərəkallah" diyir **(T.21)**.

## HACI PƏNAHIN ŞAMXAL NƏVƏSİ

Diyillərki, Pənah kişi Muxasın yannan keçən Daşalı yolunun qırağında bi calğalıx salıb, hoyuz düzətmişdi.

Yayda habrdan keçənnər, çobannar, hoyüzün suyunnan içir, tutdan yiyib, kölgələnir, hona rəhmət oxuyurdular. Hacı Pənahın oğlu Əkbər də atasınnan dala qalmazdı. Gücü də ho gücüymüş. Ho vaxlar kət camahatı payızda kəl arabasıynan Şəkiyə odun doldurub, honun oxunun bi ucunnan tutub yuxarı qaldırarmış.

Qaldıra bilmədisə, diyərmiş:

-Odunu boşaltmax lazımdı, kəllərin gücü çatmiyceh...

Dədə-babalarımız aşı əlnən (şapalaxnan) yiyillərmiş. Hindi də belələri var. Axır vaxlar kətdə bi məsəl işlədillər:

-Məə bi şapalax ver, Əkbər əminin şapalağıynan olsun.

Hacı Pənahın nəvələrinnən birsi Şamxal kişi olub.

Diyllərki, Səmədabat həkərat yerinin qırağınnan yol keçirmiş. Ho həkərat yerinin ortasında yekə qoax ağacı varmış. Habu ağac şum, səpin, biçin vaxdı iş görməyə qoymurmuş.

Diyillərki, habu qoaxdan yaxşı bi nov çıxar. İntası habu qoağı ya bi günə, ya da bi həfdəyə kəsə bilmiycihlər.

Honda Şamxal kişini çağırıllar. Hamı hoon gücünə inanırdı.

-Şamxal, ho qoağı yıxa bilərsən?

Şamxal diyir:

-Honu yıxmağa nə varki?

Bi gün börü üsdə qoyaram.

Gecdənnən Şamxal kişi qollarını çırmalayıb baltasını da alır əlinə.

Gün əyiləndə ağacı yıxır.
Hona bi araba buğda verillər **(T.21)**.

## ŞAH ABBASIN ÖLÜMÜ

Günnərin bi günüsü Şah Abbas ölür. İntası honu basdıra bilmillər. Əli açıx qalır. Kətbəkət, şəhərbəşəhər gəzdirillər, genə əli yumulmurki, yumulmur.

Axırsı honu bi bilicidən soruşullar. Bilici diyirki, habunun dərdi nədiki, həblə gəzdirirsiz?

Holar da diyirki, basdırmax isdiyirik, honun əli yumulmurki, yumulmur.

Honda ho bilici diyirki, alın habu torpağı tökün hoon əlinə.

Torpağı honun əlinə tökən kimi əli yumulur. Aparıb basdırıllar. Hona görə də diyillər:

-Adamda heylə nəxunəklik varki, honun gözünü ancax torpax doydurar **(S.195; T.30)**.

## ŞAH ABBASLA ŞEYX SALBIZ BABA

Günnərin bi günüsü Şah Abbas Şeyx Şalbız babanı axdarır. Deməginən Şeyx Şalbız baba da yol qırağında dayanıbmış.

Şah Abbas Şeyx Şalbız babanı soruşur. Şeyx Şalbız baba cavab verir:

-Tanı, mənəm, bil mənəm, bu mənəm. Özgədisə, diyirki, bilmənəm.

Üş kəndə gedir. Şeyx Şalbız baba diyirki, Şah oğlu Şah Abbas məni tanımadı **(S.2; T.30)**.

***

Şeyx Şalbız baba kəndə gedir. Bir inəyi gösdərip diyir, inəyi bura gətirin, diyirki u inəyin qabağı təpəldi, sən də deginən qabağı təpəl döyül, özü təpəldi, alnındadı. Diyip qeyb olur gedir. Diyirki, mən də söylüyümki bu heyvanın əlində bala var, qabağında təpəl var. Uun təpəli qabağındadı, yoxsa ki quyruğundadı?!

Diyirki, şah oğlu Şah Abbas sağ olsun, diyir quyruğu təpəldi, qabağında qaşqası yox - diyip inəyi çəkir **(S.2; T.30).**

## NAR ƏHVALATI

Məhəmməd Qacar dörü olupdu. Şah Abbas bir adama rasd olub yol gedirmiş. Başqa bir yerə gedirmiş. Eşidipki orda nar bağları var, bi dənə nar sıxanda kasa dolar. Belə şey olar, bi dənə narnan kasa dolar? Bunu yoxlamağı qərara alır. Yola düşür. Bi adama rasd olur. Diyirki,

yol gedirəm. U adam diyir:

-Məə qonax olarsan?

U diyir:

-Üç şərtim var.

Gəlir una qonax olur. Diyirki, nədi şərtin?

Diyipdi:

-Sən isdiyip mən isdəmiyəni mən olan yerə gətirmə, bu birinci şərtim, ikincisi məni dusdax eləmə, üçüncüsü məə zəhər vermə. Bu şərtlərə qulax asırsansa, səə qonax olaram.

Diyirki:

-Qonağa da zəhər verəllər?

Diyirki:

-Bəlkə də.

Əl-üzünü yuyup uşağı alır qucağına öy yəəsi. Şah Abbasın da uşaxdan zəhləsi gedirdi.

Diyirki:

-Yaxşı eliyirsən.

Öy yəəsi başa düşür.

Sora Allah verənnən ortalığa qoyullar. Öy yəəsi Şah Abbasa yihayi diyip məcbur eliyir.

Diyirki:

-Ay kişi, mən səə dimədim ki, məə zəhər vermə. Yidiyimi yimişəm. Lazım olsa, burdadı da. Öy yəəsi diyirki, dünya dağıla səni qoymaram. Bizdə qalcısan. Şah Abbas diyirki, mən didimki, məni dusdax eləmə.

Durur düşür yola. Dəyammır. Görürkü böyük bir kətdir. Yoldan keçənə su verillər. Təklif eliyirki,  məə də nar suyunu sıx ver.

Diyirki, mən diyən şey oldu. Gedir çıxır bazara. Bazarda qoca qarıya yanaşır. Qoca nənəyə diyir:

-Nənə, məni tarı qonağı saxla.

Diyir:

-Sən nə millətsən, nə cinsan, bilmirəm. Qur'an bilirsən? Müsürmansan, başqa aləmsən?

Didi:

-Nənə, mən müsürmanam.

Salavat çöyürür. Diyir:

-Oğul, mən də seyidəm.

Bu bunu götürüp gedir. Orda qonax olur. Axşam Allah verənnən yiyip-içir, bi dənə nar gətirir, bi dənə də kasa gətirir. Sıxır nardan, iki xörək qaşığı su çıxır. Nə qədər sıxır, olmur. Nəsə. Beşini gətirir.

Beşinnən yarım kasa su çıxır.

Diyir:

-Mən nə təər ağırayax adamam ki, nardan su çıxmır.

Sora yatanda fikirrəşirki burda nəsə ayrı bir məsələ var. Gecə yatır, diyirki sabah açılanda namaz qılcam, orda o sözdəri diycəm.

Sabah açılır, dəsdəmaz alıllar. Nənəyə diyirki, sən imam dur. Mən də sənnən namaz qılcam. Nənə diyir:

-Bax, oğul mən 80 yaşında adamam. Seyidəm. Arvatdan imam olmaz. Sən nolar cavan olanda, gəl, sən imam dur.

Diyirki, mən sənnən qabağa keçəmmərəm.

Böyründə durur, kisi də, namaz qılıllar. Duva eliyir, təsbeh çöyürür, salavat çöyürüllər.

-Nənə, sən bir-bir say, mən diycəm.

Nənə soruşur:

-Nə sayım?

-Təsbehi. Qırx dəfə nənənin namaz paltarının üstündə töbə eliyirəm. Qırx olanda məə dinən.

Diyir:

-Oğul, bunun mənası nədi?

Diyir:

-Bunun mənasını yolda diycəm.

Nənə diyir:

-Kafir paçcah nə fikirrəşdisə, narın suyu qəhətə çıxdı.

Yolda buna diyir:

-Məni bağışda, nənə, kafir paçcah mənəm. Kafir paçcahdan paçcah olmaz. Mən bu narın suyuna görə gəlmişdim (Yoxlamax üçün). Mən səənin namaz paltaruun üsdündə qırx dəfə "əstəğfürüllah" diyip bu şeydən keçdim. Nənə, indi bir narı sıxsan, bir kasa dolarmı?

Nənə Şah Abbasa diyir:

-Oğul, sənki Allaha ürəyuu verip "əstəğfürüllah" eləmisənsə, çıxar.

Yeddi dəfə "əstəğfürüllah" eliyə-eliyə gedip bir yerə çıxır **(S.7; T.30).**

## PƏHLƏVAN İSƏNİN ƏRƏB PƏHLƏVANINA QALİB GƏLMƏSİ

İsə kişi öz alver yoldaşı qəssab Şirəli ilə Dəhnə kəndindən aldıqları qoyunları Şəkiyə aparırdılar. İsə kişi yaşlaşdığından qoyunların qabağında, Şirəli isə sürünün arxası ilə gedidi. İsə kişi arabir çiynindəki kaval kürkü qolunun üstünə alır, bir qədər getdikdən sonra çiyninə salırdı. Kürk uzun, həm ağır olduğuna görə onun yeriməsinə mane olurdu.

İsə kişi yaşlansa da əndamlı, boylu-buxunlu adam idi. Onu şəhərdə pəhləvan İsə kimi tanıyırdılar.

İsə kişigil Göybulaq kəndinin qabağında dincəlməli idilər.

Günortaya yaxın Göybulaq kəndinə çatdılar. Kəndin qabağında meydanda nağara-zurna çalınır, camaat oraya toplaşırdı.

İsə kişigil qoyunları otlağa buraxıb yemək yeyirlər. İsə kişi kavalın üstündə uzanmışdı. Şirəli isə onun yanında diz çöküb oturmuşdu.

Şirəli cavan idi. Çalğı ilə çox maraqlandığından İsə kişidən icazə alıb, camaat yığıldığı yerə gedir.

Şirəli nağara-zurna çalınan yerə yaxınlaşanda görür ki, mərəkədən bir az kənarda xeyli dəvə yatıb. Camaat dövrə vurub dayanmışdı, ortaya isə bir nəfər ərəb güləşməyə adam istəyir.

Arşaq adlı bir nəfər güləşməyə girir. Ərəb bi su içimində rəqibini yerə vurur.

Şirəli burda çox dayana bilməzdi. Çünki yaşlı bi kişiyə qoyun tapşırmışdı. Qoyunlar birdən uzaqlaşsa, İsə kişinin qoyun qaytarması ayıb olardı. Şirəli qayıdıb İsə kişinin yanına çatanda, gördü ki, İsə kişi mürgüləyir. Qoyunlar da yaxınlıqda yatışıb. Şirəlinin ayaq səsinə İsə kişi gözünü açıb soruşur:

-Nə nağara-zurnasıdı? Toydumu?

Şirəli gördüklərini söyləyib təəccüblə deyir:

-Arşaq kişi meydana girən kimi, ərəb onu elə yerə çaxdı ki, yazıq çətinliklə yerindən durub, ortadan çıxdı.

İsə kişi bir qədər fikrə getdi və dedi:

-Bəs indi nə edirlər? Niyə tez gəldin? Qoyundan narahat olma, get tamaşa elə, mən də tamaşaya gəlirəm.

Şirəli bir daha mərəkəyə yaxınlaşır. Bunun dalısı ilə də İsə kişi kavalını çiyninə alıb, ağır-ağır addımlarla mərəkəyə çatır.

Ərəb ortada əl-qolunu oynadır, iki putluq daşları qaldırır, atır-tutur. Ara bir də meydanda fırlana-fırlana deyir:

-Siz əlixınalı, gözü sürməli Şəkililərsiniz. Bu meydana girməyə kişi gərəkdi, sizdə meydana girə bilən adam olmaz.

Ərəbin sözləri şəkililər üçün təhqir idi. Əli xınalı, gözü sürməli şəkililərsooz sözü hamınız, kişiləriniz də arvad kimi adamlardı demək idi.

Bu sözləri eşidən İsə kişi kürkünün içində qurcalandı, elə bil ki, nəfəsi təngləşdi.

İsə kişi yavaşca ayağa qalxıb, kürkünü Şirəliyə verdi, dedi:

-Kürkü bürgələ, üstündə otur.

Şirəli kürkü götürdü, heç bir şey hiss eləmədi. İsə kişi camaatı yara-yara meydana girdi və dedi:

-Ə... Ərəb, Şəkiyə xoş gəlmisən.
Əl tutub görüşdülər.
İsə kişi:
-Ərəb, mənim əlimdə xına, gözümdə sürmə varmı? Niyə heylə sözlər danışırsan? Axı sənin sözlərin kişilərin xətrinə dəyər.
Ərəb:
Sözlərim xətrinə dəyən adam varsa, qoy çıxsın meydana, mənimlə qurşax tutsun.
İsə kişi:
-Müftə yerə kim durub səninlə güləşəcək? Güləşmək üçün şərt lazımdı.
Ərəb:
-Şərt, (dəvələri göstərərək) bax, o nəri görürsən, o mənimdi. Kim məni yıxa bilsə, nər dəvəni yükü ilə birlikdə ona verəcəm. Bu da mənim şərtim. Başqa şərti olan varsa, çıxsın meydana.
İsə kişi barmağı ilə qoyunları göstərərək deyir:
-Bax o qoyunlar da mənimdi. Əyər sən məni yıxa bilsən, o sürünü sənə verəcəm.
İsə kişi özlüyündə çox böyük risqə getmişdi. O çox kasıb dolanırdı. Şirəlinin atası qəssab Vahabla cavanlıq dostu idi. Qəssab Vahab dosdunun əliaşağı olduğunu bilib, onu oğlu Şirəli ilə ortaq etmişdi.
İlin yaz fəsli olduğuna görə qəssablar gedib, ordan-burdan qoyun tapırdılar. İsə kişinin həmin qoyunda bir qəpik də olsun pulu yox idi. Birdən yıxılsa nə olar?... Nə isə, ərəbin sözlərini götürməmək üçün risq edirdi.
Ərəb İsə kişinin ağarmış saqqalına, talxımış üz-gözünə baxıb, əlini uzatdı və dedi:
-Mən də razı. Orada neçə heyvan var?
İsə kişi:
-31 heyvandı, - dedi.
Mərəkəyə yaxınlaşanlardan, ərəblərdən şahidlər də tutdular. Razılaşmadan sonra İsə kişi meydana çıxıb, bir tərəfdə soyundu, paltarlarını Şirəliyə tapşırıb meydana girdi.
Ərəb cavan idi. Meydanda hərəkət etdiyinə görə əzələləri bir qədər də şişmişdi. Onun bədəni bürüncdən tökülmüş heykələ bənzəyirdi.
İsə kişi isə yaşlaşmış adam idi, əzələləri artıq sallanmış vəziyyətdə dururdu. İsə kişi adəti üzrə bir neçə dəfə dövrə vurub, ərəblə qabaq-qabağa gəldi. Ərəb elə bil ki, rəqibini yıxmağa tələsirdi, çox çevik hərəkətlər edirdi.
İsə kişi ərəbi necə tutmuşdusa elə də dayanmışdı, heç yerindən tərpənmirdi. İsə kişi, birdən ərəbi dala-qabağa silkələyib çiyninə qal-

dırıb yerə vurdu. Əlini ərəbin sinəsinin üstünə qoyub bir qədər saxladıqdan sonra buraxdı. Ərəb yıxıldığı yerdən dura bilmədi. Dostları gəlib onu qaldırdılar.

İsə kişi:

-Ərəb necəsən?! Əli xınalının əlinin dadını gördün?

Ərəb:

-İlahi, ruzi cəza, bunda pələng gücü var, - dedi.

Mərəkədəki camaatın hamısı əl çalır, İsə kişiyə xeyir-dua eləyirdilər. Şəhərdən olan bir nəfər meydana çıxıb:

-Balvanı yemişəm ürəyimdə yağdı-yağ,

Pəhlivan İsə dalımızda dağdı-dağ - deyib, bir oyun havası çaldırıb oynayır.

Göybulaqlılardan kimisi İsə kişini evə dəvət edir, kimisi xonça düzəldib gətirir, bir başqası da yəhərlənmiş at gətirib deyirdi:

-Usta, piyada getmə, bu atla get, mən gəlib şəhərdən qaytararam.

İsə kişi razılıq edib heç nə götürmədi. Nəhayət, İsə kişi ərəbə dedi:

-Ərəb, dəvəni yüklə.

Ərəb sözünə xilaf olmur. Yoldaşları ilə dəvəni yükləyirlər. İsə kişini oturdurlar dəvənin üstündə.

Ərəblər vəziyyətdən çıxmaq üçün qoyunları özləri aparacaqlarını da öhdələrinə götürürlər. Şirəlini də başqa bir dəvəyə. İsə kişi dəvəsilə qabaqda, onun arxası ilə qoyun sürüsü, bunlardan da sonra o biri dəvələr şəhərə doğru yola düzəlir. Şəhərin kənarına çatanda ərəblər burada gecələyib, səhər tezdən şəhərə gəlmək istədiklərini bildirirlər. Artıq qaranlıq idi. İsə kişi yıxılan ərəbə:

-Sən qoyunları evə qədər aparmağa kömək eliyərsənmi? Gecəni də bizdə qalarsan, səhərsi yoldaşlarının yanına qayıdarsan. Ərəb razılaşır.

İsə kişi gecə ərəbi evində qonaq saxlayır. Səhər açılanda dəvəni yüklədir, birlikdə gəlib ərəbin dostlarını tapırlar. İsə kişi dəvənin ipini ərəbə verib, deyir:

-Al, bu sənin dəvən, o da üstündə yükü. Bura Şəki şəhəridi, şəkililər gələn qonağın malına göz tikməzlər. Nə ola gələn qonaq da danışığına fikir verə. Bir də Şəki, şəkili haqda bilmədiyin sözləri danışmıyasan.

Ərəb xəcalətindən başını aşağı salır. O, İsə kişinin əlindən, üzündən öpüb, üzr istəyir, sevindiyindən nə edəcəyini bilmir.

Ərəb kimi hərəkət edənlərə Şəkidə belə bir misal deyirlər:

Özüm-özümə elədim,

Külü gözümə elədim.

Başıma gələn bəlanın səbəbkarı özüməm.

Ayağı sürüşən yıxılıb durar, amma dili sürüşən yıxılsa qalxa bilməz

**(S.118; T.47).**

## BORCUNU VER, BORCUNU AL

(Baş Daşağıllı Hacı Novruz haqqında)

Daşalda Hacı Novruz baba varmış. Çox əliaçıxmış. Hamıya yaxşılıx iliyirmiş.

Günnərin bi günüsü Paşa addı bi kətdi honun yanna borca gəlir.

Hacı Nörüz də çox pulluymuş. Ho Paşaya diyir:

-Get, ho taxdakı döşəyin altındadı.

Paşa da gelib pulu götürüb gedir.

Habu iş neçə dönə olur. Hacı Nörüz habu adamın üzdülüyünü görüb pulu yeşirir.

Paşa genə gəlir. Hacı Nörüz habu adama genə taxdı gösdərir. Paşa döşəyi qaldırıb pulu görmür. Habunu Hacı Nörüzə diyir. Hacı Nörüz də hona diyir:

Alduğuu qoymusanki, axdarırsan. Borcuu ver, borcuu al **(S.186; T.30)**.

## HACI NOVRUZ HAQQINDA İKİNCİ RƏVAYƏT

Nörüz baba Daşalda çox hürmətdi adam idi. Çox da əliaçıx idi.

Günnərin bi günüsü Norüz babanın qapısına dilənçi gəlir. Norüz babanın arvadı düyü dəninə baxıf axşama bişirəcəyi yeməh hakqında fikirrəşir. Norüz baba arvadına diyir ki, diləniçiyə hay ver, yola sal getsin. Arvat öydə dilənçiyə veriləsi şeyin olmadığını diyir:

Nörüz baba arvadına tapşırırki, düyünü versin. Arvat düyünü dilənçiyə verib yola salır.

Sora Allah-Taala əvəzində hona yetirir. Bi nəfər Nörüz babaya yimək bişirmək üçün lazım olan şeyləri gətrib dua oxudur **(T.43)**.

***

Günnərin bi günüsü bi nəfər Nörüz babaya baxıb fiuirrəşir:

-Nörüz babanın nə qara sakqalı var. İntası bi az uzundu.

Nörüz baba ho adamın ürəyini oxuyur. Hona diyir:

-Xaxın dərdini çəkib fikirrəşincən, öz dərdini çək **(T.43)**.

## OSMAN ƏFƏNDİ

Osman əfəndi Hacı Musdafa əfəndinin atası olub.

Deyillərki, Hacı Musdafa əfəndinin camışını oğru töylədə açanda, əli camışın boynunda donup qalır.

Arvat gidip camışı sağanda, görür ki, töylədə kimiysə var. Çaparax Osman əfəndiyə xəbər verir. Osman əfəndi oğrunun başını, belini oxalayıp duva oxuyur. Oğrunu yumşaldır. Öyə dəvət eliyir, yedirip, içirdir, yola salır. Oğru öz əməlindən, xacalatınnan öyə çatıncax ölür **(T.43)**.

## ŞAH ABBASIN ELMLƏNMƏSİ

Diyillərki bir öv variymiş. Həmmeşə fırranıymış. Özü də övün barıları tilsimlərlə yazılı oliy. Möggəm fırrandığınnan yazıları oxumağ olmiymiş. Öv ildə bir dəfə bir dəyqalıx dayanıymış. Ho dayqa da bariya bir şey basmalısanki yazı hora düşsün. Ancax gərək yazı bütöy düşsün ki, oxuna bilsin. Heş kəsə yazı bütöy düşmiymiş.

Bir gün Şah Abbas hora gəliy. Baxdına yazı bütöy düşiy. Şah oxuyi, göriyki elə bir tilsimdi ki, honu oxuyanda öv dayaniy.

Hamı gidannan sora Şah Abbas tilsimi oxuyi, öy dayaniy. İçindəki tilsimləri örgəndikdən sora Şah Abbas oliy elm dəryası. Da heş kəs hona çata bilmiyi **(S.201; T.31)**.

## QAÇAQLAR HAQQINDA RƏVAYƏT

Qaçaq Tapdıq - Oğuz rayonunun Muxas kəndindəndir.

Hu vaxlar Tapdıx kət sovetiydi. Günnərin bi günüsü hoların öyünə qərib yerdən qonax gəlir.

Qaçax Tapdıx anasına diyirki gecə yatanda qardaşının yerini qonaxnan bir salmasın. Özünü də harayasa çağırırlar. Tapdığın qardaşı anasını məcbur eliyirki, yerini qonaxnan bir yerdə salsın.

Ana məcbur olub honun didiyini yerinə yetirir. Gecə Tapdığın qardaşı yerinnən durub qonağın başını kəsir, honu təzəyin içində basdırır. Özüysə qonağın pullarını oğurruyub qaçır. Habu əhvalatdan sora güllələnəcəyini başa düşən Tapdıx qaçax düşür **(S.195; T.30)**.

***

Oğuz rayonunun Qaçaq İsa Ərmənət-Qışlax kəndində Sovet hakimiyyəti yeni qurulduğu vaxtlar bir qrup adam Sovet hakimiyyətini dağıtmağa çalışırdı. Çox yerləri viran qoymuşdular. İsa da kət sovetiydi. Hona gəlib didilərki hər şeyi səən üsdünə atacaxlar, səən öldürcehlər. Ho da qorxudan qaçax düşdü.

Qaçaq Baxış - Nikolay hökuməti vaxdında qaçax oluf. Qəbir daşdarı gətizdirib **(S.195; T.30)**.

***

Diyillərki u vaxlar çəltik əkillərdi. Çəltiyə su lazımdı. Suya da suçu

lazımdı. Su üsdündə adamlar bir-birlərini öldürəllərdi.

Muxas kəndində Tapdıx suçuydu. Həmən döördə bulara diyillərki, bizə qoşulmasaaz, sizi öldürcüyüh. O cümlədən İsa da, Tapdıx da, oların yoldaşları da, çox adam olur, Şəki tərəfdən, bizim tərəfdən də bu Bilal olur. Gəlir bu İsagil də. Sovet qoşunnarı onnarı, həmin dəsdəni məhv eliyir.

Tapdıxnan İsa, Şəki tərəfdən də 10-15 nəfər bandit kimi meşəyə qaçır.

Tapdıxnan İsa 11 il banditdik eliyir.

Qış vaxdı Oravanda (Şəki rayonunda kənd) bir qarının öyündə gizlənirlər. Yerlərini xəbər vermişdilər diyənə oranı mühasirəyə alıp həmin binanı yandırıp oları orda öldürüllər.

Ayrı bir qaçax da varmış. Əsli Dağıstannı, Mazalı Qaçax Şərif. U vax irmiminçilər göndərirmişlərki, hər yerdə yenilik eləsinnər. Bu vax Nəcəf addı bir nəfər kənt soveti olur. Padarda, Kərimlidə (Oğuzda kənd adları) ərləri tutulmuş, öldürülmüş adamların öylərinə gedip qonaxlıx təşkil eliyip qızdarına, arvatdarına, bacılarına sataşıllarmış. O cümlədən, bi dəsdə; bir nəfər Kərimlidən olur, bir nəfər Padardan olur, bir nəfər bu Nəcəf olur. Buların u vaxdı milsonerləri də olurdu. Yeddi adam olullar. Gedillər Mollalıya. Mollalıdan Hacı Eyyub babanı tutullar.

U vax NKVD-yə çağırıllar.

Babanı orda daldan atıp öldürüllər. Bəhanə də bu olmuşdu. Ona dimişdilərki (əsil bəhanə onun varrı olduğuna görə) get qaynataa gətir, u da gətirməmişdi, özü gəlmişdi. Şərif xəbər eliyirki namussuzlux eliyip, sizi məhv edərəm. Bular Şərifin xəbərdarlığını veclərinə qoymullar. Gedillər Mollalı kəndində bi qonaxlıx təşkil eliyillər. Bu qonaxlıxda bu öyün qızını soyundurup əl çalıp oynadıllar. Bu Şərif bilir ki, burda qız var. Əlində mouzer, girir içəri. Bular tüfəngə əl atınca bu tərpənir. Qıza diyir çıx. Qız çıxır balqona. Balqona çıxan kimi yaandakı oğlana didi, at.

Yaandakı bandit atır. Diyir:

-Kəlağayını da götür sal üsdünə. Kəlağayını götürüp salıllar.

-Buları da qol-qola bağlıyın hamsını.

Kimi diyir öy yandırıplar, kimi diyir adam öldürüplər.

Oların üsdünə od tökür, üsdünə də nöyüt tökür, yandırır **(S.46; T.30)**.

## AY NİYƏ PARÇALANMADI

Bir vaxt ay göydə iki parça olub, yerə düşmək istəyib. Camaat onu

tutmax istəyəndə Məhəmməd peyğəmbər deyib ki, siz onu tuta bilməzsiz, dala durun. Özü isə ayın altına keçib deyir: - “Bismillahi-rəhmanir-rəhim! Aşhadu anna, lailahə illallah! Va aşhadu anna Muhammadan rəsulillah“. Bu sözləri deyib qurtaran kimi ay birləşib öz yerini tutdu **(S.168; T.22)**.

## BU GÜNAHINDAN KEÇMƏZLƏR

Bir dəfə Məhəmməd peyğəmbər öz əshabələri ilə Məkkə məscidində namaz qılırmış. Əshabələrdən birisi peyğəmbərə xəbər verir ki, çöldə məscid qapısının yanında bir qarı oturub ağlayır. Peyğəmbər onu içəri dəvət edir.

-Nə dərdin var, qarı? - deyə ona müraciət edir.

-100 illik ömrümdə həmişə körpə uşaqları tutub dustaq eləmişəm - dedi qarı, - sonra onları satıb çörək pulu qazanmışam. Mənim günahım keçilməzdir, eləmi?

Peyğəmbər deyir:

-Qarı nənə, mən elə bildim ki, sən ilkindi namazını gec qılmısan. Sənin əvvəlki günahından bəlkə keçərlər, ikinci günahından isə yox **(S.168; T.22)**.

## HALALLIQLA BAĞLI RƏVAYƏTLƏR

Bi günüsü bi cavan həkarat yerinin yanınnan keçirmiş. Taxıl honun xoşuna gəlmişdi diyənə hordan beş sünbülü qoparıp öyə gətirir, dənələrini çıxarıp əkir.

Dənələrdən xeylax sünbül əmələ gəlir. Bi daqqa taxılı olur.

Günnərin bi günüsü atasına diyirki, ata, gəl habu taxılı əkək.

Atası diyir:

-Yox, oğul, habu taxıl halallıxnan döylü. Habunu əkmək olmaz.

Gedək peyğəmbərdən soruşax. Honnar peyğəmbərdən habu taxılı əkməyin mümkün olmasını soruşullar. Peyğəmbər diyirki, habu oğlan gedip beş dənə sünbülü qopartdığı həkarat yerinin yəəsinnən halallıx alsın.

Holar qayıdıllar. Oğlan həkarat yerinin yəəsinə əhvalatı söylüyür.

Həkarat yerinin yəəsi diyir:

-Ək, məəm beş sümbülümü qaytar. Qalannarını işdət, əziyyət çəkmisən.

Holar dala qayıdıb öz həkarat yerlərinə taxıl dənələrini səpillər. Taxıl yetişir. Beş dənə sünbülü yəəsinə verib qalannarını da halal-

lıxnan yiyib-içillər **(S.28; T.30)**.

## HALALLIQLA BAĞLI İKİNCİ RƏVAYƏT

Günnərin bi günüsü bi kişi ölür. Camahat nə qədər eliyirsə, habu kişini yerdən götürə bilmillər. Habunun səbəbini arvatdan soruşullar. Arvad diyir:

-Ho mənə sağlığında bi siggə boşduydu. Mən halallıx vermirəm diyənə həblədi.

Nə qədər dil tököllərsə, arvat halallıx vermir ki, vermir. Siggə də söz verillər. Genə ho razı olmur. Honda peyğəmbər arvada diyirki, hələlik habu əbamı götür, siggəni verəndə, qaytararsan.

Arvat razı olub halallıx verir. Arvat halallıx verən kimi kişini basdırıllar. Peyğəmbər habu vax arvada diyir:

-Səni görüm bütün günü işdiyib kisbüvə çatmiyəsan.

Ho vaxdan arvatdar gejdənnən axşamadək işdiyir, intası heş bir qazaşdarı olmur **(S.28; T.30)**.

## YAŞ KƏSƏNİN, BAŞ KƏSƏNİN, DAŞ KƏSƏNİN KİSBİ ARTMASIN

Bi usda varmış. Gününü daş kəsib öy tikməhnən keçirirmiş. Bi gün də daş kəsməh isdiyəndə qabağına bir bərk daş çıxır, bölümmürki, bölümmür. Bitəər daşı ortadan bölür. Görürki, ortasında bir qarışqa var, bi dənə də buğda. Qarışqa buğdanın yarsını yiyib.

Üzünü Allah-Taalaya tutub diyir:

-Ya rəbbim, sən habu heyvanı ac qoymamısan, məni də ac qoymazsan.

Gör, mən nə qədər günah işdətmişəm.

Ho günnən ho usda daş kəsməyi tərgidir.

Peyğəmbər holara qarğış eliyib. Hoların nə pulu artmaz, nə kutarmaz. Nə də ho pulnan döylət artmaz. Axı daş da cannıdır. Honun da ruhu var, küsə bilər.

Hona görə peyğəmbər diyib:

-Yaş kəsənin, baş kəsənin, daş kəsənin kisbi artmasın, hona görəki, honnar günah işdədillər **(S.195; T.30)**.

## SÜLEYMAN PEYĞƏMBƏR HAQQINDA

Dünyada bi dənə peyğəmbər quş dili bilirmiş. Bi günüsü Süleyman

peyğəmbər yolnan gedirmiş. Atın belində arvat-uşağı, özü də qantarğadan tutub gedir, daldan da dayça gəlir.

Biddən Süleyman peyğəmbəri gülmək tutur. Arvadı soruşurki, niyə gülürsən?

Süleyman peyğəmbər diyir:

-Dayça diyirki, ay ana, yavaş get, mən də səə çatım.

At da diyirki, ay bala nətəər olurki, mən üçü belimdə biri qarnımda gedə bilirəm, sən tək canınnan gələ bilmirsən?!

(Yəni belində peyğəmbərin hamilə arvadı, qucağında uşağı, bir də özünün hələ dünyaya gəlməmiş balası) **(S.195; T.30)**.

## NUH PEYĞƏMBƏR HAQQINDA

Aləmi su basıbbış. Bi dənə Nuh peyğəmbərin gəmisi yuxarıda qalır. Dağları da su basır. Hamı ölür. Təkcə Nuhun gəmisinə minən adamlar sağ qalır. Nuh peyğəmbər hər heyvannan bi ərkək, bi dişi götürüb qoyur gəmiyə...

Bi günüsü gəmini kəsəyən deşib içinə su doldurur. Nuh peyğəmbər diyirki, kim habu deşiyi tuta bilər?

İlan diyir:

-Mən. Bi şərtnən, habu deşiyi tuta bilərəm.

Nuh peyğəmbər ilana adam əti boyun olur. İlan qıvrılıb deşiyi tutur. Holar salamat qalır. Nuh peyğəmbər diyiki, səə həndi adam əti verə bilmiycəm. Adamlar ölüb kutarıb. Azdı.

İntası səə helə şey verirəmki, adamlar sənnən qorxacaxlar – zəhim, zəhər **(S.195; T.30)**.

## KİŞİ İLƏ AZRAYIL

Bir kişi variymiş. Ömründə çurəgi tək yeməzmiş. Bir qun bir kişidən soruşiy:

-A qardaş, sən kimsən? Gedax mənnən çurəq yiyax.

Yolçu diyi:

-Mən Allaham.

Kişi diyi:

-Yox, onda sənnən çurəq kəsmirəm. Çünki sən adamlar arasında fərq qoymusan: birini varrı, birini kasıb eliyisən.

Söz Allahın xoşuna gəliy. Azreyilə diyi:

-Get hoynən çurəq yi.

Azreyil gəliy kişinin övünə. Kişi kimlığını soruşıy. Biləndə ki, o

Azreyıldı, diyi:

-Sənnən çurək kəsərəm, honnan ötəri ki, sən ayrı seçkilik eləmiyəsən, hamının canını alıysan.

Azreyil çıxıb gediy. Bir qun gəliy, diyi şahadatovı di, canuvu alım. ki,şi diyi ki, çurəq kəsmişix, gəl mənim canımı alma. Azreyıl gediy. Bir qun genə gəliy. Diyi ki, şahadatovu çövür, canuvu alıram, kişi yarıyacan diyi, dalını 100 ildən sora diyacağam- diyi.

Azreyıl bilmiyi nağarsın. Yalana döniy, kişinin özünün yanında yığlamağa başdıyır. Kişi soruşiy:

-Niyə yığlayırsan?

-Mağa da diyillər şahadatuvu di, mən də bilmirəm - diyi:

Kişinin buna yazığı gəliy. Başdiyi şahadatı ona oyratmağa. Axırna çatanda uşaq Azreyilə döniy və kişinin canın alıy **(S.201; T.31)**.

## ƏSİL HƏQİQƏT

Günnərin birində həqiqət axdaran bir oğlan belə bir fikrə düşür ki, əsil həqiqəti gözdəriynən görsün. O, çox gəzir, həqiqəti tapa bilmir. Yolunun 99-cu günü dəhşətdi vəhşi heyvannarı olan qorxulu bir meşənin cəngəllikləri içərisində iri bir ağacın koğuşuna girib orada yuxuya gedir. Üş gün, üş gecə yatır. Dördüncü gün aylı bir gecədə oyanır. Heyvannarın ayax səsdəri onu özünə gətirir. Durup-oturur, görür ki, onnarın tapdadığı cığırnan cır-cındır geyimli, özü arıx, üzü cırıx bir qoca cadugər qarı gəlir. O, ağacın koğuşunnan çıxır, qarının boğazınnan yapışır, qışqırır:

-Qarı, məə həqiqəti gösdər, yoxsa səni boğacağam.

Qarı xırıldadı:

-Oğlan, burax məni, səə əsil həqiqəti gösdərərəm.

O qarını buraxır, qarı pırtdaşıx ağ tüklərini sahmannıyıp oğlana diyir:

-Gəl, diqqətnən bax! Mən həqiqətəm. Ama heş kimə diməki, mən belə qorxunc, eybəcərəm, camahata dinənki, mən cavanam, gözələm **(S.134; T.30)**.

## HAQQ VAR, DİVAN YOXDU

Diyillərki, iki nəfər uzax yerə işdəməyə gedir. Qazandıxlarını alıb dala qayıdanda holardan birsi düşman çıxıb yoldaşını öldürməyə hazırraşır. Ölümqabağı yoldaşı hona diyirki, heç olmasa, bi dənə arzumu yerinə yetir. Ho diyir:

-Məəm habu yaxınnarda uşağım olceh. Diyərsənki, adını "Hax var, divan yoxdu" qoysunnar.

Yoldaşını öldürüp, pullarını oğruyub yola düşür. İntası honun arzusunu yerinə yetirir.

Uşax habu adnan böyüyür. Günnərin bi günüsü honu habu adnan çağıranda şahın adamları habu sözü eşidir.

Şaha xəbər verillər. Şah adamlarını göndərib məsələni öyrənir. Ho adamı tapdırıb gətizdirir. Hamının gözü qabağında honu asdırır. Şah diyir:

-Ho adam öldürüldüyünü bilib, qanı yerdə qalmasın diyənə habunu fikirrəşib.

Günahkar da öz cəzasına həblə çatdı **(S.5; T.30)**.

## YAĞMADI YAĞIŞ, BİTMƏDİ QAMIŞ

Diyillərki, qədim zamannarda rəhimli bi paççah yaşıyırmış. Dünyagörmüş, ədalətdi, rəhimli, adil adam imiş. Hər elmdən başı çıxarmış. Ho kət-kət, oba-oba gəzər, kasıp-kusuba əl tutarmış.

Bi günüsü paççah vəkiliynən ova çıxır. Qış vaxdıydı. Paççah görürkü, kimiysə yer şumluyur. Paççah öz-özünə diyir: «Qışın habu sazağında əkilən həkarat yerinnən nə gözdəmək olar? Gözdüyək, görək axrı nolur?»

Əkin-biçin gəlip çatır. Başqa həkarat yerinnin məhsulunnan cütcünün məhsulu çox olur. Qıraxdan baxanda həkarat yeri göz oxşuyur. Sümbüllər dənnən dolu başdarını əyir. Taxıl sümbüllərinin üsdünə xəlbir atsan habu qırağından girip ho qırağından yerə düşər. Şah əkinçinin qışda əkdiyi həkarat yerini yoxluyanda gözdərinə inana bilmir. Ho əkinçini yanına çağırıp diyir:

-Səə özün ağırrıxda qızıl vercəm. Ömrün boyu xərclə, kef eylə. Habu taxıl zəmisini mənə sat. Əkinçi razı olur. Şah əmr eliyirki, vəzir, vəkil həkarat yerini yandırsınnar. Həkarat yerini yandırıllar. Baş vəzir soruşur:

-Qibleyi-aləm, habu nə sirrdi?

Şah cavabında diyir:

-İşdi habu həkarat yerini yandırmasaydım, əkinçilər honun məhsuldarlığına uyub taxılı qışda əkərdilər. Habu həkarat yerinin məhsuldarlığı helə belə şeydi. Əkini vaxdında əkəllər. Əkin vaxdında əkilməsə, xalx acınnan ölər **(T.43)**.

## ANAM KÜRD BASDIRIR

Keşmiş zamannarda bi kətdə söyüşkən bi kişi varıydı. Kəndin ağsakqalı, qarasakqalı, mollası hona öyüd, nəsiyət verirki, söyüşü tərgit-

sin. Ho tərsdiyinnən dönmürki, dönmür. Habu kəndin addı, sannı, hörmətdi mollası varıydı.

Yaz vaxdıydı. Yağış yağırdı, tut ucunnan göyə çıx. Mollanı bərkdən çağırıllar. Molla görürki, koğuşda bi dul arvat var, çağıran habu dul arvadın uşağıdı.

Uşax mollaya yalvarıp yaxarır:

-Aman günüdü, molla əmi, anam səni öyə çağırır. Molla kürkünü geyinip, uşax qabaxda, molla dalda qaçıllar. Uşax çaparax yağışın əlinnən qaçıp eşiyə çıxır. Molla damın qabağında damcıdöyəndə yağışın altında dayanır. Molla tez-tez diyir:

-Ay bala, yağış məni isdadıb əldən saldı. İsdanıp cücə balasına döndüm. Bi di, görüm anan nə diyir?

-Anam diyirki, bir az dözsün...

Molla xeylax dayanır, tezədən diyir:

-Ay bala, səniynən döyüləm?

-Anam diyir, bir az da gözdəsin.

Molla bir az da gözdüyür. Molla yağışda ho qədər isdanırki, yağış ətinə keçir. Dili söz tutmur. Kəkəliyə-kəkəliyə diyir:

-Ay bala, daa axırımdı. Bi di görüm anan nə diyir?

-Anam diyirki, molla əmi daa gedə bilər. Anam diyirki, molla əminin ayağı yüngüldü. Kürt basdırırdı.

Molla diyinə-diyinə söyüş söyənin yanına gəlip başına gələnnəri hona danışır. Söyüş söyən diyir:

-Helə işlər olanda, söyüş tapbasan, satın al söy **(T.43)**.

## İTLƏ QURD

Keşmişdə bir məmləkətdə, bir məhəllədə bi çoban, bi dabbax, bi də dulusçu yaşıyırdı. Çobanın qoyunnarına bi yalquzax dadanmışdı. Hər gecə kəndə qatqarışıx, itlərə hay-həşir, qoyun-quzuya vay-şivən salırdı. Arabir də əlinə qoyun-quzu keçmiyəndə dabbağın gön dərilərini aparıp yiyərdi.

Gündüzdər dabbaxla çoban itdərinə min cür töhmət edərdilər. İtdər habu töhmət-tənqiddən nəticə çıxarıp sözü bi yerə qoydularki, söz haburda qalsın, yalquzax habu işi bilməsin. Habu qədər töhmət-tənqiddənsə bi dəfəlik yalquzağı tutup öldürməh, ya da ölmək yaxşıdı - didilər.

İtdər iksi ixdilat iliyirdiki, dulusçunun iti söhbətə qatışdı:

-Mən beycə sizə qoşulup ac yalquzağın ciyərini çıxardacam.

Gecə hamı şirin yuxudaydı. Yalquzax qoyun-quzuya, itdər yalquzağın qopalağını götürdülər. Çobanın iti kəndin qırağına çatanda didi:

-Daha mən gidən döyüləm.

Dulusçunun iti didi:

-Gedip habu sahat honun ciyərini çıxartdcam.

Qurd qabaxda, dulusçunun iti dalda meşəynən qaçırdı. Meşənin dərin yerində qurd şöngüdü. Dulusçunun itinə mafar vermədi. İt qurdun gah dalına, gah qabağına keçdi. Qurd dimmədi. İt lap yaxına gəlip qurdu boğmax istədi. Qurd itin boğazınnan yapışıp didi:

-Çobanın qoyunu-quzusunu aparıp yimişəm. Honun iti məni boğup öldürsə də yeridi. Dabbağın gönünü, dərisini aparıp yimişəm. Honun da haqqı var, iti məni boğup öldürsə. Sənin dopunu yemişəm. Sərnicini yemişəm - deyip iti ayağı altına alıp iki parça elədi **(T.43)**.

## ŞAH İÇKİNİ QADAĞAN ELƏDİ

Qədim zamannarda bir rəhimli şah varmış. Ho libasını dəyişip, xalqın içində olar, gördühlərini, eşitdihlərini dəfdərə yazar, günahkarları cəzalandırarmış.

Bi günüsü şah küçəynən gedirmiş. Meşəbəyi piyan olub, yerə sərilir, tulası da honun ağız-burnunu yalayır. Bir azdan tula da piyan olub meşəbəyinin yanına yıxılır. Meşəbəyi özünə gəlip görürki, tula piyandı. Başını qaldıranda yıxılır. Tulanın başını tumarrıyıp diyir:

-Diyəsən, sən də mənim kimi piyansan.

Ho, tulanı çağırır. Tula başını qaldırıp yerə yıxılır. Meşəbəyi tulanın üz-gözünnən muçup diyir:

-Sən məni tanımadın?

Habu mənzərəni görən şah sabahsı gün taxda çıxıp əmr eliyirki, bütün əhalini şəhər meydanına yığsınlar. Camahat toplaşır. Hamı şahın gəlişini gözdüyürdü. Şah gəlip hadisəni camahata nağıl eliyənnən sora diyir:

-Habu günnən içgini qadağan eliyirəm. Kim içgi içsə, boynu vurulcehdi. Habu sözdən sonra hamsı içginin daşını atır. Yeddi ildən sonra bir pəhlivan cüssəli yetim oğlan quzusunu kəsip kabab eliyir. Kabab hona ləzzət vermir. Gizdətdiyi çaxırı çıxarıp gətirir. Öz-özünə diyir: "Şah məəm çaxır içməyimi hardan bilcək?" Oğlan çaxırı içir, kababdan yiyir, qolu-qıçı daha da gücdənir. Keflənənnən sonra helə fikirrəşirki, şahı öldürcəm. Ho gecə şahın imarətinə yola düşür. Ho vax şahlar insannara etibar eləməzmişlər. Hona görə şah məhlədə əldə bəsləmmiş şir saxlayırmış. Oğlan şahın imarətinə yaxınnaşıp bitəhər məhləyə düşəndə ho saat bir şir honu yaxalıyır. Oğlan şirin dil ayaxlarından yapışıp honu iki paraya bölür.

Habu vax oğlanın sərxoşluğu keçir. Kor-peşman öylərinə gəlir. Gejdənnən şəhərə səs yayılırki, şahın şirini kimsə iki şakqa eliyip.

Hamı habu işə mat qalır. Camahat şahın həyətinə yığışmışdı. Adam əlinnən tərpənməh olmurdu. Şah sarayın qabağına çıxıp diyir:

-Camahat, sizin qabağızda tax-tacıma and içirəm. Şiri kim şakqalayıpsa, mərəkəyə çıxsın, hona istədiyi qədər mal-döylət, kət-kəsək bağışlayacam.

Bir neçə tamahkir mərəkəyə çıxıp diyirki, şiri mən öldürmüşəm.

Şah diyir:

-Əgənəm şiri sən öldürmüsənsə, honun cəmdəyini başuun üsdünə qaldır, sonra yerə qoy.

Heç kim şirin cəmdəyini yerinnən tərpədə bilmir. Pəhlivana oxşuyan oğlanın yanında bi qarı yaşıyırdı. Qarı şahın didiyi sözdəri oğlana çatdırırki, durma, özünü şəhər meydanına çatdır, var-döylət saman kimi başınnan yağacax. Getməsən, var-döylət əldən getcəh. Atalar diyip: "Döylət gəlmiyən qapı olmaz, honu saxlayan gərək". Oğlan şahın həyətinə girip görür ki, adam əlinnən tərpənməh olmur. İynə atsan, yerə düşməz. Oğlan adamları yara-yara ortalığa gəlip diyir:

-Şah sağ olsun, şiri mən öldürmüşəm.

Şah diyir:

-Əgənəm şiri sən öldürmüsənsə, başuun üsdünə qaldır, sora qoy yerə.

Oğlan bir əli ilə şiri başının üstünə qaldırıp yerə qoyur. Şah heyrətə gəlib oğlanı yanna çağırır. Oğlan başına gələnnəri şaha söylüyür.

Şah camahata üz tutup diyir:

-Camahat, mən yeddi il habundan qabax içgini qadağan iləmişdim. Kimin şirə gücü çatarsa, ho içə bilər. İçgi də şir kimidi, gücün çatmasa, səni boğar **(T.43)**.

## QARA İTLƏ BƏNƏK

Keşmişdə bi çoban varmış, honun bi qara iti, qara itin də Bənək addı balası.

Çoban sürüləri gecələr qara itnən Bənəyə tapşırıp yatarmış. Qoyunnar sarıdan arxeyin olan çobanın gecə yarısı sürüsünə canavar (Qarabalıq) dəsdəsi daraşır. Qış vaxdı, soyux, tüpürsən, yerə buz parçası düşərdi. Qoyun-quzu hürküp hərəsi bi tərəfə dağılıtdı diyənə onnarı ipə yavux gətirmək olmurdu. Qara it canavarın bir-iksini yaraladı, sora canavarlar da hücum çəkip qara iti ölümcül yaraladılar. İt zingildiyəndə çobanın helə bilki, ürəyi oyulurdu. Çoban bilmirdi köməyə kimi çağırsın. Bənək arxacda yatmışdı, xəbərdən xəbəri yoxuydu. Çobanın əlacsiz vəfalı dosdu Bənəyi helə çağırdı:

Qara it qana düşdü,

Quyruğu yana düşdü.
Aman Bənək, gəl yetiş
İşim yamana düşdü!

Bənək yuxudan ayılıp eşidirki, anası qana düşüp. Var-gücüynən canavarlara basılır. Öldürdüyünü öldürür, qalanı qaçıp canını kutarır. Bənək anasının yarasını yalayıp uluyur. Qara it başını qaldırıp Bənəyə baxıp canını tapşırır. Çobannan Bənək sürüləri yığıp arxaca təpir. Bənək öz qoçaqlığını gösdərməyə çobanın yanına gəlir. Çəmbər quyruğunu buluyur. Çobanın ayağı altında yatıp üzünü honun ayağına sürtür. Çoban da Bənəyin başını tumarrıyıp diyir: "Aslanımsan, səə halal olsun" **(T.43)**.

## MÜDRİK QOCA

Əlində ağır yük aparan bi yolçu yolnan gedirdi. Yük ağırıydı diyənə tez-tez yerə qoyup dincini alırdı.

Arxadan gələn birsi eşşəkli qoca yolçunun ağır yükünü əlindən alıp eşşəyin belinə qoyur. Söhbət eliyə-eliyə mənzil başına çatıllar. Eşşəkli qocaya yolçu öz razılığını bildirəndə eşşəkli qoca diyir:

-Habu yükü nə mən, nə də sən gətirdih. Habu yükü səən atan gətirdi.

Yolçu eşşəkli qocaynan savaşır. Honu qorxuzur. Holar şər kəsməh üçün qazının yanına gedillər.

Yolçu qazıya olanı danışır. Qazı sora eşşəkli müdrik qocaya qulax asır.

-Qazı ağa, habu kişinin atası mənimlə can bir qəlb dostuydu. Habu kişi də honun oğludu. Yolda honun ağır yükünü eşşəyimin belinə qoyup mənzil başına çatdırdım. Ho yerində məə razılığını bildirdi. Mən də didim:

-Habu ağır yükü, nə sən, nə də mən gətirdim, səən atan gətirdi.

Qazı əmr elədiki, yolçuya on dənə çubuq vursunnar. Yolçu çubux dəyənnən sonra başa düşdükü, qoca ağır yükü honun atasının xətrinə pulsuz mənzil başına çatdırıp.

Habuna görə də müdrik qocadan üzr istəməli oldu **(T.43)**.

## BİR DAMCI BAL

Keşmişdə bi çoban varıydı. Ho, çobanbaşıydı. Çobanbaşının bi iti varıydı. Çobanbaşı qurtbasannan hara isdəsəydi gedə bilirdi. Qurtbasan çobana arxa və köməyiydi. Çoban kimnən savaşsa, qurtbasan hona köməyə gələrdi. İti, qılınc dişlərini işə salardı.

Günnərin bi günüsü qurtbasana güvənən çobanbaşı qoşu xannığın məmləkətinə ayax basır. Xannığın çölünü, düzünü gəzip dolaşır, yor-

ğun-arğın gəlip bi dükana girir. İsdi yay günnərinnən biriydi. Dükanda arı balı satırdılar. Dükançının isdəkli məsdan pişiyi varıydı. Siçannar honun əlinnən zar-zar ağlıyırdılar. Pişiyin qorxusunnan gözdərinin quyruğuynan da dükana baxa bilmirdilər. Çoban dükançıdan bal almax isdiyir. Dükançı balı tərəzidə çəkəndə bi damcı bal yerə düşür. Bal damcısının üsdünə milçək qonur. Milçəyi görən məsdan pişik özünü milçəyin üsdünə atır. Çobanbaşının qurtbasan iti pişiyin üsdünə atılıp məsdan pişiyi boğup öldürür. İşi helə görən dükançı çobanbaşıya hücum çəkir. Qurtbasan it də dükançını yaralayır. Dükançının qohumu, qardaşı, tanışı haraya yığılır. Qurtbasan it bi tərəfdən, çobanbaşı ho birsi tərəfdən davaya qoşulur. Çobanbaşının adamları xəbərdən xəbər tutur, çobanbaşıya köməyə gəlillər. Qan su yerinə axır. Tərəf-tərəfə düşən davadan xəbər tutan iki xanlıx bir-birinə müharibə elan iliyir. İki xanlığın arasında düşən davadan xəbər tutan müdrik, dünyagörmüş, nurani qoca müharibənin səbəbini öyrənip hər iki xanın yanına gidip baş əyir, üzr isdiyir. Məsələnin nə yerdə olduğunu öyrənir. Dava-dalaş, qırğının bi damcı balın üsdə baş verdiyini bilən hər iki xan əllərini vurup gülüllər. Diyilənə görə ho vaxdan habu vaxda qədər hoların arasında kin olmuyup **(T.43)**.

## BƏDBƏXT ŞAH

Çox-çox keşmişlərdə bi ölkədə ədalətli şah yaşıyırmış. Honun səsi, sorağı bütün dünyaya yayılmışdı. Şah habu işinnən razı qalıp saraydakı baş alimi yanına çağırıp hona sual verir:

-Mənim ədalətli olmağımı hamı bilir. Hamı mənim işdərimnən danışır. Hindi de görüm, mən xoşbax adamammı? Alim honun sualına yox cavabı verir.

Məgər məəm məmləkətimdə xoşbax yoxdu - diyə şah alimə sual verir.

-Səən məmləkətində bir vax bi əkinçi yaşıyırdı. Bi cüt öküzü varıydı. Həkarat yerini şumluyurdu, əkirdi, biçirdi, öz ayləsini saxlıyırdı. Dərd-qəmnən uzağıydı. Mən honu xoşbax adam bilirəm. İntası sən xoşbax döylüsən.

Şahın acığı tutur. Əmr iliyirki, honu zindana salsınlar.

Habu işdən yeddi il keçənnən sora şahı öz taxtınnan salıllar. Şahı ədalətli olmağına görə honu sorğu-sual eliyillər. Honu dar ayağına çəkillər. İki yaş dirək basdırıllar yan-yana. Habu dirəklərin ucuna kəndir bağlıyıp, dartıb əyəcək, sora şahın bir ayağını bi dirəyə, hobirini horbirsi dirəyə bağlıyıp kəndiri buraxcaxlar. Şah hosahat iki para olcaxdı, ədalətsizlərin əlində. Habu vax şah son söz isdiyir, hona

son söz verillər. Şah diyir:

-Yeddi il habunnan qabaq bir iş tutmuşam. Bir alimi nahaxdan yeddi il zindanda saxlamışam. Honu zindandan çıxardın, habura gətirin.

Şahın xahişini yerinə yetirillər. Şah honnan üzr isdiyir:

-Alim, sən düz deyirsənmiş, xoşbax ho əkinçiymiş, məəm xəbərim olmuyup. Bi tikə çörəyini qazanıp, öz ayləsiynən bölüşdürüp yiyip, sora da dünyadan gedip. Mən də bedbaxlığımı bilip dünyadan gedirəm!

Ho vaxdan bəri ədalət məggəmələri tutulan adama son söz verməyi yaddan çıxartmıyıp **(T.43)**.

## FİTNƏ QUL

Qədim zamannarda kasıpları bazarda alıp satardılar. Bi günüsü bi ağa qul satırdı. Qul canda, cüssədə də gözəgəlimli quluydu. Qul satana bi müşdəri yanaşıp diyir:

-Ağa, habu qulun nə günahı varki, habunu satırsan?

Qulsatan ağa diyir:

-İşdə, gücdə özgə qullardan yaxşıdı. Gündə iki, üç adamın işini görür. İntası bi eybi var -fitnədi.

- Aybı yoxdu, ağa. Habu qulu sat mənə - müşdəri diyir.

Ağa qulu dinara satır. Qul təzə ağasına can-başnan qullux eliyir. Honçün də ağa honun yiməyinə, içməyinə fikir verirdi. Bi günüsü qulun ibnəsi tərpənir. Öz vərdişini yadına salır. Ağanın xanımına yaxınnaşır: «Ağam bi ağaynan ixdilat eliyirdi. Honun yanında sənnən yaman gileylənirdi. İş ho yerə gəlip çatdıki, səni boşamax fikrinə düşdü. Habu günnərdə səni boşuycax».

-Helə şey olmaz - didi xanım.

-Habu qulaxlarımnan eşitmişəm. İsdiyirsən, özünün yanında deyim.

Xanım qulun sözünnən qorxuya düşür.

-Həndi mən başıküllü, nağayrım habu ağaya?

Qul diyir:

-Görüm habu işə bir əncam çəkə bilərəmmi?

Bi günüsü qul xanıma diyir:

-Sənin işinə çara tapbışam. Bir az xərci var.

Xanım diyir:

-Nə qədər xərci var ödüycəm.

Xanım qulun xərcini ödüyür.

Qul diyir:

-Beycə ağanın sakqalının altınnan üş dənə tük kəsip gətirərsən məə. Onu əfsunnuyup gətirərəm. Sən də honu qoltuğuvun altında

köynəyinə tikərsən. Habunnan sora ağa səni boşuya bilməz.

-Xanım, tükü mütləq beycə kəsip məə çatdırarsan. Beycə mütləq hazır eliyərəm.

Qul ağaya xəbər verirki, xanım beycə səni kəsəcək. Ehtiyatlı ol. Ağa qorxuya düşür. Gecə yatanda baş barmağını bıçaxnan çərtip yerinə qırmızı isdiyot basır, yatır. Ağrıdan gözünə yuxu getmir. Gecənin bir vaxdında ağa yalannan xorulduyur. Xanım helə bilirki, ağa gerçəkdən yuxuya gedip. Zavallı arvat ülgücü alıp ağanın yanına gəlir. Boğazının altına ülgücü aparanda ağa diksinip ayağa qalxır. Ülgücü xanımın əlindən alıp honu kəsir. Gecəyarsı hamı çaparax ağanın həyətinə doluşur. Soruşullar nolupki, ağa xanımı kəsip? Əhvalatı hamı bilir. Qulsatan ağa da horda idi. Ağa ağlıya-ağlıya qulsatana diyir:

-Yaxşı yıxdın atamın öyünü.

Qulsatan diyir:

-Səə qulun aybını didim. İntası ləlöyünlüh səən öyüvü yıxdı. Həndi gördün, iş nə yerdədi? **(T.43)**

## QALAYÇI İLƏ ÇOBAN

Keşmişdə kəndə bi qaleyçı gəlir. Ho, mis qabları qaleyliyıp gümüşə çörürdü. Həblə möcüzəni görmüyən bir çoban qaleyçiyə didi:

-Sən ki həblə gözəl ustasan, qab-qacağı gümüşə çörürsən, məəm də təknəmi gümüşə çöör.

Qaleyçı təknənin gümüşə çöyrülməsinin nəynən kurtarmasını çobana başa salsa da, çoban iki ayağını bi başmağa diriyirki, "olmaz, xaxın qab-qacağını gümüşə çöörürsən, məəm təknəmi yox!? Səə nə pisdiyim keçip?!" Qaleyçı didiyinnən dömmür. Çoban qaleyçiynən əlbəyaxa olur, qonum-qoşu yığılıp çobanı başa salsa da ho didiyinnən dömmür. Əlac qalıp qaleyçi təhnəni körüyün ocağının üsdünə qoyup çobana diyir:

-Çaparax körüyü bas!

Çoban neçə dönə körüyü basannan sora təhnənin ortası yanıp deşilir. Çoban elədiyi işdən peşman olur **(T.43)**.

## KİM ELƏDİ - ÖZÜM

Keşmişdə bi ooçu varıydı. Quş quşduyurdu, ov ovluyurdu. Hoon gülləsinnin qabağınnan çibin də qaça bilməzdi. Ho, ova təkcənə gedər, təkcənə də gələrmiş. Günnərin bi günüsü arvat diyirki ətimiz kutarıp. Sabah da qonağımız gəlcəh. Ho da ömründə gələn qonax döylü. Kişi günortadan sora tüfəngini götürüp ova yollanır. Dağı-dərəni, meşəni

gəzib dolanır. Axşama yaxın ov iliyir. Gecəyə düşür, öyə qayıda bilmir. Gecə qaranniğı, yorğun-arğın adam. Ət yüküynən hara gidə bilər? Meşədə ocax qalıyıp bişirip yiyəndə, meşədə bi şaqqıltı eşidir. Tüfəngini üsdayağa qoyan ooçu nə görsə yaxşıdı, şir nərildiyə-nərildiyə düz hona tərəf gəlir. Şir hona yaxınnaşıp ocağın yanında şöngüyür. Ooçuya acığı tutmadı diyənə ooçunun şirə yazığı gəlir. Bişirdiyi kabablardan yağlı tikələri şirə yidirdir. Sora da ooçu yağlı əlini döşünə-başına çəkip özünü tonqalın dəminə verir. Şir də ooçu nə iliyirsə honun ilədiyini iliyir. Biddən şir adam kimi dil açıp diyir:

-Biddən sən ooçu Pirim olarsan ha!..

Ooçu diyir:

-Xeyir ağa, mən özüməm. Habu vax ooçu ocağı qurdalayır. Alov dilimlərini külək şirə tərəf qovur. Qırağa çırçıra səpilir. Biddən alovun dilləri şirin yağdan doymuş tüklərini yalıyır, yağlı tük od götürür. Şir bağırır. Ooçu Pirim ho sahat bilirki habu işin axırı neynən kutarcax. Ağaca dırmaşdı. Meşə heyvannarı habu bağırtıya yığışıp gəldilər. Pələng, əyri ayax ayı, gözdəri yanar canavar, şələquyrux tülkü, gopçu çakqal, çəpgöz doşan şiri sorğu-suvala tutdular.

-Səni habu hala kim salıp?

Şir bağıra-bağıra didi:

-Özüm.

Hamı heyvannar bir ağızdan didilər:

-Çıxsın iki gözün.

Kim elədi - özüm, çıxsın iki gözün- məsəli də ho vaxdan qalıp **(T.43)**.

## CİNƏ BALA MAHMUD

Diyilənə görə Mahmut kişi çox kasıbıydı diyənə çəltik zəmisində ortax olmağa adam tapbırdı. Özü-özünə, təkbaşına əkin əkər, xırman döyər, öz kasıp ayləsini dolandırardı. Bi günüsü Mahmut kişi meçitdə namaz qılmağa gedir. Namazı qılıp meçitdən çıxanda Axund Musdafa Əfəndi Mahmut kişinin honun ağzına əydiyini görür. Hacı Musdafa Əfəndi dönüp hona qarğış iliyir:

-Mahmut kişi, habu mənim günahım döylü. Habu bəlanı Allah özü mənə veripdi. Səni görüm cinnərə möhdac olasan. Qız öyladın olsun, ağıldan qıt. Başı yumrux boyda.

Hacı Musdafa Əfəndinin atası Osman əfəndi tanınmış ziyarət idi. Honun almasını oğurruyan oğru alma çuvalını dalına qalxızanda çömbəldiyi yerdə qalıpbış -diyillər. Osman əfəndi gejdənnən ayağa duranda görürki, kimiysə alma çuvalının yanında domuşup qalıp. Çaparax

honun yanına gidip baş-gözünü oxalayır, özünə gətirir. Öyə aparıp çay-çörəh verir. Sora da alma çuvalını honun dalına qaldırıp diyir:

-Bi də helə işdər eləmə.

Mahmut kişi çəltik zəmisinə tək gedər. Horda gecələr öz alaçığında qalardı. Gecələrin birində honu cinlər aldadıb toya aparır. Toyda hona xaşıl verillər, ho, bismillah deyip xaşılı yeməyə başlıyanda, görürki, camış tezəcə peyinləyib, üstündə də axşamdan yağan yağışın suyu göllənip. Ho vax honun lağabı da Cin Mahmut qalıp.

Mahmut kişinin qız öyladı dünyaya gələndə başdarı yumrux boyda olardı. Cinlərə oxşuyan iki qızı varıydı. Adamlardan qorxardılar.

Oğlan uşaxları anadan olanda başdarı ağıllı, kamallı idi **(T.43)**.

## SƏNƏ XANLIX YARAŞIR

Oğuz rayonunun Xaçmaz kəndində bir kasıb kişi yaşıyırdı. O, kəndin xeyrində də, şərində də iştirak edirdi. Hamı ona cəfakeş olduğuna görə "Vahab dayı" deyərdi. Deyərlər, «bağ baqqalsız, meşə çaqqalsız olmaz". Hər öyün bir eybəcəri olar-deyiblər.

Toylarda cavanlar arasında şuluqluq eləyib dava salannar meydana çıxdı. Elə vaxtlar olurdu ki, toy vaya dönürdü. Ona görə də kənd camahatı düşünüb, daşındı ki, məclisə ağsaqqal tapmaq lazımdı. Düşündülər, daşındılar, kim olar, kim olar, fikirrəşdilər, məşvərət elədilər. Axırda el ağsaqqalı Vahab kişinin üstündə dayandılar. Onu toy məclisinə Xan təyin elədilər. Vahab kişi Xan olan məclisdə kim idi cınqırını çıxarsın.

Onun vəziri Əhməd kişi, vəkili Çolaq Cumar idi. Sərkar oğlu Vahab kişinin səsi, sorağı hər yerə quş olub yayıldı. Ta gedib Gəncə quberniyasına çatdı. Qubernator deyilənə görə gecədən Xaçmaz kəndində "Xan" peyda olması ilə xanın hüzuruna gəlir. O, öz-özünə deyir: "Əgər bu adam həqiqi xan deyilsə, ona təzim eləyib qubernatora qulluq göstərəcək, Əgər həqiqi xandırsa, bizə lazımi cəza tədbiri görəcək. Yox əgər bu nişanələr onda yoxdursa, onu Sibirə sürgün etdirəcəyəm".

Xoşbəxtlikdən kənddə Qubernator gələn günü toy var idi. Qara zurnanın məlahətli səsi ürəkləri yandırıb yaxırdı. Xana xəbər çatır ki, qubernator kəndə gəlib onu axdarır. Deyib ki, əlində yağı daşırsa qoy gəlsin. Xan vəzir Əhmədlə Çolaq Cumarı qubernatorun hüzuruna yolladı ki, qubernator həzrətləri gəlib xanın hüzurunda baş əyməlidi.

Vəzir, vəkil qubernatorun qarşısında baş əyib təzim göstərib qubernatordan icazə istədilər.

-Qubernator həzrətləri, biz buyruq quluyuq. Sizi icazəsiz kəndə girdiyinizə görə Xan həzrətləri hüzuruna çağırıb.

Xana toyun baş tərəfində xüsusi taxt düzəldib oturtmuşdular.
Qubernator Xanın hüzuruna gəlib baş əydi, təzim elədi. Xan qubernatora məhəl qoymadı. Üzünü vəzir Əhmədə tutub dedi:
-Vəzir, tədbir.
Qubernatorla gələn görkəmli kənd bəylərinin matı-qutu qurumuşdu.
Vəzir Əhməd üzünü Xana çevirib təzim elədi:
- Xan sağ olsun, hüzurunuzda dayanan Qubernator həzrətləri Gəncədən sizin hüzurunuza təşrif gətirib. Keçin onun günahından. Çolaq Cumar əlində işgə çubuq qonaqların başı üstünü kəsdirmişdi.
Vəzir Əhməd sözünə davam elədi:
-Qonağa hörmət lazımdı. Mənə görə, qonağı cərimə ilə cəzalandımaq məsləhətdir. Ona beş manat cərimə kəsilməsini təklif edirəm.
Xan acıqlı tərzdə deyir:
-Tədbiriniz bəyənilsin.
Qubernator beş manat qızıl pul cərimə verəndən sonra Vəzir Əhməd pulu xanın məxmərlə bəzədilmiş məcməyisinə qoyur.
Sonra Xan əmr eliyir:
-Vəzir, qonaqlar azaddır **(T.43)**.

## DULUSÇUNUN ŞƏYİRDİ

Qədim zamannarda bir dulusçu usta var idi. Ustalarda ta qədim zamannardan adətdi, yanında şəyird saxlayıb öz peşə və vərdişlərini gənclərə öyrədiblər ki, holarin davamçıları olsun.
Dulusçu da öz yanında şəyird saxlayırdı. Usta yanında şəyird duran üç il şəyird durmalı, üç il tamam olandan sonra onu lazımi həcətlə təmin edip halallıq verər, yola salardı. Belə şəyirdlərin qazandığı da halal olardı. Usta yanında şəyird dayanmayan özbaşına sənət öyrənənlərə məhəl qoymazlarmış. Ona «bic ustalar» deyərdilər.
Bir gün ustanın şəyirdini şeytan başdan çıxarıb deyir ki, daha sən bu dulusçu ustanın yanında dayanma. Dulusçuluq sənətini ustadan yaxşı bilirsən.
Şəyird kimi yoğurar, onu dəzgahda qab halına salar, qurudar, bişirər, kürədən çıxaranda usda çıxarardı. Bu dəfə şəyird ustaya deyir:
-Daha mən dulusçuluq sənətini səndən də çox bilirəm. Məni azad elə, gedim öz kasıbkərliyimin dalıynan.
Usta çox deyir, şəyird az eşidir, usta məcbur olur şəyirdə bir dəst həcət verib yola salır. Halallıq vermir.
Günlər keçir, şəyird özünə emalatxana tikir. Dulus qabı hazırlayıb bişirir. Bişmiş saxsı qabları kürədən çıxaran kimi saxsı qablar çaqqıltı

ilə sınır. O, dəfələrlə dulus qabı bişirsə də hamısı sınır, zay olur, işi belə bəd gətirən şəyird əlimyandıda ustanın yanına gəlir:

-Usta, sənə bir vacib işim düşüb. Bilmirəm bu nə sirrdi? İş həmin iş, kürə həmin kürə. Ancaq qabları kürədən çıxartdıqca qırılıb tərki-viran olur. Əl mənim, ətək sənin. Ətəyini kəs, əlimi yox.

Usta deyir:

-Hələ kamil usta deyilsən. Üç il yanımda şəyird durmasan bu dulusçuluq işinin sirrini bilməzsən. Şəyird təzədən üç il də ustanın yanında işləyəndən sonra usta şəyirdi yanına çağırıb bişmiş dulus qablarını çıxarır. Qabın birini çıxarıb usta yanına qoyur, qab sınır. Şəyird deyir:

-Elə məndə də elə olur.

Sonra usta ikinci qabı kürədən çıxarır, üfürüb kənara qoyur. Qab sınmır. Sapbasağ qalır. Usta üzünü şəyirdə tutub deyir:

-İndi görürsən ustalığın sirrini? **(T.43)**

## ATA İLƏ OĞUL

Çox-çox qədim zamanlarda bir varlı-dövlətli ağa yaşayırdı. Ağanın o qədər mal-döyləti var idi ki, həddi-qərəli yox idi. Nə fayda, bu mal-dövlətə sahib duran yox idi. Gecə-günüz Allaha yalvarmaqdan dili qabar gətirmişdi. Allah ona xəsis olduğuna görə göz dağı çəkmişdi. Bir dəfə xəsis ağanın ürəyinə Allah insaf salır.

Ağa Allaha yalvaranda deyir:

-Ya yeri, göyü, bizi yox yerdən xəlq edən, mənə bir övlad bəxş eləsən, var-dövlətimi sənin xətrinə əlsiz-ayaqsıza, kasıba-kusuba, aca, kiçiyə paylayaram.

Sabahı gecə Ağa yuxuda görür ki, havada uçur. Bu uçmaq ona asandan asan idi. Göyün dərinliklərinə uçurdu. Ağanın qarşısını bir nurani dərviş kəsib torbasından bir alma çıxarıb Ağaya verdi. Ağa cəld cibinə əl salıb pul çıxaranda dərviş dedi:

-Mən pay alan dərvişlərdən deyiləm, payverən dərvişlərdənəm. Alma da elə qəşəng idi ki, Ağanın ağzından su damırdı. İstədi almanı yesin. Dərviş qoymadı. Apar öz halalınla tən yarı böl, ye. Sənə bir oğul övladı bəxş elədim.

Ağa uça-uça alma əlində öz halalının yanına qayıtdı. Almanı tən yarı bölüb yedilər.

Aylar ayları əvəz elədi, vaxt vədə tamam oldu. Dünyaya gözəl, almayaoxşar oğlan uşağı gəldi. Ağa mal dövlətini Allah yolunda payladı.

Günlər keçdikcə uşaq saatbasaat böyüyürdü. Uşağı ağa dünyalar

qədər sevirdi.

Uşaq on beş yaşına yetən vax Ağa uşağın çiyninə əlini qoyub deyir:

-Oğul, de görüm sən güclü olarsan, mən?

Uşaq gülümsünüb dedi:

-Mən!

Ağa uşağın sözündən inciyib qardaşına - əmisinə şikayət elədi ki, oğlumun bir qarış boyu var, indidən deyir, mən səndən güclüyəm.

Əmisi də uşağı yanına çağırıb deyir:

-Bala, o, sənin doğma atandı, niyə onun üzünə durmusan?

-Əmi, mən onun yanında nəkarayam.

-Bə bayaq dediyin söz nə söz idi? Atanı kor-peşman elədin.

Oğlan gülüb deyir:

-Hə düzdü, onda atamın əli mənim çiynimdə idi **(T.43)**.

## GÖZ BULAĞI

Oğuz rayonunun Kərimli kəndində bir «Göz bulağı» var.

Rəvayətə görə bu gölün yerində keşmişdə bazar olubmuş. Zəlzələ zamanı həmin bazar dağılmış və böyük bir göl əmələ gəlmişdi. Həmin göldə yeddi gəlin karvanı batıbmış. Söylənildiyinə görə həmin gölün dibi yoxdur. O göldən yaşıl rəngdə çəmrəli su qaynayır və olduqca boğucu iyi var. Göl çox böyük olubmuş. İndi quruyub balaca qalıb.

Həmin göldən kəndin çamaatı və qonşu kəndlər gözə şəfa verməkdən ötrü istifadə edirlər. Beləliklə, həmin gölün adı «Göz bulağı» qalıbdır. sonra razı olmağa məcbur olur **(S.41; T.40)**.

## QIZIL İLAN

Zarağan kəndində Vəli adlı bir kişi yaşayırmış. Bu kişinin gözünün ağı-qarası Qumru adlı qəşəng bir qızı var idi. Bu qız qızlar bulağınnan su içdiyi gündən dünyalar gözəli olmuşdu. Elə həmin gündən də elçi daşının ustü elçisiz olmamışdı. Qız qayğısız bir həyat keçirirdi.

Onun Gülnaz adlı yaxın bir rəfiqəsi də var idi. Hər gün onunla bulaqdan su gətirir, bir-birinə dərdlərini açıb deyirdilər.

Günnərin bi günüsü Qumru səhər tezdən bağçaya gül dərməyə gedəndə güllərin içindən qəflətən bir ilan çıxır. Qumru qorxusunnan qışqırmaq istəyir. Elə bu zaman ilan yalvarıcı bir hal alaraq özünü onun ayaqları altında yerə sürtməyə başlayır. Qız səsini çıxartmır. Sora ilan qızın bədəninə sarılır. Bir neçə dəqiqədən sora çıxıb gedir. Bu hadisədən sora ilan qızın yatdığı otağa gəlir və ona sarılır. Bu əhvalatı

Qumru heç kimə söyləmir.

Bir dəfə ürəyi dözməyib əhvalatı rəfiqəsinə danışır. Gülnaz ona deyir ki, bəs sən qorxmursan, o, səni sanca bilər. Sən öz həyatını təhlükə qarşısında qoyursan. Qumru isə deyir:

- Bu ilan məni sevir. O məni heç vaxt vurmaz. Bir də mən hər gün yatmamışdan qabaq alt paltarımı qapının ağzına qoyuram, ilan gələndə əvvəl onun içində çevrilir, sonra otağa girir.

Nə isə, bir neçə müddət keçir. İlanla Qumru beləçə görüşüllər. Günnərin bi günüsü hava qaralırdı ki, Vəli kişi həyətdə oturub qəlyan çəkirdi. Elə bu vaxt Qumrunun otağına ilanın girdiyini gördu. İlan tələsik özünü qızın alt paltarına sürtməyib qızın yerinə girir və qəflətən həyəcanınnan Qumrunu çalır.

Artıq gec idi. Zəhər Qumrunun qanına keşmişdi . Qumru keçindiyi vaxtdan ilan rahatlıq tapmir, özünü ora - bura sürtür. Özünün günahkar olduğunu bilirdi.

Bu əhvalat kəndə yayılır. Kəndin ağsaqqaları yığışıb Vəli kişigilə gəlirlər. Vəli kişi ilanı nəyin bahasına olursa-olsun, öldürəcəyini söyləyir. Ağsaqqallar məsləhət görürlər ki, ilanı öldürməsin, çünki ilan qızı sevirmiş. Qumrunu kəfənə bükəndə ilan özünü kəfənə sürtür, qızı bükməyə qoymurdu. Özünü adamların ayaqları altına atır, onların getməyinə mane olur.

Nəhayət, qız dəfn olundu. Hamı evinə dağlışdı. Təkcə ilan qaldı. Belə söyləyirlər ki, ilan Qumrunu heç zaman tək qoymurdu, onun məzarının başına fırlanırdı.

Belə ilanlara ata- babadan Qızıl ilan adı vermişlər **(S.6; T.40)**.

## HAL ANASI HAQQINDA RƏVAYƏT

Bir gün bir kişi yol ilə gedərkən görür ki, kolun dibində iki hal uşağı var. Anası uşaqlarına deyir:

Bu kənddə bir arvad bu axşam doğacaqdır. Mən onun içalatını gətirəcəm.

Bu vaxt uşaqlar deyirlər:

Ana, bizi də öyrət, sən onu necə gətirəcəksən ki, heç kəs görməyəcək?

Ana deyir:

Ona quymaq bişirəcəklər, mən də bir ağ tük olub quymağın içinə düşəcəyəm. O məni yeyəcək, mən o vaxt onun içalatını çıxarıb sizə gətirəcəyəm.

Ana bunu deyib gedir. Kişi evə gəlir. Arvadı deyir:

Mən gedirəm qonşuya, onun təzə uşağı olub. Bir azdan gələrəm. Kişi deyir:

Elə şey yoxdu, mən də gedəcəyəm. Arvad nə qədər deyirsə, ayıbdı, doğan arvadın yanına ki işi getməz. Kişi buna qulaq asmır, gedir. Bunlar oturduğu zaman arvada quymaq verillər.

Kişi gəlib quymağı götürüb qaşığı əlinə alır və başlayır qarışdırmağa.

Nəhayət, ağ tükü tapır və oda tutur.

Bu vaxt qapıdan hal uşaqları çığırışmağa başlayır və deyirlər:

- Aman günüdü, bizim anamızı yandırma!

Kişi bunların sözünə baxmır və tükü oda tutub yandırır **(S.161; T.40)**.

## ƏJDAHA DAŞI

Keşmiş zamanlarda Piri baba adlı bir kişi varmış. Onun gözəl-göyçək bi qızı var imiş. Qızın gözəl olduğunu görən Piri baba onu evdən çolə çıxmağa qoymurmuş.

Bir gün Piri baba adamları ilə ova çıxası olur. Qız evdə tək qalıb darıxır. Öz- özünə fikurləşir ki, evdə oturub neyləyəcəyəm ki, qoy çıxım bağda gəzim. Bəlkə ürəyim bir az açıldı. Atam hələ gec qayıdacaq.

Qız çıxır bağa və başlayır gəzməyə. Birdən haradansa bir oğlan girir bağa. Onlar bir-birlərini görüb, vurulullar. Başlayıllar söhbət etməyə. Birdən qızın yadına düşür ki, atası indi ovdan qayıdacaq.

Elə bu zaman atasının atının ayaq səslərini eşidir. Qorxusundan bilmir, nə etsin. Atası gəlir. Qızın yanındakı oğlanı görür və bərk acıqlanır.

Lakin oğlanın gözəl olduğunu görüb yumşalır. Oğlana deyir:

- Gəl, vuruşaq. Əgər qalıb gəlsən, qız sənindi. Qalib gəlməsən, sən əjdahaya dönəcəksən. Çünki mən sehirliyəm.

Onlar vuruşullar. Oğlan məğlub olur. Elə o saatca dönüb olur əjdaha. Əjdahanın gözündən yaş axmağa başlayır. Piri baba istəyir ki, onu öldürsün. Yay-oxunu çıxarıb əjdahanın ortasından bir ox keçirir.

Lakin əjdaha ölmür. Piri baba onu daşa döndərir. Qızının da ağladığını görüb onu oğlandan ayırmaq istəmir. Qızını həmin daşın dalında nar ağacına döndərir. Həmin nar ağacı ilin bütün fəsilləri əjlaha daşının yeganə həmdəmidi **(S.178; T.40).**

## BÜLBÜL ƏFSANƏSİ

Keşmiş zamanlarda bir ərlə arvad yaşayırmış. Günlərin bir günü ər çörək qazanmaq üçün başqa şəhərə gedəsi olur. Evdən çıxarkən arvad

ərindən soruşur ki, nə vaxt gələcəksən. Ər cavab verir ki, güllər açanda.

Bahar olur, güllər açır. Ər gəlib çıxmır. O biri bahar gəlib çatır, güllər açır. Yenə ər gəlib çıxmır. Ağlamaqdan arvadın gözü kor olur. Bir gün oturub fikirləşir ki, kaş quş olub göyə uçaydım, ərimi tapaydım. Söz ağzınnan çıxan kimi quş olur. Uçur ağacdan-ağaca. Ərini axtarmağa başlayır və oxuyur:

- Gül açıl, gül-gul, açıl-açıl.....

Ancax o vaxtdan çox güllər açılıb, əri isə gəlib çıxmax bilmir **(S.178; T.40)**.

## ŞİRİN BULAQ ƏFSANƏSİ

Kənddə Zaman xan adlı varlı, pullu bir ağa hökmdarlıq edərdi. Bulağın suyu quruyan vaxt Zaman xanın var-dövləti tələf olmaq təhlükəsi qarşısında qalır. Zaman xan suyun dalınca kimi göndərirsə geri qayıtmır.

Beləliklə, kəndin igid, adlı-sanlı adamları bu gedər-gəlməz yola gedir, bir daha geri dönmürlər. Zaman xan elan verir ki, kim Şirin bulağın yolunu açsa, onu dünya malından qəni edəcək.

Xanın Əmrah adlı igid, qorxmaz, gənc bir cobanı var idi. O, Dəmirçi Muxtar kişinin oğlu idi. Neçə il idi ki, xana çobanlıq edirdi. Əmrah xanın Güllü adlı gözəl bir qızını sevirdi. Qız da Əmrahı sevirdi. Lakin onlar bu məhəbbəti gizli saxlayırdılar.Güllü atasının xasiyyətinə yaxşı bələd olduğu üçün bilirdi ki, xan xəbər tutsa, onlar üçün yaxşı olmayacaq.

Əmrah xanın elanını eşidən kimi onun yanına gəlir və deyir ki, Şirin bulağın yolunu aça bilər. Əvəzində xan qızı Güllünü ona verməlidir. Xan bu təkliflə razılaşmır. Əmrah Güllünü kənddən götürüb qaçmağa məcbur olur. Əmrah bu yerlərə yaxşı bələd olduğundan dar keçidlərlə, keçilməz yollarla gedir. Güllü yolda xəsdələnir. Əmrah onu arxasına alıb getməyə məcbur olur. Üç gün yol gedirlər. Güllünün xəsdəliyi artır. Su gətirmək üçün Əmrah Güllünü orda qoyub kəndə qayıdası olur. Su götürüb geri qayıdır. Gəlib görür ki, Güllü üzüqoylu yerə sərilib. Onun yanında da bir bulaq qaynayır. Deyilənə görə Əmrah da ölənə qədər o bulağın yanından heç yana getməmiş, elə orda ölmüşdür.

Elə o vaxdan Şirin bulaq daşların, qayaların arasından süzülüb gəldiyi üçün kənd Daşbulaq, Güllünün öldüyü yerdən qaynayan bulaq isə Güllü bulağı adlanır.

Əmrah evə qayıdır. Atası onu bu yoldan geri dönməyi təklif edir. Lakin Əmrah qohum-əqrabası ilə görüşüb yola düşərkən atası Muxtar

kişi ildırım parçasından düzəltdiyi xəncəri oğluna verib deyir:

- Oğlum get, tale sənə yar olsun. Bu xəncər səni darda qoymaz.

Əmrah üç gün yol getdikdən sonra böyük əzab-əziyyətlə bulağın başlanğıcına gəlib çatır. Görür ki, bulağın kəndə gedən yolunu iri bir daş parçası tutub. Çox çətinliklə bu daşı kənar edir və kəndə gedən suyun ağzı açılır. Bu zaman bərk gurultu qopur, nəhəng bir əjdaha Əmrahın üstünə atılır. Əmrahla əjdaha arasında əlbəyaxa döyüş başlanır. Son nəfəsdə Əmrah xəncəri əjdahanın kəlləsinə soxur və əjdaha nərilti qopararaq yerə sərilir.

Əmrah bərk yaralanmışdı. Çox çətinliklə kəndə qayıdır. Bir müddətdən sonra tamam sağalıb ayağa qalxır. Suyun gəlməyi kənddə toy-bayrama səbəb olur.

Deyilənə görə kəndin camahatı yeddi gün şadlıq edir.

Zaman xan isə verdiyi vədə əməl etmir. Qızı Əmraha vermək istəmir **(S.126; T.40)**.

## YUSİF QUŞU

Soruşurduq nənələrdən, babalardan, o quş nə diyir.

Diyillər ki, bir arvadın bi dənə oğlu olur, o oğlu isdiyipdi su işmağa, bilmiyipdi diyi. Susuzluxdan ölüb.O ölənnən sora ana quşa dönüpdü.

Hindi ana diyir: Yusif, dur su iş, qurtul. Oğlunun adı Yusif olupdu **(S.73; T.30)**.

## ARVAD KİŞİNİ ƏHİL DƏ ELƏYƏR, CƏHİL DƏ

Bir gün bir axund arxın qırağında dəsdamaz alırdı. Dəsdamaz ala-ala bir dənə alma görür. Gedip almanı götürüp dişdiyir. Sora öz-özünə diyir:

–Mən axund adamam. Habu almanın halallığını almamış yiyə bilmərəm, olmaz axı.

Gedir arxın üsdünnən. Görür ki, bir kişi bağda işdiyir. Elədiyi işi ona danışıb honnan halallıx isdiyir.

Habu kişi diyir ki, mən almanın bir parasının halallğını verirəm. İntası qardaşım var. Get honnan da halallıx al.

Gedir o biri qardaşı görür. Görür ki, habu qardaş sifdə gördüyü qardaşdan qocadı. Saçı, saqqalı çallaşıp. Nəsə, gəlir kişidən soruşur:

–Mən habu almanı dişdəmişəm. Hobirsi qardaşın məə halallıx verdi. Gəlmişəm sənnən də halallıx almağa.

Kişi diyir:

–Mən halallıx verdim. Mənnən ho yanda kiçik qardaşım da var. Get ho da halallıx versin.

Axund diyir:

–Yaxşı.

Axund gedir balca qardaşın yanına. Görür ki, bu qardaş lap çal saçlıdı. Öz-özünə fikirrəşir ki, necə olur ki, ən balaca qardaş habu qocadı. Qocaya hobirsi qardaşlara didiyi sözü didi:

–Mən səə halallıx verərəm. İntası mənim bir bacım var. Gözdən kor, qulaxdan kar, ayaxdan, əldən şildi. Əyər sən honu alsan, mən səə halallıx verərəm. Axund baxır, baxır, əlacı kəsilir, qızı almağa razılıx verir. Kişi diyir ki, sən axundsan, kəbini özün kəs. Habu vaxd kişinin bacısı çay gətirir. Axund qızı görüp özünü itirir. Görür ki, qız, nə qız. Helə qız habu dünyada yoxdu. Axund habu qızın bişirdiyi yeməyi qəbul eləmir. Kişi də bacısına diyir ki, əgənəm axund sənin bişirdiyin yeməyi qəbul eləməsə, qayıdıp gələrsən. Axund qızın bişirdiyi yeməyi qəbul eləmir. Qız qayıdıp gəlir öyünə. Qardaşı diyir:

–Mən bilirdim ki, axund qəbul eləmiycəh. Gedillər axundun yanna. Axund diyir ki, mən yad adamın bişirdiyi yiməyi necə qəbul eliyə bilərəm?

Qardaş diyir:

–Habu mənim bacımdı. Mənim bacım, bəli, hudu.

Axund diyir:

–Axı sən mənə dimişdin ki, sənin bacın kor, kar, şildi. Kişi diyir:

–Ha, sən diyən düzdü. Mənim bacım elə qızdı ki, görəni görmür, qulağı da bəzi sözdəri eşitmir, əli-ayağı hordan-burdan oğramaxla məşğul deyil diyə – şildir.

Una görə mən səni yoxlamax isdiyirdim ki, görək habu qızı alasısanmı?

Diyir:

–Ha, honda kəbini dəyişəsi oluram habu qıza. Çünki kəbini sən diyən qıza kəsmişdim.

Axund kiçik qardaşa habu sualı verir:

–Sənnən böyük qardaşın çalsaçlı, lap böyük qardaşın heç bir tükü də ağarmıyıp. İntası səən başın-üzün nə gündədi. Kiçik qardaş diyir:

–Düz diyirsən. Böyük qardaşımın arvadı çox gözəl, insan adamdı. İkinci qardaşımın da arvadı yaxşıdı. Una görə də holar yaxşı qalıp. Məəm arvadım naxələf çıxdı. Una görə də mən habu vəzyətə düşmüşəm. Una görə də diyillər ki, arvat kişini əhil də eliyər, cəhil də **(S.195; T.30)**.

## HƏR KƏS ÖZ YERİNİ BİLSƏ YAXŞIDI

Günnərin bi günüsü bir nəfər Xalxal yoluynan gedir. Yol üsdündə bir qapını döyüp diyir:

-Məni habu gün Allah qonağı saxlamazsız? Qalan yerim yoxdu. Öy yəəsi diyir:

–Baş üsdə.

Qonağı götürüp aparır öyə. Qonax əlini-ayağını yuyur. Öy yəsi qonağı bir ağsaqqal kişinin yanna gətirir. Onlar yiyillər, içillər. Nəsə, birvaxdı qapı döyülür.

Ağsaqqal diyir:

–Buyur.

Nəsə, gəlir bu. Baş əyip diyir:

–On min isdədilər.

Habu ağsaqqal diyir:

–On beş min ver.

Diyir ki, baş üsdə. Gənə əlini sinəsinə qoyub baş əyir, daldalı çəkilip gedir. Habu gedənnən sora qonax soruşur:

-Habu kimiydi?

Ağsaqqal diyir:

–Məəm böyük oğlumdu.

Qonax diyir:

–U nə diyirdi?

Ağsaqqal diyir:

–Elçi getmişdilər. Süt pulu 10 min isdiyiplər. U da gəlip mənnən soruşdu. Mən də didim ki, 15 min ver. Mən habu qızın əsilbənəslini tanıyırdım diyənə didim ki, 15 min ver.

Qonax ağsaqqala diyir ki, mən 15 minə 3 toy eliyərəm, 3 gəlin gətirərəm. Ağsaqqal diyir:

–Düz diyirsən, 15 minnikdən helə oğul olur, 5 minnikdən sənin kimi oğul olur.

Qonax çox fikirrəşir, çox fikirrəşir, diyir, mən niyə habu sözü ağzımnan buraxdım. Yeru döyüldü. Öy yəsi heş nə dimir. Nəsə, durup yatıllar. Səhər baxıp görüllər ki, qonax yoxdu. Çıxıp gedip utandığınnan. Yeri var, özü yox. Dimək, hər kəs hər yerdə öz yerini, sözünü bilsə yaxşıdı **(S.195; T.30)**.

## MƏHƏMMƏD PEYĞƏMBƏRLƏ DÜLGƏR

Bi günnəri bir usda yolnan gedirdi. Məzərinə də pul doldurmuşdu. Habu Məhəmməd Peyğəmbərə agah idi. Məhəmməd Peyğəmbər

kişidən soruşur:
–A kişi, nə aparırsan?
Kişi cavab verir:
–Yonqa.
Məhəmməd Peyğəmbər diyir:
–Allah-Taala yonqava bərəkət versin.
Una görə habu usdaların cübləri pulnan dolu olur, yonqarları da çox olur. Çünki Məhəmməd Peyğəmbərin qarğışı var habu işdə **(S.195; T.30)**.

## VAR-DÖVLƏTİN ÇOXLUĞUNU SİRRİ

Bi günnəri Məhəmməd Peyğəmbərin var-döyləti aşıp-daşır. U qədər kasıp-kusuba da paylıyır, neyliyir, habu kutarmır ki, kutarmır. Allah-Taalaya diyir:
–Ya rəbbim, məəm var-döylətim hu qədərdi ki, paylıyıram da, kutarmır.
Allah-Taala diyir:
–Ayax üsdə çörək yi.
Hamısına məzər tikillər ki, qırıntılar yerə tökülsməsin. Gənə də Məhəmməd Peyğəmbərin var-döyləti aşıp-daşır.
Gənə də Allah-Taalaya diyir:
–Axır mən ayax üsdə də çörək yidim, gənə var-döylətim aşıp-daşır.
Allah-Taala diyir ki, mən səə məzər diməmişdim. Didim ki, helə-belə yi.
Məhəmməd Peyğəmbər cavab verir:
–Hunda yerə tökülür.
Allah-Taala diyir:
–Ha, hunda yerə töküləndə çörəyuun də bərəkəti qaçar. İntası sən hunu tökülməyə qoymursan diyənə çörəyuun bərəkəti də günü-günnən artır. Sən hu bərəkəti o qədər qoruyursan ki, hona görə də var-döylətin başınnan aşır **(S.195; T.30)**.

## İBRƏT DƏRSİ

Günnərin bir günü br kişi baş-ayax işdiyir. Gedir bazara. Görür ki, habu 50 manatdı. Diyillər ki, başqa kəntdə 25 manıtdı. Habu kətdə isdiyir ki, alsın, diyillər ki, filan kətdə 10 manıtdı. Ho baş-ayağı alıp yığır meşığa.
Qaranlıx düşür. Habu hara getsin. Bir qapını döyüp diyir:
–Məni tanrı qonağı saxlıyarsızmı?

Öy yəəsi diyir:
–Qurban olum honun özünə də, qonağına da.
Gətirip gəlillər öyə. Habuna su-zad verillər. Əl-ayağını yuyup tezəcə oturmuşdu ki, arvat gəlir. Öyün arvadı diyir:
–Ə kişi, yiyip döyürük, yoxsa döyüp yiyirik.
Qonax fikirrəşir ki, nə işə düşdüm, habular məni döymək isdiyir. Mən nağayrım, başımı götürüp hara qaçım. Görür ki, xeyri yoxdu.
Arvat diyir:
–Ə kişi, əşi döyək, sora yiyək.
Hərəsi bir ağac götürüp gedillər damın qabağında köbər yer var. Döyüllər, döyülər bir vax əllərini yuyup gəlillər. Arvat aş bişiribmiş. Aşı də gətirip ortalığa qoyullar. Başdıyıllar yiməyə. Çay içillər. Qonax bitəər dözüp, axırsı soruşur:
Arvat gəlip soruşanda ki, yiyəh döyək; döyək yiyək. Mən də qorxdum, didim yəqin məni döyəsisiz. Allah tərəfi oldu, məni döymədiz. Gedib ho torpağı döyüp gəldiz.
Öy yəəsi diyir:
–Sən u barədə fikirrəşirsən?
Diyir:
–Ha. Bax, habu həyəti görürsən. Habu həyətin yəsi çox xəsis olubu. Axırda da ölüp. Ho arvada da çörək vermirdi. Hindi ho kişini basdırmışıx horda. Hu arvadı da mən almışam. Hər axşam horanı döyürük, gəlip yiyirik-içirik. Kefimizi çəkirik.
Qonax çox fikirrəşir, diyir:
–Gör nə imtahan oldu mənimçün. Gəlir habu öyə.
Meşığı da götürüp gedir meşəyə tulluyup gəlir öyə. Arvada da heç bir söz dimir. Tezədən bir meşıx götürüp gedir bazara. Bir meşıx bazarrıx, bi dənə də heyvan alır gəlir öyə. Yiyillər, içillər kef-zad. Arvad baxır-baxır diyir:
–A kişi, ömrümüzdə eləmədiyin bir işi görürsən. Helə dərviş olar?
Kişi diyir:
–Arvad, gördüm.
Arvad diyir:
–Nəyi gördün?
Kişi diyir:
–Mən honu gördüm ki, unu gördüm, məni döyəni də gördüm, səni alanı da gördüm, var-dövlətimi yiyəni də gördüm. Habuların hamısını gördüm. İnnən sora yiyip-içip, kef çəkəcəm. Var-dövlətim ömrümüzün axırına qədər bəs eliyər **(S.195; T.30)**.

## GÜNÜ GÜNORTADAN QAYTARAN ƏLİ!

Həzrət Əli öz başının dəstəsilə ova çıxıbmış. Qurduqları tora bir ana ceyran düşür. Toru açarkən ana ceyranın ağladığınü görən Həzrət Əli ceyrandan nə üçün ağladığını soruşur. Axı, ceyran Əliyə qismət olduğu üçün sevinməli idi.

Ana ceyran südlə dolu əmcəklərini Cənabi Əliyə göstərib ağlaya-ağlaya deyir: - Ya, Əli , mən sübh tezdən yuvamdan çıxıb balalarım üçün yem dalınca gəlmişdim. Əmcəklirimi südlə doldurub balamın yanına qayıdırdım. Sizin tora düşdüm. İndi gün günortadan keçib, balalarım da acdı.

Həzrət Əli ceyranın bu sözündən sonra şəhadət barmağı ilə günə işarə edir və onu günortadan qaytarır. Ona görə belə deyirlər:

«Şəhadət barmağını günə işarə edib, günü günortadan qaytaran Əli» **(T.40)**.

## MİLÇƏYİN ƏFSANƏSİ

Günlərin bir günü Allah bütün canlıları yanına çağırır. Onlara deyir ki, kim gedib günəşdən bir parça od gətirsə, onu hara istəsə getməsinə icazə verəcəyəm.

Bunu eşidən arı od dalınca yollanır. Gedib günəşdən bir parça od gətirir. Yorğun olduğundan odu bir tərəfə qoyub, yatır. Bunu izləyən milçək odu götürüb Allaha aparır.

Buna görə də Allah milçəyə azadlıq verir. Buna görə biz milçəklərə hər yerdə rast gəlirik **(T.40)**.

## AŞIX RUSTAMIN ÖLÜMÜ GÖRMƏSİ

Aşıx Rustam sazını vurardı qoltuğuna, çiyninə salardı xurcunu, gedif ətraf kətdərdə oxuyardı. Qozdan, fındıqdan alıb, xurcununa doldüruf gələrdi.

Müharibə illəriydi. Aşıx Rustam yenə saz qoltuğunda gedirmiş aşıxlıx eləməyə, yolda yorulur. Bir qoz ağacının altında yatır. Ayılanda görür qavağında bir ağpaltar var. Elə bilir onu qara basır. Nə qədər bismillah eliyirsə, görür ağ paltar çəkilmir. Ona deyir: «Kəlmeyi-şəhadətini de, canını alacam». Aşıx Rustam deyir: «Burda canımı alsan, qurd-quşa yem olaram. Bir kimsə də bilməz burda öldüyümü. Qoy gedim evimə, orda canımı al».

Ağpaltar gözünün qavağınnan çəkilir. Rustam evə əliboş qayıtmasın deyə, istiyir gedif bir-iki gün aşıxlıx eləsin. Görür ağpaltar yolun düz ortasında duruf deyir: «Sənə demədimmi evinə get!»

Aşıx Rustam düz gəlir kəndə. Qəvristannığa çatanda görür ağpaltar ordadı. Onu görəndə deyir: «Səni gözdüyürəm, tez evə get!»

Aşıx Rustam yolda gördüyünü dostlarına deyir: «Tez bizə gəlin». Evə çatan kimi arvadına deyir: «Mənim yerimi üzü qivləyə sal, ölləcəm». Arvadı inanmır. Amma Rustamın yerini üzü qivləyə salır. Dostları da gəlir. Görüllər ki, Rustam yuyunuf, təmizdənif yorğan-döşəyə girif. Xəvər alıllar: «Sənə nə oluf, sappasağ adam yorğan-döşəyə girif bizi çağırırsan?»

Rustam yolda başına gələni danışır. Hamı gülür. Deyillər: «Rustamın yenə aşıxlığı tutuf. Biznən məzə qurur». Bunnar deyif-güldükləri yerdə görüllər Aşıx Rustamın boynu düşdü. Baxıllar ki, keçinif. Aparıf Aşıx Rustamı yaşadığı kəndin – Qayabaşının üstündəki Çaykənd qəvristannığında dəfn edillər **(S.115; T.13)**.

## QAÇAQLAR HAQQINDA RƏVAYƏT

Məşədi İbrahimi Sovet hökuməti aldadıb ələ aldı və sonra də güllələdi. Ona demişdilər ki, arxanı çevir, ancaq Məşədi İbrahim demişdi:

–Mən pələnglərə arxa çevirmədim, sən nəsən ki, sənə arxamı çevirim!

Onu alnından vurdular. Məşədi İbrahim ölümün gözünə baxa-baxa öldü. Xalq ona belə bir mahnı qoşdu:

Məşədiyə dur dedi,
Dalını çevir dedi.
Dalımı çevirmərəm,
Qabağımdan vur dedi **(Ə.13; s.47).**

## QAÇAQ ŞUAY

«Türk beşatılanı» adı ilə tanınan silahnı çiyninə aşıran qırmızı atlı beşatılanı çiynindən aşıra bilmədi. Qara atlı isə əlində hazır tutduğu silahını üstayağa çəkdi:

–Əllərini qaldır.

Qırmızı atlı tələsmədi:

–Gərək tək gələydin, arxanca bu qədər adamı niyə gətirdin?

Qara atlının qaşları çatıldı və başı arxaya çevrildi: heç kim yoxdu ki? Bəs bu kürən nə deyir? O, birdən səksənib başını qırmızı atlıya doğru çevirəndə Kürənin tüfəngi əlində hazır idi.

–İndi sən qaldır əllərini!

Qara atlı çaşıb qaldı, insan da bu qədər cəld olarmı?

Qara atlı qəzəbli səslə dedi:

–Əllərimi qaldırmayacağam, istəyirsən vur!

Qırmızı atlı tüfəngini aşağı saldı:
–Bu sözdən sonra kişi olan güllə atmaz.
Qara atlı yerində oynayan kəhərin yüyənini dartdı, at şahə qalxdı. Qara atlı səsini yumşaldaraq dilləndi:
–Bir Allah xətrinə, de görüm, kimsən?
Qırmızı atlı bir söz demədi, o da altında oynayan atın yüyənini çəkdi. Qara atlı yüyənini güclə saxladı:
–Sən talalı Şuay olmalısan!
Qırmızı atlı güldü:
–Sən də samuxlu Məhəmməd Qasimsən!
Qara atlı da güldü.
Məhəmməd Qasim onlardan xeyli mənzil aralıda bitən qovaq ağacına nəzər atdı:
–Şuay, deyə bilərsənmi, o başda oturan ala qarğadı, yoxsa qara?
Şuay Məhəmməd Qasimin sözlərindəki incə kinayəni əvvəl başa düşmədi, diqqətlə qovağın lap zirvəsində oturan qarğaya baxdı:
–Qara da olar, ağ da.
–Nədən bilək? – Məhəmməd Qasim gülümsündü.
Şuay onun üzünə ani baxdı və beşatılanı çiynindən aşırdı:
–Hansını salım?
–Hansını istəyirsən.
Məhəmməd Qasimin sözü qurtarınca atəş açıldı. Qarğaların biri daş kimi yerə gəldi. Şuay nə isə demək istədi, ancaq sözünü saxlamalı oldu. Atəş səsinə kolluqdan bir cüt qırqovul qalxmışdı, Məhəmməd Qasim onların ikisini də yerə saldı.
Bir an baxışdılar. Məhəmməd Qasim dedi:
–Atmağına söz yoxdu!
–Sən də pis deyilsənmiş!
Qanıxın qırağında, kolların arasında bir talada oturdular.
Nəhayət dilləndi:
–Sən nə fikirləşirsən, Şuay?
Şuay başını qaldırıb Məhəmməd Qasimin üzünə baxdı:
–Fikirləşirəm, görəsən, axrımız nə olacaq.
–Axırımızın nə olacağını bilmirsənmi?
–Bilirəm, bilirəm, qardaş, nə vaxt olsa da bizi vuracaqlar. Necə ki, biz bəzilərini «of» demədən öldürürük.
–Biz buna məcburuq, Şuay!
–Bizi vurmaq üçün də kim də olsa məcburdur.
–Olmaya qorxursan?
Şuayın qaşları çatıldı:

–Hər nə desən, dözərəm, ancaq bu sözü demə. Yəni bir cana borclu deyilikmi? Mən bir Allahdan qorxuram. Qaçaq çıxmağımın səbəbi də Allahdan qorxmağım olub. Ancaq qorxuduğum başqa işdir.

Məhəmməd Qasim maraqla dostunun üzünə baxdı.

Şuay kədərli səslə dedi:

–Qorxuram bu Şura hökumətinin gədələri bizi vurar. Bir igid gülləsi ilə ölsəm, «of» demərəm...

İllər ötdü. Qaçaq Şuayın adı dillərə düşdü. Gürcüstana, Samuxa, Gəncəbasara çatdı. Pələng kimi cəld, aslan kimi güclü idi. Dəstəsində cəmi altı adam yığılmışdı. Mes, Həsən, İbrahim məşhur idilər. Qandaxlı Sunay, Mosullu Bilal da Şuayı özünə böyük bilirdilər. Hökumət onu ələ keçirmək, ya də məhv etmək üçün çox çalışırdı, amma nail olmurdu. Şuaya «gülləbatmaz» deyirdilər. Beləliklə, gəlib Şuay qırx yaşına çatmışdı. Qabağına çıxan olsa, vaxt itirmədən aradan götürürdü. Nə Talada, nə həndəvərdə ona söz deyə bilən yox idi. Bəzən dağlara çəkilir, bəzən meşələrə düşür, bəzən Gürcüstana addayıb aylarla görünmürdü. İgid idi, igid olduğu qədər də amansız idi, düşmənlərə, dalınca gəzənlərə göz açmağa imkan vermirdi, yoxsul, fəqir adamlarla çox yumşaq davranırdı.

Ancaq 1925-ci ildə çox qanlı və faciəli bir hadisə oldu...

Uzunqazmalar adlı binədə yaşayan, talalı 2001-ci ildə 96 yaşında rəhmətə gedən, təsadüfən həmin qonaqlıqda iştirak edən Murtuzəli Ömər oğlu o qonaqlığı belə xatırlayırdı:

–Çox adam vardı, manqallarda ən azı 200 şiş olardı. Mən o yerin yaxınlığından keçirdim, Mosullu Bilal məni gördü və agent bilib Şuayın yanına apardı. Şuay məni tanıdı və oturub çörək yeməyimi təklif etdi.

Həmin qonaqlıqda özünü Şuaya dost göstərən və əl altından hökumətə işləyən agentlər də iştirak edirdi. Şuay onlara inanmışdı.

Həmin gün qonaqlıq gecədən keçənə qədər davam etdi. Şuay tambur çaldırdı, mahnı oxutdu, kefi lap kökələndə qaçaq yoldaşlarını rəqsə dəvət etdi. Özü elə oynadı ki, qaçaqlar toyda olduqdarını zənn edərək silahlarını yerə qoyub əl çaldılar.

Tonqal qalamışdılar. Bu alovların işığında tamburun çaldığı yeyin oynayan şıq geyimli Şuayın qaraltısı çox təsirli görünürdü.

İş o yerə çatdı ki, kefləri kökələn qaçaqlar havaya güllə atmağa başladılar. Şuay tüfəngini qaçaq yoldaşına verdi və özü kolların arxasına keçdi. Qaçaq yoldaşı əlində tüfəng onu gözlədi, bu arada dalbadal iki güllə atıldı. Şuayı gözləyən qaçaq güllələrin hardan atıldığını, kimin atdığını əvvəl başa düşmədi. Çünki o, Şuayı gözləsə də, fikri məclisdə şənlənən, çalıb-oynayan yoldaşlarında idi. Şuayın bir az gecikdiyini hiss edəndə onu gözləyən qaçaq yoldaşı bir az əvvəl Şuayın getdiyi səmtlə

kolların arxasına keçdi. Artıq iş-işdən keçmişdi, Şuay üzü üstə göy otun üstünə yıxılmışdı. Kürəyindən vurulan iki güllə yarasından qan fişqırırdı. Qaçaq başçını bu halda görüb cəld yoldaşlarının yanına qaçdı:

–Şuayı vurdular!

Şuay hələ ölməmişdi, onu üzü üstə çevirdilər, əlləri üstə məclis olan yerə gətirdilər. Yaralarından axan qan azalmışdı. Şuay güclə gözlərini açdı:

–Məni kim vurdu?

Sunay ətrafındakılara nəzər saldı. İki nəfər «dost» aradan çıxmışdı. Şuay bir də danışmağa başladı:

–Axırı belə olmalı idi, bunu mən bilirdim. Elədiyim işlərin cəzasıdır. Aslan Məhəmmədi nahaq öldürdüm. Aranı vurdular, məni aldatdılar. Məni Bibanda basdırarsınız.

On iki il adı çəkiləndə insanları qorxuya salan Qaçaq Şuay öldü. Onu nə Bibanda, nə də başqa yerdə dəfn edə bilmədilər. Şuayı vuranlar gecə ikən aradan çıxıb hökumətə xəbər vermişdi **(Ə.13; s.48).**

## QAÇAQ ZEYNAL

1930-cu ilin sentyabr ayında Talada axırıncı qaçaq olan Zeynal Ramazan oğlu Şura hökumətinin əsgər və milisləri tərəfindən mühasirəyə alınıb öldürüləndə onun cəmi 22 yaşı vardı. Talanın Qırğıllı obasından idi. Elə sərrast atırdı ki, səsə, hənirtiyə düz vuran Şuay belə bir dəfə ona həsəd aparmışdı.

Zeynalın mühasirəsi üç gün davam etdi. Elə onun əsl qoçaqlığı, igidliyi də bu üç gündə görsəndi. Əslində Zeynal bir-iki hökumətdən qaçıb meşələrdə gəzməkdən başqa bir iş görməmişdi. Zeynal bir adama güllə atmamışdı. Bir onu bildirmişdi ki, Şura milisinin Tala üzrə sahə müvəkkili Mixak İtyanı harda rastına çıxsa öldürəcək. Mixak İtyan bunu eşitmişdi və Zeynalın gözündən qaçmağa nail olurdu. Əslində Zenyalın evindən didərgin düşməsinə səbəb də bu Mixak İtyan olmuşdu **(Ə.13; 71).**

## OĞLAN BULAQ, QIZ BULAQ

İlisuda bir oğlanla bir qız əl-ələ verib, ovçu Pirimi görmək arzusu ilə uca dağları, sıldırım qayalıqları axtarmağa çıxırlar. Onlar, nəhayət, gəlib ovçu Pirimin yaşadığı dağa çatırlar. Oğlan deyir:

- Odur ey, Pirim baba o qayanın üstündəki evdə yaşayır. Yay-oxunu, qara tüfəngini də daşa söykəyib.

Qızla oğlan maraqla qayaya baxırlar. Onlar arzu edirlər ki, nə ola,

buradan bir bulaq çıxa. Pirim babanın yanına əl-üzümüzü yuyub gedək. Bu vaxt bir atlı onların yanından çaparaq keçir. Atının nalı daşa dəyir. Nalın izindən su fəvvarə vurur. Oğlanla qız istəyirlər ki, bu suya tərəf qaçsınlar, ovçu Pirim deyir:

- Dönün geri baxın, qayanın dibində iki bulaq görəcəksiniz. Qıza oxşayan bulaq «Qız bulağı», oğlana oxşayan bulaq «Oğlan bulağı»dır. Kim o bulaqlarda əl-üzünü yusa, suyundan içsə, çimsə, gözəlləşər, azar-bezarı yox olar. Onlar şəfa qaynaqlarıdır **(Ə.18; 13).**

## QIZ QALASI

Sumu Sultan çox zülmkar imiş. Onun zülmü o yerə çatır ki, yeddimərtəbəli qala tikdirəndə barının hər küncündə bir adam qoydurur. Barılar hörülüb qurtarır. Bir müddət daş-divardan insan initltisi eşidilir. Camaat bu səsdən zara gəlir. Zülm ərşə dayanır. Bu zaman dağdan sel gəlir. Selin gətirdiyi daş, çınqıl, torpaq yeddimərtəbənin dörd mərtəbəsini basır. Yalnız bundan sonra inilti-zarıltı kəsilir. Camaat Sumu Sultana nifrət edirsə də, onun gözəl qızını çox istəyir. Qız hərdən külafirəngidə görünəndə elin qızı, gəlini onun tamaşasına çıxır. Qızın başındakı gülgəzi kəlağayını yel vurub yellətdikcə hamını heyrət götürür, çünki onlar ilk dəfə qız başında belə ipək, güllü kəlağayı görürdülər.

Günlərin birində Sumu Sultanın gözəl qızı ovçu oğlana vurulub, Ağçay dağlarına qaçır. Oğlanla qız uca bir qayanın kahasında yaşayırlar. Onların bir qızı da olur.

İntiqam hissi ilə yaşayan Sumu Sultan oğlanı ələ keçirib, boğazından asdırır. Oğlanın ölüm xəbəri qıza çatır. Qız beşiyi qoluna keçirib deyir:

-Oğlan qala, qız qala,
Qaya üstə qız qala,
Heç allaha rəvadı,
Oğlan ölə, qız qala? **(Ə.18; s.32).**

## QƏBƏLƏ QALASI

Qədimlərdə Qəbələ qalasının dörd bir yanı su olub. Ona görə də qalaya birbaşa hücum etmək çətin imiş. Hətta Əli adlı qüvvətli bir cavan da bu qalaya daxil ola bilmirmiş. O, qalanın sirrini öyrənmək üçün bir yerli qadınla evlənir. Qadın ona öyrədir ki, suya saman tök. Saman suyun burulğanına düşəcək, oradan da axıb gedəcək. Onda bil ki, qalaya keçid oradandır.

Əli bu sirri biləndən sonra qalanı ala bilir ? **(Ə.18; s.40).**

***

Makedoniyalı İsgəndər çox cəhd göstərir, amma ətrafı su olan əzəmətli Qəbələ qalasını ala bilmir.

Qəbələ xanının qızı isə İsgəndəri görüb ona vurulubmuş. Qız İsgəndərə məktub yazır ki, əgər məni alsan, qalanın yolunu sənə deyərəm.

İsgəndər razı olur.

Qız İsgəndərə belə bir kağız yazır: hökmdar, suya bir qucaq saman tök, izi ilə qalaya gir.

Bundan sonra İsgəndər qalanı ələ keçirir ? **(Ə.18; s.40).**

## PƏRİ QALASI

Böyük torpaq sahibi olan varlı bir kişinin Güllər və Pəri adlı iki qızı olur. Qızlar bir gün dağlara gül-çiçək yığmağa çıxırlar. Həmin gün uzaq obadan da bir dəstə adam bu yerlərə gəzməyə gəlir. Onlar qızları uzaqdan görüb, tutmaq istəyirlər. Qızlar məsələni duyub qaçırlar. Gələnlər atlı, qızlar piyada. Gülləri tuturlar. Pəri isə qayalar arasında gizlənir.

Atlılar Pərini tapa bilmirlər. Gülləri aparırlar.

Pəri bu xəbəri atasına çatdırır və deyir:

- Düşmən qapımızı tanıdı, onlar bir də gələcək. Ata, kəndimizin üstündəki dağın başında bir qala tikdir, düşməndən qorunmaq üçün. Bu düzdə bir güllük saldır, hər baxanda Gülləri yada salmaq üçün.

Ata qızının məsləhətini bəyənir. Dağda möhtəşəm bir qala tikdirir, düzdə isə güllük saldırır.

Dəstə başçısı Güllərlə evlənir. Bir gün oğlan soruşur:

- Görən, yer üzündə səndən gözəl, sənə bərabər ikinci bir gözəl varmı?

Güllər deyir:

- Bəli, var! O mənim balaca bacım Pəri xanımdı. O məndən çox gözəldir, mən onun yanında nəyəm ki. Ona bərabər gözəl olmaz.

Oğlanın əhvalı dəyişir. Öz-özünə deyir: «Hər necə olsa, onu ələ keçirməliyəm. Bu yolda öldü var, döndü yoxdu».

Oğlan bir qalayçı körüyü də götürüb həmin yerlərə gəlir. O, kənd-bəkənd gəzə-gəzə Güllüyə çatır. Bir qarıya qonaq olur. Söhbət edirlər. Qarı söhbəti Pəridən salır, deyir:

- Bu kəndin ağsaqqalının iki gözəl qızı vardı. Qızlardan birini dağlardan götürüb qaçırdıllar. Kişi o biri qızına uca dağ başında qala tikdirib, onu oraya qoydu. Atası xiffətdən öldü. Bu güllüyü qızı Güllərə, dağdakı qalanı Pəriyə yadigar qoyub getdi.

«Qalayçı» səhər körüyünü də götürüb Pəri qalasına qalxır. Kənizlər

Pəri xanıma xəbər verirlər ki, qapımıza bir qalayçı gəlib, razı olsan, qab-qacağı verək, qalaylasın.

Pəri razılıq verir. «Qalayçı» işə başlayır. Xeyli keçmiş birdən qışqırır. Kənizlər səsə gəlib soruşurlar:

- Qərib oğlan, nə oldu?

- Heç, dişim ağrıdı,- əli ilə çənəsini tutur.

Kənizlərdən biri deyir:

- Pəri xanımın belə şeylərdən başı çıxır. Gedib deyək, bəlkə, kömək elədi. Xəbər Pəri xanıma çatdı. Pəri xanım dedi:

- Qoyun, gəlsin.

Pəri xanım oğlanın dişinə baxan kimi onu tanıyır. Bircə ağız qışqırır:

- Bunu tutun!

Gözətçilərə xəbər çatana kimi «qalayçı» quş kimi pırıldayıb aradan çıxır. O öz yerinə gəlib qoşun toplayır. Pəri qalasına hücum eləyir, qalanı ələ keçirir.

Pəri lağımla yaxındakı kahaya qaçır. Düşmən onu izləyə-izləyə buraya da gəlir. Pəri yaxa qurtara bilməyəcəyini görüb özünü qayadan atır **(Ə.18; s.40-42).**

## MARAL SƏXAVƏTİ

Oğuz rayonunun Xaçmaz kəndi yaxınlığında kiçik bir kənd var imiş. Dağdan gələn güclü sel bu kəndi və onun adamlarını məhv edir, təkcə təzə doğulmuş bir oğlan uşağının beşiyi ağac budağına ilişib qalır.

Sel səngiyəndən sonra bir ana maral balaları ilə buraya gəlib çıxır. O, beşiyi buynuzuyla yerə endirir. Maral uşağı əmizdirir. Oğlan böyüdükdən sonra maralları boyunduruğa qoşub meşədən ağac daşıyır, ev tikir. Evin ətrafında iri daşlardan marallara duzdaq düzəldir. O qocalıb öləndən sonra marallar gəlib onun qəbri üstündə göz yaşı tökərmişlər. Belə deyirlər ki, həmin yerdə ara-sıra indi də maral görünməkdədir ? **(Ə.18; s.52).**

## MƏMMƏDMİRZƏ NƏSLİNDƏNDİ, NƏ DESƏN GÖZLƏMƏK OLAR

Bir kənddə Paşa kişi adlı bir kişi Xədicə adlı arvadı ilə yaşayırdı. Onun Məhəmməd adlı bir oğlu var idi. Paşa kişi dəmirçi idi. Kəndin xeyir və şərində yaxından iştirak edirmiş. Kənddə sevildiklərini görən ailə belə qərara gəlir ki, elə oğullarına bu kənddən qız alsınlar.

Onların oğlu Məhəmməd həm geyiminə, həm də davranışına görə

başqa gənclərdən fərqlənirdi. Məhəmməd bəzən fikirlərini demək üçün sözlərini şerlə ifadə edirdi.

Bəzi gözügötürməyən cavanlar Məhəmmədə paxıllıq edirdilər, yersiz sözlər atırdılar. Məhəmməd bəzən evə kefsiz gəlirdi, fikrini atası ilə bölüşərdi.

Bir dəfə Məhəmmədi kənddə olan Məmmədmirzə adlı bir oğlan qonaq çağırır. Anası razılıq vermək istəmir, heç Məhəmməd özü də getmək istəmir. Məmmədmirzə əl çəkmir ki, çəkmir. Məhəmmədi götürüb gedir:

Gəlirlər Məmmədmirzəgilə. Oturub yeyib-içirlər. Məhəmməd məclisdə kəndlərinə həsr etdiyi şerdən bir parça söyləyir:

Armux oylağımdı bilin!
Axu yaylağımdı bilin!
Çöl-bayır yazdığımdı,
Karvan qonaq bağımdı.
Çayqoşan kababxanam,
Göbür seyrəngahımdı.

Bu şer kənd cavanlarını qəzəbləndirir, hərə öz bildiyi kimi danışır. Gənclər belə qərara gəlirlər ki, Məhəmmədi öldürsünlər. Guya Məhəmməd deyir ki, bu kənd mənimdi, nə istəsəm edə bilərəm.

Bu işin təşkili üçün tədbir görülür, vaxt müəyyənləşdirilir.

Məhəmmədin başını kəsmək Məmmədmirzəyə, onu evdən çağırıb gətirmək isə kənd cavanlarına tapşırılır.

Yaz idi. Hər yer yaşıllaşmış, çiçəklər açılmış, təbiət öz yaşıl donunu geyinmişdi. Belə bir əziz gündə dostları Məhəmmədi çağırmaq üçün Məhəmmədgilin evinə gəlirlər. Paşa dayı uşaqları evə dəvət edir, qonaq olmalarını xahiş edir. Bu çağırış atanın xoşuna gəlmir. Oğlunu buraxmaq istəmir, Məhəmməd də getmək istəmir.

Dostları əl çəkmir, Məhəmməd naəlac qalıb onlarla gedir. Bir qədər keçir, atanın qəlbinə narahatlıq dolur. Durub oğlunun dalıyca gedir.

Kəndə çıxır, rast gələn adamlardan oğlunu soruşur, ataya oğlunun bir dəstə cavanlarla çaya tərəf getdiklərini söyləyirlər.

Uzaqdan bir dəstə adamın çayın kənarına yığıldığını görür. Ata tez özünü ora yetirir. Atanı görən kimi hərəsi bir tərəfə dağılışır.

Atanın şübhəsi artır, qıçları tutulur. Yaxınlaşanda oğlunun başının kəsilib üstünə qoyulduğunu və hələ canının çıxmadığını gördü.

Ata özünü itirmədi. Adamların uzaqlaşdığını görüb özü də geri qayıtdı ki, adam gətirib oğlunu evə aparsın. Bu acı, dəhşətli səhnə atanı çıxılmaz vəziyyətdə qoydu.

Ata oğlunu kənddə basdırmadı, kənddən çıxarkən camaat arasında dedi ki, Məmmədmirzə də əldə ölməlidi. Onun ölümündə qırmızı xalat geyinib uzun illər saxladığım bu saqqalı onun qapısında qoyulmuş daşın üstündə oturub qırxdıracam.

Məhəmmədin ölümü kənd camaatını narahat etdi, hamı meyitin kənddə basdırılmasını təklif etdi, lakin ata razılaşmadı.

Payız ayı idi. Xəbər çıxdı ki, Məmmədmirzənin başını Göbürdə kəsiblər. Necə oldusa bu xəbər Muğanda Paşa kişiyə çatdı.

Məmmədmirzənin meyiti qapıdan çıxarılanda camaat gördü ki, Paşa kişi qırmızı zərli xalatla dediyi daşın üstündə oturub saqqalını qırxdırır.

Hamı əvvəlki kimi Paşa kişi ilə görüşdü, onu evlərinə qonaq apardılar.

İndi Baş Daşağıl kəndində azca zalımılığı olan adamlara rast gələn kimi deyirlər, Məmmədmirzə nəslindəndi, ondan nə desən gözləmək olar ? **(S.21; T.40)**.

## QƏDİMİN DAŞI

Bir kəndə Qədim adlı bir kişi öz ailəsi ilə birlikdə gəlmişdi. Kəndə gələn kimi ona Topal Qədim deyə ləqəb qoydular. Qədimin arvadı həm cavan, həm gözəl, həm də çox zövqlə geyinən bir qadın idi. Yoldaşının şikəst olmasına baxmayaraq, onunla səmimi dolanardı.

Bir gün qadın çaydan su gətirəndə küçədə duran kişilərin biri Qədimin yanında deyir: «Ovlamaq lazımdı». Qədim daha ehtiyatlı olur, fikir vermir.

Bir gün arvadı Qədimə bildirir ki, həmin adam ona xəbər göndərmişdi. Qədim çox narahat olur, qərib kənd və özünün şikəst olması, gücsüzlüyü onu sıxır, çıxış yolu axtarır, qisas almaq fikrinə düşür. Paşa kişi bu kənddən getdiyi üçün Qədim özünü çox qərib hiss edirdi.

Həyat yoldaşını da heç kəslə ünsiyyət etməyə qoymurdu.

Bir gün Qədim haradansa bir köhnə qəmə tapıb gətirir. Bir neçə gün onun pasını təmizləyir, itiləyib qınına qoyaraq belinə bağlayır. Qədim arvadını aparıb atası evinə qoyur, özü kəndə qayıdır.

Hər axşamçağı Qədim kənd camaatı ilə məscidin qabağına gedirdi. Bəzi vaxtlar ona toxunan söhbətlər edirdilər. Bu acı səhnələr, qəriblik, çətin yaşayış onu sıxır, özünə yol axtarırdı.

Ailəsinə xor baxmaq fikrində olan bədəncə iri, çiynində qoyun dərisindən tikilmiş bürünəcək olan, öz yaşayışından, geyimindən razılıq edən adamları izlər, onları təklikdə görmək istərdi.

Nəhayət, bir gün bu iki nəfər bürünəcəkli küçə daşının üstündə oturub söhbət edirdilər. Qədim də yavaşca gedib bunların yanında, daşın üstündə oturur. Onlar Qədimə gülürlər, onu təhqir edirlər. Qədim onlara fikir vermir. Kişilər bürünəcəyə möhkəm bürünüb özlərindən razı halda oturmuşdular. Qədim qəməyə əl atır, sakitcə kişinin qarnına soxur, ikinci kişi qalxmaq istəyərkən onu da ürək nahiyə-

sindən vurur. Hər ikisi yerindəcə qalır.

Qədim onlardan aralanıb yoxa çıxır. Bütün kəndi gəzirlər, Qədimi gördüm deyən olmur. Uzun axtarışdan sonra bir nəfər deyir ki, Qədim cümə günü səhər-səhər Uğanın qabağında namaz qılırdı. Kənd camaatı yığılıb Uğana Qədimi axtarmağa gedirlər.

Qədim tapılmır ki, tapılmır. Ruhanilər Qədimin yaxşı insan olduğu üçün onun qeyb olduğunu güman edirlər.

İndi kəndin küçəsində qoyulmuş böyük daşa xalq arasında «Qədimin daşı» deyirlər **(T.40)**.

## İTMİŞ İMRAN

1959-cu ilin yayı idi. Kəndin yanından axan Ulu çayda su həmişə bulanıq olardı. Bu yay isə su çox duru idi. Dörd nəfər uşaq çaya çimməyə gedir. Uşaqlardan biri Həşim kişinin oğlu İmran idi.

Uşaqlar paltarlarını soyunub suya düşür. Uşaqlar sudan çıxırlar, lakin İmranı görmürlər. Uşaqlar İmranı çağırır, axtarır, suyun bu dayaz yerində yoxa çıxması uşaqları narahat edir.

Çayın qırağında İmranın paltarlarını görən uşaqlar yenidən narahat olurlar. Yəqin edirlər ki, İmran sudadı.

Paltarları nəzərdən keçirəndə görürlər ki, İmranın ayaqqabıları yoxdur. Belə güman edirlər ki, İmran haradasa gizlənib, onlarla zarafat edir.

İmranı tapmadıqları üçün gəlib evlərinə deyirlər ki, İmran paltarlarını soyunub ayaqqabılı harasa gedib. Ata və ana çox səsləyirlər, heç bir səs eşidilmir. Ailəyə matəm çökür, ata-ana, bacı-qardaş gecə Uğanın qabağında qalır, məşəl yandırır. Ocaq qalayır, İmranı səsləyirlər. Heç bir səs eşidilmir. Vəziyyəti belə görən kənd camaatı 400 nəfər məktəbli ilə İmranı axtarırlar, uşağın heç bir izi tapılmır.

Atası Həşim kişi it gətizdirir, axtarırlar, heç bir iz tapılmır. Bu vəziyyəti görən kənd əhalisi əvvəlki rəvayətlərə əsaslanaraq İmranın Uğanda çox gec-gec görünən Ağ atlı oğlan tərəfindən aparıldığını söyləyirlər.

Ata İmranı axtarır, hazırda üç oğlu olmasına baxmayaraq hər dəqiqə itmiş oğlunu axtarır, nə vaxtsa gələcəyini gözəlyir **(S.21; T.40)**.

## KƏRİM BABA HAQQINDA RƏVAYƏT

Kəndimizdə bir ziyarət var. Adı Kərim babadı. Onun necə ziyarət olduğu haqqında kəndimizdə belə bir rəvayət danışılır. Bir gün bu ziyarət görür ki, camaat ondan gileylidi. Səbəbini soruşur. Bir nəfər deyir:

– Ay Kərim baba, sənə ki, deyirlər ziyarətsən. Əyər doğrudan da zi-

yaratsənsə, niyə bir yağış yağdırmırsan? Görmürsənmi, nə qədər vaxtdı yağış üzünə həsrətik, taxılımız yanıb, yaşıllıxdan əsər-əlamət yoxdu?

Ziyarət deyir:

– Yaxşı.

O, hamını yığıb gedir qəbirstanlığa. Orda hamı namaz qılır. Qalxıb hamı gələndə Kərim baba deyir ki, indi qocalar çuxalarına bürünsün, cavanlar qaçıb özlərini daldaya çatdırsınlar. Həmin vaxt hava buludsuz imiş, möhkəm isti varmış. Elə o anda güclü yağış başlayır. Qocaların dediyinə görə az qala kəndi sel aparırmış.

Hazırda həmin ziyarətə kəndimizdə hamı inanır, onun ziyarətinə başqa yerlərdən də çoxlu adamlar gəlir. Onun qəbri kənd adamları tərəfindən qorunub saxlanılır. Ziyarətin öz vəsiyyətinə görə hər cümə günü öz varisləri onun qəbri üstünə gedir **(T.40)**.

## YEDDİ QARDAŞ, BİR BACIDAN UZAQ OL

Deyilənlərə görə dünyanın dərd-qəmini görmüş bir qardaş və bir bacı varmış. Bir gün bu qardaş pis xəstələnir. Bacısı ağlayır, sızlayır, Allah-taaladan imdad istəyir. Bu günlərdə bunların qapısına bir falçı gəlir. O deyir ki, sənin qardaşın sağalacaq, amma o həyatdan cavan, kam almamış köçəcək. Sənin qardaşını ilan vuracaq və o çaya düşəcək. Bacının dərdi ərşə qalxır. O, falçını qapıdan qovur. Ağlayır, özünü çırpır və bu əyalətdən baş götürüb gedir. Qardaş-bacı gəlib başqa bir əyalətdə məskən salır. Günlər bir-birini əvəz edir. Bunların yaşadığı kəndin yaxınlığında yeddi qardaş və bir bacı ilan ailəsi yaşayırmış. Oğlan təsadüfən bu ilanların bacısını öldürür.

Aradan xeyli vaxt keçir. Falçının sözləri bacının yadından çıxır. Bunların yaşadığı kəndin yaxınlığında bir çay varmış. Bir gün bu çaya sel gəlir. Hamı çaya baxmağa çıxır. Bacı qardaşı ilə çaya baxmağa gəlir. Oğlan təpənin qırağında durur. Həmən oğlan öldürdüyü ilanlardan biri oğlanı çalır, oğlan çaya düşür. Bacısı da dözə bilməyib özünü çaya atır. O vaxtdan kəndimizdə həmişə deyirlər: yeddi qardaş, bir bacıdan uzaq ol **(T.40)**.

# NAĞILLAR

## ÖLÜSOYAN MOLLA

Biri varıydı, biri yoxuydu, bi kişi varıydı. Habu kişi qocalıf əldən düşüy. Oğluna diyi, gedip habu kətdə meyitsoyan, kəfəni satıf içən mollanı gətirsin. Gətiriylər. Kişi kəfəni beş manata satiy. Kişi diyi, əlli manat verin, mənim kəfənimə dəyməsin. Molla ölüy. Vəsi eliyi, namaz qıldığı balaca xalçanı honun altına salsınnar.

Qırx günnən sora molla xalçanı düşünüy. Molla honun qabrunun yanına gəliy. Bi deşik görüy. Bu deşikdən içəri giriy. Kişini o xalçada namaz qılan görüy. Bi ilan ağzınnan çıxiy, honu sanciy. Ho da şişif göy tuluğa dönüy. Ho xalçanı mollaya veriy, diyi: bir şərtlə, oğlannarıma di, sizdən aşağıda səysən yaşda bi qoca qızı nətəər olur-olsun razı salsınnar. Ho maa halallıx versin, qaburda rahat yatım. Habu ilan məəm qıza qarşı olan dilimin bəlasıdı.

Ölüsoyan gidiy.

Günnər keçiy. Biddən kişinin sözdəri mollanın yadına düşüy. Kişinin oğlannarının yanına gediy, honun sözdərini holara çatdıriy. Oğlannarınnan biri qarıya elçi gediy. Qarı halallıx vermiy. Yekə oğlu soradan beş at yürknən qızılnan gediy. Yox cavabı alıy.

Kişinin kiçik oğlu Məkkədən gəliy. Ho elçi gediy. Qarı helə biliy honu aldadiy. Sora biliy aldatmiy, razı oliy. Oğlan «gəlini» gətiriy. Toya hazırlıx gediy. Toy oliy. Allah- Taalanın köməhliyiynən qarı cavan qızı doğiy. Oğlan honnan öyləniy, xoşbəxt oliy.

Bi gün yuxuda atasını göriy. Atası honnan razılıx ediy **(S. 204;T. 12).**

## BƏXTİNİ AXTARAN KASIB

Biri varıydı, biri yoxuydu. Bi kasıbların kasıbı kasıb varıydı. Bi günüsü kasıb arvadına diyirki, mənə yol ehtiyatı gör, baxdımı axtarmağa gedirəm. Arvad kisənin küncündəki arpa ununu əliyib xamır eliyir. Habu xəmirdən lənbəki boyda iki xam çörək bişirir. Kasıb çörəyi torbasına salıb yola düşür. Az gedir, üz gedir, dərə-təpə düz gedir, qırır yolun dabanını, gəlib bir şəhərə çıxır. Şəhər bazarında nurani bi qoca nar satırdı. Qoca kasıbı görən kimi yanına çağırıb diyir:

-Ay oğul, sözdü adama oxşuyursan. Di görüm, nə dərdin var, əlac eliyim?

Kasıb diyir:

-Mənim dərdimə nə əlac eliycisən, mən öz baxdımı axtarıram.

Qoca diyir:

-Ay yazıq, özünü yorma, gəl mənim yanımda dayan, nar satmağa kömək eylə. Axşam qəpik-quruşunu mənnən al, get başını dolandır.

Kasıp:

-Neçəyə satım narı?

- Bir qəpiyə.

- Neçəyə almısan?

- Bir qəpiyə.

- Aldım qoz, satdım qoz, qazancı toz-toz.

Nurani kişi bazarın yanındakı yekə öyləri gösdərif diyir:

- Ho öyləri nar satıf qazancı ilə tikdirmişəm.

Kasıf:

- Ha, honda sataram.

Kasıf bi neçə gündə narı satıf kurtarır. Bir dənə nar artıx qalır. Nurani kişiyə diyir:

-Bi dənə nar artıx qalıf, gör kim var. Habu narı aparıf səən öyünə çatdırsın. Bilsinnər kı səən filan şəhərdənsən.

Kasıf şəhəri gəzif dolanır, münasib bir adam tapıb narı ona verir. Ho da narı aparp kasıbın öyünə çatdırır. Ac uşaqlar narı görüb ağlaşıllar. Analarına diyillər kı, onu kəsif bizə payla, ağzımızın suyunu kəsək. Arvad narı kəsəndə nə görsə yaxşıdı? Narın içi ləl-cavarihatnan doludu.

Arvat ho saat usda çağırıp diyir:

Ho öyün yanında helə bir imarət tikərsənki, şahlar tamaşısına gəlsin.

Nağıl dili yüyrək olar. Usta öyü tikib kutarır. Köhnə yasdı-yapalax binanı yernən yeskan eliyir. Camaat kasıb arvadının başına pərvanə kimi dolanır. Çibin qana yovuşar-deyərlər. Kasbın arvadı qaravaşlara, qulluqçulara diyirki, haburalara bi adam gələrsə, ağlıyıf özünü yuvasız quş kimi hora-bura çırpırsa, mənim yanıma gətirin.

Kasıp genə də nar satmaqdaydı. Nar kutaranda köhnə bir nar artıx qalır. Kasıb narı nurani kişiyə göstərif deyir:

- Bir nar artıx çıxıb.

- Artıx çıxıb-çıxıb da. Ho da sənin olsun. Götür, get ho narı da. Ailəni gör, sora genə gələrsən.

Kasıb söyünə-söyünə narı götürüb kəndə yollanır. Az gedir- üz gedir, dərə- təpə düz gedir. Qırır yolun dabanını. Gəlir öz oyləri olan kəndə çatır. Görür ki, öy yernən yeksan olub. Yanında altı dəryadan, üstü buluddan nəm çəkən binə tikilir. Öz-özünü didib tökür, başına, gözünə döyüb ağlıyır:

-Vay, öyüm yıxıldı! Habu nə işdi, mənim başıma gəldi!

Habu vaxt qaravaşlar kasıbı hop götürüb saraya aparırlar. Hamamlandırıb, geyindirp təzə bəy kimi bəzəndirirlər. Yedizdirip içizdirirlər. Kasıbın qarnı doyan kimi durup qaçmaq istiyəndə arvadı habu yandan çıxır.

-Ay kişi, hara qaçırsan, öz öyündü.

Əhvalatı arvad ərinə danışanda ho ikinci narı kasıp arvadına verir:

-Arvad, al habunu.

Arvad görürki, habu narın içi ləl-cəvahiratnan doludu. Kasıb arvadına diyir:

-Qoy, gedim nurani kişiyə sağ ol deyim.

Kasıb az gedir, üz gedir, dərə- təpə düz gedir, qırır yolun dabanını. Gəlip nurani kişi olan şəhərə çatır. Bazara gedir. Bazarda nə nurani kişi var idi, nə də onun göstərdiyi öylər. Öz-özünə deyir: «Yarəb, habu nə sirdi? Mən baş aça bilmirəm?»

Biddən qulağına bir səsə gəlir. Habu nurani qocanın səsi idi:

-Ay kasıf, axtarma məni. Sən məni tapa bilməzsən. Mən sənin baxdınam.

Ho vaxtdan kasıplığın daşını atır **(T. 43).**

## ÜÇ BACI

Biri var idi, biri yoxuydy. Bir kişiynən bir arvad varıydı. Holarında bir qızı varıydı. Qızların atası əkinə gedərdi. Kişiyə arvadı hər gün aş bişirip qızlarla ərinə yolluyardı. Qızlar da aşı yiyib öyə qayıdardılar. Analarına deyərdilər ki, ana, aşı aparıp atamıza verdik. Kişi axşam öyə qayıdanda arvadına diyir:

-Arvad, mənə nə üçün yemək göndərməmisən?

Arvad deyir:

-Hər gün aş göndərirəm.

Kişi deyir:

- Arvad, gəl səhər tezdən quyu qazaq, quyunun da ağzına palaz salaq. Palazın üstünə də sənin üzüyünü qoyaq. Qızlara deyək ki, üzüyü tez kim götürsə üzük honundu.

Onlar dedikləri kimi də elədilər. Qızların üçü də palazın üstünə qaşdılar. Üçü də birdən gumbultu ilə quyunun içinə düşdülər. Qızlar bir neçə gün quyunun dibində ac - susuz qaldılar.

Balaca bacı dedi:

- Bacılarım, gəlin, əllərimizlə quyunu qazıb çölə ataq.

Qızlar quyunu qaza-qaza bir töləyə çıxdılar. Holar gördülər ki, tölədə üç köhlən at var. Bir kişi hər gün atlara bir çuval xurma tökür, çıxıb gedir. Kişi gedən kimi qızlar atların qabağına tökülən xurmanı yeyib gizlənirlər.

Kişi bir azdan töləyə gəlib görürki atların qabağında xurma yoxdu. Kişi təzədən atların axuruna xurma töküb qapının dalında gizlənir. Qızdar təzədən çıxıb atların qabağındakı xurmanı yiyəndə kişi qapının dalından çıxıb qızları tutur, padşahın yanına aparır. Padşah deyir:

- Ay qızdar, siz necə olub ki habura gəlmisiz?

Qızlar başlarına gələn əhvalatı padşaha danışıllar. Padşah böyük bacıdan soruşur:

-Sənin əlindən nə iş gəlir?

Böyük bacı deyir:

-Mən elə bir xalı toxuyaram ki, bütün camaat üstündə oturar, hələ yarısı da artıq qalar.

Padşah ortancıl bacıdan soruşur:

- Sənin əlindən nə iş gəlir?

Ortancıl bacı deyir:

-Mən elə aş bişirərəm ki, sənin ölkəndəki camahat yiyər, hələ yarısı da artıq qalar.

Padşah balaca bacıdan soruşur:

- Bəs sənin əlindən nə iş gəlir?

Balaca bacı deyir:

-Mən elə bir ekiz uşaq doğaram ki, kəkilləri qızıl kimi parıldıyar.

Padşah böyük bacını vəzirə, ortancıl bacını xəzinədara, balaca bacını isə öğluna alır. Böyük bacı da, ortancıl bacı da dediyi kimi edir. Nööbə balaca bacıya çatır.

Padşahın oğlunun bir arvadı var idi. Arvadı balaca bacıya deyir:

Sən balaca bacısan. Əgənəm doğası olsan şərtimizi pozma, bacadan doğarsan. Bacadan doğmasan, padşahın qəzəbi tutar, səni dara çəkdirər.

Günlər keçir, həftə olur, doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqədən sonra padşahın gəlininin vaxtı tamam olur. Çıxıb bacadan doğur. Gəlinin günüsü körpəni götürüb yerinə it küçüyü qoyur. Uşaqları isə oğlanın sandığına qoyub çaya atır. Sonra gəlib oğlana deyir:

- Bax, o, kəkilli qız uşağı doğacaxdı. İntası it küçüyü doğdu.

Oğlan qəzəblənib gəlini itin yuvasına bağlayır.

Bi günüsü bir çoban qoyunları çayın kənarına gətirir. O birdən görür ki, çayın içində bir sandıx var. Sandıx par-par parıldıyır. O tez çomağın əyri ucuynan sandığı çəkib sahilə çıxardır. Sandığın içinə baxır. Çoban nə görsə yaxşıdı? Sandığın içində bir qız , bir oğlan uşağı var. Kəkili qızıl kimi parıldıyır.

Çoban söyünə-söyünə körpələri aparıb öz arvadına verir. Arvad körpələrə qoyun südü içirdib böyüdür. Uşaqlar böyüyəndən sora çoban deyir:

-Uşaqlar, daa siz özünüzü dolandıra bilərsiniz. Gedib başınızı saxlıyın.

Uşaqlar az gedirlər, üz gedirlər, dərə-təpə düz gedirlər, gəlip bir kəndə çatırldar. Bir hasarın dibində baş-başa verib yuxuya gedirlər. Padşahın oğlu uşaqları görüb hayıl-mayıl olur. Tez uşaqları yuxudan ayıldıb soruşur:

-Sizin adıız nədi?

Uşaqlar diyir:

-Bizim adımız yoxdu.

Uşaqlar başlarına gələnləri padşahın oğluna danışır. Oğlan başa düşür ki, bular öz uşaqlarıdı. O qızı itin yuvasından açıb yerinə o biri arvadı bağlayır. Padşahın oğlu qırx gün, qırx gecə toy vurdurub ac qarınlar doydurur. Öz məqsədinə çatdığına görə Allaha şükür eliyir **(S. 39;T. 43).**

## QIZIL İLAN

Biri var idi, biri yox idi, bir kasıp arvad varıydı. Kasıp arvadın bir oğlu varıydı. Holar uçuq bir daxmada yaşıyırdılar. Yağış yağanda öyün içi suynan dolurdu.

Yay vaxdı daxmada ilanlar görünərdi. Oğlan ayaqyalın gəzməkdən ayağı qabar gətirmişdi. Anası bi tikə çörəyə ona-buna paltar yuyar, şirə şirəliyər, uşaq saxlıyardı.

İllər keçir, oğlan böyüyürdü. Ho vaxt nə oxumaq, nə də yazmaq var idi. Oğlan naxıra gedirdi. Ho naxırdan gec qayıdır, anası görür ki, oğlu ağlıya-ağlıya gəlir. O ağanın bir baş inəyini itiripmiş. Ağa oğlanı çağırıb əmr eyləyir ki, inəyi tez tapsın.

Qaranlığıydı. Yağış yağırdı. Oğlan əlacsız qalıb meşəyə yollanır. Biddən görürki, uzaqda bi cüt işıq parıldıyr. Az gedir, çox gedir, işıq gələn tərəfə iynə yarım yol gedir. Gedip yaxına çatanda adam səsi eşidir. Oğlan ürəklənip yaxına gedir, görürki, burda gözləri parıldayan boz canavar var. Canavar gözləriynən ətrafa işıq saçır. Görürkin gələn naxırçı oğlandı. Honnan hal- əhval tutur. Oğlan da başına gələnləri canavara danışır. Oğlan itən inəyi canavardan istəyəndə o deyir:

-Məəm körpə balalarım var, ağa nə vax döysə, incitsə ilanlı dərəyə gəl, mən səə kömə eliyərəm.

Səhər açılır. Ağa inəyin tapılmadığını eşidip oğlanı yanına çağırıp deyir:

-Ya inəyi tap, ya da komaazı başınıza uçurdacam.

Oğlan ağlıya-ağlıya ilanlı dərəyə yola düşür. Canavar oğlanı görən kimi tanıyır. Oğlan başına gələn əhvalatı canavara danışır. Canavar ağanın camışını parçalayıp yeyir. Ağa genə oğlanı yanına çağırıp onu döyür, hədəliyir. Oğlan ağlaya-ağlaya genə ilanlı dərəyə gəlir. O,

başına gələn əhvalatları canavara danışır. Canavar habu dəfə ağanın atını parçalayıb yeyir. Ağa lap vəlahürədən çıxır, azğınlaşır. Oğlanın daxmasını uçurdur. Daxmadan bir qızıl ilan çıxır, ağanı çalır. Oğlan daxmanın yanına gələndə görürki, ilan xəzinə üstündə yatıb. Oğlanı görən ilan yolunu dəyişib başqa tərəfə yollanır. Xəzinədə olan qızıl-gümüş, daş-qaş göz qamaşdırırdı. Demə, ilan oğlanın daxmasında yaşıyırmış. Oğlan ilanı hər görəndə ona süd- çörək verirmiş. Ona görə də ilan xəzinəni ona bağışlayır. Oğlan tezliklə varlanır. Altı dəryadan, üstü buluddan nəm çəkən bir saray tikdirir. Şahlar tamaşasına gəlir. Oğlan o qədər varlanır ki, ağanın oğlu, qızı ona baş əyir, ona nökər olur, qapsınıda mala gedirlər.

Bir gün ağanın oğlu boz canavara rast gəlir. Canavar dil açıb insan kimi danışır. Otardığı naxırın hansı ağanın olduğunu öyrənir. Canavar biləndəki kasıb, yetim oğlanın naxırıdı, o saat naxırçının üstünə cumub dişdərini şaqqıldadır. Ona naxırı boşlayıb getməyi tapşırır. Oğlan ağlaya-ağlaya öz ağasının yanına gəlir. Başına gələn əhvalatları ağasına danışır.

Axşam naxır otlaqdan qayıdanda sürüdən bir baş da əskik olmamışdı. Ho vaxtdan yetim oğlanın naxırı naxırçısız gedib gəlir. Oğlana xəzinə bağışlayan ilanın da adını yetim oğlan Qızıl ilan qoyur **(S. 113;T. 43).**

## BƏXTİ YATMIŞ CAVAN

Biri var idi, bir yoxuydu, bir cavan oğlan varıydı. Habu cavan oğlan ailəsiynən xoşbaxt yaşıyırmış. Habu cavanın iki oğlu varıymış. Ata minib yol gedirmiş. Yolda yerə yıxılmış bir qocaya rast düşür. Atdan düşüb qocanı qaldırmaq istiyir. Qaldıra bilmir. Axırısı qoca dillənir:

-Mən sənin yatmış baxdınam. Əgənəm isdiyirsənsə durum, isdəmirsənsə durmuyum, yatıf qalım, qocalanda ayağa qalxaram.

Cavan diyir:

-Yatmısan daa. Qocalanda durarsan.

Bir də görür ki, qoca yoxdu. Kəndə tərəf gedir. Görürki, hər yan sudu. Kənddən əsər- əlamət qalmıyıf. Nə də arvad -uşaqdan. O saat yol alır getməyə. Gəlif bi kəndə çatır. Başdıyır iş axtarmağa. Sifdə çayçı yanında su daşıyır. Sora mal otarmaqnan başını girrəmək istəyir. Bir qocaynan rastlaşır, hona diyir. Qoca onu öyünə aparır. Hara getmək lazım gəldyini başa salır.

Günlərin bir günüsü ho ölkənin padşahı ölür. Quş uçurdullarki, padşah seçsinlər. Quş gedib naxırçının başına qonur. Üç dəfə uçurdullar, genə honun başına qonduğu üçün axırısı honu padşah qoyullar.

Bu oğlan qocanı özünə məsləhətçi qoyur.

Günnərin bir günüsü padşah çölə baxırmış. Biddən görürkü, iki dərviş bir arvadnan gedir. Padşah adamlarına tapşırırkin holarıgətirin. Holarıhabura gətirirlər. Otağı yerləşdirirlərkin qapıda duran keşikçilər bir-birinə deyir:

-Bizim də ata - anamız vardı. Su hər yanı basdı, anam yoxa çıxdı. Heç bilmirik ki atamız hardadı. Arvad habu sözü eşidən kimi holarıgətirir. Qucaqlayıb öpür. Holar analarının dizi üstündə yuxuya gedir. Padşahın adamları habu vəziyyəti görüb, padşaha xəbər aparıllar. Padşah holarıasdırmaq istiyir. Asmaq isdiyəndə arvad hər şeyi danışır. Padşah söyünür. Öz ailəsiynən görüşür. Holar şad- xürrəm yaşıyıllar **(S. 195;T. 30).**

## GET, SAA ÖLÜM YOXDU

Biri var idi, biri yoxuydu. Bir padşah varıydı. Günnərin bir günüsü padşah bir kənddini yanına çağırıb soruşur:

- Sən məə cavab verməlisəən ki, habu dünyada insanın, heyvanın, ağacın, meyvənin pisi hansıdı. Səə üş gün möhlət verirəm. Cavab tapa bilməsən boynuvu vurdurcam.

Kənddi fikirri öyünə qayıdır. Arvadı honun fikirri olmasının səbəbini soruşur. Kənddi padşahın dediklərini arvadına deyir. Arvad ürək-dirək verib deyir:

-Hələ üç gün vaxtın var sorası da allah kərimdi.

Üş gün gəlip keçir. Kənddi ölümünün gözü qabağına alıb padşahın hüzüruna gedir. Yolda bir nəfər kişiyə rast gəlir. Kişi honun hara getdiyin soruşur. Kətdi padşahın honnan soruşduqlarını kişiyə deyir. Kişi hona deyir:

-Mən gələndə yolnan bir naşükür gedirdi. Qabağında eşşək, yükü ərik, əlində də yulğun ağacı.

Kişi habu sözdəri deyib yoxa çıxır. O yoxa çıxannan sora kəddi öz-özünə deyir: «Diyəsən, habu padşahın sualının cavabıdı».

Gəlip padşahın yanına çatır. Padşah suallara cavab istiyəndə kəndli deyir:

-Bi günüsü yolnan gedirdim. Qabağımca bi naşükür gedirdi. Qabağında eşşək,yükü ərik, əlində də yulğun ağacı.

Padşah habu sözdəri eşidip diyir.

-Habuları saa öyrədiblər.

Kənddi deyirki, yox, habuları özüm görmüşəm.

Padşah honda deyir:

-Get, saa ölüm yoxdu **(S. 195;T. 30).**

## BACIYLA QARDAŞIN NAĞILI

Biri varıydı, biri yoxuydu. Bi kişi arvadı, iki qızıynan Qarabaldır diyən kətdə yaşıyırdılar. Kşinin arvadı həmilə olur. Kişi bı qıznan arvadını öydən qovur, mahnası da ho olurki genə qızı olceh. Yola düşüllər. Ho arvadın qarannıxda oğlu olur. Qızı uşağı bükmək üçün şey axtarır. Öz-özünə diyir:

-Yaraf, nağarax? İllahkin, qarannıx da düşdü.

Habu vaxt uzaqdan işıx gələn dəyəni görüf söyünüllər. Hora gedillər. Qız içəri girif görürki, horda üş qoca var. Qocaların əynində də ağ uzun paltar var. Qocalar diyir:

- Becə olan uşağa baxd yazdıx. Birinci qoca diyirki, habu uşağı on beş yaşında dayça vuruf oldürcəh.

İkinci qoca diyirki, on beş yaşında ölməsə, yirmi yaşında ona ölüm verdim. Ho tut ağacınnan yıxılıf ölceh.

Üçüncı qoca diyirki, mən hona toy gecəsi ölüm verdim. Honu əjdaha yiycəh. İşdi, ölməsə nə qədər isdiyir yaşasın.

Qocalar sözünü kutaran kimi holar da, dəyə də yox oldu. Qız dala qayıdıf paltarını cırıf uşağı bükür.

Holar bı yerdə yaşamağa başdadılar.

Uşax yavaş-yavaş yekələnir. Daa on beş yaşına girmişdi. Uşax meylini məhlədəki dayçaya salmışdı. Qızın yadına ho qocaların sözü düşdu. Dayçanı zornan anasına kəsdirdi.

Gədə yirmi yaşına girmişdi. Tez-tez tut ağacına çıxırdı. Gənə qızın yadına qocaların sözü düşdü. Anasına zornan bu ağacı kəsdirdi.

Günnər keşdi, gədə öylənəsi oldu. Toy gecəsi ho qız əyninə dəmir paltar giyif, əlinə qılış götürüf bəyin otağının qapısını döydü. Qapı açıdan kimi gördükü, yuxarıdan hörümçək düşdü, əjdahaya çöyrüldü. Qız da əjdahanı oldürüf bəynən gəlinin kutardı. Holar xöşbəxt yaşadılar, siz də xoşbəxt yaşayın **(S. 195;T. 30).**

## BƏXTSİZ CAVAN

Biri varıydı, biri yoxuydy, bi paççah varıydı. Paççah dərviş paltarında səyahətə çıxır. Bi öydə qalası olur. Gecə hamı yuxliyənnən sora qonax yuxuda görürkü uzun qara paltarlı bir adam üstünnən keçir. Qonax honu tutuf niyə gəldiyini soruşur.

Ho adam deyir:
Habu öydə bi uşaq doğuluf. Hona taleh yazdım. Yirmi yaşında ho gədənin toyunda honu canavar yiycəh.
Gecdənnən qonax öy yiyəsinə diyirki gədənin toyunda honu çağırsın. Gedənin toyunda xəbər verillər. Qonax qoşun topluyur, gəlir. Kannan keçip bəynən gəlinin öyünün qapısını döyüllər. Atlılar qapını sındırıf içəri girirlər, görüllərki qız ağlıyır. Səbəbini soruşanda qız:
-Mən canavar oluf gedəni yidim – diyir.
Hamı kor-peşman öyünə gedir **(S. 69;T. 30).**

## TƏNHA QARININ NAĞILI

Biri varıydı, bir yoxuydu, bir tənha qarı varıydı. Habu qarı təndirdə əbbəh pişirif dolanırdı. Günnərin bi günüsü qarının ocağı sönür. Ho kösöy axtarmağa gedir. Gəlif dəvin yaşadığı yerə çıxır. Dəvdən kösöy istiyir, dəv qarını qazana salır. Yanındakı dəvlərə tapşırırki, qayıdıf gələnə kimi qarını bişirsinnər. Dəv görənnən sora ocağı qalıyıllar. Qarı qazan isindikcə qışqırırki qapağı bir az aralı qoysunnarki qarı nəfəs alsın. Bi gücüynən qapağı itəliyif üstündəki daşı yerə salır. Qapax açılan kimi içinnən çıxıf dəvləri qazana basır. Özü də kösöyü götürüf qaçır. Dəv gəlif görürkü yemək hazırdı. Heylə bilirki qarı ikiləşif. Birin yeyir, birin saxlıyır. Qarının yaşadığı yerə yola düşür. Qarının qoyunlarını yiyif, məhlənin ortasındakı ağaca baxır. Görürkü qarı ağacıın başında əppək bişirir. Honnan soruşurki ağaca necə çıxmısan. Qarı diyirki qıpqırmızı qızarmış sacayağı boynuna keçirif vici də üstünə doluyuf bi ucunu da hona versin. Dəv qarı deyən kimi iliyir. Ağaca çıxdıqca, vic dartıldıqca sac daha dərin gedir. Qarı vici kəsir. Dəv yıxılıf ölür. Qarı dəv ölənnən sora şad - xürrəm yaşıyır **(S. 29;T. 30).**

## QIXMIX QIZ

Biri varıydı, biri yoxuydu, bi gözəl saray vavrıydı. Habu sarayın qırx otağı varıydı. Qırxıncı otağın qapısı bağlıydı. Bi qız habu otağın qapısını açıb habu otaxda «ölən» gedənin üstünə qonan cücüləri qovur. Bi də baxıf görürkü, hər yan porruyuf, çirklənif. Otuz altı günnən sora təmizdik işdəri görür. Köşdən gələn bi qızı da gedənin yanına qoyur. Qırxıncı günü gedə özünə gəlir. Köşdən gələn qızı görür, honnan öylənir. Ho birisi qızı tanımaq istəmir. Qız çərriyif ölür. Honu məhlədə basdırıllar. Qabırın hər yanı gül-çiçəyə bürünür. Köşdən gələn qız gül-çiçəyi qırıf tökür. Yerində çinar bitir, kəsir. Yerində balca qıxmıx

qalır. Habu məhlədən hər gün bi qoca qarı su daşıyırmış. Qaynamanın qırağındakı qıxmığı götürüf su tökdü, sənəyin ağzına qoydu. Qarı hər gün su götürməyə gedəndə qıxmıx gözəl bi qıza çöyrülür. Qız təmizdik işi görür. Qarı öyə gəlif çaşıf qalır. Bi günüsü ho qızı tutur. Qız başına gələnlərin hamısını qarıya danışır. Otuz altı gün honun zulumunu nətəər çəkdiyini diyir. Qarı da bu xəbəri oğlana çatdırır. Oğlan köşdən gələn qızı qovur. Habu qıznan da qırx gün, qırx gecə toy eliyir **(S. 69;T. 30).**

## QİSMƏT

Bi paççah qızını başqa paççahın oğluna verməh isdiyir. İntası bi qoca habu qızın çobana getcəyini diyir. Paççah ho qızı qırxqız yeylağında, leylək yuvasında saxlatdırır. Bu quş da paççahın qızına qullux iliyir.

Qız da habu çobannan alışıf verişir.

Günnərin bi günüsü paççahın qızı qırmızı kəlağayısıynan çobanı yuvaya qaldırır.

Günnərin bi günüsü paççahın qızının körpəsi də olur. Paççah məsələdən xəbər tutuf barmağını dişdiyir **(S. 180;T. 30).**

## HƏMZƏNİN NAĞILI

Bi dənə kişi varıydı. Arvadı, bir də oğluynan yaman kasıb yaşıyırdılar. Kişi gedirdi ovçulux-zad eliyirdi, gəlip dolanırdılar. Oğlu da xırdaydı. Gedənin də adı Həmzəydi.

Gəldi bo uşax bir az böyüdü. Bı kişi öldü. Gedə gedirdi, gəzirdi bi şey tapbırdı yiməyə. Anası birnin paltarını yuyurdu, birnə xamır yoğururdu, birnə yorğan-döşək salırdı, onnan dolanırdılar. Bi günüsü gedə didiki, gedəcəm oyçulux eliycəm. Bir az ayın-oyun vurum gətirim, həm onu satım, həm də yiyək.

Gedə getdi, bir tüfəg aldı.

Didi:

- Ay ana, dədəmin peşəsi nəydi?

Didi:

- Dədən oyçuydu, həm də meşədən odun-modun qırıp gətirirdi, özümüzçün dolanardıx. Ana onun tüfəgi qalmıyıb?

Didi:

- Nə bilim, dama çıx gör.

Çıxır, baxır görürkü, paslanmış bi tüfəg var. Gedir onu qayıtdırır

dəmirçiyə. Götürür gedir. Anasına diyirki, pendir-çörək ver, mən gedim oya. Anası diyir:

- Sən nə bacarırsan, sən getmə.

Diyir:

- Yox, getməliyəm.

Getdi, gördükü bi dağ. Dağa çıxdı. Dağı çox axtardı, gördükü bir heyvan var, par-par parıldıyır, gün kimi yanıır.

«Allah, mən bunu nə təhər atım?» öz-özünə diyir. Atdı. Sora dərisini soydu. Ağacın üstünə salıb, paççahın öyünün altınnan yol var idi, ordan keçirdi. Paççah gördükü, bir uşaq bir dəri aparır, şirmayı dərisinnən, şahlara layıx şeydi. Vəzirinə diyir:

- Düş-düş, şirmayi dərisidi, onu al, gətir.

Getdi ki:

- Gedə, bu nədi?

Uşaq dediki oydu, vurmuşam. Dərisi parıllıyır, aparıram özümə. Didi:

- Gə, padççahın yanına.

Gədə çıxdı paççahın yanına. Dərini də apardı.

Didi:

- Ay oğul, bu dərini sən hardan almısan?

Didi:

- Dağdaydı, vurmuşam.

Didi:

- Neçəyə diyirsən?

Didi:

-Birinci işimdi, mən nə bilim? Qiymətini bilmirəm. Atmamışam, satmamışam. Bilmirəm. Özünə, insafına nə gəlir, ver.

Didi:

-Vəzir, get buna bir çanax qızıl ver.

Vəzir getdi bir çanax qızılı ölçdü, torbaya tökdü, buna isə bir qızıl verdi. Gedə bu qızılı cibinə qoyub getdi. Getdi anasının yanına.

Dedi:

- Ana, belə-belə iş görmüşəm. Vəzir qızılın hamısını götdü. Məə bir qızıl verdi.

Anası didi:

- Zərəl yoxdu.

Qızılı anasına verdi.

Sabahısı günü birsi padşaha qonax gəlmişdi. O padşah şirmayı dərisini vurdu ora. Qonax baxdı, didi:

-Paççah sağ olsun, bunu sən hardan almısan:

Didi:
-Almışam da. Puluynan almışam.
Didi:
- Bunnan mən də axtarıram, tapbıram. Puluynan ver məə.
Didi:
- Bunu kim ala bilər?
Didi:
- Mən. Padşah buna çox baxdı-baxdı, çıxıb getdi. Padşah vəziri çağırdı, didi:
- A vəzir, mənim bu otağımda nə çatmır?
Didi:
- Hələ səən otağında bahar fəsli çatmır.
Didi:
- Onu kim gətirə bilər?
Didi:
- Bunu gətirən köpək oğlu onu da gətirə bilər.
Çaparax Həmzəni gətirdilər.
Həmzə diyir:
- Nə fikirrəşirsən?
Padşah diyir:
- Sənnən bir bahar fəsli istəyirəm.
Didi:
- O harada olar?
Didi:
- Bilmirəm.
Didi:
- Harada olar, o gözüün içində, axdar tap.
Gedə piləkənnən necə düşürsə, bir Allah xəbər tutur. Anasına diyir:
- Ana, padşah mənnən bir bahar fəsli isdiyir.
Didi:
- Oğul, qorxma. Gedirsən, paççaha diyirsən, qırx dənə gəmi qızıl pulnan, qırx dənə də gəmi gümüş pulnan, özü də sənin pulunnan yox, vəzirin pulunnan. Onun da içi dolu gərmək, konfet, kişmiş, xurma isdiyirəm. Gedəcəksən, balıqların padşahının toyudu. Apar orda gələnə də tök, gedənə də. Balıxlar gedip xəbər vercəkki burda bir adam var. O, səni çağırcax.
Gəldi paççahın yanna.
Didi:
- İş var.
Didi:

- Nə iş var?
Didi:
- Qırx dənə qızıl gəmi, qırx dənə gümüş gəmi. İçi dolu gərmək. Verin buna. Dəryadan gedirəm. Sabayınnan gedirəm. Əma hamısı vəzirin puluynan olsun. Gəmilər dəryada od tutub yancax.
Didi:
- Vəzir, nə fikirrəşirsən?
Didi:
- Nə bilim?! Bilmirəm, nə fikirrəşirəm?! Gedim, düzəldim .
Getdi, düzəltdi. Daa öydə bir avadannıx da qalmadı, hamsını satdı. Gərməyi də doldurdu içinə.
Anası didiki, gedərsən qıraxda çinar ağacının yanında gəmiləri saxlıyarsan. Orda gərməyi basarsan balıxlara. O, səni çağıracax, balıxlar padşahı. Onda gedip diycəhki üsdə mənim bir oğlum var. Orda bir həftədi camaata gərmək verirsən. Nə səbəbə verirsən? Diyirsən ki eşitmişəm, balıxlar padşahının bir dənə oğlu var. Ona toy eliyir. Mən olara şirinnih paylıyıram. Onda balıqlar paççahı soruşcaxki nə isdəyirsən mənnən? Diyciysənki, bahar fəslini isdiyirəm.
Diyəndə ki, hamısı hazırdı, otdu, sürdü getdi.
Bir həfdədi, balıxlara gərmək verdi, xurma kişmiş, qanfet, hər şey.
Balıxlar padşahına xəbər getdi ki, əşi buratan yedirib bizi.
Didi:
-Gedin, unu mənim yanıma gətirin.
Gəlip apardılar.
Salam – didi.
Didi:
-Oğul, bir həfdədi balıxlara gərmək verirsən. Nə səbəbə unu verirsən?
Didi:
-Eşitmişəmki sənin bir oğlun var. Toy eliyirsən, bir həfdədi. Mən də şirinnih verirəm.
Didi:
-İsdə görüm, mənnən nə isdiyirsən. Sən məə bu yaxşılığı elədin.
Didi:
- Mən sənnən heç şey isdəmirəm. Biccə bahar fəslini isdiyirəm.
Didi:
-Baho, o mənim, arvadıma cehiz verip. Arvada diyim, görüm boyun qoyurmu?.
Arvada didi. Arvat da didi:
-O ki məəm oğlumun işinə u formu- camahata yemək, gərmək

verip, mən ona qurban eliyirəm. Aparsın.

Gəldi otdu gəmidə. Gəminin hamsını basdı, qırdı, tökdü dərəyə. Biccə gəmiynən getdi. Getdimi, bahar fəslini də apardı. Bahar fəsli getdi.

Didiki, salam.

- Əleykəsalam. Bahar fəsli.

Görürkü, çiçək, gül, hər şey. Baxır vəzir. Padşah vəzirə diyir:

- Buna iki çanax qızıl ver.

İki çanax ölçür. Qızılları torbaya tökür. Həmzəyə də iki dənə qızıl verir. Həmzə də qızılı cibinə qoyub gəlir anasının yanına.

Diyir:

- Ana, bu əziyyətə belə- belə elədi.

Anası didi:

-Zərəl yoxdu.

Paççah vəzirə dedi:

-Məəm öyümə daa nə yaraşır?

Didi:

- Çin paççahının qızı yaraşır bura. Səən arvaduvun günü keçip qocalıp.

Didi:

- Bahar fəslini kim gətirip, o köpəkoğlu bunu da gətirər.

Getdilər. Həmzə gəldi. Paççah didi:

- Get yat! Sabayınnan oturup gələrsən. Gedip Çin padşahının qızını gətirərsən.

-Fikirrəşdi, fikirrəşdi, gəldi anasının yanna, didi:

-Paççah indi də Çin padşahının qızını işdiyir.

Anası didi:

- Qəm eləmə. Bi dənə keyfini pozma. Üş dənə qızıl gəmi qayıtdır. Gəmiynən gedərsən Çin padşahının şəhərinin yanında dayanarsan.

Getdi də. Həmən yerdə dayandı. Əma qumaş paltar alıp satırdı. Elə qumaş paltar satırdıki parıldiyirdi lap lampa kimi.

Diyir, get bax. Mən də gedim baxım.

Qız gedip baxır. Həmzə diyir:

- Nəyə baxırsan? Gəl otur bunun üsdündə, hamısı var, bax, hansını isdiyirsən, götür. O satır hamsını.

Qız gəlirki bunnarı açıp baxa.

Gəmini işə salır.

- Ay aman, saxla, ay aman, saxla.

Saxlamır, götürür, gedir. Xəbər gəlib çatan kimi Çin paççahının qızını gətdi. Qabağına gedip gətdilər, qoydular öyə. Qız paççaha belç baxdı ki, qoçalıp, didi:

- Sən məni özuva gətirmisən, yoxsa oğluva?
Didi:
- Oğlum öylənip, ayrı yerdədi, özümə.
- Onda məəm atım var, gedip gətirsinnər, onu sağdırım, onun südündə çiməsən, olassan on beş yaşında oğlan, maa yarıyarsan, yoxsa yarımırsan maa.
Didi:
- Onu kim gətirər?
Didi:
- Məni gətirən gətirər.
Həmzəni çağırdılar.
Didi:
- Get Çin padşahının atını gəti.
Həmzə gəldi anasının yanına.
Anası soruşdu:
-Nolup?
Didi:
- Gəldi padşah didi ki, belə.
Anası didi:
-Paççaha diyərsən ki, dörd dənə gəmi qayırsın qızıldan. İçinə də saqqız alsın yığsın. Saqqız.
-Yaxşı.
-Saqqızı əridip atın belinə yapışdırıp , hoppanıp atın üsdündə oturarsan. Qızı da ötürərsən atın yanına. O at qalxacaq bəlkəm on metrə. Götürüp diycəh kin oğlan, isdə mənnən, görək nə isdiyirsən. Dinən səni filan şəhərə aparmax isdiyirəm. Əma, atdan düşsən, öləcəkəsən.
Gəldi padşaha didi. Padşah didi:
-Onu kim eliyə bilər?
-Vəzir.
Vəzir getdi bunu düzəltdi. Canaxnan qızılları almışdı axı!
Həmzə getidi həmən şəhərdə dayandı. O dayandığı yerdə. Atdar gəldi, töküldü. Beş dənə at. Saqqızı götürüb atırdı. Atdar ceyniyirdi. Bunun balaları. Saqqızı qırıp hazır elədi. Atın belinə basdı. Beş atın anasının belinə basdı. Özü hoppandı, çıxdı atın belinə. At qalxdı.
Didi:
-Mənnən nə isdəyirsən, Həmzə, isdə.
Didi:
-Sənnən heş şey isdəmirəm. Səni aparmax isdiyirəm. Filan padşahın yanına. Balalar qaldı. Həmzə işdi. Uçurdu. Gəmiləri saldı suya, qırdı, tökdü, hellədi.

Qız didikin gedin atı sağın. Qaravaşdar atı sağdı. Gətdilər bi tiyan. Tiyana tökdülər. Otağın içində, xalçanın üsdə. Tiyanda süd qaynayırdı. Padşaha didi ki soyun, otur içində.

Didi:

- Qardaş, mən qorxuram.

-Gir ora.

-Həmzə, gir bura!

Həmzə soyundu, atdı özünü tiyanın içinə. Oldu göççək bir oğlan.

Didi:

-Vur bunun boynunu.

-Bir-bir buların boynunu vurdu. Həmzə oldu padşah. Vəzir də belə getdi.

Olar yidi, işdi, yerə köşdü, siz də yeyin, ömrüüzə çatın **(S. 64;T. 30).**

## MƏHƏMMƏDİN NAĞILI

Biri varıydı, biri yoxuydy, bir paççah varıydı. O paççahın üç oğlu varıydı. Qızı yoxuydu. Doqquz ay, doqquz saat, doqquz dəqiqə, doqquz saniyədən sora paççaha didilərki arvadın ağrı çəkir. Paççah didiki qız olsa, mamaçaları qızıldan qəni eliycəm. Müxdəsəri, bunun qızı olur. Didilər qız döyül, cəvahirdi. Paççaha xəbər getdi ki, muşdulux bizim, qız sizin oldu.

Saa kimnən xəbər verim, paççahdan. Hamısını qızılnan qəni elədi. Mamaçaları yola saldı.

Bu uşax olannan sora ilxıdan bi dənə qoyun, bi dənə cöngə, inək yoxa çıxırdı.

Bi günüsü paççah oğlannarını çağırıb diyirki gedin görün düşmanımız kimdi? Əzəl böyük oğlunu çağırdı. Böyük oğlunun adı Əhmədiydi. Didi:

- Əhməd, ilxının içində gözdüyərsən, naxırçı nə bilərki, get gözdə.

Gedir gəzir dolanır. Gəlip ilxının içində də bir az gəzir, gözdüyür. Gedip yatır. Sabayınnan durur görurki bir yekə boğaz inək yoxdu. Diyir:

-Mən atama nə cavab vercəm?

Gəlir, sabah üzümüzə xeyirrihnən açılsın, sabah açılır. Gedir atasının yanna. Paççah soruşur:

- Tapdın düşmanını?

Diyir:

-Yox

Diyir:

- Canıva azar, niyə oturmadın, gözdəmədin?
Diyir:
-Ata, çox gözdədim, az gözdədim, yuxu məni hələk elədi, yıxılıp yatdım.
Paççah diyir:
-Çıx, çıx, sən adda oğlum yoxdu. O qan əndərmiş Hümbəti mənim yanıma gətir.
Hümbət gəldi.
Paççah didi:
- Ədə, düşmənivizi niyə tapbırsız?
Didi:
- Atayı-mehriban, məəm gözüm üşdə, taparam. Gedərəm.
Sabayınnan sabah üzümüzə xeyirrihnən açılsın, sabah getdi, gəldi, bir tüfəg götdü, xancal götdü, getdi.
Naxırçılarnan, güdənnərnən bir az danışdı, söhbət elədi. Qoyun kəsdilər. Kabab çəkip yidilər, işdilər. Didi:
- Bir az gedim yatım, işgimi yuxu aparsın.
Durduki, biy qarnı boğaz inək də yoxdu. Qan tökülüf yoxdu. Didi:
- Mən atama nə cavab vercəm? Gedir atasının yanına, diyir:
-Atayı- mehriban.
Paççah qəzəbləndi:
- Çıx, sən adda da məəm oğlum yoxdu. Get ölmüş Məhəmmədi göndər bura.
- Gəldi Məhəmməd.
Paççah didi:
- Ə, siz nətəri oğulsuz? Gündə bir cöngəmiz yox olur, inəyimiz yoxa çıxır, qoyunnarımız yoxa çıxır, nətəri oğulsuzki, tapbırsız?
Diyir:
- Atayı-mehriban, gözüm üsdə, mən gedərəm.
Didi:
- Sən də düşmanımızı tapbasam, üçünüzün də boynunu vurdurcam.
Məhəmməd gəldi, xançalı da götürdü getdi. Az otdu, çox otdu. Gördü yox, baxdı yox, yuxu bunu həlak eliyir.
Bular hamsı yidilər, işdilər, yatdılar. Bu işgi işmədi, kabab yidi. Gördükü xoruzdar bannıyır, bu hələkdi yuxudan ötrü ölür. Xançalı götürdü, qolunu belə yardı. Qan şarhaşarnan töküldü köynəyinin üsdünə. Qolunu tutdu bağladı. Qan kəsənnən sora ağrı da kəsdi. Qoysaydılar bu sahat yatardı.
Didi:
-Atama nə cavab verərəm?!

Durdu bir xışma düz tökdü yarasına. Yandı, yandı ərşə çıxdı. Bir də baxdıki bir dənə bələk gəlir, uşax bələyi. Bələk gələ-gələ oldu bi dənə əjdaha. Yumuldu cin kimi. Heyvanın qarnın cirdi, qan şarhaşar töküldü. Didi:

-Ədə, buna məəm gücüm çatmıycax, qan töküləndə qanı belə eliyip əlini bələyə vurdu. Ağ bələk. Bələyə qanın şiklini saldı. Bir sahatda qanı təmiz yaladı, bələyə girdi, getdi.

Öz-özünə didi:

-Gördünmü?

Gəldi öyə. Atasının yanına. Atasına didi:

-Atayı- mehriban!

-Nədi oğul, tapdın?

Didi:

-Tapbışam, bi dənə bələkdi. Dalına da əlimin nişanəsini vurmuşam. qannı.

Paççah əmr verdi:

- Bu kənddə, şəhərdə təzə olan uşaxları gətirsinnər. Bələyi də aşmasınnar, dəyişməsinnər. Mən una baxım.

Otdu paççahın hüzurunda. Qapını açıp gördü. Şəhərədə insan qalmadı, yaxın kətdərdə adam qalmadı.

Didi:

-Atayı-mehriban, yox, mən yalannan diyə bilmərəm. Öz çağamızı gətirin.

Paççah diyir:

-Mən ölmüşəm, məəm dünən olan cağam gələ bura.

Vəzir yanındakı adamlara diyir:

-Aləmin uşağına baxmısan, sən niyə gətirmirsən?

Didi:

-Gedin, gətirin!

Məhəmməd gördü ki, beş barmağını bələyə nətəər basıp, helə də qalıp.

Didi:

-Atayı- mehriban, budu.

-Didi:

-Yox!

-Didi:

-Atayı- mehriban, bunda gördüyümü görmüşəm.

Paççah didi:

-Bir sən olmuyasan, min sən olasan, mən öz uşağımı öldürərəmmi? Zornan bir qız tapbışam. Öldürmərəm.

Didi:
-Bir zaman bu şəhəri bu xaraba qoymasa, mən heş şey bilmirəm.
Gedə gəldi anasının yanına. Bələk gəldi, beşiyə bələndi.
Didi:
-Ana.
Didi:
-Ha!
Didi:
-Xurcuna bir az şor, pendir, çörək qoy, gedim. Mən baş alıp gedirəm.
Didi:
-Ay oğul.
Didi:
-Ana, mən bunda gördüyümü görmüşəm. Ana, bu əjdahadı. Dədəmi oldürməsə, borc olsun. Mən bunda gördüyümü görmüşəm, buranı xaraba qoycax. Anası didi:
-Nağarax, uşaxdı.
Didi:
-Yox ,bunda gördüyümü görmüşəm.
Çörək qoydu, pendir qoydu, bir az da qızıl tökdü xurcuna, gedə getdi. Bir dənə də at götürdü.
Didi:
-Ana, mən getdim, əma bir bax bu, şəhəri batırcax. Bu yanda gələn kəndi, kəsəyi, hamsını batırcax. Gedə getdi. Gedə az getdi, üz getdi, dərə-təpə düz getdi, bir meşəyə rast gəldi. Gördükü bu meşədə bir şey ıqqıldıyır:
- ı..ı..ı..
Məhəmməd öz-özünə düşündü: Görən, bu nədi?
Gördükü bu ahudu. Yanında da balca balası var. Ahulardan birsinin ayağına kol batıb. Düşdü atı bağladı, kolu ahunun ayağınnan çıxartdı, irin töküldü, dəsməlinnən yaranı bağladı. Üsdünə də dərməni sürtdü. Didi:
- Oğul, isdə görüm, mənnən nə isdiyirsən?
Didi:
- Sənə nə?
Didi:
- Bunun adı Alandı, bununku Talandı. Məəm bu balalarımı apar, bir zaman səən dadıva çatar. Götü, get.
Məhəmməd Alannan Talanı yanna saldı, ata mindi, getdi. Gedə az getdi, üz getdi, dərə – təpə düz getdi. Getdi bir şəhərə çatdı. Gördükü korun-korun bir şəhərin qırağında yanır. Yanır, keçir. Bir kasıp darva-

zasıdı bu. Darvazanı döydü, bir qarı çıxdı. Qarı didi:

-Kimsən, a bala?

Didi:

-Ay xala, o yannan. Mən yol adamıyam. Məni beycə Allah qonağı elə.

Qarı didi:

-Allaha da qurban, qonağına da.

Götdü, getdi. Alannan, Talanı da qarının bir qazması vardı, saldı ora, bir az da yem verdi.

Məhəmməd arvadın öyündə qaldı. Arvatnan söhbət elədilər. Qarı didi:

- Oğul, məəm oğlum yoxdu. Bi qızım var, o da şəhərdə. Qal məə oğul ol.

Didi:

- Yaxşı

Sabayınnan qarı didi:

- Paççahın qızın saa alcam.

Didi:

-Səə qız verəllərmi, ay qarı nənə.

Didi:

-Yox gedəcəm. Elçi daşının üsdündə oturup gözdüycəm. Getdi. Nökər-nayib çıxdı. Nökər-nayıb paççaha didiki, filan qarı, camahata fitnə - fəsaddıx verən qarı səən elçi daşıvın üsdündə oturupdu.

Didi:

-Gedin, nə isdiyirsə, verin. Parça isdiyir, pul isdiyir, un isdiyir, nə isdiyirsə verin.

Getdi, didi:

-Mən heç şey istəmiriəm. Paççahın balaca qızını oğluma almax üçün elçi gəlmişəm.

Didi:

-Gedin, onu gətirin yanıma.

Qarı gəldi. Paççah soruşdu:

-Ay qarı, nəəcəp gəlmisən?

Didi:

-Qızıva elçi gəlmişəm.

Didi:

-Axı, səən oğlun-zadın yoxuydu.

Qarı didi:

-Var.

Didi:

-Yaxşı! Oğlun sabayınnan gəlsin güləfrənginin altınnan belə keçsin, qızım sevsin. Qızım isdəsin, verim.

Didi:
-Baş üsdə.
Arvat yidi-işdi, durdu öyə gəldi. Gedəyə didiki sabayınnan o güləfrənginin altınan keçip get.
Getdi. Paççahın üş qızı vardı. Biri vəzirin oğlundaydı, biri vəkilin oğlundaydı, bu qız səllimdi. Didilər:
-Paççah, taxdın taxd olsun, yəhərin qannan dolsun.
Gedəni görcək qız özünnən getdi. Paççah didi:
-Daa özünnən niyə gedir, verərəm getsin da. Qarının oğlunnan ötrü özündən getdi?
Didilər:
- Hə!
Qızı ayıltdılar. Qız getdi.
Baxdı, öyü, eşiyi, yaxşı şərayitdi. Paççah oğluydu, palı, palazı, hər şeyi.
Bunnarın bir oğlu oldu. Müxdəsəri, iki oğlu oldu.
On il keşmişdi. Gedə yatdı. Atasını da, qardaşlarını da gördü yuxuda.
-Sən ölmiyəsən, buların başında bir iş var. Mən getcəm. Sabayınnan durdu, sabah üzümüzə xeyirrihnən açılsın, qıza didiki, maa çörək qoy, mən gedim.
Qız soruşdu:
-Hara gedirsən?
Didi:
- Orda, o yanda ata, ana qoymuşam, gəlmişəm. Mən paççah oğluyam. Mən gedim, atamnan, anamnan xəbər bilim, gəlim.
Qıza didi:
- Sabayınnan durarsan. Qatığa baxarsan, ağ oldu, yox, qan oldu, Alannan, Talanı açıp buraxarsan, məəm dalımca.
Sabah üzümüzə xeyirrihnən açılsın, sabah açıldı, gedə durdu getməyə, ata mindi, getdi.
Qız didi:
-Tez gəl, ha!
Gedə az getdi, üz getdi, gördükü, bu yollar bağlıdı, açıx yol yoxdy. Gördükü, bu yollarda adam- zad da yoxdu. Atasının yurdunnan nazik bi dənə tüsdü çıxır. İnsannar necə olup? - düşünür.
Az getdi, üz getdi. Gördü darvazaları taybataydı. Bacısı düşüpdü bir kor pişiyin dalınnan.
Daa insan qalmıyıp dünyada. Qardaşı, arvadı, atası, anası- bi dənə şəhər batıpdı. Bacısı da kor pişiyi qovur, indi tutcax. Öz- özünə diyir: Yaxşı günə qaldıx.
Darvaza taybatay açıx. Qız biddən başını döndərdi. Gördükü

qardaşı Məhəmməd atın üsdündədi. Diyir:

-Hi! Boy, bacın ölsün, a qardaş, gəldin? Hardan çıxdın? Səə qurban olsun bacın.

Didi:

-Ay bacı, anam, atam, qardaşlarım?

Diyir:

-Atıı ver maa, aparım qazmaya bağlıyım.

Atı apardı, bağladı qazmaya. Çəkdi bir budunu uddu. Gəldi, didi, booy, bacın ölsün, a qardaş, atın biccə qıçnan dəlipdi?

Didi:

-Hə, bacı.

Getdi, birini də uddu, gəldi. Didi:

- Booy, bacın ölsün, a qardaş, atın ikicə qıçnan gəlib?

Didi:

-Hə, bacı.

Gedip birini də uddu, gəldi. Didi:

- Bacın ölsün, atın biccə qıçnan gəlib?

Didi:

- Hə, bacı.

Dayana bilmədi. Getdi birini də uddu, gəldi. Didi:

-Bacın səə qurban, qardaş, atın cəmdək gəlip?

Didi:

-Hə, bacı.

Getdi, cəmdəyi də uddu. Biccə başı qaldı.

Soruşdu:

-Bacın ölsün a, qardaş, atın başında gəlmisən?

Didi:

-Hə, bacı.

Getdi, başını da uddu, gəldi.

Didi:

-Bacın ölsün, a qardaş, piyada gəlmisən, eləmi?

- Çıx-çıx ora, bir ayaxlarıvı  yuyum səən, bacın səə qurban olsun.

Məhəmməd bildiki, bunu da udacax. Çəkmələrin içinə qum doldurdu. Ağzını belə atanda gedənin çəkməsini cırdı, bunun gözünə qum doldu. Qum, daş.

Didi:

-Səni qan qusasan, Məhəmməd, səni daa yimirəm, gözdərim tutuldu.

Gedə qaşdı. Bu yıxıldı. Gözdərini oxalamağa başladı.

Atasının bir bağı varmış. Hamısı qoax ağacı. Bu ağaclar kölgəlik,

sərinnih gətirirdi. Gedə getdi. Gecə idi. Bağda bir tut ağacı var idi. Bu gecə səhərə kimi əlini sürtə-sürtə öyləri axdardı. Gözlərinə qum dolmuşdu. Oldu sabah. Sabah üzümüzə xeyirrihnən açılsın. Sabah açıldı. Hər yanı axdardı, tapbadı. Biddən gördükü atasının qələməliyində gedə o kəllədədi. Ağacları qopartmağa başdıyır. Bu ağacı qopardır, gedə o birisi ağaca minir.

Məhəmmədin arvadı da sabayınnan getdi qatığa baxdı. Gördükü qatıx qandı. Alanan Talanın başına vurduki, ağavız dardadı, Özüüzü yetirin...

Sizə kimnən xəbər verim, Məhəmmədin bacısınnan. Bu qız ağacları bir-bir dişinnən qırdı, saldı. Bir ağac qalmadı. Gedə də onnan ona, onnan da ona tullanırdı. Bir ağaş qalanda didi:

-Bacı.

Didi:

-Ha. Biy, iyid öləsən, qan qusasan. Nədi?

Didi:

-Axı mən bacı oynamağı görməmişəm. Bir dini diyim, sən də oyna.

Didi:

-Di, qan qusmuş.

Didi:

-Alan, hey! Talan, hey! Cincilmi qırıp, qanımı satın alan, hey! Dinimi bacım, dinimi, hey!

Gedə görürkü odu hey, üş kilometrdən toz gəlir. Didi:

-Ay igid öləsən, qan qusasan, mən ölürəm, axı acınnan.

Mihəmməd diyir:

-Qoy atamın bağınnan bu ağac nişanə qalsın, özüm düşcəm, yeginən.

Alan, Talan yetirdi özünü.

-Alan hey! Talan hey! Cincilimi qırıp qanımı satın alan, hey!

Onda Alan bi qıçınnın, Talan da bi qıçınnan tutdular. Uddular. Bi damcı qan qoağın yarpağının üsdünə düşdü. Gedə vurulmuş da otdu burda, bunun üçdündə. Gördükü, cibinnən tullanır bir şey.

Bu vax Məhəmməd gördükü bi düzüm dəvə gəlir, otuz dənəsi.

Hamısı gəlib çatır. Dəvə başçıçı didi:

-Salam.

Didi:

-Əleykəsalam.

Didiki, bu yollar niyə bağlıdı? Bi paççah varıydı. Diyillər, onun qızı əjdaha olub, burdan yol işdəmirdi. İndi yolumuz burdan düşüp. Qorxuruq.

Məhəmməd diyir:

-Qorxmuyun. Kutarıpsız onnan.

Bunun yaanda Alan, Talana baxdı. Xoşdarına gəldi. Didi:

-Qardaş, niyə yorğun oturupsuz? Bu ağaşdar da hamısı qırılıb tökülüb.

Didi:

Nə bilim, yorulmuşam da.

Didi:

-Bu dəvələrin yükünü tap, bu dəvələri də səə verirəm, yükünü də. Tabbasan yanındakı heyvanları mən alcam. Bu nə dedi, tapbadı, nə didi, tapbadı. Bi də gördükü cibində qanı qoymuşdu haa, belə pişik oldu, sora dönüp it oldu. Yumuldu. Didi:

-İgid ölərsən, qan qusasan, Məhəmməd.

Gedə allandı da. Dəvənin birini də apardılar. İki addım getmişdilər, genə didi:

-İgid ölərsən qan, qusasan Məhəmməd. Niyə dimirsən Narışnan, Turuşdu.

Didi:

-Ay qardaş, çox getməmisik. Narışnan, Turuşdu?

Didi:

-Yox.

Didi:

-Alannan Talan gəlsin!

Alannan Talan gəldi. Otdular. Bunun da canı kutardı. Olar da dəvələrini də götürdülər, getdilər.

Gedə getdi arvat-uşağını, anasını (qoca nənəni) atasının mülkünə gətdi.

Tezə-tezə camaat yığılmağa başladı.Tezə şəhər oldu.

Olar yidi, işdi, yerə gəldi, siz də yiyin, için ömrünüz də uzun olsun, canıvız çağ olsun.Yiyin, için, dünyada çox yaşayın **(S. 64; T. 30).**

## CƏMŞİCAN PAÇÇAHIN NAĞILI

Cəmsican paccah arvat – uşağıynan səyahətə çıxır. Oturullar bir yerdə. Bi dənə gəlir cuhut paççahı, bu arvada gözü düşür, bu batmışın.

Ona yalvarırki məəm arvadım hamilədi. Sən arvadı ver məə, arvadımın yanında qalsın, yanıma aparım, sora gətirim.

U da aşağı baxır, yuxarı baxır.

Diyir:

-Mən neynəyim? Allah mənim başıma daş salar. Veerəm, ama Allahın yoluna atıram onu. Daa verdim. U xəsdənin dərdinnən veerəm.

Bu paççah uları götürüp gedir. Həmən u gəlinin barmağında sehirri

üzük olur. Ona heş kim kəf gələ bilmir.

Üç il, beş il horda saxlayır. O gedən gedir. Uşaxlarını götürüp gedir. Həmin gecə yuxuda görurki, bunun baxdı qaçır, bu paççahın. Kəmənd atır. Görürkü əlinə vəzirin boynu gəlir. Düşür vəzirin boynuna. Bu belə gəzir, gəzir. Diyirki, nağayrırsan. Diyirki, baxdım qaçırdı. Huna görə kəməndi atdımki baxdımı kəməndə salım, gəldi düşdü səən boynuva. Baxdım məə didiki yeddi ildən sora gəlcəm.

Burdan bu uşaxları götürüp dala qayıdır. Gedir çayın yanına. Uşaxları da keçirməlidi, axı. Fikirrəşirki, atın üsdünə qoysa, düşücütdü. Balacanı alır əlinə, keçirir u üzə. O u yənə gedən kimi bööyünü canavar alır. U üzə qayıdanda altınnan daş yumalanır, uşax da çaya düşür, unu da su aparır.

Aşağıda dəərman varmış. Unda da da dəərmanın iri novları olurmuş. Agaşdan düzəldirdilər. Su onnan gedirdi. Bu su dəərmanıydı. Dəərmançı görürkü, su kəsilipdi. Gedip görürki, su yana daşır. Görürkü, içində də bir uşax ölüpdü. Gözəl bir üşax. Ağzı aşağı tutur. Suyunu-zadını tökür. Diyirki, Allah məə bunu yetirip. Öyladsız birsi idim.

Bu birsi də bir çobana rasd olur. İtdəri haylıyır. Canavar aparan uşağı görür. Uşağı canavarın əlinnən alır. Öz-özünə diyir:

-Allah yetiripdi. Nə öylənən döyüləm, nə də uşax sahibi olan döyüləm. Məə bir uşax lazımdı. Bu da məəm uşagım. Bəsdi məə.

Saxlıyır yanında bu qızı. Paççaha yəə duran olmur. Mümkünü kəsilif gedir bir yerdə dəərman işdədir. Gedir orda dərmançı olur. Heş kəs buna yəə durmur.

Bu şəhərə paççah seçmək üçün quş uçurdullar. U vaxdı nə qədər quş uçurdullar. Quş heç kimin başına qommur. Soruşurki kim qalıpdı?

Diyillərki, vallah filan yerdə dəərmançı qalıp. Gedip unu gətirillər. Həmən gecə bu kişinin baxdı qayıdıpmış.

Gedir quş onun başına qonur. Onu da sakkal basıp, pis gündədi. Diyillərki, unnan paççah olmaz. Unun abrı yoxdu, təhərsizdi.

Ağsaqqallar diyillərki, niyə olmur, u adam döylü? Gedin unu yuyun, təmizdidiyin gətirin. Nəsə. Bunu seçillər.

Günnərin bi günüsü u vəzirlərə diyirki məə elə iki usax tapın, gətirinki, u uşaxlar çox gözəl olsun. Bir-birinnən gözəl olsun. Bu qızıl onnuxları da cübüzə qoyun, gedin neçəyə disələr, alın.

Gedillər. Həmən çobana rasd olullar. Bi dənə gözəl uşax görüllər. Diyirki, nə isdiyirsən verim, məə u uşağı ver. Diyirki verə blmərəm, unu məə Allah verip, niyə verrəmki? Mən öz-özümə söz vermişəmki, mən öyləsnincən bu uşax məəmdi.

Nəsə fikirrəşir, İki kisə qızıl verip uşağı alıllar. Düşüllər yola.

Acıllar. Gəlip çıxıllar hu dəərmana. Uşağı su aparan dəərmana. Dəərmançıya diyillərki, bizə könbə sal. Bular oturup yiyillər, özdərini toxdadıllar, bi də görüllərki o yannan əlində bağlama bir uşax gəlir. Elə bilillərki yannarındakı uşaxdı. Çörülüp baxıllarki, yox, bu uşax hu uşax döylü. Diyillərki, bu uşağı, Allah, dəərmançıdan biz nətəər alax?

Gəlir bağlamanı qoyur.

- Diyir: bu uşağı bizə verməlisən.

-Uşağı sizə niyə verməliyəm? Çox diyillər, kişi az eşidir. Axırsı yola gəlir. İki kisə qızıl verip u uşağı alıllar.

Uşaxları yedirip-içirirlər.

Günnərin bi günusu həmən cuhut paççahı (arvadı aparan) bilirki şəhərin paççahı rəhimli paççahdı. Diyirki, mən ora nə mal aparsam, alver iliyə bilərəm, heş nə diyən döylü.

Paççahın yanna gəlip diyirki, mən bura mal gətirmək isdiyirəm.

Soruşullar:

-Mal gətirmisən?

Paççah diyirki gəlsin, mal alveri iləsin. Əlləşirki burda qalsın. Onsuz da tanımır.

Diyir:

- Nə qədər isdiyirsən alver ilə. Diyirkin məəm bir əmanətim var. Heç yerə qoya bilmirəm.

- Səə nə qədər adam verim? Kesiyində dursun nədisə bunun.

Nəsə, razılaşır. Uşaxları dəyanmağa gətirillər. Diyirki buların qiyməti var. Diyirki buları adam mala verər, yox, bu əmanətə qiymət dimək olmaz. Diyirki buları verrəm silahlı, yaraxlı adamlara. Səhər-səhər buraxsınnar, getsinlər öylərinə.

Uşaxları gətirillər. Oturullar sandığın üstündə.

Bir günüsü bu uşaxlar söhbət iliyillər, bular da bir-birini tanımıllar. Bööyü o birsinə diyir. Mənim anamı kimsə aparır. Məni də canavar aparıp. Çoban da canavarın əlinnən alıp saxladı məni, yaramı sağaltdı, sora iki nəfər satın aldı, gətdi. Hindiki paççaha verdi. Bu biri uşax diyirki məni də atam daşın üsdünə qoyur. Atam qayıdıncax görürkü yoxam, çay aparıp gedip. Dəərmanın daşına ilişmişəm.

Bu birsi una diyir. Sən məəm qardaşımsan. Nicə yanı su aparıp?

Bular burda ağlaşsıllar. Bular sandığın üsdündə otmuş olullar. Arvat sandığın içinnən diyir.

- Mən də sizin anazam. Çıxardın məni sandıxdan.

Çıxardıllar. İxtilat eliyillər. Hərəsi bir qolunun üsdündə y    atır.

Paççah gəlip görürkü bu iki uşax arvadın qollarının üsdündə. Dəli olur. Qayıdıp diyirki, gedip görmüşəmki, u məəm əmanətimdi. Unun

qolları usdundə iki cavan oğlan uşağı yatıpdılar. Uları gətirin, ascam.

Kəndirlər asılır. Oğlannarı kötüyün yanna gətirillər asmağa. Arvat qaça-qaça gəlip örpəyini paççahın ayaxları altına atıp diyir:

-Bir az əl saxla. U vax başıma gələnləri danısım. Sora gəlip yaşmaxlanır.

Paççah öz arvad-uşağını tanıyır, ordan uları azad eliyir.

O gündən şad-xürrəm yaşıyıllar **(S.7; T. 30).**

## PAXIL BACILAR

Sizə kimdən deyim, kimdən danışım, dır-dır arvadlardan, ilan vuran, iman qıran, saman altdan su yeridən, yabaynan doğa içənlərdən, qarışqa minib çaydan keçənlərdən - paxıl bacılardan.

Biri var idi, biri yox idi. Bir kişi var idi. Bu kişinin var- dövlətindən, bir qarısı, üç qızı, bir eşşəyi var idi. Yay gəlmişdi. Kişi bağı belləyirdi. Axşam olduğu üçün yerin yarısı bellənməmiş qalır. Səhəri gün kişi gəlib görürkü yer başdan-başa bellənib. Əhvalatı arvadıına danışır. Arvat kişiyə deyir, heç qəm eləmə. Görünür, Allahın sənə rəhmi gəlib. Mələkləri göndəribki, sənə kömək eləsinlər.

Kişi fikirli-fikirli bağa gəlirki, məhsulu yerə səpsin. Toxumun yarısı qalır. Kişi səhər gəlib görürki, toxumun qalanı səpilib. Kişilərin yenə əhvalı pozulur. Əhvalatı arvadına danışır. Arvad əvvəl dediyi kimi deyir. Toxumlar cücərir. Havalar quraqlıq keçir. Taxıl sudan yanmağa başlayır. Kişi taxılı sulayır. Axşam olduğundan yarımçıq qalır. Səhəri gün gəlib görürki, taxıl başdan- başa sulanıb. Əkin gömgöy göyərçin qanadı kimidi.

Kişi əhvalatı yenə arvadına danışır. Arvad yenə əvvəlki kimi cavab verir. Ancaq kişi çakit ola bilmir ki, bilmir. Bütün qonşuların taxılı susuzluqdan saralıb solur. Ancaq kişinin taxılı gömgöy göyərçin qanadı kimi qalır.

Qonşuların kişiyə paxıllığı tutur.

Taxıl boya-başa çatır, saralır, yığım vaxtı gəlib çatır. Kişi gəlir taxıldan bir qədər biçir. Axşam evə qayıdır. Səhəri gün nə görsə yaxşıdı? Taxıl başdan- başa biçilib. Kişi biçilmiş taxılı xırmana daşıyır. Yarısı qalir çöldə. Səhəri gün kişi nə görsə yaxşıdı? Biçilmiş taxıl xırmana daşınıb. Taxılın üstünə bir bel sancılıb. Belin də yanına bir şahmar ilan sarınıb. İlan kişini görən kimi dil açıb deyir:

-Qoca, əgər bu taxılın hamısını istəyirsənsə, qızlardan birini mənə verməlisən. Kişi istəyirki ilanı qovsun, ilan yenə də diyir:

- Əgər ailənin sağ-salamat qalmasını istəyirsənsə, ya qızlardan

birini mənə ver, ya da taxılın hamısını yıgıb aparacam.

Kişi kor - peşman evlərinə qayıdır. Ancaq kişi bu barədə arvadına bir kəlmə də çöz demir. Axşam düşür, hamı yatır, arvad görürkü, kişi uşaq kimi ağlayır. O ərinin nəyə görə ağladığıni soruşur. Əri bütün əhvalatı arvadına olduğu kimi danışır.

Arvad deyir:

- Başqa əlac yoxdu. Qızları çağıraq görək, onların hansı ilana ərə getmək istəyir?

Arvat qızlarının üçünü də yanına çağırıb əhvalatı onlara danışır. Soruşur ki, indi deyin görək, kim ilana ərə getmək istəyir?

Böyük bacı ilə kiçik bacı razı olmur. Ən kiçik bacı deyir:

- Siz bədbəxt olmaqdansa, qoyun mən bədbəxt olum.

Səhəri gün kişi kiçik qızını götürürb gəlir ilanın yanına. İlan qızı görən kimi suyrulub düşür yerə. Ata qızını göz yaşları içərisində yola salır, qayıdır evə. İlanla qız az gedir, çox gedir, dərə - təpə düz gedir, iynə yarım yol gedir. Bir dağın yanına çatırlar. İlan qıza deyir:

- Sən məni burada gözlə, mən gəlirəm.

İlan gözdən itir. Bir az keşmiş qız ilan gedən səmtə baxır. Görürkü bir ağ paltarlı, cavan bir oğlan ona sarı gəlir. Oğlan qızın bərabərliyinə çatanda ədəblə salam verir, sonra deyir:

- Mən həmən ilanam.

Oğlan qızı yerindən dik qaldırır, atın tərkinə alıb yola düşür. Oğlan yolda qıza deyirki, bizim cinsimiz ilan cinsidi. Bax, hansı sifətə desən düşə bilərik. Mənim anam həmişə tərsinə danışır. O desə ki, gətir xəmiri tulla, bil ki, deyir «gətir xəmiri», yoğuraq.

Onlar gəlib oğlan yaşıyan yerə çatır. Oğlan qırx gün, qırx gecə, toy eləyib qızı alır. Qızın oğlandan bir oğlu dünyaya gəlir. Körpə saatba-saat, günbəgün, aybaay böyüyür. Ətə, qana dolur. Dörd yaşına çatanda elə bil on dörd yaşında uşaq idi. Qızın günü - güzəranı yaxşı idi. Bir gün uşaq oynayan zaman başqa bir uşaq ilə dalaşır. O biri uşaq ona deyir ki, «baba - nənəsindən bixəbər, bizimlə dalaşırsan?

Uşaq gəlib əhvalatı anasına danışır. Qız başlayır ağlamğa, əri görürkü arvadı ağlayır, nə üçün ağladığını soruşur. Diyir:

- Ata-anam, bacım yadıma düşüb.

Oğlan arvadın cavabında diyirki, elə buna görə ağlayırsan? Deyəydin, səni aparaydım onların yanına. İndi dur hazırlaş, yola düşək.

Sevincək ayağa qalxır və hazırlıq görməyə başlayır. Sabahısı gün onlar yola düşürlər. Gəlib həmin yerə çatırlar. Qapını döyürlər. Qapıya böyük bacı gəlir. Kiçik bacı soruşur:

- Allah qonağı istəyirsənmi?

Böyük bacı deyir:

- Allaha da  qurban olum, qonağına da, gəlin içəri. Qız görürkü anasının gözləri ağlamaqdan kor olup. Atası tamam əldən düşüb. Balaca bacını böyük bacılar tanıya bilmirlər. Qız anasının gözlərinin nə üçün kor olduğunu soruşur. Anası başına gələn əhvalatları danışır. Qız özünü saxlaya bilmir. Ö özünü anasının qucağına atır. Ağlaya-ağlaya onun qızı olduğunu deyir. Anası deyirki, əgər sən mənim  qızımsansa, qanından bir az mənim gözlərimə sürt. Qız əlini kəsir, qanından anasının gözlərinə sürtür. Anasının gözləri sağalır.  Onlar yenidən görüşürlər. Böyük bacıların kiçik bacıya paxıllığı tutur. Gecə ikən fikirləşirlərki, bacılarını öldürüb özlərindən biri onun bəzək şeylərini götürsün, o biri isə onun yerinə arvadlıq eləsin. Səhər açılan kimi bacılar kiçik bacılarına çimməyə getməsini xahiş edirlər. Kiçik bacı ərindən icazə istəyir. Əri ona icazə verir. Qız oğlunu özüylə aparır. Onlar çimib çıxannan sora böyük bacı bilə-bilə darağını suya salır. Ortancıl bacı ona deyir ki, mən səndən kiçiyəm, qoy darağı mən çıxarım. Onlar başlayıllar mübahisə etməyə. Böyük bacılara da elə bu lazım idi. Onlar kiçik bacını itələyib suyun dərin yerinə salırlar. Kiçik bacı batan yerdən bir qamıs bitir.

Bacılar bir-birinə o qədər oxşayırlarki elə bil yarı bölünmüş almaydılar. Amma böyük bacı kiçik bacılardan ona görə fərqlənirdi ki, keçəl idi. Böyük bacı kiçik bacının paltarını geyir, uşağı da qucağına alır, gözləri yaş içəriçində gəlillərki bəs böyük bacımız suda batdı. Böyük bacı uşaga elə baxırdıki, əri ondan şübhələnməsin. Nə qədər yaxşı baxsa da, uşaq ondan qaçır. Atasınnan çimməyə getməyi xahiş edir. Axırda atası car-nacar razı olur. Arvadını, oğlunu, baldızını götürüb çimməyə gedirlər. Bacılar görürkü kiçik bacı batan yerdə qamış bitib. Uşaq qamışı görüb atasına deyir:

- Gərək o qamışı mənə verəsən.

Arvad razı olmayıb deyir:

- Əşi, uşaxdı nədən desən, xoşu gəlir. Çıxaq gedək evimizə.

Nə qədər eləyirlərsə, uşaq əl çəkmir. Axırda atası qamışı kəsib uşağa verir. Uşaq qamışı sormağa başlayır. Vədə bitir. Oğlan arvadını, oğlunu götürüb yola düşür. Gəlib evlərinə çatırlar.

Oğlanın anası qıza deyirki apar xəmiri tulla. Qız da aparıb xəmiri tullayır. Əri işi belə gördükdə arvadına deyir:

- Bəs mən sənə deməmişdim, mənim anam tərsinə danışır.

Qız ərindən onun günahından keçməsini  xahiş edir. Uşaq qamışı bir dəqiqə də olsun yerə qoymurdu. Arvad axırda qəzəblənib qamışı uşağın əlindən alıb həyətə atır. Uşağı ağlada - ağlada gecə yatdırır. Sə-

hər qalxanda arvad görürki qamış düşən yerdə bir söyüd ağacı bitib. Uşaq yerindən qalxıb ağacın altına qaçır. Söyüd ağacının budağının birini saxlıyır. Uşaq yarpaqları sormağa başlayır. Uşaq hər dəfə ağacın yarpağını soranda gözəlləşir, kökəlirdi. Ağacın bu işinnən arvad qorxuya düşür. O ərinə deyir ki,  söyüd ağacını kəs. Əri buna razı olmur. Arvad ərini məcbur eəliyirki söyüd kəsilməlidi. Əri car-nacar razı olur. Ağacı kəsir. Ağacı kəsəndə bir qıxmıx suya düşür. Bu vaxt bir qarı bulağa suya gəlir. Qıxmiği sudan götürür. Aparır evinə. İstəyir səhəngin ağzına qoysun. Qarı bir gün gedirki yenə büllur bulaqdan su gətirsin. Bulaqdan qayıdıb gələndə görürükü ev-eşik  təmizlənib, xörək bişirilib. Arvad bu işə mat-məəttəl qalır. İkinci gün də belə olur. Üçüncü gün də qarı qonşuya gedirəm deyib çölə çıxır. Qapının dalından baxanda onu dəhşət bürüyür. Görürkü bulağın başından gətirdiyi qıxmıx yerə düşdü. O saat dönüb gözəl bir qız oldu. Ev - eşiyi təmizlədi. Qab-qacağı yudu, çörəyi bişirdi. Bir neçə gün qarı pusquda durur. Qız qıxmıq olmaq istəyəndə qarı içəri girir. Qızın biləyindən tutur. Kim olduğunu soruşur. Qız başına gələn əhvalatları qarıya danışır. Qarı onu öz köynəyinin yaxasından keçirib özünə qızlığa götürür. Soruşan olanda bu qız kimindi, qarı cavab verirki bacımın qızıdı, gətirmişəmki, mənə kömək eləsin.

İndi qız qarının yanında qalsın, sizə oğlandan xəbər verim.

Oğlan ildə bir dəfə səfərə çıxardı. Oğlan adamlarını çağırmışdı ki, atını bəzəmək üçün muncuq düzəltsinlər. Həmən bu qarını da çağırmışdılar. Özü də tapşırmışdılarki öz  qızıdı gətirib gəlsin. Qarı qızı da özüylə aparır onlara. Qızın örpəklə üzünü örtürkü oğlan tanımasın. Hamı yığılıb atı bəzəyir. Hər arvad istədiyi şeyi oğlana deyir. Nöbə qıza çatır. Qız oğlana deyirki, mənə bir sirr daşı al, bir də mərmər bıçaq. Oğlan hamının dediyini alır. Ancaq qızın dediklərini tapa bilmir. Xeyli gəzdikdən sonra bir dükana girir. Tacirdən qız istədiyi əşyaları soruşur, tacir oğlana deyirki onlar məndə var, amma sənə verə bilmərəm. Onu kim istəyibsə, o adam dərdli adamdı. O başına gələn qəzavü-qədəri bu daşa danışacaq. Sözünü qurtaran kimi mərmər bıçağı  daşa çəkəcək. Sən gərək həmin daşı güdəsən. O dərdini danışanda sən də əlində su saxlayasan. O mərmər bıçağı daşa çəkmək istəyəndə suyu atasan onun üstünə, onu xilas edəsən. Oğlan daşla bıcağı götürüb gəlir. Hamı yığılır onun başına. Oğlan gətirdiyi hədiyyələri bölür. Sirr daşı ilə mərmər biçağı da qıza verir. Qız hədiyyələri alıb tez qayıdır evlərinə. Sirr daşını qabağına qoyub dərdini danışmağa başlayır. Oğlan da ona qulaq asır. Qız dərdini danışıb qurtaran kimi istəyirki mərmər bıçağı daşa vursun. Oğlan qapını açıf suyu onun üstünə tökür. Qızı öz evinə gətirir. Böyük bacını  dəli qatırın quyruğuna bağlayır. Dağlara, daşlara sü-

rür. Onun hər tikəsini bir tərəfə salır. Həqiqət öz yerini tapar.

Göydən üç alma düşdü. Biri mənim, biri danışanın, biri də özümün **(S. 188; T. 43).**

## AĞILLI QOCA

Biri var idi, biri yox idi. Bi dənə gözü kor, kasıb, sonsuz qoca var idi. Habu qoca həmişə zulum-zulum ağlıyırdı. Habu qoca ağlıyanda bi günüsü Allah-taala vəziri Həzrəti Cəbrayılı habu qocanın yanına göndərif diyirki get, ho qocaya diki, niyə ağlıyır, nə istiyir, disin verim.

Həzrəti Cəbrayıl habu kişinin yanına gedif Allah- taalanın dediyini çatdırır. Qoca Həzrəti Cəbrayıla diyir:

- Mən nə istiycəmki?! Gözüm kor, özüm kasıf, sonsuz.

Həzrəti Cəbrayıl habu qocanın sözdərini Allah-taalaya çatdırır. Allah-taala vəzirinə qulaq asıf deyir:

Get ho qocaya deki, mənnən bi dənə cümləynən nə istiyir isdəsin. Həzrəti Cəbrayıl Allah-talanın sözdərini qocaya çatdırır.

Qoca habu sözdəri eşidif fikirrəşməyə görə bir gün möhlət isdiyir. Bi gün keçənnən sora Həzrət Cəbrayıl genə də qocanın yanına gəlir.

Qoca diyir:

- Mən oğlumun başında tac görmək istəyirəm.

Həzrəti Cəbrayıl qocanın arzusunu Allah-taalaya çatdırır. Allah-taala bəndəsinin ağıllı olduğunu görüf diyir:

- Məəm habu bəndəm ho qədər ağıllıdıki, bi cümləynən arzusunu istədi. Hona görə də Allah-taala habu bəndəsinin arzusunu yerinə yetirir **(S. 28; T. 30).**

## QADININ HÖKMÜ

Ulu Tanrı yer üzərində məxluqatı, naz-neməti xəlq eləyəndən sonra demişdi:

- Gedin, sizi mən yaratdım, gedin qədır biləniniz yer üzundə, insan yanında, mənim yanımda həmişə əziz olacaq. Qədir bilməycəyiniz isə zəlil, xar, qiymətsiz olacaq.

Deyirlər, qızıl da bu xəlq olunanlar arasında imiş.

Yer altında yaşayırmış. Yarandığına şükür eləyirmiş. Parıltısına, qiymətli olmağına görə loğalanırmış, yaşamağını yaradanın adına bağlayır, hes kəsi saya salmırmış. Ulu Tanrı qızıla diyir:

-Səni işıqlı dünyaya çıxardıram, insanlar arasınla yaşa. Səni əziz, qiymətli, qüdrətli elan edirəm.

Qızıl o zamanlardan insanlar arasında yaşayır. O hansı qapıdan içəri girirsə o evə sevinc, şadlıq bəxş edir. O evin gücünü qüdrətini artırır.

O öz yaradanına minnətdar olur.

Bir gün Ulu Tanrı Qızılı yanına çağırıb soruşur:

- Hə, Qızıl ağa, yer üzərində işlərin necə gedir?

- Ey əziz Tanrı, sayeyi-mərhəmətinizdən işlərim əladı.

- Heç olubmuki sözün keçməsin, sənə hörmətsizlik olsun, ayaqlar altına düşəsən?

- Olub, Ulu tanrı.

-Danış, görüm.

-Sahibimlə bir ölüm-itimi həll etmək üçün hakimin yanına getmişdim. Sahibimin oğlu ölüm hökmü gözləyirdi. Sahibim məni apardı hakimin yanına. Stolun üstünə tökdü. Hakim mənə heç gözünün ucu ilə də baxmadı. Elə bu zaman otağa qəşəng bir qadın daxil oldu. Hakim özünü unutmuş halda:

- Buyurun xanım, sizi eşidirəm - dedi:

Bizə isə dedi:

- Gedə bilərsiniz.

Sahibim kor - peşman məni də götürüb çıxdı. Biz qapının arxasından bu sözləri eşitdik:

- Möhtərəm hakim, o ölümə məhkum olunan cavan, mənim sevgilimdi. Onu mənə bağışlamağınızı xahiş edirəm.

Bir azdan qadın şad halda hakimin yanıdan çıxdı. Başa düşdükki, hakim məhkumu bağışlayıb.

-Ulu tanrım, sən qadını məndən qudrətli, hökmlü yaradıbsanmiş **(S. 76;T. 12).**

## KÖRPÜ DİLƏNÇİSİ

Qədim zamanlarda eldən-elə getmək üçün bir çayın üstündən körpü salınmışdı. Hamı bu körpünün üstündən keçər, körpüsalanlara min təsbeh rəhmət oxuyardılar. Bu körpü yaxşını da, pisi də öz üstündən keçirər, bir kəsdən təmənna ummazdı. Amma bu körpünün o başında, bu başında da dilənçi oturarmiş. Bu başdakı dilənçi diyərmiş:

-Ya padşah, sən yetir, mən yeyim. O başdakı dilənçi deyərmiş:

- Ya Allah, sən yetir, mən yeyim. Əl açib Allaha dua edib yalvarıram: Ya yerin, göyün sahibi bir olan Allah, səndən istəyirəm, sən özün halalından, hazırından yetir.

Padşah bu başda dilənən dilənçinin sözünü eşidir. Ona rəhmi gəlir. Dilənçiyə bir sini aş, altına da bir qızıl qoyub göndərir.

Vəzir-vəkilə tapşırırki, bu işi bir ay davam etdirsinnər. Hər gün də qızılın sayını artırsınnar. Dilənçi aş bağlamasını alıb o başdakı dilənçinin yanına yolllandı. O başdakı dilənçi soruşur:

- Nədi o əlindəki bağlama?
- Heç, padşah mənə təmanna yollayıb, satmağa aparıram.
- Onu mənə sat. Bir neçə qəpik - quruş dilənmişəm.

Pul adı eşidəndə o saat dilənçinin gözü parıldadı. Aşı dilənçiyə satdı. O aşı yeyib qurtaranda gördüki sinidə bir dənə qızıl parıldayır. Qızılı cibinə qoyub Allaha dua eləyir.

Padşah hər gün bir qab aş yollayıb, qızılın da sayını artırır. Otuzuncu gun otuz qızıl yollayır, aş sinisinin altında. Otuz birinci gün padşah dilənçinin yanına gəlir. Dilənçi aş sinilərini su qiymətinə o başdakı dilənçiyə satır. Padşah dilənçini görən kimi hal-əhval tutur. Görsün dilənçi nə gündədi. Görürkü dilənçi həmin dilənçidi. Cındırından cin hürkür.

Padşah körpünün o başındakı dilənçinin yanına gedib soruşur:

- Necəsən, necə dolanırsan?

Dilənçi padşaha baş əyib təzim eləyir. Şükür yetirdiyinə - deyir.

Təzədən padşah bu başdakı dilənçinin yanına gəlib deyir:

-Dalımca gəl.

Dilənçini aparıb cərgəylə düzülmüş dükənləri ona göstərib deyir:

-Yerdən bir daş götür, qolun gəldikcə at daş hara düşsə ora sənin olsun.

Dilənçi daş axtarır, tapbır, əlinə bir rezin top keçir. O topu qolu gəldikcə atır. Top qarşıdakı dəmir dirəyə dəyib qayıdır, dilənçinin başına dəyib alışır. Dilənçi od tutub yanır. Padşah dilənçinin halına acıyıb deyir:

-Hə, Allahdan istəyən onun kimi, padşahdan istəyən bunun kimi olar **(T. 43).**

## ŞAHIN ÖLKƏ SƏYAHƏTİ

Nəql edirlər ki, Şah Abbas təğyiri-libas oldu, dəvriş sifətində öz vilayətini kəndbəkənd gəzirmiş.

Gəzməkdə məqsədi vilayətdəki məmurların şahın fərmanlarını necə yerinə yetirmələrini öyrənmək, şahın xalqdan razı, narazı cəhət-lərini bilmək, qayıdıb lazımi tədbir görmək idi.

Növbəti səfərlərinin birində şah öz adamları ilə kənar bir yerə çatır. Onlar kölgəyə çəkilib bir qədər dincəldilər. Sonra dəvriş şəyirdinə bir qədər pul verir ki, bazardan çörək, qatıq alsın.

Şəyird bazara gəlib hər şeyin qiymətini öyrənir, danışıqlara fikir verir. Bal, yağ, qatıq və süzmə qiymətini xəbər alırsa hamısını eyni qiymətə deyirlər. Şəyird bazarlıqdan qayıdır. Yeməkdən sonra dəvriş

şəyirdini imtahana çəkir.

-Bazarda nə gördün, nə eşitdin?

-Ustad sağ olsun, bura qorxulu yerdi. Bunlar yağla suzməni, balla alçanı eyni qiymətə deyirlər. Bunlar yaxşı ilə pisi, haqq ilə nahaqqı fərqləndirmirlər.

Yaxşısı budu, burada dayanmayaq. Belə yerdə Şah Abbas şahlığını sübut edincə onunku ona dəyir. Çünki burada haqqla nahaqqı fərqləndirmirlər.

Dəvriş şəyirdin sözlərindən razı qalır.

Onlar şəhərin kənarı ilə gedərkən görüllər ki, böyük bir meydanda dar ağacı qurulub, buraya çoxlu camaat yığışıb.

Dəvriş şəyirdinə deyir ki, öyrən görək, burada nə olub. Gamaat niyə yığılıb. Onlar camaata yaxınlaşıb xəbər alırlar:

- Nə olub, dar ağacından kimi asacaqlar:?

- Hələ asılacaq adam məlum deyil. Kimin işinə baxsalar, həmin adam asılacaq. Məhkəmə olmamış qərar bəllidi, kimsə asılmalıdı.

Onlar da məhkəməyə baxmalı olurlar. Məhkəmə qurulur, müqəssirlər dindirilir.

Birinci müqəssir deyir:

- Bir adamın evinə axşam oğru gəlir. Ev yəəsi bu işdən xəbər tutur. Oğru qapıdan çıxmağa fürsət tapbır. Həyətin divarına qalxırki, oradan yola tullansın. Hasardan tullananda qıçı sınır. Oğrunun qıçının sındığını görən ev yiyəsi günahkar sayılır. Məhkəmə öy sahibinə bildirirki, sən niyə divarı o qədər hündür tikdirmisənki, divardan tullanan oğrunun qıçı sınıb.

Ev sahibi diyir: mən divarı özüm tikməmişəm. Onu bir usta tikib. Mən divarın hündür olması haqda ona heç bir söz deməmişəm. Usta hündür tikib, mən niyə günahkar oluram ki?

Məhkəmə ev sahibinin dediklərinə tərəfdar çıxır, divarı tikən ustanı çağırtdırır.

İkinci müqəssir məhkəməyə gəlir.

Hakim müqəssir bildiyi ustaya deyir:

Oradan tullanan adamın qıçı sınıb. Divarı hündür tikdiyinə görə günahkar sayılırsan.

Usta deyir:

-Mən divarı hündür tikməyim üçün ondan artıq pul almamışam. Biz həmişə məhlə barısını lay kərpicdən tikirik. Xahiş edirəm, buradakı kərpicləri sayın. Əgər layların sayı artıq olsa, mən müqəssirəm. Kərpic laylarının sayı bir dənə də olsa artıq deyil. Divarın hündür çıxmasının səbəbi kərpicin qalınlığından olub. Kərpic kəsən adam kərpici o qədər qalın edibki, indi barı hündür olub. Kərpic adi qaydada olsaydı, divar hündür

çıxmazdı. Divarın hündür çixmasının  təqsiri kərpic kəsəndədi. Bu dəfə məhkəmə kərpickəsəni çağırtdırır. Məhkəmə kərpickəsənə deyir:

- Sən kərpici çox qalın kəsdiyinə görə hörülən divar hündür çıxıb. Divardan tullanan adamın da qıçı sınıb. Bu işə görə sən müqəssir hesab olunursan. Kərpickəsən deyir:

- Mən həmişə kərpici ucuz qiymətə satmışam. Onlara verdiyim kərpici də ucuz qiymətə vermişəm. Artıq pul almamışam. Divarın hündür çıxması, kərpicin qalın olmasının səbəbi qəlibin qalın olmasındadı.

Mənim kərpickəsən qəlibim sınandan sonra dülgərə yeni qəlib düzəltdirdim. Dülgər qəlibi o qədər qalın qayırıb ki, nə qədər kərpic kəsirdim, qəlibə palçıq çatdırmaq olmurdu. Əgər dülgər qəlibi qalın qayırmasaydı, divar da hündür çixmazdı, oradan yıxılan adamın qıçı sınmazdı.

Məhkəmə kərpic kəsənin də sözlərini doğru hesab edib xarratı təqsirləndirməli olur.

İndi də məhkəməyə dülgəri çağırırlar.

Hakim dülgərə deyir:

-Sən qəlibi qalın düzəltdiyinə görə kərpic qalın olub, ona görə də divar hündür çıxıb, oradan tullanan adamın qıçı sınib.

Ona  görə də sən günahkarsan.

Xarratın özünü müdafiə etdiyi sözlər nəzərə alınmır. Dülgəri dar ağacından asmalı olurlar. Dülgəri dar ağacının yanına gətirirlər. Dülgər nə qədər yalvarırsa nəzərə almırlar, kəndiri onun boğazına keçirirlər.

Xöşbəxtlikdən dülgərin başı yekə olduğundan kəndir onun başınnan keçmir.

İcraçılar hakimə deyir:

-Məhkəmə sağ olsun, kəndir dülgərin başından keçmir.

Hakim:

-Bu qədər adamin içərisində kəndir başından keçən bir adam tapmadınız? Kəndir kimin başından keçirsə, onu asın! Dərviş ilə şəyirdi söylənən sözləri yaxşı eşitmək üçün hakimin stoluna yaxın yerdə oturmuşdular. İcraçıların əlinə dərvişin şəyirdi keçir, kəndir onun başından rahat keçdiyi üçün şəyirdi asmalı olurlar.

Səyird ustadına baxır. Dəvriş  şəyirdinə yaxınlaşıb bir neçə söz bildirirki, qorxma, səni asmazlar. Şəyirdi dar ağacına yaxınlaşdırırlar. Qanuna görə müqəssirə danışıq üçün son dəfə söz verirlər. Şəyird deyir:

-İcazə verin, mən papağımı üç dəfə atim-tutum, sonra məni cəzalandırın. Hakim icazə verir, şəyird papağını iki dəfə atıb-tutur, yenə başına qoyur. Papağı ikinci dəfə beş gündən sonra atib-tutacağını bildirir.

Dəvriş hakmin yanına gəlib dəvriş olduğunu, asılacaq adamın onun

şəyirdi olduğunu söyləyir. Onun son arzusuna riayət etməyi xahiş edir.

Bu sözdən sonra hakim elan edir ki, məhkəmənin hökmü beş gündən sonra yerinə yetiriləcək.

Dərviş şəhərdən çıxıb, fayton tutub tez saraya gəlir, əyanlardan bir neçəsini həmin vilayətə göndərir. Dərvişin şəyirdini azad edirlər. Şah həmin diyarda gördüklərinə uyğun yeni qanunlar verir. Ona görə də deyirlər:

-Nahaq qalxar, yeriməz, haqqı yıxmaq olmaz **(S. 118; T. 47).**

## PAXIL QARI

Biri var idi, biri yox idi. Bir qonşuda bir paxıl qarı, bir də bir gəlin vardı. Qarının hamıya paxıllığı tutardı. Körpə anasını əməndə görsəydi, paxıllığı tutardı. Gəlin də görmədiyi işləri qarıdan öyrənmək istəyəndə qarı tərsinə öyrədərdi. Yaz vaxtı idi. Gəlinə əri bir kağızın arasında nə isə verib deyir:

- Bu barama qurdudu. Bəsləsən, atlas yetirər. Onun bəslənməsini qarı nənədən öyrən. Gəlin də qarının yanına gedib məsləhət alanda qarı deyir:

-Onu gicitkənlə yemlə. Qarıya elə gəldi ki, barama qurduna gicitkən versə, onu dalayib məhv edə bilər.

Gəlin barama qurdunu gicitkənlə yemlədi. Vaxt, vədə tamam olur. Qurt nişan göstərdi. Gəlin paxıl qarının yanına gedib məsləhət alanda qarı dedi:

-Yetişmiş qurdu qaratikən kolu ilə şaxlayarlar ki, baraması bol olsun.

Qarıya elə gəldi ki, qaratikən kolu yetişmiş qurda batıb onu məhv edəcək. Gəlin qurdu qaratikən kolu ilə şaxladi. Bir neçə gündən sonra qurdlar barama sarıdı, gəl görəsən. Şaxları bir-birindən ayırmaq olmayırdı. O saat gəlin gedib qarının yanına onnan məsləhət alir. Qarı gəlinə deyir:

- Get, təndiri qala, sonra da yaba ilə onu təndirə doldur, yansın. Gəlin qarının sözünə inanıb təndiri qalayır, barama dolu şaxları təndirə töküb hamısını yandırır.

Sonra da paxıl qarını çağırıb diyir:

- Qarı nənə, indi nə eləyim?

Qarı nənə təndirin yanına gedəndə gördükü, təndir atzına kimi qızılla doludu. Qarı əyilib qızıldan götürəndə ayağı büdrəyib odlu təndirə düşüb yandı, kül oldu.

O vaxtdan bəridiki, barama qızıl qiymətində olduğundan insanlar barama qurdu bəsliyillər **(T. 43).**

## KEÇƏLİN NAĞILI

Biri var idi, bir yox idi. Bir keçəl var idi. Keçəldən hamının zəhləsi gedirdi. Keçəl bir tikə çörək üçün qapı-qapı dilənirdi. Heç kəs keçələ Allah payı vermirdi. Keçəl az fikirrəşir, çox fikirrəşir, bir kovğuc ağac tapır, onu kəsib nağara düzəldir, nağaranı çala-çala bir suyu sovumuş dəərmana çatır. Su dəərmanının donluğuna girib gecələyir. Gecənin bir vaxdı dəərmana bir ayı girir. Ayı dəərmanın daşının qırağına bulaşan unu yalayır. Keçəl bir yerdə öz-özünə geyir: «Bu ayı bilsəki mən burdayam, məni parça - tikə eliycək».

Keçəl qorxudan nağaranı çalir ki, bəlkəm ayı qorxub qaçdı. Ayı nağaranın səsinə qorxub qaçanda ayağı qapıya dəyir. Dəərmanın qapısı örtülür. Keçəl nağaranı döyməkdə olsun, sizə kimdən xəbər verim, kənd camahatından. Kənd camahatı nağaranın səsinə axışıb dəərmana sarı gəlməkdə idi. Cammat dəərmanın qapısını açanda ayı qapıdan çıxıb meşəyə tərəf qaçır. Keçəl haray qopardır:

- Paççah bu ayını mənə vermişdiki ona oyun öyrədim. Vah, evimi yıxdınız. Ayının dəyəri yüz qızıl idi. Ya, yüz qızılı verin, ya da padşaha xəbər verəcəyəmki, aıynı siz hürküdüb, dağa, daşa salmısnız.

Camahat əlacsız qalıb fağır-fuğaradan, kasıb-kusubdan, əlsiz- ayaqsızdan qızıl pul yığıb keçələ verdilər.

Keçəl o gündən kefi kök, damağı çağ yaşadı. Qaçan ayını da qaraçılar meşədən tutub gətirdilər **(S. 156; T. 43).**

## YAZİYA POZU YOXDU

Günnərin bir günüsü bir paççah oğlu çay oxarı gedirmiş. Çayın bir qırağında bir kişiyə rasd olur. Gördükü, kişi nəsə yazif suya tulluyur. Şah oğlu soruşurki, habu yazdığın nədi?

Kişi diyir:

- Adamlara taleh yazıram.

Şah oğlu diyirki, məə də taleh yaz. Habu dəyqə suya yazıb tulladığım səən taleyindi. Yaziya pozu yoxdu. Səən taleyin çoban qızıdı.

Günnərin bir günüsü şah oğlu çobanın qoyun otardıgı yerə gəlir. Holarda qonax adıynan qalır. Çobanın beşikdə yatan qızının qarnını kəçib gedir. Öz-özünə deyir:

- Yazını helə pozallar.

Öy yəələri gəlib görüllərki, uşaq qanın içindədi. Qonax da kı öydə yoxdu. İntası beşiyin yan taxdaları uşagı dərindən yaralamağa qoymamışdı. Uşağı dava- dərmannan sağaldıllar.

İllər keçip gedir, qız böyüyür. Gözəllikdə tayı - bərabəri olmur. Şahın oğlu çobanın qızıyla öylənir. Bi günüsü hamamda qızın qarnındakı çapiği görür. Şah oğlu ondan bunun səbəbini soruşur. Qız deyir:

-Öyümüzə gələn qonax mən körpə olanda məni habu günə salıb gedib.

Şah oğlu barmağını dişdiyir. Doordan da, yazıya pozu yoxdu **(S. 195; T. 30).**

## PADŞAHLA QARAÇI QIZI

Biri var idi, biri yox idi. Bir padşah var idi. Günnərin bi günüsü habu yolnan gedirdi. Yolda qaraçı köçü görür. Habu köçdə bi gözəl qız görur, onu isdiyir. Honnan öylənmək isdiyir. Paççahın adamları ona deyillərki, habu qıznan öylənməsin, habu qız qaraçıdı. Honun pis adətləri var. Paççah deyir: Mən honu əhliləşdirərəm. Paççah qaraçı qızı ilə öylənir. Günnər keçir. Qız get-gedə arıxlıyıf çöpə dönür. Habu paççahı nirahat eliyir. Ho nə qədər eliyirsə habunun səbəbini qızdan öyrənə bilmir. Axırsı deiyir:

- Məəm öz adətim var.

Paççah diyir:

- Nə eliyirsən, elə.

Paççahın adamları habu qızı pusullar. Görüllərki, paççahın arvadı ho küncə, habı küncə çörək qırıxları qoyuf çiynində də heybə alif gedə-gedə diyir:

- Ay it, oyna ol, diləmməyə gəlmişəm

Habu sözdəri diyə-diyə çörək qırıntılarının heybəsinə yığır, hordan da çıxarıf yiyir.

Habunu görən nökərlər paççaha xəbər verillər.

Axırısı paççah arvadını bu vəziyyətdə tutuf diyir:

- Səə yaxşı yol. Mən səni əhlilləşdirə bilmədim **(S. 195; T. 30).**

## TƏNBƏL ARVADIN XALASI

Keşmişdə bi tənbəl arvat varıydı. Habu arvadın bir mağmun kişisi variydı. «Qurtdu paxlanın kor alıcısı olar»- diyiflər.

Kişi işə gedif gəlir. Gələndə öy- eşiyi həmişə tör-töküntü görərdi. Bi gün helə, beş gün belə, axırsı kişi dilə gəlip arvatnan dalaşır. Bi nesə günnən sora arvat kişiyə diyir:

-Nə vaxda qədər küsülü gəzəcəyik? Qoy xalamı cağırım, bizim şərtimizi kəssin.

Kişi razı olur. Axşam kişi öyə gələndə görürkü öy-eşik təmizdənif, ocaxda da aş dəmdədi.

Kişi habu dəm-dəsgahı görüf diyir:
-Ay arvat, habu nə dəm-dəsgahdı görmüsən?
-Xalam bizə qonax gəlif. Bizim şərimizi kəsməyə.
-Nolaydı xalan həm işə bizə gələydi. Hindi bəs səən xalan hara gedif?
Arvat süpürgə müşgəyinnən süpürgəni götürüf üstündəki danadişini əfəl kişisinəgöstərif diyir:
-Bax, habudu məəm xalam.
-Ay arvat, habu yazıx niyə habu hala düşüf?
Arvat halına pozmuyuf diyir:
-Vallah, necə diyim, dilim gəlmir. Bizim nəslimiz çox işdiyəndə habu hala düşür diyir:
-Qapındakı itin olum, yaxandakı bitin olum. Qələt eləmişəm səə işdə diməyə **(T. 43).**

## TƏNBƏL QIZIN NAĞILI

Biri varıydı, biri yoxuydu, bi qız varıydı. Habu qız gündə yeddi para yuxa yiyərmiş. Özü də bi iş görməzmiş.
Bi günüsü yuxasının birisi əçkik olurmuş. Çardax piləkənində oturuf ağlıyırmış. Yoldan keçən dəvə karvanı gəlif- gedəndə görürkü habu qız helə hey ağlıyır. Bi günüsü birisi dəvədən düşüf habunun səbəbini öy yəəsinnən soruşur.
Qızın anası diyir:
-Gündə yeddi dükçə yun əyirir, habu gündə də bi dükcəsi əsgik oluf, hona görə ağlıyır.
Dəvə yəəsi də fikirrəşirki, habu qızı alımki, heş olmasa dəvə yununu təmizdiyif didər. Ərəb habu qızı alır. Üsdünnən xeylax keçir. Bi günüsü ərəb oturuf çörəh yiyirmiş. Qız «huy-hüy» diyə-diyə qapiya gedir, bi cücünü qapıf gətirir qoyur döşəyin üsdünə. Ərəb habunu görüf soruşurki, bizim nəslimizin hamısı yun əyirməhdən habu günıə düşüf.
Kişi diyir: Yox, ay arvat, habu günnən sora bi də əliuu yuna vurma **(T. 43).**

## KEÇALIN NAĞILI

Biri varıydı, biri yoxuydy, bir keçal varıydı. Bi günüsü eşşəgləri sürər meşəyə, özü qayıtar övə. Axşamı eşşaglar gəlməz . Sorakı gün keçal meşəyə eşşaqların dalıncax gediy. Görar eşşaqları canavar didib, tək dəriləri qalıpdı. Keçal dəriləri götürüp övə gələr. Dəriləri hənəklərə yığar. Ər hənəkə bir qızıl qoyuy. Günnərin birində keçal yola

düşiy. Harda iş olan öv varsa, gidiy hora çağıriy:

-Ay öv yəəsi, bir gecalığa məni qonax elə.

Gecə yatıllar. Keçal gecəyarı dəriləri itə yedirdip təzədən yatır.

Səhər açılır. Keçal durup haray-həşir salır:

-Siz məəm qızıllarımı yeşiripsiz, ya qızılları verin, ya da sizi məkkəməyə veracağam.

Çar-naçar keçala iki hənək qızıl veriylər. Bir də camahat görərki keçal gəliy iki hənək qızılnan. Soruşullar:

- Ay keçal, habu qızıllar sağa haradan?

Diyər:

-Canavarlar eşşəqlərimi yimişdilər. Mən də dərilərini qızıla satdım. Adamlar inanıllar, öz eşşəglərini kəsillər. Dərilərini bazara çıxarıp başdiyillərki:

-Ay qızıla dəri alan?!

Hamı holara gülüb diyirki, bular dəli olublar. Adamlar hirslənillər, isdiyillərki keçalı öldürsünnər. Keçal ələ düşməsə, anasını öldürsünnər. Keçal anasını oturdur at arabasında. Əlinə də yumax verirki, corab örsün. Yola düşüllər. Ot tayasının yanında arabanı saxlıyır. Özü yeşinir. At başdıyır otu yimağa. Ho arada öv

yəəsi çıxır eşiyə, görür at otu yiyir, arabada da bir arvat oturup, səsini də çixartmıyi. Hirsdənir arvada, bir neçə yaba ilişdirir. Arvat arabadan yıxılır yerə. Ho keçal çıxır yeşindıgı yerdən deyir:

- Sən məəm anamı öldürmüsən. Ya anamı dirilt, ya da bir araba qızıl ver. Çarəsiz qalan öv yəəsi qızılı verir. Keçal dönür özdərinin kəntinə. Camahat görürki, keçal gəliy, özü də bir araba qızılla. Soruşullar, haradan oldu bu qızıl?

Keçal diyir:

-Siz mənim anamı öldürdüz. Mən də meyiti bir araba qızıla dəgişdim. Camahat da kətdə olan-qalan nəki, qarılar varıydı, hamısını öldürüylər. Meyitdəri bazara çıxarıb başdıyıllar çığırmağa:

- Kim qızıla ölü alıy?

Onlara diyillər:

-Sizin başuvuz xarap olubdu, nədi? Heç ölünü də satallarmı? Aparın basdırın. Camahat başa düşüy əhvalatı, qərara gəliyki, keçalı öldürsünnər. Ha axdarıylar keçalı, tapa bilmiylər. Keçal gəldimi, ələ düşsün?!

Kətdən çıxıp gedir. Görürki, birsi qoyun otarıy. Camahat keçala çataçatda keçal kişiyə diyir:

- Ho camahatı görüysənmi? Hoların arasındakı ho gözəl qızı mağa vermax isdiyillər, mən isdəmirəm. Gəl paltarlarımızı dəyişək, qızı sağa versinnər.

Kişi bir qıza baxır, bir qabağındakına, razı qalıy. Keçalın paltarını giyir, oturur çeyin yanında. Camahat gəlib honu atıllar çeyə. Keçal aradan çıxıy. Ayrı yolnan qoyunnarı da qoturub gələr kəndə. Camahat pərt qalarki, keçal genə sağ qaldı. Soruşallar necə oldu? Keçal diyər:

- Siz məni çeyə atdınız. Qordum çeyin dibi qoyun-quzuynan doludu.

Camahat keçala inanıp başdıyır suya atılmağa. Boğulup ölüllər. İki kişi ayrı kətdə olur diyənə sağ qalıy. Kəndə gələndə göriylərki, keçal hamının başını əkipdi. Keçala diyillər:

- Yox, keçal, day sənin axıruvdu.

Keçal diyər:

-Mənim ürəgimdə bir muratım var. Qorxuram, məni basdırmıyasız. Qoy əvvəl muratımı yerinə yetirim, sora məni öldürün.

Keçal bir quyu qazır. Quyunun başında durur. Diyir, hindi gəlin biriiz sağımda, biriiz solumda durun. Meyitim çeya düşsün.

Hərəsi əlinə bir tüfəng alıy. Üzbəüz dayanıllar, keçal da aralarında. Keçal diyir:

-Mən bir, iki, üç diyəndə atarsız. Keçal bir, iki diyip tullanıy çeya, sora tez uç diyi. Kişilər tüfəngləri atıy, bir-birini öldürüy. Keçal isə genə sağ qalıy **(S. 201;T. 31).**

## KOSA İLƏ KEÇALIN NAĞILI

Kosa pambıq əkib-becərən adamın, keçal isə qoz, fındıq alveri ilə məşğul olan adamın yanında nökər idi.

Bir bazar günü kosa böyük bir çuvala cır-cındır doldurub, ağzına da pambıq qoyub, aparır bazaraki, pambıq adına satsın.

Keçal isə bir torbaya altdan fındıq qabığı doldurur, ağzına da bir qədər fındıq töküb, bu da aparır bazaraki, kimisə aldatsın.

Kosa ilə keçal bazarda bir- birinə rast gəlillər. Kosa fındığa baxır, bir neçəsini sındırır, yiyir, fındıx çox höyüşdü diyir. Höyüş olmasa, hamısını alardım, deyir. Keçal da pambığa baxır, çuvalı qaldırıb ağırlığını yoxlayır, pambıx da höyüşdü- deyir.

Axırda keçal kosadan pambığın qiymətini soruşub deyir:

-Mən pambığın hamısını alardım. Amma pulum çatmır.

Keçəl də pambığı istəyir, diyirki, mən pambığı satannan sora fındığı götürə bilərəm. Buların ikisi də ürəklərində mallarını dəyişmək istəyirlər.

Nəhayət, fındıqla pambığı: başa-baş dəyişillər. Kosa fındıq torbasını, keçəl də pambıq çuvalını götürüb tələsik bir-birindən aralanırlar. Hər ikisi tələsə-tələsə evinə gedir.

Yaxşı aldatdım keçəli, fındığı ləpələrəm, paltarımı da dəyişib, gələn bazar günü ararıb bazarda sataram. Filan qədər qazanaram.

Keçəl də öz-özünə deyirki, pambığı əyirtdirib parça toxudaram, sataram, filan qədər qazancım olar.

Bular hər ikisi öyünə çatır. Kosa fındıx torbasını boşaldır, görürkü, hamısı qərzəhdi. Keçəl də pambığı boşaldır, görürkü, hamısı cındırdı. Kosa keçəldən hayfını almaqdan ötrü keçəl də kosadan hayfını almaqdan ötrü bir də bir-birinə rast gəlmələrini arzulayırlar.

Gun keçir, həftələr, aylar keçir, yenə bir bazar günü onlar bir-birinə rast gəlirlər.

Kosa deyirki, mən pambıx əkən döyləmki, mən pambığı bazarda bir adamnan almışam. Yoxsa mən heylə iş görərəmmi?

Bunlar birlikdə bazarda gəzirlər. Onda bir adam hündürdən elan edirki, filan ağaya iki nəfər nökər lazımdı, işləmək istəyən onlara getsin.

Kosa ilə keçəl - hər ikisi köhnə ağalarından gileylənirlər, hər ikisi elan edilən yerə gedib nökər dururlar. Axşam sahibkar bulara işlərini tanıdır. Biriniz evdə qalarsınız, o biriniz mal saxlanılan yerə gedərsiz.

Kosa evdə qalır, keçəl mal saxlanılan yerə gedir. Səhər tezdən ustalar gəlir, sahibkar ev tikdirir, ustalar daş qaldırmağı kosaya tapşırır. Kosa axşam qaralana qədər yerdən üçüncü mərtəbəyə daş qaldırmaxdan beli qırılır. Keçəl də mal saxlanılan yerə çatan kimi qabağına bir dəstə mal qatırlar, əlavə bir baş da başı bağlı öküzün ipini əlinə verip deyirlər:

- Malları filan yerdə otararsan, öküzdən də muğayat olarsan, qaçmasın.

Mal otlağa çatana, gün qalxır, hava qızır. Öküz dincəlmirki, dincəlmir. Axşama qədər öküz keçəli dəfələrlə yıxır, sürüyür.

Axşama yaxın, hava sərinləşəndə öküz dincəlir, mala qatışır.

Axşam olur, kosayla keçal hər ikisi evə gəlir. Yemək-içməkdən sonra sahibkar mal töyləsinin qabağındakı səkidə göstərdiyi yerə yatmağa gedirlər. Yorğunluqdan, bədənlərinin ağrısınnan heç biri rahat olmur, yata bilmir.

Keçal kosadan soruşur:

-Sən bu gün evdə nə iş gördün?

- Heç nə, ustalar çay qoy, çay ver, yeməklərini aparıb verdim, qabları aparıb qaytardım. Ustalara qaynamadan tez-tez içməli su gətirdim. Axşama yaxın ustalar getdi. Mən də tikintidə bir az dayanıb, axşam qaralanda evə qayıdım.

- Bəs sənin işin nə oldu,-deyə kosa keçəldan soruşur. Keçəl də deyirki, mənə bir neçə baş malı tapşırdılar. Ağanın böyür qoruğu var.

Aparıb  malları qoruğa saldım. Yaxşı bir ağacın kölgəsində oturub mallara göz oldum. Qoruxda bir yaxşı su hovuzu da var. Arabir də gəlib hovuzda yuyunub sərinlənərdim.

Haxdı, bunnar bir-birinə inanmırdılarsa da, bəlkə mənim işimdən onun işi yüngül olar- deyə fikirləşirdilər.

Yenə bunlar bir-birini aldatmaq istəyir. Keçəl, haxdı, rahat işdi, amma adam axşama kimi tək ürəyi darıxır. Darıxan  kimi gəlib hovuzda yuyunub vaxtımı keçirirdim.

Kosa iki evin arasında qalmışdı. Usta tez-tez çay istəyir. Ağanın arvadı da elə bəd qılıxlıdıki, çay deyən kimi başdayır danışmağa.

Nəhayət, keçəl kosaya deyir:

-A kosa, istəyirsən, gəl işimizi dəyişək.

Buna razılaşırlar. Keçəl kosaya deyir:

- Ora qalın otu olan yerdi. Günortaya kimi otun çiyi qurumur. Adam ayaq üstə dayanmaqdan yorulur. Oturmağa yer tapmır. İsəyirsən, gələndə bir dənə oturmağa kürsü də götür. Yerdən çiy quruyana qədər kürsüdə oturarsan. Amma kürsünü axşam qayıdanda gətirmiyəsən. Mən gedəndə də mən otururam.

Səhərdən kosa malları aparır, keçəl də evdə qalır. Kosa bir dənə də kürsü götürür dalına sarıyır. Kosa malları tövlədən çıxaran kimi öküz kosanı yıxır, sürüyür, öküz kosanı o qədər sürüyürki dalına bağladığı kürsü tikə-tikə sınıb tökülür. Kosa yıxıldıqca kürsü başına, qoluna dəyib,  kosanın əzabını bir az da artırır.

Keçəl isə evdə daş qaldırır.

Yenə bunların bir-birlərinə kələk gəlmələri eyni olur.

Bir müddət işlədikdən sonra ağa bunların haqqını verir ki, evləirinə gedib qayıtsınnar.

Bunlar səhəri günü, səhər tezdən evlərinə gedəsi idilər. Sahibkardan pullarını alandan sonra yataq yerlərinə gəlirlər. Hər ikisi işin ağırlığından şikayətlənir.

Ağa malları tövləyə salandan sora töylə qapısını qıfıllayırmış, bir qədər yerlərində uzanandan sora keçəl deyirki, a kosa belə adama işləməkdənsə, işləməmək yaxşıdır. Mən bir daha bura qayıdası döyüləm. Kosa da onun sözünü təsdiqləyir, mən də qayıtmıycam-deyir.

Biddən kosa durur yerindən, oturub belə məsləhət edir.

-İndiki, biz qayıdası döylox, gəl bu ağadan bir hayıf çıxıb sonra gedax. Keçal soruşurki, nağarax?

- Gəl öküzü kasax, nə qədər apara biliruxsa aparax, qalanda qalsın. Ağa bizi tanımaz ki? O bizi hardan tapasıdı ki?

- Bunlar töylənin çardağına çıxıllar. Tölənin çardağı çox hündür

olduğundan töyləyə kəndirlə sallanmaq olar. Kosa keçələ deyir ki öküzü kəsmağa sən yaxşısan. Mən səni kəndirlə töyləyə sallayım, sən öküzü kəs. Əvvəlcə bir budunu səndən ötrü, sonra o biri budunu məndən ötrü verərsən, kəndirlə qaldıraram. Axırda da kəndirdən tutarsan, mən səni də qaldırandan sonra şələlənib gedərox.

Kosa keçəli kəndirlə töyləyə sallayır. Keçəl öküzü kəsir, kosaya deyirki, qaldır, bu sənin payın olsun, öz payımı sora vercəm.

Keçəl dərinin içinə bir parça ət qoyub özü də dərinin içinə girir dərini bağlayır. Axı keçəl bilirdiki, kosa onu aldada bilər.

Kosa əti qaldırıb çardağa çıxırdıb, çardaxdan keçələ deyir:

Öl köpək oğlu, o səniydinmiki, məni iki dəfə aldadan. İndi qal töylədə. Səhər ağa gəlib sənə öküz ətinnən kabab yedirər. Özoo da ətini itdərə verər- deyib qarannıxda əti dalına şələləyib gücənə-gücənə gedirmişki, onu görən olmasın. Kosa bir qoruxdan keçəndə bir dəstə it onun üstünə basılır. İtdəri nə qədər qovursa, əl çəkmirlər. Kosanın dalıyca gəlillər. Kosa birdən şələsindən səs eşidir:

- A kosa, a kosa, şələni hündürə qaldır, itlər qıçımı tutarlar.

Kosa yükünü yerə qoyub, görür ki, keçəl də onun dalında imiş. Kosa öz-özünə fikirləşirki, mən yenə bunu aldada bilmədim, bu məni aldatdı.

Kosa əti bölmək istəyir. Keçəl deyir ki, mən ət istəmirəm, biz öküz əti yemirux. Kosa ürəyində söyünürki, ətin hamısı ona qalacaq. Qalan əti, dərini dalına şələləyir, gedirlər. Keçəl kosadan ayrılmır, deyirki, bizim kəndimiz uzaxdadı.

Nəhayət, kosa evlərinə çatır, keçəli evə dəvət eldir, keçəl evə getmir, deyirki mən qayıdası oldum. Mənə sənin evini tanımaq lazımıydı, tanıdım. Sən məni töylədə qoyub qaçmaq istəyirdin. İndi mən də gedib ağaya sənin evinin tanıdasıyam.

Kosa nə qədər yalvarırsa, keçəl razılaşmır. Axırda kosa əti də, dərini də keçələ verir. Keçəl əti də, dərini də götürüb yola düşür **(S. 118; T. 47).**

## VAXM ELƏDİM

Qədim zamanlarda Ərzurum dağlarının ətəyində bir keçal yaşıyırdı. Keçal da keçalıydı. Deyillər, keçallar qırx cür olurlar. Habu keçal axırıncısıydı-qayğanağı. Üzünə kimi keçal yayılmışdı. Ona görə də ona qayğanağı-keçal lağabı vermişdilər. Keçalın əlinə dəyən nə vardısa, atırdılar qırağa.

Keçal Ərzurum dağlarının ətəklərində camahatın mal-qarasını otarırdı. Dağda şabalıt yetişib ağaşdardan tökülürdü. Meşəbəyilər keçala göz verib, işıx vermədilər. Meşəbəyinin gözünü oğurruyan keçal şaba-

lıd yıganda meşəbəyilər keçalı döyüp dəridən çıxarırdılar. Meşəbəyinin əlinnən bezən keçal çıxış yolu tapmax üçün şahın yanına gedib, hiylə işlədir. Şaha xəbər verillərki, sizi görməyə cındırından cin hürkən bir keçal gəlip. Şah heyrətə gəlir. Şah razılıq verirki qoyun gəlsin. Keçal baş əyip şahın yanında diz çökür.

Şah diyir:- Keçal məə görə nə qulluğun var?!

Keçal diyir:-Papaığımı göyə atıp yerə düşənəcən şahlığı məə ver.

Şah maraxlanıp diyir:-Verdim.

Keçal papağını göyə atan kimi diyir:

-Ərzurum dağlarındakı şabalıtlığı vaxm elədim.

Şah keçalın hiyləgər olduğunu bilib, qərar çağardır. Şabalıtlıx habu gündən vaxmdı.

Habu günnən helə meşəbəyilər şabalıtlıx tərəfə üz tutmasınlar.

Keçal ho gündən habu günə kimi Ərzurum dağlarından payız gələndə şabalıdı yığıb daşıyır. Sora söz deyən olmur. Mən də bi dəfə keçalnan ho şabalıtlığa getmişdim. Yerə ho qədər şabalıt tökülmüşdükü, gəl görəsən **(T.43).**

## NƏMRUD PADŞAH

Keçmişdə zalım Nəmrud adında padşah varıymıs. Ho rəyyətə çox zulum eliyir. Var- döylətini əlinnən alıb dilənçi gününə salıpmış. Onun məmləkətində dilənçi əlindən gəzməh olmurmuş. Bi günüsü onun ağlına gəlirki, Allahdan bac alsın. Nə qədər çalışdısa da əlinə bi şey keçirə bilmədi. Ho qoşunu yekə bi düzə aparır. Əmr eliyirki, oxunu, yayını qolu gəldikcə dartıp göyə buraxsın. Göyə atılan oxların kölgəsi yerə duşub, yeri qaraınnıx ilədi. Üş dəfə göyə, Allahın üsdünə hücüm çəkdirdi. Dördüncü dəfə didi:

-Allahlığı hindi mən eliycəm. Vaxtında təslim ol!!

Helə bağırdıki, dağlar, daşdar səs- səsə verip lərzəyə gəldi. Dördüncü hucumda Allah oxun qabağına balıx yolladı. Balığın qanı oxnan bir yerdə yerə əndi. Ho söyüncək atılıp düşürdüki, Allahı yaraladım. Habu vax dünya tutuldu, yer, göy hünüynən doldu. Hünü əlinnən göydə yanan günü görmək olmurdu. Hünü qoşunun ətinə, başına, gözünə, burun- qulağına dolurdu. Qoşun dağıldı. Həmrüd padşah da qaçıp öz imarətinə girdi. Qapı-pencərələri bağladı. Həmrüdün paltarında gizlənmiş hünü honun burnuna girdi. Nə qədər asqırdısa, hünü Həmrüdün burnunnan çölə çıxmırdıki, çıxmirdı. Hünü özünə isdi, rahat yer tabbışdı.

Günnər keşdikcə hünü öz işini görürdü, padşaha gün-güzaran vermirdi. Başına yumruxnan döyəndə hünü də, padşah da sakitdəşirdi.

Günnər keşdi, hünü günnən- günə azgınnaşırdı. Daa padşah yumruxnan başına vurulmaxdan düzəlmirdi. Əmr elədiki, layıxlı bi toxmax hazırrasınnar. Qul-qaravaşdar növbəynən toxmağı paççhaın başına vursunnar. Əmr yerinə yetirildi. Qul-qaravaş toxmaxnan Nəmrüdün başına vurduxda bir az sakitdəşirdi. Günnər keçdikcə, axsax hünü də paççahın beyninə girirdi. Getdikcə paççah nirahat olurdu. Daa qul-qaravaşdar vuran toxmax da paççahın başına kar eləmirdi. Nəmrüd əmr elədi ki, pəhlivan cüssəli qul gətirsinnər. Əmr o saat yerinə yetirildi. Pəhlivana oxşiyan qul yavaş-yavaş toxmaxnan Nəmrüdun başına vururdu. Hünü isə Həmrüdün beynində özünə yer iliyip həyasızdaşmışdı. Daa pəhlivan cüssəli qulun vurduğu toxmağın da heç bir faydası yoxuydu. Nəmrüdün hirsi başına vurdu. Əmr ilədiki qula, bərk vur! Qulun vurduğu toxmağın bi faydası olmadı. Nəmrüd bi də əmr ilədi:

-Bərk vur!!!

Qul Nəmrüdün başına toxmağı sifdəkinnən bərk zərbəynən vurdu. Genə Nəmrüdün dərdinə əlac olmadı. Biddən Nəmrüd helə bağırdıkin dağ-daş honun bağırtısınnan lərzəyə gəldi. Arvat- uşax qorxuya düşdü.

-Bərk vu........r!!! Bərk.........r!!!- diyən Nəmrüdün başına pəhlivan cüssəli qul helə bi toxmax vurdukin qorxusunnan hələ beləsinnən vurmamışdı. Gücü gəldikcə ənən zərbə öz işini gördü. Nəmrüdün başı xaş-xaş dənəsinə döndü.

Nəmrüdün dağılmış başınnan sərçə balası boydana hünü uçub havaya qalxıb gözdən itdi **(T.43).**

## ATA İLƏ OĞUL

Biri varıydı, biri yoxuydu. Bir ata varıydı. Honun dini-imanı bir oğlu varıydı. Oğlan böyüyüp ərsəyə çatır. Ata oğluna yarrı –yaraşıxlı bir imarət tikdirir. Honu gözəllər gözəli bir qıznan öyləndirir.

Gələn günnən qaynatanı bəyəmmir. Qaynata nə qədər gözəl xasiyyətdi olsa da gəlin ho qədər bəd xasiyyətdiydi. Qaynana gəlinin əlinnən dərdə düşüp ölür. Tək qalan qaynatanı ğəlin burunlayır. Honu köhnə, uçux daxmasına qovur. Ata oğluna yalvarırki, mən daxmaya köçürülməyimə incimirəm. Məə bir nəfər qarıdan, qurudan tapın, gətirin, qulax yoldaşı olsun. Mən tək yaşıya bilmirəm.

Oğlu atasına diyir:

-Səə arvat lazım döylü.

-Ay oğul, arvat öyün dirəyi, bərəkəti, yar- yaraşığıdı.

Kişi anadan yetim qalmaz, arvatdan yetim qalar. Allah başına gətirsindeyə ata qarğış eləyir. Qarğış gəlini tutur. Ho axşam yatır, səhər durmur.

Yeddi yetimnən qalan oğul hər yeri gəzir, dindən, donnan çıxır arvat tapa bilmir, yetimlərin əlinnən cəzanə gəlir. Atasının yanına gəlip diyir:

-Ata, məə arvat lazımdı. Sən dünya görmüş, ağsaqqal adamdsan. Məə bir yol gösdər.

Ata təklikdən, baxımsızlıqdan xəsdələnip ölüm döşəyindəydi. Son nəfəsində özünü ələ alıp oğluna diyir:

-Səə arvat lazım döylü. Necəki məə lazım olmadı. Daha ölsəm də əhdimə çatıp ölürəm **(T.43).**

## PADŞAH OĞLUNA AD QOYDURUR

Biri variydi, bir yoxuydu, bir paççah variydı. Ho kasıba-kusuba əl tutur, acdarı doydurur, qurban kəsir, fitrə –zəkat verirdiki züryəti olsun. Atalar dimişkən, Allah kimə döylət, kimə öylad verər. Ay gəlir, gün dolanır, paççahın bir oğlu züryəti dünyaya gəlir. Uşağa ad qoydu mərasimi keçirdillər. Paççah oğluna ad qoymax üçün ən ağıllı adam axdarır. Ad qoyana xələt verəcəyini vəd eliyir. Kim paççahın oğluna ad qoysa, honu dünya malınnan doyuzduracaxdı. Bi necə adam var - döylətə tamahkirrik eliyip irəli çıxsa da paççah holarıdala qaytarmışdı. Hamı sakit dayanıp bir-birinə baxırdı.

Bi günüsü paççah helə bağırdıki, töylədəki atdar kişnədi, itdər zingildədi. Səsdən arvadının ürəyi getdi.

Paççah camahatı toplayıb didi:

-Əgənəm ad qoya bilən yoxdursa, üs nəfərdən birsini öldütdürəcəm.

Habu sözdən sora hamının üsdünə su çilənmişdi. Biddən bi dünya-görmüş, müdrük qavağa çıxıp didi:

- Paççah sağ olsun, açığıız tutmasa, mən oğluza ad qoya bilərəm.

-Paççah tax-tacına and içdiki səə acığı tutmuycax. Müdrük qoca paççaha baş əyip diyir:

-Ey qibleyi- aləm, bizim hökmüdarımız, biz səən mərhəmətinnən, şirin bal kimi cana yayılan ixdilatınnan razıyıx. Habu gün sizin oğluuza ad qoyulan gündü. Habu adı hamı qoya bilməz. Hona görə də paççahımıza şad, xürrəm olsun diyənə deyirəm:

- Qoy qibleyi-aləmin oğlu olsun, torpağını yağılardan qoyruya bilsin. Ata- anasını eşidən «bəli, baş üstə» deyən olsun. Paççah müdrük, dünyagörmüş qocanı qoyduğu addardan razı qalıp diyir:

-Habu qocaya istədiyi qədər xalat verin.

Qocaya o qədər qızıl verdilərki apara bilmirdi **(T.43).**

## ALLAHDAN İSTƏYİRƏM

Biri varıydı, biri yoxuydu, bir qarı varıydı, qarının çatmış bir oğlu varıydı. Var- dölətdən bi keçiləri varıydı. Oğlanın öylənmək vaxdı çoxdan keçmişdi. Anası oğluna məsləhət elədiki keçini kəsək, qoşuluxdakı əfəndini qonax çağırax. Honnan borc pul alax, səni öyləndirək.

Əfəndi rəhimdil adamıydı. Honnar əfəndini qonax çağırdılar. Keçini kəsif yaxşı bir meclis düzətdilər.

Əfəndi qonaxlıxda yiyip-işdikdən sora Allaha dua elədi:

-Ya rəbb, sən özün yetir, halalınnan, hazırınnan. Mən sənnən isdiyirəm. Birriyin xətrinə. Məni neynəyim, necə eləyimdə qoyma - didi.

Oğlan əfəndiyə bi kəlmə də söz dimiyip yola saldı. Anası oğluna didi:

-Sən niyə əfəndidən borc pul istəmədin?

Oğlan qayıdıp didi:

-Ho qədər var-döyləti olan əfəndi gözəgörünməz Allahdan isdiyir. Mən niyə ho böyük bizi yaradan Allahdan isdəmirəm, əfəndidən istəyirəm.

Bir necə günnən sora keçinin əti kutarır. Keçinin baş-ayağı qalır.

Oğlanın anası diyir:

- Oğul, baş-ayağı apar bazara, sat. Görək, pulu olurmu?

Oğlan baş-ayağı götürüp bazara yollanır. Ho görürki bi nəfər adam bazarda bi dənə balıx satır. Nə balıga, nə də baş-ayağa müşdəri tapılmır. Balıx satan axşama qədər «balıx alan» diməkdən dili qabar olur. Axşam olur. Balıx satan diyir:

-Ay oğul, mən balığı səə verim, sən də baş-ayağı məə ver. Balıx əti yiməkdən diksinmişəm.

Oğlan baş-ayağı balıxnan dəyişip öyə qayıdır. Anası diyir:

-Ay oğul, baş-ayağı sata bildin?

Oğlan diyir:

-Xeyir, ana, balıxnan dəyişdim.

Anası diyir:

- Çoxdandı, mən balıx əti isdiyirdim. Yaxşı kin, baş-ayağı balıxnan dəyişmisən. Gətir, balığı təmizliyək. Bişirim, yiyək.

Oğlanın anası balığı təmizdiyəndə, balığın içinnən gözqamaşdırıcı daş çıxır. Daş işıx saçdığına görə pəncərənin qabağına qoyullar. Çöldən günəş işığı düşdükcə daş qövsi -qüzey rəngli işıx saçır. Bi günüsü yol keçən tacirlər gəlip oğlannan qəlyan yandırmax üçün od isdiyillər. Oğlan diyir:

-Odumuz yoxdu.

Tacirin gözü pəncərədən parıldayan daşa sataşır. Oğlana diyir:

-Ho daşı məə sat.

Tacir nə qədər pul təklif edirsə oğlan gülür.

Tacir deyir:

-Oğul, pulun yarısın verim, yarısını da öyə gedənnən sora göndərərəm.

Tacir pulun yerinə karvanında satmağa apardığı malları oğlana verip öyə qayıdır. Oğlan karvandakı malları bazara aparıb satır. Pulları top eliyip öyə qayıdır. Usda çağırıp helə bir imarət tikdirirki altı dəryadan, başı bulutdan nəm çəkir. Eşidip bilən ha bu imarətin tamaşasına gəlir.

Günlərin bi günüsu oğlan tacirin öyünə qonax gidir. Tacir honu görən kimi tanıyır. Oğlanı öyə dəvət eləyir. Honun şərəfinə ziyafət verir. Oğlan qonaxlığa gələn, qonaxlarnan tanış olur. Bir neçə gün tacirin öyündə qonax qalır. Tacir oğlanın yarımçıx qalan borcunu ödüyür.

Oğlan görürki, tacirin bi qəşəg qızı var. Aya diyir, sən çıxma mən çıxım, günə diyir, sən çıxma, mən çıxım. Oğlan qıza bi könüldən min könülə aşiq olur. Tacir oğlanı yola salmax isdiyəndə ho diyirki, bi neçə gün də qalmax isdiyirəm. Buralar mənim xoşuma gəlir. Tacir diyir: Neçə gün isdiyirsən, qal, öz öyündü. Oğlan bir neçə gün qalır. Tacirin qızıynan tanış olur. İxdilat eliyir. Qızı isdədiyini elan eyləyir. Qız razılığını bildirir. Xəbəri anasına çatdırır. Anası da ərinə diyir:

Tacir də öz razılığını bildirir. Oğlana qırx gün, qırx gecə toy vurdurup, qızı hona verillər.

Oğlan qızı götürüp öylərinə gəlir. Bi neçə ildən sora tacir ölur. Tacirin qırxı çıxannan sora qaynanası diyir:

- Oğul, daa sənnən savayı mənim əl isindirənim yoxdu. Qız da mənim biccə uşağımdı. Habu mal, döylət, öy-eşik, imarət hamısı sənindi.

Oğlan o gündən qayınatasının döylətini öz döylətinə qatdı **(S.162; T.43).**

## PƏHLƏVANLA QADIN

Qədim zamanlarda çox güclü bir pəhləvan varmış. O vaxt Rüstəm Zal pəhləvan dünyada yox imiş.

O, daşı əlində ovub un edərmiş. Pəhlivan böyük bəyin toyunda oynayırmış.

Toya dəvət olunan güclü pəhlivanların hamısının arxasını yerə vurub məglub eləmişdi. Məni kim yıxa bilsə, özümə ağa seçəcəyəm.

Hirsinnən pəhlivanın əzələləri dəmirə dönmüşdü. Hamı ona heyrət eləyirdi. Pəhləvan meydan bulayırdı. Hamı onun nərəsindən diksinib siçan deşiyi axdarırdı:

- Mənə güləşməyə pəhləvan gətirməsəniz, bu məclisi darmadağın edəcəyəm! Ya da min tümən pul alıb sizdən əl çəkəcəyəm.

Bəy kəndin ağsaqqal, qarasaqqalını başına toplayıb məsləhətləşir:

- Durduğum yerdə işə düşdüm. İndi mən min tümən pulu haradan alım?

Bir dünyagörmüş, nurani kişi irəli durub deyir:

- Üstüaçıq kənddə bir subay qız var. Bunun öhdəsindən gəlsə, bir o gələr. Qızı toya- pəhlivanın yanına dəvət edirlər. Qız pəhlivancüssəli deyildi. Pəhlivan qızı görüb təhqiramiz gülüşlə onu qarşılayır. «Bumu məni məğlub edəcək» - deyir.

Qaş qaralıb axşam olmuşdu. Toya gələnlər dağılışıb evlərinə, öz ocaqlarının başına yığılmışdı. Pəhlivanla qız bəyin evində qonaq qaldı. Qız dedi: Mən sən yatan evdə yatacağam. Səni gözdən qoysam, qaçarsan.

Pəhlivan soyunanda qız onun enli kurəyinə yaxınlaşıb nəfəsini verdi:

- Hə, indi sən məni yıxa bilməzsən.

Qapıdan çıxanda qız dedi:

-Cox da özünə güvənmə, mən səni yıxdım - deyir. Sabah açılır, üzünüzə xeyirli sabahlar açılsın. Meydan sulanır, süpürülüb, təmizdənir. Hər iki rəqib meydana daxil orlur. Nə qədər guləşillər bilmirəm, ayaq altda salınmış xalılar parca-parca olur. Pəhlivanların nəriltisindən yer - göy titrəyirdi. Özünə güvənən pəhlivan çox yorulmuşdu. Qız da yorulmuşdu. Qız sonuncu gücünü toplayıb pəhlivanın kürəklərini yerə vurur. Pəhlivan subay idi. Qıza dedi:

-Sən subay, mən subay, gəl evlənək.

Onlar razılaşıllar. Böyük bəy pəhlivannara məclis qurub toy vurdurur **(T.43).**

## UÇ QARDAŞ

Cox qədim zamanlarda üç qardaş var idi. Kiçik qardaşı evləndirmək üçün qeyrətli, ismətli, əli təmiz, özü təmiz, dili təmiz, diribaş qız axtarırdılar.

Kiçik qardaş deyirdi:

- Mənə gözəllər gözəli lazımdı. Onun özü kimi də evi, eşiyi təmiz olsun.

İki qardaşın ikisi də dedi:

- Yox, qardaş səhvin var. Gözəl-göyçək olanın evi- eşiyi təmiz olmaz. O, həmişə özünə bəzək-düzək vermədən ev-eşiyə baxa bilməz.

Kiçik qardaş dediyindən dömmədi. Qardaşlar məsləhətə gəldilərki, gedək yoxluyax. Görək, kimin sözü düzdü?

Üç qardaş gethaget qırdılar yolun dabanını. Gəlib bir kəndin kənarına çatdılar. Kəndin kənarında bulaq başında o qədər qız, gəlin var idiki, hürkütməmiş sanamaq olmazdı. Uzaqdan qadınlar üç qardaşı görüb bulaq başından aralandılar. Böyük qardaş irəli durub gəlinlərə, qızlara dedi:

- Bacılarım, biz bir qərib eldən gəlmişik. Atamız yeddi ildi, xəstədi. Loğman deyibki, yeddi ildən qalan təknə qartmağı olsa, onu sa-

ğaltmaq olar. Kimdə varsa bizdən əsirgəməsin».

Gəlinlər, qızlar üzlərini cırmaqladılar.

-Bey, balam, onu haradan tapmaq olar? - dedilər.

Bu vaxt üzügülər, gözəl-göyçək, gözəllər gözəli bir gəlin irəli durub dedi:

-Mən gəlin köçən yeddi ildən çox olar. Gəlin, bizim təknədən istədiyiniz qədər qartmax qoparın, atanıza dərman eləyin.

Qardaşlar gəlinin evinə yollandılar. Gəlin xamır təknəsini gətirib üç qardaşın qabağına qoydu. Qardaşlar gördülərki, təknənin özündən yoxdu. Təknənin içi, çölü Nuh əyyamından qartmaqla doludu. Qardaşlar bıçaqla qartmaqdan qoparıb kağızın arasına büküb ciblərinə qoyub gedirlər. Yolun yarısında təknədən qopardıqları təknə qartmağını təmiz yerə qoyub üstünə də daş qoydularki, heç bir kəs tapdalamasın. Sonra gözəllər gözəli gəlinə lənətlər yağdıra-yağdıra yollarına davam elədilər. Birdəfəlik gözəl axtarmaq fikrindən vaz keçdilər.

## ELƏ KEÇƏLDİKİ İŞDƏMİYƏNƏ ÇÖRƏK VERMİR

Bir keçəl varmış. Bular bir ana, bir bala olullarmış. Bular lap kasıp ayləymiş. İki dənə öküzdəri, bi dənə də inəkləri varıymış.

Bi günüsü qarının ürəyi qış vaxdı ət isdiyir. Oğlu diyir:

-Ay ana, nağarax?

Anası diyir:

-Öküzün birsini kəsək.

-Sora nağarax?

Diyir:

-Zərəl yoxdu.

Diyir:

-Yaxşı, bu ökuzun birsini kəsdik, sabah getcəyik kotana, cütə, sora nağaracıyıx?

Diyir:

-Zərəl yoxdu.

Diyir:

-Ay oğul, məni qoş.

Nəsə, öküzü kəsip yiyillər. Cüt vaxdı gəlip çatır. Oğlu diyir:

-Ana, dur vaxdında hazır ol.

Anası diyir:

-Hara?

Diyir:

-Yer şumlanmalıdı. Dur, əkin əkməyə gedək.

Arvadı da götürüp gedir. Boyunduruğun birsini öküzün boynuna, birsini də anasının boynuna salır. Başdıyır yer sürməyə. O yannan da paççah çıxıpmış gəzməyə vəziriynən.

Diyir:

- Ə, vəzir, o nə axmax adamdıki, arvadı qoşupdu kotana.

Gəlir, diyir:

-Öküzümüz yoxdu. Öküzü kəsip yimişik. Mən bunnan yeri şumlamalıyam.

Vəzir qayıdıb gedir paccahın yanna, diyir. Paççah da diyir:

- Get, una dinənki arvadı aşsın buraxsın, sabah una bir öküz vercəm.

Vəzir paççahın didiyini keçələ çatdırdı. Keçəl arvadı açıp buraxır.

Dimə, paççahın da oküzdərinin malının içində yaman vurağanı varmış. Çobannar diyirki, o, gəlip sənnən öküz isdiyəndə onu vur, o köpöyoğlunu vursun öldürsun.

Gəlip diyirki, a paççah, öküz üçün gəlmişəm.

Paççah diyir:

-O öküz, odaha.

Gedir lal-kar öküzün qulağınnan tutur, gətirir, qoşur kotana. Bir də paççah çıxanda görürkü, ay bala, o öküz bu dəli öküzü əməlli-başdı işdədir.

Paççahın bi dənə təmbəl qızı varmış. Bu qızı da öldur, öz boğazına durup ordan yimək də tökmürmüş. Paccah keçəlin yanna gəlip diyirki, sabah anavı göndər bir qızın var, vercəm səə.

Keçəl anasına diyirki, ona, sabahda get elçi.

Keçmişdə qapı ağzında elçi daşı olurmuş. Qarı gedir oturub bu daşın üsdə. Arvadı apardılar. Diyir:

-A bala, paççahın qızına elçi gəlmişəm.

Paççaha xəbər aparıllar. Paççıh diyir:

Paççah qızı qoyur atın belinə, göndərin keçəlin öyünə.

Keçəl günüz gedir işə, axşam gəlir öyə. Diyir:

- Ay ana, kim nə iş görup?

Diyir:

-Vallah, mən filan elədim, filan elədim.

Keçəl soruşur:

-Qız görmüyüp?

Diyir:

-Yox.

Diyir:

-Onda iki boşqab gəti.

Birisini anasına, birisini özünə tökür, yiyillər. Qız da ac-acına durup baxır. Bir gün belə, iki gün belə. Qız baxırki acınnan ölür, axı. Durur

yavacca məhlə süpürməyə.

Keçəl genə anasınnan soruşur:

- Ay ana, bu gün iş görən olubbu?

Anası diyir:

-Hə, büyünnəri gəlin iş gördü.

Keçəl diyir:

- Onda üş qab gəti.

Anası gətirib gəlir. Yiyillər, içillər.

Paççahın arvadı diyirki bu qızı verdik keçələ, bəlkə bu acınnan öldü, dur gedək ora. Durullar, keşmiş atdar olurdu, bu atdarnan gəlillər keçəlin öyünə. Olar gələndə qız peşman olur, axı. Gədəynən anaya bu axşam çörək vermiycihlər. Onun dərdinnən düyünü gətirip qoyur anasının qabağına, isdikan-nəlbəkini də qoyur dədəsinin qabağına. Dədəsinə diyir:

-Dədə, sən buları sil.

Dimək, keçəlin gələn vaxdıdı.

- Ana, sən də bu düyünü seç.

Keçəl gəlir, görürkü, hamı işdiyir.

Axşam yiyillər, içillər. Paççahın qarnında yekə bir dərd olur. Diyirki, mən paççah olum, gəlim buna isdikan silim. Qızı çəkir qırağa diyir:

-A qızım, niyə belə olur?

Qızı diyir:

-A dədə, bu elə keçəldiki işdəmiyənə çörək vermir **(S. 174; T.30).**

## TƏNBƏLİN NAĞILI

Biri varıydı, biri yoxuydu, keçmiş zamanlarda kəsip bir kişi varıydı. O bütün günü övdən bayıra çıxmırdı. Arvadı bi günüsü diyir ki, a kişi bəsdi, bu övdə oturduğun. Dur get, qazan, getir, yiyax. Hası günuva oturiysən?

Bu kişi də durur gedir qazammağa. Yolda da bi kişi oturmuşdi. Kişi bu kişidən soruşur:

–A kişi, hara gedirsən?

O birsi kişi cavab verir:

–Gedirəm qazammağa. Övdə bir şey yoxdu.

Kişi diyir:

–Mən saa bir şey öyrədim. Qonşu ölkədə bir paççahın qızı var. O qız çox xastadi. Heş kimi sağalda bilmir. Get o qıza baxginən. Di ki, mən hakimam. Qızın ayax tərəfində Əzreyil oturmuş idi. Deginən, mən bunu saxaltaram.

Bu sözü eşidib kişi gedir u paccahın ölkəsinə. Qapını döyür. Diyir:

-Gəlmişam sizin xasda var, unu sağaltam.

Kişini getirillər xasdanin yanına. Kişi gördü ki, Əzrehil oturub qızın ayağı tarafda. Diyir, mən habu xasdani saxaltaram. Başdiyir sağaltmağa. Saxaltır da. Paççah kişiyə qızıl-gümüş verir. Una öy də verir.

Bi günüsü kişi gördü ki, Əzrehil arvadının yanında oturup. Durup gedir arvadının yanına başini tərpədir. Əzrehil keçir u tərəfə. Kişi genə başını tərpədir. Hindi də bu kişi xəsdələnir. Əzrehil diyir:

–Ay adəmi-insan, sən kəsip kişiydin. Sən nə eliyirsan? Nə o yan-buyana çalişirsan? Hindi nə sözün var, arvat-uşağa diginən. Mən sənin ruhuvu almalıyam.

Kişi diyir:

–Nə tez alırsan?

Əzrehil diyir:

–Tez döylü.

Kişi arvat-uşağına diyir ki, habu mən ölməliyam. Öv-eşiqi sizə tapşırıram. Əzrehil də kişinin canını alır **(S.73; T.30).**

## QİSAS

Biri varıydı, biri yoxuydu, helə kəsip adam varıydı. O durup sürüstçülüyə gedir. Əlində də düddək. Horda düddəyi salır, ilan vardı da, oyniyir orda. Bu ilan bir avuc qızıl verir ona. Hər gün ona bir avuc qızıl verir. Hər gün bir avuc qızılı gətirən bu kişi xəsdələnir. Oğlu atasınnan soruşur, atası da diyir:

–Düddəyi çalacaxsan.

Oğlu düddəyi götürüb çalmağa başlıyır. İlan çıxır. Ağacı da hazırlıyıpdi. Çıxanda ilanı vurur. İlan da bir gün oğlanı vurup öldürür.

İlan kişiyə diyir:

–Sənin oğlun mənim quyruğumu qopartdı, məni öldürdü. Ona görə də mən sənin oğluvu öldürdüm **(S.73; T.30).**

## ÜÇ QARDAŞ

Biri variydi, biri yoxuydi. Keçmişdə üç qardaş varıydı. Oların ikisi də padşah qızı alır. Birisi keçal idi. Onun gözəl arvadı varıydı. O birisi qardaşlar ona tamah iliyillər. Bizim arvadlarımız eybəcərdi, keçalın arvadı gözəldu. Nətaar iliyax, nətaar iliyax, bi dənə quyu qazıyax, üsdünnən də xalça sərax. Bi dənə də almanı da ağacın üsdünə eliyax. Sora da diyax ki, kim bu almanı gətirar? Böyük qardaşnan ortancıl qardaş bir-biriynən süpürləşillər, kiçik qardaş ağacın altına gedir,

isdiyir  ki, almanı qopartsın, quyuya düşür. Düşdü  bu dünyadan o birsi dünyaya.  Gördü ki,  bir arvat  xamur yoğurur. Su da yoxdu. Su başında bir caddal yatıpdu. Gərək ya bir uşax, nəsə verəsən ki, su versin.

Oğlan arvatdan soruşur ki, ay ana, xamuru niyə susuz yoğurursan?

Arvat diyir:

–Ay bala, görmürsən, suyun başında caddal yatupdu. Dağın başındadı. Gündə bir adam veririk,  udur.

Oğlan diyir ki, məni caddalın yanına aparun. Gürür ki, caddal ağzını ayırıp  durup. Diyir ki, mən caddalnan vuruşacağam. Vuruşanda tez unin ayağına su tökün. Yıxulacax.

Qarpışırlar. Tez caddalın ayağına su töküllər. Caddal yıxulur. Orda caddalın başını kəsir. Suyu doldurup aparillər. Gəlir, öz-özünə diyir:

–İndi mən haburdan necə çıxım?

Gəlr görür ki,  bir ilandı. Zümrüd  quşunun balalarını yiyir. Una diyillər ki, kim bu ilanı doğrasa, Zümrüd quşu uni çıxardacax. Didi yaxşı. Başdiyir  aşağıdan dənniyir, dənniyir. Çinardü də. Kəsir düşür. Çırpı bağliyir. Zümrüd quşu  onnan soruşur:

–Sən mənnən nə isdiyirsən?

Oğlan diyir:

–Məni habu dünyadan  çıxart. Zümrüd quşu diyir:

–Yaxşı. 7 təndir çörəyi, 7 ət, 7 səhəng su. İsdədikcə verərsən. Keçal minir  Zümrüd quşunun belinə, gedillər. Zümrüd  quşu isdədikcə verir. Ət isdiyir. Ət də kutarip axı. Ayağının  baldır hissəsindən ət kəsip Zümrüd quşunun ağzına verir. Zümrüd quşu əti yimir. Diyir ki, bu insan əti nə  şirindi. Saxlıyir  dilinin altında. Zümrüd quşu Keçalı  qoyur yerə. Diyir: get.

Diyir ki, sən get, mən də gedacağam. Zümrüd quşu əti dilinin altınnan çıxardıb yapışdırır unun ayağına. U da gidir övünə. Nağıl da  burda bitir  **(S.73; T.30).**

## İLANIN PADŞAHIN QIZINA AŞIQ OLMASI

Yaz ağzı padşahın qızı yar-yoldaşınan çay qırağına gəzməyə çıxıbmış. Diyif-gülüf gəzən vaxt  qavaxlarına bir ilan çıxr. Padşahın  qızı hara gedir, ilan yolunu kəsir. Qaçıf padşaha xəbər verillər. Padşah  istiyir adam göndərib ilanı öldürtdürsün. Vəzir-vəkil məsləhət görür ki, ilan qıza xətər yetirər. Bunu  dincliknən həll etsinnər.

Padşah ölkənin nə qədər rəmmalı, münəccimi, falabaxanı, taşquranı varmış çağırtdırır, məsləhət  istiyir. Onnar  da diyillər:

-Padşah  sağ olsun, o adi ilan deyil, qızınıza aşiq olup. İlanlar pad-

şahının oğludu. Qızı verməsəniz taxt-tacınız xətər görəcək, ölkə xarabalğa çevriləcək.

Padşah naəlac qalıb razılaşır. Toy eliyif qızını verir ilannar padşahının oğluna. İlan qavaxda, qız da dalınca, gəlillər çayın qırağına. Çay yarılır, ilan da, qız da çayın altına keçən kimi çay yenə başdıyır axmağa. Qız ilanın dalınca qarannıxda yol gələnnən sonra bir saraya çıxıllar.

Qız görür saray, nə saray?! Atasının sarayından çox cah-cəlallı, var-dövlətlidi.

Saraya çatan kimi ilan libasını dəyişir bir yaraşıqlı oğlan olur. Padşahın qızı ilə xoş güzəran sürür. Bunnarın bir qızı, bir oğlu olur.

Ay keçir, il dolanır, padşahın qızı ata-anasını yadına salıf ağlayırmış. Əri bunu görür. Niyə ağladığını xəbər alır. Padşahın qızı deyir:

-Neçə vaxtdı burdayam, nə ata-anamdan xəbərim var, nə elimdən-obamdan. Ata-anam ölüf-qalıf, bilmirəm. Ata-anam da nəvələrinin üçünü görmüyüf. Əri nə qədər dilə tutur, görür yox, arvadının könlü açılmır. Onda diyir:

-Yaxşı, bu şərtnən sənə icazə verirəm. Səni aparıf qoyaram çayın qırağına. Bir həftə sonra filan saatda filan dəqiqədə olarsan həmin yerdə.

Səni də, uşaxlarımı da götürüf yenə gətirərəm evimizə.

Padşahın qızı sevinir. Hazırlaşır, ata-anasına, qohum-qardaşına qiymətdi daş-qaş götürüf gəlir.

Ata-anası, qohum-qardaşı padşahın qızının iki uşağı ilə gəldiyini görüf bərk sevinir. Padşahın qızı ilanın tapşırığı ilə heç kimə heç bir sirr vermir.

Anası çox dilə tutandan sonra qız başına gələnləri danışır. Bir həftə sonra çay kənarında olacağını, əri onu gəlif aparacağını söyləyir. Günlər gəlif-keçir. Vaxt yetişir. Anası qızına yuxu dərmanı verir, yatıb yuxuya qalsın deyə. Cəlladları da göndərir ki, ilan çaydan çıxanda onu öldürsünnər.

Qız o zaman yuxudan oyanır ki, gün çıxmaq üzrədi. Bilir ki, yatıb yuxuya qalıb. Tez balalarını da götürüb çay kənarına gəlir. Görür səhər mehində çayın suyu dalğalanır. Amma su qıpqırmızıdı. Başa düşür ki, ərini öldürüblər. Allaha yalvarır ki, ərini tapmaqda ona kömək olsun. Bir göyərçinə çevrilib çay boyu uçur. Oğlu da qaranquşa çevrilib çayın üzəri ilə uçur. Qızı isə bülbül olub çay qırağındakı kola qonub yanıqlı-yanıqlı oxuyaraq atası, anasını, qardaşını çağırır **(S.196; T.13).**

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

Abdulla bəndə, Gülsənəm kəndə **(T.43).**

Abidi şeytan başdan çıxardar **(S.38; T.30).**

Ac bəydən tox it yaxşıdı **(T.49).**

Acın gözü dolma qazanındadı **(T.43).**

Acın arzusu bir qarın çörəkdi **(T.43).**

Acından dəyirmana baxır, kibirriyinnən şahıd almır **(S.195; T.30).**

Acmış eşşək qudurmuş itdən pis olar **(T.43).**

Adam var, dağı gəz, adam var, yağı gəz **(T.43).**

Adamın kiçiyi oluncax donuzun böyüyü olsan yaxşıdı **(S.208; T.10).**

Adın oldu Daşdəmir, od- ocağa isin gir **(T.43).**

Adını qoydu Haqverdi, özü haqqı vermədi **(T.43).**

Ağ çit, qara çit görməmiş, qız kişiyə getməmiş **(T.43).**

Ağa nədi, qul nədi, üzünə durdu nədi? **(T.43).**

Ağacı uzun kəs, dəmiri gödək **(S.195; T.30).**

Ağaş başında mum var, Səni tanımıyan kim var? **(S.118; T.47).**

Ağıllı balaca cahil böyükdən yaxşıdı **(T.49).**

Ağıllı fikirrəşincən dəli yükünü tutuf getdi **(S.195; T.30).**

Ağılluuz hasıdı – hodey qavaxda gedən zıncırrı **(S.195; T.30).**

Ağıllısı Xıdır Nəbi dəyirmanda qatıx üyüdür **(S.195; T.30).**

Ağılsız baş yəəsinə donquz otardar **(S.75; T.12).**

Ağılsızın iynəsi gödək, sapı uzun olar **(T.43).**

Ağzı göyçəyin ağzına qaşığı ölçüsüz düzəldəllər **(T.43).**

Ağzı göyçəyin üzü göyçək olmaz **(T.43).**

Ağzı əyri boynunun dibindən bəllidi **(T.43).**

Ağzı əyrinin əyrisini qabur düzəldər **(T.43).**

Ağzı əyriyə arpa çörəyi bəhanədi **(T.43).**

Ağzı yırtığın ağzına yamax tapılmaz **(T.43).**

Ağzıma dad, qarnıma şüvan **(S.207; T.30).**

Axmağın başında fındıq ağacı olmur, qoz ağacı olmur **(S.195; T.30).**

Axsaxsız sürü olmaz **(T.43).**

Ala çatı tutunca, dartan öküz çəkincə **(S.195; T.30).**

Ala itin balası da ala olar **(T.43).**

Ala qarğa məəm toyuğumdu, nə yumurtdasını görrəm, nə cücəsini **(S.195; T.30).**

Allah-tala meslahat olseydi, yaxşı şeydisə bi dənə özüyçün qardaş yardardı **(S.195; T.30).**

Allah yetirər, bəndə itirər **(S.195; T.30).**

Aləmdə hər şey yandı, filankəsin çöpünün ucu da yammadı **(S.195; T.30).**
Aləmə çırax  yandıran özü çıraxsız qalar **(S.195; T.30).**
Aləmi dağlar, balası qalar ağlar **(T.43).**
Alma arvad malını,
Gündə pozar halını **(T.43).**
Alma arvadın dulunu,
Dalıynan gələr qulunu,
Satar soyar pulunu,
Ayrı qoyar malını **(S.152; T.30).**
Alma kürən, satma kürən,
İlla da ki,  qaşqa kürən **(S.118; T.47).**
Altın yasdı, yerin isdi, durmursan **(S.152; T.30).**
Alveri pul eyliyir, davanı qılıc **(S.118; T.47).**
Analı qızın diyəni, anasız qızın söylüyəni çox olar **(T.43).**
Anam da bacım kimi, saçları sicim kimi **(T.43).**
Araz axır, gözün baxır, mən aldadıcam, sən allanma **(S.195; T.30).**
Arığa çibin də çoxdu **(S.152; T.30).**
Arının eşşəyində bal olmaz **(T.43).**
Arının şahı şah olsa, balı Bağdaddan gələr **(T.43).**
Arıx adam xayın olar **(T.43).**
Armudu yaxşı, ağacı pis? **(T.43).**
Arvat dalıynan gəzən ata mimməz **(T.43).**
Arvat var, at Balaxanım,
Arvat var, dabanı çatdax,
Arvat var, balağı batdax **(S.96; T.30).**
Arvat var, göydə uçan duranadı,
Arvat var, yerdə bitən balbadı,
Arvat var, ala eşşəkdən yorğadı **(S.96; T.30).**
Arvat var, qıldırım qıp,
Arvat var, holdurum hop,
Arvat var, şıldırım şıp **(S.69; T.30).**
Arvat qohumu ocax başında, kişi qohumu çaxçax başında **(S.195; T.30).**
Arvatdarda qaydadı, haydadı, huydadı, vaydadı, toydadı **(T.43).**
Aşını yiyir, altınnan palazı çəkir **(T.43).**
At alanda aulla, arvad alanda qohumla məsləhətləş **(S.81; T.12).**
At mənim altımda büdrəməsin **(S.118; T.47).**
Ata olmax asan, atalıx eləmək çətindi **(T.43).**
Ata öyü qızı ağıllı da edər, dəli də **(T.43).**
Atadan yetim – bir yetim,

Anadan yetim – 7 yetim,
Ata-anadan yetim – 8 yetimdi **(S.195; T.30).**

Atı görsə atnandı, iti görsə itnəndi **(T.43).**

Atı ürkən zurnaçıdan, qızı olan halvaçıdan qorxar **(T.43).**

Atın cilovu yəəsinin əlində gərəkdi **(T.43).**

Atnan arvadı başsız buraxmazdar **(T.43).**

Ay doğar, aləm görər **(S.118; T.47).**

Ay mənnən olsun, ulduzun gözünə barmax **(T.43).**

Ay öz-özünü bəyənmiş, qoy səni el bəyənsin **(T.49).**

Ayı görəndə aynandı, günü görəndə günnəndi **(T.43).**

Ayıbı kim eliyər- eybəcər. Soğanı kim yiyər-dərdəcər **(S.118; T.47).**

Ayıblı ayıbdan otanmaz **(T.43).**

Ayıblı ayıbını bilseydi başına kilim örtərdi **(T.43).**

Ayran içməyə gəlmisən, için niyə acıyır? **(T.43).**

Ayran içməyə gəlmisən, yoxsa ara vurmağa? **(T.43).**

Ayranı obadan, pencəri dərədən **(T.43).**

Ayranın qaymağı olmaz **(T.43).**

Az qanan həkim can düşmənidi, az qanan molla din düşmənidi **(S.195; T.30).**

Az yiyən mələkdi, çox yiyən histəkdi **(S.152; T.30).**

Az verirsən azdırır, çox verirsən qızdırır **(T.43).**

Azana yol göstərsən, sənə yön örgədər **(T.43).**

Azar da kasıbı tapar **(T.43).**

Bağda ərik badam oldu.
Gədalar adam oldu **(S.87; T.43).**

Baş dilin bəlasın çəkər **(T.43).**

Başı hində, ağılı gendə **(T.43).**

Başıma bəladı, dalıma şələ **(S.118; T.47).**

Başını kəsifdi, sakqalını darıyır **(S.118; T.47).**

Bəxtini qozda sına,
Oğulda, qızda sına **(T.49).**

Bəylər aparan malım yox, şeytan aparan imanım **(S.195; T.30)**.

Bi adam öz xəsdəsinə baş çəkmirsə, xaxa can-can deməyin nə faydası? **(S.52; T.30)**

Bir ağaşdan tola kürəyi də olur, xırman kürəyi də **(S.195; T.30)**.

Bir baş yaxşıdı, iki baş honnan yaxşıdı .
İki göz görür, dördü honnan yaxşı görür **(S.195; T.30)**.

Bir inəyin sutü, bir adamın işi **(S.195; T.30)**.

Birini yandırır, birini qandırır **(S.195; T.30).**

Boyu uzun hər çəpərdən boylanar **(T.43)**.
Boyuva arxeyin olma, boy gəndəlaşda da var **(S.118; T.47)**.
Börək olmasın, börək çalı ət olsun **(S.195; T.30)**.
Buyurannan yatan yorulmaz **(T.43)**.
Canı cibindədi **(T.43)**.
Calutdu döylüsənki, qırmızı giymisən? **(S.195; T.30)**
Cəyil nə bilir, əhil nə çəkir?! **(S.195; T.30)**
Cəyillih uçan tərlandı, tutmax olmaz, əhillih köhnə çuldu, satmax olmaz **(S.195; T.30)**.
Cəyilliyə mal saxla, qocalığa can saxla **(S.195; T.30)**.
Cənnəti istəmədi, cəhənnəmə də getmədi, qaldı yolda sərgəndar **(T.43)**.
Cənnəti isdəmiyən olmaz, günahı qoysa **(T.43)**.
Cəsarətdi hücum qələbənin yarsına bərabərdi **(T.43)**.
Cırcırama cırtdadı, ortasınnan partdadı **(T.43)**.
Çaqqalla toyuğun dostluğu ölümlə bitər **(T.43)**.
Çala-çala çalağan oldu **(T.43)**.
Çarıxlını mən bəyənmirəm, çəkməli məni bəyəmmir **(S.195; T.30)**.
Çeynədi, çeynədi çürütdü **(T.43)**.
Çəkmənidən çək bəri, çarıxlıdan töybəli **(T.43)**.
Çiraqla küləyin nə dostluğu? **(T.43)**
Çırpının qurusu təndirdə, insanın qurusu həyatda yanar **(S.92; T.12)**.
Çoban çox olanda qoyunu qurd yiyər **(T.49)**.
Çobanın gedənə haıyfı gələr, qurdun qalana **(S.195; T.30)**.
Çox əyilmə, baxallar, çox uzamma, asallar **(T.49)**.
Çox müşdərisi olan mətahın alıcısı olmaz **(T.43)**.
Çox yalan danışan özünə də inammaz **(T.43)**.
Çöp atda dəyirman tikir **(T.43)**.
Çörəh verdim yetimə, əl uzatdı ətimə **(T.43)**.
Dağdağannan dağ, börütgənnən bağ olmaz **(T.43)**.
Dağın ağrısı dağ boyda olar **(T.43)**.
Dağın vüqarı, əlin qabarı **(T.43)**.
Dal ətəyini kəsip, qabax ətəyinə calıyır **(T.43)**.
Dara düşəndə Allah-Allah, dardan çıxdı qulağı sallax **(T.43)**.
Darı cadı çatdadı, yedim qarnım partdadı **(T.43)**.
Darıya girən də özü, xorulduyan da **(T.43)**.
Daş anbara uçar (**S.136; T.32**).
Daş, baş, yaş kəsənin ömrü gödək olar **(S.195; T.30)**.
Daşın kiçiyinnən qorx, uşağın kiçiyinnən qorxma **(S.164; T.30)**.
Deməyə otammayan yimyə də otammaz **(S.81; T.12)**.

Dədəm öldüyünü bilsəydim, bi qulağı dolu darıya satardım **(S.195; T.30)**.
Dəvə balasını damda bəsləməzələr, böyüyəndə damdan çıxa bilməz **(S.118; T.47)**.
Dəli dəliyə yoldaş olar **(T.43)**.
Dəli öz ağlını yüz ağıldan üstün bilər **(T.43)**.
Dəlinin nə dərdi?! **(T.43)**
Dəniz ləpəsini sahilə çırpbasa, ürəyi sakit olmaz **(T.43)**.
Dənizin suyu çayda olsa, aləmi başına götürər **(T.43)**.
Dəryada sulu namaz **(S.195; T.30)**.
Dəryaya getdi, bomboş gəldi **(S.195; T.30)**.
Dərzinin iynə boydana döyləti olar **(T.43)**.
Dəvəyə didilər ki, səni xan çağırır. Dəvə cavab verdi: Xan məni niyə çağırar, ya dəərmana göndərəcək, ya da ki suya **(S.118; T.47)**.
Dəvəni yük, insanı həya üzər **(S.81; T.12)**.
Dil başı güdaza verər **(T.49)**.
Dil var bal gətirər, dil var bəla **(T.49)**.
Dili acı olana bal da kömək eləməz **(T.43)**.
Dilinə gücü çatmaz, başını yellədər **(T.43)**.
Dimməsən, dimdiksiz qarğalar yiyər səni **(T.43)**.
Dini Məhəmməd dinidi, günü itin günüdü **(S.206; T.12)**.
Doğa doqqaza,
Xaşıl Xaşmaza **(S.195; T.30).**
Doğru dikəlincən yalan dünyanı udar **(S.195; T.30).**
Doğruluq dost qapısı, oğruluq düşmən çatısı **(S.75; T.12)**.
Dodulu eşşək də ərik gətirərdi **(S.106; T.43)**.
Dosdu yatanda, düşməni satanda sına **(T.43)**.
Dost öyündə baş yuyallar, düşmən öyündə dırnaq kəsəllər **(T.43)**.
Dost zülümkar olmaz, ziyankarlardan dost olmaz **(S.81; T.12)**.
Dostun yoxsa axtar, tapanda qoru **(T.49)**.
Dostdan gələn ziyanı, düşmənin sərinə yazarlar **(S.118; T.47).**
Doşan nə anasını əmip, nə də gözü yoldadı **(T.43)**.
Dul arvat gecə yarısı peşiman olar **(T.43)**.
Durun gedin siz, dincəlsin ürəyimiz **(S.118; T.47).**
Dümbəyi qırmac görmüyüp **(T.43)**.
Dümbül qaşıxdı, yar-yara yaraşıxdı **(T.43)**.
Dünyada iki adam heç vaxt dost olmaz, biri qanan, biri qammaz **(T.49)**.
Dünyaya mərhəmət paylananda köpəyi üğüz yuxsu basar **(S.195; T.30).**
Düşmən səni daşınan,
Sən düşməni aşınan **(S.118; T.47).**

Düşmənə qalib gəlmək üçün onun gözlərinə dik baxmaq lazımdı **(T.43)**.
Düzlük haqq qapısıdı, düz dur, düz otur **(T.43)**.
Ejgahançılıxdan culfaçılıx **(S.195; T.30).**
El söyən ağac quruyar **(S.81; T.12)**.
El gözünnən düşən cücərməz **(S.118; T.47).**
Eşələnən toyux ac qalmaz **(T.43)**.
Eşşək küsüb arpadan, arpanın xəbəri yoxdu **(T.43)**.
Eşşək şıllaq atmasa, qoduğu atmaz **(T.43)**.
Eşşək vuruf cənnətə tulladı **(S.195; T.30).**
Eşşəkdən adnalıx umma **(T.43)**.
Eşşəyi apar bağla, yəəsi diyən yerə **(S.195; T.30).**
Eşşəyi məxmərdən çullasanda adı eşşəkdi **(T.43)**.
Eşşəyin başı xonçada durmaz **(S.70; T.30).**
Eşşəyin çulunu çöyür diyəndə qarnının altına çöyürür **(S.195; T.30).**
Eyni ağaşdan sovrux kürəyi də olar, peyin kürəyi də **(T.43)**.
Əbləh odu, dünya üçün qəm yiyər,
Kim bilir ki, kim qazanar, kim yiyər **(S.118; T.47).**
Əcəl, verməz macal **(S.195; T.30).**
Əldəki ağac çoturru olar **(S.195; T.30).**
Əldəqayrılma göz günortayacan görər **(T.43)**.
Əli yanan ağzına təpər **(T.43)**.
Əməyi sevənin qapısını xoşbaxlıx döyər **(T.43)**.
Ərli də ağlayar, ərsiz də **(S.118; T.47).**
Əşədi nədi, əlac nə **(S.195; T.30).**
Ət dərisinə bükülər **(T.43)**.
Əti yiyip doymayan, sümüyünə daraşar **(T.43)**.
Ətinə qıysa da sümüyünə qıymaz **(T.43)**.
Əliyəndə duyarsan **(T.43)**.
Əyər varsa hünəruv, hara getsən var yaruv **(S.206; T.12)**.
Əyri xanım ərdədi, göy balığı yerdədi **(T.43)**.
Fələyə şıllax atır **(T.43)**.
Fındıxnan qoz, ixtilatı poz **(T.43)**.
Fışdırıxnan donquz darıdan çıxmaz, gülləynən vurasan gərək **(S.195; T.30).**
Fikri cənnətdə qabal döyür**(S.195; T.30).**
Gejdənnən çıxan gün göömə, bulut altınnan çıxan gün oğluma dəysin **(S.195; T.30).**
Gədadan öy olmaz, küldən təpə **(S.195; T.30).**
Gələn gətirər, gedən aparar **(S.195; T.30).**
Gəlhagəlin gəthagedi də var **(T.43)**.

Gəlin bir il aya, bir il göyə, bir il də öyə baxar **(T.43)**.

Gəlin qızıl taxd gətirip, çıxıp üstündə oturup **(S.206; T.12)**.

Gəlini gərdəhdə, uşağı bələhdə tərbiyə elə **(T.43)**.

Gəlin var, bir ildə, gəlin var, üç ildə, gəlin var, ömründə gəlin olmaz **(S.96; T.30).**

Götür əzizini,
Gətir əzizimi **(S.118; T.47)**.

Göydən enəni yer qəbul eliyip **(S.60; T.30).**

Göynən gedən, eldən olar **(T.43)**.

Göz baxmaq üçündü, cibə qoymaq üçün yox **(T.43)**.

Gözəl güzgüdən doymaz **(T.43)**.

Gözəli səhər yuxudan duran vaxt seçmək olar **(S.118; T.47)**.

Gülməşəkər, dildən betər **(T.43)**.

Gülü açan bülbüldü, ətrini özgə bildi **(T.43)**.

Gün görən başdan görər **(S.136; T.32)**.

Günəşin paxıllığını bulut çəkər **(T.43)**.

Güzgüyə çox baxma, gözua it görünər **(S.118; T.47)**.

Hak getsin, nahak gəlməsin **(T.49)**.

Hak yandıran şamı söndürmək olmaz **(T.49)**.

Halal artar, haram batar **(T.49)**.

Hallavar yekə, Sadəddin çox **(S.72; T.30).**

Halalzadə barışdırar, haramazadə qarşdırar **(T.49)**.

Halına bələd oldum, qocaldım, yaşa doldum **(T.43)**.

Harda qamış, horda gamış **(T.43)**.

Həblə eliyirəm, atam ölür, həblə eliyirəm, anam ölür **(S.195; T.30).**

Həkimin xəstəlikdən başı çıxmıyanda, səbəbi qocalıxda görər **(T.43)**.

Həqiqəti danan adam əsil insan ola bilməz **(T.43)**.

Həlimi içəndə ağzım elə yanıf ki, qatıxılı aşı üfürə-üfürə içirəm **(S.118; T.47)**.

Həmədan eşşəyi, güləbatın noxda **(T.43)**.

Hər daşdan yol daşı olmaz **(T.43)**.

Hər kəs ləmpəni özüyçün yandırar **(S.195; T.30).**

Hər kətdə bi dəli, Calutda ələ düşən dəli **(S.195; T.30).**

Hər qapıya baş salannan arvat olmaz **(T.43)**.

Hər şeyin yamağı tapılar, şüşəynən qəlbin yamağı tapılmaz **(T.43)**.

Həsən dəli, tac dəlik,
Bu da gəldi üsdəlik **(S.207; T.30).**

Həyalı qız gəzişinnən bəllidi **(T.43)**.

Ho adam qayğıya qalsın ki, arvadı öləndə baldızı yerində yoxdu

**(S.195; T.30).**

Hoha bilmir, hiş bilmir **(S.69; T.30).**

Hoha heş, yengə düş **(S.69; T.30).**

Hörümçəkdən can dilənir **(T.43)**.

Xaxın fikrini çəkip qocalmaqdansa, öz dərdini çək, ucal **(T.43)**.

Xalxallısan ki, lobyalı aşı tərifləyirsən? **(S.195; T.30).**

Xayin gözdən, mərd üzdən bilinər **(S.47; T.12)**.

Xəsis havanı udanda da xəsislik edər **(T.43)**.

Xoruz bannıyanda gözünü yumar **(T.43)**.

Xuryata bax, ufdanın qədrini bil **(S.206; T.12)**.

İgid gücüynən, nəsil giciynən tanınar **(T.43)**.

İgidi xamır, daşı mamır öldürər **(T.43)**.

İgidi ilan öldürər, dövləti yalan **(T.43)**.

İki göz iki gözə baxsa, qulaq dincliyi yoxa çıxmaz **(S.75; T.12)**.

İlan şəkər yisə də zəhər qusar **(T.43)**.

İlanın zəhərrisi daş altındadı **(T.43)**.

İmtahan yerdədi, göydə döylüki?! **(S.195; T.30)**

İnsafı olmayan abat olmaz **(T.43)**.

İş əndazədən çıxanda yazıx biçarə neyləsin **(S.118; T.47)**.

İşinin ardını bilən başayax suyu içməz **(T.43)**.

İt başınnan ayrı yatmaz **(S.69; T.30)**.

İt dişiynən, igit işiynən tanınar **(T.43)**.

İt itnən savaşdı, oğru barıdan aşdı **(T.43)**.

İt itin yoldaşı, şundul onun qardaşı **(S.69; T.30)**.

İt qovlamır, torba götürmür **(S.152; T.30)**.

İt quduranda yəəsini də qapar **(T.43)**.

İt qulağını kəsənnən qorxar **(T.43)**.

İt hürməmiş, küçük hürməz **(T.43)**.

İt yunluyanda doşan bağda şahlıx eliyir **(T.43)**.

İt də yəəsiz olmasın **(T.43)**.

İtin harınnığı ətin bolluğunnandı **(T.43)**.

İtin pisdən töbə eliyəni keçəndə iyniyib keçər **(S.75; T.12)**.

İtin quyruğunu kəsməknən qoyun olmaz **(S.69; T.30)**.

İynən də itəndə gözün itikçidi **(S.152; T.30)**.

İynənin qədri düymə qırılanda bilinər **(T.43)**.

Kamalsızın iynəsi gödək, sapı uzun olar **(T.43)**.

Kasıb paççah olsa arvadı öydən qovar **(T.43)**.

Kasıb işdiyər, ağa dişdiyər **(T.43)**.

Kasıbın sajı sonunnan qızar **(S.159; T.30)**.

Keçəl darax gəzdirməknən başı tüklənməz **(T.43)**.
Keçəl qızın baxdı açılanda yel vurar, şalını açar **(T.43)**.
Keçəlin güzgüdən zəhləsi gedər **(T.43)**.
Keçən keçdi, vay gələcəyin dərdinə **(T.49)**.
Keçinin bəyliyi yonca qutarıncadı **(T.43)**.
Keçinin qoturu sərçeşmədən su içər **(T.43)**.
Keçinin ölümü palıtdan olsun **(S.195; T.30)**.
Kimə lov, kimə plov **(T.43)**.
Kini olanın dini olmaz **(T.43)**.
Kinli adamların ömrü ah- vaynan keçər **(T.43)**.
Kişi arvatnan, nakişi özgəynən gəzər **(T.43)**.
Kişiyə arvat, arvada kişi qoca vaxdı lazımdı **(S.148; T.30)**.
Kor dolma yiyən kimi eləmə **(T.43)**.
Kor hərfə ho diyə bilmir, könlünnən alimlik keçir **(S.195; T.30)**.
Korun gözü iməcidə açılar **(S.195; T.30)**.
Köhnə köşgül, işim müşgül **(T.43)**.
Köhnə küpə, yırtıx sələ,
Heç belə mal düşməz ələ **(S.118; T.47)**.
Kök arıxlıyıncan bi ömürdü, arıx arıxlıyıncan ho taylıxdı **(S.195; T.30)**.
Kökəlmiyən yerdə niyə arıxlayıram **(S.195; T.30)**.
Könül bağla səbirə, onu apar qəbirə **(T.43)**.
Körpəcə quzu, qurdun ağzı **(T.43)**.
Köşdən azanın axrı budu **(S.195; T.30)**.
Qada qadıyıp gəlməz, qarı donbalıp ölməz **(S.195; T.30)**.
Qada gədiyə, mən gədiyə **(T.43)**.
Qammazı qandırmax qan udmaxdan çətindi **(S.75; T.12)**.
Qamış bizim yerdə bitər, dütdəyi başqası çalar **(T.49)**.
Qanun pulun qarşısında acizdi **(T.43)**.
Qanun kasıblar üçündü **(T.43)**.
Qapıya gələn qonax öyə də gələr **(T.43)**.
Qarabağlı sonlu öldü mənə nə, sonsuz öldü mənə nə **(S.195; T.30)**.
Qaragünnü hara gedir – gün qaraltmağa **(T.43)**.
Qaraya qarışmaz, duvara yapışmaz **(T.43)**.
Qarı aldandı, qapı bağlandı **(T.43)**.
Qarğa görüb quş demə, xaşıl yiyip aş demə **(T.43)**.
Qarğa qarıldar, bayquş gətirər **(T.43)**.
Qaşığın içini qoyup, çölünü yalıyır **(T.43)**.
Qazanma, qarşı gəl **(S.152; T.30)**.
Qələm zalım əlində əyri yazar **(T.43)**.

Qərib dərdi tək ağlar **(T.49)**.
Qərib dostu olmayandı **(T.49)**.
Qərib it quyruğunnan bəllidi **(T.43)**.
Qərib yerdə kar, kor, lal ol **(T.43)**.
Qış biddən-birə, yaz yavaş-yavaş gələr **(T.43)**.
Qışda kasıbın qaçarağına ceyran da çatmaz **(T.43)**.
Qışın souxluğunu bi pişik bilər, bi də ki, uşax **(S.195; T.30)**.
Qız elçiliyinə gedəndə dolanışığı sənnən yaxşı olmayanın qapısına get **(S.118; T.47)**.
Qız zürgəti isdəhli olar **(T.43)**.
Qız özgə yumağı böyüdəndi, oğul yurdu güdəndi **(T.43)**.
Qızıl çirkabın içində də qızıldı **(T.43)**.
Qızılgüllər açanda çaylar qudurar, daşar **(S.195; T.30)**.
Qızın dili anasındadı **(T.43)**.
Qızın qızmışı, pişiyin azmışı **(T.43)**.
Qızını döydü, özünü öydü **(T.43)**.
Qodux nədi, yəhər nə?! **(S.195; T.30).**
Qoşunun qarnı şişdi, qayğısı maha düşdü **(T.43)**.
Qoturum, ay qoturum,
Qoymayır dinc oturum,
Qaşıyıram qanım çıxır,
Qaşımıram canım çıxır **(S.195; T.30)**.
Qoşu qarısı qız görünər **(T.43)**.
Qoşunun qaymağınnan özuu şoru yaxşıdı **(T.43)**.
Qoşudan aş gəldi, gözümnən yaş gəldi **(S.195; T.30)**.
Qonağa yaxşı qullux eliyəndə qudurğan olar diyəllər **(S.195; T.30)**.
Qonağı öyə qoyan yox, sadağası göynən gedər **(S.152; T.30)**.
Qonağın könlünnən keçən öy yəəsinə il azuqəsidi **(S.195; T.30)**.
Qonax gələr qaşına baxmaz, aşına baxar **(S.96; T.30)**.
Qohum var, ciyər parası, qohum var, qazan qarası **(T.43)**.
Qonax ya taxçaya, ya buxçaya baxar **(S.195; T.30)**.
Qoyunun zulumu sütdən olsun **(S.195; T.30)**.
Qərib yerdə kar, kor, lal ol **(T.43)**.
Qəssəb öz anasına da sümük satar **(S.81; T.12)**.
Qul azmasa, qada yeriməz **(S.69; T.30)**.
Qul qədərsiz olmaz, gor əzabsız **(S.195; T.30)**.
Qul qədərin görəcək, qismətini yiycək, gora sora geecək **(S.152; T.30)**.
Qul olanan qulu olma, qul saxlıyanın qulu ol **(T.43)**.
Qulağı kəsilən it quzuya dönər **(T.43)**.

Qumlaxlının həyətində fındıx olar, Daşağlının həyətində keçi **(S.195; T.30)**.
Quranı yarpaq-yarpaq yiyir, yalanı başdan aşır **(T.43)**.
Qurddu paxlanın kor alıcısı olar **(T.43)**.
Quynun dərini, suyun sərini **(S.195; T.30)**.
Lağ süpürgə müşgəyindədi **(S.195; T.30)**.
Lahıc tüfəngidi, gah sola vurur, gah sağa **(T.43)**.
Lobyalı aş, keçal Dadaş, get gəlirəm yavaş-yavaş **(S.195; T.30)**.
Lobyalı aşın bayadı, İsanı yuxudan oyadır **(S.195; T.30)**.
Loğa qazan daşıp ocax keçirir **(T.43)**.
Maluva düşdü taraş, özün də bi tərəfdən calaş **(S.195; T.30)**.
Məbadə qonşuya verəsən əhtac,
Əhtəcə ömürlük qalarsan möhtac **(S.195; T.30)**.
Mən belə qarğa görməmişəm, qarğada yorğa görməmişəm **(S.118; T.47)**.
Mən gəlmişəm aş bişirəm, aş çəkəm, gəlməmişəm yetim- yesirə baş çəkəm **(S.118; T.47)**.
Mən habu öyün gəlini, isdiyir oğlu buyursun, isdiyir anası **(T.43)**.
Mərdnən daş daşı, namərdnən bal yemə **(S.81; T.12)**.
Mətahın mətah oluncax, bazarın bazar olsun **(T.43)**.
Minaraya xarcı çıxmıyan yer göbələyi bilər **(S.195; T.30)**.
Nadana halva acı olar **(T.43)**.
Nadanlıx nəsilnən, insanlıx əsilnən **(T.43)**.
Nadürüst nəslinə çəkər **(T.43)**.
Naxır gəlməsə, axşam olmaz **(T.43)**.
Nə Əlidəndi, nə Vəlidəndi **(S.195; T.30)**.
Nə qulağı var, nə quyruğu, batıp palçığa, hindi honu dart çıxart **(S.195; T.30)**.
Nəpəyin nəxunəkliyinnən ala qarğa bala çıxartmaz **(T.43)**.
Nərdiyan olsa, arvatdar aya da qonax gedər **(T.43)**.
Nisyə quyruxdan nağdı yumrux yaxşıdı **(T.43)**.
Niyə dərin suya girirəm ki, Xıdır Nəbiyə deyəm çıxart məni! **(S.195; T.30)**
O sən sındıran qoz döyül, arxalıdı **(S.118; T.47)**.
O su kı səni aparır, ona dərya de **(T.43)**.
O yerdə ki, ləyaqətsizlərə hörmət, ləyaqətlilərə nifrət edirlər, orada üç bəla: qorxu, aclıq və ölüm yuva salar **(T.49)**.
Ocax dul arvadın toyu kimi yandı, söndü **(T.43)**.
Oğru qaçıb əkildi, doğru dara çəkildi **(T.43)**.
Oğul bığdan tutmax gərəkdi, sakqaldan tutmax yox **(S.152; T.30)**.

Oğul ümüt çırağı, qız bezin qırağı **(T.43)**.

Oğruya çəpər yoxdu **(S.195; T.30)**.

Oruc yediyini görmüşəm, namaz qıldığını görməmişəm **(S.118; T.47)**.

Orucalıdan zərəl yoxdu, bir aydı gəldi-gedərdi, Namazalıya yaxanı tanıtma, gündə beş vaxdı-ömrün boyu **(S.195; T.30)**.

Ögeyi əkilməsin, bitməsin, əkilsə də bitməsin, bitsə də göyərməsin **(S.28; T.30)**.

Öküzdən utammırsan, öküzə vurulan çubuxdan utan **(T.43)**.

Ölçülməyən arpa, ac eşşək **(S.195; T.30)**.

Ömür çatsa, kasıb da paççah olar **(T.43)**.

Öydə söz düz gəlmiyənədə xiyar əyri bitər **(T.43)**.

Öyündə yox darı, hamıdan oturub yuxarı **(T.49)**.

Öyüd batmayana söyüd batmaz **(T.43)**.

Öyüdü ver alana,
Qulağında qalana **(S.118; T.47)**.

Öz dilinə nəzarət eliyə bilməyən doğruçu ola bilməz **(T.43)**.

Özünü ələ ala bilməyən adam başqalarını ələ ala bilməz **(T.43)**.

Özgə fikrini çəkib qocalmaqdansa, öz dərdini çək, ucal **(T.43)**.

Özgə öyüdünə qulaq asan dəli, ipləmə olar **(T.43)**.

Özgə özgənin işini Bayatı-Şiraznan görər **(S.195; T.30)**.

Özgə tikəsi qarın doydurmaz, hörmət artırar **(T.43)**.

Özgəyə inahat eləmə, başına gələr **(S.131; T.30)**.

Paxıl həmişə diyər, mənim ürəymimnən olmaz **(T.43)**.

Paxılın dərdinə dərman qara torpaxdı **(T.43)**.

Pay yığanda qabağa gedir **(S.152; T.30)**.

Payını tək yiyən payanı yalqız qaldırar **(S.206; T.12)**.

Pendiri yaxşı pendirdi, hayıf ki, it dərisindədi **(S.118; T.47)**.

Pendirdən təkə qayırar, könlünnən olsa bir az da yekə qayırar **(S.47; T.12)**.

Pinə eləmə **(S.195; T.30)**.

Pis mal dala qayıdar **(S.195; T.30)**.

Pis söz qəlp puldu, yəsinə qayıdar **(T.49)**.

Pişiyin qaçarağı samannıx olar **(T.43)**.

Piyadanı at almağa, oğlanı qız almağa göndərməzdər **(S.118; T.47)**.

Pul olmayan yerdə qəpik də puldu, ver ayrana, tök qarnına **(T.43)**.

Pulsuz gedən bazara, canını salar qora **(T.43)**.

Pulu çox olana dünya darrıx eyliyir **(T.43)**.

Rəhmət düzənə, nəhlət pozana **(S.195; T.30)**.

Sabur-sabur,
Axırda sınıx qabur **(S.206; T.12)**.

Sağlam otağı, xəsdə yatağı sevər **(T.43)**.
Sağlamlıq bi cür, xəsdəlik min cürdü **(T.43)**.
Sakit quzu iki ana əmər **(S.195; T.30)**.
Saqqal sənnən gedənnən sora itin dalınnan bitsin **(T.43)**.
Sapında durmayan dəhrənin ağzı daşa dəyər **(T.43)**.
Sarıcada eşşək tapdın, nə baxırsan ərkək-dişiliyinə, min belinə get **(S.195; T.30)**.
Sel həmişə kötük gətirməz **(S.206; T.12)**.
Səbirri olmax ağıllı olmağa bərabərdi **(T.43)**.
Səmimilikdən çətin, yaltaqlıqdan asan şey ola bilməz **(T.43)**.
Sən görən göy əkin göyərməz **(T.43)**.
Səni itirən axtarmaz, tapan söyümməz **(S.28; T.30)**.
Sərçə nədi, şorbası nə? **(T.43)**
Sınammamış atın dalına keçmə **(S.75; T.12)**.
Sınan sınıp əyri bitməyə **(T.43)**.
Sırkosu diyirki, alçax dağı mən yaratdım, yoxardakına da torpax atdım **(S.28; T.30)**.
Sıyığa nə bismilla **(T.43)**.
Siçanın ağlı çaşanda pişiyin ayağına dolaşar **(T.43)**.
Soradan günə çıxan günüz ləmpə yandırar **(S.195; T.30)**.
Soruşannan soruşmuyan tez dənini üyüdüp gələr **(S.195; T.30)**.
Soyup-soyup dümbəcəsində pıçağı sındırar **(T.43)**.
Söydəgar ildə tezə, iynə-sap gündə tezə **(T.43)**.
Söz adama, çubux heyvana **(S.92; T.12)**.
Söz verən bez verməz **(T.49)**.
Sözün doğrusu dəmiri deşər **(T.49)**.
Südündə də var, süumüyündə də **(T.43)**.
Sümbüləm, suyam,
Durmuşam, buyam **(S.118; T.47)**.
Sümüyü it olsun, südü süt olsun **(S.195; T.30)**.
Süng elədi, getdi **(S.195; T.30)**.
Sürmə çox olanda, hər yana sürtülür **(S.195; T.30)**.
Sürü qayıdanda axsax keçi qabağa düşər **(T.43)**.
Şahı nədi, Şahbeçəsi nə ola? **(T.43)**
Şalı geydi şallandı, alı geydi sallandı **(T.43)**.
Şalvarı təzə, köynəyi təzə, yırtılsın, görən nə diyər bizə **(S.118; T.47)**.
Şayir oldun, dildə, sözdə, gözdə xəsis ol **(T.43)**.
Şeytan gah mələhdi, gah kələk **(T.43)**.
Şeytanın evi xəbis adamların ürəyindədi **(T.43)**.

Şeytanan min donu var **(T.43)**.
Səə umutdu olan nə gecə ölər, nə günüz **(S.159a; T.30)**.
Şəki küləyi açar, Şirvan küləyi batırar **(S.195; T.30)**.
Şələşur adam qarışıx yuxular görər **(T.43)**.
Şərə qarışdı, ağlı çaşdı **(T.43)**.
Şəyirdimin şəyirdi,
Ayran işdi gəyirdi **(S.118; T.47)**.
Şirin-şirin öpmürsən, acı-acı niyə dişdiyirsən **(S.152; T.30)**.
Şirin-şirin yiyən acı-acı qusar **(T.43)**.
Şorannıxda eşşək tapdın, erkək- dişiliyini axtarma **(S.152; T.30)**.
Tağarın qırağını süpürəllər, çanağın yox **(S.206; T.12)**.
Tamahgirrix insanın düşmənidi **(T.43)**.
Tapdax atda ot bitməz **(T.43)**.
Tehrannan Yevlaxda dolananmıyan heş yerdə dolanammaz **(S.195; T.30)**
Tez yuxudan duran, tez ocax qalıyan, tez öylənən peşman olmaz **(S.92; T.12)**.
Təzə doğulan at balası at olunca yə:si sağ qalmaz **(S.118; T.47)**.
Tək odun ojaxda da yammaz, qoşa odun çöldə də sömməz **(S.81; T.12)**.
Tələsip dünyaya gələn vaxtsız dünyadan gedər **(T.43)**.
Təpə dağı bəyəmməz **(T.43)**.
Tərəkəyə qalsın o muncuğu ki, gorda vurulur **(T.43)**.
Tərəzidə qalan boyun əti döyüləm **(T.43)**.
Tikanı sifdə öz əlinə batır, işdi ağrıtmasa əlimə batır **(T.43)**.
Torpağı ələ, toxumu çilə **(T.43)**.
Toydan sonra nağara,
Qoy gəlsin Bayram ağa,
Gözlərin qalsın ağara **(S.195; T.30)**.
Toyux hininə dadanan tülkünün dərisi boğazınnan çıxar **(T.43)**.
Toyux yumurtduyanda ayıbsız, xoruz yumurtduyanda dəvədə buynuz **(T.43)**.
Toyuğun cəriməsi bir yumurtadı **(T.43)**.
Toyux dimdiyinnən yumurtduyar **(T.43)**.
Törüyən dana quyruğunnan bəllidi **(T.43)**.
Tük var atallar, tük var satallar **(T.43)**.
Tükü yönünə sığa **(S.195; T.30)**.
Uğuz yuxusuna gidif **(T.43)**.
Uğuzun aşı yağlı, canı torpağa bağlı **(S.195; T.30)**.
Umac iç qulağı dic **(S.195; T.30)**.
Umudunu kəsən şeytandı **(S.195; T.30)**.

Ununda da var, urvasında da var, bişirən köpək qızında da **(S.195; T.30)**.
Uşax olan öydə şeytan olmaz **(S.76; T.12)**.
Uzaxdan gəti nöyütü, duzu, yaxınnan gəti arvadı, qızı **(T.43)**.
Uzun kösöy əl yandırmaz **(S.75; T.12)**.
Ürəyimə çıxıb yara,
Bilmirəm gedim hara **(S.118; T.47)**.
Üzdə gəzən üzdənər, düzdə gəzən düzdənər **(T.43)**.
Üzü xoş, quşqunu boş **(T.43)**.
Üzü yol daşına dönüf **(T.43)**.
Üzlü qonax, qəlbə yamax **(T.43)**.
Var vaxdı coşma,
Yox vaxdı çaşma **(S.81; T.12)**.
Varrı pulu qatdadı, kasıp borcun atdadı **(T.43)**.
Varrı namərtlihnən, kasıp comərtlihnən **(T.43)**.
Varrı yanını qaşıyanda kasıb elə bilər pul çıxarır **(T.43)**.
Varrının əli qaşınar, kasıbın beli **(T.43)**.
Varrıya baş əyəllər, kasıba ayama diyəllər **(T.43)**.
Vay haray, yıxıldı köhnə saray **(S.69; T.30)**.
Ver abbasını, vur babasını **(T.43)**.
Verən əl bilər, yiyən qarın yox **(S.75; T.12)**.
Vəfasız dost, kölgəsiz ağacdı **(T.43)**.
Vura bilmiyən ağacın yekəsini götürür **(S.195; T.30)**.
Vuran oğul atasına gənəşmir **(S.195; T.30)**.
Yaxşı kəslər yol çəkər, bedasıllar qan tökər **(T.43)**.
Yaxşı toxum gec cücərər, pis toxum tez cücərər **(S.47; T.12)**.
Yaxşılıxdan inciyən yaman günə düşər **(T.43)**.
Yalançının yanında doğru yalançı olar **(T.43)**.
Yalı içər yalavac, bir qarnı tox, biri ac **(T.43)**.
Yalın əlnən od götürməzdər **(T.43)**.
Yalqız şərə gedən şad qayıdar **(T.43)**.
Yaltax it quyrux bular **(T.43)**.
Yalvarmaxnan donuz darıdan çıxmaz **(T.43)**.
Yaşamağa uzun yol, getməyə yaxın yol **(T.43)**.
Yatanın gözü şişər, duranın qarnı **(S.56; T.1)**.
Yay aparan, çay aparan **(T.43)**.
Yer bərk olanda, öküz öküzdən görər **(S.195; T.30)**.
Yer doydu, el doydu **(T.43)**.
Yeruva gəldi kalış, axvay yerə çalış, yeruva gəldi çayır, dur çardağı qayır **(S.195; T.30)**.

Yetim qızın daşı ağır olar,
Ögey ananın sözü **(T.43)**.
Yetimin yetməsin, kol dibində bitməsin **(T.43)**.
Yetən ölməz, çatan ölər **(S.118; T.47)**.
Yəəsiz it sərçədən qorxar **(T.43)**.
Yəəsiz itə daş atallar **(T.43)**.
Yıxarsız yıxılmışuuzda oturarsız, tikərsiz tikilmişuuzda oturarsız **(S.195; T.30)**.
Yidim yandıranı, işdim söndürəni **(S.195; T.30)**.
Yiyənnən yimiyən duruşdu, yiyənin üzü qırışdı **(T.43)**.
Yol azdın, papağını qoy qabağıva, qarala **(T.43)**.
Yolların köndələni, kəllərin təpəli, kişilərin Səfəri, arvatdarın Gülpərisi, atdarda kürən, itdərdə hürən, habuların əlinnən əlhökümüllah! **(S.195; T.30)**.
Yolu azanda dala qayıdallar **(T.43)**.
Yolunnan düz getmiyənin qabağına çakqal çıxar **(T.43)**.
Yönsüz qoşu qoşunu xəcalətdi edər **(T.43)**.
Yönsüz zürgətdən keçəl yaxşıdı **(T.43)**.
Yumurtdamadı- yumurtdamadı, falını niyə işdi? **(S.118; T.47)**.
Yük ağır olanda daş qəribliyə düşər **(T.43)**.
Yüz yirmi dört min peyğəmbərdənsə bir Allahı çağır **(S.56; T.1)**.
Zalımın tamahı artıq, papağı yırtıq olar **(T.43)**.
Zəri yığan Zərxanım,
Yemədin çıxdı canın **(T.43)**.
Zulumnan abat olan ahnan bərbad olar. **(T.43)**.
Zurnaçı dalını-başını oynadar, zilçinin gözü çıxar **(S.195; T.30)**.
Zurnaçının yığdığı pul oyunçunun maaşıdı **(T.43)**.

## DEYİMLƏR

Atdı, muratdı, ağrısın aldığım arvatdı.
Acıdı, qucudu, zəhrimar yimiş bacıdı **(S.195; T.30)**.
Atdının qabağına çaparrı **(S.195; T.30)**.
Atın bozu, elə bil quzu,
Atın kəhəri, baş belinə yəhəri **(S.118; T.47)**.
Başımdan yalo qalxdı **(S.118; T.47)**.
Başını kəsdi, ətəyinə qoydu **(S.195; T.30)**.
Başqasına pul xərclədən adam çox səxavətli, əlverişli olar **(S.118; T.47)**.
Biri diyirki, ay xala, sən ağırsan. Xala diyir:

Bu tərəzi, bu daki, daş. Çəkilək, görək, kim ağırdı? **(S.195; T.30)**.
Buynuzduyana arxadan yanaş,
Təpikləyənə qabaxdan **(T.12)**.
Qorx lal axan sudan,
Mızı- mızı arvatdan,
Nəs hürən itdən **(T.12)**.
Bir dəfə gördüm, tanışsan.
İki dəfə gördüm, yoldaşsan.
Üç dəfə gördüm, qardaşsan **(T.12)**.
Bir işi görmüşəm, diməmişəm ki, yenə mənə təzə iş gördür **(S.195; T.30)**.
Camaata aftafa-ləyən gələndə bizə sarımsaxdöyən gəlir **(S.14; T.12)**.
Dədəsi ölən kəfənə getməz **(S.195; T.30)**.
Doğma ev- eşik,
Bir qızıl yeşik **(T.12)**.
Dodağı sallax **(S.195; T.30)**.
Dümbəyi qırmac görmüyüf **(S.195; T.30)**.
Ət xarab olsa, duzlayallar.
Duz xarab olsa, neyləyəllər? **(T.12)**.
Elə bil ki, qızılcıx talasında çəltik biçir **(S.195; T.30)**.
Gah olur kəndir qurşaq,
Gah da olur tirmə qurşaq **(S.118; T.47)**.
Gecə mollası gəldi, öyün yıxıldı **(S.195; T.30)**.
Göy üzünü bulut alıf **(S.195; T.30)**.
Haranın cuvarısan,
Haranı suvarırsan? **(S.13; T.30)**.
Həyət - bacanı bəy başı kimi qırxıf, təmizdiyif getdi **(T.24)**.
Xaçmazdı yolnan gedəndə kağız içində pul tapıf diyirki, mən də helə bilmişdim ki, materialıdı **(S.195; T.30)**.
Xəncəri iki yol sıyırma, bir işi iki yol buyurma **(T.12)**.
İsdəmirsən, isdəmə, İsgəndərin qızını isdə **(S.195; T.30)**.
İş görmək döyülki, işin gözünü tökməkdi **(S.195; T.30)**.
Kalış kökü 7 il qalır Hacıleyləyin yuvasında. 7 ildən sora düşür yerə. Kök atır. Diyirki, asca qala qurumuşdum, yaxşı oldum düşdüm yerə **(S.195; T.30)**.
Keçalın qoz halvası, öz pulu, öz halvası **(S.195; T.30)**.
Kəf gəlmək **(S.195; T.30)**.
Kələm dolmasını qavırda daşı qaldırıf yiyərəm **(T.24)**.
Kişdiyirəm, getmir, vururam, ölmür **(S.195; T.30)**.
Qara şüyüt, boz duman **(S.195; T.30)**.

Qaradan aşağa rəng yoxdu **(S.195; T.30)**.
Qız lap əlmirro edir **(S.118; T.47)**.
Qoydu tirin gözünə **(S.195; T.30)**.
Qurumuş ağaca qan sürtərki, qan hordan çıxdı **(S.195; T.30)**.
Loğa qazan kimi daşma **(T.43)**.
Miyançanın kisəsinin ağzı gen olar **(S.118; T.47)**.
Müşünün qoltuğunnan çıxan kimi oldu **(S.195; T.30)**.
Nehrəəzi qaynarlayırsız? **(S.70; T.30)**.
Nə çarxda ipək var,
Nə də tiyanda barama **(S.118; T.47)**.
Nöyütdən halva-təriynən - pisliyin də, yaxşılığın da bir qərəli var **(S.118; T.47)**.
O kərkinin biridi **(S.118; T.47)**.
Onu mundar suya sal, iç **(S.118; T.47)**.
Övlad fındıqdısa, nəvə ləpədi **(S.14; T.12)**.
Padar arvadı kimi oturur **(S.195; T.30)**.
Saxsını üyüt, tut cücünü, üfür gözünə **(S.195; T.30)**.
Səni Qanığa suya aparıb susuz qaytararam **(S.14; T.12)**.
Uydum adına, söydüm dadına **(T.24)**.
Uzun- uzun meşələr, səndən qalan peşələr **(S.14; T.12)**.
Varlıların ağzını
Kür geyinər yaz günü **(T.43)**.
Vur ölüm, ot ağlıya-ağlıya **(S.195; T.30)**.
Yağı çoxlu qat,
Duzu ölçüb at! **(T.12)**.
Yavaş getdi, mənzilə yetdi,
Tələsdi, bezdi, yolun azdı **(T.12)**.

## BAZAR DEYİMLƏRİ - ATMACALAR

Alverçi:-Qənd, şəkər!!!
Onun köməkçisi:-Bəs bu nazı kim çəkər? **(T.24)**.
Alverçi Həsən barədə:
Həsən gəldi, cibləri kəsən gəldi **(T.24)**.
Bu aş məni üşüdür **(S.118; T.47)**.
Qətərbaşıdı, honu ho cür aldatmaq olmaz **(S.118; T.47)**.
Day at olunca
Yiyəsi mat olar **(S.118; T.47)**.

# L Ə T İ F Ə L Ə R

## ÖLMƏYİN VAXTIDI?

Bi Xalxallı Qumlax yolunda zəmidə işdiyirmiş. Ho birsi Xalxallı hora gəlif diyir:

- Ə, arvadın ölüf. Haburda nağayrırsan?

Xalxallı cavaf verir:

- Çardaxda qurt, bələhdə uşax, özüm zəmidə, ay arvat, heş ölməyin vaxdıdı? **(S.195; T.30)**.

## ONDA QUZU OTARMAĞA

Bi işsiz-güjsüz ləzgi yolnan gedirmiş. Honnan soruşdular:

- Hara gedirsən?
- Allah qoysa, qoyuna.
- Bəlkəm, Allah qoymadı?
- Honda, quzu otarmağa **(S.195; T.30)**.

## YADIMDAN ÇIXIB

Günnərin bi günüsü Musa peyğəmbər Allah – Taalaynan söhbət eliyirmiş. Musa peyğəmbər Allah – Taalaya diyir ki, bi gün allahlığıvı ver maa. Allah–Taala da razı olur. Bi gün keçir.

Allah – Taala Musa peyğəmbərdən soruşur ki, habu gündə nə iş görmüsən?

Musa peyğəmbər cavab verir:

- Bi cücü düzəltmişəm ki, hər gün xoş səsnən cırıldıyceh. Honda Allah-Taala soruşur:
- Bəs, habu cücü nə yiyceh?

Musa peyğəmbər barmağını dişdiyip deyir:

- Vay-vay, habu lap yadımnan çıxıb ki **(S.195; T.30)**.

## QAŞIĞIN BİRİ SƏNİN, BİRİ MƏNİM

Biri varıydı, biri yoxuydu, bir molla varıydı. Ho qədər xəsisiydiki, xəsisdihdən öylənmirdi də.

Bir dəfə lotular mollanın yanına gəlillər. Molladan soruşullarki, niyə öylənmirsən?

Molla diyirki, mən istəmirəm qazancımı xax yisin.

Kətdə yaşı ötmüş bi qız yaşıyırmış. Lotular əhvalatı qızın qardaşına diyillər. Aralarında razılaşıllar. Gedif mollaya diyillərki, səə bi arvad tappışıxki, səən qazancıvı yimiycəh. Molla da razılaşır. Qızı da gətrif mollaya kəbinini kəsdirillər.

Lotularnan qızın qardaşı qıza tapşırıx verif çıxıf gedillər.

Gejdənnən qız aş bişirif siniyə töküf qoyur ortalığa.

Üsdünə də iki qaşıx.

Molla soruşur:

- Habu iki qaşığı niyə qoydun?

Arvadı cavaf verir:

- Birsi səən, birsi də məəm.

Mollanın gözdəri bööyür.

Arvat diyir:

- Səən arvadın döyüləm?

Molla diyir:

- Honda, mən öldüm.

Sora ürəyi gedif yıxılır.

Lotular, qızın qardaşı yerə sərilmiş mollanı ağ torbaya salıf qəbirstannığa gətirillər.

Ölən adamın yanına sifdə İnkir-Minkir gəlir, əli çubuqlu (heyva çubuğu)- diyillər.

İnkir-Minkir mollaya diyirki, əgənəm habu çuvaldakı samanı tərəzidə dağıtmıyıf çəkməsən, səni döycüyüh.

Molla nə qədər eliyirsə, samanı dağıdır. İnkir-Minkir mollanı ho qədər döyürki, molla qaçıf öyünə gedir.

Arvadı qapını daldan bərk-bərk örtüfmüş.

Molla qapını döyüf yalvarır:

- Aman arvat, can arvat, aç qapını.

Arvadı soruşur:

- Sən ölməmisən?

Molla diyir:

- Arvat mən ölməmişəm, aç qapını, qaşığın birsi sənin, birsi mənim.

Arvadı qardaşının razılıx səsini eşidif qapını açır. Qardaşı, lotular, bi də ki molla içəri girir.

Arvat aş bişirir. Hamsı yiyir, təzədən arvadın kəbinini mollaya kəsillər.

Habu əhvalat mollaya dərs oldu, xəsisdiyin daşını atdı **(S.96; T.30)**.

## NƏ QƏDƏR OXUYUR, OXUSUN

Bi günüsü bi çoban meçidin yanınan keçirmş. Minbərdə molla əzan verirmiş. Çoban yaandakınnan soruşurki, habu nə oxuyur?
Ho adam diyir:
- Əzən verir.
Çoban diyir:
- Honun oxumasının habu qoyunnara ziyanı yoxduki?
Ho adam diyir:
- Yox.
Çoban diyir:
- Honda nə qədər oxuyur, oxusun **(S.195; T.30)**.

## QAYNANAYNAN GƏLİNLƏR

Bi qaynana ölür. Üş gəlin honun üçün dil diyif ağlıyır. Böyük gəlin:
- Uzun, uzun, uy-uy.
Ortancısı:
- Dərin, dərin, uy-uy.
Balaca gəlin:
- Ay qızdar, honda bi üz görmüşəm, genə gəlcəh, uy-uy **(S.211; T.30)**.

## YOLDAN KEÇƏNNƏRİN OLSUN

Bi çoban varmış. Bi günüsü bi qoz ağacının yannan keçirmiş. Qoza salbey (ağac parçası) atır. Yoldan keçənnər yerə düşən qozdarın üstündə dalaşıllar. Çoban habu barədə çox fikirrəşir.
Bi günüsü paççahın yanna gəlif diyir:
- Ey şah, habu papağımı göyə atım. Ho yerə düşənəcən sən paççahlığı ver məə.
Paççah çox fikirrəşif öz-özünə diyir:
- Papax yerə düşənəcən nə vaxdıki?!
Paççah çobannan razılaşır. Adamları meydana yığıf çobana papağını göyə atdırır. Papax yerə düşənəcən çoban diyir:
- Yolun qırağındakı ho qoz ağaşdarı yolnan keçənnərin olsun **(S.195; T.30)**.

## DAA NƏ QALDI Kİ?

Bi günüsü bi kişi gəlninə bi ağ verif diyirki, ala, habunnan bi dənə alt köynəyi tik.
Qaynata habu ağı verənnən iki ay keçir.

Bi günüsü qaynata gəlninnən soruşur:
- Köynəh noldu?
Gəlin diyir:
- Təkcə qalan yeri – örmə ətəyi,
Çörmə yaxası,
Dört də tikişi.
Qaynata da diyir:
- Da nə qaldıki?! **(S.195; T.30)**.

## CƏHƏNNƏMDƏ ƏK, GORDA ƏK

Bi kişi qonax gedir. Öy yəəsi lobyadan yiməh bişirir – mərcimək.
Qonax yiməyi yiyif çox xoşduyur. Öy yəəsinə diyir:
- Habu xörəyin adı nədi?
Öy yəəsi diyir:
- Mərcimək.
Qonax yiməyi tərifliyif diyir:
- Habunu taxçada ək, buxcada ək, yaman qəşəng şeydi.
İntası qonax gecə xəsdələnir, diyir:
- Habu mərciməyi cəhənnəmdə ək, gorda ək, məni yaman günə qoydu **(S.114; T.30)**.

## AZAN SƏSİ, QAZAN SƏSİ, BİZƏ GEDƏK SƏSİ

Bi molladan soruşullar:
- Ay molla, səsdərdən hansı yaxşıdı?
Molla diyir:
- Azan səsi,
Qazan səsi,
Bizə gedək səsi **(S.13; T.30)**.

## DÜŞMƏNNƏRİM ŞƏKLİMİ HEYLƏ ÇƏKİLLƏR

Birsi yolnan gedir. Yolda cavan bi oğlannan rasdaşır. Honnan soruşullarki, sən kimsən?
Oğlan cavab verirki, cinəm.
Soruşur:
- Axı mən habu cinin şəklini görmüşəm, sən hara, cin hara?
Oğlan cavab verir:
- Ho da mənəm. Məəm düşmənnərim şəklimi heylə çəkillər

**(S.121; T.30)**.

## QAPINI DA SƏN ÖRT

Bi kişinin bi tənbəl gəlni olur. Bi günüsü tərəzidə yarma çəkməli olullar. Qaynata gəlninə diyirki, hordan kilo daşını ver. Gəlin diyirkin, hodu pişiyi çəkmişəm heylə bi kilodu. Qaynata məcbur oluf pişiyi qoyur tərəzinin gözünə. Ağır gəlir diyənə diyir:

- Girvəngə lazım oldu.

Gəlin diyir:

- Pişiyin quyruğunu düyünnə qoy, olsun girvəngə.

Qaynata məcbur oluf pişiyin quyruğunu düyünnüyüf qoyur tərəziyə.

Birdən görürkin, qapı açıxdı. Qaynata gəlnə diyir:

- Qapını ört.

Gəlin diyir:

- Gejdənnən hər işi mən göörəm, qapını da sən ört **(S.146; T.30)**.

## BİZİMKİ RUSCA DANIŞIR

Bi Calutdu yolnan gedirmiş. Görürkü radyoda muğamat oxuyullar. Öyə gedif görürkü, öydəki radyoda rusca danışıllar. Hirsdənif diyirki, aləmin radyosu muğamat oxuyur, bizim radyomuz rusca danışır. Baltaynan radyonu vurub qırır **(S.195; T.30)**.

## ŞAHLA KÜRƏKƏN

Biri vardı, biri yoxdu, bi şah vardı. Şah qızını bi oğlana ərə verir. Şahın gö:sü bi günüsü çoxlu çiban çıxardıf xəsdə yatır.

Şah habu xəbəri eşidif gö:sünü yoluxmağa gedir. Fikirrəşirki, diməsinnər, şahdı diyənə gö:sünü yoluxmur.

Gö:sü eşidirki, şah honu yoluxmağa gəlir. Qaynatasınnan utanır diyənə bilmir neynəsin. Gözünün birini çıxardıp sarıyır.

Şah gö:sünnən soruşurki, xəsdəliyi nədi.

Gö:sü diyirki, gözü çıxıp diyənə xəsdə yatır.

Şah diyir: Mən də helə bildimki, sən çiban çıxartmısan. Bilseydim, gözün çıxıf, gəlməzdim **(S.195; T.30)**.

## DABANƏZMƏSİ-MAŞAQIZARTMASI QONAQLIĞI

Bucaxda, qonşu kətdərdə camahatın arasında yeri gələndə «dabanəzməsi, maşaqızartması qonaqlığı» haqqında danışıllar. Habunu məsələ də çöyürüflər.

Diyillərki, Bucaxda Əhmət adında bi kişi, bi də honun Babaxan adında bi dostu varıydı. Babaxan çobanıydı. Qoyun sürüsünü qışdağa gətirir. Bi neçə günnüyə Bucağın talasında qalmalı olur. Babaxan köhnə çörəkkəsəni Əhmətgilə gəlir. Əhmət də yaxşıca qonağını qarşılıyır. Qonağın adına aş bişirtdirir. Qonax yiyif-içənnən sora Babaxan sürünün yanına getməyə hazırraşırdıki, Əhmədin arvadı Nicavət arvat qonax üçün qoz, alma, armut, bi qabda aş çəkir, diyir:

- Babaxan qardaş, sürünün üsdündə hərlənəndə çərəz eliyərsən. Tez-tez gəl. Gələndə Tükəzban bacını da (Babaxanın arvadı) gəti.

Babaxan sağollaşıf diyir:

- Sabah Nicavət bacını da gətir gəl bizə, sizi dabanəzməsi-maşaqızartmasına qonax eliycəm.

Əhmət Babaxanın məzəli adam olduğunu bildiyi üçün dimmir.

Sabahsı gün Əhmət arvadı Nicavət ilə Babaxanın yanına gedillər.

Babaxan mürgülüyürmüş. Əhmətgilin səsinə oyanır. Holara surfa açır. Surfuya xeylax soğan, yuxa qoyur. Yuxanı maşanın üsdünə qoyuf, ocaxda qızdırır. Buğlana-buğlana surfuya qoyur. Əlinin dabanıynan bir-iki dənə baş soğanı əzif Əhmətnən Nicavət arvada diyir:

- Ha, işdahlı olun. Habu da sizin dabanəzməsi, maşaqızartmaaz.

Babaxannan quzu kababı gözdüyür. Nicavət arvat bir ərinə, bir də çörəkkəsəni Babaxana baxıf mat qalır **(T.18)**.

## YAYMANIN ÜZÜNÜ, DOLMANIN YOX

Bir arvadın oğulluğu olur. Habu uşaxdan savayı öz uşaxları da varıydı.

Bi günüsü analıx yayma bişirir. Öz uşaxlarına yaymanın üzünü, oğulluğuna yaymanın altını verir. Uşax diyir:

- Ay ana, mən səə dimədimki, məə yaymanın üzünü ver.

Bi günüsü genə analıx yiməh bişirir. Habu dəfə dolma bişirir. Dolmanın üzünü yetimə, altını öz uşaxlarına verir. Habunu görən yetim diyir:

- Ay ana, mən səə yaymanın üzünü ver dimişdim, dolmanın yox **(S.195; T.30)**.

## AND

Möhumatın gücdü vaxdı camahat nahax işdən yaman qorxurdu. Holar yalan danışmaxdan, günah işdən qorxurdular. Hamı eşitmişdiki, yalan danışanı Allah-Taala cəzasına çatdırır. İllah da Qurana and içif yalan danışanda. Adam ya kor olur, ya daki, tor-topal.

Diyillərki, Şiralı addı birsi, Şəmmət addı birsi, bi də başqa birsiynən günah iş tutullar. Holar kasıflıxdan varrı yekəbaş ağalardan birsinin xalçasını çırpışdırıllar. Bəli, holardan söz alıllar. Səhərisi üçünü də gətirillər Qurana and içməyə. Qazının qabağına gətiriləndə Şiralı yoldaşlarına ürək-dirək verif diyir:

- Heş nədən qorxmuyun, diliniz topux çalmasın. Sizin danışmağız da lazım döylü. Mən danışanda amin diyin, qalanı məəm boynuma.

Mizan-tərəzi qurulur, qazı öz yerini tutur. Ha çalışırki, günahkarlar günahlarını xoşduxnan boyunnarına alsınnar. İntası xeyri olmur. Şiralı diyirki, bizim heş nədən xəbərimiz yoxdu.

Axırsı qazı Quranı gətirtdirir. Honu qoyullar qazının qabağına. Qazı diyir:

- Allah-Taala yalan danışannarı cəzasız qoymur. Bax, habu Quran, habu da siz. Hindi şahitdər qabağında and için, qoy hamı xəbərdar olsunki, ho xalçadan sizin xəbəriiz yoxdu.

Şiralı diyir:

- Gör nə günə qalmışamki, hamı bizi yalançı sayır.

- Demək, qorxursan, oğulsan, and iç.

Şiralı sifdə üzünü çöyürüf Qurana baxır, sora bərkdən:

- Əgənəm, ho xalçadan xəbərimiz varsa, qoy Quran habu bizə qənim olsun! – sağ əlini döşünün üsdünə qoyur. Yoldaşları da -amin - diyir.

Habu üç dəfə təkrar olunur. Öyə qayıdanda yoldaşdarı Şiralının üsdünə düşüllər:

- Ədə, zalım oğlu, sən yalannan and içif bizi də günaha batırdın. Bizi də bəlaya saldın. Biz də səən ucbatınnan cəhənnəmdə yancıyıx. Şiralı:

- Qoxmuyun, avam uşağı, avam. Fikir verdiiz, mən hər dəfə diyirdimki, Quran habu bizə qənim olsun - diyif gülə-gülə qoltuğunnan bi dənə biz çıxardıf yoldaşdarına göstərir, bizi tezəldənnən qoltuğuna soxuf diyir:

- Şiralının ölmüş gününə, and olsunki, hamının var-yoxunu yiyif - dağıdan qətrəhimlərin qabağında mağmun qalır **(T.21)**.

## XANIN KƏLƏYİ

Xalxal kəndində Kazım addı bi dənə məzəli kişi varıydı. Xanın dəvətiynən Kazım toy məclisdərində camahatı yaxşıca əyləndirir. Toy quta-

rannan sora xan sataşmax məqsədiynən Kazıma bi kağız verif diyir:
- Habunu verərsən darğaya, ho da səə taxıl verər.
Kazım razılıx eliyir. Ho yolda kağızı oxuyuf görürki, horda yazılıf: «Kazıma altı at yükü qar verərsən».
Ho vax da qışın oğlan çağıydı. Hər yan qarnan örtülmüşdü. Kazım həblə fikirrəşirki, kağızı yaya saxlasın.
Vax tamam olur. Darğanın yanna gedif kağızı hona verir. Darğa kağızı oxuyuf diyir:
- Mən yayın isdisində qarı hardan tapım?
Darğa çox fikirrəşir, xanın qəzəbinnən qorxuf diyir:
- A Kazım, gəl səə altı at yükü taxıl verim. Sən də xana deginənki, darğadan qarı aldım.
Kazım söyünür, razı olur.
Xan habu əhvalatı eşidif gülür, Kazıma kələk gəlməyin mümkün olmadığını görür **(S.182; T.30)**.

## GƏLƏNNƏRİN HAMSI SOYUXDAN GƏLİR

Bi yay günü bi kişi yolnan gedirmş. Yolda görürki, bi nəfər qabur qazır. Əynində də günün isdisində kürk. Yoldan ötən qəbir qazana diyir:
- Nə qazırsan?
Kişi cavaf verir:
- Qabur.
Yoldan ötən diyir:
- Bə günün habu qızmarında niyə kürk giymisən? Səə isdi döylü?
Kişi deyir:
- Mən qırx ildi qabur qazıram. Habura gələnlərin hamısı souxdan gəlif **(S.195; T.30)**.

## TƏRƏKƏ

Bi kişi ölür. Hoon malını tərəkəyə qoyullar. Yetimlərin anası aş bişirir. Mollaynan qazı, kətxuda da gəlir. Molla var-döyləti siyahıya saldırır.
1) Qaz, hamısınnan az - yaz qazıya.
2) Cığabuynuz gamış - yaz mollaya, qələm haqqı.
3) Kəl, araba, xış, boyundurux - yaz qəyyuma.
4) Cəhrə, nehrə, təhnə, tabax, tarax, - yaz yetimlərə.
Bə, anası ölsün habu yetimlərin, neynən dolansın, habu yetimlər? **(S.195; T.30)**.

## İKİ BACI

Diyillərki, Qumlaxda iki bacı varıymış. Balaca bacı böyük bacıya həmeyşə diyirmişki, sən pılmıntırısan.

Günlərin bi günüsü böyük bacı balca bacıgilə qonax gedir. Balca bacı görürkün, baysı gəlir. Öy-eşik də nə nayırda. Uşağın bələyini açıf, bitəər düzüf-qoşur. Uşağın bələyini də tələsdiyinnən bacadan uxarı tulluyur. Əsgi də gəlif düşür düz təpəsinə. Baysı gəlif çıxır. Öpüşüllər, görüşüllər. Dərtdəşillər.

Baysı gedəndə diyir:

- Hər şey yaxşıdı. Habu məən bəyənmirdin, taat eliyirdin. İntası həblə zibilli əsgi məəm başıma çıxmamışdı **(S.195; T.30)**.

## DİRİ OLUF BİRSİNİ DƏ ÖZÜ TUTEYDI

Qarabulaxdan Nij bazarına bi dənə ləzgi qoyun aparırmış. Bi dənə udu (udi) da öz qoyunnarını (üsdünə rəng çəkilmiş) ho qoyunnara qatır ki, holarıda bazara aparsın.

Ləzgi qoyunnarı bazara aparıp udunun qoyunnarınnan birsini satır. Udu gəlip çıxır bazara. Görür ki, rəngli qoyunnarın sayı 9-du. Ho yanna fırranır, bu yanna fırranır, ləzgiyə diyir ki, axı mən 10 qatmışdım, intası 9-du.

Helə bilirki, başa düşmədi. On adamı meslahata çağrıllar. Diyillərki, qoyunnarı on adamın arasında bölün. Bölüllər. Birsi çatmır. Diyir:

- Cəhənnəmə ki, köpəy oğlunu mən əfəl öyrətmişəm? Diri olup birsini də özü tuteydi **(S.190; T.30)**.

## AĞILLI DA ÖLÜLƏRİNİ TAPBAĞA GƏLİP

Bir Cəbəlli kəndi var. Burda bu lotu-potular yığılar, fikirləşərkin, bunnar ağıldan kəmdi, gedək habuları aldadax. Çiyninə bir xurcun alır, üsdünə bir ağ salır, gedir. Diyirki, məni habura ölülər göndərip, çox dardadılar, pul isdiyillər.

Bunnarın da ağıllısı yoxuydu. Bu ölüsünə pul, u ölüsünə pul, bir xurcun pul, çıxır gedir, çıxır aradan.

Gedir diyir, hər halda habuların ağıllısı var, habu ağıllı məni axtarcıtdı. Gedir yolun yarsına, xurcunu qoyur bir daldeya, oturur yolda.

Gəlir bu ağıllı habunun yanına, diyir, bəs vallah, ölülərin yaandan birsi gəlmişdi, didiki, ölülər dardadı. Biz də pul verdik.

Diyir:

- Başıız batsın. Ölü pulu niyniyirki? Öldü getdi. Dört dənə sümük-

dü da. Durur orda.
Diyir:
- Bəs hayna getdi?
Diyir:
-Belə.
Minir atın belinə. Gedir birisini tapır. Diyir:
- Salam. Ho yoldakı adama nətəər çataram?
Diyir:
- Al bu atı saxla. Mən də üç- dört iliyə-iliyə getcəm. Görək harda huna çatcam.
Çıxır gedir. Habu gözdən itənnən sora diyir:
- Sağ olsun, ağıllı da ölülərini tapbağa gəlir **(S.7; T.30)**.

## BU DA SAA QONAX YOLA SALMAX ÜÇÜNDÜ

Birsinin camışı o birisinin naxırına qarışır. Gəlir axşam görürkü, camışdarın iksi yoxdu. Gedir uların naxırına baxanda görürkü, camışdar hordadı. Naxırçıya diyirki, ho camışdar bizim camışdardı, aparcam. Diyir:
- Yox, aparma. Ağam diyipdiki, kim gəlsə, məəm yanıma göndər, mən icazə verənnən sora aparar. Gedin, ağamnan icazə alıp camışdarı aparın.
Gedip ağanı tapır, salam verir, özünü təqdim edir:
- Biz gəlmişik. Filankəsik. Camışdarı aparmağa gəlmişik. Siz də dimisinizki, məəm yanıma gəlsinlər, sora aparallar. Hindi gəlmişik.
Diyir:
- Lap yaxşı eliyip gəlmisiz, xoş gəlmisuz, amma get ağava dinənki, cuma günü mən unun  qonağıyam, beş nəfərnən.
Diyir:
- Baş üsdə. Hindi də camışdarı ver, aparax.
Cuma günü habu kişi hazırrığını görür, hobirsi kişi öz yoldaşlarıynan gəlir habu kişinin öyünə. Bunu qarşılıyıllar. Yemək-içmək gəlir. Bəy məclisin gedişində iki dəfə – üç dəfə durur, nəsə çatmıyan bi şeyi isdiyir.
Qonaxlıx qutarır. Yolda diyir:
- Siz habu qonaxlıxdan nə başa düşdüz? Noldu?
Diyir:
- Sağ olsun. Hər şey vermişdi. Xörəkləri də yaxşıydı.
Diyir:
- Düzdü, ular yerindəydi, intası bəyin arvadı rəyyət qızıdı. Hu rəyyət qızı olmaseydi hansı şeyin olmamasını sifdədən bilərdi. Hu bəy lazım olan şeyləri soradan isdiyirdi. Huna görə də bildimki, hu bəy

qızı döylü. Bəyə tezədən gərək bəy qızı alım.

Hər şeyi bilən bi öyün qızını alıllar hu kişiyə.

Gedip diyillərki, səə filankəsin qızını almışıx. Hu diyir:

- Axı, məəm ayləm, uşağım.

Diyir:

- Bu da saa qonax yola salmax üçündü. Həblə qızı mən meslahat görürəm **(S.46; T.30)**.

## QAZISI HƏBLƏ OLANIN MÜƏZZİNİ HELƏ OLAR

Molla Nəsrəddin öz ölkəsində gözüm-çıxdıya salındığı üçün ayrı ölkəyə qaçır. Gəlip yad bir şəhərə çıxır. Günorta namazının vaxdı imiş. Müəzzin meçitin minarəsində əzan verirmiş. Mömünnəri günorta namazına çağırırmış.

Molla Nəsrəddin başını qaldırıp müəzzinə sarı boylanır. Görür ki, müəzzin kağıza baxıp əzan çəkir.

Molla Nəsrəddin heyrətdənir. «Habu necə müəzzindiki, əzan surəsinidə olan bir-iki sözü oxuya bilmir».

Molla Nəsrəddin qərara gəlirkin, qazının yanına gedip məsələni hona söyləsin. Qazı Molla Nəsrəddini qəbul edənnən sora o, ədəb-ərkannan salam verir. Qazı döşəkçə üsdündə əyləşibbiş. Ho döşəkçəni qaldırıp altınnan bi parça kağız çıxarıp oxuyur – «Əleykəsalam»! Nə sözün var?

Molla Nəsrəddin diyir:

- Daa sözüm yoxdu. Şəhərin qazısı həblə olan, müəzzini də helə olar **(T.43)**.

## MÜŞDƏRİ GÖZÜ

Qədim zamannarda iki ortax varıydı. Holar birgə əkib, birgə biçərdilər. Biri - birinin kəlini qoşub yer şumlayardılar. Taxıl əkərdilər.

Bigünüsü ortağın birsi diyir:

- Mən kəlin bir tayını satıram. Ortax didi:

- Mən kəlin müşdərisi. Sat mənə, hu kəli.

Qiymətləşmək isdiyillər, ortax diyir:

- Hələ darıxma, dayan. Kəlləri qoşub, baxım görək necə kəldi? Məə yarıyır, ya yox?

Kəl sahibi diyir:

- Axşam, sabah qoşduğun kəl döylü?

Kəl alan ortax diyir:

- Habu kəlləri sifdə iş üçün qoşmuşdum. Hindi müşdəri gözü ilə

qoşub baxıram. Görüm, məəm karıma gəlir, ya yox? **(T.43)**.

## TORPAĞIN ARIQLAMASI

İki qooşudan birsi səbirri, hobirsi tamahkir olur. Tamahkir öz lələöyünnüyünü tərgidə bilmirdi. Ho hər il məhlə çəpərini qooşunun məhləsinə sarı çəkə-çəkə torpağını artırırdı. Səbirri qooşu utandığınnan bilmirdiki, nə etsin. Ho görə-görə qooşunun əməlinə göz yumur, səbrini basırdı. İş ho yerə çatdıkin, çəpər qoonşunun məhləsini tən yarı etdi.

Bigünüsü səbirri qooşu dilə gəlip didi:

- A qooşu, qadan alım, bəlkəm sən biləsən, məəm həyətim niyə ildən-ilə daralır?

- Habunu bilməyə nə varki?! Torpaxdı da, biddən kökəlir, biddən də arıxlıyır. Öz baxdınnan küski, talehin belədi.

Günnərin bi günüsü səbirri qooşunun qonax-qarası çox olur. Ho xayiş edip qooşunun qazanını alır. Məclisi yola salır, sora qooşusuna yekə qazan yerinə qəsdən balca qazan verir. Tamahkir qooşu bərk hirsdənir:

- Habu da məəm yaxşılığım. Qazanımnan qonaxlarını yola verdin, utammırsan, hələ qazanımı da dəyişdirirsən. Dayamma get, yekə qazanı gəti!

Səbirri qooşu halını pozmuyuf diyir:

- Qooşu məndə günah yoxdu. Qazanın həmənkidi, intası bir az arıxlıyıp.

- Heç qazan da arıxlıyar, yoxsa ağlın çaşıp?

- Yox, ağlım-zadım çaşmıyıp. Necə ola bilərki, torpax arıxlıyar, qazan yox?! **(T.43)**.

## EŞŞƏK VURUB CƏNNƏTƏ SALIB

Molla Nəsrəddinin varlı qooşusu qonaxlıx eliyirmiş. Molla kasıbıydı diyənə qooşusu honu məclisə dəvət eləmir. Molla habu işə çox pis olur. Qooşuda bişən daddı xörəklərin iyi Mollanın xoşuna gəlir, ağzı sulanır. Mən habu daddı xörəklərdən necə eliyim ki, dada bilim – diyə molla fikirrəşir. Düşünüb-daşınır. Axırsı bir çarə tapır.

Mollanın təpik atan bir eşşəyi varıydı. Honu palanlıyıp yola düzəlir. Qooşunun qapısı yanınnan keçəndə, Molla əlindəki çubuxla eşşəyi qıdıxlıyır. Eşşək qıdıxlanmağa bəndiymiş. Ho sahat dala qoşa şıllax atır. Molla eşşəyin halına bələdiydi. Tez dala sıçrayıb yıxılır. Mollanı görən qonaxların bir dəsdəsi eşşəyin dalıncan qaçır. Bir dəsdəsi də Mollanı yerdən qaldırıp üst-başının tozunu təmizdiyip meclisin başına keçirdillər. Molla işdahnan yiyip-içəndə varrı qooşu atdan-atdan Mollaya baxıp

ürəyində qırıla-qırıla deyinir: «Mollanı eşşək vurub cənnətə salıp» **(T.43)**.

## QAYNANA İLƏ GƏLİNLƏR

Biri variydi, biri yoxiydu. Bi qaynana varıydı. Qaynananın iki oğlu varıydı. Birsinin adı Xəlil, birsinin adı Cəlil. Ana oğlannarını öyləndirir. Gəlinlər ananı oğlanlarınnan ayırmax isdiyillər. Ana balalarınnan ayrılmax isdəmir. Gəlinnər bir hiylə qurullarki, ana oğlanlarınnan ayrı yaşasın. Anaya gəlinlər çörək vermillər. Anaya bir qırıx pendir, bir qırıx da çörək atıllar. Gəlinin biri pendiri, ho birsi çörəyi atır. Ana gah pendirin, gah çörəyin dalıncan qaçır. Gəlinnər yazıx anaya gülüşüllər. Ana günü-günnən zəyifliyir.

Bigünüsü oğulları analarına diyillər:

- Ana, səə nə olub, belə arıxlıyıp əldən düşmüsən?

Ana diyir:

- Oğul, mən ara vurmax isdəmirəm. Sabah çardaxda gizlənsəniz, öz gözüznən görərsiz.

Oğlanlar sabahsı gün işə getdim – diyip çardaxda gizdənillər. Gəlinlər hərəsi anaya bir qırıx pendir, bir qırıx çörək atıp oynadıllar.

Ana oxuyur: «Oğlum Xəlil, oğlum Cəlil, pendir verib göynətdilər, əppək verib oynatdılar».

Oğlanlar ho sahat çardaxdan yerə düşüp gəlinnəri döyüp öydən qovullar. Ho günnən bəri gəlinnər qaynanaya qənim kəsilip **(S.156; T.43)**.

## LƏZGİ NƏDİ, GÜZGÜ NƏİ?

Bi ləzgi yolnan gedirmiş. Yolda görürkü, bi güzgü. Güzgüdə özünü görüp diyir:

- Bağışda, sənin haburda olduğuvu bilməmişdim **(S.195; T.30)**.

## MƏN O QƏDƏR YAŞIYACAM

Qoca bir gürcü nəvəsinnən oynuyurmuş. Nəvəsi babasınnan soruşur:

- Baba, sən nə vaxt öləcəksən?

- Sən öləndə – deyir baba.

Nəvə bu sualı bir də verir, babası həmin cavabı verir.

Uşağın anası qaynatasının üzünə çımxırır ki, niyə uşaq ondan tez ölməlidi. Qoca deyir:

- Bala, niyə hirslənirsən? İndi mən sağam. Hamı məni tanıyır, nəvəm də. Öləndən sonra da məni nəvəm yaşadacaq. Nəvəm öləndən sonra isə mən tam ölürəm, kimdi məni tanıyan. Nəvəm nə qədər gec ölsə, mən o qədər yaşıyıram **(S.129; T.12)**.

## SABAH MÜTLƏQ GƏLƏCƏK

Bi kişi dükana gəlir. Ona ayaqqabı lazımıydı. Görür ki, axtardığı ayaqqabı var.

- Bu ayaqqabı neçəyədi? – diyir kişi.

- İki manatadı, - diyə satıcı cavab verir.

Kişi diyir:

- Olmazmı, ayaqqabını alım, pulu sabah gətirim?

- Olar, - diyib satıcı ayaqqabını büküb satıcıya verir.

Kişi gedənnən sora o biri satıcı qızı dannıyır:

- Niyə ayaqqabını pulsuz verdin, bəlkə kişi gəlmədi.

Qız diyir:

- Onsuz da ayaqqabını taykeş vermişəm, sabah mütləq gələcək **(S.123; T.15)**.

***

Birinin oğlu oliy. Gəlillər xəbərə, diyillər:

- Muşdulux ver, oğlun olupdu.

- Minnət Allaha, sizə nə? – diyir **(S.201; T.31)**.

***

Birsi Allaha yalvarır:

- Allah, nə olar, sən mağa bir fil alası qədər pul göndər.

Yoldan keçən bir nəfər soruşur:

- Qardaş, fili neyliyirsən?

- Fili, heç nə - diyi, - sadəcə olaraq, pul isdiyirəm **(S.201; T.31)**.

***

Molla birinə qonax gidiy. Orteyə bal geliy. Molla basılıp yiyir. Bal qutarannan sora kasanı da yalıyır. Öv sahibi diyi:

- A molla, bal səni yandırar.

Molla diyi:

- Qoy mən doyuncax yiyim, kimi yandıranı Allah biliy **(S.201; T.31)**.

***

Birsi təzə aldığı arvadın ağlını yoxlamax isdiyi, soruşiy:

- Tutax ki, bir adam uzanıpdı, sən də çıxmiyi, nədən biliysən ho

ölüdü, yoxsa diri?

- Özünnən soruşaram, - diyə arvat cavab vəriy **(S.201; T.31)**.

***

Birsi yuxuda qoriy ki, qabağına aş qoyulupdu. Amma yimağa qaşıx yoxdu. Özü də yaman acıymış. Ho orada yuxudan oyaniy. Tez durup qaşıx qoturiy, qoyur yanına ki, bir də yuxuda aş qorsa, lazım olar, diyi **(S.201; T.31)**.

***

Bi günüsü molladan soruşiylar:

- Molla, canazanın qabağında getmax savabdı, yoxsa dalında?

Molla cavab verir:

- Nərdiyanın içində getmiyin, dalda, ya qabaxda, fərqi yoxdu **(S.201; T.31)**.

## ABAT MALEYİN LƏTİFƏLƏRİ
## (Ailə-məişət sərgüzəştləri)

Varmış, yoxmuş, Allahın bəndəsi çoxmuş. İral zaman içində, xalbur saman içində Maley bacı deyilən arvat varmış. Maley bacının bir oğlu, bir qızı varmış. Qızına diyarmış:

- Qızım, get həyətə, paltar yumağa su qoy. Altdan qazan qoy, üstdən sacayaq, onun üsdünnən ocaq qala, üsdən də su qoy.

- Adiy, helə olarmı? – qızı didi.

- Mənim sözümə söz qaytarmaq olar? – didi Maley bacı **(S.204; T.12)**.

***

Onun bir oğlu olur, adını da Əmir İsgəndər qoyur. Qonşuları çağırır: - Oğlum olub, qoç kəsirəm, - diyir. Əlinə aldı cırdağı, xəncəri də götürdü, didi ki, qoç kəsirəm. Xəncəri cırdağa sürtdü, arvadlara da didi ki, hamınız Allahu- əkbər diyin. İndi cirdəyi kəsirəm, xoruz hələ balacadı, böyüyəndə kəsərəm onu.

Gün keçir, xoruz böyüyür, xoruzu da kəsir. Bişirir, gətirir. Qızına diyir:

- Bu sadağanı qonşulara payla.

Bir cama şərba töküb içinə daş bəər saldı. Daş bəər Dağal Məryəmə, xabluqulu Sebel Həlmətə, bir budu Qanti Mahdiyə, bir budu Qanbi Ramazana, bir qanadı Habi Abaya, bir qanadı Hürü Abaya, başı özümə, bir qılçası Gülümə, bir qılçası Əmir İsgəndərə **(S.204; T.12)**.

***

Günnərin bir günü Abat Maley qonşu oğlan üçün eliçiliyə gedəsi

olur. Gedip qapını açıp övə giriy, sözə başdiyi:
- Mən bir işə gəlmişəm. Topdan-topa, qalxa-düşə gəlmişəm. Sizin qızı bizim qudurmuşa isdəyim. Öv yiyəsi pərt də olsa diyir:
- Gəl, Maley bacı, gəl, gəl, otur. Maley bacıya çay-çörək verənnən sora Maley bacı diyir ki, gedirəm. Öv yiyələri durullar Maley bacını yola salmağa. Bu vax Maley bacı diyir ki, mən qızı görməyip getmərəm. Maley bacını keçirillər qız olan otağa. Qızla görüşür, adını soruşur. Qız diyir ki, adım Həlmətdi. Qızın adını eşidən kimi görək Maley bacı nə didi:
- Həlmət, dabannarı gen gör, arxalığı yekə ör. Qanpilərə getmişdim, gimgələrdə görmüşdüm. Qanpilərin ayaxları hamsı yekədi... **(S.204; T.12)**.

## MOLLANIN ÖKÜZÜ

Mollanın qoca bir öküzü varıydı. Qabırğaları görünürdü. Nə işə, nə də ətdiyə yarıyırdı.
Molla istədi ki, öküzü satıb yerinə ərkək buzov alıb böyütsün. Molla habu xəyalnan öküzü neçə dəfə aparsa da sata bilmədiki, bilmədi. Molla öküzü bazara aparıp - gətirməkdən yorulmuşdu. Öküz də bazara gedip - gəlməyi öyrənmişdi. Molla bazara getmək isdiyəndə öküz ipdən dartınırdı. Doğrusu, öküz də mollanın əlinnən bezikmişdi.
Molla öz-özünə söz verdiki, «necə olur - olsun gərək öküzü habu bazar satam».
Habu bazar günü də öküzə müşdəri olmadı. Molla çox düşündü, çox daşındı, axırsı öküzü salaxxanaya aparıp kəsdi. Sallaxxana sahibsiz itdərnən doluydu. Molla itdərin sayına görə əti parçaladı. İtdərin rənginə görə bir siyahı yazıp, bir-bir itdərə paylıyıp didi:
- Əgənəm, pulunuz yoxdusa, gələn bazar günü verərsiz.
Sora Molla Mamay iti yanna çağırıp didi:
- Pulları yığıp saxlamağı səə etibar edirəm. Mən gələndə, verərsən. Molla bazardan öyə qayıdanda arvadı gördükü, molla öküzsüz gəlir. Arvat didi:
- Nə yaxşıki, öküzü satdın. Öküzü kimə satdın, a kişi?
Molla söyünə-söyünə: - itə satmışam – didi.
Arvat elə bildiki, molla zarafat eliyir. Molla honu inandırdıki, öküzü itə satıp.
Arvat hirsdənip didi:
- Kül səən başıva. İtə də öküz satallar? A kişi, sən dəlisən, nəsən, bilmirəm.
Molla kor - peşman bazara yollanır. Görürkü, itdər sallaxxanadadı. Mollanı görən itdər quyruxlarını buladılar.

Kənarda bir uçux - sökük öy varıydı. Barısının bi tərəfi dağılmışdı. Molla itdəri xaraba öyə salıp, qapının dalını bərkidir. Sora da ət payladığı siyahını itdərə oxuyur. İtdərdə pul hardandı?

Molla hirsdənip əlindəki əsaynan itdəri döyməyə başdıyır. Mollanın yanından itdər qaçmağa başdıyır. Təkcə Mamay qalır. Mamay ağır olduğunnan uçux barını aşa bilmir. Bir neçə dəfə barıdan atılmax isdəsə də cəhdi boşa çıxır. Molla da döyməyin ardı-arasını kəsmir. İt bütün gücünü topluyup barıya qalxanda barı uçur. Barının içərsinnən bir dolu qızıl yerə düşüp dağılır. Molla qızılları yığa-yığa itə diyir:

- Habu pulları sifdədən versəydin, səni habu qədər döyməzdim **(T.43)**.

## DALA QAYIDIRAM

Qarışqaynan fil sərhəddi keçmağı qərara alıllar. Məfdil hasarlarnan, yumşax yerə çatanda qarışqa filə diyir:

- Elə iləki, çömbəlif yeriyəsən. Sərhədçilər bizi görməsinnər.

Bir azdan səs-küy eşidilir, qarışqa peşman-peşman diyir:

- Pa, atonnan, fil, sən yola davam elə, məə gördülər, dala qayıdıram **(T.24)**.

## HEÇ QAYIDAR?!

Toyux, it, mişovul xaricdən qaçıf SSRİ-yə gəllər. Bir aydan sora da, it də dala qayıdıllar. Soruşullarki, niyə qayıtduz?

Toyux diyir:

- Ay balam, yimağa heş nə vermillər, intası gündə üç dəfə yumurta tələb eliyillər.

İt də diyir:

- Vallah, qardaşdar, hamsı oğrudu. Ov dalınca qaç, habuna hür, yimağa da nə ət var, nə sümüh.

- Ə, bəs mişovul hanı?

- Əşi, mişovulun kefi köhdü. Partiyaya keçif, qalıf horda. Hər yer zivilnən doludu. Habı yaxınnarda viza göndərif bütün qohumlarını hora çağırcax, heş qayıdar?! **(T.24)**.

## HƏLƏ İKİ İL BURDAYIX

Tənbəl bi şəkilini əsgər aparıllar. Qəməndir diyir:

- Sağa dön!

Hamı əmrə tabı olur, şəkili yerində qurdalanır. Qəməndir hirsdənir.
- Sən nəyi gözdüysən?
- Ağzo yiyim, dönərox da, qaçhaqaç dölüki, hələ iki il haburdayıx da... **(T.24)**.

## ELƏ BİLDİM SƏN ÖLMÜSƏN

Bi gün DTK əməkdaşları bi nəfəri tutuf şəhər rəhbəri yanına gətirif diyillərki, bəs habı adam şaayə yayırkin, şəhərin rəhbəri olüb.
Şəhərin rəhbəri hirsdənif soruşur:
- A kişi, sən niyə məəm ölduğumu camahat arasında yalannan yayırsan?
Kişi diyir:
- A gözo yiyim, da niyə hirsdənirsənki? Səə təyin ilədığım rəhbərlər camahata çox zulum edillər. Mən helə bildimki, sən ölmüsən, bunnar da həblə azğınnaşıblar **(T.24)**.

## BƏS ELƏYİB

Şəki şəhərinin katibi bi yığıncaxda özünü öyüf diyir:
- A camahat, görün mən nə qədər yaxşı adamamki, mən habıra katib təyin olunan kimi rayon taxıl planını 120% doldurdu, aclıx, yoxsullux kimi qorxulu bəla siz şəkililərdən uzax oldu.
Bi kişi yerdən diyir:
- A yoldaş katib, Allah ho qədər insafsız döylüki, bi şəhərə iki bəlanı biddən versin. Sizi habı şəhərə katib göndərif, ho bəs eliyif **(T.24)**.

## XALQIN CANI QURTARASIYDI

Bi padşah varıymış, çox əzaziliymiş. .Habı əzazil paççahın üzü-gözü çox kələ-kötür, Oxud yolu kimiymiş. Honun üzünü taraş elamax çox müşgülmüş. Təraş elamağı bacaran bərbəri ölür.
Əyannar car çəhməyə məcbur olullarki, kim paççahın üzüü qanatmadan, kəsmədən təraş etmağı bacarsa, ona ənam verilcax, yox əyər üzü kəsilsə, boynu vurulcax.
Çox axdarışdan sora birsi qabağa çıxırki, bəs mən qırxacam. Razı olan dəlləh ho yekə xəncər kimi ülgücü alıf işə başdiyir. Kəsmədən, qanatmadan işi bitirir.
Paççah diyir:
- Məən isdiyənnər habı dəlləyə yaxşı ənam versin.

Sora da dəlləyə diyir:

- Hə dəlləh, anan namaz üsdeymişki, sən kəsmədin üzümü, yoxsa boynuu vurdurceydim.

Dəlləh diyir:

- Paççah sağ olsun, sizin anaaz namaz üsdeymişki, ülgüc üzozu kəsmədi. Əyər kəssəydi, əlimdəki ho yekə ülgüclə sizin boğazozu üzəsiydim. Həm cəzanı məə verəmməzdoz, həm də xalqın canı qutarasıydı **(T.24)**.

## HEŞ NƏ

Pinəçilik işində qazanc əldə edə bilməyən Sofiyev qərara gəlir ki, alverlə məşğul olsun. Bir kisə lampa şüşəsi alıb bazara çıxarır. Bazar nəzarətçisi honu görüp yaxınlaşır, kisəyə təpik vurup soruşur:

- Ə-ə, Sofiyev nə satırsan?
- Bi də həblə təpih vursan, heş nə **(T.24)**.

## SİBİRDƏ HAMI ESTON DİLİNDƏ DANIŞACAQ

Bir gün Stalin, Brejnev, Qarbaçov yığışıb nəsə müzakirə edirdi. Biddən xəbər verdilərki, Estonyadan gələn yüklərin qabağını kəsip buraxmıllar. Qarbaçov Estonyaya zəng edir:

- Alo, kimdi danışan?
- Eston dilində danışın.

Qorbaçov nə qədər çalışır, lakin eyni cavabı alır. Sora trubkanı Brejnev götürür.

- Alo, siz qatarları niyə buraxmırsınız.
- Heç nə başa düşmürəm, eston dilində danışın!

Axırsı telefona Stalin gəlir, heç bir söz soruşmadan diyir:

- Əgənəm beş dəqiqəyə kimi qatarları buraxmasanız, Sibirdə hamı eston dilində danışcaq.

On dəqiqədən sora xəbər verillərki, qatarlar gəlir.

## VER YEYİM, SONRA DEYİM

Müəllim:

- Səndə iki kanfet var. Birni də mən verdim. Neçə edər?

Şagird:

- Ver yiyim, sora diyim **(T.24)**.

## BİZ DƏ SEVİNƏRDİK DƏ

Müəllim:

- Əyər Məcnun Leyliynən öylənsəydi, əsər sizə necə təsir edərdi?

Şagird:

- A məllim, biz də söyünardox da **(T.24)**.

## HƏR ŞEYİ BAŞA DÜŞÜRƏM

Bir nəfər öz ana dilini yaxşı bilmədiyi üçün qərara alır ki, öyrənsin. Dostunnan xayiş edirki, honu öyrətsin. Dosdu honnan məşğul olur. Axırsı, oğlan diyir:

- Ya vse ponimayu... tolko ne znayu, koqda nujno «nin», a koqda «ninin», koqda nujno «dir», a koqda «diritdiritdi» **(T.24)**.

## ƏCDADI HEYVAN OLUB

Müəllim şagirdə: - Şirməmmədova Tovuz, atanın adı nədi?

- Aslan.
- Ananın adı nədi?
- Maral.

Yerdən bir uşaq diyir:

- Yəqin əcdadı heyvan olup habuların **(T.24)**.

## AYAQ ÜSTƏ GEDƏCƏYİDİM

Bi dəfə Şəkili avtobusda ayax üsdə geer. Hamı oturur, habuna yer olmur. Bir az geyənnən sonra ho bərkdən diyir:

- Əyər habu gün də ayax üstə getsəm, keçən dəfəki kimi eliycəm.

Qorxuya düşən bir nəfər ayağa durub hona yer verir, sora soruşur.

- Əyər oturmasaydın, nağarasıydın?

Şəkili sakitcə cavab verir:

- Ə heç nə... Ayax üsdə geciydim də **(T.24)**.

## «QUŞİ»

Ömründə rus dilində bir söz belə bilmiyən bir şəkili sanatoriyaya gəlir. Bir ay dincəldikdən sora öyə qayıdır. Dosdu soruşur:

- Ə, di görax yimağa nə veritdilərki, həblə kökəlmisən?
- Ə-ə-ə, quş yimaxdan bezdox.
- Nə quşi ə? Təkcə quş?
- Ha da, boşqabı qabağıma qoyub diyillər: - «Quşi!» **(T.24)**.

## LAP AVARA QALACAM

Bi dəfə bir şəkilini kəşfiyyata göndərillər, özünə də tapşırıllarki, qırmızı işıx yanan kimi paraşütlə atılsın. Düşən kimi İvanla görüşüp disinki, «bərk dayansınnar». Habunu diyip dala qayıtsın. Şəkili təyya-

rədə qırmızı işığın yananını görür, intası tullanmağa qorxur. Honu zornan təyyarədən atıllar. Şəkili paraşütün düyməsini basır, paraşüt açılmır, ehtiyat düyməsini basır, genə də açılmır.

Şəkili dilxor olub öz-özünə diyir:

- Vəssalam da, hayındı İvan da gəlif çıxmıycax, lap avara qalcam **(T.24)**.

## SOÇİNİ VERDİLƏR?

Ermənisdanda zəlzələ baş verir. Yaralıları pansionatda yerləşdirirlər. Yenicə özünə gələn bir erməni dərhal soruşur:

- Qarabağı verdilər? Mən hindi ordayam?

Həkim cavab verir:

- Xeyir, siz Soçidəsiniz.

Bir qədər kədərlənən erməni cavab verir:

- Deməli, Qarabağın yerinə Soçini verdilər **(T.24)**.

## BURA QARABAĞDI

Bir neçə il keçdikdən sora Avropa xəritəsinin yarısını qəhvəyi rəngləyib yazıllar: «Böyük Ermənisdan». İntası həmin qəhvəyi rəngin içərsində qara nöqtə gözə dəyir. Genə bir neçə il keçir. Bütün Avropa xəritəsi qəhvəyi boyanır, «Böyük Ermənistan» yazılır. İntası qara nöqtə yenə də öz yerində durur. Bir nəfər soruşur:

- Yaxşı, bə habu qara nöqtə nədi?

Erməni kədərlə başını buluyur:

- Habura Qarabağdı. Hələ də horanı ala bilməmişik **(T.24)**.

## BİZƏ LƏQƏB QOYUR

Bir şəkili ho birsinə:

- Ə, xəbərin var? Ermənilər diyir ki, Şəki bizim olıtdı. Adımızı da Şaxaşen qoyutdılar.

Ho birsi şəkili:

- Ə, allah haqqı, habular qızıtdılar. Aləmə ləqəbi biz qoyurox, habular da bizə ləqəb qoyur **(T.24)**.

## CÜYÜRÜ ALITDI

Ceyran addı gəlini doğum öyünə aparıllar. Honun bir qızı dünyaya gəlir.

Öylərinə gələn qonşu ərinnən soruşur:

- Ceyran hara geyitdi?

Əri utana-utana:

- Ceyraan, cüyürü alıtdı da... **(T.24)**.

## OLANIMIZ BELƏDİ

Döylətdi qooşusu kasıf ayləni heş vax saya salmazdı. Bi gün gecə vaxdı habu döylətdi qooşunun öyü yanır. Kasıf qooşunun eşiyində olan houzdan su götürmək üçün holaın qapısını döyüllər. Kasıf qooşu hona köməy eləmağ istəmədığı üçün diyir:

- «Vallax, diyəsən suyumuz bulanıxdı, əyər yarıyarsa qapını açım , su götürün.

Yanğını söndürməyə köməy eləmağ isdiyənnər:

- Allax səən fəryada çatsın, yanğın söndürmağa nə bulanıx su, nə də duru su olsun, nə tafotu var?

Öy yəəsi:

- Kefooza dəyməsin. Soruşuram da, varını verən otammaz, olanımız heylədi **(T.24)**.

## GÖSTƏRƏ BİLMƏRƏM

Şəkidə qoca arvad xəsdələnir. Həkim çaarıllar. Həkim diyir:

- Bacı, yorğanuu aç, baxım-görüm, haran ağriyir?

Qadın diyir:

- Yox, mən naməhrəmə bədənimi gösdərə bilmərəm. Kişi məni dəli mal kimi tafdaliyər **(T.24)**.

## DƏVƏ UŞAĞIMIŞ

Dəvə, qoyun, uzunqulax yol yoldaşı olullar. Holar bir müddət birrikdə yol gedir. İntası yolda yiməyə bir şey tapbıllar, acınnan güclə yeriyillər. Bir müddət getdikdən sora habular bi dəsdə ota rast gəlillər. Əyər otu hər üçü yesə, genə də üçü də ac olacaqdı. Odu ki, holar həblə bir şərt qoyullar: «Gəlin, hər üçümüz yaşımızı söyləyək. Hansımızın yaşı çox olsa otu ho yisin».

Birinci qoyun dillənir:

- Mən İsmayıl qurbanına gələn qoçun böyük qardaşıyam.

Uzunqulax da özü üçün elə bir yaş söylüyürki, habu qoyunnan da yaşlı olur.

- Sizin sözünüzlə dəvə uşağıymış, - deyip, dəvə otu ağzına götürüb, bir ağacın haçasına qoyup yeməyə başdıyır **(S.118; T.47)**.

## QONAXDAN QORXAN BİLƏCİKLƏRDİ

Yağışdı bi gündə Molla Cuma Şəkinin Biləcik kəndinnən keçirmiş. Yer sürüşgən olduğuna görə Molla Cuma bir neçə dəfə yıxılıb - durur. Axşam qaraldığına görə Molla Cuma habu kənddə qonax qalıb, səhər getmək isdiyir. Hansı qapını döyürsə honu qonax etmillər. Çarəsizlikdən öz kənddərinə getməli olur. Biləcikdən çıxıb öz kənddərinin yoluna düzələndə, təsadüfi bir nəfər öz kəndçisilə rastdaşır, honnan bərabər yol getməli olullar.

Əhvalatı öyrənən kəndçisi diyir:

- Nəəcəb, hu kənddə qonax qalmadın?

Molla Cuma diyir:

- Holar yolları yağlı,
Aşları yavan,
Qonaxdan qorxan Biləciklərdi.
Holar qonax saxlıyan döylü **(S.118; T.47)**.

## BURDA BÜLBÜLLƏR RUSCA OXUYUR

Zamanov Məmməd addı bi nəfər Şəkidə doğulub, boya-başa çatıb, oxuyub sənət sahibi olur, Mingəçevir toxucu fabrikində işləyir. Ailəsini, anasanı da Mingəçevirə aparır. Yaz vaxdı habular balkonda oturarmışlar. Anası oğlunnan soruşur:

- Ay Məmməd, ay oğul, mən haburda heç bülbül səsi eşitmirəm. Niyə haburda bülbül oxumur?

Məmməd:

- Haburda bülbüllər rusca oxuyur, sən başa düşmürsən.

Anası:

- Diyirəm axı, haburda niyə bülbül səsi eşidilmir? Demə, haburdakı bülbüllər rucca oxuyur. Mən başa düşmürəm **(S.118; T.47)**.

## DOST MƏSLƏHƏTİ

Dişi ağrıyan bir adamın dosdu soruşur:

- Nə olup, dişin ağrıyır? Mən sənin yerində olsaydım, honu çoxdan çıxartdırardım.

Dişi ağrıyan diyirki, mən də sənin yerində olseydim, dişin lap ikisini biddən çıxartdırardım. Məsləhətin yaxşıdı, intası ağrıların heç birinnən xəbərin yoxdu.

Belə bir məsəl var:

- Ağrılarda diş ağrısı,

Hər kəsənin öz ağrısı **(S.118; T.47)**.

## ÜÇ ADAMIN YERİNƏ ÖLƏ BİLMƏNƏM Kİ?

Əzrayıl bir adamın öyünə gedib diyir:

- Mən habu aylədən üç adamın canını alasıyam. Aylə üzvlərinin hamsı çöyrülüb nökərin üzünə baxır.

Habunu görən nökər diyir:

- Canı alınası adam bir mən olsam da, ikisi sizdəndi. Niyə hamııız məni işarə eliyirsiniz? Mən üç adamın yerinə ölə bilmərəm ki? **(S.118; T.47)**.

## İKİ BİTİ YİYƏ BİLƏRMİ?

Keçmişdə yoxsul bir kəndçi Şəkiyə gəlir, günorta yeməyinə yeməkxanada biti yiyir. Biti kəndçinin çox xoşuna gəlir. Bir biti də yeməy arzusuna düşür. Çox dərin fikrə getdikdən sora məqsədini aydınlaşdırmax isdiyir. Habu məqsədlə yoldaşlarınnan soruşur:

-Görəsən, paççah istəsə, gündə iki biti yiyə bilərmi? **(S.118; T.47)**.

## BUNDAN BAŞQA QABIMIZ YOXDU

Qonaxlardan birsi öy sahibindən içməyə su isdiyir. Kasada, stəkanda... hansı qabda su gətirirlərsə, qonax içmir. Axırsı, qonax diyirki, məə dodax dəymiyən qabda su verin. Öy sahibəsi də zirəng olur. Axırda uşağın silvincinə su doldurub gətirib qonağın qabağına qoyup diyir:

- Vallah, bizim bunnan başqa dodaxdəymiyən qabımız yoxdu **(S.118; T.47)**.

## DƏHNƏLİNİN AT SATMASI

Bir dəhnəli atı xoşuna gəlmdiyinə görə honu bazara satmağa çıxarır. At almax isdiyən adamlar bir-bir gəlib atın nişanlarına baxırlar. Bəziləri də at seçməyi yaxşı bacaran dəllalı gətirib atı gösdərillər. Dəllal baxdıqca yaxşı atın nişannarını sadalayır. Atı yoxladıqdan sonra minib sürür. Axırsı at sahibinnən soruşur:

- Atoo xasiyyəti necədi? Təpik atandırmı? Qabax qolu ilə adamı vururmu? Sancısı varmı?

Şəki bazarında alıb-satannardan başqa dəllallar da olur. Dəllal guya

hər iki tərəfə; alana atı alması üçün münasib sözlər deyir. Alver olursa, alan da, satan da dəllala şirinnik, pul verir.

Dəhnəli atı sata bilməsi üçün bazardan ikinci bir dəhnəli tapıb diyir:

- Ə... qooşu, gəl mal bazarına. Mən atı satıram. Sən mənim atımı təriflə, mən də sora səən eşşəyini tərifləyərəm.

Habular razılaşıllar. Ata müşdəri gələndə, eşşək satan dəhnəli də bunlara yaxınlaşır.

Alqı-satqı haqda danışıllar. İntası eşşək satan dimmir.

- Ə... qooşu papağın yerə girsin, niyə atın hünərini dimirsən. Sənki, habu atın necə yaxşı at olduğunu bilirsən.

Eşşək satan:

- Ə... xəsisin biri xəsis. Sən ho atnan ceyran qovub tutanda ho ətdən biccə tikə də olsun məə verdin ki, mən də sənin atını tərifləyim. Diyəsən, hindi qooşu yadaa düşüf. Tərifləyən deyiləm. İsdiyillər alsınnar, istəmillər almasınlar.

Bu sözləri eşidən alıcı sözləri necə yozurdusa heylə də hərəkət edirdi **(S.118; T.47)**.

## PİRDƏN QORXURAM

Qapısında bir neçə qulluqçu olan varlıya iki dənə tir lazım olur. O tirə pul vermək istəmir. Nökərlərdən birini götürüb, meşə kimi ağacları olan pirə aparır. Pirdən iki tir kəsməyi nökərə tapşırır. Nökər ağasına :

- Ay ağa, axı bura pirdi. Burdan ağac kəsmək günahdı. Ağası nökərə:

- Sənə nə tapşırılır onu da elə – deyir.

Əlacsız qalan nökər üzünü pirə tutub yalvarır:

Ey müqəddəs böyük pir,
Səndən kəsirəm iki tir.
Buyrux belədi, qorxuram,
Ağam bilsin, sən bil **(S.118; T.47)**.

## ÇƏRÇİNİN XIRDA-XIRDA ANDI YIĞIŞIB EŞŞƏYİNƏ QƏNİM OLUR

Qafar kişi çərçiliklə məşğul olurdu. Ho, məhlə-məhlə, doqqazba-doqqaz gəzib apardığı matahını arvadlara, qızlara satardı. Çərçinin bir

böyük səbəti, səbətin içində də iynə, sancaq, darax, lampa şüşəsi, lampa pilətsi, saqqız kimi şeylər olurdu.

Qafar kişi səbəti eşşəyin üstünə qoyub, gəzdirirdi. Səbətə hər maldan bir nümunə qoyurdu. Qalanları eşşəyin üstündəki xurcunda olurdu.

Kim nə isdəsə Qafar kişi haqq-nahaq and içərdi ki, yaxşı maldı, Ədesdi. Qafarı tanıyanlar ona deyirlər:

- Ay Qafar, az and iç, maldı alan alsın, almayan almasın. Hər şeydən ötrü niyə haqq nahaq and içirsən.

Qafar isə zarafata salıb deyirdi:

- Əşi işində ol, təki alver olsun. Bir gün Qafar kişinin eşşəyi xəstələnib ölür. Eşşəyin ölməsi huna böyük zərbə olur. Ho hey ağlıyırdıki, mən habu ailəni necə saxlayacağam.

Qonşular gəlib huna təsəlli verirdilər. Uşaqlar deyirdi:

- Özüyə bir şey olmasın. Allah əvəzini versin. Başqasını alarsan.

Qafar:

- A kişi, ho elə öyrənmişdiki, mən getdiyim doqqazların hamısını tanıyırdı. Harda dayanmax lazımdısa horda dayanırdı. Bir də ki, mən huna öyrənmişdim, ho da maa.

Qonşulardan biri hösələdən çıxıb dillənir:

- A kişi, saa dimədox ki, nahaqdan az and iç. Xırda-xırda andların yığılıb eşşəyə qənim oldu. Hindi gördün, nahaq and içmək adama qənim olar **(S.118; T.47)**.

## PAPAQ ƏHVALATI

Bi günüsü bir kişinin əlinə dəri keçir. Kişinin də 7 uşağı olur. Uşaxların yeddisinin də başı açıx olur. Kişi dərini götürüb gedir papaxçının yanına. Papaxçıya diyir:

–Habu dəridən məəm uşaxlarıma papax tik.

Usta dərini götürüp diyir:

–Baş üsdə, tikərəm.

Kişi diyir:

–Habunnan iki dənə papax çıxarmı?

Usda baxır, ölçür, biçir, diyir:

–Çıxar.

Nəsə, kişi dərini qoyur usdanın yanında, çıxıp gedir. Öydə fikirrəşir, ho birsi uşaqların başı açıxdı axı! Gəlib diyir ki, sabah gedim, diyim görək habu dəridən üç papax çıxarmı?

Səhəri günü gedip diyir ki, gəlsənə, habu papağı üç eliyək.

Diyir:

-Yaxşı.
Gənə qayıdır, gəlir. Gənə fikir eliyib gedir usdanın yanına, diyir:
–Usda, habu dəridən dörd papax çıxarmı?
Usda diyir:
–Baş üsdə.
Söyünə-söyünə öyünə gedip diyir ki, dörd uşağın başı örtüldü. Gedim diyim görək, iksinə də əlavə papax tikmək olarmı?
Usdanın yanına gedip diyir:
–Usda, iki dənə də əlavə papax tikmək olarmı?
Usda diyir:
–Baş üsdə.
Kişi diyir:
–Unda habu yeddi papağı nə vaxt gəlip aparım?
Usda vax qoyur. Kişi gedir öyünə. Qoyulan vaxda kişi gəlir usdanın yanına. Usdaya diyir:
–Papaxları tikmisənmi?
Usda diyir: –Bəli.
Diyir ki, nə qədər pul verməliyəm. Usda diyir ki, filan qədər. Kişi pulu verip bükülmüş papaxları götürüp gedir öyə. Gəlip öydə baxır ki, balaca 7 dənə papax. Hirsdənip gedir usdanın yanına. Usdaya diyir:
–Ay usda, bu papaxlar barmağa giyiləsi papaxdı. Uşaxların başına nətəər gələr?
Usda diyir:
–Ay kişi, sən mənə didin ki, iki papax. Mən iksinə razılaşdım. Bitəər çıxardı. Sora gəldin bir dəridən 7 papax isdiyəndə, səən uşaxlarıvın başı barmax boydadı diyənə, hona görə də mən heylə tikmişəm. Honun taxsırkarı da sənsən. Kişi də dəriyə baxa-baxa qalır. Korpeşman qayıdıp gəlir öyə **(S.195; T.30)**.

## PULDAN ÖTRÜ İT QIRXIRAM

Keçmiş zamanlarda İlisu kəndində Paşa adında əyyar bir dəllək var idi. Yolda, rizdə, harda olsa üz qırxardı. Bir dəfə Əmircan kəndində bu dəllək yolda Musa bəyin üzünü qırxdığı zaman bir nəfər yaxınlaşıb deyir:
-A dəllək, mənə üç manat borca pul ver.
-A kişi, görmürsən, mən burada puldan ötrü it qırxıram. Sən də məndən pul istəyirsən. Bu sözdən hiddətlənən bəy dəlləyə deyir:
-İşdən sonra mənim yanıma gələrsən.
- A dəllək, o nə söz idi ki, sən didin ki, puldan ötrü it qırxıram.
- Bıy, bəy, bu söz atalar sözüdü, belə işlədirlər.

-Köpək oğlu, əgər bu atalar sözü olmasaydı, səni çoxdan danlamışdım. Çıx get, bir də belə söz danışma! **(S.49; T.13)**.

## HAMISI YANDAN GƏLƏNLƏRDİ

Şəki əyyarları eşidirlər ki, İlisu kəndində məşhur bir əyyar dəllək var. Heç kim buna qalib gələ bilmir. Yığışıb İlisuya gedirlər. Gedib dəlləyi tapırlar. Onu pərt eləmək üçün: «A dəllək, bura yaman eşşək çox olan kənddir» - deyirlər.

Dəllək: «Düz deyirsiniz, hamısı yandan gələnlərdir» - cavabını verir **(S.49; T.13)**.

## ƏMİRCANLISAN, KEÇ BAŞA

Bir gün bəy qonaqlıq edib kəndin camaatını yığır. Özünün kəndindən olanlara «Əmircanlısan, keç başa» - deyir.

Belə deyə-deyə bütün Əmircanlıları keçirir başa. Dəllək Paşa qalır axıra. Görür qapıda bit it küçüyü yatır. Küçüyü götürüp atır başa, deyir: «sən də Əmircanlısan, keç başa» **(S.49; T.13)**.

## DODAĞIM YARADI, AT SULUYA BİLMƏRƏM.

Qumlaxda bi ağa varmış. Bi də honun bi dənə nökəri.
Günnərin bi günüsü ağa nökərə didi:
-Dur atdarı sula.
Ho nökəri də diyir:
-Dodağım yaradı, suluya bilmərəm.
Ağa diyirki, dodağın at sulamağa nə daxlı?
Ho nökəri də diyirki:
Bəyəm, drruu diməli döylüyəm?!
İntası yimək vaxdı nökər diyir:
-Hanı məəm yekə qaşığım? **(S.195; T.30)**.

## HESABA QATMA

Bir kişi eşşək almaq istəyir. Ona soraq verirlər ki, filankəs eşşəyini satır. Eşşək almaq istəyən eşşək satanı axtarmağa başlayır. Görür ki, eşşək satmaq istəyən kişi eşşəyin belində gəlir.

-Eşitmişəm, eşşəyini satırsan. İnsaflı qiymət söyləsən, onu alaram.

Neçəyə deyirsən?

Eşşək satan eşşəyinə belə tez müştəri tapılmasına sevinir. Amma tamahkar olduğundan onu baha satmaq istəyir.

-Bu eşşək ayrı cür eşşəkdi. 400 saysan, sənə qurbandı.

-Mən təkcə eşşəyin qiymətini soruşuram. Eşşəyin üstündəkinin qiymətini hesaba qatma **(T.33a)**.

## CİYİN ÖLƏNDƏ GƏLƏRƏM

Bir xaçmazlı o birinə deyir:

-Ay əclaf, iki dəfə yasınıza, bir dəfə xeyir işinizə gəlmişəm. Atam öləndə bizim həyətə keçmədin.

-He, he, he... Fikir eləmə. Ciyin öləndə gələrəm **(33a)**.

## YOXLAMAQ İSTƏYİRDİM Kİ, ...

Bir oğlan yolun qırağındakı şabalıd ağacını çırpırdı. Yoldan keçən tanış ona salam verib ötmək istəyir. Ağacdakı salamı alıb deyir:

-Qardaş, bir az yaxına, ağacın kökünə tərəf gəl.

Yoldan ötən elə bilir ki, ağac çırpanın nəyi isə yerə düşüb. Başını aşağı dikib ağaca sarı addımlayır.

-Bir az da qabağa.. Bir az sağa... Ay sağ ol! –əlindəki ürkü ilişdirir ağacdakı tikanlara. Qopub tökülən tikanların biri düşür yerdəkinin başına. O, qışqırıb və başını ovxalaya-ovxalaya soruşur:

-Mənə nə demək istəyirdin?

-Heç nə! Yoxlamaq istəyirdim ki, görək ağacdan düzgün nişan ala bilərəmmi?! **(T.33a)**

## BÖYÜRƏ-BÖYÜRƏ ÖLEJETDİLƏR

Öküz arabası ilə rayon bazarına gedib geri qayıdanları Baş Daşağıl çayının ortasında sel haqlayır. Adamlar arabadan düşüb qaçır, bir təhər özlərini xilas edirlər. Araba isə çayın ortasında batıb qalır. Birisi su qalxdıqca böyürən öküzləri göstərib çayın kənarında dayanan adamların ən yaxşısından soruşur:

-Baba, o öküzlərin axırı nolujetdi?

-Öküzlər helə orda böyürə-böyürə batıb ölejetdilər –qoca cavab verir **(T.33a)**.

## HANSI ADINI SORUŞURSAN?

-Onun adı nədi?
-Hansı adını soruşursan? İçəndən əvvəlki, yoxsa sonrakı?
-Başa düşmədim. İçkinin ada nə dəxli var?
-Çox dəxli var. Onun içməmişdən əvvəl adı Qəmbərdi. Yüz qram içəndən sonra adı olur Lül Qəmbər **(T.33a)**.

## AYAMASIZ ADAM

Bir xaçmazlıdan soruşurlar:
-Kəndinizdə ayamasız adam var?
-Var.
-Kimdi?
-Xoruz Ramazan **(T.33a)**.

# ƏHVALATLAR, GİMGƏ SÖHBƏTLƏRİ

## TOŞU YETİM ƏHVALATI

Toşu Yetim (əsl adı Xalid) adlı birsi bir qız isdiyirmiş,
Qız una getməyə razılıx vermirmiş, Hona pinə eliyir habü cürə:
- Daray tuman vızvızı,
Ölürəm, a dəlləh qızı.
Havtanabelə mimmərəm,
Toşu Yetimə getmərəm **(S.195; T.30)**.

## FIK FƏRAYİZ, KÖKÜ ÇAĞARDIRSAN, YÜGÜRAYİZ

Günnərin bi günüsü bi çoban qoyun sürüsünü yaylağa aparır. Çoban bi mollanın yanına gəlif diyir:

- A molla, mən yaylaxdan qayıdana kimi Quranı habu oğluma örgət.

Çoban mollaya bi ərkək qoyun da verir. Molla ilə də razılaşır. Çoban yaylağa gedir.

Molla oğlana diyir:

- Mən diyən sözdəri təkrarla.

Oğlan da «baş üşdə» diyif mollanın sözdərini təkrarlıyır:

- Fık, fık fərayiz,
Kökü çağardarsan yügürayız.

Molla oğlannan soruşur:

- Habu sözdəri örgəndinmi?

Oğlan diyir:

- Bəli.

Molla diyir:

- Honda, dur get.

Oğlan qaça- qaça gəlif atasına çatır. Atası oğlunu görüf mat qalır. Diyir:

- Nə tez gəldin, ay oğul?

Oğlan diyirki, molla məə Quranı örgətdi, mən də gəldim.

Atası diyir:

Bi məə oxu, görüm. Oğlan ho qədər qaçmışdıki, ho sözdəri dimyə halı olmur:

Fık- fık -diyif dayanır.

Ata baxa- baxa qalır. Oğlu axırsı özünü topluyuf diyir:

- Fık-fık fərayiz,
Kökü çıxardırsan, yügürayız.

Honnar kor-peşman yaylağa gedillər. Molla da çobanın verdiyi qoyunu kəsif başdıyır yiməyə **(S.69; T.30)**.

## ŞALBIZ HAQQINDA BİRİNCİ SÖHBƏT

Salbız addı bir nəfər selpo sədri olur. Selponun balaca yük maşını vardı. Ho maşınnan yol gidirmiş. Yolda Dəmiraparan çayınnan keçmək lazım olurmuş. Orda bir Qumlax düzü olup. Maşın sınır. Orda bir yemişan ağacı da olur. Salbız baba bir - iki cır-cındır əskini bu yemişan ağacına bağlıyır. Camahat da elə bilirki bura pirdi. Onnar sora ora Salbız piri diyillərmiş. Hələ də bu yer qalır. Hindi hordan işdəmillər.

(Şeyx Şalbız isə başqa şəxsiyyətdi) **(S.109; T.30)**.

## ŞALBIZ HAQQINDA İKİNCİ SÖHBƏT

Bi köçəri dağa gedip qoyun otararmış. Gələr çatar, hər dəfə də ziyannan gələrmiş, çox itgisi orlarmış, gah doluya düşərmiş, gah da sel apararmış, bir sözlə çox itgisi olarmış.

Çatır ora, görürkü kimsə də var, soruşarki, bu nədi?

Diyər:

- Bu Şeyx Salbız piri. Diyərki, ya Allah, bu pirə nəzir iliyirəm, o mügörüsü (orda oturannar) kimsə ona bir motal pendiri, qoyun pendiri üzdü, bi dənə də bi erkək vericəm.

Kişi gedir dağa. Bu kişinin işi o qədər uğurru keçərki, itgisi də olmur. Motal, filan-fehman, gələr çatar ora.

Orda bi gün qalar. Onun öyünü axdarar. Soraxlaşar. Gələr, çatar. Soruşarki Şalbız babanın öyü hansıdı?

Diyəllərki, bax, odu! Tezdən dəərmanın yanında olar. Çağırar:

- Ay Şalbız baba, ay Şalbız baba.

Bu yazıx da hələ durmuyufmuş. Hələ-belə yüngül paltarnan çıxar eşiyə.

-Diyərki, ay Şalbız baba, ay cəddivə qurban olum, nəzir iləmişəm, işim uğurru keçif. Gəl nəzirivə yəə dur. Üzdü pendir, motal pendiri, bi dənə də qoyun.

- Allah qəbul eləsin - diyif nəziri qəbul iliyir **(S.109; T.30)**.

## ERMƏNİNİN İNANC YERİ

Qonşu İsmayıllı rayonunda bir erməni kəndi (Ruşan) olupdu. Bizim adamlar ordan taxıl gətirirdilər. Bu ermənin Qəbələdən bi dosdu varıydı, adı Nizam.

Qəbələnin Həzrə kəndində pir varıydı. Erməni diyirki, məə o pirdən tutyə gəti, məəm gəlnimin züryəti olmur. O vaxtlar müsürmannıx, pirə inam çox güjdüydü. Nizam mollaynan məslahat iliyirki, mən pirin torpağını nə təhər erməniyə verim? Olar belə?

Məslahat iliyillərki, erməni nə qanırki, bu torpax nədi? Get meşədən bir az torpax yıg, apar.

O, torpağı yığır, aparır, veer qunağa. Diyirki, qunax, gətmişəm, gəlinivə də, oğluva da- hərəsinə yarım isdəkan qəyir ver.

Bir ildən sora qunax gəlirki, saa qurban olum, bir az da qurban olum. Oğlumun oğul züryəti olupdu. Biz ora qurban demişik. Gətirip kəsək.

Gənə məslahat iliyirlər. Mollalar diyirki, yox, o ermənidi, yox olmaz, o pirə getmək düz döyül. Diyirki, a qunax, sən o qoyunu verərəsən bizə, biz aparıb kəsək **(S.109; T.30)**.

## TOY ƏHVALATLARI

O vaxlar toylarımız olup damlarda. Toyları bir az qızışdırmaq üçün hərə öz məharətini göstərirdi.

Bir Seyidməmmət kişi var idi. O da öz məharətini gösdərmişdi. Avaranı (yəni gomuş balasını), çəkisi olardı 250-300 kq, çağardır dama.

Çağardır da. Nərdiyan da sımmır **(S.109; T.30)**.

***

Birsi gəlip diyir ki, mən gülaşmağa adam axdarıram. Soyunub ortalıxda özünə gülaşmaga adam axdarır. Aşağı gedir, yuxarı gedir.

Bir yosma papax Baxış olur. Baxış bunu eşidip gəlib çatır, onu çırpır yerə. Yerinnən tərpənə bilmir **(S.109; T.30)**.

## MƏƏM GÜCÜM ÇATMADISA, ÖKÜZÜN GÜCÜ HEÇ ÇATMAZ

Bi dənə kişi varıydı. Adı Şabanıydi. İki metr 20 sm boyu olardı. Qırx putddux yük apara bilərdi. Özü yükə güc verirdi.

Bi günüsü arabanı yuklüyüllər. Şaban arabanı dartmağa başdıyır, gücü çatmır. Diyir:

-Məəm gücüm çatmırsa, öküzün gücü heç çatmaz **(S.109; T.30)**.

## ONDA KƏL GÜCÜ VAR

Bir Rəşit kişi varıydı.

Dəmiryolu təzə çəkilən vaxdıydı. Diyillərki, Hacı Abbas, Hacı Söhrab

ticarətçiydilər diyənə kətdən qırağa çıxan bular oluplar. Gəlip Rəşit kişiyə söhbət iliyilərki, elə bir evlər varki, on, on beş dənə- bir vaqon zad.

Rəşit kişi diyirki, ola bilməz. Mən inanmıram. Orda nə olur- olsun, onda kəl gücü var **(S.109; T.30)**.

## QARA ÖKÜZ GƏTDİYİNİ APARIR

Bi nəfər bizim kəndə gəlmişdi, Vəndama. Payızda. Bu gələndə gələr bir neçə gün qalar. Bu ikisi gələndə pay gətməz. Bilmirəm xəsisdiyinnənmi, bilmirəm kasıplığınnanmı, gətməz. Burasını bilmirəm. Bu kişi öküznən gəlipmiş. At çətin gedərdi. Bu kişi gedəndə öy yəəsi ziyrəy adam olur, comağını götürüp öküzü döyür.

Diyirki, şal qoydum, götümədin, motalı qoydum, götümədin.

Döyüb öldürürki, yəsi getsin. Yəsi diyirki, yaxşıdı, döymə, niyə öldürürsən? Qara öküz gətdiyini aparır. Nə gətimişdiki?! Şal gətimiyip, şarap gətimiyip **(S.109; T.30)**.

## CƏFƏR HAQQINDA BİRİNCİ ƏHVALAT

Əsli Daşaldan olan Cəfər addı baməzə adam varmış. Məhəmməd addı birsinə diyirki, səni çaya susuz gətirip, susuz apararam.

Məhəmməd hona inammır.

Günnərin bir günüsü holar Ulu çayın yanna gedillər. Məhəmməd Cəfərə diyir:

-Honda gedək, şahid gətirək. Qoy şahid görüp düzünü desin.

Məhəmmədnən Cəfər yolu yarı eləmişdilərki, Cəfər hona diyir:

-Mən səni uddum. Diməmişdimki, səni çaya susuz aparıf, susuz gətircəm?! **(S.138; T.30)**.

## CƏFƏR HAQQINDA İKİNCİ ƏHVALAT

Günnərin bi günüsü Cəfər atnan Qarabağa gedir. Bi kəndə gəlif çıxır. Kəndi gəzif görürkü, abat kətdi. Yolda bir adamı görüf diyirki, məə bu kəndin ən tanınmış bəyi lazımdı. Ho adam da diyirki, filan yerdədi. Adını soruşur. Diyillər:

Cümşüt bəy.

Cümşüt bəyin qapısını tapıf döyur. Qabağına nökər çıxır. Nökərdən Cümşüt bəyi soruşur. Nökər honu içəri aparır. İntası Cəfər Cümşüt bəyin honun qabağına gəlməsə içəri girmicəyini diyir. Cümşüt bəy gəlif çıxır. Ho özünü tanıdır:

Qəbələ mahalınnan Cəfər bəy.
Qarabağ mahalınnan Cümşüt bəy.
Cümşüt bəy hona bi məclis düzəldir. Tanımmış adamların hamsını habura yıgır. Cəfər bəy öyə girif Cümşüt bəyə diyir:
Ho öyü hası sənədə tikdirmisiz?
1832- ci ildə.
Məəm öyümü tikən usda səən öyünü hündür qoyuf. Həlbət təcrübəsi artıf.
Cəfər isdiyir öyünə getsin, qoymullar, qoyun kəsillər.
Çoxlu qonaxlar gətirillər. Cəfər hamını güldürür. Cəfər soruşurki, maldan, qoyunnan nəyin var?
Cümşüt bəyə diyirki, yekə yeylağı var. Bəy də diyirki, sürünü götürüf yeylağa gələr. Öyünün yerini diyir.
Günnərin bi günüsü Cəfər meçitin qabağındakı gimgədə danışıf gülürmüş. Honda görürkü, yapıncaxlı adam gəlif. Adam yaxınnaşanda görürkü, Cümşüt bəydi. Fikirrəşirki, neynəsin. Bi şey tapmıyıf honu qücaqlayır, atdan düşürür.
Yaxında Aman bəyin öyü varmış. Gəlif honnara diyirki, helə yalan danışıf. Aman bəy görürkü, horası döyul, qonağa görə qoyun kəsillər. Gümşüt bəyi də habura gətirillər. Özdərini tanıdıllar:
-Aman bəy, Zaman bəy və mən də Cəfər bəy.
Cəfər Aman bəyə diyirki, mən Cümşüt bəyə yeylax söz vermişəm. Aman bəy görürkü, Cəfərin işi şuluxdu. Baş Daşalda yaşıyan Hacı Novruz əfəndinin nəvəsinə məktuf yazıf yeylax isdiyir. Holar da razı olur. Xeylax vax keçir. Qoyunnar ho yeylağa gəlif çıxıllar. Cümşüd bəy hər şeydən razılıx eliyif diyirki, intası sizin habu yeylaxlar xeylax dikdi. Qoyunnar da ölür. Qoyunnarı aparıf gedir **(S.138; T.30)**.

## HARDAN BİLİNSİN?

Bi ləzgi qoyunnarı da aparıf kəndin qırağıynan gedirmiş. Horanın paççahı ölür. Tezə paccah seçilir. Göyə bi quş buraxıllar. Quş gəlif çiyninə qonur. Quşu genə uçurdullar. Axırsı ləzgini paççah seçillər. Ləzgi taxda oturuf əmr verir.
Vəziri çagırıf diyir:
-Vəzir, məə bi at düzüf- qoş. Rəngi qırmızı olsun, özü kəhər, qaşqası olsun yumşax çeçen yəhərri, üsdündə xalçası, gümüş döşdüyü, quşqunu olsun.
Bi günüsü vəzir gəlif xəbər verirki at hazırdı. Paççah da ata baxır, ho yanna, habu yanna keçif diyir:

-Kimdə pıçax var?
Birisi pıçağı verir. Paççah pıçağı götürüf quşqunu kəsir. Sora soruşur: - Sizdə çatı var?
Diyillərki, var.
Paççah çatını quşqunun yerinə bağlıyır. Honda paççahdan soruşullar:
- Paççah sağ olsun, habu cürdə atın quşqunu çatı?
Paççah diyir:
- Bəə mənim ləzgiliyim hardan bilinsin?! **(S.195; T.30)**.

## PAYTALAT ƏHVALATI

Günnərin bi günüsü iki Xalxallı Ərmət-Qışlağa ət almağa gedillərmiş. Holardan birsi heyvanın paytalatını əlinə alır, gətirif arabanın çağına bağlıyırki, qan içəri tökülməsin. Hobirsi Xalxallı diyirki, bax, sən ho paytalatı naxax hora bağlamısan. Araba aşcax.
Holar yola düzəlillər. Arabanı çöörəndə paytalat arabanı böyrü üsdə çöörür. Araba sınır. Honda hor birisi Xalxallı diyir:
- Mən səə habuna görə dimişdim. Paytalat ağırıydı, hona görə arabanı çöyürdü. Araba da sındı.
Holar bitəər arabanı düzəldif paytalatı da arabaya qoyuf hordan getdilər **(S.195; T.30)**.

## QOCA LƏZGİ

Qumlaxda bi doxsan yaşdı ləzgi varıydı. Habu ləzgiyə Qoca Ləzgi diyillərdi. Baməzə adammış. Ho tut ağacının altında oturuf qalyan çəkirmiş. Bi çoban da tut ağacına çıxıf tut yiyirmiş. Qoca Ləzgi çobana baxıf-baxıf diyirki, mən səən üç təpiknən ağaşdan yıxaram. Çoban diyir:
- Yıxa bilməzsən. Honda qoca ləzgi diyir:
-Gə, mərc gələk. Mən udsam, bi ərkək, sən udsan, bi toxlu verərəm. Qoca adamam, məəm də gücüm habuna çatar.
Mərcdəşillər. Qoca Ləzgi ayağa duruf dala gedir, qabağa gəlif ağaca bi təpik vuruf oturur daşın üsdündə qalyan çəkir.
Çoban ağacdan qışqırır:
- Nooldu? Tez ol, vur, çıxım gedim da.
Qoca Ləzgi ikinci təpiyi də vuruf genə oturuf daşın usdundə qəlyan çəkir.
Gənə çoban qışqırır:
- Nooldu? Üçüncü təpiyi də vur, çıxım gedim, işim- gücüm var.
Qoyunnar qışlaxda olullar diyənə Qoca Ləzgi diyir:

Üçüncü təpiyi də qoyunnar yaylağa qayıdanda vuracam. Düşsən, özün bil, uduzcusan. - diyif çıxıf gedir. Qayıdanda görünürkü, çoban yoxdu. Gedif çobanı tapır, ərkəyi də əlinnən alır.

Qoca ləzgi helə qocaydı **(S.195; T.30)**.

## HEŞ YALANÇIDAN QƏZETÇİ OLAR?

Şəkili Soltan Mahmut bi günüsü arabaynan Oğuzdan Xalxala qonax gedir.

Qışdağa çatanda bərk yağış yağır. Soltan Mahmut çox fikirrəşirki, neynəsin. Arvat uşağı da arabanın içindəydi.

Qışdaxdı Məhəmmədin öyü yolun qırağındaydı. Soltan Mahmut Məhəmmədi çağırıf xalça isdiyir. Xalçanı arabanın üçdünə çəkif altında oturullar. Yağış kəsənnən sora xalçanı da arabaya qoyuf gedillər.

Xeylax vax keçənnən sora xalçanın gəlmədiyini görüf Qışdaxdı Məhəmmət Soltan Mahmudun yanna gəlif xalçanı soruşur. Soltan Mahmut diyirki, xalça yol gedəndə arabadan sürüşüf düşüf. Kəndə çatanda görürkü, xalça yoxdu.

Habu işi Soltan Mahmudun boyuna qoya bilmiyən Qışdaxdı Məhəmmət işi sudda verir. Sud məsələni Soltan Mahmutdan soruşur. Soltan Mahmut hər şeyi danışır. Nobat Qışdaxdı Məhəmmədə çatır. Qışdaxdı Məhəmmət diyir:

Ho adam ölüpdükü, xalça honun altınnan düşüf, honun xəbəri olmuyuf. Heş yalançıdan da qəzetçi olar?

Sud Soltan Mahmudun öyünə gedif xalçanı götürüf Məhəmmədə verir. Məhəmməd də xalçanı götürüf hordan gedir **(S.195; T.30)**.

## «DAŞIN» YAŞI

Sarıbaş kənd sakini Xəlləyeva Minaxanum Yusif qızının dediyinə görə 100- dən yuxarı yaşı var. Deyir ki, bolşevik gələndə bir soldat onun üzünə baxıb deyib ki, sən «matuşka gözəlsən».

Minaxanım kənd mədəniyyət evində fəaliyyət göstərən «Tunqayməlik» və «Zarı-zarı» folklor ansamblının üzvüdur. Bu ansamblla o, Bakıya gedib, Moskvaya da gedəsiymiş, xəstələnib gedə bilməyib.

Minaxanım qıvraqdır, çox miaraqlı qadındır. Deyəndə ki, söylədiyin sözlərin tarixi nə qədər olar, nə vaxt yaranıb onlar? Bu suala belə cavab verir:

İnsan oğlu yaşardı,
Nə xeyirdi, nə şərdi.

Mən sənnən xəbər alım,
Bu daş neçə yaşardı?

İnsan oğlu bişipdi,
Bişip, həddən aşıpdı.
Dünya binə quranda
Bu daş ora düşüpdü **(S.135; T.36)**.

## XIDIR NƏBİ

Günnərin bi günüsü atam döyüşə getdi. Bir gün xəbər çıxdı ki, atam döyüşdə həlak olub. Atam və qardaşlarım ac qalmasın diyənə məni yiməh dalıncax göndərirdilər. Mən də qohumlara qoşulup ağartı gətirip satmağa aparırdım. Bir maşınnan yolu keçməliydik. Bizi məcbur elədilər ki, o yolu getmiyip dəmiryoluynan gedəh. Qatar relsnən dayanmadan gedirdi. Maşınımız yolda dirəndi. Aşağı çay idi. Maşın ilişip qaldı. Hər yana xəbər çatdı. Mən bir də gördüm ki, boyu bir metr olan bir kişi yanımıza gəlip çatdı və dedi:

–Ya qurban olduğum Allah, sən özün bulara kömək ol.

Bu kişinin bir əli qoltuğunda, bir əlində hasa vardı. Əynində cırıx bir cübbə, ayağında gön çarıx, başında da tükü getmiş papax varıydı. Bu kişini də mənnən başqa görən yoxuydu. Biddən anamın sözdəri yadıma düşdü. Anam həmişə diyərdiki, belə bir kişi var, hu Allah qurban olduğumun nəzarətində. Sən ho kişini görmüş olsan, honnan soruşarsan görək, atan sağdı, yoxsa ölüpdü. Ho kişi sana düzünü diycəh. Mən də bu sözü kişidən soruşmalıydım. Girəvə axdarırdım. Honda maşın sürənə didiki, keç otur. Bular keşdi oturdu. Ho kişi mAşını götürüp qoydu qırağa. Genə honu heş kəs görmürdü. Hamı habu möcüzəyə məətdəl qalmışdı. Biddən bu kişi mənnən pendir-çörək istədi. Mən huna pendir-çörək verdim. Ho papağını başınnan götürdü. Elə bil ki, gün parıldadı. Kişinin başı gün kimi işıq saçırdı. Biddən kişi yoxa çıxdı. Mən hunda bildim ki, habu qurban olduğum Xıdır Nəbidi. Anamın sözdəri yadıma düşdü. İntası daa gec idi **(S.88; T.30)**.

## BAXŞEYİŞİ GERİ GÖTÜRMƏZLƏR

Ticarətlə məşğul olurdum. Bir az pulumuz varıydı. Anam didi ki, bala habu pulu da götür get, gör sənnən tacir çıxarmı. Mən də pulu götürüb habu tacirlərlə getdim. Hordaca itirdim-batırdım, gəldim. Anama

da didim ki, ana, itirdim-batırdım, gəldim.
Ana diyir:
–İtirdin, itirdin, nağarax?
Habu işin üsdünnən bir az keşmişdi. Anam didi ki, bala, bəlkəm Hacıdan borc pul götürəsən, alver elə, dolanax. Mən Hacının qapısına getdim. Gördüm ki, qapıda birsi dayanıp. Salam verip didim:
–Mən Hacıynan görüşmək isdiyirəm.
Qapıda duran dəfdəri çıxarıb adımı yazdı və didi:
–Gələn həftə gələrsən. Bir həftədən sora mən Hacının öyünə gəldim. İçəri girdim. Yuxarı başda Hacı oturmuşdu. Ədəbnən salam verdim. Hacı salamı alıb mənə yer gösdərdi. Mən oturdum. Çay işdik. Hacı mənnən soruşdu:
–Bala, nolub, dərdin nədi?
Mən də başıma gələnləri bir-bir sifdədən axıradək danışdım. Hacı qulax asıp horda oturana didiki habuna filan qədər pul yaz. Mən habu pulu götürdüm. Hacı məə pul verməkdən başqa məə ticarət qaydalarını örgətdi. Məə başa saldı ki, hər kənddə bir dosdun olsun. Bilki, hansı kənddə hansı ticarət şeyləri alınır-satılır. Alverin yolu budu.
Alver üçün getdim. Hacının sözünə qulax asdım. Alverim çox yaxşı keçdi. Aldığım borcu qaytarmax üçün Hacının yanına gəldim. Gənə də qapılarını döydüm. Hacı gənə məni çox yaxşı qarşıladı. Mən nə məqsədlə gəldiyimi Hacıya didim. Borc dəfdərinə baxdılar. Adım horda çıxmadı.
Hacı didi:
–Bala, mən ho pulu səə baxşeyiş vermişəm. Baxşeyişi də geri götürməzdər **(S.195; T.30)**.

## HACI İLƏ BAĞLI İKİNCİ ƏHVALAT

Hacının öyü varıydı, intası çox dar idi. Hacı həm yükdaşıyan, suvaxçı, həm də bənna olur. Bir gün Hacı yolun qırağında iş gözdüyür. Habu vaxd bir nəfər gəlir ki, məə suvaxçı lazımdı. İntası, bir şərtnən, gərək səən gözüvü bağlıyax. Getdiyin yolu tanımıyasan. Sən barı da çekicisən, suvax da suvuyasısan.
Gözünü bağlıyıllar, honu bir yanda saxlıyıp, gözünü açıllar. Hacı qapını keçəndə ayağı ilişir. Habunu yuxarı mərtəbəyə qaldırıllar. Öy yəəsi diyir ki, habu sandığı divarın içərisinə giydir, üsdünü də suva. Helə suvaki köhnə suvaxdan seçilməsin. Hacı diyir:
–Baş üsdə!
Öy yəəsi diyən kimi suvax işini görüp kutardı. Öy yəəsi Hacıya pul verir. Özü də çox. Honu da söyüncək öyünə qaytarıllar. Gənə də

gözü bağlı.

Günnərin bi günüsü Hacı gənə öz yerində dayanmışdı. Hacı fikir içində idi. Honun küfləti çox, öyü darısqal idi. Hacıya gəlip didilərki bir öy var. Get horda yaşa. Hacı gedir öyə baxmağa. Bir otaxdan ho birisinə keçəndə ayağı ilişir. Diyir, yox, mən habu öydə olmuşam. Özü də gözü bağlı. Hindi öy yəəsi ölmüşdü. Öy yəəsinin arvadı da öyü satıb getmək isdiyir. Hacı tez razılaşır:

–Mən öyü almax isdiyirəm. Arvad razılaşır, intası pulunu isdiyir.

Hacı öy yəəsinin pulunu verip yola salır. Qardaşına diyirki get, məəm arvat-uşağımı , şey-şüylərimi yığ, gəti. Öyə yerləşillər.

Günnərin bi günüsü yadına salır ki, barıya bir sandıx basdırıp, suvamışdı. Gedir ho suvağı sökür. Görür ki, necə yerləşdirip suvuyup helə də qalıp. Hunu görüp söyünür. Ho günnən sandıxdakı var-döyləti xəşdiyip yaşamağa başdıyır. Habu Adam bax, həblə varranır **(S.195; T.30)**.

## HACI QƏDİR

Bizim Qumlax kəndində Hacı Qədir adında bi dənə kişi varıydı. Ho heç ümütdü döylüydü ki, ölsə oğlannarı huna xeyrat verəllər. Özünün boz eşşəyi varıydı, (habu kətdə eşşək olmurdu) habu boz eşşəyini minip, qoyurdu üsdünə həybə. Həybənin iki gözünə də qoyurdu qənd, gedirdi. Görürdü ki, 5-6 uşax dayanıfdı, çağırardı:

–Quzu, quzu, habu qəndi götürüp diyin: Allah qəbul eyləsin. Qəndi götürüp bulağın yanna gedin, qəndi suya batırıp ağzıvıza qoyup diyin: Allah qəbul eyləsin!

Habu kişinin işi huydu. Gəldi, günnərin bi günüsü habu kişi rəhmətə getdi. Huna öz oğlannarı yox, başqaları xeyrat verdilər **(S.195; T.30)**.

## DƏRVİŞ ƏHMƏDLƏ BAĞLI ƏHVALATLAR (Ə.13; S.127-130)

Əhməd məzarlıqda xəstə yatanda ona xörək aparıb getmişdim. Onun «evinin» yanında bitən ağaclarda dələlər, mişovullar budaq-budaq gəzirdi. Mənim diqqətlə baxdığımı görəndə Əhməd dedi:

–Hə, mənim qonşularımdı onlar.

***

Əhməd bazardan çıxıb əksər hallarda bizə gəlirdi. Cibində bəzən peçenye, bulka, konfet və sairə şirniyyat olurdu. Əhməd deyirdi:

–Bunları qonşularıma aparıram.

Qarışqaları, dələləri nəzərdə tuturdu.

***

Son illər üç it küçüyü necə olmuşdusa, Əhmədin yanına gedib çıxmışdı. Əhməd onları baxıb-böyütdü. Hər gün bazardan qayıdanda boş «koka-kola» şüşələrində onlara su aparırdı. Küçüklər də böyüyüb yekə it oldular. Onlardan biri hər gün Əhmədin dalınca düşüb bazara qədər onun gəlməyini gözləyirdi. Sonra həmin it yoxa çıxdı. Dərviş Əhməd iti soruşanlara belə cavab verirdi:

-Bazarda itkin düşdü!

***

Dərviş Əhməd söhbət edirdi:

–Mən dünyada olan bütün canlılardan, hətta qarışqalardan da kiçiyəm. Gölün kənarında oturmuşdum, qurbağa mənə dedi:

–Ey Əhməd, sən necə böyüksən, hündürsən!

Mən ona cavab verdim:

–Yox, ay qurbağa, mən heç sənin çiyninə çatmaram!

***

Adamlar Əhməddən soruşurlar:

–Qəbiristanlıqda tək yatırsan, qorxmursan?

Əhməd gülüb deyir:

–Sağların arasında yatan siz qorxmalısınız, mən ölülərin nəyindən qorxacağam!

***

Bir gün Əhməd dayı bizə gəldi və qatıq istədiyini bildirdi. Yoldaşım boşqabda qatıq gətirdi və deyindi:

–Əhməd dayı, qatıq bir az turşdur, dünən çalınıb…

Əhməd sərt səslə dedi:

–Nəfəsini xarablama.

***

Bir dəfə bizim evdə oturub çörək yeyirdik. Bizim 13 yaşlı qoca bir pişiyimiz vardı, o da gəlib süfrənin kənarında oturmuşdu, zəif səslə miyoldayırdı. Mən zarafatla pişiyə acıqlandım:

–Qoca kaftar.

Əhməd çörəkdən əlini çəkdi:

–Allah yaradan heyvana niyə acıqlanırsan?

O, çörək yemədi, çıxıb getdi və iki ay bizə gəlmədi.

***

Dərviş Əhməd az-az gülərdi. Ancaq bir dəfə o, elə güldü ki, gözləri yaşardı. Bu əhvalat belə oldu:

Onunla bizim eyvanda oturub çay içirdik, süfrədə bal da var idi. Söhbət gəlib arıların üstünə çıxdı. Əhməd dedi ki, deyildiyinə görə, arı ailəsi nə ədalətli cəmiyyətdir. Mən etiraz etdim, dedim ki, Əhməd

dayı, elə ən ədalətsiz olan arılardır. Əhməd maraq etdi:

–Nəyə görə belə deyirsən?

Dedim:

–Misal üçün, yazda arı ailəsində çoxlu erkək olur. Payızda havalar bir azca soyumağa başlayan kimi, işçi arılar bütün erkək arıları yuvadan qovurlar, ya da qırıb tökürlər.

Mənim bu sözümdən sonra Əhməd gözləri yaşarana qədər güldü, bəlkə də heç vaxt belə ürəkdən gülməmişdi. Sonralar da bu söhbəti xatırlayıb gülərdi.

***

Bizim məscidin sabiq müəzzini Hacı Murad danışırdı:

–Balaca oğluma Əhmədi göstərib soruşdum, sən Əhməd əmini tanıyırsan?

Əhməd dərhal dedi:

–Allahı tanısa yetər, məni tanımasa da olar.

***

Bir dəfə mən dedim:

Var idi cavan vaxtlarımız!

Əhməd dedi:

–Niyə nəfəsini xarablayırsan?

***

Yayda qalın geyindiyini görən bir cavan Əhməddən soruşur:

–Əhməd dayı, sənə isti olmur?

Əhməd cavab verir:

–Günəşə isti olduğunu eşitmisənmi?

***

Dərviş Əhməd bir dəfə mənim yanımda pişiyə belə acıqlandı:

–Tərbiyəsiz! Səndə adamların xasiyyəti var.

***

Dərviş Əhmədin çox müdrik kəlamları vardı. O deyirdi:

Ürək görməyəni göz görə bilməz!

Allahın adı bizdən ötrü baldan şirindi!

«Allah» deyən ağızdan pis söz çıxmamalıdı!

Yaxşı adamın malı sədəqəyə, qurbana qismət olar!

Bir evdə əl boyda haram varsa, o evdə namaz olmaz!

İnsanın yerişindən əyrisi, danışığından doğrusu tanınar!

Quşlar səhər, günorta, axşam, gecə Allahı zikr edirlər. Bizim onlar qədər ağlımız olmadımı?!

Adam gələndə heyvan da yerindən tərpənir, mən heyvan qədər olmadımmı?!

***

Əhməd təam yeyəndən sonra belə dua edirdi:

Allah, sənin yaratdığın nemətlərdən yedim, doydum. Sən bizi Sənin adını çəkməyə layiq qullardan elə, ya rəbbim!

***

Dərviş Əhməd Balakən rayonunun Qodoşbinə adlı kiçik bir kəndindən idi. O, təxminən 25-26 yaşlarında dərviş-libas olaraq doğma kəndlərindən çıxmış, bir də ora qayıtmamışdı. Bunun sirrini isə bir olan Allah bilir.

## DÜYMƏLƏRİ BAĞLA

Muradın cavan vaxtı imiş, ali məktəbi qurtarıb təzəcə gəlibmiş. Nə isə, Murad başlayır MTS-də iqtisadçı işləməyə və onu partkom təyin edirlər. «Gənc kommunist» Murad Padarlı başlayır həvəslə işləməyə. Bizim Talada bir Nəbi dayı vardı. Kənddə nüfuzu olan, sözü üzə deyən, qorxmaz bir adam idi və Ən əsası bu idi ki, Nəbi dayı təcrübəli və bacarıqlı mühasib idi. Nəbi dayı da həmin MTS-də işləyirdi. Beləliklə, Murad Padarlı və Nəbi Əliyev bir yerdə işləyirlər. Biri iqtisadçı, biri mühasib. Muradın bir üstünlüyü var idi ki, o, partkom idi.

Əvvəl-əvvəl Muradla Nəbi dayınınkı tutmur. Murad istəyir öz cavanlığını göstərsin, Nəbi dayı isə qaya kimi onun qabağında durur. Belə olanda Murad qərara alır ki, partiya iclasında Nəbi dayının işinə baxsın. Və növbəti partiya iclasında Murad başlayır Nəbi dayının sinəsinə döşəməyə. Odlu-odlu danışır, nə ki var Nəbi dayının ünvanına deyir. Arada Nəbi dayının üzünə baxır, görür ki, Nəbi dayının heç vecinə deyil, gülümsünərək oturub yerində. Murad bir az da qızışır, yenə filan qədər döşəyir və görür ki, Nəbi dayı yenə gülə-gülə oturub. Nəhayət, Murad ürəyini boşaldıb qurtarır və Nəbi dayının üzünə sərt-sərt baxır. Nəbi dayı yenə də gülümsünərək deyir:

–Murad, qurtardınmı?

–Qurtardım, nə demək istəyirsən?

–İndi zəhmət olmasa, şalvarının düyməl期ərini bağla.

Murad əyilib aşağı baxır və nə görsə yaxşıdı? Şalvarının bütün düymələri açıqdı.

Bununla da həmin partiya iclası başa çatır və bu gündən sonra Muradla Nəbi dayının dostluğu başlayır **(Ə.13; s.148).**

## QABAQYEYƏN TALALI

Bizim talalılara bilmirəm, nədənsə «qabaqyeyən talalı» deyirlər. Bilmi-

rəm, başqa kəndlərin adamları qabaq yemirmi, nədi? Sözüm bunda deyil.

Bir gün talalılardan biri xəstələnir və müalicə olunmaq üçün Moskvaya gedib çıxır. Moskvada ən yaxşı xəstəxanalardan birinə müalicə olunmağa başlayır. Həkim bu talalıya pəhriz yazır: onu yemə, bunu yemə, o olmaz, bu olmaz və s. Talalı çox hirslənir. Bir neçə gün belə keçir və bir səhər talalı yuxudan ayılıb görür ki, başının yanındakı dolabın üstündə bir tabaq bişmiş qabaq var. Talalının gözləri dəbərir: a kişi, Moskva hara, qabaq hara, kim bildi mən talalıyam? Bu vaxt həkim gəlib çıxır. Həkim qabağı görüb soruşur ki, bu nədir? Talalı istər-istəməz izahat verir. Həkim deyir:

–Sənin əsl dərmanın budur.

Sonra məlum olur ki, bu, Moskvada yaşayan bir talalının zarafatı imiş **(Ə.13; s.149).**

## MƏNİ YUYARSAN

Bizim kənddə Mamay adında bir gözəl insan yaşayırdı. Molla Mamay kimi tanınmışdı. Kənddə ölən olanda onu torpağa qoymazdan əvvəl yuyub pak etmək Mamay dayının işi idi.

Bir də Tülü Süleyman vardı. O da yaxşı ad çıxaran adamlardan biri olub. Nə isə, sözüm onda deyil.

Necə olursa, Mamay dayının Tülü Süleymana işi düşür. Süleyman kişi bu işi canla-başla yerinə yetirir. Mamay dayı istəyir ki, Süleymana borclu qalmasın, əvəzində ona bir yaxşılıq eləsin. Belə olanda Tülü Süleyman deyir:

–Hara tələsirsən, öləndə məni yuyarsan, əvəzi çıxar.

Mamay dayı özünü itirmir:

–Lap yaxşı olar, – deyir, – sən tərtəmiz, özü də müftə yumaq mənim boynuma **(Ə.13; s.149-150)**.

## SƏN HƏLƏ ORANI TƏMİZLƏMƏMİSƏN?

Zarafatcıl adamlardan biri də Məhəmmədəli əmi idi. Onun bir söhbətini danışım.

Bir gün Məhəmmədəli əmi yolun kənarında oturub maşın gözləyirmiş. Bu vaxt yoldan ötən kolxoz sədri onu maşınına götürür. Mənzil başında düşəndə Məhəmmədəli əmi sədrə çox təşəkkür edir.

Aradan bir xeyli vaxt ötəndən sonra bu hadisə bir də təkrar olur. Sədr maşını Məhəmmədəli əminin yanında saxlayır və onu pərt etmək üçün deyir:

–Məhəmmədəli əmi, səni daha maşina götürən deyiləm.
–Aboov, niyə ay oğul?
Sədr deyir:
–Səni o dəfə götürdüm, oturduğun yeri batırmışdın.
Məhəmmədəli əmi əlini-əlinə vurub gülür:
–Sən hələ oranı təmizləməmisən?
Sədr daha bir söz demədən maşının qapısını açır **(Ə.13; s.150).**

## AĞILLI SƏDR

Bir gün talalılar görürlər ki, kolxoz sədri fındıq bağından bir sürü hınduşkanı sürüb yola çıxarır. Adamlar durub xeyli baxırlar. Sonra onlardan biri dözməyib soruşur:

–Yoldaş sədr, bu hinduşkaları hara aparırsan?

Sədr acıqla deyir:

–Aparıram ağıla salmağa. Bir az əvvəl bir sürünü aparmışam, bu ikinci sürüdü.

Adamlar içində gülürlər, amma üzdə bir söz demirlər. Sonra məlum olur ki, bu sürü əvvəlki sürü imiş. Sədrin ağlına gəlməyib ki, hinduşkalar ağılda dayanmaz, dəmir torla ətraf bərkidilsə də, üstdən uçub keçə bilərlər.

Bu, lətifə deyil, olmuş əhvalatdır. Belə bir «ağıllı» adam 30 ilə yaxın kolxoz sədri işləyib. Olanı budur ki, xalqa yarımasa da, dövlət planlarını vaxtlı-vaxtında yerinə yetirirdi.

Hələ bu harasıdı. Qoy yadıma düşmüşkən birini də deyim. Kolxoz quruluşunun ilk illərində bir kolxoz sədri var imiş, o, da adamları ağıla salarmış **(Ə.13; s.150-151)**.

## TOYU DALA ÇALARAM

Talada bir aşıq var imiş. Bir varlı adam onu toya dəvət edir. Aşıq balabançısını götürüb toya gedir və o toyda üç gün qalıb oxuyur. Üç gün bitir, ev sahibi görür ki, aşıq xeyli pul yığıb, bu pula tamahı düşür, deyir ki, yarısını mənə ver. Aşıq bir az fikirləşib deyir:

–Yox, mən buna razı olmaram. Ya pulun hamısını mənə verməlisən, ya da toyu dala çalacağam.

Varlı toy sahibi tez razılaşır:

–Götür, pullar hamısı sənin olsun, bircə toyu dala çalma.

Varlı daha başa düşmür ki, aşıq toyu dala çalası olsa, bir üç gün də çalmalıdır **(Ə.13; s.151)**.

## YAMAN UZAĞA DÜŞMÜŞƏM

Bizim binələrdə bir Səid kişi var idi. Səksənə yaxın yaşadı, ancaq evlənməmişdi. Səid kişi əslən talalı deyildi, illərin qıt vaxtı gəlib binələrdə məskən salmışdı. Binəçilər qərara alırlar ki, Səid kişini naxıra göndərsinlər, belə də edirlər. Səid kişi olur naxırçı, mal-qaranı otarır. Harda yaxşı ot-ələf varsa, naxırçı sürür ora.

Bir gün Səid kişi örüş axtara-axtara binələrdən xeyli uzaqlaşır. Gedib çıxır Əli Bayramlı kəndinin yaxınlığına və azır. O vaxt Əli Bayramlı kəndində vaxtilə buralara sürgün olunan ruslar yaşayırdılar. Səid kişi bu rusların birinə rast gəlir və rus dilini bilmədiyi üçün Azərbaycan dilində soruşur:

–Bu yolla hara gedirsən?

Rus da Azərbaycan dilini bilmədiyi üçün çiyinlərini çəkir. Səid kişi yenə soruşur:

–Bu çölün adı nədir?

Rus deyir:

–Ne znayu.

Səid kişi öz-özünə təkrar edir: «neznayu», «neznayu», neçə ildir binələrdə yaşayıram, hələ bu yerin adını eşitməmişəm. Gör nə uzağa düşmüşəm? **(Ə.13; s.151-152).**

## DONQUZ FERMADIMI?

Uzun müddət ferma müdiri işləmiş, gözəl insanlardan biri, rəhmətlik Zülqərneyn Murtuzəliyev başına gələn bir əhvalatı belə danışırdı:

–Yayın lap isti günlərindən birində, fermanın həyətində dayanmışdım. Bir də bir yaşlı kişi gəlib çatdı. Gördüm bərk yorulana oxşayır, danışığından hiss etdim ki, qonşu Əliabad kəndindəndir. İtiyi varmış, axtara-axtara gəlib bizim fermaya çıxıb.

–Salam-əleyküm.

–Əleyküm-salam.

Dedim, gəl çay içək. Kişi soruşdu:

–Qatıq varmı?

Dedim, yoxdu.

–Ayran necə?

–Ayran da yoxdu, qatıq olmayan yerdə ayran olarmı?

Kişi bir az duruxub, sonra gülə-gülə dedi:
–Ayran yox, qatıq yox, donquz fermadımı, nədi? **(Ə.13; s.152)**

## QAYDALARI Kİ, MƏNDƏDİ

Bir İsmayıl kişi var idi. Bir gün bu İsmayıl kişi bazara gedir və ərzaq dükanında heç görmədiyi bir nəsnə görür. Satıcıya deyir:
–Ay qızım, habu şeyin adı nədi?
–Kolbasadı, əmi.
–Bəs onu nə təhər yeyirlər?
Qız izahat verir, ancaq İsmayıl kişi bir şey anlamır və deyir:
–Yaxşısı budu, sən qaydaları yaz, ver mənə.
Qız bir konspekt yazıb verir İsmayıl kişiyə .
İsmayıl kişi kolbasadan nə qədərsə alıb düzəlir yola və piyada Talaya gələsi olur.
Yolda kolbasanın iyini alan bir it İsmayıl kişinin dalınca düşür və fürsət tapıb kolbasanı qapır. İsmayıl kişi qaçan itin dalınca xeyli baxır və deyir:
–Aparırsan, cəhənnəmə apar, onsuz da yeyə bilməyəcəksən, qaydaları ki, məndədi **(Ə.13; s.152-153)**.

## NƏ TƏHƏR OLUR

Bir dəfə Tala selposunun iş kollektivi yasa gedirmiş. Hüzr yerinə çatanda sədr Süleyman kişiyə üz tutur:
–Keç qabağa, aramızda ağsaqqal sənsən, duanı sən verərsən.
Süleyman cavab verir:
–Ay sədr, bu nə təhər olur, «vneştorq» gələndə məni dala itələyirsən, yasa gedəndə qabağa verirsən? **(Ə.13; s.153).**

## MÜFƏTTİŞ VƏ AŞPAZ

Tülü Süleyman Tütün fermentasiya zavodunun fəhlə yeməkxanasında aşpaz işləyirmiş. Bir gün yeməkxanaya müfəttiş gəlir. Yoxlamadan sonra otururlar, yeyib-içirlər. Axşam piyada Süleymangilə gedəsi olurlar. Çayın yanına çatanda Süleyman özünü qoyur sərxoşluğa. Çayın üstünə körpü əvəzinə uzun bir ağac qoyulubmuş. Müfəttiş fikirləşir ki, Süleyman kişi bu körpünün üstündən keçə bilməz, yıxılar çaya. Müfəttiş yan-yörəsinə baxır, görür ki, kimsə yoxdur, Süleymanı belinə götürüb çayı keçir. O biri gün yola düşərkən müfəttiş deyir:

–Həyatda çox şey görmüşdüm, amma müfəttişin belinə minən aşpaz görməmişdim **(Ə.13; s.153)**.

## ABDALI GÖRÜB QAYIDIB

Ömrünü çöldə-bacada keçirən, əkin-biçindən başqa bir iş bilməyən ixtiyar bir talalı eşidir ki, kəndə pəhləvan gəlib. Biz tərəflərdə kəndirbaza pəhləvan deyirlər. O vaxtlar da bu pəhləvanların yanında «abdal» olardı. Abdal gülməli paltar geyinib, cürbəcür oyunlar çıxarar, camaatın başını qatardı. Qərəz, həmin talalı gedir pəhləvana baxmağa. Görür ki,camaat yığılıb, ortada bir əcayib adam oynayır. Kişinin abdaldan o qədər xoşu gəlir ki, gözünü ondan ayıra bilmir. Qərəz, mərəkə qurtarır, hamı dağılır, hərə öz evinə gedir. Həmin qoca da arabanı qoşub gedir çölə. Çöldə adamlar soruşurlar:

–Necə oldu, pəhləvan xoşuna gəldimi?

Kişi deyir:

–Əşi gülməkdən öldüm, çubuq atını minib, qırdı bizi gülməkdən.

Adamlar başa düşürlər ki, kişi abdaldan danışır. Yenə soruşurlar:

–A kişi, sənin gördüyün abdaldı, simin üstündə oynayanı görmədinmi?

Kişi cavab verir ki, mən sim-mim görmədim, amma abdala söz yox. İndi də Talada buna bənzər hadisə baş verəndə deyirlər:

–Abdalı görüb qayıdıb **(Ə.13; s.154)**.

## ÇOX SAĞ OL

Murad MTS-də işləyəndə onun başına maraqlı bir əhvalat gəlmişdi. Əhvalatı Murad özü belə danışır:

Bir gün axşamüstü işdən çıxanda qarovul otağına girdim. Gördüm ki, Abakar kişi (qarovulçu) dilxor oturub. Onunla söhbətə başladım, papiros çıxartdım. O vaxt BT təzə çıxmışdı.

Abakar dedi:

–Ver o zibildən birini.

Yaman pərt oldum. Nə isə papiros verdim, papirosu ovuşdura-ovuşdura dedi:

–Bunun yiyəsinin anasını… Tərgidə bilmirəm ki, bilmirəm.

Dedim:

–Sağ ol, Abakar, sağ ol, papirosu zibil elədiyin bəs deyil, anamı da söydün **(Ə.13; s.154-155)**.

## GÖZDƏRİ GÜNDÜ, QUYRUĞU ÇİNDİ

Ata oğluynan taxıl biçməyə gedir. Oğlu bi az biçib atasına diyir:

-Mən otrub biçmək isdiyirəm.

Ata diyir:

-Otu, biç.

Bi azdan diyir:

-Ata, mən uzanıb biçmək isdiyirəm.

Ata diyir:

-Uzan, biç.

Bi azdan sora diyir:

-Ata, öyümüzə getməh isdiyirəm.

Ata icazə verir, oğlu öyə gedir.

Oğlu öyə gedənnən sora ata nirahat olub öyə gedir.

Gəlib görürkü, oğlu yatır. Helə habu vax bi xoruz kanın üsdünə çıxıb bannıyır. Oğlunun gözü xoruza sataşır.

Ata oğlunun halını soruşur.

Oğlu:

-Ata, honu ho tərəfə elə, honun gözdəri gündü, quyruğu çindi **(S.195; T.30)**.

## XALXALLI XAL DODAX,
## ÇAĞIRANA HAY VERMƏZ,
## QONŞUYA PAY VERMƏZ.

İki qonşu Xalxallının kəlləri itir. Holar da gedillər kəl axdarmağa. Birsi dağın habu üzünnən, ho birsi ho üzünnən gedir. Ho Xalxallı ho birisinnən soruşur:

-Məhəmmət, kəllər varmı?

Ho da habu yannan:

-Çı -eliyir.

Ho birsi heş bi şey eşitmiyib genə çağrıb soruşur:

-Məhəmmət, kəllər varmı?

Ho birsi genə heylə cavab verir:

-Çı...

Hona görə də diyillər:

-Xalxallı xal dodax,
Çağrana hay verməz,
Qoşuya pay verməz **(S.195; T.30)**.

## MASQVADA QARPIZ KƏSDİN, İÇİNNƏN
## MIXLIQOVAQLI YA DA BUMLU ÇIXAR

Masqvada qarpız kəsillər, unun içinnən Mıxlıqovaqlı, bi də Bumlu çıxır. Mıxlıqovaxlılar, Bumlular yaxşı ərizə yazıllar.
Bi nəfər naşısı gedir soruşurki, bunların başbiləni kimdi? Diyillər:
-U.
Gedir unun yanna.
Diyirki, adın, familyan nədi?
Məsələn, Əhmədov Məmməd Cəfər oğlu.
Diyir:
-Ala.
Diməli, on beş gün bunnan əvvəldən yazıp qoyup **(S.109; T.30)**.

## SU AYDINNIXDI, QABAĞI FINDIXLIXDI

Qumlax kəndinin bööründə Hallavar kəndi var. Bu kəndin yanınnan çay keçirmiş. İki nəfər Vartaşınnan (indiki Oğuz) kəndə işdəməyə gedillər. Birsi cuhut, birsi də erməni olur. Gedillər, görüllər çayda su var. Bu cuhut diyirki sən sudan keş, baxax görək nətəərdi.

Erməni sudan keçəndə su bunu götürür, başdıyır axmağa. Diyirki Görgü, qorxma. Su aydınnıxdı, qabağı fındıxlıxdı.

Kişini su apardı. Öldü. Sora tapıp gətirip basdırdılar.

İndi bu məsəl kimi işlənir. Bu məsəli həm də «Sel apardı Görgünü. Xalxal gördü bölgünü» - yə'ni Görgünü sel apardı, taxıl bölgüsü də qaldı **(S.46; T.30)**.

## STƏKANI VUR MƏNİM BAŞIMA

Səbzalı müəllim özünü həkimə yoxlatmaq üçün Şəkiyə gedir. Həkimlə işini qurtardıqdan sonra evə lazım olan ayın-oyunları bazara yollanır, orada gözünə yaxşı sumax sataşır. Qiymətini soruşub bir stəkan sumax istəyir. Sumağı ölçüb dürüyə tökən oğlanı sorğu-suala tutur:
-Bu gözəl sumağı hardan yığmısan?
-Vartaşendən.
-Vartaşenin harasından?
-Xaçmaz kəndindən.
-Doğrudan? Xaçmazın harasından?
-Səbzalı müəllimgilin evinin arxasından.
-Səbzalı müəllimi tanıyırsan?
-Yox, tanımıram. Soraqlaşa-soraqlaşa gedib o sumaqlığı tapmışam.
-Səbzalı müəllim dediyin mənəm, oğul. Götür bu sumax stəkanını vur mənim başıma! **(T.33a)**

## SƏNİN KİMİ XOFLU DEYİL

Bir xaçmazlı eşşəyini minib yol gedəndə görür ki, gimgəyə yığışmış adamların arasında onunla zarafatı tutan Zaman da var. Bilir ki, yaxınlaşanda Zaman ona sataşacaq. Onu qabaqlamaq qərarına gəlir. Eşşəyi dəhmərləyib Zamanın yanına çataçatda ucadan deyir:

-Yeri, yeri, ay heyvan! Qorxma, Zaman səni yeyəsi deyil ki!

Zaman o dəqiqə cavab verir:

-Fikrin özünə getməsin, eşşək sənin kimi xoflu deyil. Bilir ki, Zamandan ona ziyan toxunmaz **(T.33a)**.

## ARVADININ ADINI DƏYİŞ

Əhməd adlı xaçmazlı Reyhan adlı bir qız alır. Toydan xeyli sonra qonşuluqda yaşayan Cahan bağındakı qoz ağacını çırpır. Yorulanda ağacın budağında oturub oxuyur:

-Dağlar qızı Reyhan, Reyhan, Reyhan.

Cahan sənə heyran, heyran, heyran!...

Cahan ağacı çırpıb qurtaranda Əhməd onun yanına gəlir:

-Qonşu, ağacın başına çıxıb mənim arvadıma mahnı oxuyursan. Ayıb deyilmi?

-Mahnını mən qoşmamışam ki, inciyəsən. Şair deyib ki, «Aləm sənə heyran». Aləmin biri də mənəm.

-Belə olmaz, qonşu. Oxumaq istəyirsənsə, «Əhməd sənə heyran», oxu.

-Üz vurma, qonşu! Sən oxuyanda «Əhməd sənə heyran» oxuyarsan. Mən oxuyanda «Cahan sənə heyran!» oxuyacağam. Xoşun gəlmir, get arvadının adını dəyiş **(T.33a).**

## EŞŞƏK SƏNSƏN Kİ...

Milis Fərhad, zurnaçı Bayram və yamaqçı Vazik - üç qonşu yeyib-içib axşamdan xeyli keçmiş şəhərin yuxarısındakı bir evdən çıxırdılar. Zurnaçı Bayram deyir:

-Elə yorulmuşam ki, əlli metrlik yolu getməyə taqətim qalmayıb. Bir eşşək olsa, minib gedərəm.

-Eşşək mən! Min, aparım! -Vazik deyir:

-Əyil, minim!

-On manat ver, əyilim.

-Verərəm, aparmazsan. Apar, sonra verim.

-Onluğu ver Fərhada saxlasın, səni aparıb yerə düşürəndən sonra ondan alım.

Bayram onluğu Fərhada verib minir Vazikin belinə.

-Hoç eşşəyim, hoç! Hoç eşşəyim, hoç! –deyə-deyə gəlib çatır qapıya. Vazikin belindən düşüb Fərhada deyir.

-Onluğu ver eşşəyimə!

Vazik pulu götürüb cavab verir:

-Eşşək sənsən ki, əlli metrlik yolu on manat verib gəlmisən! **(T.33a)**

## İNDİ ADAM ADAMI TUTUR

Nurəddin həkimi xəstə yanına çağırırlar. Həyət qapısını döyüb içəri keçəndə tövlənin qabağında uzanmış it başlayır başını qaldırıb mırıldamağa. Həkim qorxub qapını örtmək istəyir.

-Ay qardaş, qorxma, gəl içəri, o tutan deyil –eyvandan bir qadın qışqırır.

-İndi adam adamı tutur, ay bacı. İtə etibar etmək olar? **(T.33a)**

## ƏLİYƏ DƏ BİR ARVAD, MƏNƏ DƏ?!

Qumlaq kəndində Mütəllib adlı ucaboy, qüvvətli bir adam vardı. Bir gün o, gimgədə dayanmışdı. Boyu bir metrdən aşağı olan sısqa Əli gimgəyə yaxınlaşanda Mütəllib köksünü ötürüb ucadan deyir:

-Əliyə də bir arvad, mənə də?! **(T. 33a)**

# AŞIQLAR VƏ EL ŞAİRLƏRİ

### Aşıq Ələsgərin bir qoşmasının açması (S.53; T.12).

## OLUR

**Aşıq Ələsgər:**

İki bədən gördüm, altmış başı var,
Müttəsildi onda qeyri sirr olur.
İki uruh gərdim vurub dolanır,
Gahdan iki olur, gahdan bir olur.

**Doktor Əli:**

Gün ilə Ay, iki can, altmış başı var,
Hər bir ayda batır, çıxır sirr olur.

İki candı gərdiş vurub dolanır,
Gündüz gün- ay iki, gecə bir olur.

**Aşıq Ələsgər:**
Birisi sultandı gəzir taxt üstə,
Biri gah sağ olur, gah zaman xəstə
Qocaldıqda olur təzə, növrəstə,
Cavanlıqda qoca olur, pir  olur.

**Doktor Əli:**
Günəş sultandı gəzir taxt üstə,
Aydır batır, çıxır, gah sağ, gah xəstə
Qocalıqda olur, təzə növrəstə
Cavanlıqda beli əyri pir olur.

**Aşıq Ələsgər:**
Yüz səysən qolu var, oynar abınan,
Üç yüz qulağı var can- hesabınnan.
Beş kəlmə danışar afitabınnan
Kəlməsinnən gövhər olur, dürr olur.

**Doktor Əli:**
İldırım şüası oynar abınnan,
Yç yüz qulağı var san hesabınnan.
Buluddur danışır afitabınnan,
Kəlməsinən  yağış yağır, dürr olur.

**Aşıq Ələsgər:**
Aşıq Ələsgər bu hesaba yetişdi,
Onu cəm eyləyən bir dənə quşdu.
Gahdan bəzirgandı, gahdan dərvişdi,
Gah padşah olur,  gah vəzir olur.

**Doktor Əli:**
Doktor Əli, zəhmət sevmək dürr işdi,
Onu cəm eyləyən yer adlı quşdu.
Aşıq bəzirgandı, gahdan dəvrişdi,
Günəş yay şah olur, qış vəzir olur.

## AŞIQ ƏLİ MUXAXLI (T.6)

## ZAQATALA

Qartal qanadlısan, aslan ürəkli,
Tarixdə adın var, ay Zaqatala.
Bağların çiçəkli, yamacın yaşıl,
Hər fəslin novbahar, ay Zaqatala.

Tarixlər qalası sinəndə yatır,
Sağında, solunda cənnətə baxır.
Oğlanlar vüqarla səndə boy atır,
Qızların vəfadar, ay Zaqatala.

Əli Muxaxlıyam, deyim ürəkldən,
Süfrən əskik olmur duzdan- çörəkdən.
Yamanı yaxşıdan, şəri gerçəkdən
Sərraf tək seç, axtar, ay Zaqatala.

## AŞIQ ƏLİ MUXAXLI (T.6)

## DOSTUM

Vicdan köhlənini verdim sellərə,
Sildim ürəyimdən adını, dostum.
Şeytan yedəyində sən gedə-gedə,
Sildin ürəyimdən adını, dostum.

Babalar dediyi yalandı məyər?
Ağac bar verəndə başını əyər.
Səməndər quşuna atəş nə edər?
Sildin ürəyimdən adını, dostum.

Əliyəm, heyranam şirin dillərə,
Nadansan, uymusan fitnə- fellərə.
Əyri vicdanını mən görə-görə,
Sildim ürəyimdən adını, dostum.

## KƏKLİK

Mən nə deyim Kamandarın əlinə,
Qalıbsan sinəsi yaralı, kəklik.
Mən də mavi göydə qanad çalardım,
Qalmışam səmadan aralı, kəklik.
Küsmə taleyinə, qızma baxtına,
Zülm edən kəs sahib olmaz taxtına.
Qisas qalmaz qiyamətin vaxtına,
Əqrəbin öcünü, mar alı, kəklik.

Əli də sinədən çox aldı yara,
Tapılmaz dərdinə eyləyən çara.
Əcəl üz döndərib, gəlməyir kara,
Axırda gül rəngim saralı, kəklik.

## AZƏRBAYCAN

Sabahımız nurla açır,
Yaşa səni, Azərbaycan!
Oğlun, qızın nəğmə qoşur,
Yaşa səni, Azərbaycan!

Dayağısan qoç ellərin,
Vətənisən gözəllərin.
Bahar keçir fəsillərin,
Yaşa səni, Azərbaycan!

Sən bir bağsan, mən barınam,
Əli sazlı nübarınam.
Qeyrətinəm, nübarınam,
Yaşa səni, Azərbaycan!

## NQVRUZ

Gəldi yenə bahar fəsli,
Novruz , xoş gəldin, xoş gəldin!
Gətirdin bar çiçəkləri,
Novruz , xoş gəldin, xoş gəldin!
Güllərin rəngi solmaz,
Ətrindən doymaq olmaz.
İnsan onu əldən qoymaz.
Novruz, xoş gəldin, xoş gəldin!
Bayramlara belə məni,
Üzü gülər görüm səni.
Əli çalsın «Kərəmi»ni
Novruz, xoş gəldin, xoş gəldin!

## BU DÜNYADA

Əməyin açsın gül- çiçək,
Bu dünyada, bu dünyada!
Qoy zəhmətin olsun gerçək,
Bu dünyada, bu dünyada.

Mən bir qartal, sən bir qaya,
Zirvədən baxım dünyaya.
Vətənsiz kim yetib baya?
Bu dünyada, bu dünyada.

Əli səni hər an arar,
Heç bir yerdə tutmaz qərar,
Varmı, Muxax kimi diyar?
Bu dünyada, bu dünyada.

## BAYATILAR

Əzizim, gül düzəyədim,
Saçına gül düzəydim.
Nişanlım bağ salaydın
Onun gülün üzəydim.
Əzizim gülə gəlsin,
Güzgüdə gülə gəlsin.
Allahdan arzum budu
Yar gülə-gülə gəlsin!

Əzizim gizli gəlsən,
Nəzərdən gizli gəl, sən.
Əli qurbanın olar
Sən bizə gizli gəlsən.

## SONAM MƏNİM

Sevdim desəm, qınarsanmı?
Sonam mənim, sonam mənim.
Eşqimizi danarsanmı?
Sonam mənim, sonam mənim.

Sənsən mənim bahar- yazım,
Eşidirsən xoş avazım?
Sinəmdədi telli sazım,
Sonam mənim, sonam mənim.

Əli sənsiz, bil, yaşamaz,
İnan mənə, şahin- şahbaz.
Sinəmdə var xoş bir avaz,

Sonam mənim, sonam mənim.

## CAHANGİR DALĞIN (T.6)

### YARA GƏL
### (Təcnis)

Səni görcək sərimdəki tel əsdi,
Vəfadarım, baş çəkməyə yara gəl.
Eşq oduna düşmək, könül tələsdi,
Olmamışdan cismi- bədən yara, gəl.

Hər döngədə ayaq saxla, düz adda,
Həyat boyu qalmaq üçün düz adda.
Eşqin dəryasında mənəm düz ada.
Qəvvas olub dəryaları yar, a gəl.

Dalğın deyər, yaxşı yazıb bəxtizar,
Zəhmətkeşdi bu dövranda bəxtiyar.
Yaşadığın hər bir anda bəxtiyar,
Xalq üzünü qanmaq üçün yara, gəl.

### TƏCNİS

Yaxşı bağban bəslədiyi bağında
Bitirməsin pis almaynan, pis üzüm.
Bu həyatda bir gün ömrüm olmasın,
El içində əgər olsa pis üzüm.

Söz dağında qeyri yara sağalar,
Şahın şonqar şikarını sağ alar.
Gül kökləri yerdən şirə sağalar,
Əlim getməz qönçəsini pis üzüm.

Lənət olsun pis işləri umana,
Mən oğlunam, məndən xeyir um, ana.
Dalğın deyər: girmiş olsam ümmana,
Rəvadımı dalğaları pis üzüm?!

### QOŞMA
### (əvvəli də, axırı da ş)

Şahim, könül səndən dilək istəmiş,
Şahin sara şikar olmayaydı kaş.
Şirin can tək ilk məhəbbət əzizmiş,
Şər qatan cahanda qalmayaydı kaş.

Şirin kəlmə ola dilə bükülmüş,
Şeyda bülbül daim gülə bükülmüş.
Şer yazan qələm ələ bükülmüş,
Şair qəm-xəyala dalmayaydı kaş.

Şair Dalğın, söylə, sənə nə olmuş?
Şüxları göröndə peymanın dolmuş.
Şüşə tək könlümü daşlara vurmuş,
Şirin tək qoynuna almayaydı kaş.

### DALBADAL

**(əvvəli və axırı «L»)**

Leysan yağar, pərvazlanar çəmən, çol,
Lalə yanaq güllər açar dalbadal.
Laçın cövlan vurar, oxuyar bülbül,
Leylilərim seyrə çıxar dalbadal.

Ləbi şəkər, incəbelli, tuti dil,
Lərzələrim dal gərdənə tökər tel.
Ləyaqətli qəhqəhəsin diyar el,
Ləbisindən coşar dillər dalbadal.

Ləyaqətli isə olu həmayil,
Ləngiməyin, gəlib çatır yeni il.
Laləli ömründü, Dalğın, sən də bil,
Laf eləmə, ötür illər dalbadal.

## AŞIQ SİRAC (T.6)

## TƏCNİS

Dedim: «Ey gül, olsun hicran tüsdağı»,
Yarın sözü yara şirin gəlməsə,
Girərəm qoynuna tifilsayağı,
Ağlaram, tüstahdan şirin gəlməsə.

Nə carçı, nə qasid, nə də çaparam,
Şövq əhliyəm, eşq köhlənin çaparam.
Fərhad kimi bu dağları çaparam,
Üzərəm canımı Şirin gəlməsə.

Yetiş imdadıma, Böyük Yaradan,
Sənsən aləmləri yoxdan yaradan.
Çətin qurtararam belə yaradan,
Siracam, dadıma şirin gəlməsə.

## QIFILBƏND

İki qapı açdım, bir həyat gördüm,
O həyatda iki sürü dolanır.
On beşi keçirdir, on beşi qoyun,
Nə ölübdü, nə də diri dolanır.

İyirmi dörd mənzil, iki otaqdı,
Səkkiz bərəsi var, dörd də daraqdı.
İki çoban bir cüt quzu buraxdı,
O səbəbdən hər biri yeri dolanır.

Sürünü hürkütdü o iki quzu,
İkisinin vardı qırx iki gözü.
On altı dişi var, on iki üzü
Gah ayağı, gah də səri dolanır.

Gəşt eliyib hər məkanda səs salır,
Bir çoban olmasa məəttəl qalır.
Ariflər yanında ... çox olur.
Vardı onun xeyri, şəri dolanır.

Sirac, ona nə qafıldan tuş oldu,
O quzular altı adlı xoş oldu.
Hesabladım, otuz iki baş oldu,
Səhərədək hər güzəri dolanır.

## QABAQDA

Bənna qurmuş bir xoş bina üstündə,
Doqquz gözəl gəzir düzü qabaqda.
Doqquzu da durub canım qəsdində,
Alışır sinəmin gözü qabaqda.

Doqquzu altdadı, doqquzu üstdə,
Doqquz nəhəng gördüm, boyları bəstə.
Gahdan coşur, bəzən dinir ahəstə,
Gəzir sahibindən özü qabaqda.

Doqquz baş gövdədi, doqquz ayaqdı,
Doqquz sütun onun üçün dayaqdı.
Doqquz biləpziyi özgə sayaqdı.
Durub tamaşaya yüzü qabaqda.

Doqquz zülfün tutmuş doqquz dişində,
Doqquz sütün pərgar olur işində.
Kamil olsa gəzən olar döşündə,
Ağ olar o kəsin üzü qabaqda.

Mən Aşıq Siracam, deyiləm naşı,
O doqquz gözəlin mənəm sirdaşı.
Hər kim tapsa, ollam onun qardaşı,
Deyərəm şəninə sözü qabaqda.

## DAĞLAR

Eşq əhli gər canın üzər,
Məskən salar dağlar, səndə.
«Leyla-Leyla!» deyib gəzər,
Məcnun gələr ağlar səndə.

Çəkmiş səndə nalə, fəryad,
Əsli- Kərəm, Şirin- Fərhad.
Qartal, şahin çalır qanad
Gah da uçur dağlar, səndə.

Köksündəki əlvan güllər,
Açıb- solmuş milyon illər.
Koroğlular, Çənlibellər,
Hanı polad tağlar səndə?
Kim ucalsa başın qədər,
Hicran çəkər yaşın qədər.
Torpağın, həm daşın qədər
Dərdim coşub, çağlar səndə.
Olmuşam hicran sarvanı,
Göz önünüdə qəm karvanı.
Düşündükcə hər bir anı,
Sirac dastan bağlar səndə.

## GƏRAYLI

Bahar fəsli, bazar günü,
Bir gözəl gördüm Muxaxda.
Lalə bildim gül üzünü,
Xalı görcək al yanaqda.

İsmi «Əlif nun»du, yeydi,
Son hərfi «Əlif- teydi»di.
Dəhan şəkər, dili meydi,
Mey məzəsi var dodaqda.

Sevinc vardı qəlbimizdə,
Bir vururdu ürək bizdə.
Gözüm qaldı ala gözdə,
Bir də bəyaz al buxaxda.

Dedim: «Tapıb bülbül gülü»,

Gülə-gülə dedi: «Bəli».

Meh əsdikcə siyah teli,
Rəqs edirdi ay qabaqda.

Ayrılanda köks ötürdü,
Dərdimi yüzə yetirdi.
Dərib iki gül gətirdi,
Pünhan verdi bir otaqda.

Son görüşdə sıxdın əlim,
Könlün aldım o gözəlin.
Dedi: «Bizə tez-tez gəlin»,
Dedim: «Gəlləm yaxın vaxtda».

Səhəngi çiyninə aldı,
Su da bir bəhanə oldu.
Mən Siracı yola saldı,
Tənha qaldı yar bulaqda.

## TƏCNİS

Sən anma adımı, bivəfa dostum,
Ansın qohum- qardaş ya yar adını.
Bəd günümdə bircə dəfə sormadın,
Sinəmdəki dağdı, ya yaradımı?

Al qələmin bu kağıza gəl «sin» yaz,
Sin yanına rey də dalda, gəlsin yaz.
Çox deyirdin, «qış dolansın», gəlsin yaz,
Yenə könlü yazda yay aradımı?

Unutma zatını, bir sal yada sən,
Mənə birdi ya biganə, ya da sən.
Dost sirrini gedib dedin yada sən,
Söylə, qəsdin mənə, ya yaradımı?

Varid olsa bir meydana güləş ər,
Qorxu bilməz, şir də gəlsə, güləşər.
Sənə dedim: «Qoyma, məni gülə şər»
Düşmən bəd danışar, yayar adımı!

Məcnun «Leyla» deyib dağda yanırdı,
Belə müşgül dərdə dağ da yanırdı.
Siracın ahından dağ da yanırdı,
Bir dost kara gəlib ya yaradımı?

## BÜLBÜL

Qan ağlayıb səhər-səhər,
Girmə donnan- dona, bülbül.
Əbəs yerə çəkib qəhər,
Qəsd eyləmə cana, bülbül.

Olmayaydın sən bəxti kəm,
Ömrü gödək gülə həmdəm.
Dərd əlindən çəkib sitəm,
Gəlirsən fəğana, bülbül.

Üç ay qışı həsrət ilə,
Gözləyirsən bahar gələ.
Sar qonanda qonça gülə,
Olursan divanə, bülbül.

Dönməyirsən inadından,
Bir an çıxmır qəm yadından.

Hicran sənə əcdadından,
Qalıbdı nişanə, bülbül.

Leyla deyən Məcnun hanı?
Səhralarda çıxdı canı.
Rəhmə gəlsə Kərəm kanı,
Qəlbin dönməz qana, bülbül.

Düşünən Şirin Fərhadı,
Qoparармı bu fəpyadı,

Kərəm kimi eşq ustadı,
Ömrün verdi sona, bülbül.

Qan- yaş töküb, çəkmə qəmi,
Gələr bir gün vüsal dəmi.
Döz hicrana Sirac kimi,
Ötmə yana-yana, bülbül.

## TƏCNİS - GƏRAYLI

Eşq oduna səməndərəm,
Sinəmdə var od asarı.
Pərvanələr dəstə-dəstə,
Uçur gəlir oda sarı.

Dağlara bir Leyli gəlib,
Günəş batıb, Leyli gəlib.
Oyan Məcnun, Leyli gəlib,
Bu sarvandı o da sarı.

Ay yetincə mənzilinə,
Dedim sazın mən zilinə.
Yarım köçüb mənzilinə,
Eyvan aydı, o da sarı.

Candan əziz bir can ana,
Mənim adım bir, can ana.
Tərlan dedim bir canana,
Zarıq tapdı o da sarı.

Sirac, «can» de  yaxşı- yada,
Səni salar yaxşı yada.
Qibləm deyən Yaxşıya da
Bir aşıxdı, o da Sarı.

## QOŞAYARPAQ

Yaşımı yadlardan soran qəşəng qız,
Soruş məndən, izhar edim dildə mən.
İstəyirsən, götür qələm, deyim, yaz,
Sənədim var, saxlamışam əldə mən.
İyirmi beş iyul, bir yay səhəri,
Şəfəq bürüyübmüş uca göyləri.
Gəlmişəm cahana o gün, ey pəri,
Min doqquz yüz otuzuncu ildə mən.

Sevmişəm yurdumun baharın, yazın,
Çünki vurğunuyam bir sərvinazın.
Füsunkar qoynunda Böyük Qafqazın,
Çox gəzmişəm qar, boranda, seldə mən.

Layışqı kəndimdi, Şəki şəhərim,
Bu eldə açılıb ilkin səhərim.
Sinəm xəzinədi, sözdü gövhərim,
O gövhəri sərf edirəm eldə mən.

Sənətdə mahirəm, mətahım rəvac,
Meydanda rəqibə verməmişəm bac.
Atam Abuzərdi, öz adım Sirac,
Musa kimi at çaparam Nildə mən.

## OLARDIMI

Bəxti gətirsəydi şeyda bülbülün,
Qonçanın köksündə xar olardımı?
Duyduqca ətrini baharda gülün,
Tutulub gözləri kor olardımı?

Olmasa can alan ellər gözəli,
İlham pəriləri sözü məzəli,
Şair yaratmasa şeri, qəzəli,

Kaman olardımı, tar olardımı?

Fərhad qovuşsaydı gözəl Şirinə,
Dönərdimi eşq əhlinin pirinə?
Kərəm uymasaydı keşiş şərinə,
Gen dünya başına dar olardımı?

Aynayıb axmasın sevgi düşməni,
Xəzan vurub solsun arzu gülşəni.
Vüsala yetməyə qoysaydı məni,
Dərdim bu ellərə car olardımı?

Yan oduna Sirac, sənə yananın,
Mərifət anlayıb, mətləb qananın.
Vəfası olsaydı əgər cananın,
Gedib biganəyə yar olardımı?

## QOŞAYARPAQ

Ay camaat, olmuşam mat,
Belə Sərvinaz olarmı?
El içində, bu biçimdə,
Bundan artıq qız olarmı?
İzn versə, dostu girsə,
Qoynu bahar, yaz olarmı?
Sərvi boyu, zülfü muyu,
Çalmaq üçün saz olarmı?
Pərişan küsüb- barışan,
Bu qədər də naz olarmı?

Baxın hamı, var əndamı,
Güldü, bənövşədi bunun.
Qəddi çinar dəysə, sınar,
Camalı şüşədi bunun.
Hər kəlməsi, xoş gülməsi
Könlümə nəşədi bunun.
Dəymiş, təzə, həm mey-məzə,
Narı gülöyşədi bunun.
Gəzsən barı, bütün carı,
Bu cür qaragöz olarmı?

Sevən kimsə, ləbin əmsə,
Göz dikməs dünya malına.
Hər kim olsa, onu alsa,
Görən deyər: «xoş halına!»
Buxağı, şəkər dodağı,
Bənzəyir beçə balına.
Şirin sözü, ala gözü,
Çox sitəm eylər quluna.
Hərdən tuta, oda ata,
Cismi- narı köz olarmı?

Gah oxuyur, tor toxuyur,
Əlində işinə qurban.
Canlar üzmüş, sapa düzmüş,
İgidi dişinə qurban.
Təzə bardı, cüt nübardı,
Yumrudu, döşünə qurban.
Çıxıb kəndə, hər gəzəndə
Olum yerişinə qurban.
Bir çəkin car, ona oxşar
Görün, Quba qaz olarmı?

Gül buxax, kəndi Muxax,
Oylağıdı Zaqatala.
Aniyət ismi, güldü cismi,
Səthi düşüb hər mahala.
Hər yanı gəzsən cahanı
Tapılarmı belə bala?
Deyir mənə: «Gəlləm sənə,
Təki sənin vəfan ola!»
Görən Sirac, zülfü qulac,
İlqarında düz olarmı?

***

Saz götürüb «meydan mənimdi» deyən,
Əhli- ürfan sənətkarı edər «fəs».
Həm elmə bələdəm, həm tər(l) zəbanəm,
Kamil bir ustaddan mən almışam dərs,
Pirimdi əqdəs!

Piri əqdəs gərək araya «sini»,
Neçə vübün vardı, ara yasini.
Hansı yerdə gəldi araya sini
Orda təam yedi iki müqəddəs,
Onlardı dadrəs!

Dadrəs deyib mən çağırram bir şahı,
Nüsrət versə, mat eylərəm bir şahı.
Nə ləşgərdi, ana olmuş bir şahı
O şaha qəsd edib toxunsa hər kəs,
Qalarlar bikəs!

Bikəs bir qul gördüm, müşgül dərdi var,
Bir ev tikib, bağlı qalıb dərdi var.
Nə sərvətdi, nə də onun dərdi var,
Düşübdü zinldana yeridi qəfəs,
Olubdu məhbəs!
Məhbəs verdi sarı, bəyaz ayarı,
Bir quş olub, varıb tapdı a yarı.
Çox görmüşəm dildən natiq ayarı,
Sən ayar deyilsən, elə salma səs,
Gəl danışma nəhs!

Nəhs danışan el gözündə alçalar,
Əlif qədd də yaya dönər, alçalar.
Sazın allam, ağ bənizin al çalar,
Niza rüba, şiri- nərə baxma tərs,
Olma müxənnəs!

Müxənnəsin olmaz dərdə davamı,
Bəd gətirər nahaq sözün davamı.
Mən  Siracam, səhri sanma davamı,
Tab etməz cəngimə hərcayı nakəs,
Lal ol, nitqin kəs!

**DİNƏ BİLMİR**

Aman Allah! Nə bəd gəldi zəmanə,
Ulaq fərman verir, nər dinə bilmir.
Dövran öz oxunu qoyub  kamana,
Zənən qabağında ər dinə bilmir.

Sürülər qalxanda el yaylağına,
Yeyirlər, yazırlar qurd ayağına.
Sıfırlar düzülür birin sağına,
Yüzü min eyləyir, bir dinə bilmir.

Keçi molla olub, buraxıb saqqal,
Dərs deyir qoyuna boşboğaz naqqal.
Qıy vurur pələngə dərədə çaqqal,
Tülkünü görəndə şir dinə bilmir.

Hoqqabaz sağsağan edir iftixar,
Ağacdələn kimi dəfçalanı var.
Leylək rəqqasədi, qarğa bəstəkar,
Susdurub bülbülü şər, dinə bilmir.

Hamı qərib olub doğma elində,
Axırıq zamanın qanlı selində.
Sirac hökmü verib nadan əlində,
Xəcalətdən töküb tər dinə bilmir.

## GƏRAYLI

Aman! Aman! Allah, aman!
Dəhşətimiş şərin hökmü.
Gör necə dəyişib zaman,
Qadındaymış ərin hökmü.

Çıxmasa da nərddən başı,
Oyunçunu udur naşı.
Xanələrdə tutub daşı,
Mars eyləyir zərin hökmü.

İnsan gərək haqqı duya,
Nə şərə, böhtana uya.
Arxalanıb axar suya,
Daş oynadır pərin hökmü.

Quzu qurdu salmır saya,
Tülkü şirdən etmir həya.

Çatmır dılqır bir danaya,
Nərildəyən nərin hökmü.

Meymuna bax, girib cəngə,
Meydan oxuyur pələngə.
Siracı gətirib təngə,
Uzunqulaq xərin hökmü.

## GƏRAYLI-QIFILBƏND

Aşıq, sazı bas döşünə,
Yersiz qalmaqal eyləmə.
Huşunu topla başına,
Qeyri müşgül hal eyləmə.

Həqiqətdən danış, görüm,
Görən desin «Sədd, afərin».
Sənə mən bir sual verim,
Aç dilini, lal eyləmə.

Altmış başdı, qırx dörd ayaq,
Səksəni var özgə sayaq.
Eşq əhlinə odu mayaq,
Fəhminə işğal  eyləmə.

Dördcə qolu var altmışın,
Əvvəlidi altı beşin.

Sözlərimi dərin düşün,
Hər  sözü məqal eyləmə.

Gahdan dörddü, hərdən beşdi,
Həftdi, həşdi, hərdən şeşdi.
Alim üçün asan işdi,
Heç dərin xəyal eyləmə.

Dörd vur səkkiz- otuz iki,
İyirmi səkkiz qırx dörddəki,
Olsan kamil ustad təki,
Hər ümmana yol eyləmə.

Siracdı, el sənətkarı,
Gəlsin gövhər xiridarı.
Könlünə sallam qubarı,
Özün xoşiqbal eyləmə.

## QOŞMA

Mərdin qaydasıdı əzəl binadan,
Ac qarını doydurmağa çalışar.
Namərd fitnə qurub, iki könülü,
Bir-birindən ayırmağa çalışar.

Xərcləməz cibindən xəsis bir şahı,
Bugünkü yeməyin saxlar sabaha.
Özgənin evində gələr iştaha,
Yeyib qabı sıyırmağa çalışar.

Sirac, yenə dərdin olub ziyada,
Gədaya bax, deyir: «Mənəm bəyzada».
Şahın işi ona düşsə, nəbada,
Əmr verib buyurmağa çalışar.

## DODAQDƏYMƏZ TƏCNİS
## («D» HƏRFİ)

Dilin dəlil deyir, dalda dardasan,
Dal deyildir, daldalansan dal-dala.
Dərdə dəlaləsən, dəxi dardasan,
Dadrəst ilə danış, dərdin dal-dala.

## QOŞAYARPAQ

Gəldim kəndinizə, mehmanam sizə,
Oldum o qaş- gözə heyran, Əlfinaz,
Sən həmdəm ol bizə, gəl çıxaq düzə,
Edək gəzə-gəzə, heyran Əlfinaz.

Qaməti- minasan, çeşmi- rənasan,
Od tutub yanasan, məni qınasan.
Dərdimi qanasan, sən bir sonasan,
Aşiqi sanasan, tərlan Əlfinaz.

Kamalda əlasan, göyçək balasan,
Mərhəmət qılasan, könlüm alasan.
Yanımda qalasan, yarım olasan,
Dərdimə bulasan dərman, Əlfinaz.

Bağçalar barısan, şirin narısan,
Dağların qarısan, dost nübarısan.
De, kimin yarısan, sitəmkarısan,
Ovçu şikarısan, ceyran Əlfinaz.

Siracdı yaralı, könlü paralı,
Dərdindən saralı, gəzmə aralı.
Cismimi nar alı, güllük maralı,
Qoy bilsin bu halı, hər yan Əlfinaz.

## QIFILBƏND

**ƏBDÜLƏZİM:**
O nədi ki, bu dünyada bədəni bir, başı beş,
Hər başında dörd gözü var, hər gözündə qaşı beş.
O bədənin cəm gözündə iyirmidi kipriyi,
Ayrılanda qətrələnər kipriyinin yaşı beş.

**SİRAC:**
Arif olan bir manatda abbasıdı, başı beş.
Abbasıda dörd şahı var, xırdalasan, qaşı beş.
İyirmi şahı cəm olsa, manat olar bir bədən,
Ayrılanda hər şahıda qəpiklərdi yaşı beş.

**ƏBDÜLƏZİM:**
Həm yeyilir, həm yeyilmir, həm şirindi, həm acı,
Cümlə- aləm gözün dikib, olub onun möhtacı,
Dağı dəlir, daşı yarır, alır ondan xəracı,
Simuzərdən cəsədini çəkibdi nəqqaşı beş.

**SİRAC:**
Doğru deyir ustad oğlu, həm acı, həm şirindi,
Sal qayalar aciz qalıb, ona əyir sər indi,
Pul haqqında söhbət açsan, hədisləri dərindi,
Tərəqqi –tənəzzül edən baharı beş, qışı beş.

**ƏBDÜLƏZİM:**
O bədənin hesabıynan canda yüz damarı var,
Hər tərəfə yol işləyir, çox açıq bazarı var.
Hər kimiynən ülfət qılsa, ona xeyli karı var,
Mən istərəm, qoy sinəmə onun dəysin daşı beş.

**SİRAC:**
Manat özü yüz qəpikdi, istəyirsən, xırdala,
Dükan- bazar onsuz olmaz, gərdiş eylər sağ-sola,
Varlı yeyər, geyər, gəzər, olmaz dərdə mübtəla,
Kasıbın şirin canına, hey salar atəşi beş.

**ƏBDÜLƏZİM:**
Nə ölüdü, nə diridi, nə əti var, nə qanı,

Bəni- insan caməsində gedər gəzər hər yanı,
Əbdüləzim deyər: «Hər kim tapsa bu müəmmanı»
Çox dərindən fikrə düşər, eyləyər təlaşı beş.»

**SİRAC:**
Aşıq Sirac deyər: «Puldu dövr eyləyər cahanı,
Hörmət ilə cibdə gəzir sevindirər insanı.
Müxtəsəri, bilin, odu dolandıran dünyanı,
Kimdə çoxdu, alar, geyər al-əlvan qumaşı beş.

## DEMƏ

Gəl, ay könül, həqiqəti anla bil,
«Tər qönçəyə qismət olsun xar» demə.
«Çor» deyənə sən qayıdıb «can» deynən,
Döndərib əksinə sən də «çor » demə.

Dost yolunda qarşı gəlsən qadaya,
Səbirli ol, asi düşmə, xudaya,
Yoxsula, ərbaba, şaha, gədaya,
«Bu dünyanın etibarı var» demə.

Kardan düşsə, maya saymaz nərini,
Nadanlar anlamaz xeyir- şərini,
Öz qəlbində pünhan eylə sirrini,
Hər gördüyün bivəfaya car demə.

Dağlar var ki, quzeyləri qarsızdı,
Ağac var kı, xeyir vermir, barsızdı.
Bəzi qohum yad oğlundan karsızdı,
«Olar onda namus, qeyrət, ar» demə.

Aşıq Sirac, mizrab vurduqca telə,
Sənət sevən xalqın ilə fəxr elə.
Görürsən ki, baxtın yatıbdı hələ,
İqbalına, taleyinə kor demə.

## BAX

Necə ki, gözəlim, küsmüsən məndən,
Dərdim olub sinəm üstə qoşa, bax.
Hicran qapımızı döydüyü gündən,
Gözlərimdən axan qanlı yaşa, bax.

Zülfünün ətrindən olmaz gülşəndə,
Süsəndə, sünbüldə, ya yasəməndə.
Dedim: «Sənlə gəzəm bağda, çəməndə»
Bahar fəsli, bizə gələn qışa, bax.

Əzəldən gör necə kəmtale oldum,
Sevda yollarında saraldım, soldum,
Leylasız Məcnuntək sərgərdan qaldım,
Şövq əhliyəm, təbim gəlib cuşa, bax.

Bunnan artıq mən nə deyim namərdə
Görüm hücrə olsun davasız dərdə,
Beşgünlük ömrümü sənlə bir yerdə,
Qoymadı ki, biz də vuraq başa, bax.

Sirac eşq oduna yandı, köz oldu,
Sən ağladın, mənim dərdim yüz oldu.
Fal açdırdım, falçı deyən düz oldu,
Fələk vurdu, oxum dəydi daşa, bax.

## DİLBƏRİM

Gecələr qoynunda ta sübhə kimi,
Mən maçdıqca məni maçan dilbərim,
Sarılıb boynuma bir körpə kimi
Səhəri mənimlə açan, dilbərim.

Heyif, o günlərə döndü xəyalım,
Bilmədim getmisən hansı mahala.
Məni həsrət qoydun şirin vüsala,
Siyah zülfü ətir saçan, dilbərim.

Bir gün səhərimi başa yetirdim,
Gəlib səni öz yuvamda itirdim.
Ağladım, sızladım, köksüm ötürdüm,
Bir quş olub əldən uçan, dilbərim.

Öz əzizin etdi eldə xar səni,
Qoydu sevgilinə intizar səni.
Yad oylaqda qovub tutdu sar səni.
Hürküb ovçusundan qaçan, dilbərim.

Sirac hicran badəsini içibdi,
Gözəllər içində səni seçibdi.
Verdiyin vədədən illər keçibdi,
Gələcəksən bizə haçan, dilbərim?

## MƏNİ (S.23; T.12)

Çərxi- fələk sevda saldı başıma,
Tez ayırdı yurddan- yuvadan məni.
Məcnun kimi səhraları dolaşdım,
Qoymadı olmağa avadan məni.
Qəvvas kimi dəryaları üzürdüm,
Qanat çalıb hər tərəfə süzürdüm,
Tərlan idim, yaşıl başla gəzirdim,
Laçın vurub saldı havadan məni.
Mən Siracam, düşdüm adı- sanımdan,
Yar sevdası dara çıxmaz canımdan.
Həkim loğman gəlib keçsə yanımdan,
Veribən davadan sağaltmaz məni.

## QANAR- QANAR (T.6)

İnsan oğlu hörmətini,
Saxla namus qan ar, qan ar.
Kamil sənət qiymətini,
Əldən alar qanar-qanar

Namərd qəlbi al çax deyər,
Ucalar da alcax deyər.
Alcax sözu alçax deyər
Yaralarım qanar-qanar.

Əzablıyam bir yarım çıx,
Ürəyimi bir yarım çıx
Bir bədəsil bir yarım çıx
Çətin-çətin qanar-qanar.

## AŞIQ ƏMRAH ALMALI (T.6)

## GƏRAYLI

Gecə-gündüz axtarıram,
Hanı atam-anam mənim?
Gizli-gizli mən yanıram,
Hanı ata-anam mənim?

Qurban ollam kəlməsinə,

Dolanırdıq kölgəsinə.
Səs verən yoxdu səsimə,
Hanı ata-anam mənim?

Qoşa-qoşa adam getdi,
Anam getdi, atam getdi.
Əlimizdən tutan getdi,
Hanı ata-anam mənim?
Getdi başımızın tacı,
Yandı qardaş, yandı bacı.
Ağlayıram acı-acı,
Hanı ata-anam mənim?

Səhər durdum dan yerinə,
Baxdım o yatan yerinə.
Mən verərdim can yerinə,
Hanı ata-anam mənim?

Ata-ana düşdü yada,
Baxın məndəki fəryada.
Artıq yetən yoxdu dada
Hanı ata-anam mənim?

Qucaqladım məzar daşı,
Gah o daşı, gah bu daşı.
Gözlərimin axdı yaşı,
Hanı ata-anam mənim?

Qınamayın, siz Əmrahı,
Dərindən çəkirəm ahı.
Çağırram böyük Allahı,
Hanı ata-anam mənim?

## TELLƏRİN
## (Qoşma)

Dedim: gözəl, necə baxmayım ki, mən
Bəyənmişəm, gəlir xoşa tellərin.
Az qalır huşumu ala yerindən
Sən sığal çəkəndə başa, tellərin.

Düşəcəkmi barı mənim boynuma,
Yarı sənin, yarı mənim boynuma.
Kəmənd elə, sarı mənim boynuma,
Qoy məni öldürsün qoşa tellərin.

Bilirsən ki, mənim səndə gözüm var,
Bu qəmli könlümə toxunma, ey yar!
Yas tutar ürəyim, eylər ahu-zar,
Tökülsə üz-gözə, qaşa tellərin.

Mən sənin hüsnünə olmuşam mail,
Yanıram oduna, sən yatma, ayıl.
Bəzən dur önümdə, gün kimi yayıl,
Gətirsin Əmrahı coşa, tellərin.

## GƏRAYLI

Susub amansız oluram,
Ədalət sazı çalanda,
Elə bil, cansız oluram
Ədalət sazı çalanda.

Elə çalır yana-yana,
Səs keçir sümüyə, cana.
Şəfa verir xəstə cana
Ədalət sazı çalanda.

Yandırır Yanıq Kərəmi,
Unuduram dərdi-qəmi.
Heyrətə gətirir məni
Ədalət sazı çalanda.

Çalınanda «Baş Sarıtel»,
Heyran olur dinləyən el.
Türklərim ürpəşir tel-tel,
Ədalət sazı çalanda.

Elə bil dil açır sazı,
Dinləyənlər qalır razı.
Gəlir bülbül tək avazı,
Ədalət sazı çalanda.

Əcəl gəlib məni haxlar,
Əmrah Ədalət soraxlar.
Məni saxlasa, o saxlar,
Ədalət sazı çalanda.

## AY ÜZÜM İNDİ
**(təcnis)**

Taxt əbədi, insan gəldi-gedərdi,
O taxta əllisi, ay yüzü mindi.
Adam var, üz görsə, üzdən utanar,
Adam var, sifəti ay üzü mindi.

Yas tutar, bürünər qaraya xan da,
Yaraşır düymələr qara yaxanda.
Qaralar saçlarım qara yaxanda,
Necə var görünər, ay üzüm indi.

Bədnəzər yolunu azana keçər,
Bala üçün candan azana keçər.
Verdiyim bir tikə azana keçər,
Ehsandı, buyur ye, ay üzüm indi.
Zərgərsənsə, götür zəri, al ələ,
Həl olmaz, bənzəyir o daş o lələ.
Tacında bitirdin nərgiz, a lalə,
İzin ver qoxlayım ay üzüm indi.

Gələn dana, o erkəkdi, o dişi,
Cin-şeytan işidi, ocaq, od işi.

Amandı, ey həkim, çıxar o dişi
Qutarsın əlimi, ay üzüm indi.

İl təzəlir, aylar çatdı son aya,
Günelsənmi, Aytənsənmi, Sona ya
Düşdüm gölə, bənzədim mən sonaya,
Əmraham, əl açıb ay üzün indi.

## GƏLƏNDƏ
**(Ustadnamə)**

Hər kəsin insana canı yananmaz,
Yanıram desə də üzə gələndə.
Yansa da, yanğısı ola bilər az,
Pərvanə də yanə közə gələndə.

Qadadan - bəladan olmaq üçün yan,
Ya elə bir iş tut, ya da ki, utan.
Dünyada hər şeydən şirin olur can,
İnsanın başına qəza gələndə.

İnsan əsəbləşsə sərt ola bilər,
Sonra öz işinə pərt ola bilər.
Əmraha bir böyük dərd ola bilər,
Cinayət eyləsə cəza gələndə.

## GƏZ
**(Qoşayarpaq divani)**

Cəfa çəkib, təri töküb,
Halal çıxan varı gəz.
Bulandırma, könül qırma,
Qəlbi təmiz, duru gəz.
Mərd insanı gördüm yanı
Zəhmətilə ucalan,
Haramı at, halalı tut,
Qulağı dinc yeri, gəz.

Yesən çörək, gətir gərək,
Dilinə bismillahı.
Qurtaranda, sən duranda
Deynən əlhəmdüllahı.
Peyğəmbərlər deyib nələr,
Düz deyiblər, vallahı.
Ad al, təmiz adla ucal,
Qeyrəti gəz, arı gəz.

Pərvanələr çəkir nələr,
Yana-yana alışar.
Qarışqa da yığar qida,
Qışı üçün çalışar.
Haram yeyən, mənəm deyən,
Bir gün gələr, ilişər,
Qabar əlli, çalış bəlli
Alından tök təri, gəz.

Yalan satma, böhtan atma,
Şər işlərdən əl götür.
Tap bir yolu, qazan pulu,
Əməyindən ləl götür.
Hər kim olsan, hər nə olsan,
Öz işin al götür
Olub sadə, yetib dadə
Əmrah, susub kiri, gəz.

**BU QIZ**
**(Müxəmməs)**

Mən elə düşünürəm,
Gözəllikdə başdı, bu qız.
Ala gözlər, lalə yanaq,
Neçə qələm qaşdı, bu gız.
Tökülüb gərdəninə
Uzun hörük saçdı, bu qız.
İstədim yaxın düşəm,
Məndən uzaq qaçdı, bu qız.
Görəsən bəxtəvərin
Hansına sirdaşdı, bu qız?
Bu qızın dərdi mənim,
Halımı yaman eləyir.
Bu qəm çəkən ürəyim,
Gör necə aman eləyir.
Mənə her nə eləsə,
Sevgili canan eyləyir.
Unuda bilməyirəm
Bu könlüm güman eyləyir.
Mən onun aşiqiyəm,
Mənim üçün xoşdu, bu qız.
Sən onun yeriyəndə
İşvəsinə, nazına bax.
Baxışı canlar alar,
Göz yetirib gözünə bax.
Elə bil bədirlənən
Aydı, onun üzünə bax.
Ey Əmrah, unudarsan,
Sən yoluna, düzünə bax.
O səni kül eyləyər,
Bir ocaq ataşdı, bu qız.

## AŞIQ CAMAL (S.30; T.12)

### AY FƏLƏK

Qəvvas təki gəlib düşdüm dünyaya,
Boylana-boylana üzüm, ay fələk.
Nagah axsam yetişginən haraya,
Qəbul eylə, mənim çözüm, ay fələk.

Sevgilin itirən çox çəkər qəhər,
Qərar tuta bilməz Leylinən-nəhər..
Düşüm sorağına şəhərbəşəhər,
Çərx edib cahanı gəzim, ey fələk.

Aşıx Camal deyər, sən yetiş dada,
Dərdin oldu yenə həddən ziyada.
Vərdişdi ağlamaq, fani dünyada,
Şad günü görmədi gözüm, ay fələk!

## GƏLİN

Padşahın ölsə olmaz haramı,
Haramın əlində qalasan, gəlin.
Geyib çıxdın Əzrayılın donunu,
Qorxuram canımı alasan, gəlin.

İki şamamanın birin neynədin?
Yaramı deşibən dərin eylədin.
Acizəm, ağzımı şirin eylədin,
Dönəsən qəndimə, bala sən, gəlin!

Piyalə paylayan qolun bənd olsun,
Ağzın nabat, dodaqların qənd olsun.
Camal deyər, sənin yoldaşın ölsün,
Sən də mən tək yana qalasan, gəlin.

## PƏRİ

Yanına gəlmişəm cənnət hürüsü,
Məni də apar behiştə, Pəri,
Hüsnün dildarına meyl salmışam,
Onunçün edirəm tamaşa, Pəri.

Ayrılmaram sənin kimi yarımnan,
Dönüm ayağına düşüb sarınnam,
Elə şəfəq düşər üzün nurunnan,
Bənzəyirsən aya, günəşə, Pəri.

Aşıx Camal doymaz sən tək gözəldən,
Yanılarsan salma məni nəzərdən.
Haq saxlasın səni azar-bezardan,
Görüm yaşiyasan həmişə, Pəri!

## MƏRHABA

Zimistanın müddətinnən ayrıldıq,
Şükür çıxdıq yaz-bahara, mərhəba.
Bülbül kimi çevrəsində oxuram,
Açılmış qonçalar tazə, mərhaba.

Duşmanı yandırıb odlara yaxaq,
Göz açıb dünyaya şöləyə baxaq.
Gülşən bağlarına seyrana çıxaq,
Gedək xublar gəzə-gəzə, mərhaba.

Camalam, sirlərin deyən deyiləm,
Şükür ki, allaha piyan deyiləm.
Qorxmayın, insanı yiyən deyiləm,
Gündə yüz yol gəlsə bizə, mərhəba.

## GƏLSİN

Gedin deyin mənim mələk yarıma,
Bir zəhmət çəkibən buraya gəlsin.

Siyah zülfün qabağından götürsün,
Hilal qaşlar çıxıb araya, gəlsin.

Eşq əlindən canım yanhayandadı,
Həsrətin çıxmayır, şirin candadı,
Dərdlənmişəm, dərdə dəprman ondadı,
Təbibdi, baxmağa yaraya, gəlsin.

Bülbül qəfəsdədi, meyli güldədi,
Nə zamandı mənim gözüm yoldadı.
Aşıq Camal, bu gün ölhaöldədi,
Tez deyin şahbaza haraya, gəlsin.

## MƏN OLUM

Gözəllər yola çıxanda,
Yoluna qurban mən olum.
Mehrin bizə doğru danış,
Dilinə qurban mən olum.

Soyuq sular çıxar dağdan,
Gül-bənövşə çıxar bağdan,
Yeriyib qucmalı çağdan
Belinə qurban mən olum.

Aşıx Camal neynər malı,
Sənsiz keçər necə halı?
Anası bir zalım qarı,
Qızına qurban mən olum.

## PEŞMAN OLARSAN

Sirrin verib hər naşıya açma, peşman olarsan,
Ləl, mərcan, cəvahirat satma, peşman olarsan.
Heç yalvarma hər yetənə,qoy aparsın sel səni,
Namərdlərin körpüsündən keçmə, peşman olarsan.

Sığınginən yaradana, bəndəyə dad eləmə,
Dosdun könlünü yıxıb, düşməni şad eləmə,
Havadar ol, yıxılmasın evi, bərbad eləmə,
Öz yurdundan özgə yurda köçmə, peşman olarsan.

Aşıx Camal, namərdlərin məclisinə getməginən,
Döşəgində tikan olar, yıxılıb yatmaginən,
Süfrəsində bal olsa da, sən tamah etməginən,
Şərabı zəhər kimidi, içmə, peşman olarsan.

## ZƏYƏMLİ AŞIQ CAMAL (Ə.16; s.147)
## (Əsil adı Molla İsa)

## GƏRAYLI

Dünən bir gözəl görmüşəm,
Adı Gülxanım, Gülxanım.

Təzədən dərdə düşmüşəm,
Dərdim bil xanım, bil xanım.

Gedib ollam ona nökər,
Nökər olan cəfa çəkər.
Dişi inci, dili şəkər,
Dodaq bal xanım, bil xanım.

Aşıq Camal neylər nazı…
Əlinə götürməz sazı.
Allahım yazaydı yazı,
Mənim ol, xanım, ol xanım!

## TƏCNİS

Sən mislində gözəl olmaz, əzizim,
Sürməni çəkmisən göz dildarına.
Qorxuram gələsən bir bəd nəzərə,
Pərdəni silginən tez didarına.

Könlüm üçün sən qibləyə nisbətsən,
Gözəllikdə Züleyxaya nisbətsən,
Göydə çadırlanan aya nisbətsən,
Qüdrətdən nur yağmış üz didarına.

Mən Camalam, eşqin dindirdi məni,
Günbəgün dərdlərin sındırdı məni,
Gözəllik şöləsi yandırdı məni.

## AŞIQ MURTUZƏLİ (S.141; T.14)

## VARXIYAN

Mən də gəldim bu yerlərə bir qonaq,
Aşıb - daşır var-dövlətin, Varxiyan.
Bahar vaxtı könül açıb bağça- bağ,
Pozulmasın bu növrağın, Varxiyan.

Baharda bağların al-əlvan geyir,
Şəninə aşıqlar min dastan deyir.
Könül, bu mənzərəni gəl eylə seyr,
Toy- busatdı hər yığnağın, Varxiyan.

Nə qədər gəncin var, torpağı sevən,
Dağları yerindən oynadar qüvvən.
Taxıl zəmisini yaxından gör sən,
Bərəkətli var torpağın, Varxiyan.

Qocası, cavanı geniş ürəkli,
Qadını ismətli, gənci hünərli.
Süfrəsi qonaqlı düzlu- çörəkli,
Olmuş sənin çox qonağın Varxiyan.

Müdriklərin sözələrini dinlədim,
İstəyirəm ustadıma baş əyim.
Murtüzəli, belə gündə sən sevən,
Nə gözəldi bu yığnağın, Varxiyan.

## BACIM

Demirəm əməkdə, hünərdə təksən,
Getdi qəhrəmanla yanbayan, bacım.
Bu qara torpaqda sən nə becərsən,
Bol məhsul almısan hər zaman, bacım.

Çəkdikcə vətənə, elə xidməti,
Gün-gündən qolunun artdı qüvvəti.
El görür səndəki səmimiyyəti,

Böyüyə, kiçiyə mehriban, bacım.

Daim ucalmışdı xalqına yanan,
Sən də ucalmısan xaqla anbaan.
Olmasın yolunda sənin heç zaman
Nə boran, nə çiskin, nə duman, bacım.

## ANA

Heç nə görünməyir gözümə sənsiz,
Sən mənim varımsan, dövlətim, Ana.
İstəyirəm görməyə mən səni qəmsiz,
Səninlədi ən şirin söhbətim, Ana.

Həm ana olmusan, həm mənə ata,
Bizi isitmişdi odlu nəfəsin.
Daim açıq olub onun süfrəsi,
Görənə bəllidi hörmətin, Ana.

Bu böyük ailənin yükün çəkəndə,
Keçmişdi həyatın dumanda, çəndə.
Fəsillər dəyişdi, böyüdüm mən də,
Çıxmayıb yadımdan zəhmətin, Ana.

Götürmədin bir kimsənin minnətin,
Bizlə oldu onun mehri- ülfəti,
Belə imiş, demək, onun qisməti,
Kəm olub həyatdan qismətin, Ana.

Çətinliklə çox gəlmisən üz-üzə,
Çörək üçün dönüb gecən gündüzə.
Arxa oldun bu həyatda sən bizə,
Çıxmayıb yadımdan zillətin, Ana.

## EL ŞAİRİ MURTUZA ƏLİ (Ə.13; s.131-133)

## GÜNAHLARIM, ƏFV EYLƏ

Tövbə etdim, İlahim,
Günahlarım əfv eylə!
Sənsən mənim pənahım,
Günahlarım əfv eylə!

Yerlərə sığmaz ahım,
Həddən aşdı günahım.
Rədd eyləmə, padşahım,
Günahlarım əfv eylə!

Cəsədimə can verdin,
Haqqın yoluna sürdün.
Axır eybimi gördüm,
Günahlarım əfv eylə!

Nəfs etdi məni nadan,
Vurdu yolumu şeytan,
Ya Rəhimi, Ya Rəhman,
Günahlarım əfv eylə!

Mən bəndeyi-naməsum,
Həm zalimi, həm məzlum.
Göndərmə, məni məhzun,
Günahlarım əfv eylə!

Zikr ilə tövhid etdim,
İsmini cana qatdım,
Dərgahına üz tutdum,
Günahlarım əfv eylə!

Lütf edici, ya sultan,
İhsanına yox payan.
Sənsən ümidim, Füfran,
Günahlarım əfv eylə!

Murtuza Əli günahkar,
Gecə-gündüz edər zar.
Ya Fafuru, ya Ğaffar,
Günahlarım əfv eylə!

## MƏN AĞLAMAYIM, KİM AĞLASIN

Doldu ömrürm piyaləsi,
Mən ağlamayım, kim ağlasın.
Bilməm halım nə olası,
Mən ağlamayım, kim ağlasın.

İndi canə qorxu düşdü,
Ağlar gözüm qandı, yaşdı.
İbadətdən əlim boşdu,
Mən ağlamayım, kim ağlasın.

Aman mənim yazıq başım,
Məsiyyət oldu yoldaşım.
Axır necə olur işim,
Mən ağlamayım, kim ağlasın.

Quran, hədis görən gözüm,
Qeybət, böhtan dildə sözüm.
Çox təqsirli qulam özüm,
Mən ağlamayım, kim ağlasın.

Nəfsim məni oda salur,
Bir gün təndən canım alur.
Dərdim dərman tapmaz qalur,
Mən ağlamayım, kim ağlasın.

Əgər yüz il möhlət verər,
Axır əcəl qarşı gələr.
Cana qara qorxu salar,
Mən ağlamayım, kim ağlasın.

Bir gün də Əzrayıl gəlür,
Möhlət verməz, canım alur.
Onda halım necə olur,
Mən ağlamayım, kim ağlasın.

Qalar yetimlər ağlaşub,
Yırtar yaxa, köksün açub.
Gözdən qanlı yaşlar saçub,
Mən ağlamayım, kim ağlasın.

Vird etmişəm istiğfara,
Hər dəm Allaha yalvara.
Günahkaram üzü qara,
Mən ağlamayım, kim ağlasın.

Bir gün gələr Surun səsi,
Örtülər tövbə qapısı.
Murtuza Əliyəm asi,
Mən ağlamayım, kim ağlasın.

## SƏNDƏN BİR ÇARƏ, YA RƏBBİM

Davasız dərdə düşmüşəm,
Səndən bir çarə, ya Rəbbim!
Canımdan ümid üzmüşəm,
Səndən bir çarə, ya Rəbbim!

Dərdim artdı varə-varə,
Olmuşam mən biçarə.
Yalvarıram peyğəmbərə,
Səndən bir çarə, ya Rəbbim!

Yığılırmı həkim-loğman,
Olurmu dərdimə dərman.
Bihəqqi rəhməti-rəhman,
Səndən bir çarə, ya Rəbbim!

Ya mən dərdi cövri-cəfa,

İstərəm Allahdan şifa.
Ya Mühəmməd  əl-Mustafa,
Səndən bir çarə, ya Rəbbim!
Dərdimin yoxdur dəvası,
Ey yaradan cümlə nası.
Yerlər, göylər, ərş binası,
Səndən bir çarə, ya Rəbbim!

Yaman yerdə  axşam oldu,
Əcəl piyaləsi doldu.
Bu dünyada  yerim qaldı,
Səndən bir çarə, ya Rəbbim!

Elim-günüm qan ağlasın,
Geyinib qara bağlasın.
Oxusunlar  Quran-Yasin,
Səndən bir çarə, ya Rəbbim!

Bu fəqir Murtuza Əli,
Çəkibdir dünyadan əli.
Mövla qılsın haqqa vəli,
Səndən bir çarə, ya Rəbbim!

## ƏRƏBOĞLU (S.194; T.33)

### SƏNİ ÇAĞIRDIM
### (Qoşma)

Bir gecənin vurğunuyam,
Dad fələk, səni çağırdım.
Açıq gözlər yorğunuyam,
Dad fələk, səni çağırdım.

Bir yanımda şamlar yanır,
Vədə verir, sonra danır.
Od salır, canım odlanır,
Dad fələk, səni çağırdım.

Haq eyləyib məni elçi,
Gəlib yanında bir yançı.
Hara göndərim köçü?
Dad fələk, səni çağırdım.

Dərdi verən  dərman tapar,
Hər duaya şərbət qatar.
Ərəboğluyam, yola apar,
Dad fələk, səni çağırdım.

### YANMAYIRSAN

Sənsən mənim yey tərlanım,
Mən yananda yanmayırsan,
Fələk veribdi fərmanın,
Mən yananda, yanmayırsan.

Hər sözüm bir bənd olubdu,
Şeytan şərə toxunubdu.
Min bir sura oxuyunbdu,
Mən yananda, yanmayırsan!

Gözəl ayatı açanda,
Bəxti, əhvalı seçəndə,
Kövsər suyunu içəndə,
Mən yananda, yanmayırsan.

Göz görməsə, görür könül,
Hər cahana sığmır könül.
Qarğış eylər, ağlar könül,

Mən yananda, yanmayırsan.

Ərəboğluyam, yoxdu fəndim,
Yüzdən minə keçib dərdim.
Ey mənim gözəl səməndim,
Mən yananda, yanmayırsan.

## TOY MƏRƏKƏSİNƏ

Dinləyin ey dostlar, əziz qardaşlar,
Vardır tamatanın söz mərəkəsinə.
Buyurun, dəvətimlə gəlin, qabaqa,
Açıqdı süfrəmiz toy mərəkəsinə.

Başda bəy oturub, yanında gəlin,
Tərifin söyləsin ellərə, gəlin.
Şairəm, əlimdə dəftər- qələmim,
Vardı ürəyimdə söz mərəkəsinə.

Yerbəyerdən qonağımız çox olur,
Halal nemət, çörəyimiz bol olur.
Atamın yanında oğul da durur,
Səbir də gərəkdi söz mərəkəsinə.

## VARXİYANLI AŞIQ MƏHƏMMƏD (S.154; T.12)

## YA GƏLƏM, YA GƏLMƏYƏM

Yolum düşüb qürbət elə,
Ya gələm, ya gəlməyəm.
Soraq salım sağa- sola,
Ya gələm, ya gəlməyəm.

Mən isdəyən dost- tanışlar,
Yığılsınlar yanıma.
Halallığı verin mənə,
Ya gələm, ya gəlməyəm.

Qurban olum yaradana,
Məşğul ollam diləyə.
Dəli könül çıxdı ərşə,
İbadətə, fələyə.

Ya qurtara bu canımı,
Ya da düşə kələyə.
Allah bilir bir də havaxt,
Ya gələm, ya gəlməyəm.

Məhəmmədə etmə minnət,
Olmaz burda mən qalmağa.
Bəlkə məni torpax çəkib,
Qürbət eldə can almağa.

Hərdən bir yada düşəndə,
Sınıq könlümü almağa,
Yaylıq sənə əmanətdi,
Ya gələm, ya gəlməyəm.

## NEYLƏYİM
## (Divani)

Könül sevən dost bağına,
Vara bilməm, neyləyim?
Açılıbdı təzə güllər,
Dərə bilməm, neyləyim?

Bir cananın həsrətindən,
Yanar oldum odlara.
Dolanıram təbib deyib,
Çarə bilməm, neyləyim?

Bilin kəslər, eşqə düşmək,
Çox sitəmdi can üçün.
Nə qədər ki, dərd-qəm vardı,
Yazılıbdı mənim üçün.
Sevmişəm bir mehribanı,
Darıxıram onun üçün.
Hərdən-hərdən düşür yada,
Görə bilməm, neyləyim?

Məhəmmədəm, ərzi-halım,
Budu sizə, qazılar.
Xoş halına o kimsənin,
Könlünü pərvaz eylər.

Yaradanın kəreminnən,
Belə imiş bu yazılar.
Məskən salıb bu viranda
Dura bilməm, neyləyim?

## XUDA
## (Divani)

Həm əvvəlsən, həm axırsan,
Hər sirri pünhan, xuda.
Həm laşərik, həm lamisal,
Vahidən sübhan, xuda.

Altı gündə tüngü-tüngü,
Dünyanı bünyad edən.
Qüdrətindən əvvəl adəmi
Haxdan yaradan, xuda.

Ağlı başda cəm olanlar,
Tədbir edib, fikr edər.
Dili iqrar yaradana,
Hər daima şükr edər.

Yeddi göyün hər qatında
Bir tayifa zikr edər.
Bizə verdin yer üzündə,
Ayəti- Qurani, xuda.

İnanmışam birliyinə,
Mən tuturam hax yolunu.
Ölməz, itməz, heç qırılımaz,
Kimsə bilməz halını.

Kəsməginən rəhmətinnən,
Məhəmmət tək qulunu.
Çünki sənsən iki dünya,
Rəhmi- rəhman, xuda.

## MUXAXLI RAMAZAN (S.154; T.12)

## DANIŞ
## (Zaqatalanın xəritəsi)

Mən sənə şerimlə xəritə verim,
Gəl Zaqatalanı gəz, özün danış.
Çıx Qala düzünə şəhəri seyr et.
Görərsən deyirəm düz, özün danış.

Cardan yuxarı qalx Şamil dağına,
Yaxşıca nəzər sal, solu-sağına.
Abi-həyat kimi buz bulağına,
Baxmaqla doyarmı göz, özün danış.

Kebeloba, Matsex, Maqov, Höytala,
Dardoqqaz, Sumaylı və Uzuntala,
Göyəm, Beretbinə, Qəbizdərə,
Çalış yorulmasın diz, özün danış.

Gedəndə Paşanda olmamış olma,
Danaçı kərəsi dadmamış olma.
Aşağı Çardaxlarda qalmamış olma,
Səni buraxmazlar tez, özün danış.

Keçib Müğanlıya, əyil Faldara,
Qandaxa özünü çatdır nahara.
Yengiy anda salam yetir dostlara,
Kəpənəkçidə eşit söz, özün danış.

Axşam qaralmamış get ol Mosulda,
Ədəblə deyərlər: «Xoş gəldin, qada».
Üzünü ordan tut Əliabada,
Ö gözəl diyarı gəz, özün danış.

Lahıc, Varxiyanı unutma, barı,
Sağ olsun yetirib meyvə bağları.
Yeni Suvagili yaradanları,
Götürüb qələmə yaz, özün danış.
Bazardan sağa dön, düşmə çətinə,
Qımırda qonaq ol qırqovul ətinə.
Üzünü tut bir Çobankol səmtinə,
Qoy sənə çalsınlar saz, özün danış.

Gözbaraxda get gir fındıq bağına,
Şabalıd üçün çıx Mamrux dağına.
Çatdın Ələsgərin sən qabağına
O qarlı dağları süz, özün danış.

Şeytan dərəsinnən adla Qalala,
Qas, Qarqayı görüb düşmə xəyala.
Cimcimaxda bir qonaq ol şan bala,
Qoy o yamaclarda iz, özün danış.

Kələldə sürhülü yeyib dostlar seç,
Güləbağ dağından Sabunçuya keç.
Gedib Çardaxlarda bir sərin su iç,
Çox qonaqpərvərdilər, düzü, özün danış.

Əməksevər elim sıxar qarşına,
Hamı çalışqandı baxmaz yaşına.
Bir gecə qonaq ol Muxax aşına,
Bişirə bilirik biz, özün danış.

Gəlintək bəzənən Talanı dolan,
Hər yanda görərəsən çalan- çağıran.
Dağların qoynunda Meşleşdi duran,
Məxmər çəmənzarı əz, özün danış.

Çox gəzən, çox bilər, belə məsəl var,
Sahildə yanına gələr qocalar.
Gün-günə elimin şöhrəti artar,
Ramazan yazıqdı, az, özün danış.

## VAR

Mənə aşıq deyib büzmə dodağın,
Bəli, mən aşığam, belə karım var.
Ariflər yanında, el arasında,
Hər saya çəkilən xoş göfdarım var.

Cüyürlü meşələr, ceyranlı düzlər,
Dağlarla birləşib aşıqsız sızlar.
Toy məclisi, şənlik yolumu gözlər,
Orda öz yerim var, ixtiyarım var.

Tanı gör Alını, sən Ələsgəri,
Tufarqanlı Abbas, dili şəkəri,
Sinəsindən tökən ləli-gövhəri,
Xəstə Qasım kimi sənətkarım var.

Aşıq Məhəmməd tək sözdə ucala,

Xudam verib həzin səsi Camala.
Dəfn etdi Kamalı ikinci Tala,
Onsuz gecə-gündüz ahu- zarım var.
Hüseyn «Divani»də minə köhləni,
Əsəd Misri üstdə çəkə nərəni.
Mirzə dilləndirə bir şikəstəni,
Sözdə İman kimi xiridarım var.

Bir xəbər yetişsin o Kəlbəcərə,
Sənnən ağsaqqallı Dədə Şəmşirə.
Abbasla Qardaşxan meydana girə,
Bəhmən qızışanda nə qaynarım var.

Koroğlu nərəli İmran, Ələsgər,
Saraclı Hüseyn, Kamandar, Əkbər,
Azaflı Mikayıl  sahibi hünər,
Hələ deyilməmiş yüz nəfərim var.

Kar görməyib nə insannan, xudadan,
Gözü yaşlı köçüb gedən dünyadan.
İsmi- pünhan zülmün görən dünyadan,
Ziyəddinnən Sirac yadigarım var.
Bəzən Koroğlu tək qalalar alan,
Bəzən Məcnun olub səhrada qalan.

Bəzən könüllərə nəşələr salan
Sazda Ədalət tək sehrkarım var.

## DEMİŞƏM

Daldalarda danışmadım dünyada,
Sözüm varsa, üzü bəri demişəm.
Qoşa yaranıbdı yaxşı ilə pis,
Çəkinməyib xeyir- şəri  demişəm.

Adam gərək ad çıxara nan ilə,
Öyünməsin vəzifəylə, san ilə.
Kim isdəyib qanı yusun qan ilə,
Ol kəslərə mən sər-səri demişəm.

Dağ vüqarı kişilərə yaraşıq,
Ara vurub salmamışam qarışıq.
Küsənlərə bir məlhəmdi barışıq,
Hə deyənə mən də bəli demişəm.

Özündən güclüylə girişən bəhsə,
Yayılıb ellərə, düşəcək səsə.
Sənətin qədrini bilən hər kəsə
Bu dünyanın simuzəri demişəm.

İnanmayan varsa, eyləsin soraq,
Ellərin dərdinə olmuşam ortaq.
Ömürdən çevrilir gündə bir varaq,
Yaradan var yeri, göyü demişəm.

Muxaxlı Ramazan ucaldıb səsin,
Dəymə xətrinə, çalış, heç kəsin.
İblis, şeytan ürəyinə girməsin,
Yaxın buraxmayıb yeri demişəm.

## OLSA

Sözün qiyməti bilərmi,
Dəyərinə  alan olsa?
Namərd keçməz qəpiyinnən,
Dövlət- varı kalan olsa.

Qismət varsa, olacaqdı,
Doğruluq baş ucalıqdı.
Ən çətin dərd qocalıqdı,
Evdə gözdən salan olsa.

Dünya gah boşalar, dolar,
Hər yetənnən qisas alar.
İki dosdu ayrı salar,
Aralıqda yalan olsa.

Dolanıb gəz hər bir yanı,

Heç kim tutmayıb dünyanı.
Ölüm qorxutmaz insanı,
Qədirbilən balan olsa.

Ramazan düşübdü xəstə,
Rahat yatar daş qəfəsdə.
Öləndə qəbrinin üsdə
Bir «Divani» çalan olsa.

## SÖZÜNÜ

Kişisənsə bü dünyada düz dolan,
Aşkara gəz, aşkara de sözünü.
Qazancın olarsa elin tənəsi,
Kim inanar, yüz də öysən özünü.
Kimdə yoxsa dostluğuna dəyanət,
Etmiş olur qeyrətinə xəyanət.
Yolun azıb övlad etsə cinayət,
Karı nədi, döy başını, dizini.
Bilin, əsli - nəcabəti olanlar,
İşarənin mənasını tez anlar.
Ayaq tutub yeriməyib yalanlar,
Ay Ramazan, qara edər üzünü.

## DAĞLARDA

Dostlar, söhbətimi dinləyin mənim,
Deyim gördüyümü sizə dağlarda.
Ünsiyyət eylədim çobanlarla mən.
Çəkmişəm bir həftə məzə dağlarda.

Gah piyada gəzdim, gah mindim atı,
Addım-addım çox dolandım elatı.
Tütəkdə çalınan «Çoban bayatı»,
Yayıldı dərəyə, düzə, dağlara.

Çiyinində yapıncı dayananda mən,
Üstümə yeridi duman, çiskin, çən.
Əmlik əti ilə baş çoban Həsən,
Sürfülü bişirdi bizə dağlarda.

Göy qaralıb, gah ildırım çaxanda,
Hər tərəfdən sular, sellər axanda.
Külək vurub alaçığı yıxanda,
Hünər istər onda dözə dağlara.

Elə ki açıldı bir günü hava,
Ramazanam, saldım yolumu ova.
Cüyürü, təkəni mən qova-qova,
Vurğun kimi düşdüm izə dağlarda.

## OLAR-OLAR* (T.6)

Göylərə baş çəkən bir uca dağam,
Hər dağın başında qar olar-olar.
Çox hayıf ki, indii səndən uzağam
Görüşərik, Yaradan yar olar-olar.

Niyə sən göndərdin Cumanın sözün,
Düzəldə bilməzdin üçcə bənd özün?
Xətrinə dəyməsin, ay usta sizin,
Oğrunun sirləri car olar-olar.

Məlumun olsun ki, mən Ramazanam,
Dərin mənaları bir-bir alanam.
Şer bağçasında cavan bağmanam,
Unutma, bağımda bar olar-olar.

## MƏN KİMƏM (T.6)

### (Ustadnamə)

Çox demişəm, bir də deyim mən dübarə, mən kiməm,
Eşidənlər qoy bilsinlər aşikarə, mən kiməm.
Şer adlı sevgilim var, çəkməkdəyəm nazını,
Düz çıxmışam ömür boyu etibara, mən kiməm.

Səhvlərdən xali deyil, insan olmaz çaşmamış,
Leysan olub çoxalanda nə çaydı ki, daşmamış?
Hop demədim qarşımdakı çətin səddi aşmamış,
Niyyətimi çatdırmışam lap axıra, mən kiməm.

Danışanda, yüz ölç, bir biç, uyğun gəlsin arşına,
Əməlinlə çıraq yandır, şölə salsın qarşına.
Səbir, təmkin çox yaraşır, qocaların yaşına,
Gün keçməsin, yaxşı-pisi qarışdıra, mən kiməm.

Zəmanənin məngənəsi sıxdıqca ha nazildim,
Bir yandan da qocalıqla gündən-günə əzildim.
Biri sağa, biri sola, ha çəkdilər üzüldüm,
Ol səbəbdən sağalmazdır dəyən yara, mən kiməm.

Cavanlığın həsrəti də məni yandırıb yaxır,
Onu məndən ayrı salan illər kənardan baxır.
Dərd əlindən incələrək Əyyuba döndüm axır.
Bir Allahdan qeyri mənə yoxdu çarə, mən kiməm.

Bir günahkar bəndəsiyəm, min bir adlı qüdrətin,
Verməkdəyəm öz borcumu beş yol fərzi-sünnətin.
Açıq qoydum qapısını insaf ilə mürvətin,
Olmamaqçün axır gündə üzüqarə, mən kiməm.

Ramazanam, türk oğluyam, sınaqlardan çıxmışam,
Etibarın, ədalətin əllərini sıxmışam.
Dirilik çeşməsi kimi könüllərə axmışam,
Yaşayıram ürəklərdə, axtar, ara, mən kiməm.

## ALMIŞAM (T.6)

Danışdığım şirin dili,
Mən bülbüldən almışam.
Xoş ətirli lətafəti,
Qızılgüldən almışam.
Əzəl başdan vurulmuşam sazın, sözün sehrinə,
Könül açan təranəni Sarıteldən almışam.

Bəzən cumub qəvvas kimi dəryalarda üzmüşəm,
Ustadların şer adlı bağçasında gəzmişəm.

Hərdənbir də öz-özümə misralar da düşmüşəm,
Dəftər-qələm özümündü, dili haqdan almışam.

Əzəl gündən bu dünyada insanlıqdı marağım,
Yaxşıların cərgəsində eşidilsin sorağım.
Utanmasın, çəkinməsin, hər gün olsun qonağım,
Səxavətin libasını mən Hatəmdən almışam.

El baxanda əməyim… var, gözəlliklər barımdı,
İstəyəndə «buyur» dedim, intəhası varımdı.
Vətən mənə həm Anadı, külli-ixtiyarımdı,
Dözümlüyü, mərdanəliyi vətənimdən almışam.

Bu torpağın övladıyam, sularından içmişəm,
Addım-addım dolanaraq zirvələrdən keçmişəm.
Rahatlıqdan yan keçərək çətinliyi seçmişəm.
Dözümlüyü, mətanəti Nəsimidən almışam.

Hər şeyin öz vədəsi, hər şeyin öz zamanı,
Yetişməsə dəm, buraxmaz, eşələmə samanı.
Kasıb dözüb diləmişəm ona o vaxt amanı,
Ruzunu da öz əlimin zəhmətindən almışam.

Dayanmadım yarı yolda məqsədimə çatmamış,
Ədalətin, etibarın əllərini sıxmamış,
Düzünü …. ağrısa da, ümmanlarda batmamış,
Bu məsəli həyatımda görənlərdən almışam.

Qurban olum bu torpağın hər bir vətəndaşına,

Pərvanə tək gəl dolanım torpağına, daşına.
Muraxlı Ramazan çatıb 72 yaşına,
Estafeti uzun ömür sürənlərdən almışam.

### YAZ MƏNİ (T.6)
### (Təcnis)

Adımı ellərin qəm dəftərinə,
Eylə mürəkkəbin qara, yaz məni.
Çox danışdım, başa düşən az oldu,
Ol səbəbdən bəxti qara, yaz məni.
Bir məsəldi, doğru deyib atalar,
Mərd igidlər yedəyinə at alar,
İstər məni boş səhraya atalar
Gəlib tapacaqlar qara, yaz məni.
Binadan Fərhaddı, o da Şirindi,
Kərəm kimi yanmaq oda şirindi.

Oddan yaranmışlar oda şirindi,
Üşütməz nə dolu, qar, ayaz məni.

### DÜNYA (T.6)
### (Müxəmməs)

Əzəl gündən gileyliyəm,
Yəqin bil ki, sənə dünya!
Gah dolursan, boşalırsan,
özün qana-qana, dünya!
Əməlindən viran olub neçə
abadxana, dünya!
Məzlumları həsrət qoydun
bircə qismət nana dünya!
Nə bir şaha baş əyirsən,
nə soltana, xana, dünya!

Bir-bir deyim əməllərin:
güldürmədin ağlayanı,
Eşq əlindən sinəsini məcnun
kimi dağlayanı,
«Əsli» deyib, eli gəzib,
çaylar kimi çağlayanı,
Tahiri dəryaya atdın,
onun dərdi azmı yanı?
Fərhada zülm eylədin,
qıydın şirin cana, dünya!

Ölüm şərbətin içirdin
Zal oğluna, – Rustəm Zala.
Qeyzlənəndə baxmayırsan
nə qocaya, nə cavana.
Sənin də qismətin çatar
düşməginən boş xəyala.
Şeytan tək girmə araya,
düşmən olar ata-bala.
Haqq divanı yetişəndə
düşərsən gümana, dünya!

Əhdə vəfa çıxmamısan,
yoxdu əzəldən ilqarın.
Namərdlərə dost olursan,
mərdlər olubdu şikarın.
Atabəylər, Şirvanşahlar
görmədilər bircə karın,
Doğru yola qayıdarsan,
əgər varsa namus-arın.
Ziyanın yarısından
düşübdü payına, dünya!

Aslan tək nərə çəkən
indi qoç Koroğlu hanı?

İsgəndəri cavan aldın,
dəbbələdin Süleymanı.
Xəstələrə şəfa verən
necə qıydın sən Loğmanı?
Bir cüt fələk saymayacaq
hər addımda sən sayanı.
Dərd əlindən qara geydi,
neçə qoca ana, dünya!

Nizamiyə, Füzuliyə, zülm
eyləyib canın aldın.
Vaqif kimi sənətkarı,
tapdayıb ayağa saldın.
Sabirə sitəm eylədin,
deməynən ki, çox ucaldın.
Vurğun kimi bir bülbülə,
qaraquştək caynaq saldın.
Tarix özü bir şahiddi,
bulaşıbsan qana, dünya!

Namərdin bir gülləsinə
qurban eylədin Cumanı.
Məhəmmədə zəhər verdin,
qanmadın yaxşı-yamanı.
Kamalın dilini tutdun,
sən ağlar qoydun Talanı.

Ələsgəri, Hüseyni, yazıq
Növrəstə İmanı,
Bu əllərə həsrət qoyub
Baxma ağayana, dünya!

Bu alimdi, bəstəkardı,
hörmətinə fərq qoysana!
Üzeyirə, Mikayıla alovlanıb
bir yansana!
Rəşidi də yada salıb
etdiyindən utansana!
Xotkar kimi qızıl taxta
əyləşibsən ağayana,
Daim (müdam) nişan almaqdasan
ox qoyub kamana, dünya!

Şairlərin adətidi
səni başa salıb yaza,
Sözlərimə diqqət eylə,
qoymaginan özün naza.
Mən var-dövlət axtarmıram,
razıyam da çoxdan-aza,
Bir vaxtı ki, kəməndini
salsa boğazıma qəza,
El yolunda candan keçər
Ramazan mərdana, dünya!

## GÖRMÜŞƏM (T.6)
## (Qoşma)

Namərd yaranandan ölənə kimi
Söhbətin dövlətdən salan görmüşəm.
Çöhrəsi olsa da qızılgül kimi,
Axırda saralıb-solan görmüşəm.

Ara qızışdıran olmasa birin,
Qoyunla qurd birgə yaşayar, bilin.
Hərzə-hərzə deyən zəhərli dilin,
Şahmar tək neçəsin çalan görmüşəm.

Ramazan unutmaz dostu, ilqarı,
Onun baharıdı, elin baharı.
Ellərə söz qoşan çox nəğməkarı,
Ellərin qeydinə qalan görmüşəm.

## ÇƏKƏR (T.6)

Bir nadandan  törəyənlər
Adətdi, nadana çəkər.
Ot… tikanlığa
Bülbül gülüstana çəkər.

Xain olan düz iş getməz (tutmaz)
Haraya, imdada yetməz.
Xain öküz  düzgün getməz
Arabanı yana çəkər.

Görməyim namərd üzünü,
Haqq çıxartsın  cüt gözünü.
Ramazanın  düz sözünü
Anlamaz, yalana çəkər.

## AŞIQ KAZIMIN EV ARXİVİNDƏN (T.12)

## VÜCUDNAMƏ*

Atadan anaya məlum olanda,
Qan içində coşqun oldum əməyə.
Qüdrətin kəlamı yetişdi mənə,
Üç ayında məlum oldum anaya.
Dörd ayda döndüm bir yorğa ata,
Kimsə yetişməz olur bu sürətə.
Beş ayda nisan düşdü cəsətə.
Takım yoxdu bürünmüşdüm pərdəyə.
Altı ayda kök salıban cücərdim,
Yeddi ayda çiçəkləndim, göyərdim.
Doqquz ayda ancaq düşdüm dünyaya.
Ağ balıqlar götürdü məni müqabil,
Həm sərin əmirdim, həm də sərsəbil,
Qüdrətin yolunda olmuşam mismil.
Oxucular gətirdi mənə İncil,
Ətrafımı bürüdü mələk Cəbrayıl.
Dəgdi Zəmzəm suyu, oldum qönçə gül,
Ol səbəbdən tabe oldum İsaya.

Yarım yaşda gecə- gündüz sulandım,
Ağlamaqdan yaş içində islandım.
Bir yaşında beşiklərdə bəsləndim.
Yuxlamadım, götürdülər laylaya.
Yaş yarımda oda vurdum əlimi,
İki yaşında vərdiş elədim yolumu.
Üç yaşında mövlam açdı dilimi,

Süd əmmədim, meyl saldım xubzaya,
Dörd yaşında özüm bildim işimi!
Beş yaşında tanıdım tay-tuşumu,
Altı yaşında dağıtmışam dişimi,
Yeddi yaşında tapşırdılar mələyə,
Səkkizində bildim əlif, beyi,
Doqquzunda qandım abır- həyanı,
On yaşında əzbər etdim əyyamı,
On birində qələm çaldım loğmaya,
On ikisində məlum oldu işimiz,
On üçündə qaynar oldu quşumuz,
On dördündə tütək bağlı quşumuz,
On beşində döndüm bir bədirlənmiş aya,
On altısında mən çox düşmüşəm gücə,
On yeddisində ayıb çıxıbdı yüzə (üzə),
İgirmisində döndüm bir iyirmi nərə,
Bir istədim düşmənləri çəkəlim dara,
Hökmüm çoxdu, baş əgmərəm xotkara,
Dindirəndə  əl elərəm ox- yaya,
İgirmi birisində busdum bəzirganın yolunu,
Dağıdıb tökdüm qalaların hər zorlularını,
Çaldım, çapdım bu dünyanın malını.
..................................
Otuzunda kimsə məni almadı,
Düşmən çox çalışdı, çarə bulmadı,
İsgəndər tək haray salam dəryaya.
.................................
Qırx yaşımda yad elədim ölümü,
Onda bildim qohumumu, elimi,
Qırx beşində doğru  döndüm yolumu.
Əllidə artıq məhəl qoydum sumamaya.
Əllibeşimdə özüm düşdüm yarışa,
Çox qocaldım, əlim çatmaz bir işə,
Fələk döndü, işim düşdü tərsəyə.
Altmışımda ağırlaşdı cəsətim,
Görənlər də eyləyirdi qeybətim,
Yeriyəndə qalmayırdı taqətim.
Yıxılanda dayaq verdim əsaya.
Yetmişimdə nadanlara tay oldum,
Bürüşüdü damarlar, quru yay oldum.

Urvatdan tezcə düşüb, xeyli zay oldum,
Sözüm ötmür, işim qaldı hay-haya.
Səksənimdə əlif- qəddim büküldü.
Ömrüm burcu bədənimdən töküldü.
Soldu gözüm, axdı, yaş töküldü.
Bu dünayda ömrüm keçdi xubzaya.
Doxsanımda dağıtdım xanımanımı,
Əcəl gəldi bürüdü dörd yanımı.
Yüz yaşımda tapşırmışam canımı,
Qohum- qardaş yığılallar ah- vaya,
İki kimsə çimizdirdi məni əbə,
Onlar da yetsinlər xeyli savaba.
Çəkdilər məzara, xabi-turaba,
Fərişdələr götürdülər havaya.
Minkən, ənkir kəsdi yolum sərasər,
Cəbrayıl, Mikayıl oldu havadar.
...............................
Heç görünməyən işlər orda görünür,
Bir kişinin adı qırx yerdə bilinir,
Arasında sur düdüyü çalınır,
Yer- göy titrəyərək gedir lərzəyə,
Mən görmüşəm orda haqqı- ədalət,
Heç bəndə görməsin elə zülmət.
Günahkarlar suray olur damlaya,
Miçkin dünyada ...... edər bu sözü,
Bizim üçün qurulur mizan- tərəzi,
Aşıq Dünya sığın göynən mövlaya...

## OLUR

İnsan oğlu fikir eylə,
Məğrurluq qanmazdan olur.
Yaradana şükür eylə,
Yaxşılıq namazdan olur.

Namazdan hökmün almıyan,
Haqqın yoluna gəlmiyən,
Ata-ananı bilmiyən
O da yaramazdan olur.

Yaramaza, sakın uyma,
Kəs qapıdan, yaxın qoyma.
Olur- olmaz sözlər duyma,
Çox söhbətlər azdan olur.

Az söhbətə qulaq asar,
Xeyir- bərəkəti kəsər.
Daldalarda baxar küsər,
O da kı mızmızdan olur.

Baxsan mızmızın işinə,
Gəzər düşünə - düşünə,
Dönər güllər öz başına
O da cılızdan olur.

Kağız qələmnən yazılır,
Haqqın kəlamı düzülür,
Dünyadan əlin üzulür,
Axırın bir top bez olur.

Belədi aşığın işi,
Hər gün getməz toya kişi.
Ərnən arvadın döyüşü,
Gəlininnən, qızdan olur.

## ƏLİABADLI AŞIQ HÜSEYN (T.12)

### BÜLBÜL

Sallana-sallana yuz min nazınan,
Gəlirsən dolana yaralı, bülbül.
Kəklik tək şaqqıldar xoş avazınan,
Görənnər dərdinnən saralı, bülbül.

Bülbül deməgimdən incimə, bala,
Qaşdarın qaradı, gözdərin ala.
Bağda qızılgülsən, çöllərdə lala,
İnsafmı dolana aralı, bülbül.

Əliabadlı Hüseynin dil əzbərisən,
..........
Hay hayalım, xəyal xiridarımsan,
Əliabad ceyranı, maralı bülbül.

### GÖZDƏRİN KİMİ AXTARIR?

Durmusan seyvanda baxırsan yola,
Bileydim gözdərin kimi axtarır?
Yazıq bülbül həsrət qalıbdı gülə,
Bileydim gözdərin kimi axtarır?

Gözün də qaradı, qaşın da qara,
Yazmışam ismini yüz min dafdara.
Guş eylə dərdimə hər muxtasara,
Bileydim gözdərin kimi axtarır?

Gözünə qurbanam, yoluna qurban,
Rəhm eylə, sultanım, amandı, aman.
Əliabadlı Hüseyinəm, ağlaram can-can,
Bileydim gözdərin kimi axtarır?

### HÜRÜ

Açılıb sinənin bağı, bostanı,
Bənzəyir cənnət bağına, Hürü,
Qələmdi qaşların, gözlərin məstan,
Sitəmdi daima insana, Hürü.

Dodağın qaymaqdı, dişdərin mərcan,
Səni görən umsunar, ağlayar can-can.
Yaranmış meydanda məməsi fincan,
Versənə xəstəyə dərmanı, Hürü.

Əliadablı Hüseynəm, olmuşam xəstə,
Götür qucağına, sinənin üsdə.
Şəfqət eylə, yetir rəhmini dosda,
Təbibimsən mənim, loğmanım, Hürü.

## AĞRIN ALI M (S.123; T.15)

Səhər vaxtı gələsən bizə,
Gülə - gülə, ağrın alım,
İncə bel, gümüş kəmər,
Qəddi dal, ağrın alım.

Nitq oxuyur, şal toxuyur,
Əlində peşəsinə bax.
Yaz gəlir dərəm olsun,
Bağımın bənövşəsinə bax.

Siyah tel, ağrın alım.
Yox çaram, çoxdu yaram,

Salıbsan dərdə məni,
Eylərsən səs, əlimlə kəs
Hürünə qurban, ağrın alım.

## PƏRİ (S.123; T.15).

Nə cahan gördü gözüm,
Sən tək insanı, Pəri.
Şah kimi taxta çıxıb,
Durmusan divanə, Pəri.

## KÖPƏKCƏ (S.123; T.15)

Səhər vaxtı zəhmət vermə özünə,
Ay qabaqlı, qələm qaşlı, köpəkcə.
Qaşlarının tacı bənzər meraca,
Ağ çit tuman gövdəsindən alaca.

Sinən bəyaz, ox, xoş baxışlı
köpəkcə,
Musa deyər, ömrümü üzərsən,
Eşqə düşüb bağrımı əzərsən,
Bahar deyil, hələ qışdı, köpəkcə.

## AŞIQ HÜSEYN (S.23; T.12).

## GƏLİN

Mən səni sevmişəm əzəldən, gəlin,
Ağ üzündə qoşa xalın olan vaxtı.
Dodaqların qaymaq, dişlərin nabat,
Ağzın şəkər, dilin bal olan vaxtı.

Könlüm sənnən ötrü çox qəmlər çəkdi,
Göz qamaşanda ürək tədbirlər tökdü.
Ağ sinənə baxmaq belimi bükdü,
Dərdə dərman şirin nar olan vaxtı.

Əzəldən yazını yazmadı fələk,
Rəqiblə sevdanı pozmadı fələk.
İnnən belə sən Söyünə nə gərək,
Diş tökülüb, saqqal çallaşan vaxtı...

Söyün sözünü deyər, yanında olsa,
Gözləri sataşıb xalında olsa,
Əgər ixtiyarı əlində olsa,
Bilmərəm aşiyana qıya, gəlin.

Söyün deyər, dərdi-qəmi bilməyə,
Ağlayanda göz yaşını silməyə.
Darıxanda oynayıban gülməyə,
Kasıbın dövləti bir arvad olar.

## HƏMZƏ

Ay ağalar, sizə xəbər söyləyim,
İki keçi aldı Qinədən Həmzə.
Birisi kor idi, birisi topal,
Baxmadı gözünə binədən, Həmzə.
Sən aparıb ver çobanın özünə,
Qonaq baxsın boz keçinin gözünə.
Qara nöyüt sürtsün onun dizinə,
Üstünə yaxginən xınadan, Həmzə.

Çox cəfa çəkdinmi gələn yollarda,
Axşam düşdü Ağbulağın yollarda.
Çəkic çaldı Üçdəyənin çallarda,
Ayrıldı balası anadan, Həmzə.

Bir həftə qalmışdıq evdə yağıban,
Yayma bişirmişdin adım acıban.
Söyün deyər, bir badyaya sağıban,
Süzmədi südünü cunadan, Həmzə.

## MARAL XANIM

Dağıstana səni deyib gəlmişəm,
Arifə işarə, qan, Maral xanım.
Bülbül olub güllü bağa gəlmişəm,
Çıxmısan qarşıma sən, Maral xanım.

Çıxıb küçələrdə qalmısan gəzə,
Qaşlara yaxıban sürməni təzə.
Gözlərin oxşayır nə dan ulduza,
Aymısan, günmüsən sən, Maral xanım?

Söyün sözü deyib, tamam dəlidi,
Əsli-Kərəm, nə Məcnunun yeridi,
Adın Leyli, özün Misgincəlisən,
Şiyəsən, sünniyə dön, Maral xanım.

## EL ŞAİRİ HƏŞİM ƏHMƏDOV (S.23; T.12)

## QALIBDI

Qardaşım, doğrudan vətən xəstədi,
Bürünübən qəmə, aha qalıbdı,
Ağırdı yaralı, lap can üsdədi,
Üz çevirib qibləgaha qalıbdı.

Atlanıb Kürmüyün coşğun sinəsi,
Gözəl yaylaqlara yayılır səsi.
İnsanın dimməyə yoxdu həvəsi,
Yırtılıbdı, çəkmə, yoxa qalıbdı.

Kimə neyləmişdi bu gözəl dağlar,
Dərələr məyusdu, düzlər qan ağlar.
Ölüsünü atıb çəkili saxlar,
Məzarıstan qülfallaha qalıbdı.

Axşam-səhər əyləşən yox səkiyə,
Kimi gedib məskən salıb Şəkiyə.
Kimi Sumqayıta, kimi Bakıya,
Kimisi ilişib Qaxa, qalıbdı.
Hardansa uzanan bir xain əli,
Fağır-füqaranı etdi sərsəri.
Talada tək-tənha çoban heykəli,
Fikrə gedib, baxa-baxa qalıbdı.

Abidə dayanıb ondan aralı,
Ürəyi atəşli, köksü yaralı.

Sakinləri gedib olub aralı,
Təpəsindən tüstü çıxa qalıbdı.

Hələ tamam vurulmayıb yekunu,
Var daşıyan yurdun ağır yükünü.
Hanı yad eyləyən səksən ikini
Az qalıbdı çıxmağa yoxa, qalıbdı.

Kotan anlamaz ki, qayış nə çəkir,
Hər kəllə özüyçün bir tədbir tökür,
Babalar tikəni nəvələr sökür
Tirin yaman əcəb vaxta qalıbdı.
Hələlik bu qədər vətən elindən,
Hanı dərən bönövşəni yerindən.
Əvvəl macal iapmayan qızdan-gəlindən,
Sərçeşmə boş-bekar axa qalıbdı.

Həşim də çox qoydu bu yurda əmək,
Xudadan beyləymiş, olar neynəmək,
Böyükdən haray yox, rəhbərdən kömək
Kəndin işi bir Allaha qalıbdı.

## SARIBAŞ (S.137; T.12)
## (Qoşma)

Kəbabım olurdu, gözün oleydı,
Yar yanında ötkün sözüm oleydı.
Vaqif deyər, iki sözüm oleydı,
Baxaydım sonamın özü oleydı.

Tərifin yazıban bəyan eyləyim,
Məclislərdə, gimgələrdə söyləyim.
Gecə-gündüz budur arzum, diləyim,
Çəkilsin qoynuna yolun, Sarıbaş.

Atamın yurdusan, ey əziz diyar,
Hər tərəfin çeşmə, sərin bulaqlar.
Nəsildən nəsilə dövlətin artar,
Söylənir dillərdə malın, Sarıbaş.

Əzəl yaşlarımdan məskənim budu,
Heç kəs deyə bilməz yaşın unudu.
Yazmaqnan qurtarmaz yaşın uludu,
Nə qədər şirinsən balım, Sarıbaş.

Çəkilir köçlərin qaşda arana,
Hava da bürünsə çiskin, dumana.
Ana gövdəsindən gedir Şirvana,
Şah budaq atıbdı kolun, Sarıbaş.

Mehdiyəm*, doğuldum anadan səndə,
Heç kəs ölməyib qalmır Vətəndə.
Sinənə baş qoyub oğlun öləndə,
Hərdən bir yadına salan, Sarıbaş.

## AŞIQ XƏLİL (S.97; T.20)

## GÜLƏ - GÜLƏ

Xudam səni nə cür xoş gündə yaratdı,
Düşmüsən cahana, ay gülə-gülə.
Gözəllikdə Yüsif sənə tay olmaz
Almısan qüdrətdən pay, gülə-gülə.

İnamıram müşkül işlər düzələ,
Təbibimsən gəl yaramı təzələ.
Mən nə deyim qədirbilməz gözələ
Eylədin ömrümü zay, gülə-gülə.

Aşıx Xəlil deyər, gül yanaqlı yar,
Sənə qurban malım, mülküm, hər nə var.
Uca boylu, tutu dilli bəxtəvər

Sən gətir mənimçün çay, gülə-gülə.

## AŞIQ XOZEYMƏT ƏLİYEV (S.99; T.39)

### LAHU DAYI (T.12)
### (Qoşma)

Mehman kimi kəndimizə gələnin,
Göz üstə yeri var, bil Lahu dayı.
Qədəm qoyub qapımızı açanın,
Səpərəm yoluna gül, Lahu dayı.
El adəti- hörmət olar qonağa,
Təzə yurdda məskən salan insana,
Xəbər alım, sellər neylər ümmana
Mən ki bir ümmanam bil, Lahu dayı.
Əlyev şair, misal sözləri çoxdu,
Dərdmənd aşiqəm, dərd bilən yoxdu.

Oyan, bir yuxudan isdi sabahdı
Tapsalar cismini gül, Lahu dayı.

### VAR (T.12)

Etibarsız bu dünyada,
Doğru da var, yalan da var.
Qəm- qüşşəsi başdan aşan,
Oynayan da çalan da var.

Bil ki, kimi şad dolanıb,
Kimi dostdan yad dolanıb.
Dildə yağlı vəd oyanıb
Vədə xilaf olan da var.

Mərd tək döşə döyə-döyə,
Mərd zəhmətin verər zaya.
Borc üsdə borc qoya-qoya
Xalı yüksək, kalan da var.

Mərd sözünnən ölər, dönməz,
Haq çırağı yanar, sönməz.
Mərdlər qoşa ad xoşlamaz
Ad qoşmağa salan da var.

Əliyev, sözün düşsün dilə,
Umud bağla dosta, elə.
Köhnə borcu təzə ilə
Verən də var, qalan da var.

### OLA

Mosul əhli, sizdən xəbər alayım,
Mənim mehmanımı gördünmü ola.
Bir parça kağızla xəbər göndərdim,
Cavabı mehmana verdinmi ola.

Mosullu Lahuydu Qandaxda mehman,
Gördüm ki, qəriblik çəkirdi yaman.
Könlü pərvazlanıb coşduğu zaman
Məktubla könlünü aldınmı ola.

Əliyev, zəhmət çəkdin ... bəhrəsində,
Can qoysan halaldı mehriban dosda.
Bir bəxşiş verərəm müjdəsi gəlsə
Mehmandan bir xəbər bildinmi ola.

## OLUR-OLUR

Lahu dayı, gəl yamanlıq eyləmə,
Yaman günün ömrü az olur- olur.
Qış da çox yamanlıq etdi insana,
Qışdan sonra gələn yaz olur- olur.

İnsafı buraxıb haqqı unutma,
Halal zəhmətinə gəl haram qatma.
Çox tələsmə, əbəs günaha batma,
Axı, tələsənə qız olur- olur.

Haqqa şükür eylə, naşükür olma,
Xalqı dilsiz gorüb çox avam sayma,
Çox da ləng tərpənib geriyə qalma,
Geridə qalana toz olur- olur.

Qələm alıb sən usdula keçəndə,
Yaxşını arıyıb pisdən seçəndə.
Tərəzidə tayı yüngül çəkəndə
Neçə nəfər sənə göz olur- olur.

Tərəzi müxənnət alətdi, alət,
Çalış, xalq yanında olma xəcalət.
Düz işləsən, Allah verər bərəkət,
Əlyevin sözü düz olur- olur.

## TEZ – GEC

Lahu dayı, gileylənmə,
Hər diləyin tutar tez-gec.
Dost - aşnanı tanıyırsan,
Əlin ələ çatar tez-gec.

Uçar kənddə qalan mehman,
Xam xəyala dalan mehman.
Bizi yada salan mehman
Axatarıban tapar tez-gec.

Arif Əlyev söz deyəndi,
Doğru sözə düz deyəndi.
Böyük yolun gözlüyəndi,
Hörmət sizə çatar tez- gec.

## DEMƏDİMMİ?

Lahu dayı, dediyimi,
Edəcəyəm, demədimmi?
Yolunda min əzab çəksəm,
Dözəcəyəm, demədimmi?

Dil əzbəri et adımı,
Başa yetirdim arzumu.
Sizə olan bu borcumu,
Verəcəyəm, demədimmi?

Əlyev, alın, sazı çalın,
İncitmisən, könlün alın,
Siz tək böyüklərin yolun,
Gözlüyəcəm, demədimmi?

## BAŞINA DOLANDIĞIM

Qurban qardaş, söz sizindi,
Din, başına dolandığım.
Aç könlünü, pərvaz elə,
Gül, başına dolandığım.
Sazı dindir xoş avaznan,
Könül oxşar bahar- yaznan.
Dür tökülsün, qoy ağzınnan,
Din, başına dolandığım.

Dillən, təbin coşa gəlsin,
Namərd ağlar, mərdlər gülsün.

Qoy sizə sağlıq diləsin,
İl, başına dolandığım.

Əlyev, dillən bala- bala,
Ürəkdə söz qoyma qala.
Bu məclisi özün yola
Sal, başına dolandığım.

## GÖZLƏRİN AYDIN

Qardaşın gəlibdi, gözlərin aydın,
Qəbul et, Xozeymat, baxma uzağa.
Bir ana canında olan iki can,
Olar bir-birinə qurban, sadağa.

Haqdan qismat olsa biz də gələrik,
Yaxından görüşüb əhval bilərik,
Birgə danışarıq, birgə gülərik,
Səsimiz yayılar geniş otağa.

Masabəyi olar Qurban qardaşım,
Köməkçisi olsun Əli qardaşım.
Lahu da məclisdə olar sirdaşım,
Bir söz də verərsiz üzlü qonağa.

Kəlam xoş çıxarmı söz uzananda,
Qələm dinc duraramı ürək yananda.
Əvvəlki gümrahlıq yoxdu canında,
Müddətdi Ramazan düşüb yatağa.

## İNDİ

Eşidin sədanı, Xozeymət qardaş,
Kimdi qiymət qoyan yazana, indi?
Özünə əriştə kəsə bilməyən
Alıb kəfkir salır qazana, indi.

Bilirəm yazmağın bir adətindi,
Bu adət deyildir, sücayətindi.
Həqiqi dost tapmaq xeyli çətindi,
Çünki dəyişilib zəmanə, indi.

Mən ağır yerişli xırdaca çayam,
Sən bütöv əsrsən, mənsə bir ayam.
Nə başam, nə ayaq, ancaq ortayam,
Gücüm gəlməz səntək ümmanə, indi.

Kolluqda gəzənlər üzə çıxıbdı,
Yalan həddin aşıb dizə çıxıbdı.
Tülkü bəylik edib üzə çıxıbdı,
Qarğa da ox qoyub kamana, indi.

Haqdan gileyliyəm, aldı yarımı,
Sara qismət etdi vəfadarımı.

Dağlara danışdım öz qubarımı,
Nə edə bilərəm canana, indi?

Cavanlıqda çaylar kimi çağladım,
Yar adına illə dastan bağladım.
Getdi əldən, tifil kimi ağladım,
Necə yaxşı deyim yamana, indi?

Koroğlu biləkli vuran əliydim,
Bizim tərəflərdə bir az bəlliydim.
Cuma ləhcəliydim, Cuma dilliydim,
Girə bilərəmmi meydana, indi?
Muxaxlı Ramazan ləqəbli xəstə,
Ürəyi atəşli, könlü şikəstə.

Sizinlə oturub çəmənlik üstə,
Söhbətim vardı mərdanə, indi.

## SƏNİ

Göz aydınlıq edən qardaş,
Aydınlıqda anım səni.
Kiçik qardaş arzuladın,
Böyük qardaş sanım səni.

Əli olsun bələdçimiz,
Birgə gülək hər ikimiz.
Qoy şən keçsin məclisimiz,
Məclis canı sanım səni.

Masabəyi Qurban həmyaş,
Məsləhətdə böyük qardaş.
Düz yolda ol mənə yoldaş,
Ustad kimi tapam səni.

Qurban, mənlə qohum tanı,
Əlyev desin sözün canı.
Ramazan tək dostum hanı?
Hər yetənnən sorum səni.

## İNDİ

Məni düz eşidən Ramazan qardaş,
Danışmaz dünyada miyanə indi.
Sözə sərhəd qoyub yolu düz keçsə,
İnan heç vaxt düşməz ziyanə, indi.

Yazmaq adət deyil, məcburiyyətdi,
Görüb götürmək də bir qəbahətdi.
Sadiq dostun yoxsa, çox xəcalətdi,
Məcbursan  gəzməyə bəhanə, indi.

Mən də mərd gəzirəm çıxaydı üzə,
Varını- yoxunu tökəydi düzə.
Tülkülər də rişxənd eyləyib bizə,
Qaçmasın dağlara, arana, indi.

Haqdan çox razıyam ,verib payımı,
Mərdlər sırasına salıb sayımı.
Axtarıb tapmışam indi tayımı,
Görüşə bilərik mərdana, indi.

Sən dəniz, mən sahil döyən dalğalar,
Azca meh əsəndə xəzan yırğalar.
Kamana ox qoyub atan qarğalar,
Özlərin salıblar dumana, indi.

Muxaxda təxəllüs tapdın, mübarək,
Gərəkdi ayağına səcdəyə gələk.
Sizinlə oturub bir yerdə çörək,
Kəsməyə tapmışam bəhanə, indi.

Əlyevəm, düşmüşəm qərib elliyə,
Hər yetən istəyir bizi dinliyə.
Sən Cuma ləhcəli, Cuma dilliyə,
Layiqdimi düşə kamana, indi.

## GƏLMİŞƏM

Dostun diyarına qədəm basıbsan,
Üz tutuban vara- vara gəlmişəm.
Verdiyim əhdimi pozan deyiləm,
Doğru sözə, düz ilqara gəlmişəm.
Ürək darıxırdı görməyə səni,
Ördək gölü sevər, ceyran çəməni.
Aşıx sazı sevər, bülbül gülşəni,
Salam üçün şən gülxarə gəlmişəm.

Qapın açıq olsun dostun üzünə,
Hamı heyran olsun arif üzünə.
Düşmənlərin mil çəkilsin gözünə,
Vaxtım salıb ixtisarə gəlmişəm.

Həmişə bol olsun duzun, çörəyin,
Mənim şadlığımdı, deyib - gülməyin.
Dostların əliylə düşmən ilməyin,
Açmaq üçün bir açara gəlmişəm.

Mən sevirəm gözəl şer yazanı,
İnsan pozmaz min bir adlı yazanı.
Nəğmə kimi adın gəzsin hər yanı,
Baş əyməyə sən sərdara gəlmişəm.

Arzum budu, qəmdən uzaq yaşa sən,
İnsan kimi vur ömrünü başa sən.
Bizim evdə bir qonaq ol, yaşa sən,
Dəvət üçün aşikara gəlmişəm.

Lahu qocalıbdı, qarıdan yazır,
Kabab nəyinədi, quymaq et hazır.
Bilmirəm düşünüb nə plan cızır?
Bağlanıbdı beh- bazara gəlmişəm.

Əli səxavətdə ucalıb göyə,
Bizdən aralanır işim var deyə.
Şahlıq edə bilər Uruma, Reyə,
Qoy olmasın bir tuccara gəlmişəm.

Mən nə deyim dosta sadiq Qurbana,
Hüzurunda can qıyaram Qurbana.
Xuzeymətin öz qohumu Qurbana,
Bələdçiyik bu diyara gəlmişəm.

Sabir müəllimdi oturan ağır,
Baxın, onun camalından nur yağır.
Dostlar cərgəsindən geri qalmayır,
Bizsiz düşər intizara gəlsmişəm.

Ey Haqverdi, öz elmini tərk etmə,
Pulun xatirinə qurbətə getmə.
Özgə süfrəsinə nahara yetmə,
Olsa da çörəyin qarə gəlmişəm.

Ramazan düşmənnən dostu seçəndi,
Dostun xatirinə zəhər içəndi.
Dünya da fanidi, bir gün köçəndi,
Bəlkə də düşəcək karə gəlmişəm.

## ƏLİ QARDAŞ

Əli qardaş, gözüm yolda,
Qaldı yolun gözləməkdən.
Yazıq canım təngə gəldi,
Yalanların izləmkdən.

Dost gəlişi bizə xoşdu,
Ət soyudu, kabab bişdi.
Ramazan da əldən düşdü,

Sən əlini bizləməkdən.

Əlyev, söz de üzbəüz,
Al qələmi, yaz bir kağız.
Sizin belə xasyyətiniz,
Yordu bizi gizləməkdən.

## EYLƏR

Mərd olan yaxşı ad alar dünyada,
O hakim seçilsə ədalət eylər.
Tikəni qonşuyla tən yarı bölər,
Artığın fağıra inayət eylər.

Namərdin dünyada nə adı olmaz,
Verdiyi tikənin heç dadı olmaz.
Sənətdə ucalmaz, qanadı olmaz,
Sonra ustad ilə ədavət eylər.

Mərd olan mərd kişi tutar işini,
Özünə dost seçər o nər kişini.
Özü birin yeyər, ancaq beşini,
Elinin yolunda inayət eylər.

Ağac bar gətirməz, bir namərd baxa,
Çaylar da quruyar ümman tək axa.
Namərdin cibindən bir qəpik çıxa,
Yaş tökər gözündən qiyamət eylər.

Ramazan, ünsiyyət saxla mərd ilə,
Yaşa bu dünyada xeyir ver elə.
Ömrü başa vursan səxavət ilə,
El səni unutmaz min rəhmət ilə.

## MƏNİM

Eşidin dostlarım, bilin qardaşlar,
Sizsiniz dar gündə, dayağım mənim.
Aşıq məclisində, ustad yanında,
Hələ çox olacaq sınağım mənim.

Elimdən alınan bir sorağım var,
Dərdi-qəm görməyən min aləmim var.
Könlümü yurduma bağlayanım var,
Dostlardı yaxınım, uzağım mənim.

Görərsiz sınaqdan necə keçərəm,
Əlimlə səpdiyim dillə biçərəm.
Dostlar məclisində yerim seçərəm,
Meydanda görərsiz, durağım mənim.

Əlyev, dost könlünü bahar-yaz eylər,
Bülbül də sevdiyi gülə naz eylər.
Məclisi saz avaz, xoş avaz eylər,
Hər yana düşərsə, ayağım mənim.

## GƏLİR

İşini möhkəm tut, ustad qardaşım,
Üstünə oxuyan, yazan da gəlir.
Özünü yanında şirin göstərib,
Möhrünü düzəndə pozan da gəlir.

Gündə neçə dəfə salam yetirib,
Ömrünü, gününü sənlə keçirib.
Şirin dil tökübdü şərbət içirib,
Əl altdan quyunu qazan da gəlir.

Özünü həmişə mömin andıran,
Yalan sözlərini doğru sandıran.
Tüstüsüz, alovsuz yaxıb- yandıran,
Cızığından çıxıb azan da gəlir.

Əlyevdi, sözünü mərdana deyən,
Sadəcə dostluğu şan-şöhrət sayan,
Özündən sonraya yadigar qoyan,
Sözünə bir dodaq büzən də gəlir.

## VAR

Ehtibarsız bu dünyada,
Doğru da var, yalan da var.
Qəm-qüssəsi başdan aşan,
Oynayan da, çalan da var.

Deyin, kimi şad dolanıb,
Kimi dostdan yad dolanıb.
Dildə yağlı vəd dolanıb,
Vədə xilaf olan da var.

Mərd tək döşə döyə-döyə,
Mərd zəhmətin verər zaya.
Borc üsdə borc qoya-qoya,
Xalı yüksək qalan da var.

Mərd sözündən ölər, dönməz,
Haqq çırağı yanar, sönməz.
Mərdlər qoşa ad xoşlamaz,
Ad qoşmağa salan da var.

Əlyev, sözün düşsün dilə,
Ümid bağla dosta, elə.
Köhnə borcu təzə ilə,
Verən də var, qalan da var.

## TƏZƏ İLDƏ (S.99; T.12)

Danlamayan innən belə,
Təzə ildə, təzə ildə.
İşləyərəm namus ilə,
Təzə ildə, təzə  ildə.

Qismət olsa bizə sağlıq,
Həyət- baca, bağ- bağatlıq.
Gərəksiz üzü ağlıq,
Təzə ildə, təzə ildə.

Xeyir işə tərəfdaram,
Bəd işlərə çoxdan yadam.
Yatanları oyadaram,
Təzə ildə, təzə ildə.

Mərd sözümü bulduraram,
Namərd üzün yandıraram.
Öhdəliyi dolduraram,
Təzə ildə, təzə ildə.

Əlyev, ürək olmaz aram,
Tənbəlliklə yoxdu aram.
Etimadı doğruldaram,
Təzə ildə, təzə ildə.

## BARI (S.99; T.12)

Zəhmət də olmasın, ay Əli qardaş,
Bir qədəm bizlərə basaydın, barı.
Xəstə heyvanım var, naləli dilim,
Naləmə bir qulaq asaydın, barı.

Könlümü tikmədin, nə də

yıxmadın,
Bir xahiş eylədim, onu tutmadım.
Camış xəstələndi, gəlib baxmadın,
Qoçun xəstəliynə baxaydın, barı.

Kəlçəm xəstələndi, baxdım sağaldı,
Camışa baxmadın, bey mətləb oldu.
Səfərə tapşırdın, get-gələ saldın,
Buna da bir əncam çəkəydin, barı.

## BİLMƏDİM (S.99; T.12)

Əziz qardaş, sənin xeyir işinə,
İş düşdü başıma, gələ bilmədim.
Gec də olsa baş çəkməyi borc bildim,
Vaxtında mən yola çıxa bilmədim.

Toy etdin qardaşa, mübarək olsun,
Qohumun- əqraban min budaq olsun.
El içində kömək, arxan bol olsun,
Bundan başqa arzu dilə, bilmədim.

Arzusunda qaldım, o şən məclisin,
Neçə min mahaldan gələydi səsin.
Çalıb- çağıranım, həm müğənnisin,
Qismətdən kəsilən belə, bilmədim.

Toya çağrılmağım yəqin bildilər,
Namərdlər işini necə gördülər.
El içində məni rüsvay etdilər,
Başı aşağı oldum, gülə bilmədim.

İstədim ki, gələm bir neçə gündən,
Arı tək sancdılar gündüz qəflətdən.
Bir cöngəm səhərdən çıxdı həyətdən,
Soruşdum görəni, bilə bilmədim.
Əlyev, dərdini desin bayan, bel-bayan,
Söz ilə hərlənib dünyanı dolan.

Dostluğun naminə min qələm çalan,
Sizə də gəlməyib, qala bilmədim.

## QARDAŞ (S.99; T.12)

Eşqə düşən evlilərin,
Yoxdu dərdə çara, qardaş,
İlk sevgidən ayrılanlar,
Həsrət qalar yara, qardaş.

Sevgisini çox yanıyan,
Doğru yolu az tanıyan,
Gözəlləri sonalıyan,
Qismət olar kora, qardaş.

Eniş-yoxuş, yol çıxanlar,
Naməhrəmdən gül qoxanlar,
Taleyinə xor baxanlar,
Olar bəxti qara, qardaş.

Yadla qostluq qatanlara,
Eşqə yalan satanlara,
Evladını atanlara,
Gedərlərmi ərə, qardaş?

Od qalarsan, alovlanar,
Evlad qəlbi paralanar.
Quru deməm, yaşı yanar,
Gər düşərsə para, qardaş.

Əlyev, sənlə girməz bəhsdə,
Tuş sözü de gözüm üsdə.
Aqil olan kimi kəs də,
Şükür eylər vara, qardaş.

## USTAD QARDAŞA (S.99; T.12)

Ey qeydinə qalan, qardaş,
Öz qeydinə qalmırsanmı?

İncitdiyin dost-aşnanın,
Gəlib könül almırsanmı?

Unutmaynan, a dost bizi,
Gözləyirəm qışı- yazı.
Xatırlayıb deyən sözü,
Bir xəyala dalmırsanmı?

Qışı- yazı sel yağışdı,
Sən ol sözüm, gəl, bağışla,
Ziyafətdə, kef məclisdə,
Bizi yada salmırsanmı?

Söylənirsən bu mahalda,
Şabmu-səhər həm naharda.
Şənliklrdə, toy, mağarda,
Dost adını anmırsanmı?

Ustad ölsə, adı qalar,
Yaxın yolu uzaq salar.
Sözün acı tamı olar,
Bunlardan heç dadmırsanmı?

Sənətkar tək vardı adın,
Xeyir-şəri gec anladın.
Ustadını korladın,
Heç o ada yanmırsanmı?

## GÖRÜM (S.99; T.12)

Dəvətlə məclisə gələn qardaşlar,
Basan qədəmlərin var olsun, görüm.
Oğul evləndirən, qızı köçürən,
Sədamız hər yana car olsun, görüm.

Gəlinin görüşü uğurlu olsun,
Qaynana yanında qürurlu olsun.
Nəvə-nəticəli, uğurlu olsun,
Bağında həmişə bar olsun, görüm.

Üzünə örpəyi, başa tac alıb,
Əliyevin qəlbində göyə ucalıb,
Birgə qarıyıbsan, bircə qocalıb,
Əlinə vəfalı yar olsun, görüm.

## ŞEYDİ (S.99; T.12)

Sizdən xəbər alım, aqil kimsələr,
Lütün cibdə pulu kalanmı şeydi?
Bir adam ki, müftə var-dövlət tapa,
Dövlətin qeydinə qalanmı şeydi?

Çox şirin olarmı yarın vüsalı?
Qəlbi təmiz gərək həyat timsalı.
Atalar çəkiblər burda misalı,
Dağılan kilsədə dalanmı şeydi?

Şeytan qəlbə girər qəlbi qandırar,
Alışan ürəyi, eşqi söndürər.
İnsan öz əliylə insan öldürər,
İnsana etibar olanmı şeydi?

Əlyev, demə dərdin çarası olmaz,
Söz deyər güllə tək yarası olmaz.
İlanın nə ağı, nə qarası olmaz,
Atalar misalı yalanmı şeydi?.

## OĞLUM (S.99; T.12)

Göz açıb dünyaya gələndən bəri,
Düşmüsən yaxşıca bolluğa, oğlum,
Ayaq alıb xeyrin biləndən bəri,
Can atdın həmişə qulluğa, oğlum.
Ərköyün bəslənib əzizlənərdin,
Yıxılan ananın bağrın əzərdin.
Dədənin cibində qəpik görərdin,
Əyilmədin indi onluğa, oğlum.

Evə ki, gələndə olardım dolu,
Tutmadın sözümü, aradın çölü.
İtirdin cığırı, tapmadın yolu,
İndi də düşmüsən kolluğa, oğlum.

Qulluğa həvəsin çağladı səni,
Tutduğun əməlin dağladı səni.
Gözünü daş-başın bağladı səni,
Hansı ki, yetmirdi günluğa, oğlum.

Əlyevəm, xoşlamam quruca adı,
Çəkildi acıdan, qalmadı dadı.
Qazancın qudurub, mayanı yedi,
Alacaq qalmadı illığa, oğlum.

## MƏNƏM MƏN (S.99; T.12)

Oğrunca şairlik edən kimsənə,
Oğrun şairlərə yaman, mənəm-mən.
Ayazlı gecədə, günəşli gündə,
Düşdüyün o miskin duman, mənəm-mən.

Şair döysən, sinə gərmə qabağa,
Toxunsan, düşərsən bil ki, qırağa.
Güvanım, arxa çevirmə dağa,
Arxa çevirəsi güman mənəm-mən.

Sanma ki, dəryada çəkirsən avar,
Dərya təlatümdə, nə xəbərin var?
Qarşıya çıxanda sən təki şikar,
Şikara ox atma, kaman mənəm-mən.

Əlyev şükür edər, heç olmaz olsa,
Qəbula tez keçər mömin duası.
Ayları ayırsa illər xəstəsi,
Xəstələr şəfalı, loğman mənəm- mən.

## AŞIQ VALEH (T.6)

## GƏLMİŞƏM

Ey insanlar, qulaq asın səsimə,
Görün bir mən hardan hara gəlmişəm.
Odlar diyarının dilbər guşəsi
Yerim Zaqatala, bura gəlmişəm.

Şimali Qafqazın kiçik bucağı,
Jeleznovodsk eli şəfa ocağı.
Deyirlər ki, Elburusun qucağı
Min dərdə dərmandı, çarə gəlmişəm.

Axtardım dünyanı, gəzdim hər yanı,
Dərdimə bir dərman tapmadım, hanı?

Əvəz edən varmı Azərbaycanı?!
Qanmamışam mən avara,

gəlmişəm.

Yurdumuzun səfasına nə gəlib?
Dərmanına-davasına nə gəlib?
Torpağına, havasına nə gəlib?
Bəs de, niyə ahu-zara gəlmişəm?!

Dinləyin, danışım, söyləyim bir-bir,
Çoxları yurdunun qədrini bilmir.
Bilmir Azərbaycan bir xəzinədi
Düşməmişəm elə dara, gəlmişəm.

Elimin Şuşası, Kəlbəcəri var,
Baş əyir hüsnünə qayalı dağlar.
Güneyində min bir bulaq çağlayar
Quzeyində bəyaz qara gəlmişəm.

İstisudu möcüzlər diyarı,
Buzlu bulaqları, qaynar suları.
Dəlidağdan aşıb Göyçəyə sarı
Min ətirli çəmənzara gəlmişəm.

Necoldu Ələsgər, necoldu Alı?
De: kimdən soruşaq Miskin Abdalı?
Növrəstə İmanı, mərhum Cəlalı,
Mən gəzirəm, sən də ara, gəlmişəm.

Aşıq Qulu Aşıq Alı övladı,
Qızılvəngdə neçə toylar toyladı.
Qanlı Mehdi dəryaları boyladı,
Mən də hərdən-hərdən kara gəlmişəm.

İslamın barmağı, Əsədin səsi,
Tuti dilli Aşıq Rəhim nəfəsi.
Tufarqan Abbasdan dastan gecəsi
Eşidəndə mən dübarə gəlmişəm.

Nərmanlı Bəhmanı çoxdu tanıyan,
Aləmə bəllidi o dərya, ümman.
Ağayardan söz düşəndə bir dayan,
Sanki bir hikmətə, vara gəlmişəm.

Şişqaya var? Şair Aydın var indi?
Hanı gen meydanı? Olub dar indi.
Tərlan övladını alıb sar, indi.
Qızılquş ovuna, sara gəlmişəm.

Daha Göyçə yoxdu, viran olubdu,
Qarabağ dostuna qurban olubdu.
Övladları zəlil-giryan olubdu,
Vətən deyib intizara gəlmişəm.
Göyçə yoxsa, var Qarabağ, Mil, Muğan,
Zaqatala, Şəki, Şamaxı, Şirvan.
Dəvəçi, Qalaltı dərdlərə dərman,
Ağsuda, Göyçayda nara gəlmişəm.

Oğuz, Qəbələdə çırpginan qozu,
Gəl qədim Lahıcda kəs əmlik quzu.
Cəfəri, Müşfiqi yetirib Xızı,
Quba, Xaçmaz, həm Qusara gəlmişəm.

Xəzərin qoynunda şəhər salmışam,
Dəli dalğalardan kəhər salmışam.
Qırçın ləpələrdən yəhər salmışam,
Fırtınanı yara-yara gəlmişəm.

Sabirabad, Saatlı, Neftçala, Salyan,
Göz oxşayır Cəlilabad, Lənkəran.
Gör bir harda galdı qədim Naxçıvan,
Duz dadmağa o diyara gəlmişəm.

Duz mədəni kimi dünyada məşhur,
Badamlı, Sirabı qaynayıb-coşur.
Əshəbi Kəhv dağı möcüzət-zühur,
Ziyarata o dağlara gəlmişəm.

Tükənməz elimin varı-dövləti,
Əvəzsiz görmüşəm Mili, Muğanı.
Fizuli, Cəbrayıl, o Beyləqanı,

Kürdəmirdən mən Ucara gəlmişəm.

Zəngilanda zilan kürdə qonaq qol,
Süfrəsi açıqdı, səxavəti bol.
Qubadlıya güzar etsən bircə yol,
Bilərsən ki, nə dostlara gəlmişəm.

Talış dağlarından Qafqaza boylan,
Lerikdə ova çıx, dağları dolan.
Yardımlı cənnətdi, – deyil ki, yalan,
Doğru sözü, düz ilqara gəlmişəm.
Ağdərə, Ağcakənd, Xocavənd, Çartaz,
Xankəndə seyrə çıx, gəz-dolan bir az.
Ağdamdan, Bərdədən dünyada olmaz,
Tərtər kimi bir diyara gəlmişəm.

Ağdaşda nahar et, adla Xaldana,
Mingəçevir işıq saçır hər yana.
Səfa axtarmağa mən Naftalana
Köhlənimi yora-yora gəlmişəm.

Yevlax bir şəhərdi, Mərkəzi – Aran,
İgidlər yurdudu Goranboy, Goran.
Daşkəsənə gəlsin filiz axtaran,
Cənnətmisallı Xanlara gəlmişəm.

Nizami yurduna gedək, Gəncəyə,
Qorxuram Cavad xan məndən inciyə.
Göygölün, gözləri bənzər inciyə,
Kəpəzdəki şah vüqara gəlmişəm.

Gədəbəydən boylan, bax Sarınərə,
Yadımdan çıxmayır o dağ, o dərə.
Kosa tülləyindən çəkibbi nərə,
Düşməni çəkməyə dara gəlmişəm.

Şəmkirdən keç, Tovuzdan gəl Qazağa,
İkramla desinlər «xoş gəldin, qağa!»
Vurğunun ayağı dəyən torpağa,
Üz qoymağa mən füqarə gəlmişəm.

Ədalət, çal «Göyçəgölü» sazınla!
Çək düşmən gözünə mili sazınla!
Oyat bu ölkəni, eli sazınla!
Söylə ki, «qeyrətə, ara gəlmişəm!»

Kürdən adla, bir Eldarda qonaq gəl,
Qaraça üstündə «El havası» çal.
Eşidənlər desin «əhsən» dalbadal,
Sədaqətə, bil, Eldara gəlmişəm.

Valehəm, gəzirəm diyarbədiyar,
Sinəmdə çox yerin nişanəsi var.
Eşitsin qoy nadan, ağlasın əğyar,
Vətənimlə iftixara gəlmişəm.

## ƏLƏSGƏR

Ey ulu Göyçənin nəğməkar oğlu,
Şairlər sultanı, şahı Ələsgər!
Köksündə gömüldü qara torpağa
Şeriyyətin çeşməgahı, Ələsgər!

Ziyarət etmişəm səni müddətdi,
Göyçə yada qaldı, gör nə möhnətdi!
Doğma vətənində qəbrin qürbətdi,
Yoxmu bunun bir pənahı, Ələsgər?!

Səni məğlub edən olmayıb hələ,
Sən çox meydanlara saldın vəlvələ.
Əsədlə Nəcəfi sən verdin elə,
Aşıqlar mayakı, mahı Ələsgər!

## OLSA

**(Qoşma)**

İntizar gözlərim cavab gözləyir,
Əgər ki, dostumda etibar olsa.

Unutmaz dostunu mərd olan insan,
İstər çovğun olsa, boran-qar olsa.

Dost qədri bilənin qəlbi sağ olar,
Alnı açıq, gülər üzü ağ olar.
Saf insana bircə kəlmə dağ olar,
Bir igidin əsil- zatı var olsa.

Bir misaldı, deyib gedib babalar,
Bir atın əvəzi bir alma olar.
Gedər hər var-dövlət, sədaqət qalar,
Rəğbət qazan, əldə ixtiyar olsa.

Tikə dostun gələr varın olanda,
Əldə bir az ixtiyarın olanda.
Ağ olanda, ala qarın olanda,
Çox dost olar sənlə ixtiyar olsa.

Dost neynir dostunun çox, ya azını?
Gərək dar günündə çəkə nazını.
Valeh çalar daim telli sazını
Qulaq asan bir vəfalı yar olsa.

## OLACAQSAN
**(Hər bəndi eyni hərflə)**

İtirmə huşunu, ey arif insan,
İtirsən ağlını, xar olacaqsan.
İstəsən aləmdə rəğbət qazanmaq
İnsan oğluna sən yar olacaqsan.

Xalqa hörmət bəslə, rəğbəti qazan,
Xainlə dost olma, qopsa da tufan.
Xar etmə özünü çalış heç zaman,
Xalq içində onda var olacaqsan.

Sən elə dolan ki, el sevsin səni!
Səsin qoy götürsün bütöv ölkəni.
Sevsən öz xalqını, sevsən vətəni,
Sanki, el dilində car olacaqsan.

Yaxşı, təmiz adla dolansan əgər,
Yaxanı tanımaz qüssə, qəm, kədər.
Yalançı-yaltağa güvənsən hədər,
Yaxın dost-aşnaya ar olacaqsan.

Var-dövlət hərisi olma dünyada,
Vaxtını sərf eylə bir təmiz ada.
Vəfasız olmasan qohuma, yada,
Valehtək, bil, vəfadar olacaqsan.

## GÖZLƏ
**(Ustadnamə)**

Eşidin sözümü, arif olanlar,
Əvvəl başdan mərifət-kamalı gözlə!
Kələfin dolaşıb, dara düşəndə,
Bəxtini sən çağır, iqbalı gözlə!

Yaxşı dolan, yaxşı otur, yaxşı dur,
Sərraflar kəlməndən seçsin yaxşı dürr.
Hər məclisdə bir söz öyrən, söz götür,
Məclisdə qabağı, hər dalı gözlə.

Sözü eşit, yaxşı öyrən, yaxşı qan,
Üz çevirmə yaxşı dostdan,

yaxşıdan.
İtirmə hörməti, ey arif insan,
Hörməti, izzəti, cəlalı gözlə.

## GÖNDƏR

Başına döndüyüm, ay aşıq oğlan,
Təzəcə aşıq olmuşam, saz mənə göndər.
Olsa da ... söz deməkdə acizəm,
Bir neçə bənd yazıb söz mənə göndər.

Bir bağmandı, bir baxçadı, dörd də bağ,
Dörd ovçudu, dörd maraldı, dörd də dağ.
Dörd ölübdü, dörd xəstədi, dörd də sağ,-
Onun cavabını yaz, mənə göndər.

Mən Aşıx Vəliyəm, etdim hesabı,
Aşıxlar əlimdən çəkib nisabı.
Səndə olan o biliklər kitabı
Çox lazım olubdu, tez mənə göndər.*

## AŞIQ ƏLİ MUXAXLI (GƏNCƏLİYEV) (T.6)

## BU DÜNYADA

Əməyin açsın gül-çiçək,
Bu dünyada, bu dünyada!
Qoy zəhmətin olsun gerçək
Bu dünyada, bu dünyada!

Mən bir qartal, sənsə qaya,
Zirvəndən baxım dünyaya.
Vətənsiz kim yetib baya
Bu dünyada, bu dünyada?!

Əli hər an səni arar,
Heç bir yerdə tutmaz qərar.
Varmı Muxax kimi diyar
Bu dünyada, bu dünyada?!

## AY ZAQATALA

Qartal qanadlısan, aslan ürəkli
Tarixdə adın var, ay Zaqatala!
Dağların güllüdü, yamacın yaşıl,
Hər fəslin növbahar, ay Zaqatala!

Tarixlər qalası sinəndə yatır,
Sağın da, solun da cənnətə baxır.
Oğlanlar vüqarla səndə boy atır,
Qızları vəfadar, ay Zaqatala!

Əli Muxaxlıyam, deyim ürəkdən,
Süfrəm əskik olmur duzdan, çörəkdən.
Yamanı yaxşıdan, şəri gerçəkdən
Sərraf tək seç, axtar, ay Zaqatala!

## KƏMSAVAD

Eşitmişəm mənə həcvi yazmısan,
İnsanları yaxşı ara, Kəmsavad.
Sərrafsan yaxşı seç ləl mətahını,
Zər atılmaz bir kənara, Kəmsavad.
Həcvi yazıb nəyi etdin bəhanə,
Nə yazmısan, yaratmısan cahana.
Sözün varsa, danış mərdi-mərdana,
Böhtan atma sənətkara, Kəmsavad.
Adın Kəmsavaddı, əqlin də kəmdi,
Başın ya dəlidi, ya da ki, dəmdi.
Satdığın sarımsaq, ya da kələmdi,
Payızda gedirsən nara, Kəmsavad.

Görünüşdən altmış yaşa çatmısan,
Xalq üçün həyatda nə yaratmısan.
Yerində saymısan, çox da yatmısan,
Vaqiəni yozum hara, Kəmsavad.

Əgər şair isən yaxşı yaz, yarat,
Şairlik elminə sən də qədəm at.
Apar mətahını başqa yerdə sat,
Çıxarma sən bu bazara, Kəmsavad.

Ələsgər günəşli bir gündüzümdü,
Kalamları söhbətimdi, sözümdü.
İmana söymərəm iki gözümdü,
İblis kimi vurma ara, Kəmsavad.
Mahirəm sözləri yazdım nə isə,
Alverin puluyla doldurma kisə.

Rast gələcəksən sən obaxeyisə,
Onda qaçacaqsan hara, Kəmsavad.

## MƏHƏKKİSƏN

Yaqutun, yamənin, ləlin, gövhərin,
Ələsgər, sərrafı, saf məhəkkisən!
Şer zirvəsinin çiçəklərindən,
Mahir yaratmısan hər çələngi sən.

Sənətdə usanıb nə yorulmusan,
Şerdən bir böyük xana qurmusan.
Arğacına milyon ziynət vurmusan,
Neçə naxışlarda neçə rəngisən.

Dünya varılğına min dastan dedin,
Sən ana yurduna gülüstan dedin.
Xoş olsun ruzigar hər zaman dedin.
Həqiqət sözünlə zəfər zəngisən!

Qəvvaz oldun, heç üzmədin dayazda,
Oxundun nəğmədə, çalındın sazda.
Mahir şagirdindi sözdə, avazda.
Şerinin, sözünün xoş ahəngisən.

## USTAD

Sən bir acı ruzigarda boy atdın,
Göyçə mahalıdı mahalın, ustad.
Qızılvəng kəndində yazdın, yaratdın,
Gəzdi diyarları xəyalın, ustad.

Əzab çəkib qəm yükünü götürdün,
Neçə şagird məclislərə gətirdin.
Ələsgər tək mahir ustad yetirdin,
Özün aqil oldun, kamalın, ustad.

İlhamın şəlalə, sazın toyxana,
Baş əymədin nə sultana, nə xana.
Bilmədi qiymətin çərxi zamana,
Soruşmadı halın, əhvalın, ustad.

İndi görüşünə ellər gəlibdi,
Ağ saqqalı gənc nəsillər gəlibdi.
Milyon əldə, milyon güllər gəlibdi,
Nə böyükdü cahı-cəlalın, ustad.

Zəmanəmiz bildi qədir-qiymətin,
Yaydı hər bir yana şənin-şöhrətin.
Ölməz abidəyə döndü qüdrətin,
Mahirə sevincdi bu halın, ustad.

## DANIŞ

Dəli könül, qalx ayağa, eyləmə nazdan danış,
Cavanlar könlün almağa, məzəli sözdən danış.
Nə tökmüsən qaş-qabağın, qarayazda qış kimi,
Bülbül olub fəsli bahar, gülşəndən, yazdan danış.

Yardan bir ilqar gərəkdi, paka çıxa şəkkimiz,
Məclisi şirin etməyə, bəs olarıq ikimiz.
Seyrəqublar yüklədilər, dərdi-qəmdi yükümüz.
Sən dərdlisən, mən yaralı, bir dərdi azdan danış.

Hacı oğlu deyər doğru, molla həvəsdi-həvəs.
Yengiyə xuda kərimdi, bu illiyə bu da bəs.
Sirrin vermə dul arvada, zay olar sözün əbəs,
Dərdinə dərman qılmağa, dərdimənd qızdan danış.

## DANIŞ

Həqiqətən çox demişik, indi gözəldən danış,
Məcazıdan öyrənmişik, şirin qəzəldən danış.
Cibində var üç qara pul, deməki bəzirganam,
Çeşid eylə hər mətahın, dövləti maldan danış.

Bazarlarda çox satırlar, atlasınan qlası,
O səbəbdən yoxdu alsın, çoxunun pul parası.
Neçələri istəyir geysin, əyninə əlvan libası,
Gözəli gözəl eyləyən ağ üzdə xaldan danış.

Kərim oğlu, zərafısan işarəti qan indii,
Almaginən cavan qızı, öyrətməyə çətindi.
Həm yorğandı, həm döşəkdi, gir qoynuna yat indi,
Enli sağrı, yumşaq gərdən, vəfalı duldan danış.

## AŞIX ŞƏMSƏDDİN CƏLAL (Ə.13; S.137-139)

### SAMOVAR
### (Gəraylı)

Qışın bir soyuq günü,
Rast gəldin bizə, samovar.
Soyuq kəsib, şaxta vurub,
Dönmüşük buza, samovar.

Ürəyimiz yandı yenə,
Məlul-məlul baxdıq sənə.
Ha gözlədik dönə-dönə,
Qaynaya, qıza, samovar.

Qulluğunda qızla gəlin,
Danışsın o tuti dilin.
Köz demirəm, təkcə külün,
Çıxıbdı dizə, samovar.

Altında bir təndir tikin,
Köz gətirin, kömür tökün.
Qabağına pərdə çəkin,
Gəlməsin gözə, samovar.

Yemişik çox duzlu xörək,
Od tutuban yanır ürək.
Deyirəm bir oğul gərək,
Başını əzə, samovar.

Ötübdü yarıdan gecə,
Səni biz qaynadaq necə?
Sənin kimi bir bivecə,
Ürəkmi dözər, samovar.
Bülbül ötməz dilin kimi,
Təndir olmaz belin kimi,
Özünü lap gəlin kimi,
Qoyubsan naza, samovar.

Çayı tökə bir növrəstə,
Belə baxan düşsün xəstə.
Aşıq Cəlal kağız üstə,
Vəsfini yaza, samovar.

### ELƏ MƏN
### (Təcnis)

Ulduz kimi yanan qara gözdərin,
Müştərisi yoxsa, gözəl elə mən.
Baxış iti, məna böyük, göz dərin.
Bu dərdimi necə deyim elə mən?!

Ay yad xanım, ay yad gözəl, yad ağa,
İnsafdımı sənə olsun yad ağa.
Ya meşəyə, ya ormana, ya dağa,
Ya düşərəm qərib eldən-elə mən.

Vəsf edərəm əlin, dilin, ya sinin,
Ya səninki olum gözəl, ya sinin.
And içərəm ayəsinə Yasinin,

Nə zülm etsən, deyəsiyəm elə mən.

Cəlal oldum, ya kimi var, ya nəyim,
Ya kasıbam, ya yoxsulam, ya nəyim,
Mümkündümü könlüm səndən yan əyim
Bu sevdada arxalandım elə mən!

## DÖNMÜŞƏM
## (Qoşma)

Yenicə sussa da topların səsi,
Mənlik bahar növrağına dönmüşəm.
Doğma yerlər yada düşdü, kövrəldim,
Əsən xəzan yarpağına dönmüşəm.

Alın sizə göndərdiyim salamı,
Qucaqlayın iki əziz balamı,
Bir də gəlib görmək üçün Talamı,
Bu məktubun varağına dönmüşəm.

Toz qonubmu telli sazın bəndinə?!
Qış gəlibmi tər şamama həndinə?!
Qayıtmasam əgər Tala kəndinə,
Bilin vətən torpağına dönmüşəm.

Şəmsəddinəm, arzularım yüz olub,
Tüfəng sanki əlimdə bir saz olub,
Düşmən enib, qabağımda düz olub,
Mən ucalıb Qaf dağına dönmüşəm.

# AŞIQ DİBROV KAMAL (Ə.13; S.139-142)

## QOŞMALAR

## DEYƏRLƏR

Bu dünyada kamallıdı var olan,
Ağlı az olsa da başda deyillər.
İxtiyarı xəlayiqə car olan,
Adam cərgəsinə keçdi, deyərlər.

Bayquş olub viranəlik eyləsə,
Məncun olub divanəlik eyləsə,
Hər nə qədər vecsiz kəlam söyləsə,
Ağzından cəvahir saçdı, deyərlər.

Arıyıban xiridarın tapginan,
Qeyrət çəkib namus-arın tapginan.
Aşıq Kamal barabarın tapginan,
İndən sonra sənə yaşdı, deyərlər.

## NƏ GÖZƏL İMİŞ

Sərt uçuş turaca, qaçış ceyrana,
Xoş duruş marala, nə gözəl imiş.
Mərd baxış Aslana, sürmək tərlana,
Ah-nalə bülbülə, nə gözəl imiş.

Analara bala, çəmənə lala,
Saqiyə piyala, çəmənə tala.
Şirin kəlmə dilə, sonalar gölə,
Kəmər incə belə, nə gözəl imiş.

Eşqin salıb ürəyimə bir alov,
Başımı yolunda qoymuşam girov,
Sənə qurban olsun Aşıq Dibrov,
Nazlı da Kamala, nə gözəl imiş.

## GÖZƏLİN

Baxın tovuz cığasına,
Oxşayır teli gözəlin.
Qoşa-qoşa düzülübdü,
Üzündə xalı gözəlin.
Ləbi nabat, nə qiyamat,
Şirindi dili gözəlin,
Nə əcəb şümşada bənzər,
Qulacdı teli gözəlin.
Ayağı-əli gözəlin.

Bir belə gözəl yerişdə,
Nə məleykə, nə huri yox.
Sığallanıb durub ərşdə.
Çıxıban gələ bilməz
Behiştdən belə fəriştə,
Dillərdə tərifə gəlməz,
Söyləsən misli gözəlin.

Gözəlin adları var,
Başa salan şalları var,
Gül otaqlı zalları var.
Çox dərin xəyalları var,
Başında kamalları var.
Süsəni, sünbülləri var.
Fəsli-bahar qönçə bağda.
Açılar gülü gözəlin.

Şirindi gözəl avazı,
Əlində var tavar sazı.
Məzəli oxur sözü.
Baxanda o qumru gözü.
Yandırıb, yaxır bizi,
Mən onu istərəm düzü,
Əcəb məni sevir özü.
Kamal deyir təhərindən
Var mənə meyli gözəlin.

## TƏNBUR MAHNISI

Bir Adam məclisdə sağır otursa,
Dinib-danışmayıb fağır otursa,
Yerində ağıllı, ağır otursa,
Kamal durub onu qovası olmaz.

## YAR DOLANDIRIR

Bəxtəvərə baxın, necə dostu var,
Xidmətinə aşna yar dolandırır.
Al qumaşa bəzənməyə qəsdi var,
Geyindirib əyninə zər dolandırır,

Sevdiyi xubların bir şux danəsi,
Deyəsən, huridi, zatı, binəsi.
Mərmərə oxşayır o ağ sinəsi,
Bəsləyib qoynunda nar dolandırır.

Aşıq Kamal deyir: bu xoş gözəllər,
Qıyqac baxıb qaş-gözünü süzəllər.
Dil üstünə qəndi-nabat düzəllər,
Ağrının içində nur dolandırır.

## OLMAZ

Hər hansı məclisdə müxənnəs dinsə,
O yerdə aşığın havası olmaz.
Ürək bir şüşədi toxunub sınsa,
Loğman həkim gəlsə davası olmaz.
Məclislərdə danışanda səs olar,
Söz qanana kiri desən, bəs olar.
Biri yaxşı olar, biri pis olar,
Hamı sözü adam sevəsi olmaz.
Bir adam məclisdə sağır otursa,
Dinib-danşmayıb fağır otursa,

Yerində ağıllı, ağır otursa,
Kamal durub onu qovası olmaz.

## MƏZAHİR DAŞQIN (T.6)

## NƏ MƏNASI VAR

Könül dost yadına salmayir bizi,
Gizlədib danmağın nə mənası var.
Xəyal aləmində iradəsini,
Düşünüb anmağın nə mənası var.

Əl atıb hicranın kəməncəsinə,
Qoşmusan səsini Məcnun səsinə.
Düşman sarayının şam-şöləsinə,
Dolanıb yanmağın nə mənası var.

Sevdiyim zövq alır zər qucağında,
Duyğusuz çiçəkdi nər qucağında.
Bir durna ki, yata sar qucağında,
Eşqilə yanmağın nə mənası var.

Sədaqət nədisə bilməyən dostu,
Yar olub dərdini bölməyən dostu.
Dar gündə dalınca gəlməyən dostu,
Vəfalı sanmağın nə mənası var.

Daşqın, sən bu qədər təcrübələrlə,
Kamalsız körpə tək nadansan hələ.
Dilin kölgəsində gizlənir hiylə
Bunu qanmamağın nə mənası var.

## ONUN

Bir əjdaha gördüm təəccüb qaldım,
Ən şirin neməti zəhərdi onun.
Bircə bulağı var, iki cür suyu,
Biri ağı, biri qəhərdi onun.

Çoxuna xoş gəlmir onun nəfəsi,
Dağlasan başını heç çıxmaz səsi.
Sinədə baş verir onun meyvəsi,
Kim yesə axşamı səhərdi onun.

Qəribə gözəldi çoxdu müştəri,
Kim öpsə ləbindən yoxdu dişləri.
Tapmayan bu müəmmalı işləri.
Əhvalı bir özgə təhərdi onun.

O, dostdu bəyin, xanın, gədanın,
Alimin, ərbabın, səfil nadanın.
Kənar gəzmir caməsindən insanın,
Nə qəm-qüssə var, nə dərdi onun.

Əcəb sehrkardı sevdirir özün,
Yandırıb ağzını deşməsin gözün.
Arifə əyandı Ələsgər sözün,
Kim sevsə ömürü hədərdi onun.

## EL ŞAİRİ RƏCƏB DİDƏRGİN (T.6)

### GƏRAYLI

Bir şirin ağzım olmasa,
Nazı-neməti istəməm.
İnamım zəfər çalmasa,
Belə fürsəti istəməm.

Yağı meydansa, öndə,
Qılıncım çalırsa qında.
Qeyrət də olmasa məndə
Həya, isməti istəməm.

Vətəni zəbt olunanlar,
Yardım yox, silah axtarar.
Ölər, ya intiqam alar,
Qürbət cənnəti istəməm.

Bir sərkərdəyə möhtacam,
O hayqıra, mən öc alam.
Zəfərlərimlə ucalam,
Qeyri söhbəti istəməm.

Didərginəm, adıma bax!
Necə yaşayım bu sayaq.
Xudadan istərəm mayaq,
Saxta şöhrəti istəməm.

Düşmənim meydan sulasa,
Ərənlər sini yalasa,
Hakim seçilsə yarasa,
Belə döyləti istəməm.

## ABDULLA PADARLININ NƏSİHƏTLƏRİ (S.134; T.30)

Abdulla Padarlının 120 nəsihəti vardır. Onların bəziləri bunlardır:

1) Ata – ananın üzünə ağ olan Allaha asi olar. Atanın hörmətini saxlayarsan, Allaha da xoş gedər və həmişə işin avand, adın el içində uca olar.

2) Bir kəs ki, el – obasını bəyənməyə, onun özünü də bəyənməzlər.

3) Elm, ürfan hər adama lazımdır, istər zükr olsun, istər ünas.

4) Nə qədər var – dövlətin olsa da yenə bir sənət öyrən, çünki var – dövlət gedər, amma sənət sənə gərək olar.

**5)** Heç vəqt və heç yerdə uca səslə danışma və hərgiz çığır – bağır etmə ki, adına nadan deyərlər.

**6)** Əyri adam nə qədər ad – san, var – dövlət sahibi olsa da, ondan aralı dur, çünki əvvəl – axır səni də əyri yola çəkər.

**7)** Bir iş eləmək üçün yalan danışma. Yalançının dostu, qohumu, dini, imanı olmaz. Nə qədər böyük var – dövlət sahibi olsa hörməti olmaz.

**8)** Yad ölkələr behişt olsa da, öz el – obanın qədrini bil. El – obandan ayrılma, çünki səni el – oba yetirib. Sən bu elin, bu millətin övladısan.

**9)** Ərəbi də, farsı da bil. Bu dillərdə nəzm də yaz, nəsr də yaz. Amma unutma ki, sənin öz dilin də var. Sənin ananın dili övladının dilidir.

10) Öz adını gənc ikən qoru ki, ona ləkə düşməsin. Ada vurulan ləkəni heç vəchlə təmizləmək olmur. Qocalıqda mömin olsan da cavanlıqdakı ləkə üstündən getmir.

11) Hər nə qədər elm kəsb etmiş olsan, yenə az hesab et. Çünki elm dəryadır və hər dəryanı heç bir adam həzm edə bilməz.

12) Qumarbazlıq mundar peşədir. Həm mal – dövlətini, həm ad – sanını əlindən alır. Qumarbazın namusu, qeyrəti olmaz. Çünki uduzanda onu da ortaya qoyur.

13) İçkiyə aludə olma. Sərxoşun başında ağlı, cibində pulu, öydə hörməti, çöldə dost, aşnası olmaz.

14) Məbada, özünü eldən ayırma, elin dərdli günündə ağla, şad günündə gül. Əks halda, elin nəzərindən düşərsən.

15) Qocaya, mərəzə və ayıbı olana tez-tez baş çəkmək, işinə yaramaq nəciblik əlamətidir. Həm hörmətini artırar, həm də savab qazanarsan.

16) Bir kimsənin malına göz dikmə, çünki özgə malı ilə tikilən xanə əvvəl-axır xaraba qalar. Gözü, könlü tox ol. Özünün azına qane ol. Özgədə gözün qalmasın. Axırda paxıl olarsan. Paxılın da yeri cəhənnəmdir.

17) Artıq tamah olma. Aza qane ol. Qənaətlə dolan. Tamah insanı doğru yoldan azdırır, şeytan əməlinə uydurur.

18) Çox yatmağa adət etmə. Səy qıl ki, bir iş görüb ruzi qazanasan. Xabi-qəflətdə olanın günü əziyyətlə keçər.

19) Musiqini, məqamatı və nəzmi sev ki, bunları sevməyən insan deyil. Elə insan quru kötüyə, sal daşa bənzəyir.

20) Könül heyvanatına, quşuna rəhm et, məhəbbət yetir. Qırıq tələb etmə, çünki Allah bunları sənə qida yox, yer üzünə zinət yaradıb.

21) Günahını boynuna almaq nəcabəti kimsənin işidir. Səhv etmisənsə, etiraf et. Ondan ziyan çəkməzsən. Özün də yaxşılar mövqeyində olarsan.

## ABDULLA PADARLININ EL ARASINDA YAŞAYAN ŞERLƏRİNDƏN (S.134; T.30)

Namaz qılan bəndədi,
Qılmayan şər bəndədi.
Gah qılıb, gah qılmayan
Narı cəhənnəmdədi.

Abdullahın yarı göyçək,
Ağ üzündə qara birçək.
Qəbrim üsdündə bir çiçək

Bitincə gözlər əm səni.

## ABDULLA PADARLI (Ə.1; s.17-43)

### BƏYƏNMƏZ

Ay ağalar, bir zəmanə gəlibdi,
Həmtay olan heç həmtayı bəyənməz.
Qara qızlar sürmə çəkib gözünə
Gözəllikdə Züleyxayı bəyənməz.

Müqəddəm bəylərə verirdi qəlyan,
Xəlayiqi quduz kimi dalayan,
Ayaq üstə sini dibi yalayan,
Qohum-qardaş, əmi-dayı bəyənməz.

Namərdlərin dolu olur torbası,
Deyir: Mənəm tacirlərin zorbası,
Ya bunların artıq düşüb arpası,
Düldül kimi badpayı bəyənməz.

Kor bəyənməz mütləq gözü görəni,
Kar da qulaqları darı dərəni,
Hampalar incidir çörək verəni,
İt qudurub, qaysavayı bəyənməz.

Yəqin gündüz gəzə bilməz yarasan,
Gecələr də deyər: Mənimdi dövran.
Cib-cib elər alacəhrə, bitdiyan.
Oxumaqda turağayı bəyənməz.

Simurğ qan içində olubdu pünhan,
Ala qarğa, yumurtanı daşıyan,
Bozbulanıq, dəhrəquyruq sağsağan,
Zəhmətçəkən qarıcqayı bəyənməz.

Əcəl gəlib qapımızı hay aldı,
Yaxın dostlar bizi nəzərdən saldı,
Bundan sonra dünya axmağa qaldı,
Abdullah da bu dünyayı bəyənməz.

### DEYİŞMƏ

**Abdulla:**
Çıxıbdı əlimiz ata-anadan
Mənim də dərdimə, ay yanan qardaş,
Bu dərd sənin deyil, mənim dərdimdi,
Bu dərdimə həmdəm, ay olan qardaş.

**Şah Səməd:**
Səbr elə, qardaşım, qəza işidi,
Demə bu sözləri, əl-aman qardaş!

O can sənin deyil, mənim canımdı,
İki təndə varıq bircə can, qardaş!

**Abdulla:**
Gecə-gündüz duam budu xudadan,
Yetirsin mətləbə bizi yaradan,
Heç kəsin olmasın əzəl binadan,
Oxu dəyib daşa bir yanan, qardaş!

**Şah Səməd:**
Gecə-gündüz dilə həqdən hacatı,
Mövlam bizə versin bundan nicatı,
Tanrı başadək eyləsin həyatı,
Yetirək mətləbə havadan, qardaş!

**Abdulla:**
Gəlibəni düşdük qərib ellərə,
Çox yaşlar axıtdıq biz bu çöllərə,
Qəlbi sınıq baxdıq daim yollara,
Zülmün ocağında qıvrılan qardaş!

**Şah Səməd:**
Gəl ağlama, Abdulla, bir də hərgiz,
Allahın əmrinə olginən dümdüz,
Axır ki, mətləbə yetəcəyik biz,
Sən də fikir çəkmə heç yandan, qardaş!

**Abdulla:**
Çevirib üzünü sən ol dərgaha,
Gəl düşmə o qədər fəryada, aha,
Sidqini bağla bir qadir Allaha,
Yan tutma sidqini xudadan, qardaş!

**Şah Səməd:**
Düşüb eşqə könlüm, gülmədi üzüm,
Aləmə car oldu mənim bu sözüm,
Ceyhunu doldurdu yaş ilə gözüm,
Aşıb-daşıb keçdi dəryadan, qardaş!

**Abdulla:**
Aşiq olan tökər gözdən yaşını,

Yar yolunda qoyar canü başını
Fikr edər özünə həqqin işini,
Kim qaçar, qurtular qəzadan, qardaş?

## QIFILBƏND

**Şeyx Səməd:**
Səndən xəbər alım, Abdulla qardaş,
Hansı yerin bulaqları yeddidi?
Hansı şair, hansı yeri vəsf edib?
Kəlməsi min, varaqları yeddidi?

**Abdulla:**
Al cavabın deyim, Şıx Səməd qardaş,
O üzdür ki, bulaqları yeddidi.
Əbu Nəvvas Məkkə şəhrin vəsf edib,
Kəlməsi min, varaqları yeddidi.

**Şıx Səməd:**
Nə heyvandı əsil-nəsil yetirməz,
Nə ağacdı bəhər-meyvə gətirməz?
Hansı adam yaxşılığı itirməz?
Hansı yerin ocaqları yeddidi?

**Abdulla:**
O qatırdı, əsil-nəsil yetirməz.
O söyüddü, bəhər-meyvə gətirməz.
Əsil adam yaxşılığı itirməz,
O Kəşmirdi, ocaqları yeddidi.

**Şıx Səməd:**
O nədi ki, payız  olur, yaz olur?
O nədi ki, orda işvə-naz olur?
O nədi ki, min də olsa az olur?
O kimdi ki, otaqları yeddidi?

**Abdulla:**
Göbələkdi, payız olur, yaz olur,

Eşq bağında işvə olur, naz olur,
O ömürdü, min il olsa az olur
O İmrandı, otaqları yeddidi.

**Şıx Səməd:**
O nədi ki, doymaq olmaz buyunnan?
O nədi ki, çatı olmaz muyunnan?
Nə bulaqdı, içmək olmaz suyunnan?
Nə millətdi, daraqları yeddidi?

**Abdulla:**
O övladdı, doymaq olmaz buyunnan,
O ceyrandı, çatı olmaz muyunnan,
O gözdü ki, içmək olmaz suyunnan
Taciklərdi, daraqları yeddidi.

## GETDİ MƏNİM
## (Gəraylı)

Ay ağalar, ay qazılar,
Yar əlimdən getdi mənim.
Yar üzünə tamarzılar,
Yar əlimdən getdi mənim.

Özünün var idi meyli,
Məcnun idim, o da Leyli,
Gözündən tökübən seyli,
Yar əlimdən getdi mənim.

Heç kimdə olmaz belə dərd,
Həmişə mən deyərəm fərd.
Atası çıxdı çox namərd,
Yar əlimdən getdi mənim.

Aldandılar mala, pula,
Leylimi verdilər dula.
Bu gecə saldılar yola,
Yar əlimdən getdi mənim.

Abdullahın yoxdu varı,
Əldən gedib nazlı yarı,
Kömək edin, sizi Tarı,
Yar əlimdən getdi mənim.

## BAYATILAR

Köynəyim dardı mənim,
İşim ah-zardı mənim,
Abdullah yalan deməz,
Kəbəm Padardı mənim.

Kür üstündə kənd olu,
Dörd tərəfi bənd olu,
Yarın acı sözləri
Abdullaha qənd olu.

Qaranquş yuva bağlar,

Yurd salar, yuva bağlar,
Abdullah ah çəkməkdən
Axırda hava bağlar.

Abdullah, apar indi,
Düşmənlər tapar indi,
Sən öldün, mən də öldüm,
Qiyamət qopar indi.

Abdullah, məzə dərdə,
Can gərək dözə dərdə.
Həkim ona deyərəm,
Dərman görkəzə dərdə.

Bu dağları qarısın,
El-obaya yarısın,
Abdullah, yaxşı dostu
Nə ölsün, nə qarısın.

## TƏCNİS
### (Təcnisi-münşəibə)

Nə ziyadə xəzəratdı ha bu dağ,
Səru cismim ayırıbdı ha bu dağ.
Məni görüb nə qaçırsan ha budağ,
Sinəsi, gərdəni ruyi ha bud ağ.
Dahı məndən fariğ olmaz ha bu dağ
Müşabehi-zülm olundu habelə,
Varmı bunun bir cəhətinə çarə,
Bu məqamla nə tikəllər, a canan,
Dad eylərəm mən də vay aman, haray.

Bundan əqdəm həzrətinə hayandım,
İmdi düşüb atəşinə ha yandım,
Qəbul eylə məlahətim, ha yandım,
Təşnə idim, onda büryan ha yandım,
O zamanda səni, dilbər, hay andım,
Çevrəsindən əlim oldu ha belə.
On səkkiz min aləmlərə nə çarə,
Varmı görən otuz ildən, a canan,
Dad eylərəm mən də, vay, aman, haray.

A nazənin, saz sinəmin neyi var,
Tiri-xari-müğilanda neyi var?
Bu fənada kimin oldu neyi var?
Müxalifin dəxi bizdə nəyi var?
Səg rəqibin o məkanda nəyi var?
Kim diriltdi bu bəlanı ha belə,
Nə yamandı can evlənə nəcarə,
Cövr elədi sənə bunda, a canan,
Dad eylərəm mən də vay, aman, haray.

Bivəfanı bivəfaya cəminə
Biiqrarın özü nədi, cəmi nə?
Mey verilməz hər nakəsin cəminə,
Hərçənd ki, yetişməzlər cəminə.
Lənət olsun zəvalimin cəminə,
Cəvabir der: «Sal məhdinə ha belə»,
Yar qatlana belin dəyə nə çarə,
Mübaliğə dil sənindi, a canan,
Dad eylərəm mən də, vay aman, haray.

Çərxi-fələk üstümüzə qəm ələr,
Yar yolunda ha tökülmüş qəmələr,
Könül quşu qəfəsində qəm elər,
Məsləhətə munis ola qəmələr,
Ey filani, nədi bu qəmqəmələr?
Abdullanın işi oldu ha belə,
Ey müdəbbir, bu səyaqə nə çarə?
Aman öldüm, insafa gəl, a canan,
Dad eylərəm mən də, vay, aman, haray.

## CIĞALI MÜXƏMMƏS

Ey şux, mənim yari-vəfadarımsan sən,
Dil gülşəni, həm qönçeyi-gülzarımsan sən,
Bu işvədə çün yari-dilazarımsan sən,
Bir zalimi-birəhm, cəfakarımsan sən.
Ey afəti-dövran,
Ey Xosrovi-xuban,
Canım sənə qurban,
Ey dərdimə dərman!
Bişübhə, mənim eşqdə dildarımsan sən,

Hər baxışı bir ahu, mənim canım alıbdı,
Şəfqət nəzəri könlümü sövdayə salıbdı,
Heyva kimi hicr içrə bu rəngim saralıbdı,
Qəm çəkə-çəkə daxi gözüm yolda qalıbdı.
Ey talei-bərbad,
Mən əmrinə münqad,
Fəryad ki, fəryad,
Eylə məni azad!
Ey qaşı hilal, yari-kamandarımsan sən.

Bəsdi bu qədər cövrü-cəfalar, sənə qurban,
Seyr eylə, sürüb zövqü-səfalar, sənə qurban,
Mən görməmişəm səndə vəfalar, sənə qurban,
Gəl dərdimə qıl bircə şəfalar, sənə qurban.
Güldür məni hərdəm,
Et dərdimə mərhəm,
Ey sirrimə məhrəm,
Sultani-mükərrəm,
Nazik bədəni yengi yetən narımsan sən!

Canım üzülüb ha belə dövranın əlində,
Ey çərxi-fələk, qalmışam hicranın əlində,
Ömrüm tükənib bir belə cananın əlində,
Bir zalımi-bidadü can alanın əlində,
Ey yasəmənü gül,
Gəl, eylə təhəmmül,
Manəndeyi-bülbül,
Zülfün ucu sünbül,
Gözüm açıban görməyə didarımsan sən.

Zülfün görübən  nərgisü sünbül xəcil oldu,
Lalərüxünə baxdı o dəm gül, xəcil oldu,
Bu narın olan sövtünə bülbül xəcil oldu,
Şad olmuyuban hicrinə bu dil xəcil oldu,
Ey mahirü kamil,
Eyhamə müqabil,
Qılma məni zail,
Ol sən buna qail
Abdullaham, ol valehi-qəmxarımsan sən.

## MÜCRİM KƏRİM VARDANİ (Ə.14; S.27-29)

### QOŞMA
### (təcnis)

Səhər dost zülfünə şanə çəkəndə,
Yayılır aləmə a bular, bular
Hər kəs ki, sidq ilə murad eləyə,
Əlbəttə, mətləbin a bular, bular.

Bayqu üçün məskən oldu o diyar,
Qəmzən ilə bağrım başın oldu yar,
Evdən çıxdı, yalın qılınc, odu yar,
Bilirəm qanıma a bular, bular.

Sərrafın dəstində nə danə dedim?
Xalın can quşuna nə danə edim?
Sirrimi dərdbilməz  nadanə dedim,
Anlamaz, başını a bular, bular.

Aşiqi kəlbin tək kim dərdə saldı?
Könlümün şəbnəmin kim dərdə saldı?
Mücirimi-Kərimi kim dərdə saldı?
Ah çəkib göstərir a bular, bular.

### BAĞLAMA

Ey ağalar, sizə bir ərz eyləyim,
Munda bir dərya var-ayağı yeddi,
Altmış min şamı yanar içində,
Şöləsi bir çıxar, çırağı yeddi.

Altmış min dərvaza, altmış min bazar,
Altı min içində həm əsası var,
Altmış min məscidi, tamam laləzar,
Alişan taxtı var, otağı yeddi?

Necə güldü dərmək olmaz muyundan?
Leyli necə doysun Məcnun buyundan?
Nə çeşmədi doymaq olmaz suyundan?
Daşında başı var, qaynağı yeddi?

Bir bağbanın üç yüz altmış bağı var,
Üç yüz altmış bağın üç budağı var.
Kərimin dünyadan getmiş çağı var,
Səkkiz ev istəyib otağı yeddi.

## MÜƏLLİFLİ BAYATILAR

Əzizinəm dilən gəz,
Süsən, sünbül, dilən gəz,

Kərim, Rumda şah olma,
Vardanlıda dilən gəz.

Hər şeyə öz dərmanı,
Kababa köz dərmanı.
Kərim, vətən torpağı,
Götürrəm göz dərmanı.

Mim dodağın bal indi,
Kərim qəddi dal indi.
Təbibim, qafı dala,
Dalı reyə çal indi.

## MÜXTƏLİF MƏZMUNDA DEYİŞMƏLƏR

## «CAMAL- ŞAHBAZ» DASTANINDAN DEYİŞMƏ (S.30; T.12)

**CAMAL:** -Başına döndüyüm bəzirganbaşı,
Bu yolilən Şahi- Şahbaz ötdümü?
Doğru söylə, övliyanın eşqinə,
Bu yolilən Şahi-Şahbaz ötdümü?

**BƏZİRGANBAŞI**
**İBRAHİM:**-Al cavabımı, ey məlikşahım,
Ağlaya-ağlaya dad çəkə getdi.
Bilmirəm Şahbazmı, nuri- mələkmi,
Ağlaya-ağlaya dad çəkə getdi.

**CAMAL:** -Qırxlar məclisində içmişəm badə,
Yenə dərdim oldu hərdən ziyadə,
Özü cənət huri , bir mələkzadə,
Bu yolilən Şahi-Şahbaz ötdümü?

**BƏZİRGANBAŞI:** - Xeyli heyran oldum, qıldım tamaşa,
Gözləri ulduza, hilali-qaşa,
Didarı bənzəyir mahi-günəşə,
Ağlaya-ağlaya dad çəkə getdi.

**CAMAL:** -Aşıq Camal içdi kövsəri –şərab,
Yer üzündə çəkmiş min cürə əzab,
Sevərsən o islami Quran kitabı,
Bu yolilən Şahi-Şahbaz ötdümü?

**BƏZİRGANBAŞI:**-İbrahim də yanar Sənin oduna,
Qurban olum haqqın min bir adına.

O tanrı yetişsin Sənin dadına,
Ağlaya-ağlaya dad çəkə getdi.

## BOZ ATLA YİYƏSİNİN SÖHBƏTİ (S.65; T.43)

**Boz atın yiyəsi:**

Boz atım, yorulma, gəl gedək kəndə,
Yükünü götürrəm arabir mən də.
Arpanı  verməsəm, olum şər bəndə.
Atım, mən yorulmaram, sən də yorulma...

## SANDIQQAYIRAN SÜLEYMANLA DƏMİRÇİ ABBASIN DEYİŞMƏSİ (S.182; T.30)

**Aldı Süleyman:**

Qocalıqda yorğalığı açmısan,
Düşmüsən kələyə, fəndə, Dəmirçi.
Olmaq istəyirəm dərdindən halı,
Mən də  dəmirçiyəm, sən də Dəmirçi!

**Götürdü Dəmirçi:**

Arifdən, alimdən, aşıqdan soruş,
Atəşin yoxdusa, candan Süleyman!
Eşqin atəşilə açılmaz ürək.
Coşqunluq olmasa qanda, Süleyman.

**Aldı Süleyman:**

Əl çək bu sevdadan, ötübdü yaşın,
Kimdisə uduzub sevgi sirdaşın.
Əllərin titrəyir, ağarıb başın.
Qılıncın paslayıb qında, Dəmirçi.

**Götürdü Dəmirçi:**

Başımı ağ görüb eyləmə hədə,
Səni də oyada, eşqin beyvədə.
Eşqimin yolunda  bel bükülsə də
Dəmirçidən tutaram gündə, Süleyman!

**Aldı Süleyman:**

Barmağın kötükdü yaramır saza,
Çox bica uymusan işvəyə – naza.

Mən də vurulmuşdum bir sərvinaza,
İndi də durmuşam gendə, Dəmirçi!

**Götürdü Dəmirçi:**
Kaş sən də biləydin mənim dərdimi!
Tamam oynayaydı canımın simi,
Ürəyin yanaydı mənimki kimi,
Dərdimi biləydin sən də Süleyman!

**Aldı Süleyman:**
Süleymana bəlli oldu əhvalım,
Eşq ucundan yəqin itib kamalım.
Arılar qırılıb, qutarıb balın,
Sızıltı salmısan şanda, Dəmirçi!

**Götürdü Dəmirçi:**
Dəmirçiyəm, şər danışma adıma,
Odlanıram sevgi salma yadıma.
Fələk salma səni mənim oduma,
Deyəm alış oda, yan da Süleyman.

## AŞIQ VALEHİN DAĞISTANLI AŞIQ MİRZALI İLƏ DEYİŞMƏSİ (T.6)

**Aşıq Mirzalı:**
Əgər mərdsən, bu meydana, söz götür, mərdana gəl,
Həqiqətdən kəlmə kəsək, danış xoş zəbana, gəl.
Mərifətlə məclis alar, görənlər əhsən desin,
Yoldaş olma hərcayıya, sirr vermə nadana, gəl!

**Aşıq Valeh:**
Çox mərdlikdən dəm vurubsan, küv(u) salma meydana gəl!
Meydanda mərd dayanmışam, baxıram hər yana, gəl.
Dünya saldı girdabına çox «mənəm» deyənləri,
Bir nəzər sal keçmişlərə, gərdişİ-dövrana, gəl!

**Aşıq Mirzalı:**
Səhrayısan, sərin gəzdir qeyrətinən, arının,
Zərraısan, aç mətahın, sərf et xiridarınan.
Sən ki, ovçu deyilsən, işin nədi marınan?!
Sarsaqlıyıb, sayaqlıyıb danışma əfsanə, gəl!

**Aşıq Valeh:**
Yəqin qulluq etməmisən sən bir kamil ustada,
Hərzə dilin, bil ki, bir gün səni verəcək bada.
Uyma şeytan fitvasına, mərifəti sal yada,
Təriqətdə çox dayazsan, baş vurma ümmana, gəl.

**Aşıq Mirzalı:**
Dağıstanlı Mirzalıyam, aşkar edim elimi,
MƏşhurdu əslim, nəslim, aləm bilir halımı.
Bir ləhzədə nitqə gəlib, açar olsam dilimi,
Ünüm yetər Ələsmana, səs sallam cahana, gəl!

**Aşıq Valeh:**
Mən Valehəm, diqqət etdim sənin saxta sözünə,
Göyçəli Aşıq Nəcəfi nahaq çıxdın özünə.
Hayqırıb nərə çəkərəm, duman çökər gözümə,
Çaşarsan haqqın yolunu, ərkana, imana gəl!

## QIFILBƏND (T.6)

**Qurbanı:**
On iki gözəlin sehrinə vardım,
Mayıl oldum gözəllərin dördünə.
Altısı bədxoydu, dindirmək olmur,
İkisi mehribandı, onun dördü nə?

**İsmayıl:**
Bir çahar fəslin on iki ayı var,
Dörd fəsil də on ikinin dördüdü.
Bir ay payız-qışdan, bir ay qışdan yaz,
İki ay mehriban, onun dördüdü.

**Qurbanı:**

Ay ağalar, dərdim yaman artıbdı,
Fələk daşım eldən elə atıbdı.

Səkkiz şeydi, bu dünyanı tutubdu,
Abu, ataş, xakı, baddı, dördü nə?

**İsmayıl:**
Canlı, cansız yaranıbdı təbiyyət,
Abı, ataş, xakı, baddı, həqiqət.
İnsan, heyvan, həşarətnən, nəbatət,
Yaxşı düşün bu səkkizin dördüdü.

**Qurbanı:**
Qurbanıyam, sözüm eylədim tamam,
Doğru həqiqətdi bu şirin kəlam.
Səkkiz şeydi gəlib insana Ənam,
Ağıl, mərfət, huş, kamaldı, dördü nə?

**İsmayıl:**
İnsanatın səkkiz gözəlliyi var,
Dördü batil, dördü görünür aşkar.
Açdı bu mənanı mahir sənətkar,
Səs, gözəllik, bilik, qüvvət, dördüdü.

## AŞIQ RƏVAYƏTLƏRİ

### MOLLA CUMA (S.191; T.12)

Rəhmətlik Molla Cuma darı əkir, sulayır, becərir. Bigünüsü gedir-ki, görsün, darı dəyipmi? Görürki, darının içinnən sərçə çıxır. Əlini atır darı süpürgəsinə görürkü, boşdu içi. Oturup aşağıdakı şeri deyir:

İlahidən qorxun, bir insaf edin,
Az incidin məni, zarı sərçələr.
Ölkə qurtarmadı, oba batmadı,
Yox bundan qeyri darı, sərçələr?
Əkdiyimiz olmasa məəttəl qallıx,
Ruzumuz qalmasa acınnan öllük.
Yeməyin axırda üç yerə böllük,
Siz də olarsız biznən yarı sərçələr.
Fəqir dostum cəfa çəkib əkibdi,

Kərim dostum toxumunu səpibdi.
Nə zulumnan alağını çəkibdi,
Ayaqyalın Reyhan qarı, sərçələr.
Molla Cumayam, dəryaya dolmaram,
Nə dolaram, çaşaram, nə də ki daşaram.
Hayasız insandan heç utanmaram,
Hayalı insanın hayası məndə.

**Dəmirçi Usta Mehdi haqqında rəvayət (S.172; T.12)**

Sallana, boylana gedən nazənin,
Nə dönübsən bədir aya gedirsən.
Eşq əhlinin yenə cavan canını,
Nə salıbsan yüz qovğaya, gedirsən.

Sən gedirsən, canım gedir dalınca,
Ay qız, səndən heç doymaram ölüncə.
Gedirsən, gözlərəm ta sən gəlincə,
Bir vədə ver, nə il, oya gedirsən?

Naz ilə yanından ötmə Mehdinin,
Şad könlünü qəmnak etmə, Mehdinin,
Ay qız, gözü görə getmə, Mehdinin
Tut qolundan at dəryaya, gedirsən.

Deyirlər, Usta Mehdinin sorağı Şəmkirli Hüseynə gedib çıxır. O istəyir ki, Mehdini özünə  şəyird götürsün. Soraqlaşa-soraqlaşa gəlib usta Mehdini Samuxda tapır. Burada dəmirçi dükanında işləyən usta Mehdini bir tanışının yanına çağırtdırır. Usta Mehdi aşığı tanıyır və ona belə şerlə «xoş gəldin» deyir.

Şəmkir mahalının şeyda bülbülü,
Eşq əhlinin yekdanəsi, xoş gəldin!
Şairlik işinin şahi-ustadı,
Eşq odunun pərvanəsi, xoş gəldin!

Məhi-vəsfi eşitmişəm ziyadə,
Əcəbcə kamilsən ədəb-həyadə.
Mislin yoxdu Dağıstanda, burada
Aşıqların mərdanəsi xoş gəldin!

Şikəstə Mehdiyəm, bir dili- bitab,
Sən aşıq Söyünsən, bir alicənab.
Ləbin şəkkər, dilin şəhdi-meyunab,

Ağır məclis peymanəsi, xoş gəldin!

Aşıq Hüseyn durub usta Mehdini qucaqlayır. Oturandan sonra gəlməyinin məqsədini ona açır. Usta Mehdi deyir ki, atası bu məsləhətə razı olmaz. Aşıq Hüseyn İlisuya gəlir, Usta Mehdinin atası Mobin kişi ilə görüşür. Atası oğlunun aşıq şəyirdi olmasına razılıq vermir.

Aşıq Hüseyn evinə qayıtdıqdan sonra Usta Mehdiyə belə məktub yazır.

Əxəvi-girami, ey usta Mehdi,
Bir xəncər gedərəm cövhərdar gərək.

Havi həddi-rəstə, qəddi mötədil,
Əndami ayinə, sali ilandil.
Sədası verəndə şəfalı bülbül,
Çituri sərində çarəsgər gərək.

At üstündə Əbrişima kəsdirək,
Bəzədibən sədrin üstdən asdıran,
Hər du cismi tarixinə basdıran
Onu gəzdirməyən zinadar gərək.

Adı usta Mehdi, pədərin Mübin,
İzzətin, cəlalın artsın günbəgün.
Dərəcatı-ali, rəfiqi Söyün
Ona şəfaətin peyğəmbər gərək.

Usta Mehdi məktubu oxuyur, heç bir söz demədən yeraltı qazmada yerləşən dəmirçixanasına keçir. Zindanın üstünə bir parça kağız qoyub aşağıdakı cavabı yazır:

Əxəvi-girəmi, ey aşıq Söyün,
Bir xəncər sevmisən cövhərdarədən.
Bir ay möhl versən qayırrıq onu,
Timsalın çəkərək zülfiqaridən.

Ahəni kalpara, firəng aynalı,
Bir xara cövhərli, adlı, öyməli.
Bir çəçən dəstəli, çərkəz düyməli,
Bir xəncəl qayırrıq yadigaridən.

Ab üstündə Əbrişimi vurginən,
Bəhs üstündə ehmalisiz dürginən,
Dost yolunda qardaşını görgünən
Vəfadar taparsan etibaridən.

Sən Aşıq Söyünsən, mən Mehdi Usta,
Bilginən qıyıram canımı dosta,
Xəncər nəkarədi, bir qılınc istə
Nə qədər sevmisən bizim karidən.

**Dülgər oğlu Aşıq Əvək haqqında rəvayət (S.27; T.30)**

İki aşıq Aşıq Əvəknən deyişmək üçün Caluda gəlir. Yolda duran adamdan Aşıq Əvəki soruşullar. Yolda duran adam Aşıx Əvəyin özüymüş. Ho diyir:

-Eşit mənəm, bil mənəm, habu mənəm. Holar heş nə başa düşmüyüf Aşıx Əvəyin öyünü soruşullar. Honun öyünə gedillər. Məhləyə gedif honu çağırıllar. Qapıya hannan-hana qızı gəlir. Qızdan soruşul-

larki, niyə gec cavaf verdin?

**Qız:**

- Öyümüzün qulağı yoxdu.

Qonaxlar Əvəyi soruşullar.

**Qız diyir:**

- Atam bərəkətsizə gedif.

Qızın anasını soruşullar.

**Qız**:

- Anam tükəmməzə gedif.

Holar gənə bi şey başa düşmüllər. Habu vax Aşıx Əvəyin özü gəlif çıxır. Özünü qonaxlara tanıdır.

Qonaxlar diyir:

- Əgənəm habu səniydinsə, bə niyə özünü nişan vermədin?

Aşıx Əvək cavaf verir:

-Mən sizə özümü tanıtdım, siz başa düşmədiz.

Holar Aşıq Əvəyin qızının didiklərini soruşullar. Honda Aşıx Əvək diyir:

-Öyümüzün qulağı yoxdu diyəndə, yəni məhləmizdə it yoxdu. Atam bərəkətsizə gedif diyəndə, yəni atam oduna, anam tükəmməzə gedif diyəndə - suya gedif demək isdiyir.

Ho qonaxlar başa düşüllərki Əvəknən başara bilmiycihlər. Hodu ki, bidəfəlik çıxıf gedillər.

## Aşıq Sirac ilə Kəmsavadın deyişməsi (T.6)

1964-cü ilin avqust ayı idi. Şəkili Heydər kişinin oğlu Ələsgər cib xərcliyi etmək üçün Zaqataladan Gəncə şəhərinə bir yeşik armud ilə bir yeşik zoğal gətirmişdi. Ələsgər həmin günün səhəri gətirdiyi malı bazara apardı. Bu zaman yerli alverçilərdən Kəmsavad ləqəbli Məhəmməd Ələsgərə rast gəlib dedi:

-Bacı oğlu, mən rayonlardan gətirilən meyvəni beş şahı ucuz qiymətə alıb, artıq qiymətə satıram ki, uşaqlarıma çörək pulu qazanım. İndi sən də gətirdiyin malı mənə ver, satıb beş şahı qazanc əldə edim. Ələsgər armudu özü satmaq qərarına gəldi, zoğalı isə Kəmsavada verdi. Təsadüfən bu dəfə Kəmsavadın əli gətirmədi. Zoğalı alan olmadığı üçün gün vurub lalıxlatdı, Kəmsavadın mayasına xeyli ziyan dəydi. Taleyindən şikayətlənən Kəmsavad istədi ki, dərdini aşıqlara desin, ancaq gördü ki, aşıqlar toya gediblər. Əlacı hər yerdən kəsilib Aşıq Siracın üstünə bir məktub yazdı. Bu zaman Kəmsavadın yanında oturan alverçi yoldaşlarından biri dedi:

-Kəmsavad, yenə səndə bir iş var! Xahiş edirik, gərək bu yazdığını bizə oxuyasan. Kəmsavad dostlarının sözünü yerə salmayıb, razılığa gəldi. Zoğalı Kəmsavada verən Ələsgər də onlara qulaq asırdı. Kəmsavad məktubu belə oxudu:

Məktub gedər olsan toy məclisinə,
Əhvalımı Aşıq Siraca deynən!
Mayamı batırıb qaldım pis günə,
Dönübdü hər anım ah - vaya deynən!

Nə cütdən xeyir var, nə də ki təkdən,
Şirə də qurtarıb güldən, çiçəkdən.
Ötən müştərini ətəkləməkdən,
Nə abır qalıbdı, nə haya deynən!

Ələsgər adında Zakatalalı,
Sırıdı canıma lalıx zoğalı.
Kəmsavadam, dolanıram nəvalı,
Əlac qalıb bir xudaya deynən!

Söz tamam olan kimi Ələsgər Kəmsavada dedi :

- Əmoğlu, gəl sən mənim adımı dilə-dişə salma! Bu alverdi, sən aldın, mən də satdım. Xoşuna gəlmirdi, almayaydın. Kəmsavad dedi:

- Xeyir, elə iş yoxdu! Sənin zoğalının mənim başıma açdığı oyunu hamı bilməlidi!

Ələsgər gördü ki, Kəmsavad yola gələn adam deyil. Onu susdurmaq məqsədi ilə dedi:

-Kəmsavad, sən mənə şer yazdın, mən də eloğlum Aşıq Siraca bir həcv yazdıracağam! Kəmsavad Ələsgərə dedi:

-Sənin eloğlun Aşıq Sirac kimi doxsan doqquzu gəlsə belə mən öz sözümü geri götürən deyiləm! İndi ki deyirsən o da sənə şer yazar, qoy yazsın! Əgər yazarsa, cavabını da alar!

Ələsgər Kəmsavadın belə kobud danışmasından inciyib bir qədər dilxor halda bazarın çayxanasına girdi, Aşıq Siracı orada görüb sevindi. Ələsgər başına gələn əhvalatı olduğu kimi ona danışdı. Aşıq Sirac Ələsgəri də özü ilə bərabər Kəmsavadın yanına apardı. Salam verib görüşdükdən sonra ərk ilə ona yanaşıb dedi:

-Kəmsavad, Ələsgər mənim eloğlumdu. Siz ona yazdığınız şeri mənim xatirim üçün cırıb atın. Elə deyil ki, bir qatar şer sizə böyük şöhrət qazandıra, yaxud cırıb atsanız sizi tanıyan olmaya.

Kəmsavad razılığa gəlmək əvəzinə üzünü Ələsgərə tutub dedi:

-Şikayətini gedib eloğluna elədin. İndi bu, sənin eloğlun, bu da

mən. Nə sözünüz varsa, mərdanə deyin:

Aşıq Sirac yenə mülayimcəsinə dedi:

-Kəmsavad, mən bura dava-dalaş, ya da deyişmək məqsədi ilə gəlməmişəm. Mən ancaq xahiş etmək üçün gəlmişəm ki, həmin şeri cırıb atasınız.

Kəmsavad kinayə ilə cavab verib dedi:

-Gəncə şəhərində biz səni bir aşıq kimi tanıyırıq.

Özün də yaxşı bilirsən ki, aşıqlar şairlərin yazdığı qoşmaları oxuyurlar. Belə olduğu halda sən mənimlə deyişə bilərsənmi ki, bu sözü deyirsən?

Aşıq Sirac dedi:

-Kəmsavad, iş o yerə çatarsa, bir kəlmənə beş kəlmə deməyə hazıram!

Kəmsavad dedi:

-Aşıq Sirac, indi axşamdı, qoy bu məsələ sabaha qalsın. Sabah sizi elə burada gözləyəcəyəm. Döşün atlanırsa, meydanıma gələ bilərsən. Əgər gəlməsən, eloğluma yazdığım kimi yox, sizə başqa cür həcv yazacağam.

Artıq hava qalalırdı. Aşıq Sirac həm Ələsgərlə, həm də Kəmsavadla xudahafizləşib evlərinə getdi.

Ertəsi gün Aşıq Sirac bazara çıxmaq istyirdi, ancaq birdən yadına düşdü ki, Kəmsavad ondan söz tələb edəcək. O günü bir şey yazmadığı üçün bazara çıxmadı. Çünki Kəmsavadın xasiyyətini yaxşı bilirdi. Özü demişkən, qır-saqqşız olub bir adamın yaxasına yapışdı, buraxan deyildi. Odu ki, bir qədər şəhəri gəzdikdən sonra evə qayıdıb Kəmsavad üçün üç qatar nəsihətamiz sözlər yazdı. Səhəri gün bazara çıxdı. Kəmsavadı sınamaq üçün qəsdən kənardan keçdi. Kəmsavad Aşıq Siracı görən kimi yanına çağırıb xəbər aldı:

-Aşıq Sirac, eloğlunun arzusunu yerinə yetirə bilmisən, ya yox?

Aşıq Sirac dedi:

-Kəmsavad, bağışla, vaxtım olmadığı üçün yaza bilməmişəm. Əgər bir münasib vaxt tapa bilsəm, sizin tələbinizi yerinə yetirəcəyəm.

Kəmsavadı fitnə ilə qızışdıran, bundan həzz almaq istəyən alverçi yoldaşları dedilər:

-Ayə Ələsgər, atalar deyiblər ki, ağır otur, batman gəl. Nə üçün yerində ağır oturmursan? Sən aşığı gətirib şair ilə qabaqlaşdırmaq istəyirsən? O aşıq, bu da şair, sənin aşığın bizim şairə nə deyə bilər? Sən tora düşmüsən, hes olmasa, qoy, bu kişi düşməsin!

Bu kimi sözlərdən xoşhal olan Kəmsavad ədalı bir görkəmlə Ələsgərə dedi:

-Ələsgər, sən zoğalı mənə verəndə uduzmusan. Daha özünü yormağın əbəsdi.

Aşıq Sirac dedi:

-Kəmsavad, Ələsgər uduzmayıb, sən uduzmusan. Sən məndən əl çəksən də, mən səndən əl çəkən deyiləm! İndi sən mənə de görüm, fərz edək ki, Ələsgər səni aldadıb, bəs sənin ağlına, huşuna, ağı –qaradan seçən gözünə nə olub ki, bir yeşik zoğal alverində aldanmısan? Aşıq Sirac bu sözləri deyib, yazdığı şerlərdən birini Kəmsavada təqdim etdi. Alverçilər Kəmsavaddan xahiş etdilər ki, o şeri oxusun.

Kəmsavad dedi ki, mən bu şerə cavab yazmamış sizə oxuya bilmərəm. Sabaha kimi səbr edin, sabah oxuyaram.

Bir neçə gündən sonra yeni yazılmış şerlə maraqlanan alverçilər o günü bazara tez çıxmışdılar. Bir azdan Aşıq Sirac da həmin yerə gəldi. Kəmsavadı orada görən kimi xəbər aldı:

-De görüm, sözümün cavabını yazmısanmı?

Kəmsavad Aşıq Siracın sualına cavab verməyib, cibindən bir vərəq kağız çıxartdı, ucadan oxudu. Ələsgər axıra qədər qulaq asdıqdan sonra bir qədər təsəlli tapdı. Bu zaman aşıqlar da maraqlanıb həmin yerə gəldilər. Şeri təkrar oxumaq istərkən, Kəmsavad hər aşığa şerin bir surətinit verdi. Bağmanlı Aşıq Qədir hər iki qoşmanı sinədəftər oxuyub bazarın çayxanasında əyləşən camaat üçün el havasını belə oxudu.

**Aşıq Sirac:**

Göz yaranıb insan üçün görməyə,
Yaxşı baxıb götü malı, Kəmsavad!
Meyvə yetişməsə olmaz dərməyə
Tamı verməz xoş zülalı, Kəmsavad!

**Kəmsavad:**

Bəni insan yüz düşünsə nə bilsin?
Nə gələcək işin dalı, ay Sirac!
Mal satan da gərək mürvətə gəlsin,
Satır malı çox bahalı, ay Sirac!

**Aşıq Sirac:**

Gəlir qulağıma giley-güzarın.
Aşiqiyəm pak vicdanın, düz arın.
Bəlkə sənin bəd gətirib bazarın,
Başın çəkir qiylü- qalı, Kəmsavad!

**Kəmsavad:**

Giley- güzar etdim haqsız, ya haqlı,

Söylə, bunun axır sənə nə daxlı?
Çıxarıq meydana yarlı-yaraqlı,
Söz deyirsən müəmmalı, ay Sirac!

**Aşıq Sirac:**

Mən sənə demirəm şer söyləmə,
Mənzilə çatmamış karvan eyləmə.
Mənim həmyerlimi təhqir eyləmə.
Gəl incitmə yad mahalı, Kəmsavad.

**Kəmsavad:**

Həmyerlin zoğalı bəzəyib satdı.
Müxtəsər araya inciklik qatdı.
O nainsaf məni niyə aldatdı?
Eylə ondan bu sualı, ay Sirac!

**Aşıq Sirac:**

Xeyir, kar görməsən satdığın malda,
Bilirəm, almazsan onu hər halda.
Eybi yoxdu, zərər çəkdin zoğalda,
Al yerinə sat gavalı, Kəmsavad!

**Kəmsavad:**

Baxıb alverçinin hər ziyanına,
Yersizdi dərd etsən onun canına.
Danışıb yetənin sən ünvanına,
Nahaq salma qalmaqalı, ay Sirac!

**Aşıq Sirac:**

İncimə, Siracın dediyi sözə,
Düşür eloğlumun təsibi bizə,
Ələsgər zor ilə satmayıb sizə,
Sən aldığın o zoğalı, Kəmsavad!

**Kəmsavad:**

Kəmsavadam, hərdən məni sıxarmı?
Sənətkarı hər söz əyib yıxarmı?
Südlü qoyun sürüsündən çıxarmı?
Dindir neçə pür kamalı, ay Sirac!

Söz tamam olan kimi Aşıq Sirac dedi:
-Kəmsavad, yaxşı yazmısan, ancaq bir yerdə işi korlamısan. Sənin

yazdığın söz məni ötəri tutur. Lakin səni necə tutduğunu deməyəcəyəm. Ona görə ki, məsələsi pis gəlir. Mənim tay-tuşum olsaydınız, deyərdim. Kəmsavad dedi:

-Mən sizi başa düşmürəm ki, siz nə deyirsiz?

Aşıq Sirac dedi:

-İndi ki başa düşməyirsiniz, qulaq asın, deyim. Siz deyirsiniz,

«Südlü qoyun sürüsündən çıxarmı?

Dindir neçə pür kamalı, ay Sirac?»

-Kəmsavad, mən el-obanın oğluyam, heç vaxt yurdumdan kənara çıxmamışam. Məsələ burasındadı ki, Şəkinin Baş Layısqı kəndində doğulmuş, sonralar Gəncəyə gəlmişəm. Səbəbi də budu ki, xalqımızın qədim, könüllər oxşayan, ən sevimli incə saz və söz sənəti Gəncədə çox yüksək hörmətlə sevilir. Mənim sənətimi sevən xalqı mən canımdan da artıq sevirəm. Elə buna görə də mən gəlib Gəncə sakini olmuşam. İndi gəl sənin sənətindən danışaq. Sən xüsusi alverlə məşğulsan. Bu alveri doğulduğun Bayramlı kənlində, yaxud Mingəçevirdə yaşayıb, başqa bir yerdə edə bilərdin. Südlü qoyun olub heç kimə xeyir vermədiyin üçün səni burunlayıb öz yerindən çıxarıblar. Fərq burasıdadı ki, sən Gəncə şəhərinə məndən bir neçə il əvvəl gəlmisən. Belə olduğu halda nə üçün özünü yerli Gəncəli hesab edib, məni isə gəlmə kimi qələmə verirsən? Belə mənasız sözü nahaq yerə işlədirsən. Səni Gəncəyə dolanışıq, məni isə sənətim gətirib çıxarmışdır.

Kəmsavadın Aşıq Siraca cavabı bu oldu ki, ağlım belə kəsib, belə də yazmışam. Müxtəsəri, sözünə cavab yazmışam, ya yox?

Aşıq Sirac dedi:

-Mən sənə dünən şerin birini verib, ikisini isə verməmişdim. Dedim, əgər sözün birinə cavab verə bilərsə, ikisini də sabah verərəm. İndi həmin iki şeri bu gün verirəm. Şerin yenə biri nəsihət, o birisi isə üç xanədən ibarət təcnisdi. Mən sizi təcnisdə də yoxlamaq istəyirəm. Çünki şair adını üstünə götürən bir şəxs şerin hər formasını bacarmalıdı. İndi həmin təcnisə cavab yaza bilsən, o biri şerə də cavab yaza bilərsən. Əgər yaza bilməsən, bü gündən Kəmsavad ləqəbini üstündən götürüb, sadəcə olaraq ata- ana qoyduğu Məhəmməd adı ilə özünü xalqa tanıtmalısan.

Kəmsavad dedi:

-Aşıq Sirac, boş danışıqdan şey çıxmaz, sən yazdığın şeri ver, sabah da cavabını istə. Aşıq Sirac şeri verərkən alverçilər yenə xahiş etdilər ki, şeri oxusunlar. Kəmsavad şeri Aşıq Siraca verib dedi:

-Aşıq Sirac, hər kəs yazdığını, özü yaxşı oxuyur. Sən oxu, biz də

qulaq asaq. Aşıq Sirac şeri Kəmsavaddan götürüb belə oxudu:

Xas olsa bazarın, xub keçər halın,
Gijitkanı gül yerinə satarsan.
Gətirsə taleyin, xoşsa iqbalın,
Qara daşı ləl yerinə satarsan.

Bir haqqın nəzəri ola üstündə,
Cümlə aləm durur- dursun qəsdində.
Bağla başın, çək bazara dəstində,
Boz himarı fil yerinə satarsan.

Bayquş kimi sevmə viranxananı!
Beş şahıya satma namus, vicdanı.
Saymadığın iyrənc, qotur dananaı,
Yeri düşər kəl yerinə satarsan.

Oorx ki o günündən, bəxt dönə geri,
Toxunar başına qəzanın pəri.
Toplasan altunu, ləli, gövhəri,
Aldanarsan gil yerinə satarsan.

Bəd iqbal boynuna salsa kəməndi,
Göz tanımaz, bu yaqutdu, yaməndi?
Candan əziz bəslədiyin səməndi,
Tutub topal şil yerinə satarsan.

İncimə fələyin tutduğu işə.
Çox inanıb bel bağlama gərdişə.
Bəxtin zirvələrdən düşsə enişə,
Zəri çəkib hil yerinə satarsan.

Sirac da müxtəsər söylər sözünü,
Çox çəkmişəm bü dərdlərin yüzünü.
Tale səndən çevirərsə üzünü,
Güllü bağı çöl yerinə satarsan.

Aşıq Siracın şeri hamının xoşuna gəldi. Ancaq bəziləri dedi ki, indi gör Kəmsavad nə yazacaq. Sabah da onu dinləyərik.

Kəmsavad dedi:

-Aşıq Sirac, o üç xanə təcnisini də de, qoy eşitsinlər.

Aşıq Sirac dedi:

-Kəmsavad, bizim mübahisəmiz meyvə üstə olub, təcnisi də həmin mövzuda demişəm. İndi siz qulaq asın, mən şeri oxuyum.

Meyvələrdə mən sevirəm üzümü,
Yəqin siz də onu əziz tutarsız.
Bivəfaya çeviribən üzümü,
Çox yalvardım, bir dəstimdən tut arsız.

Kamil bağban xub yetirər zoğalı,
Xəzan geyər budaqlarda, zoğ alı.
Dedim gətir qızılgüldən zoğ, Alı.
Peyvənd bəslə, bağ olmasın tutarsız.

Mən Siracam, keyfim olmaz kök, ata.
Əmək çəkdim arıqladı, kök ata.
Calama söyüdə, qoyma kök ata,
Çəkər öz cinsinə, olar tut arsız.

Bu şerin rədifi tutarsızdı. Söz tamam olan kimi Kəmsavad da bir az tutarsız oldu. Çünki o birdən- ikidən təcnis yazmamışdı. Ancaq

özünü o yerə qoymayıb, ürəklə söz verdi ki, Aşıq Sirac, sabah sənin şerlərinə cavab yazıb gətirəcəyəm. Bu sözü eşidən alverçilər çox sevindəlir ki, sabah Kəmsavad Aşıq Siracın şerlərinə cavab yazıb gətirəcək, biz də maraqla qulaq asacağıq. Kəmsavadla Aşıq Siracın o günkü söhbəti elə bununla da qurtardı.

Kəmsavad axşam evlərində çox götür- qoy eylədi, ancaq sözə cavab yaza bilmədi. Nəhayət, belə qərara gəldi ki, bir neçə xanə həcv söz yazım, sabah Aşıq Siraca verim. Ola bilsin ki, Aşıq Siracın həcv yazmaqda bacarığı yoxdu. Əgər sözlərimə cavab yaza bilməsə, məğlub olar, qələbə də mənim üstünlüyümlə qurtarar. Kəmsavad bu fikirlə bir neçə kəlmə nalayiq sözlər yazıb, səhər tezdən bazara çıxdı, səbirsizliklə Aşıq Siracın yolunu gözləməyə başladı.

Bir az vaxtdan sonra Aşıq Sirac da həmin yerə gəldi. Kəmsavad axşam yazdığı həcvi Aşıq Siraca oxuyub dedi:

-Aşıq Sirac, mən səninlə belə deyişmək istəyirəm. Nəsihət təcnis mənim nəyimə gərəkdi. Kəmsavadın belə yersiz sözlərindən sonra Aşıq Sirac vərəq, kağız götürüb Kəmsavad yazdığı həcvdən də təsirlisini yazıb dedi:

-Kəmsavad, əsl sənətkar həcv yazmaz. Ona görə ki, belə nalayiq sözlər sənətkarın adını ləkələyə bilər. İndi gördün ki, mən də həcv yazmağı bacarıram. Daşkəsənli Aşıq Seymur həmin sözləri Aşıq Siracdan istərkən, Aşıq Sirac yazdığı həcvi bir dəfə də oxuyub sonra da Aşıq Teymura verməyib cırıb atdı, başqa hiyləyə əl atmağa çalışaraq dedi:

-Aşıq Sirac, sənin yazdığın təcnisə cavab yazmağı bacarmadım, ona görə ki, təcnisin cinaslarını tapmaq çətindi. Mən də bir təcnis yazaram, sən cavab yaza bilməzsən. Belə olduğu halda hər ikimiz eyni vəziyyətdə olarıq. Çünki sənin yazdığın təcnisə mən, mənim yazdığım təcnisə sən cavab yaza bilməmiş olursan. Əgər sən mənim yazdığım təcnisə cavab yaza bilsən, üstünlük səninlə qurtarar, mən isə məğlub olaram.

Aşıq Sirac dedi:

-Kəmsavad, təcnis yazmır, istəp diltərpənməz yaz, əgər sözümə cavab yaza bilməsən, bu gündən sənə baş əyib, usta deyib çağıRacağam. Aşıq Sirac ilə Kəmsavad beləcə şərtləşib ayrıldılar. Bir neçə gün sonra Kəmsavad Siracı axtarıb tapdı, cibindən bir vərəq kağız çıxarıb dedi:

-Aşıq Sirac, al bu kağızı, get oxu, yaxşı fikirləş, sonra da sözümün cavabını yaz, gətir. Sənə üç gün möhlət verirəm.

Aşıq Sirac kağızı bir dəfə oxuyub dedi:

-Kəmsavad, mənə üç gün möhlət lazım deyil. Sənin sözünə bir saata qədər cavab verərdim, amma mən Safıkürd kəndinə toya gedirəm. Sabah toydan qayıdanda sözünə cavab verərəm.

Bu sözləri dedikdən sonra Aşıq Sirac xudahafizləşib getdi. Kəmsavadın isə ağlı bir şey kəsməyib, öz aralarında belə bir söz işlətdi. Aşıq Sirac mənim sözümə cavab verə bilərsə, mən onu peşəkar aşıq kimi yox, sənətkar aşıq kimi tanıyıram. Ancaq bu mümkün olan iş deyil. Təcnisə cavab yazmaq çox çətindir.

Sabahısı gün Kəmsavad Aşıq Siracın yolunu səbirsizliklə gözləyirdi. Aşıq Siracı isə bir toydan başqa toya aparmışdılar. Ona görə də vədəsinə düz çıxa bilməmişdi. Kəmsavad elə güman etdi ki, Aşıq Sirac yəqin evinə gəlib, amma mənim sözümə cavab verə bilmədyi üçün bazara çıxmır. Odu ki, qalibiyyətin özündə olduğunu zənn edib, bazarda çox vüqarlı gəzirdi. Şer həvəskarları Aşıq Siracın harda olduğunu xəbər alanda, Kəmsavad cavab verirdi ki, Aşıq Sirac bu gündən sonra bazara çıxmaz. Hər kim səbəbini soruşurdusa, deyirdi, nə vaxt görsəniz, özündən soruşarsınız!

Aşıq Sirac toyları qurtarıb qayıtdı. Belə yorğun bir vəziyyətdə evlərinə getməyib birbaşa bazara gəlib Kəmsavadı tapdı. Salam - kəlamdan sonra Kəmsavad dedi:

-Aşıq Sirac, mən sizə üç gün möhlət vermişdim. Bu gün vaxt tamam olur. Sən isə toydan indi qayıdırsan, bəs mənim sözümə nə vaxt cavab verəcəksən?

Aşıq Sirac dedi:

-Kəmsavad, heç darıxma. Sənin cavabını toya gedən günün gecəsi yazmışam. İndi qulaq as, mən oxuyum.

Kəmsavad, alverçilər qulaq asırdı. Aşıq Sirac isə hər iki şeri belə oxudu:

Aşıq Sirac, dərdli kəsdən kənar gəz,
Darıxanda çaşar yaralar səni,
Sağ canını niyə xəstə edirsən?
Doğrayarlar səni, yararlar səni.

Aşıq Sirac sözün bir xanəsini oxuyandan sonra üzünü Kəmsavada tutub dedi:

-Kəmsavad, sən yazdığın təcnis dodaqdəyməzdi. Mən də dodaq dəyməz tənis yazmışam. Ancaq mən yazdığım şerin misraları «N» hərfi ilə başlayıb, «N» hərfi ilə də qurtarır. Belə təcnislərə, qapalı dodaqdəyməz təcnis deyilir. Kəmsavad diqqətlə qulaq asırdı.

Aşıq Sirac isə şeri belə oxyurdu.

Nəsdi karın, çək adını Əlinin,
Nicat istə dərdin yar ala sənin.

Nanını yesən halalca əlinin,

Nagah çəkər əqlin yar ala sənin.

**Kəmsavad:**

Anlaginən atlanırsan hayana?
Darda hansı kəsin çatar hayana?
Əcəl gələr, çağırarsan hay ana!
Sızıldar, incidər, yaralar səni.

**Aşıq Sirac:**

Neçə ki haqq səndən əydi nəzərin,
Nələlin satılar, inan, nə zərin.
Nərd də atsan şeş gətirər nə zərin,
Nə geydiyin istər yar ala sənin.

**Kəmsavad:**

Cəng qızanda çəkilərsən sərinə,
Şir yanında sərçə nədi, səri nə?
Kəmsavad ki, kəndir atdı sərinə,
Darda yetər haqqın, yar alar səni.

**Aşıq Sirac:**

Naqıs çıxsan, gəz Siracdan sən də yan.
Nalə eylə, ahu- zarla sən də yan!
Niranda yanarsan nara, sən dəyan!
Nə çəkər sinində, yar ala sənin.

Söz sona yetən kimi yerbəyerdən Kəmsavda dedilər ki, Kəmsavad, Aşıq Sirac sənin sözünə yaxşı cavab veribdi. İndi hər ikiniz əl-ələ verib, dost kimi görüşün, ayrılın! Sizin deyişməyiniz elə bununla da sona çatmış olsun! Atalar deyiblər:

-«Az işdən çox iş çıxar». Gəncədə sizin hər ikinizin dostunuz çoxdu. Əgər biriniz məğlub olsanız, dostlarınızın da arasında inciklik əmələ gələr. Kəmsavadın belə nəsihətli sözlərini eşidib dinmədiyinə görə Aşıq Sirac da elə güman etdi ki, yəqin Kəmsavad razılığa gəlib ona görə də dinmədi. Odu ki, Aşıq Sirac da hörmət məqsədi ilə öz yazdığı «Satarsan» və «Tutarsız» rədifli qoşmalarına Kəmsavadın cavab verməsini tələb etmədi. Beləliklə, hər ikisi əl-ələ verib dost kimi ayrıldılar.

Kəmsavdla Aşıq Siracın görüşündən üç gün keçmişdi. Dördüncü günün səhəri Aşıq Sirac bazara yenicə çıxmışdı ki, bir nəfər yaxınlaşıb dedi:

-Aşıq Sirac, səni Kəmsavad alver elədiyi yerə çağırır. Aşıq Sirac

bir söz deməyib, Kəmsavadın yanına getdi. Salam verib görüşdükdən sonra Kəmsavad cibindən bir kağız çıxarıb oxumağa başladı. Alverçilər şerə maraqla qulaq asırdılar. Kəmsavad şeri qurtardıqdan sonra Aşıq Siraca dedi:

-Aşıq Sirac, bu qıfılbəndi sənə yazmışam. Əgər cavab verə bilməsən, bu camaatın qarşısında məğlub olduğunu bildirib, məni ustad kimi tanımalısan!

Aşıq Sirac dedi:

-Əgər cavab verə bilsəm, bəs onda necə olsun?!

Kəmsavad dedi:

-Sonrasına baxarıq!

Aşıq Sirac şeri bir də təkrar oxudu. Şer qurtardıqdan sonra Aşıq Sirac gülümsəyib dedi:

-Kəmsavad, mən elə bilirdim ki, sən əməlli- başlı bir şey yazmısan. Ancaq görürəm ki, yazdığın qıfılbənd yox, uşaq tapmacasıdır. Eybinizin bir cəhəti odu ki, iki mövzunu bir yerə qatmısan. Bu da sənət aləmində böyük nöqsandır. Belə suallara cavab vermək üçün çox fikirləşməyinə dəyməz! İndi sən qıfılbəndini bir-bir de, mən də cavabını deyim. Kəmsavad qıfılbəndi xanə-xanə deyərkən, görək Aşıq Çirac necə cavab verdi.

**Kəmsavad:**
İki dərviş gəşd eyləyir,
Cəsədi var, canlı deyil.
Oxuyur nə ahəng ilə?
Dərdli həyəcanlı deyil.

**Aşıq Sirac:**
Al cavabın, ay Kəmsavad!
Dediyin söz yalan deyil.
Saniyənin zərif səsi,
Oxuyan, nə çalan deyil.

**Kəmsavad:**
Qulağını bursan qoçaq,
Vaxtı gəldi qışqıracaq.
Yatanları oyadacaq,
Nə dost, nə də qanlı deyil.

**Aşıq Sirac:**
Saatda cüt əqrəb olur,
Əqrəb gəzir, mənzil qalır.
Əgər qursan zəngi çalır,
Qurmasan səs salan deyil.

**Kəmsavad:**
Düz oniki mənzili var,
Hər mənzildə dörd iz salar.
Altmış dəfə səcdə qılar,
Sanki bir məkanlı deyil.

**Aşıq Sirac:**
Oniki rəqəmdi durub,
Hər saatda dörddü vurub.
Usta necə nizam qurub,
Öz işindən qalan deyil.

**Kəmsavad:**
Qonşuda bir şair yaşar,
Zümzüməsi həddən aşar.

Təb gələndə coşar daşar,
Nəməkli, ya nanlı deyil.

**Aşıq Sirac:**
Samavardı dediyin söz,
Zümzüməni qaldırır köz.
Meylin çəkir hərdən bir süz.
Cismində dərd bulan deyil.

**Kəmsavad:**
Kəmsavad tək tüstülənər,
Yem qarnında nara dönər.
Gah alışar, gah da sönər,
Ətrafı dumanlı deyil.

**Aşıq Sirac:**
Sirac deyər etmə fikir,
O, tüstünü dudkeş çəkir.
Qaynayanda eylər zikir,
Çay şəkərsiz olan deyil.

Söz tamam olan kimi yenə də Kəmsavada yerbəyerdən dedilər:

-Kəmsavad, biz sizin hər ikinizə dedik ki, siz dost olun! Bu gündən sonra aranızda narazılıq olmasın, ancaq siz işi getdikcə dərinləşdirirsiniz. Bu işin sonu hər ikiniz üçün yaxşı nəticə verməyəcəkdi.

Kəmsavad dedi:

-Mən Aşıq Siracın yaxşı sənətkar olub-olmadığını yoxlayırdım. Doğrudan da Aşıq Sirac kamil sənətkardı. Bu gündən sonra mənim onunla işim yoxdu. Hətda Aşıq Siracın haqqında biri bir yersiz söz desə, mən də onun cavabını verməyə hazıram. Kəmsavadın belə saxta sözləirnə Aşıq Sirac inandı. Hər ikisi yenə də əl-ələ verib gülə-gülə ayrıldılar. Kəmsavadla Aşıq Siracın bu söhbətindən bir- iki saat keçmişdi ki, Aşıq Siracı bir nəfər dostu tapıb dedi:

-Aşıq Sirac, mən bir- iki kilo meyvə alırdım, təsadüfən yolum Kəmsavadın yanından duşdu. Bu zaman gördüm ki, Kəmsavad beş- on nəfər alverçi ilə sənin haqqında söhbət edir. Alverçilərdən bir nəfəri dedi:

-Kəmsavad, Aşıq Sirac haqqında nə fikirdəsiniz? Onunla birdəfəlik barışdınız, yoxsa elə- belə?

Kəmsavad dedi:

-Siz deyin görüm, necə eləsəm yaxşıdı? Alverçi dedi:

-Məndən olsa siz ona əyilməsəniz yaxşıdı! Çünki ona aşıq, sizə isə şair deyirlər. Bir də o kimdi ki, siz ona əyiləsiniz?

Kəmsavad dedi:

-Elə aryxayın olun, mən üzdə barışmışam. Hələ işin ləzzəti qabaqdadı. Mən Aşıq Siracı özümə tabe eləməsəm, adımı dəyişərəm!

Aşıq Siracın dostu bu söhbəti Aşıq Siraca danışdıqdan sonra xahiş elədi ki, dediklərini Kəmsavada deməsin. Aşıq Sirac öz dostuna minnətdarlığını bildirib onun xəbər verdiyini Kəmsavada deməyəcəyinə söz verdi.

Aşıq Sirac axşam evdə öz-özünə dedi: «Kəmsavad üzdə mənimlə barışıb, əl altdan hiylə işlədir. Deməli, o, xoşa- xoşluqla məndən əl çəkməyəcək. İndi artıq payız aylarıdır. Toylar başlayıb. Bir sözlə,

aşıqlar sənətinin yaxşı mövsümüdü. Mənim toylara gedib- gəlməyimə Kəmsavad mane olacaqıdı. Yaxşısı budu ki, ona elə bir formada şer deyim ki, aşıqların mövsümü qurtarana qədər cavab verə bilməsin.» bu məqsədlə Aşıq Sirac urfat üstə müəmmalı dodaqdəyməz təcnis divanisi yazdı. Səhərsi gün saat birdə Kəmsavadın yanına getdi. Bu zaman Kəmsavad alverçilər ilə dövrə vurub, şirin-şirin söhbət edirdi. Kəmsavadın başı söhbətə başı elə qarışmışdı ki, Siracın gəlməsindən xəbərsiz idi. Aşıq Sirac bir qədər söhbətə qulaq asdıqdan sonra salam verib Kəmsavadı söhbətdən ayırdı, dedi:

-Kəmsavad, fikrindəki dağlara, daşlara.

Kəmsavad dedi:

-Aşıq Sirac, mənimlə danışanda müəmmalı danışma! Açıq de görək, nə demək istəyirsən?!

Aşıq Sirac dedi:

-Kəmsavad, atalar demişkən, yer qulaqlıdı. Sən mənim barəmdə hər nə danışmısansa, hamısını mənə deyiblər. İndi ki, sən dediyin sözdən dönürsən, mən bir söz demirəm. Sənin dediyinə razıyam, ancaq mənim bir şərtim var. İki qatar şerimə cavab vermədin, onu güzəştə getdim. Sonuncu dediyin müəmmalı təcnisə də cavab verdim. İndi özün də yaxşı bilirəsən, növbə mənimdi. Mən sənə şer demişəm, ixtiyarın yoxdu ki, mənə bir kəlmə söz deyəsən. Atalar deyibdi ki, dəlilik növbə ilədi. Sənə bir qatar şer deyəcəyəm, gedib bir ay fikirləş, əgər cavab verə bilsən, sənə əhsən deyərəm. Ancaq cavab verə blməsən, mənə hər nə desən, cavab verməyəcəyəm, cavab vermək də istəmirəm. Çünki sən sənətə layiq adam deyilsən! Aşıq Siracın bu sözəli Kəmsavada bərk toxundu və dedi:

-Aşıq Sirac, nə üçün özünə belə arxayınsan? Bəlkə də üstünlük mənim olacaqdı. Bir də ki, mənə bir ay vaxt lazım deyil. Nə qədər qəliz söz desən, sənə iki günə cavab verəcəyəm. Aşıq Sirac dedi:

-İndi ki, belədi, qulaq as, deyim. Aldı görək, Aşıq Sirac Kəmsavada nə dedi:

İstər inci, sən şagirdsən, al dərisini yay indi!
İnad ilə qeyzə gələn, qışı sanar yay indi.
İncidirsən kərgədanı, əngələ salar səni,
İlişərsən caynağına, geci - tezi, yay indi!

İndi ki haqq aşığısıan, yar rahına sər səri,
İnan gələr, qəhri-qəza, eylər səni sərsəri,
İstəyirsən açaq ərsə, səngə çalsın sər səri,
İgid gərək qatilinin edə qəddin yay indi!

İnsan cahana gəldiyi sən de neçə sənədi!
İzhar eylə qırxı hərdən, yeddi nədi, sə nədi?
İrşad ilə yeddisinin Sirac, yeki sənədi.
İnkar edən nər kişilər, axır eldən yayindi.

Söz sona yetişən kimi, Kəmsavad bir qədər gülümsədi. Çünki söz ona əvvəl çox sadə göründü. Ancaq Aşıq Sirac əlavə olaraq dedi:

-Kəmsavad, mənim bu şerim mürəkkəb formalıdı. 1-ci misraların əvvəli «İ» hərfi ilə başlayır, sonu da «İ» hərfi ilə qurtarır. 2-ci şeri deyərkən dodaq dəymir. 3-cü şerin quruluş forması divanidi. 4-cü şer cinasla qurulub. 5-ci şer həm də müəmmalıdı. Kəmsavad vəziyyəti başa düşdükdən sonra dilini çeynəməyə başlayıb dedi:

-Mən səninlə barışmadım, indi ki, sən onun - bunun sözünə inanırsan, eybi yoxdu, sözünə cavab verəcəyəm, ancaq məni bir neçə gün tələsdirmə.

Aşıq Sirac dedi:

-Kəmsavad, mənim də ləqəbim Kəmsavad olsaydı, sizin kimi kəmfürsətliyim olardı. Mənim sözüm sözdü, get nə qədər fikirləşirsənsə, fikirləş. Nə vaxt ki, sözümə cavab yazdın, onda məni axtarıb taparsan, necə məsləhət görsən, elə də edərik. Alverçilər Kəmsavadın qanının qaralmasından başa düşdülər ki, Kəmsavad dolaşıb. Ona görə də ona ürək-dirək verib dedilər ki, Kəmsavad, Allah Kərimdi. Əgər bu işdə canla-başla çalışsan, Aşıq Siracın sözünə çavab verəcəksən. Kəmsavad üzünü Aşıq Siraca tutub dedi:

-Aşıq Sirac, sən get! Mən səni lazım olan vaxtı axtarıb taparam. Aşıq Sirac xüdahafizləşib getməkdə olsun, sizə deyim Kəmsavaddan.

Kəmsavad hər gün cibinə üç dörd dəftər qoyub bazara gəlirdi. Axşama qədər alver eylədiyi yerdə boş vaxtlarını şer fikirləşməklə, yazıb- pozmaqla məşğul olardı. Nəhayət, bir nəticə çıxara bilməyib, axşam tərəfi yazdıqlarını cırıb evinə gedərdi. Bəli, həmin vaxtdan bir ay keçmişdi. Kəmsavad isə Aşıq Siracın sözünə cavab verə bilmədiyi üçün barışmaq fikrində idi. Ancaq istəyirdi ki, yenə də başqaları minnət, təvəqqe eləsin, ondan sonra barışsın. Kəmsavad belə bir xeyirxax adamı gözləməkdə olsun, sizə deyim, Kəlbəcərli Aşıq Şəmşirdən.

Aşıq Şəmşir bir neçə gün gəzmək üçün Gəncə şəhərinə gəlmişdi. Aşıq Şəmşir Gəncə aşıqları ilə görüşüb hal-əhval tutduqdan sonra axşam öz eloğlusu Salmanın evinə qonaq getdi. Axşam hər iki eloğlu gəlmişdən-getmişdən söhbət elədilər. Təsadüfən söhbət Gəncə aşıqlarından düşdü. Uğurluyev Salman Aşıq Sirac ilə Kəmsavadın deyiş-

məsini Aşıq Şəmşirə söylədi:

Aşıq Şəmşir dedi:

-Salman, Aşıq Sirac mənim dostumdu. Mən heç zaman razı olmaram ki, ona dəyib-dolaşan olsun. Sabah Kəmsavadı mənə göstərin, mən onunla danışaram!

Uğurluyev Salman dedi:

-Aşıq Sirac mənim dostumdu. Əgər Aşıq Sirac Kəmsavadın əlində aciz qalsaydı, bu məsələyə mən də qarışardım. Ancaq vəziyyət heç də belə deyil. Kəmsavad Aşıq Siracın əlində aciz qalıb, sözlərinə də cavab verə bilmir. Aşıq Şəmşir ilə Salmanın söhbəti elə bununla da qurtardı.

Səhər hər ikisi Kəmsavadın alver elədiyi yerə gəldi. Aşıq Siracı da həmin yerə dəvət elədilər. Bir qədər söz- söhbətdən sonra Aşıq Şəmşir dedi:

- Kəmsavad, Aşıq Sirac mənim dostumdu. Mən sənin Aşıq Sirac ilə deyişməyinə razı deyiləm. Əgər deyişsən də yenə sənin üçün yaxşı olmayacaq. Çünki Aşıq Sirac yazıb-yaradan, kamil bir sənətkardı, heç vaxt sənin əlində aciz qalmayacaq. Onu da unutma ki, sən Aşıq Siracın eloğlusuna toxunmalı söz demisən. Deməli, taxsırkar sənsən. Odu ki, səndən bir ağsaqqal, ustad kimi xahiş edirəm, Aşıq Siraca «İncimə» rədifli bir şer de, o da sənin səhvini bağışlayıb, şerinə müsbət cavab versin, bununla da dost olub ayrılın!

Aşıq Şəmşirin təklifini hamı bəyəndi və Aşıq Sirac ilə Kəmsavad söz verdilər ki, biz bu gündən sonra bir-birimizlə dost kimi rəftar edəçəyik. Aşıq Şəmşir ilə Salman Kəmsavada razılıq edib getdilər. Aşıq Siracı isə Kəmsavad əyləyib bir xəlvəti yerdə dedi:

-Aşıq Sirac, deməli, biz bu gündən sonra dostuq, eləmi?

Aşıq Sirac dedi:

-Bəli.

Kəmsavad dedi:

-Əgər biz bir-birmizlə dostuqsa, gərək sözümüz də bir-birinə tən olsun.

Aşıq Sirac dedi:

-Bəli, atalar deyib ki, «Dost dosta tən gərək, tən olmasa gen gərək». Biz bir –birimizlə tən olmalıyıq!

Kəmsavad dedi:

-Aşıq Sirac, sənin mənə dediyin «Yay indi» rədifli şerinə cavab verə bilmədiyimi çox adam bilir. İndi ki, biz dostuq, mənə kömək et, sənin şerinə cavab yazıb bir neçə dəfə oxuyum, hamı bilsin ki, mən sənin şerinə cavab yazmışam. Ondan sonra Aşıq Şəmşir dediyi «İncimə» rədifli şeri deyək, bununla da qurtaraq.

Aşıq Sirac lazımı köməyi etdikdən sonra Kəmsavad şeri başa çatdırdı. Səhəri gün bazara gəldi.

Alverçilər Kəmsavadı çox şad vəziyyətdə görüb xəbər aldılar:

-Kəmsavad, bu gün səni çox şad görürük. Söylə görək, təzə nə xəbər var?

-Biriniz gedin, Aşıq Siraca deyin buraya gəlsin! Aşıq Sirac gələndən sonra sizə təzə şer oxuyacağam.

Bir nəfər alverçi gedib Aşıq Siracın Kəmsavadın yanına gəlməyini təklif etdi.

Aşıq Sirac gəlib salam verdikdən sonra Kəmsavadın yanında əyləşdi. Kəmsavad fərəhlə üzünü Aşıq Siraca tutub dedi:

-Aşıq Sirac, sənin mənə yazdığın «Yay indi » rədifli şerinə cavab yazmışam.

Aşıq Sirac dedi:

-Yazmısan, çox yaxşı, çox da gözəl. İndi ki, yazmısan oxu hamı eşitsin.

Kəmsavad üzünü alverçi yoldaşlarına çevirib şeri belə oxudu:

İllər ilə təhsil alsan, keçirsən il, ay indi,
İstəsən ki əqlin arta, dərsin hədər ayindi.
İndi gəlsə sənin təki kərgədanlar dəstəsi,
İçəridən şir çıxanda, eyləyəcək, ay indi!

İndi haqqı gəzənlərin hanı, açaq dərini?
İki yarın arasına girsən didər dərini.
İgidliyin aydınlaşar, siləndə sən dərini,
İkilikdə cəng edirik, ərsə gendi, ay indi.

İlk tarixdən izhar etdi hansı kəstə ə səni?
İsnad etdin Kəmsavada sə, yeddi, qırx əsəni.
İxtiyarın çatırsa da geri qaytar əsəni,
İşıqlandır qaranlıqda aşkar eylə, ay indi.

Söz sona yetişən kimi yerbəyerdən Kəmsavada afərin dedilər.

Aşıq Sirac dedi:

Mən qonaq deyiləm, Azər oğluyam!
Əzəldən bu yurda, elə bağlıyam!
Nə dərdliyəm, nə də sinə dağlıyam,
Dərdsiz aşıq çəkib haşa, incimə.

**Kəmsavad:**

Kəmsavadam, dünən, bu gün, ya yarın,
Bir əsirəm ağuşunda ah- zarın.

Davamıza fitnə verən dostların
Ümüdləri çıxdı boşa, incimə.

**Aşq Sirac:**

Sirac deyər, vardı gözəl sənətim.
Azaddı dövranım, xoşdu niyyətim.
Çor deyənə can deməkdi adətim,
Arif olan düşər başa, incimə.

Söz sona yetişən kimi Aşıq Sirac dedi:

-Kəmsavad, çoxları cəhd edirdilər ki, biz bir-birimizə artıq - əskik deyək, onlar da həzz alsınlar. İndi ki, əsil həqiqəti başa düşmüsən, çox sağ ol! Bu gündən sonra sənlə həqiqi dostam. Aşıq Sirac ilə Kəmsavad dost kimi ayrıldılar.

Aşıq Sirac ilə Kəmsavadın dost olub ayrıldığı gündən yarım ay keçmişdi. Daşkəsənli Aşıq Teymur Siracı bazarda görüb dedi:

-Aşıq Sirac, mən bu gün Kəmsavaddan «İncimə» rədifli şerini almışam. Kəmsavadın sözləri yaxşıdı, ancaq sən dediyin sözlər çox zəifdi. Hətta qafiyələri də bir-birinə yaxın gəlmir.

Aşıq Sirac dedi:

-Aşıq Teymur, bir oxu görək, sən Kəmsavaddan sözü necə götürmüsən?!

Aşıq Teymur bir cib dəftərçəsi çıxarıb şeri oxudu. Aşıq Sirac gördü ki, şer öz dilindən çıxdığı kimi deyil. Kəmsavad şerin başına bir oyun açıb ki, heç şerə oxşamır. Aşıq Sirac şeri özü yazdığı kimi Aşıq Teymura verdikdən sonra Kəmsavadın yanına getdi, salam verdikdən sonra Kəmsavad dedi:

-Kəmsavad, nə üçün mənim şerimi bu vəziyyətə salıb aşıqlara verirsən?

Kəmsavad dedi:

-Aşıq Sirac, mən sənin şerinə düzəliş vermişəm ki, qoy yaxşı olsun.

Aşıq Sirac dedi:

-Mənim şerimə sənin düzəliş verməyin lazım deyil! Necə var, qoy elə də qalsın!

Kəmsavad dedi:

-Kəmsavad, mənim şerimi bu vəziyyətə salmağa sənin ixtiyarın çatmır!

Kəmsavad dedi:

-Mənim ixtiyarım çatdı-çatmadı bilmirəm, keyfim belə istəyib, belə də eləmişəm! Hələ bu harasıdı? Çox oyan-buyan eləsən, sənin şerini ondan da pis vəziyyətə salacağam! Get, sən də mənim şerimi necə oxuyursan, oxu. Bu barədə sənə bir söz deyən deyiləm.

Aşıq Sirac dedi:

-Kəmsavad, mən onda səhv iş gördüm ki, səninlə barışıb dost oldum. Sənin kimi namərd dostdan mərd düşmən yaxşıdı!

Kəmsavad dedi:

-Aşıq Sirac, öz işindi, istər dost hesab elə, istərsə düşmən. Hər kim rastıma gəlsə, yenə sənin şerini öz bildiyim kimi oxuyacağam.

Aşıq Sirac gördü ki, Kəmsavad elə dediyini deyir. Artıq ona baş qoşmayıb getdi. Aşıq Siracla Kəmsavadın sözü mübahisəli qalmaqda olsun, sizə kimdən deyim, Aşıq İsmayıldan.

Aşıq İsmayıl Göyçənin İnəkdağ kəndindəndi. O, gənc yaşlarında ikən öz doğma kəndindən ayrılıb, Goranboyun Dəli Məmmədli qəsəbəsinə gəlmişdi. Aşıq İsmayıl Göyçəli Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Nəcəfin şagirdi olmuşdu. Aşıq İsmayıl ustadından məharətlə dərs alan püxtələşmiş kamil sənətkardı. O, gənc yaşlarından «İsmayıl Mahir» təxəllüsü ilə hər formada şer yazmaqla məşğul olub. İndiyə qədər heç bir sənətkarın qarşısında diz çöküb əyilməmişdi. Aşıq İsmayıl sazbəndliyi də mükəmməl bilir, ona görə də çox zaman şəhərə çıxmayıb, boş vaxtlarında evdə saz qayırmaqla məşğul idi. Aşıq İsmayıl yenə bir gün evdə saz qayırmaqla məşğul olarkən ona xəbər verdilər ki, Aşıq Sirac ilə Kəmsavadın arası dəyib, iki aydan çoxdu ki, deyişirlər. Ancaq çoxları Kəmsavadın təəssübünü saxlayır. Aşıq Siracın isə məğlub olmasını istəyirlər.

Aşıq İismayıl haqsızlığa heç vaxt yol verməzdi. Bu xasiyyət onun qanında idi. Odu ki, öz- özünə düşünüb dedi: «Mən gedib bu məsələni dərindən öyrənib halı olmalıyam. Əgər Aşıq Sirac Kəmsavadın əlində aciz qalıbsa, lazımı köməyi eləməliyəm». Aşıq İsmayıl bu məqsədlə sazını götürüb Gəncə şəhərinə gəldi. Bir qədər bazarı gəzib vəziyyətin nə yerdə olduğunu öyrəndikdən sonra Aşıq Siracın evinə getdi. Aşıq İsmayıl Aşıq Sirac ilə görüşdükdən sonra dedi:

-Aşıq Sirac, mən bu gün Kəmsavadın sizinlə deyişdiyini eşidib gəlmişəm. Əgər Kəmsavad səni üstələmiş olsaydı, gedib onunla hesab çəkəcək idim. Öyrənib gördüm ki, sən onu üstələmisən. Vəziyyətin belə olduğuna çox şadam. Ancaq mənim də sinəmə bir söz gəlib, onu deyim, qulaq as.

İsmayıl Mahir:

Yeni bir söz, təzə dastan eşitdim,
Sinənin ağ varağına yaz dedim.
Baharın eşqiylə ötən bülbülü,
Sarsıtmaz min şaxta, min ayaz dedim.

Aşıq Sirac dedi:

- Aşıq İsmayıl, mən heç zaman Kəmsavad kimilərinin əlində aciz qalmaram. Lakin mənim məğlub olmağımı istəyənlər çoxdu. Buna baxmayaraq bu gün sənin dost kimi gəlib mənim qeydimə qalmağına çox şadam. İndi qulaq as, birini də mən deyim.

**Aşıq Sirac:**

Kəmsavada xahiş etdim, İsmayıl,
Eyləmə sözümü etiraz, dedim.
Sataşma yetənə, ey ağlı zayıl,
Eloğluma yazdığımı poz, dedim.

**İsmayıl Mahir:**

Ustadından kamil dərsin alanı,
Min zövq ilə könül sazın çalanı,
Sinəsində çoşqun təbi olanı,
Alimlər cəhd etsə, susdurmaz, dedim.

**Aşıq Sirac:**

Əsriyib-kükrəyib gəldi meydana.
Çox hiylə işlətdi, girdi yüz dona.
Bir sızqa bulaqsan, axma hər yana,
Kəsər qabağını Kür, Araz, dedim!

**İsmayıl Mahir:**

Talantın dəryadı, təbin axar çay.
Sahibi qüdrətdən almısan bir pay.
Günəş ola bilməz, ulduz, nə də ay,
Nuru münəvvəri azalmaz, dedim.

**Aşıq Sirac:**

Dönə-dönə biz dalaşıb- barışdıq.
Gah dost olub, tez qaynayıb- qarışdıq.
Meydan açdıq bəhsə girib yarışdıq.
Hər yetən sənəti anlamaz, dedim!

**İsmayıl Mahir:**

Çürük söz danışar hər əqli kəm də,
Bilmir danışdığın, baş olur dəmdə.
Eşq odun qalamaynan sinəmdə,
Hər aşıq odlara qalanmaz, dedim!

**Aşıq Sirac :**

İki aydı vuruşuruq sərasər,
Yaxşı- yaman qanan deyil, müxtəsər.
Nə əqli var, nə sözündə bir kəsər,
Bülbül kimi ötə bilməz qaz, dedim!

**İsmayıl Mahir:**

Qardaşım, sirr sözün İsmayıla aç,
Müşkü kəlamınla ellərə nur saç
Şer ümmanında, ay Aşıq Sirac,
Mən sənə qüdrətli bir qəvvas, dedim!

**Aşıq Sirac:**

Minətdaram mənə verdiyin ada.
Rəhmət sənə dərs deyən o ustada.
Siracı dost kimi salmısan yada,
Yaraşır Mahirə telli saz, dedim!

Söz sona yetişən kimi Aşıq Sirac dedi:

-Aşıq İsmayıl, ata-babalar, ağsaqqal kişilər deyiblər ki, zoğal ağacı bəlalı ağacdı. Guya onun bitdiyi yerdə cin-şəytin yığnağı olur. Belə ağcların altında bir şəxs yatarsa, yaxud istirahət edərsə o şəxs ruhi xəstəliyə, yaxud da başqa bir xəstəəliyə tutula bilər. Ancaq buna baxmayaraq, ata-babaların da sözündə bir həqiqət var ki, bir yeşik zoğal alverində Kəmsavad mənimlə beş-on dəfə barışıb dost olub, yenə tərsləşib kor atı minib köndələn çapır. Aşıq İsmayıl, ona görə də mən bütün nöqsanları həmin zoğalda görürəm. İndi siz qulaq asın, bu barədə sənə ətraflı deyim.

Zakatala bağlarından gör gəlsmisən hara, zoğal.
Baş çəkib Gəncə şəhrinə, çıxmısan bazara, zoğal.
Qiymətin bir neçə dəllal saldı ixtisara, zoğal.
Uğrunda cəfa çəkəni, qoymusan avara, zoğal.
Taleyin çox bəd gətirdi, ay iqbalı qara, zoğal.

İstəyirsən bir-bir deyim, həm yaxşını, həm yamanı.
Səndən əvvəl çiçək açan, ağaclardan varsa hanı?
Gec yetişib gec dəyirsən, de kim sevər bu nöqsanı?
Yarpağının qızıl qurdu xatırladır gicitkanı.
Kim dərirsə isti gündə, gətirirsən zara, zoğal.

Bəzən molla deyir guya, kökündə cin - şəyətin yatır.
Odu düşür şər böhtana hər kəs səni alır, satır.
Dindirirsən Kəmsavadı, car çəkir ki, mayam batır.

Tərg edibdi alverini, yazır- pozur, cırıb atır.
Sağlığına yüz dəftəri edib para-para, zoğal.

Bilməm, niyə gətiriblər Gəncəyə sən bəxtəvəri?
Ağdaşı , Göyçayı qoyub, adlamısan Kürdən bəri.
Mingəçevirdə, Yevlaxda, olmadımı bir müştəri?
Dolanaydın Qarabağı, Ağdam, Bərdə, həm Tərtəri.
Ya keçib Qanıq, Qavrıdan, gedəydin Eldara, zoğal.

Bilsə Şəkili Ələsgər, əməlin olacaq saxta,
Gətirməzdi bu mahala, aparıb satardı Qaxda.
Çox sağ olsun, qız- gəlinlər, qisas alırlar bu haxda.
Sıxçalayıb tumun çəkir, duz da səpir edir axta.
Qurudub qızmar günəşdə, vururlar anbara, zoğal.

Mürəbbədə yox əvəzin, səddin düşübdü cahana.
Samavarın yanında sən əyləşirsən ağayana.
Pürrəngi çayla içəndə, ləzzət verirsən dəhana.
Bu da deyil öz hünərin, çox da olma yekəxana.
Şəkərdi, üzün ağardan lap açıq – aşkara, zoğal.

Layısqılı Aşıq Sirac, istəmədi iş uzana.
Ara vuran, çuğul, şeytan, fitnə verdi yol azana.
Neçə əhli- hala dedi, lənət olsun həcv yazana.
Ustad gərək xoş kəlamla, xalq içində ad qazana.
Dil bilməzə çox dedilər, heç gəlmədi kara, zoğal.

Söz sona yetişən kimi Aşıq İsmayıl Aşıq Siraca afərin dedi, əl-ələ verib, gülə-gülə ayrıldılar.

### Aşıq Dibrovun qızı Xanımbala haqqında rəvayət (S.91; T.12)

Xanımbala bir dəfə atası Aşıq Dibrov Kamala deyir ki, rəfiqəsi Gülmə ilə deyişmək istəyir. Söz tapa bilmir, ona kömək etsin. Atası bir qədər susur, sonra deyir ki, Gülməyə bu sözləri deyərsən:

Ar - namusdan xalisən,
Nə bir işdən halisən,
Söyləyəndə bilirəm
Təhərindən dəlisən.
Səksən, doxsan, yüz olar,
Gecə yat, gündüz olar.
Səndən hesab istərəm
Cəmi neçə ulduz olar?

Gördüm yarın üzünü,
Deyim sözün düzünü.
Səndən hesab istərəm
Dünya eni, uzunu?
Məhəbbətim düzdədi,
Qoşa xallar üzdədi.
İtə it demək olmaz,
İtin dili sizdədi.

Bu sözdəri Gülməyə oxuyub. O da iinciyib, heç bir cavav verməyib gedib.

## Aşıq Şəmsəddin haqqında birinci rəvayət (Ə.13; s.135)

Bir dəfə qış axşamlarının birində Talada məclis imiş. Şəmsəddin sazını həzin-həzin çalaraq şirin məlahətli səsi ilə oxuyurmuş. Məclisin şirin yerində bir qadınla bir qız gəlir: onlar ana və bala idilər. Qızın adı Mahi imiş. Qızın anası bir qədər qulaq asandan sonra Şəmsəddindən xahiş edir ki, onların haqqında bir söz desin. Şəmsəddin bunu eşidəndə aşıq havasının ritmini dəyişərək mahnı havasına keçir və Mahiyə baxaraq bədahətən deyir:

Mahnını deyə-deyə,
Qaşların qəddim əyə.
Şəmsəddin olsun qurban
Mim, əlif, hay-yəyə.

Hər tərəfdən alqış qopur. Lakin mahnının məzmununu heç kim başa düşmür. Aşıq burada gizlicə Mahinin adını çəkmişdi: ərəb əlifbası ilə «mim», «əlif», «ha» və «ya» hərflərini yanaşı yazdıqda «Mahi» alınır.

## Aşıq Şəmsəddin haqqında ikinci rəvayət (Ə.13; s.136)

Deyirlər ki, aşığın təzə evlənən, cavan vaxtı imiş. Özü də hələ təzə-təzə saz çalıb oxuyurmuş. Ancaq sazı yox imiş, varsa da, ürəyincə deyilmiş. Bir gün aşığın böyük qardaşı Şaban (İmam Şaban Əfəndi) ona pul verib həftəbazarına göndərir ki, aşıq özü üçün yaxşı bir inək alsın. Şəmsəddin qardaşından pulu götürüb Əliabad kəndinə – həftəbazarına gedir. Bazarda Şəmsəddin sazı əlinə alıb köynəyindən çıxarır və diqqətlə baxıb görür ki, saz əla sazdı, lap ustad aşıqların sazına bənzəyir. Qadından sazı satıb-satmadığını soruşur. Sən demə, bu qadın məşhur bir aşığın arvadı imiş, əri ölüb, indi də ehtiyac üzündən sazı satırmış. Xülasə, Şəmsəddin inək alınası pula saz alıb qayıdır evə.

Qardaşı soruşur:

–A bala, inək aldınmı?

Şəmsəddin deyir:

–Aldım, ancaq inək yox, saz aldım.

Qardaşı məsələni biləndən sonra ona bir söz demir. Həmin saz indi də qalır.

# ŞƏKİ – ZAQATALA BÖLGƏSİNDƏ YAŞAYAN AZSAYLI XALQLARIN FOLKLORU

## AVARLARDA TOY ADƏTLƏRİ (S.22; T.30)

Bizlərdə gəlinlərə çoxlu qızıl-gümüş əşyaları taxardılar. Ən azı yarım kilo. Ayaxlarına də zəncir bağlayardılar. Sinəsinə döşdük bağlayardılar. Gəlinə yaşıl, bönövşəyi rəngli paltar geydirərdilər. Həyat rəmzi mənasında. Nə qədər sevgi-məhəbbət əlaqəsi olsa belə gəlin asanlıqla bəyə təslim olmurdu. Çox məğrur olurdular.

Toyda qara zurna çalardılar. Aşıx də gətirərdilər. Bizdə nişanlı qalmaq yoxdur. Əvvəlcə elçi gedilərdi. Nişan qoyulardı. Çox teziklə də toy eliyərdilər. Ya toyda, ya iməcidə oğlan qıza yaylıq atır, həmin qız da bu oğlanla oynayardı.

Bizdə iməci olardı; yun didmək, yorğan sırımaq, barama təmizləmək, fındıq təmizləmək.

Bizdə oğlanlar bəyəndiyi qıza bənövşə verərdilər. Tanış olmaq məqsədilə. Bizdə bu bənövşəyə dihri bənövşə diyillər.

## DƏFN (S.175; T.30)

Dəfn zamanı özünəməxsus xüsusiyyətlər özünü göstərir:

Ölü basdırılarkən olüyə dizə qədər ağ rəngdə gecə köynəyi kəsilər, tikilməmiş şəkildə təzə paltarla bir yerdə geydirərdilər, yalnız ayaqqabıdan başqa. Çünki ayaqqabı-darlıq gətirər. Paltarların üstündən isə ölü kəfənlənir.

Ayax hissəsi açıx qoyulur ki, ayağı torpağa toxunsun.

Bu avarlara xas olan adətdir. Avarlardan fərqli olaraq udilər təzə ayaqqabı da geydirirlər, ancaq ölünü kəfənləmir, tabutda basdırırlar **(S.170; T.30).**

***

Avarlarda zikr çalınannan sora stolun üsdünə süddü yemək, fırnı qoyulur. Bu, adətən, ölünün 52-də verilir **(S.175; T.30)**.

## İNQİLOYLARDA İNANCLAR

Bednazardan qorummax üçün o övdən ilənin qabığını asıllar **(S.73; T.30).**

Yumurtanı qoyursan qabın içinə, o övdə bednazar varsa, o

yumurta çatdıyır **(S.73; T.30).**

Qırxlı qadın («qırxın dedaqasi») qırx gün ərzağa, nehrəyə, una, xəmirə və s.-yə əl vurmamalı, evdən çölə çıxmamalı, kişilərin gözünə görünməməlidir **(Ə.16; s.130).**

Hal anası inqiloylarda «al», «aliqoci» qadın simasında deyil, oğlan uşağı kimi təsəvvür olunurdu **(Ə.16; s.131).**

Uşağın yatdığı beşiyi evdə tək qoymaq olmaz. Əgər qoyarlarsa, süpürgəyə söykəyərdilər ki, cin-şeytan körpəyə yaxın gəlməsin **(Ə.16; s.131).**

Uşaq qorxanda qaba su tökər, içərisinə də üç dənə kiçik qarğı salınardı. Qarğı hərəkət etsəydi, deməli, uşaq qorxub **(Ə.16; s.131).**

Uşağın adına nəzir, qurban deyərdilər **(Ə.16; s.131).**

Gecə yola çıxanda cibə kömür qoyardılar **(Ə.16; s.150).**

Sol göz səyriyəndə kiprik qoparıb murdarlayar, adam ayağı dəyməyən yerə atardılar **(Ə.16; s.150).**

## İNGİLOYLARDA YUXUYOZMALAR (S.73; T.30)

Cuma günü ağaca çıxılmaz.
Cuma günü ağacı kəsmax olmaz.
Saatı yuxuda görmax pisdi.

## Bayramlar

**Kürtükoba dini bayramı** (noyabr 10-da keçirilərdi).
Bu bayramda qurban kəsilərdi **(Ə.16; s.138)**.

**Qorqot bayramı (Ə.16; s.138)**

Novruz bayramına oxşar bayramdır. Ancaq bu bayramda bahar qız, kosa, keçəl olmur. Bu bayramı martın 20-dən aprelin ortasına qədər durnaların gəlişinə görə qeyd edirlər.

İngiloylar durnaya «qor(q)ot» deyirlər. Görünür, bayramın adı da buradan götürülüb.

**«Qodu-qodu»**
**Çömçə (qotoşi) (Ə.16; s.150)**

Kotya, kotya gəldimi?
Kotya salam verdimi,

Kotya burdan ötəndə
Qırmızı günü gördümü?

## İNGİLOY TOY ADƏT VƏ ƏNƏNƏLƏRİ (Ə.16; S.119-129)

Oğlan üçün qızı anası axtarardı. Razılıq alandan sonra ya oğlan atası tək, ya da oğlanın əmisi ilə qız evinə gələrdi. Yalnız cümə axşamı günü (adna günü) gedərdilər.

Qız evi süfrə salardı. Yeməkdən sonra oğlan atası məsələni açardı. Əvvəlcə razılıq olmazdı. Əgər heç qızı vermək fikirləri yoxdursa, bizim köçəsi qızımız yoxdur – deyərlər.

İlk elçilikdə ta söz qoyulanadək oğlanın atası qız evinə gedəndə cibinə mum qoyar, bir əli ilə həmin mumu yumşaldarmış ki, qız evini «yumşalda bilsin.» Razılıqdan sonra «kiçik nişan», «beh qoymaq», «manati dadeba» üçün gün təyin olunurdu.

«Söz qoydu» olardı.

«Söz qoydu»da oğlan atası cibindən baş yaylığı çıxardıb ortalığa qoyar, içərisinə pul qoyardı. Oğlan tərəfdən gələnlər də pul qoyardılar. Qızın bibisi üzüyü bir oğlan uşağına verər, o da bu üzüyü qızın barmağına taxardı. Qız dı əvəzində bu uşağa pay-corab, şirni və s. verərdi.

Süfrəyə çay, dolma, toyuq şorbası, plov və s. verərdilər, içkidən başqa. İçki yalnız xristian inqiloylarda süfrəyə qoyulardı.

«Söz qoydu»da qız nə alınacağını bildirirdi.

Bir ay sonra toy olardı.

Nişan aparanda bir badya toyuqlu plov, qıza gətirilən paylar ayrıca xonçalarda və ya xurcunda qız evinə gətirilərdi:

«İmarət» (qızıl, gümüş əşyaları), donluq parça (darayi), daraq, güzgü, düyü halvası, «nazuk», çörək, kada, meyvə, qoz-fındıq, qovrulmuş qarğıdalı və s.

Qıza cehiz hazırlananda ən azı 40-50 cüt kişi corabı, 25 cüt uşaq corabı, «bəy corabı» (bu corabı nişanlı qız toxumalı idi), cehiz bağı, çarıq bağı, pərdə bağı, iki dəst yorğan-döşək, hökmən sandıq, aftafa-ləyən olardı.

Toya 2-3 gün qalmış kəbin kəsilərdi.

Qız evində toy olmazdı. Bəzən aşıq məclisi olardı.

Parça olardı. Parçaya bəyi bəzəyən («şemqmanzela») və ya yançı (yençi) gələrdi. Bəyi bəzəyən («şemqmanzela») özü ilə tüfəng götürərdi.

Həyət qapısını bağlı qoyardılar. Qapının hündür yerində nişan qo-

yardılar. Bəyi bəzəyən («şemqmanzela») bir dəfəyə nişanı vurmalı idi. Bundan sonra qapını açardılar. Bəyi bəzəyən («şemqmanzela») nişanı vura bilməsə pul verməli idi.

Oğlan evinin adamları «Koroğlu» havasını çala-çala «dingədarı» («damqudaqnı») rəqsi oynayardılar. («Yeddi muğam» və s. rəqs edərdilər). «Parça»dan sonra qız evinə «çabakan» (cöngə) gətirilərdi. «Çabakandan» sonra oğlan evində çalıb-oynayardılar.

Oğlan evində toy başlanardı. Gəlini bəzəyərdilər. Başına «baş toti» ləçəyi, üstündən də «heratı» kəlağayı (duvaq) örtərdilər. Ayağına «Xəmsə» corab, başmaq geydirərdilər.

Gəlin gəlməzdən əvvəl «bəy çıxardı» əməliyyatı olardı, musiqi ilə. Bəyin qarşısına xon (xonça) qoyardılar. Şax bəzəyərdilər. Bəy hazırlanandan sonra gəlin gətirməyə gedərdilər. Cehizi arabaya yükləyərdilər.

Gəlini evin ağsaqqalı atdan düşürərdi. Başına şirni səpərdilər. Oğlan anası gəlinin belinə kəmər, şal bağlayardı. Gəlinin dodağına bal sürtərdi.

Gəlini pərdə ilə kəsilib tutulan gərdəkdə oturdardılar. Qucağına tez dil açan, tez yeriyən oğlan uşağı qoyardılar.

Çalğıçılar toyu səhərədək davam etdirərdilər. Bəzən aşıqlar da toyu aparardılar.

Səhər gəlinin başından «heratı» kəlağayı götürülərdi, pul verilçr, «üz açdı» olardı.

Həmin günün ilkindi vaxtı toyun «bağışlanma» («şetseva») mərhələsi başlanardı.

Bəy məclisə gələn kimi qız evindən gələn plov badyası onun qarşısına qoyulardı. Bəyə xon gələr, içindəkilər bir-bir sadalanardı. Toyun «bağışlanma», yəni yekun mərhələsi olardı. Pul bağışlanardı. Pulları, əşyaları bəyin atasına təhvil verərdilər.

Kişilər gəlinə pul verər, qadınlar da vidalaşıb gedərdilər. Gəlin də öz növbəsində hamıya corab paylayardı. Bu, bakirəliyin başa çatması ilə əlaqədar olub, «ubi tsinda» adlanardı.

## İnqiloylarda dəfn adətləri (Ə.16; s.134-136)

Yas mərasiminə gələnlər zikir edə-edə ağı deyərdilər.

Xristian inqiloylarda həftənin cüt günü dəfn edərdilər.

Tabutda basdırardılar. Xristianlar 40 gün müddətində mərhumun sifətinə yaxın güzgü və ələk qoyardılar.

Mərhum qadındırsa, onun «xayati»sindən saplar çıxarıb yasdakı

qadınların çiyninə 3-5 sap qoyardılar.

Dəfnə gələnlər də (qadınlar) parça, yaylıq və s. gətirib mərhumun üstünə qoyardılar.

Salacaya kişilər isə pul atardılar. Bunlar «ayaqçı»lar (məclisə qulluq edənlər) arasında bölünərdi.

Xristian inqiloylarda dəfndə qadınlar iştirak etmirdi.

Dəfnin ikinci günü «taploba» («taplı-bal») keçirilərdi. «Taploba»-ya («taplı-bal») heç kim dəvət olunmazdı.

Aybaşı, bir də qırxda xeyrat verilərdi.

Mərhumun ətrafında «buxur» («saqmel») yandırılmış buxurdanı yellədirdi («oqurtxevs»).

### Ləzgi toyları (S.150; T.30)

Qız toyuna qədər qız qonaxlıxları olurmuş. Sora xapay olurdu. Xapay parça kəsdi demək idi.

Sora gəlini ata mindirirdilər. Atı da gözəl bəziyirdilər. Tüfəng atırdılar. Qızın əynində qırmızı, qofta, yaşıl tuman, başına qırmızı yaylıx, kəlağayı örtür, belinə də gümüş kəmər taxırdılar:

Gümüş kəmər incə belə bir cüt tax...

Toyda cik (ət xörəyi) olardı. Çörəklər də ancax yuxa olardı.

## LƏTİFƏLƏR

### Birsiynən qoçuluğumu eliycəm, birsiynən lotuluğumu (S.190; T30.)

Dəlləyin yanna bi dənə ləzgi gəlir. Dəllək habunu tüklü görür, dağlı olduğunu görüp sataşmağa başdıyır.

Dəllək diyir:

- Səən bığlarını nətəər düzəldim? Eşmə olanda qoçu olur, sallax olanda lotu olur, həblə olanda nə olur, nə olur.

Dəllək honun üzünü qırxmağa başdıyır. Bığa çatanda ləzgi diyir:

- Bığın bir tərəfini sallax, ho birsini eşmə eliyərsən.

Dəllək diyir:

- Habu nətəər olur?

Ləzgi diyir:

- Mən birsiynən qoçuluğumu eliycəm, ho birsiynən lotuluğumu.

## Cütü beş manata (S.190; T.30)

Umut baba yolun qırağında samı düzəldirmiş. Kəl üçün boyundurux (samı) lazım olurmuş.

Yoldan keçən diyir:

- Umut baba, salaməleykim. Diyəndə diyir ki:

- Samı düzəldirəm.

Qulağı ağır eşidir dyiənə yoldan keçənin:

- Umut baba, özün nətəərsən? – sualına:

- Cütü beş manata – cavabını verir.

## Balacası tapança, yekəsi tüfəng kimi partdıyır (S.7; T.30)

İki ləzgi birisinin öyünə qonax gedir. Horda da şabalıt bişirillərmiş. Şabalıt partaparta başdıyır. Qonax diyir:

- Ə, dur gedəh. Habuların balcası tapança kimi partdıyır, yekələri tüfəng kimi.

## Udilərdə inanclar

Barama yığılarkən onun üstündən keçmək, tullanmaq olmazdı **(Ə.9; s.102).**

Baramaqurdunun tez yarpağa düşməsi üçün yarpaq tökülərkən ev sakinlərindən biri kümxananın yaxınlığında bitən bir ağaca çıxıb qışqırardı. Bununla da guya ipəkqurdları oyanar və tez yarpağa çıxardılar **(Ə.9; s.182).**

Baramaqurdu ağarmağa başlardısa, bu, qurdun gözə gəlməsi kimi başa düşülərdi. Ona görə də bir parça qızdırılmış kömürü içərisində su olan piyaləyə salıb baramanın üstünə gəlmiş adamların adını çəkərdilər. Kömür kimin adı çəkiləndə suyun dibinə batardısa, bununla da baramanın onun tərəfindən gözə gəlməsini müəyyən edərdilər. Bundan sonra kömür parçasını əzib küçəyə atar və yaxud kömürdən kümxananın qapılarına xaç çəkib, suyu küçəyə atardılar **(Ə.9; s.102).**

Əgər it beli üstə ağnayarsa, evə altı qonaq gələcək **(Ə.9; s.180).**

Gəlin və bəy qaranlıq vaxtı su gətirməyə getməməli və ya su üstündən keçməməli idilər. Haldan qorunmaq üçün gəlin 6 aydan 3

ilədək su gətirməyə getməzdi **(Ə.9; s.151).**

Hamilə qadın müqəddəs ocaqlara gedərkən qaşınmamalıdır. Əgər qaşınsa, uşağın bədənində qırmızı və göy ləkələr əmələ gələcəkdir **(Ə.9; s.180).**

Hamilə qadın çəpgöz adama baxsa, uşağı çəpgöz olar **(Ə.9; s.180).**

İpəkqurdu toxumlarını bir yaylığa büküb, xəlbirə qoyardılar. Bura həmçinin yumurta və polad parçası da qoyulardı. Sonra ipəkqurdlarının bir hissəsini müqəddəs Yelisey kilsəsinə aparardılar. Burada dini ayini icra edib ətirli qətran və şam yandırardılar. Hədiyyə adi ilə yumurta və bir az pul verilər, qalalarını evə gətirərdilər. Bununla da yetişdiriləcək baramanın bəd nəzərlərdən qorunması güman edilərdi **(Ə.9; s.181).**

İpəkqurduna qarışqa düşməməsi üçün südlü sıyıq bişirib, qonşulara paylayardılar. Kümxanada şam yandırardılar. Əgər qarışqalar yenə getməsəydilər, o halda deyərdilər:

«Biz gördük ki, itlər bir-birini necə didirdilər». Bundan sonra qarışqalar kümxananı tərk etməli idilər **(Ə.9; s.182).**

İpəkqurdunun canlanması dövründə adamlar bir-birinə bostan bitkilərinin toxumunu, od və başqa şeylər verə bilməzdi. Yoxsa, barama məhsul verməzdi **(Ə.9; s.181).**

Qoz ağacının başında qarğa görəndə diyillər:

- Ay qarğa, xeyir xəbər gətirmisənsə, dimdiyinnən ayağıvı qaşı.

Əyər qarğa dimdiyinnən ayağını qaşısa, o sahat diyillərki, qarğa bedbaxlıq gətirip.

Qarğa yerini dəyişsə, o sahat deyillərki, aha, xeyir xəbər gətirip **(S.105; T.30).**

Təzə ay çıxanda udilər diyillərki, hondan dəngit as. Əyər dəngit asmax mümkün olsa, bu ay quraxlıx, mümkün olmasa, yağmurlu olceh **(S.105, T.30).**

Uşaq anadan olandan sonra evə 40 gün müddətində adam buraxmaz, gəlin evdən çıxmazdı. Gəlin 40, bəzən 48 gün müddətində evdə

iş görməz, uşağı havaya çıxarmazdı **(Ə.9; s.152).**

Uşaq qırxa düşəndə qırxaçar suyunda çimizdirirlər **(S.98; T.30).**

Uşağı olmayan qadınları «kilisimunçam» adlandırmağı və içərisində 40 nazik zəncir olan piyalənin suyunda çimizdirərdilər **(Ə.9; s.179).**

Uşağı olmayan qadının yeddi evdən mum toplayıb, onları əritməsi və həmin məhlulu qamışın üstünə tökərək, hansı əşyanın alınmasını müşayiət etməsi sayılardı. Alınan fiqurun, əşyanın nədən ibarət olması ilə qadının sonsuzluğunun səbəbi müəyyən edilərdi **(Ə.9; s.179).**

Uşağı olmayan qadını ölü üstünə aparmaq lazımdır. Bu məqsədlə həm də ilan tərəfindən tutulmuş qurbağanı onun əlindən alıb öldürmək, daha sonra qurudaraq müəyyən bir şeyə büküb qadının çiyninə asmaq məsləhət görülürdü **(Ə.9; s.179).**

Uşaqda özündən getmə halı baş vermiş olarsa, bu zaman onu adı ilə çağırmaq məsləhət görülməzdi. Güman edilərdi ki, adı çağrılarsa, cinlər, şeytanlar onu daha çox incidərmişlər. Zəif, xəstələnmiş uşağın sağalması üçün onu dəvənin qarnı altından keçirmək məsləhətdir **(Ə.9; s.180).**

Üstündə qızıl və gümüş olan adamların kümxanaya daxil olmasına yol verilməzdi **(Ə.9; s.102).**

### Udi toy adətləri (Ə.9; s.134-138)

Qız almanı iki yerə bölüb yarısını özünə saxlayıb, yarısını elçiyə qaytarsa, bu, müsbət hal hesab olunurdu. Alma qız tərəfindən kəsilməyib, bütöv halda qaytarılardısa, bu qohumluğun baş tutmadğına görə idi. Elçi gedənlərə «hə» cavabı alma ilə verilərdi. Qəbul edilmiş qaydaya görə qırmızı almaya bir manat gümüş pul taxardılar. Razılığı verən qız həmin pulu da özünə götürərdi...

Udilərin adətinə görə öküzü kotanın yanında kəsərdilər. Bu zaman gəlinin və bəyin toy pal-paltarından əvvəlcədən məhz bu məqsəd üçün götürülmüş parçaları öküzün qanına boyayıb sonra da iynə ilə onları bir yerə tikər, bəyin anası və ya bacısı tərəfindən gizlədilərdi. Qana boyadılmış kotan isə ocağın yanına qoyulardı. Toyun sonunda gəlin bəyə təhvil verilərkən onlar kotanı və qana boyanmış parçaları ocaqda yandırardılar. Əks halda düşmənlər həmin qanlı par-

çaları oğurlayar, bəyə cadu eləyər, bu bəyin ölümü ilə nəticələnərdi.

«Bəy qoydu» mərasimi hazırlanardı. Bəyi bal suyunda çimizdirərdilər. Adətə görə suyu ata-anası sağ olan tökməli idi **(Ə.9; s.139).**

Dəllək udilərin ənənəsinə uyğun olaraq bəyin üzünü qırxmaq üçün 7 illik çaxırla sabunu köpükləndirir və onunla üzünü qırxardı **(Ə.9; s.140).**

Udilərin sağdışı və soldışı olmur. Bu funksiyanı onlarda kirvə yerinə yetirir **(Ə.9; s.140).**

Bəyi bədnəzərdən qorumaq üçün çinar və ya başqa ağacdan heyvan kəlləsi asardılar. Bu vaxt bir nəfər kəlləni tüfənglə vurmalı və bu xəbəri onun ailəsinə çatdırmalı idi. Bu o demək idi ki, bəd qüvvələr artıq vurulmuşdur **(Ə.9; s.140).**

Udilərin toyu üçün xarakterik olan bir cəhəti qeyd etmək lazımdır ki, qız ata evini tərk edərkən oğlan evinin adamları bir bardaq şərabı gəlinin atasına təqdim edib onları öz toyuna dəvət edirdi **(Ə.9; s.129).**

Qəbul edilmiş ənənəyə görə gəlin anasının toya gəlməsinədək oturmazdı **(Ə.9; s.145).**

Gəlin evə aparılarkən qapının ağzına içərisində təzə yağ olan qab qoyardılar. Gəlin həmin qabdakı yağı qapının yuxarı hissəsinin yanlarına çəkib qabı kənara qoyardı **(Ə.9; s.145).**

Gəlinin bacarığı müəyyən edilirdi: Birinci növbədə çörək bişirməsi, barama yetişdirməsi yaxşı hal kimi qəbul edilirdi **(Ə.9; s.147).**

Kirvəsiz qız elçiliyinə gedilməzdi. Əsas söz atanın yox, məhz kirvənin olardı **(Ə.9; s.140).**

## NİC TOYLARI (S.105; T.30)

Udilərdə oğlannan qızın razılığı birinci olur.

Maraqlı cəhətlərdən birisi odur ki, bir qırmızı alma götürüf gedillər qız evinə. Almanı bölüp yarısını qıza verillər, yarsını oğlana.

Alma bütöv qayıdanda, diməli, iş baş tutmayıp.

Belə məsəl də var. Biri qaşqabaxlı duranda diyillər ki, noolup, almavı dala qaytarıplar? Ya da hirsdənəndə: Noolup, səə qırmızı alma göndərmişdim?!

Udilərdə qız qaçırma olmur, razılıxnan olur diyənə. Boşanma da az hallarda olur. Ailə möhkəm olur.

Elçiliyə gedəndə kirvə birinci gedir. Kirvə nəsilliknən olur. Valideyn bərabərində olur. Udi məsəlində belə diyillər:

Allahı dandın, dandın, kirvəni niyə dandın?!

Kirvə belə qiymətdi olur. Kirvəni dəyişmək böyük rüsvayçılıq hesab olunur.

Dəmir qanunları vardır - Kirvədən qız gətirmək olmaz. Kirvəyə qız vermək olmaz. Qədimdən məlumdu ki, yeddi arxaya qədər qıx almaq olmaz.

Hətta belə bir ənənə olub ki, qaynana ilə gəlin bir bulaxdan su içə bilməzmiş.

Dayı qızı, əmi qızı, hətta uzaq qohumdan belə qız almax olmaz.

Nişanda da, toyda da qızgilə oğlan gedirmiş.

Dayının da böyük rolu varmış. Qız dayı evindən köçərmiş.

Ata qızın əlini oğlanın əlinə verip diyir:

- Qızım sənin, sən də Allahın.

Başqa yerlərdən, adətən, Şəkidən musiqiçilər gətirdərdilər. Ancax zurnaynan toy eliyərmişlər.

Toy şənbə, bazar günnəri, oktyabr aylarında, çaxır durulandan sora olarmış.

Toy havaynan olardı.

Ertəsi gün bəyi gəlin gətirməyə hazırrayardılar.

Oğlan və qız evində toy eyni vaxda olurmuş.

Qız evində toy bəzən oğlan evindəkinnən güjdü olarmış.

Dəllək gəlir, kirvə gəlir. Bəyin üzünü qırxıb ərənləşdirillər (kişiləşdirillər).

Ağaşdan kəllə asıp ona güllə atıllar. Kimsə kəlləni vupub, bəyi murdar ruhlardan uzaxlaşdırır, yolunu açıq edir. Həmin tüfəngi də bəyə bağışdayır.

Ana xələt bağlıyannan sora tüfəngi onun boynundan açıllar.

Kirvə bəyin adamları ilə bir yerdə bəyi evdən çıxarardıllar, kirvə qızın əlinnən tutup, sol əli sağa verip diyir:

- Qızı sənə, səni də Allaha tapşırıram.

Qıza da ağ paltar, ağ rəngdə Şəki kəlağayısı örtüllər. Qızı yola salanda qızın qardaşı, yaxut qardaşdığı, bir də yengə gedir. Qızın belini də bağlayırlar.

Gəlini hazırrıyannara xələt verərmişlər.

Oğlannardan biri xələtin birini götürüf qaçır oğlan evinə muşduluğa.

Gəlini arabada apararmışlar. Arabanın qabağını kəsip xələt alarmışlar.

Gəlin ayaq üsdə durarmış, ta anası gələnə kimi. Gəlinin anası, rəfiqələri gəlirlər.

Çörək bölmə adəti var. Qız evinin adamlarına oğlan evinin adamları bir qucax çörək gətirillər. Qadınlar qadınlarnan, kişilər kişilərnən çörək bölürlər. Bu da qohumluğun əbədiliyi kimi başa düşülür.

## «DİŞ» TOYU (S.105; T.30)

Udilərdə ənənəvi mərasimlərdən biri diş toyudur. Uşaq təzə diş çıxardanda keçirillər.

Uşağa çoxlu hədiyyələr alırlar. Uşağın başına düyü, konfet töküllər. Bollux, şirinnih olsun diyənə.

## DƏFN (S.105; T.30)

Yas yerində stola çörək tək, toyda isə cüt qoyulur.

Udilərdə stola pörtdənmiş şabalıt da qoyulur. Hər kəs onnan bir dənə yiyip «Allah rəhmət eləsin» diyir.

## MƏSƏL
## Kantal-kiriş (Ə.9; s.171)

Deyirlər ki, Nicin Dərə məhəlləsində iki qardaş yaşayırmış. Böyük qardaşın adı Xaçn, kiçiyinki isə Əkel idi. Tənbəlliklərinə görə böyük qardaşa «kantal», kiçiyinə «kiriş» deyərdilər.

Haradasa tənbəllərin sayı ikiyə çatarsa, onları «kantal-kiriş» deyə çağırırlar. Belə admalara deyərlər: «Ə, nə durmusan Kantal-Kiriş kimi, bir iş görsənə».

## TUBUL PƏHLƏVAN HAQQINDA RƏVAYƏT (Ə.9; s.171)

Deyirlər ki, Nicdə adlı-sanlı bir pəhləvan yaşayırmış. Tubul adlı bu pəhləvan bu mahalda məşhur imiş. Günlərin bir günündə Nicin yüzbaşısı Ərəkel oğluna Şəkidən gəlin gətirirmiş. Nicə 10 km qalmış Xan yolunda Şəki xanının pəhləvanı yola duz-çörək qoyub, yolu kə-

sir, faytonu saxlayır. Ərəkel yüzbaşı faytondan düşür, pəhəvanın görüşünə gedir. Pəhləvan güləşmək üçün rəqib istəyir. Gəlin aparanlar arasında pəhləvan olmadığından Ərəkel yüzbaşı camaatı yolda qoyub, pəhləvan dalınca Nicə yollanır. Burada Tubul pəhləvanı tapıb, hadisəni ona nəql edir. Akin Tubul pəhləvan xanın pəhləvanı ilə güləşməyə ürək eləmir. Bilirdi ki, bunun nəticəsi onun xeyrinə ola bilməz. Pəhləvanlar ədəb-ərkanla görüşür, Tubul xanın pəhləvanının kürəyini yerə vurur. Onlar Nicə gəlib çatırlar.

Şəki xanı bundan xəbər tutan kimi Tubulu ora apartdırır, onu falaqqaya saldırır, o ki, var döydürür.

## PAXIL QONŞU (Ə.9; s.182)

İpəkçilikdən xəbərsiz olan bir nəfər ipəkqurdu yetişdirmək fikrinə düşür və bu sahədə xüsusi təcrübəsi olan qonşusundan soruşur:

- Qurdları nə ilə yedizdirmək olar?

Paxıl qonşu - «gicitkanla» - deyə cavab verir. İşin nə yerdə olmasından xəbərsiz olan adam ipəkqurdlarına gicitkan verməyə başlayır. Qurdlar qırılmaq əvəzinə tez inkişaf etməyə başlayırlar. Qurdlar beş dəfə boy artdıqdan sonra qonşu yenə təcrübəli qonşusundan soruşur: «İndi nə etmək lazımdır?» Paxıl qonşu qurdların ölməsini nəzərdə tutaraq bildirir ki, qurdların yerinə gərək tut yarpağı əvəzinə tikan qoyasan.

Kümdar belə də edir. Lakin qurdlar yenə də ölmür. Barama sarımAğa başlayırlar. Barama sarındıqdan sonra avam qonşu yenə paxıl qonşusuna müraciət edir: «Baramalara indi nə edim?» Paxıl qonşu hirsini gizlədə bilməyib deyir: «Çölə çıxar və tonqalda yandır» O, belə də hərəkət edir. Səhərisi gün yandırılmış baramaların qızıla döndüyünü görür.

# LƏTİFƏLƏR

## YAZIX NEYNƏSİN?! (S.105; T.30)

Udi ovçu itinin adını Kəsip qoymuşdu. İtini götrüf ova gedir. Özü camahatnan söhbətə başdıyır. Kətdəki itdərin hamsı düşür bu itin üsdünə.

Gimgədəki kişilərdən birsi sataşmax üçün diyir:

- Ə kişi, sənin Kəsibivi gör nə günə qoyuplar. 25 xozeyin düşür bir Kəsibin üsdünə, yazıx neynəsin?!

## SONRA GEC OLACAQ (Ə.9; s.172)

Deyirlər ki, Nicdə öz işinin ustası, oturuşunu-duruşunu bilən bir el ağsaqqalı yaşayırmış. Leon adlı bir kişi hər işi ölçüb-biçər, bir işi görəndə heç vaxt tələsməzmiş. Oğul-uşağını hər hansı bir iş dalınca göndərərkən, əvvəlcə onlara öz öyüd-nəsihətini verər, sonra da işin icrasını onlardan tələb edərdi. Günlərin bir günündə Leon kişi iki nəvəsini çağırıb hər birinə bir cürdək verib, bulaqdan su gətirməyi tapşırır. Uşaqlar suya yollanarkən hər ikisini yanına çağırıb hərəsinə bir şillə vurur. Uşaqlar təəccüblənib babalarından bunun səbəbini soruşurlar. Baba uşaqları başdan-ayağa süzür və deyir: «Bunu etdim ki, bulaqdan su doldurub yolda cürdəyi sındırıb evə gəlsəniz, sizi döysəm, onun mənası olmaz. Odur ki, bəri başdan sizi döyüm ki, cürdəkləri salamat aparıb salamat gətirəsiniz. Yoxsa, sonra gec olacaq.

## TÜRK VARİANTI

Bir dulusçu varıydı. O, hər gün şəyirdini döyüb saxsıdan olan sənəklə onu bulağa suya göndərirdi. Günnərin bi günüsü genə şəyirdini döyüb su dalıncax göndərir. Şəyird suya gedir. Yolda biddən sürünçüb yıxılır. Su sənəyi yerə düşüb qırılır. Qayıdanda fikirrəşir ki, usda honu döycəh. İntası usda honu gülə-gülə qarşılayır. Hona çay-çörək verir. Şəyirdin gözləri bərələ qalır. Elə bil ki, hər gün honu döyə-döyə suya yola salan ho döylüydü. Marağını gizdədə bilmiyif usdaya diyir:

-Ay usda, bu nətəər olan işdi?

Usda cavabında diyir:

-Hindi döyməyin nə faydası var. Döyürdüm ki, faydası olsun. Sənək sınannan sora nə xeyri. Daa gejdi! **(S.195; T.30)**

## ZAXOR TOYLARI (S.80; T.30)

Mahnı oxumaq olmazdı bizim toylarda (qız toylarında). Ancax havalar olardı. Məsələn, «Sarıbaş» havası olardı. Qızı köçürəndə halva, bal da olardı.

### Zaxor toylarında oxunan bayatı-mahnılar (S.80; T.30)

Sən yorğun geləndə,
Səhər tezdən duranda.
Suvagili göreydim
Gün dağlara uranda.

Sevgi canıma saldı,
Gözlerim yaşardı,
Bizim Suvagil yaylax
Xeyli uzaxda qaldı.

Çobanlar  quzu alar,
Onu yaylağa salar.
Qoyunlar  enən kimi
Dağlarda sözsüz qalar.

Biz heç görməzdik u dağda,
Oturardım mən sağda.
Altı il çoban oldum
Çuğullu qarnoy dağda.

## Salaməleyklər  (S.80; T.30)

Bizə gəlip bir adam,
Salamalik, salamalik.
Onunüçün mən yadam,
Tali mali, talicon.
Bu günnər balam gelir,
Salamalik, salamalik.
Onunüçün mən şadam,
Tali mali, talican.

Evində  tek qalanda,
Salamalik, salamalik,
Güllü rəngi solanda,
Tali mali, talicon.
Mən sizi çox isdıram,
Salamalik, salamalik.
Urusyada  olanda
Tali mali talicon.
Kaş ki, göreydim sizi,
Salamalik, salamalik.
Olmaya sözün düzü,
Tali mali talicon.
Oğlumun toy  basladı,
Salamalik, salamalik.
Oynamağa çıxmadı,
Tali mali, talicon.

Əlində  dolu kasa,
Salamalik, salamalik,
Söz diməyib bir kasa
Tali mali talicon.
Sen də birrikdə oyna,
Salamalik, salamalik.
Oynasınnar analar,
Tali mali talicon.

## Ceyranım (S.80; T.30)

Bu da bildim nahayat,
Ceyranım, ceyranım.
Mahnılar həvəskəri
Ceyranım, ceyranım
Muradova Hafizət.
Dərdini  mənə söylə,
Ceyranım, ceyranım
Başqasına gileylə
Ceyranım, ceyranım
Öləndə  hamı ağlar,
Ceyranım, ceyranım.
Sağlıqda   hörmət  eylə.

## Aman, ay aman (S.80; T.30)

Ayağa batan muxdı,
Aman, aman, ay aman,
Bilmirəm hardan çıxdı,
Əri olmayan qadın,

Ay aman, aman,
Hamısınnan yazıxdı.

Əlinə alan yüzdü,
Ay aman, aman,
Evləri üzbəüzdü,
Əri olmayan qadın,
Ay aman, aman
Hamısınnan ucuzdu.

Toyuğa tökdüm dəni,
Ay aman, aman.
Bilmədim yeri hani.
Ərim ölənnən sora
Ay aman, aman
Heç saya salmır məni.

Əksihlər yaman çoxdu,
Ay aman, aman.
Ürəyə batan oxdu,
Qohumlar çox olsa da,
Ay aman, aman
Meni axtaran yoxdu.

Dona vurdum yamağı,
Ay aman, aman,
Neyniyirsən saymağı.
Ərim ölənnən sora
Ay aman, aman
Heç yoxdur yaşamağı.

Yeməyi tökdüm qaba,
Ay aman, aman.
Baxdım mən u kitaba,
Ərsiz arvadın sözü
Ay aman, aman,
Heç kəs almır hesaba.

Mən diyən hava çalmadı,
Ay aman, aman.
Öz bildiyinnən qalmadı.
Ərsiz arvadın sözü
Ay aman, aman
Heç kəs hesaba almadı.

## TÜRKƏÇARƏLƏR

Ağ tutun bəhməzi mədənin, qara ciyərin, qara öskürəyin dərmanıdı **(S.136; T.32).**

Ağır öskürəyi sağaltmaq üçün qədimlərdə at südündən, fındıq qabığındakı, qozun ləpəsindəki pərdənin dəmləməsindən istifadə edilirdi **(Ə.5; s.73-74).**

Astma xəstəliyi olan adam kirpi ətini, yel xəstəliyi olan adam ayı ətini yeməlidi **(S.123; T.15).**

Andızı dəmləyib içdikdə qanı duruldur **(S.89; T.30).**

Baş ağrısını və yuxarı qan təzyiqini müalicə etmək üçün qara-qara (qarağat) dəmləyir, yaxud stəkana bolluca sumax tökərək, su ilə qarışdırıb içərdilər **(Ə.5; s.73-74).**

Baş ağrıları, halsızlıq və qəfil olan ağrılar üçün andız ən yaxşı iləc hesab edilirdi **(Ə.5; s.73-74).**

Baş-bədəni əzilən, sərpən adamı qoyun, ya keçi dərisinə salmaq lazımdır. Dəri isti-isti ikən **(S.123; T.15).**

Bənövşə iyləmək (hətta yemək), alma yemək, nanə çeynəmək, cökə çiçəyini dəmləyib içmək ürək xəstəlikləri üçün çox xeyirlidir **(Ə.5; s.73-74).**

Böyrək xəstəlkləri, o cümlədən böyrəkdə olan daşı əritmək üçün meşə çiyələyinin yarpağını və meyvəsinin dəmləməsi, qarpız, limon, yemək, itburnu və cəfərinin qaynadılıb içilməsi məsləhət görülür **(Ə.5; s.73-74).**

Cincərin, xüsusilə də dişisinin kökü, gövdəsi, yarpağı, toxumu, hətta çiçəyi də bir çox xəstəliklərin dərmanıdı **(Ə.5; s.73-74).**

Cökə çiçəyi öskürək üçün, nanə ilə reyhanı ürək üçün dəmləyib içirlər **(S.75; T.12).**

Çobanyastığı, andız kökü soyuqdəymə dərmanıdı **(S.136; T.32).**

Çobanyastığı qarın ağrısı üçün yaxşıdı **(S.75; T.12).**

Dağçayı, yaman çöpü, kəklik otunu bir yerdə dəmləyib içməklə sətəlcəm, mədə xəstəliklərini müalicə etmək olar (üç həftə fasilələrlə) **(S.148; T.30).**

Dəmrov otu dəmrovu aparır **(S.75; T.12).**

Diş ağrısı zamanı dişə mixəg qoyurlar **(S.76; T.12).**

Dişlərin dibi boşalanda, damaq qanayanda dəfnə yarpağı və yarpız çeynəmək məsləhət görülərdi **(Ə.5; s.73-74).**

Əncir yarpağının südü ziyilin qənimidi **(S.136; T.32).**

Əzgilin çərdəyini, budağı və yarpağını böyürtkənlə qatıb

qaynadırsan. Suyunu içməklə mədə-bağırsaq pozğunluğunun qarşısını almaq olar **(S.210; T.30).**

Gicitkən, gəndəlaş, andız, dəvədabanını bir yerdə qaynatmaqla, onun suyu ilə vanna qəbul etdikdə yel xəstəliyini müalicə edirlər **(S.210; T.30).**

Göz ağrısı üçün çayın dibində qalmış çayı tənzifə büküb gözün üstünə qoymaq; kəskin göz ağrısında sərçəni diri-diri (isti-isti) gözə bağlamaq məsləhət görülürdü **(Ə.5; s.73-74).**

Hinduşka otu adı ilə tanınan bitkinin yarpaqlarının və gövdəsinin böyrək üçün dərmanıdı **(Ə.5; s.73-74).**

İlan çalan zaman oranı kəsib yerinə qatıq sürtüllər **(Ə.5; s.73-74).**

İspirəni bədənin müxtəlif yerlərində daxili, yuxarı qan təzyiqini müalicə etmək üçün kirpi əti ən yaxşı dərman hesab edilirdi **(Ə.5; s.73-74).**

İt dişləyən yerə ortadan bölünmüş quru lobya dənəsi yapışdırsan, yara tez sağalar, hər diş yerinə yarım lobya **(S.123; T.15).**

Qan təzyiqi aşağı olan və bu səbəbdən möhkəm baş ağrısı keçirən və qan azlığı olan xəstəyə, xüsusən də qadınlara təmiz balla kərə yağını azca qaynadıb yeməyi, yaxud bal və yağ dolu stəkanı qazanda, qaynar suyun içərisində (stəkana su dolmamalı) yaxşı isidərək qarışdırıb üzü aşağı uzanmış vəziyyətdə içi boş boru şəkilli qarğı ilə (əslində, buğdanın içi boş gövdəsi ilə), yaxud nazik, içi boş saman çöpü ilə yavaş-yavaş, sümürərək içməyi məsləhət görərdilər. İçərkən bal olan stəkan daha aşağıda olmalıdır ki, sorularaq içilsin **(Ə.5; s.73-74).**

Qara yemişənin dəmləməsi təzyiqi salmaq üçün, qırmızısı isə təzyiqi qaldırmaq üçün dərmandı **(S.75; T.12).**

Qara ciyər xəstəlikləri üçün ağ tut bəkməzindən istifadə edilirdi **(Ə.5; s.73-74).**

Qarın ağrısı üçün-yarpızın gövdəsi və yarpaqları, hətta kökü qaynadılaraq içilirdi **(Ə.5; s.73-74).**

Qarnı ağrıyan adam zoğal çərdəyini qaynadıb suyunu içsə qarnı sağalar **(S.123; T.15).**

Qarğıdalı saçağının dəmləməsi böyrək xəstəliyi üçün dərmandı **(S.75; T.12).**

Qızılca çıxaran uşağa at südü, tut bəhməzi vermək məsləhətdi **(S.123; T.15).**

Qızılcaya tutulmuş uşağa it südü içirmək lazımdı **(S.76; T.12).**

Gicitkən, gəndalaş, andız, dəvədabanını bir yerdə qaynatmaqla, onun suyu ilə vanna qəbul etdikdə yel xəstəliyi müalicə olunur

**(S.195; T.30).**

Oymadərən çiçəyinin və palıdın birillik zoğunun dəmləməsi, qurumuş zoğal çərdəyinin ununun balla qarışığı ayaqyolu pozuntusunun (dizenteriyanın) dərmanıdı **(S.136; T.32).**

Oymadərən qarın ağrısı üçün faydalıdı **(S.75; T.12).**

Sarı çiçəklə dəmrovu müalicə edirlər **(S.210; T.30).**

Soyuqdəyməni müalicə etmək üçün moruq, böyürtkən, zoğal mürəbbəsi, heyva mürəbbəsi ilə bərabər heyva çiyidi də faydalı hesab edilirdi **(Ə.5; s.73-74).**

Suda bişmiş əncir, tut yarpağı qan azlığının dərmanıdı **(S.75; T.12).**

Şirinçöpü qara yarası olan adamın yarasına keçirdikdə yarası sağalır **(S.210; T.30).**

Uşaqlarda (böyüklərdə də) köpü müalicə etmək üçün şüyüd yemək, onun toxumunu və özünü dəmləyib içmək faydalı hesab edilirdi **(S.195; T.30).**

Ürəyi ağrıyan adam yemişən meyvəsini qaynadıb içməli, çoxlu qoz yeməlidi **(S.123; T.15).**

Öskürək və ağ ciyər xəstəlikləri üçün qara tut bəkməzi; yağlıca kökü (gülxətimi) bronxit xəstəliyinin dərmanıdı **(S.148; T.30).**

Yanıq zamanı yumurta ağı və bal sürtdükdə yanıq sağalır **(S.76; T.12).**

Yanıq yerə ya kartof kəsib qoyarlar, ya da qatıq sürtərlər **(S.123; T.15).**

Yumurta sarısı, günəbaxan və nehrə yağını qarışdırırlar. Sonra onu tənzifin üstünə qoyarlar və başa sarıyarlar. Bu, başağrısını alır **(S.76; T.12).**

Zirincin kökünün dəmləməsi sarılığın dərmanıdı **(S.136; T.32).**

# BÖLGƏDƏKİ SPESİFİK ADLAR HAQQINDA

## YEMƏK ADLARI (T.30)

Bürcəh (Oğuz) – sulu yemək növü

Cad (Oğuz) – sacda bişən qarğıdalı çörəyi.

Caday (Zaqatala) – içinə döyülmüş qoz qoyulmuş çörək

Cıradal (Oğuz, Qəbələ) göyərti, düyü, soğandan hazırlanan yemək

Cik (Oğuz) - ət xörəyi

Cincər xitəbi (Balakən Zaqatala) – gicitkən qutabı

Cütdülü (Balakən) – xəmir xörəyi; un, duz, soda, şor, su qarışdırılaraq hazırlanan yuxa növü

Çexdirmə (Oğuz) – qabaq, düyü, qoz ləpəsindən hazırlanan yemək

Çobal (Qax, Zaqatala) – yemək növü

Çobanaşı (Oğuz) – qoyunun içalatından hazırlanan plov növü

Çoğcara (Zaqatala) – yemək növü

Əsadayı (Oğuz) – un, yağ, şərbətdən hazırlanan yemək

Ətkaş (Balakən, Zaqatala) – ət yeməyi

Horba (Oğuz) - qoz, lobya, düyüdən hazırlanan yemək.

Hinduşkalı müsəməli aş (Oğuz) – plov növü

Xapay (Oğuz) – qoz, lobya, xəmirdən hazırlanan yemək növü

Xinçili (Qax) – xəmir xörəyi

Xitəb (Balakən, Zaqatala) – qutab

İsirmi (Zaqatala) - reyhan, keşniş, quru çörək, sarımsaq və albalı suyundan hazırlanan və sərinləşdirici vəsait kimi istifadə edilən soyuq yemək növü

Kakə (Zaqatala) – xəmir xörəklərdən biri

Kömbə (Oğuz) – 14 qat yuxa ilə hazırlanıb təndirdə bişirilən şirin çörək növü

Qaqaley (Zaqatala) – sacda bişən qarğıdalı çörəyi

Qorasu (Oğuz) – reyhan, xiyar, keşniş, quru çörək, sarımsaq və böyürtkən suyundan hazırlanan və sərinləşdirici vasitə kimi istifadə edilən soyuq yemək növü

Qıniy – qarğıdalı çörəyi

Qıyqac (Qax, Zaqatala) – xəmir xörəyi

Qusul (Balakən) – xəmir xörəyi

Labba (Şəki) – lobyadan hazırlanmış qatı yemək

Lobya kaşı – lobya, yağ, pomidorda qızardılan soğan, düyü ilə hazırlanan yemək növü

Maxara (Balakən) – sacda bişən (qırağı saçaqlı) çörək (sanki günəşi xatırladır)
Manquş (Oğuz) – (bax: şırtıl)
Mərcimək (Oğuz, Şəki) – (bax: şırtıl)
Sürhü (Qax) – ət, unla bişən yemək növü
Şırtıl (şırfıl) (Oğuz, Şəki) – lobya əzməsindən və qozdan hazırlanan yemək
Sühüllü (Zaqatala, Balakən) – xəmirdən və ətdən hazırlanan yemək növü
Yəxni (Qəbələ, Oğuz) – qaynadılmış ət
Yarpaq xəngəl (Zaqatala, Balakən) – boş xəngəl
Zərbabyaxa (Oğuz) – bax: şırtıl

## BÖLGƏDƏ NƏSİL VƏ TAYFA ADLARI (T.12; 30)

Alvasdar
Allahqulular
Atayevlər
Balaylar
Balagözdər
Bığlılar
Burcalılar
Cəbilər
Cumalılar
Əfqanlılar
Hacı Nurular
Hacı Cebreyillər (onlara keçəçilər də deyirlər)
Hasanlar
Həmidlər
Həsəneylər
Həsənoğlular
Xanlalar
Xəlilbəy uşağı
Kongüllər
Qasımlar
Qebeddər
Qurbanlılar
Laçınlar
Maqsudlar
Mehdiuşağı
Mirallar
Mirimlər
Muraddar
Ocaqqulular
Pələli
Sarılar
Səfilər
Şeyxlar
Şəkililər tabunu
Şıxımlar
Uqallar
Yaullar

## LƏQƏBLƏR (T.30)

Abat Maley **(T.12)**
Ağbaş Mahmut – anadangəlmə saçları ağ olduğu üçün belə deyirlər

Axsax Gülpəri
Babarat Mustafa
Bidiş Məhəmməd – «bidiş» sözünü çox tez-tez işlətdiyi üçün
Cırtdan Musa – boydan balaca olduğu üçün
Cin Abzər – boydan balaca olduğu üçün
Cin İslam
Çatdağan Fatma – çox danışdığına görə
Çinə bala Mahmud
Çolaq Cumar
Dağal Məryəm
Dar-dar Musa – həmişə darı yediyi üçün
Dədəquş Ramazan
Dəmirçi Abbas
Dəllək Osman
Dopu Səmət – balaca, yumru kişi olduğu üçün
Dozay Məhəmməd – key, xeyrə-şərə yaramaz olduğu üçün
Fındıx Məhəmməd – fındıq yığdığı üçün
Halley Məhəmməd
İnşaat Məhəmməd - inşaat briqadiri işlədiyi üçün
Keçi Qurban – keçi saxladığı üçün
Keçi Vahid
Keçəl Əmir
Kos Kamal - gombul olduğu üçün lap kosa oxşayırdı
Kor Mustafa – bir gözü kor olduğu üçün
Kürt Usuf – 7 yaşında gəzməyə başladığı üçün
Qanbi Ramazan
Qarabud Mahmud – dərisi qara olduğu üçün
Qardaş Məhəmməd – hamıya qardaş dediyi üçün
Qızıldiş Məhəmməd – ilk dəfə kənddə onda qızıldiş olduğu üçün
Qimil Mustafa – hamıya «nə qimil kimi qısılıf durmusan?» - dediyinə görə
Qoz Məhəmmət – qoz yığdığı üçün
Quş İsgəndər
Lop Bəhərçin – suya daş atıb lop elədiyi üçün
Mandarin Vahid – Gürcüstandan mandarin gətirib alver etdiyi üçün
Micir İsmayıl – arıq, cansız, zəif olduğu üçün
Miy-miy Məhəmmət – danışanda danışığını başa düşmək olmazmış. Arı kimi vızıldayırmış.
Nağara Nuru - boydan balaca, kök olduğu üçün. Lap nağaraya ox-

şayırdı.
Potu Zakir
Sandıqqayıran Süleyman
Salley İsgəndər
Suyux Məhəmməd – lobyalı, qozlu sıyığı çox yeyərmiş. Buna görə ona elə deyirlərmiş.
Suyuxbölənlər (suyuxçəkənlər) – İki qardaş ayrılırmış. Ho gecə suyux bişiriblərmiş. Suyuğu bölmək isdiyillərmiş. Diyir ki:
- Gət, tərəzidə çəkip, bölək.
Diyir:
- Yaxşı.
Suyuğu tərəzidə çəkip bölüllər.
Hindi ona görə də hunnarın addarı suyuxbölənlər qalıp.
Tolamazoğlu İsgəndər
Toşu Yetim (Xalid) - öküzləri saxlayanda toş elədiyi üçün
Tərkisalat Qasım – dinsiz, imansız hesab olunduğu üçün
Yekə Mitəlif (Mütəllib) - yekəpər olduğu üçün
Zənbil əmi - Kasıfçılıxdan Xaçmazdı bi ayağına çarıx giyər, ho birisinə qaloş (hərəsinin bi tayı cırılıf diyənə), əllərində də ki qara zənbil. Holara da habuna görə zənbil əmi diyillər.
Zərgər Salam

## ŞƏKİDƏ LƏQƏBLƏR (T.24)

Ağan Əhməd
Ağvələnd Əmraslan
Alabula Həmid
Albalılar
Altıaylıq Məmmədəli
Altıbarmaq Hacı Səlim
Ana qızı Məmməd
Ana xanım oğlu
Analı oğlu
Anan yesin Hümmət
Apdır Abdurəhman
Armud oğlu
Avgərdən Məmməd
Ayaqyalın oğlu İbrahim
Ayı Bilal
Badam İdris
Badrom Hidayət
Baqara Hüseyn
Banvaz Cəmil
Baytal Səfər
Berdinka Nəsif
Bədo
Bəsər Əhməd
Bıdı
Bıdır Bahav
Borclu Vəli
Bö-bö Adşirin
Buğ Məmməd
Burnu qırıq Cabbar
Buynuz oğlu
Camış Məmmədəli
Can-ciyər Səlim

Cavan Mustafa
Ceyran Əkbər
Cıqqı
Cındır Əli
Cırt Ramazan
Cırtdadım Ələkbər
Cırtdan Tağı
Cırıqların Fərəc
Cığal Cabbar
Cibbi
Cin qaragöz
Cindo Hidayət
Cirə Cabbar
Cit Telli
Citdili Məmməd
Ciy-ciy Səməd
Cundu Süleyman
Cuhut İbrahim
Çaqqal Əyyuf
Çaqqal Muxtar
Çanta pakt Usuf
Çapıq Əhməd
Çeteze Hüseyn
Çığırdalı oğlu
Çouş Osman
Dağ Hacnalı
Dağal Sara
Dağar Salman
Dakqıdı Məmməd
Daqqı Səlim
Dam yapdı Hacıbala
Dama girən Ələkbər (Sabit Rəhman)
Damarçı Salam
Dana Rəşid
Danqı Məhərrəm
Daram Səltənət
Dart qopsun Hümmət
Daşqı zalı
Davar İsfəndiyar
Derder Kamal
Dəsvəçə Mahmud
Dəvərə göz Mehdi
Doşan Hüseynbala
Dır Nəsif
Dır-dır Qulam - Şakir
Dilbər Hüseyn
Diş Yusif
Dobı Abbas (Vahid)
Dodaq Yunus
Doqi Mənəf
Dol Həşim
Dolça Məmməd
Dolma boxça Məmməd
Dozay Həsən
Döyə Abdulla
Dubbuluş Şamil
Duxul Salman
Dumba Nağı
Dünbək Şəkər
Dünbül
Əlləm-qəlləm Nurqələm
Əntər Usuf
Ərkək Abdulla
Əşəd-məşəd Yusuf
Əştərxan Abdulələli
Fərə Ələkbər
Fərəməz Nağı
Fətir Fatma
Fındıq Məmmədli
Fıntış Qulam
Fır-fır Nuru
Firni İsmail
Fış Yusif
Fisincan Məmmədli
Göygöz Əsədulla
Hampa Səttar
Hələhüm oğlu
Həştərxan Abdulələli
Hikkə  Mərəm

Xakəndəz Balaxanım
Xallı Mabud
Xata Mustafa
Xata-bala (qəzet satan)
Xatun oğlu Qaffar
Xatun  uşağı
Xərzil oğlu
Xordların Əhməd
Xortdək Əlibala
Xoruz Mustafa
Xoruz oğlu
Xotək Əsabəli
Xır-xır Abdulhəmid
Xızır oğlu
Xingəl Hacı Məmməd
Xotkər Hüseyn
Xurnih Həsən
İdbar Əhməd
İman gümüş oğlu Əsabəli
İnək Mustafa
İskən Hacıağa
İtdər Abdulla
İt Əhməd
İt kəlləsi Qara
Keçəl Saleh
Keçi Muxtar
Kəntər oğlu
Kəsəyən Əkbər
Kəvər Musa
Kitab oğlu
Konsul Mustafa
Kvadrat Əli
Qaçay Hümmət
Qara göz uşağı
Qallay Mahmud
Qara papax Rəsul
Qara toyuq Əhməd
Qaşqalar
Qəbir qazan uşağı
Qəcər Xeyralı
Qəlyan Abdurəhman
Qəm Dadaş
Qəpək Mustafa
Qəzənfər H. Abdurahman
Qındılı
Qını-qını Muxtar
Qıpırd Hacı Abdulhəmid
Qırış Məcid
Qız Hüseyn
Qızıl diş Mahmud
Qozdağarlar
Qudes Hüseyn
Qukqi Səməd
Qulağı kəsik uşağı
Qumbaralar
Qundaksaz Mahmud
Qurban oğlu
Qurd Ələsgər
Qurd oğlu
Quru Mələk
Quzu Əhməd
Lavada Cabbar
Lələ Vahid
Lıqqıdı Cabbar
Lırdı Qara
Loğa Cəmil
Loqqi
Lüt Məmməd
Madara verdi İb. xəlil
Makko İsmail
Maqay
Mal qarnı Məmməd
Malay İsmail
Mar Mustafa
Maşaq Əyyub
Maşqa Əlibala
Maşo Yusif
Mazan Alı
Mərdan Məsmə
Mərdo Məmməd

Mərru Zahid
Məsəl İdris
Məsəlçi Hacı
Mətüs Məmməd
Mıqırd Hacı Abdulhəmid
Mırıx Cabbar
Mırt Mustafa
Midiş Məmmədli
Mörgümüşlər (Salman Mümtaz)
Mürdəşir Səltənət
Naçar Mehdi
Nanay İsmail
Nənən ölsün Abdulkərim
Noğan Cabbar
Ocaq qulu oğlu Həsən
Oğru Həmid
Oppandı Musa
Öküz Abdulkərim
Ördək Osman
Pambıx Abdulkərim
Pardalax Abdulla
Papala deyən Məmməd
Papas Həsən
Papı Abdulla
Papıq Mustafa
Pas Abdulla
Pas Əhməd
Pasdi İsmail
Pereqon Abdulla
Pet Abbasqulu
Peysəl Əhməd
Pələ Qaffar
Pısı Bahav (Vahabzadə)
Pıt Lətif
Pişik Əhməd
Pivə Hüseyn
Pompuş Əli
Popur Əzizə
Pota Rəsul
Ruhani Məmməd
Sırtıq Nağı
Saxsağan baş Səməd
Saqqız oğlu
Sallax Həmid
Samançılar
Samavar oğlu
Seygah Həmid
Sənəm oğlu
Sərçə Səlim
Sərrac Xalid
Sərkər Hüseyn
Soldat oğlu Rəcəb
Sinəvər uşağı
Siyasət Əhməd
Sürməligöz Hacı Feyzulla
Şafnə İsmail
Şaxanım oğlu
Şaqəfdi Hüseyn
Şəbbədi Vahid
Şələ Qurban
Şərəşur Fatma
Şəti Cabbar
Şırfıl Usuf
Tapanca Zahid
Tay çarıx oğlu Məmməd
Tayqulaq Məmməd
Teniska Nadir
Tələsmiş Abdulkərim
Təliş Mirzə
Təndirçi Səməd
Təpəl Çumay
Təpə Süleyman
Təzə Əsmər
Tıs Camal
Topçı Abdurəhman
Topuş Ələşrəf
Törə Salman
Tukqay bala
Tula Baxış

Turupka Abdurəhim
Tülkü Qurban
Uradnıy Abduləziz
Usta Gülülər
Uzunburun Davud
Vasvası Əli
Vəhşi Əhməd
Vicdan Paşa
Viy Məmməd
Yabı oğlu
Yağlı Məsim
Yapşaq Əli
Yaramalı oğlu
Yanan Yaqub
Yanıq Qaffar
Yekəağız Vahid
Yekəbaş Xatın
Yekəburun Əkrəm
Yeddilər
Yeddi bacılar
Yeddi ətək Veysəl
Yezid oğlu Yusif
Zəməndə İsmail
Zoğ Məmməd
Zorbalar
Zığıltı Pəri
Zingir Əli
Zırrama Paşa

## UNUDULMUŞ OBALAR (T.43)

**Ağuluq** – Oğuz rayonunun Xalxal kəndinin şimalında, dağların döşündə salınmışdı. Ləzgi kəndi olub.

**Aşağı Filfilli** – Oğuz rayonunun indiki Filfilli kəndinin cənubunda yerləşib; kəndə sel-su düşdüyünə görə əhalisi köçüb.

**Bala Söyüdlü** – Ruslar yaşayan kənd olub, əhalisi köçüb. Oğuz rayonunda indiki Böyük Söyüdlü kəndinin yuxarısında, dağların yamacında yerləşib.

**Balaşum** – Oğuz rayonunun Xaçmaz kəndinin günçıxan tərəfində qərar tutmuş kəndin adı idi. «Bal-çörək» mənasını verir. Utilər yaşayıb. Əhalisinin köçüb getmə səbəbləri məlum deyil.

**Balıx** kəndi – Qəbələ rayonunda mövcud olub **(Ə.4; s.78).**

**Cınıx** – Zaqatala rayonunda kənd olub **(Ə.4; s.79).**

**Darvazabinə** kəndi – Balakən rayonunda kənd olub **(Ə.4; s.78).**

**Dəvəbatan** – Oğuz rayonunda bünövrəsini ruslar qoyub.

**Gəraz** – Böyük yaşayış məskəni olub. Xaçmazın günbatanında Fətən Burun deyilən dağ yamacından Yemişənli qobusunadək olan 2 min hektarlıq bir sahəni əhatə edirdi.

**Girdəaul** kəndi – Qəbələ rayonunda mövcud olub **(Ə.4; s.79).**

**Qarabulaq** – Oğuz rayonunda Şeytankəndlə üz-üzədir. Əhalisi maldarlıqla məşğul olub. Əhalisi indiki Qarabulağa köçüb.

**Qaranlıq dərə** – Xalxal kəndi yaxınlığında mövcud olmuş kəndin adıdır.

**Qazmalar** – Xaçmazın ayağında kənd yerinin adıdır.

**Qozdu** (Qozlu) Bucaq – Muxas kəndinin aşağı hissəsində, dağın ətəyində yerləşir. Qəbirstanlıq və dam yerləri bilinir.

**Quluda** kəndi – Zaqatala rayonunda olub **(Ə.4; s.78).**

**Lexu** kəndi – Balakən rayonunda olub **(Ə.4; s.79).**

**Ləzgi** kəndi – Baş Daşağıldan yuxarıda yerləşir.

**Mərc** – Şeytankənddən bir qədər yuxarıda oğuzların yurdu olub. Qəbristanlığı durur.

**Otmanlı** – İndiki Malıx yaşayış sahəsinin yanında mövcud olub.

**Suntay** – Sincan kəndindən günbatan tayda yerləşir. Qəbristanlığı durur.

**Şahra** – ulu kəndlərimizdəndir. Burada heyvandarlıq ferması var. Əhalisi köçüb.

**Şeytankənd -** Filfillidən şimalda qədim yaşayış məskənidir. Dağ kəndi olub.

**Şıx Obası** – Dəvəbatandan aşağıda yaşayış məskəni olub.

**Torpaqqala** – Qax rayonunda kənd olub **(Ə.4; s.79).**

## MƏHƏLLƏ ADLARI (T.30)

Bucax məhəlləsi **(T.12)**
Xəlilbəy uşağı **(T.12)**
Padar məhəlləsi
Seyitlər məhəlləsi
Lahıclar məhəlləsi
Yoğurtdar məhəlləsi
Dəxər (Dəxxər) məhəlləsi (Dəx – on; xər – eşşək deməkdir)
Şahsevənnər məhəlləsi (Nadir şahla bağlı yaranmışdır)

## ŞƏKİDƏ MƏHƏLLƏ ADLARI (T.24)

Aşağı bazar
Ağvanlar
Arx üstü
Bağbanlar
Bazar başı
Bilallar
Çay qırağı
Çökək məhləsi
Qışlaq
Qobu
Qullar
Qumbaralar
Dabbaqlar
Dağ dibi
Dəmirçi bulağı
Dəyirmanlar
Dırlar
Dingin yanı
Doqquz para
Dolçalar
Duluzlar
Əşirlər
Giləhli məhləsi
Xingallar
Kənd ayağı
Mator aralığı
Mədotlar
Nemət bulağı

Otaq eşiyi
Pirimlər
Sarı torpaq
Süddülər
Şahıqəlflər (həm də nəsil adıdır)
Şərbaflar
Topçular
Təzə kənd
Yuxarı baş

## MÜQƏDDƏS YERLƏR, MÜQƏDDƏS ADAMLAR (T.30)

**Abdulla baba ziyarəti** (Oğuz, Padar kəndi) – boğaz xəstəliklərinin müalicə edilməsi (Məs: inağ olanları).

**Bavaratma (Balakəndə)**

**Camal baba ziyarəti** – dəmrov, ziyil və başqa dəri xəstəliklərini bu ziyarətdəki torpaqla sürtüb müalicə edirlər.

**Çərşənbə baba ziyarəti** – Oğuz rayonunun Kərimli kəndində ən güclü ziyarətgah

**Çömçə bulaq** – Diyirllər ki, Qəbələ rayonunun Qəmərvan kəndində fısdıx ağacı varıydı. U ağacın başında dəərman daşı var. Əvvəllər sel, su oranı basmışdı. İlan gəlip təpilmişdi. Didilər ki, heç kəs çimə bilmir. Didilər, ura pirdi.

**Dalaq piri**

**Dilak (dilək, niyyət) ziyaratı** (Zaqatala rayonunun Tala kəndində). Bu ziyaratın sahibləri Hacı Ramazan, Xocaoğlu Abatlı, Şeyx Əhməd Əfəndi olublar. Bura gələnnər özdəriynən mağara (sap yumağı) gətirillər. Mağaranın bir ucunu açıb ora qoyar, niyyət edər, yol başlıyallar. Mağara kurtaranadək yollarını gedərdilər ki, yolları açıx olsun. Honda dilaxları keçərdi. Keçməsəydi, yarı yolda qalardılar.

**Diş piri**

**Əli dağı** ( Oğuz, Yaqubluda) – Deyirlər ki, orada qara daş var. Deyilənə görə Həzrət Əlinin atı Düldülün ayağının izi o qara daşın üzərindədi. Ona görə də bura ziyarətgah hesab olunur.

**Əzəmət piri** - Hindi ura vanna qoyup xəsdəlik sağaldıllar.

**Gündoğdu baba ziyarəti** (Oğuz, Tayıflı)

**Göz ziyarəti** (Oğuz, Kərimli) – yerdən qaynayan bulaq suyu göz xəstəliklərini müalicə edir.

**Hacı Salman ziyarəti** – Oğuz, Padar kəndi

**Hacı Şəmsəddin piri** - Diyillərki, günnərin bi günsü kənd camaatı pirə gedir. Yağış yağır. Hacı Şəmsəddin görünüp olara diyirkin bir az əlli – ayaxlı tərpənin, sel aparar. Olar gec tərpənirlər. Hər yeri

su basır. Yarısı su altında qalır.

**Həlim baba ziyarəti** (Oğuz, Kərimli)

**Hürüley ziyarəti** (Balakən) – uşağı olmayan niyyət edir. Uşaq olandan sonra onu həmin ziyarətə satıb, yəni pul verib alırlar.

**İsitmə ziyarəti** (Oğuz rayonunun Calud kəndində)

**Komrad baba ziyarəti** (Qəbələ) – uşağı olmayanlar niyyət edirlər.

**Qorxu ziyarəti** ( Oğuz rayonunun Kərimli kəndində)

**Taləmməd baba ziyarəti** – (Oğuzda) – düşkünlük, zəiflik olan adamları müalicə edir.

**Mehdi kişinin ziyarəti** (Balakəndə)

**Mıxnəzər ziyarəti** (Oğuz rayonunun Qarabaldır kəndində) – Şıxmazar ziyarəti də deyilir.

**Molla Bayramın ziyarəti** (Balakəndə)

**Molla Sadıq baba ziyarəti** (Oğuz rayonunun Muxas kəndində) – yel ziyarətidir.

**Saranay ziyarəti** (Oğuz rayonunun Tayıflı kəndində) – Deyirlər ki, Sarı ana istədiyi oğlana verilmədiyi üçün uçub gedib. Sarılıq xəstəliyini müalicə edir.

**Şeşbər baba -** Uşağı olmayannar, yolu uğurlu olmax üçün bu pirə gedirlər)

**Şeyx Bədrəddin piri**

**Uşağa qalmaq piri** (bütpərəstlik dövründən qalma pir yerləridir)

**Vəng (kilsə) ziyarəti** (Oğuz rayonunun Calud kəndində)

**Yeğişarakel piri** - MüqəddəsYegizarın monastrı (Oğuzda)

**Yel ziyarəti** (Oğuz rayonunun Kərimli, Xalxal və s. kəndlərində)

**Yel dolağı ziyarəti** (Balakəndə)

**Yusuf Əfəndi piri**

## MÜQƏDDƏS ADAMLAR (S.199; T.30)

Abdı oğlu Məhəmməd
Abdulmömin Əhməd Əfəndi
Bavaratma baba
Daşdəmir Əfəndi
Daşdəmir Əfəndi oğlu Qazalı Əfəndi
Hacı Alı
Hacı Abdulla
Hacı Abduləlim
Hacı Əhməd
Hacı Manaf
Hacı Məhəmməd
Hacı Mərdan
Hacı Mustafa
Hacı Qədir
Hacı Pənah Əfəndi

Hacı Səlim
Hacı Yusif baba
Hacı Yusif baba oğlu Bahəddin Əfəndi
Hacımar (Hacı Ömər) Əfəndi
Həsrət baba
İbrahim baba
İnçə Əbdürrəhim Əfəndi
Məhəmməd Əfəndi
Mirsaat baba
Molla İbrahimxəlil
Molla Hacı
Molla Həmzəli
Molla Sadıq baba
Novruz baba
Nurməhəmməd baba
Polad Məhəmməd
Salam Əfəndi
Səməd Əfəndi
Şalvız baba
Şeyx Əhməd baba
Şəkili Məhəmməd Əfəndi
Şıxosman baba
Üç qardaş baba
Veyis baba
Yel baba

## BÖLGƏDƏKİ BƏZİ KƏNDLƏRİN ADLARI (T.12; 30); (Ə.10-102)

Almalı (Qax)
Aşağı Çardaxlar(Zaqatala)
Bazar (Zaqatala)
Baydarlı (Balakən)
Bum (Qəbələ)
Dardoqqaz (Zaqatala)
Dizaxlı (Qəbələ)
Car (Zaqatala)
Çobankol (Zaqatala)
Çökəkoba (Zaqatala)
Əliabad (Zaqatala)
Faldar (Zaqatala)
Fındıqlı (Qax)
Güllük (Qax)
Göyəm (Zaqatala)
Hoymala (Zaqatala)
Hənifə (Balakən)
Qazma (Balakən)
Qandax (Zaqatala)
Qarabaldır (Oğuz)
Qaracalı (Balakən)
Qarqay (Zaqatala)
Qas (Zaqatala)
Qasbinə (Balakən)
Qullar (Balakən)
Qıpçaq (Balakən)
Qəbizdərə (Zaqatala)
Qəmərvan (Qəbələ)
İbaxlı (Qax)
İlisu (Qax)
Katex (Balakən)
Kebeloba (Zaqatala)
Kozbarox (Zaqatala)
Kortala (Balakən)
Kəpənəkçi (Zaqatala)
Lahıc (Zaqatala)
Maqov (Zaqatala)
Matsex (Zaqatala)
Mahamalar (Balakən)
Mıxlıqovaq (Qəbələ)
Mirzəbəyli (Qəbələ)
Mosul (Zaqatala)
Muxax (Zaqatala)
Muxax (Zaqatala)
Muğanlı (Zaqatala)
Nic (Qəbələ)

Onqut (Balakən)
Oncalı (Balakən)
Paşan (Zaqatala)
Poştbinə (Balakən)
Sabunçu (Zaqatala)
Sarıbaş (Qax)
Suvagil (Zaqatala)
Sumayıl (Zaqatala)
Şabalıd (Zaqatala)
Tala (Zaqatala)
Talalar (Balakən)
Tanqut (Balakən)
Tülü (Balakən)
Varxiyan (Zaqatala)
Vəndam (Qəbələ)
Yeni Suvagil (Zaqatala)
Yengiyan (Zaqatala)
Zarağan (Qəbələ)
Zoğalbinə (Zaqatala) və s.

## YER, YURD ADLARI HAQQINDA XALQ ETİMOLOGİYASI (T.30)

**Car** – Zaqatala rayonundadır. Türk mənşəli olub, dərə, çökəklik, yarğan mənasındadır **(Ə.4; s.26).**

**Dombabinə** – Zaqatala rayonundakənd. Dialektlərimizdəki domba, təpə, yumru təpəlik, kiçik yüksəklik mənalarındadır **(Ə.4; s.13).**

**Dəymədərə** – Oğuz rayonundadır. Deyilənə görə bura kiçik arx olub.

**Xaçmaz** – Oğuz rayonundadır. Sərvəti ilə seçildiyinə görə burada məskunlaşanlar torpağa elə bağlanıbdır ki, yaşadıqları yerə də qaçmaz deyiblər. Əsrlər keçdikcə q-x əvəzlənməsi baş verib. Xaçmaz adı meydana çıxıb. Başqa etimologiyaya görə isə bu yerlərdə Oğuz tayfaları yaşadığından adamlar xaç asmadıqları üçün məskən saldıqları torpağa Xaçmaz (- maz inkar şəkilçisidir) demişlər.

Başqa bir xalq etimologiyaya görə isə tarixən 1200-cü ildə buranı su basıb. Kənd dağılıb. Onlar Qubaya köçüblər. Orada bir məhəllə salıblar – adını da Xaçmazlı və Xaçmaz qoymaq istəyiblər. İndiki Quba-Xaçmaz elə onların yeri, yurdudu.

**Həzrə** – Qəbələ rayonunda mövcuddur. Ev, ocaq mənasındadır **(Ə.4; s.34).**

**Xalxal** – Oğuz rayonunda lap qədimlərdə qıraq hissələri bağlanmış at ağılı imiş.

**Qaxmuğal** – Qax rayonunda kənd, Qax oykonimindən və muğal etnonimindən ibarətdir **(Ə.4; s.40).**

**Qıpçaq** – Qax rayonunda kənd, qədim türk tayfalarının – qıpçaqların adı ilə bağlıdır **(Ə.4; s.37).**

**Mollalı** – Oğuz rayonunda Molla Alı adlı bir nəfər çay qırağında ev tikdiribmiş. Sonra kənd olub. Tədricən bu ad Mollalı şəklinə

düşüb.

**Sincan** – Oğuz rayonunda, Sinni can – yaşlılar yaşayan yer deməkdir.

**Sincan** – guya yemək adı olub. Toyuğun içərisinə turşu və s. doldurub təndirdə bişirirlərmiş.

**Sincan** – sencan tayfasının adı ilə bağlıdır **(Ə.4; s.46).**

**Padar** – Oğuz rayonunda, pədər – fars sözü olub, ata deməkdir.

**Tayıflı** – Oğuz rayonunda, tayfa şəklində olub. Ona görə də Tayıflı adlanır.

**Tərkəş** – Oğuz rayonunda, guya bura vaxtilə Taykəş adlanıb, yəni çayın bu tərəfində olan kənd.

**Tərkəş** – guya baş düzənlik olub. Sonralar buraya bir köç gəlib. Sincandan gəlib bu köç haqqında öyrənmək istəyiblərmiş. Onlar qantər içində imişlər. Burada yuyunarmışlar.

**Tərkeş** – guya tərini yu, keç.

**Tərkəş** – qədim türk mənşəli türkeş tayfasının adını əks etdirir **(Ə.4; s.37).**

**Vardanlı (indiki Kərimli)** – Oğuz rayonunda ,Vardənli, yəni taxılı bol olan yer.

Kərimli adı hal-hazırda bu kəndin adıdır. Mücrim Kərim Vardaninin adı da kəndin adı ilə bağlıdır.

**Yaqublu** – Oğuz rayonunda, Yaqub adlı bir bəy olub. Onun adı ilə bağlı olan bu kənd Yaqublu adlanır və s.

**Yaqublu** – nəsil adıdır **(Ə.4; s.54).**

## BÖLGƏDƏ BƏZİ DAĞ VƏ DƏRƏ ADLARI (T.30)

Almalıq dağı (Oğuz)

Bağırsaq dərəsi (Oğuz) (Bağırsağa bənzədiyi üçün)

Çalağan dərəsi – (Oğuz) bu dərənin üzərindən ancaq çalağanlar uça bilir. Əgər çalağanlar uçsaydı, güclü sel gəlməli idi. Bu adı ləzgilər qoyub.

Dəvəboynu dağı **(Ə.4; s.16)**

Əli dağı – (Oğuz) günçıxan tərəfdən Qarabulağa yaxındır. Orada qara daş var. Deyilənə görə Həzrət Əlinin atı Düldülün ayağının izi bu qara daşın üzərindədi. Ona görə də bura ziyarətgahdı.

Fıy dərəsi – (Oğuz) ən dərin dərə. Ləzgilərin dediyinə görə su fıyıltı ilə getsə kəndi su basar.

Xuruşdar dərəsi (Oğuz)

Kəhər, yaxud Yəhər dağ (Qəbələ) - Bu dağ formaca yəhərə

bənzədiyi üçün belə adlanır.

Kiçik İsreyil dağı

Kor dərə (Oğuz) (Xalxal camaatı burada torpaq olmadığı üçün Filfilliyə köçüblər)

Köhnə Muxas dağı (Oğuz)

Qaranlıq dərə (Oğuz)

Qəröüz dərəsi (Oğuz)

Qısır dağı (Oğuz)

Qızılqaya (Oğuz) - teştdə qızıl tapıldığı üçün

Qotur dağ **(Ə.4; s.16)**

Mamrux dağı (Zaqatala)

Maza dərəsi – (Oğuz) ən böyük daşalrı sel gətirən dərə.

Mirzə dağı (Qəbələ)

Güllü dağ – (Oğuz) vaxtilə üzüm bağı olub.

İsreyil dağı (Oğuz)

Palantökən dağ **(Ə.4; s.16)**

Şeytan dərəsi (Zaqatala)

Yel dağı (Oğuz)

Yumrudağ **(Ə.4; s.16)**

Vəngey dərəsi

Zoğallı dağ (Qəbələ)

## BƏZİ MEŞƏ ADLARI (T.30); (Ə.19; s.120)

Axmaz meşəsi (Oğuz)– su gəlib düzəndə qaldığı üçün belə adlanır.

Alagəz meşəsi (Qax) **(Ə.4; s.27)**

Cəbrayıl meşəsi (Oğuz)

Cilan meşəsi (Oğuz) - (Guya Ciyərxan) adlı adamın meşəsi olub.

Əbdülağatlı meşəsi – (Oğuz)

Gödəklər meşəsi (Oğuz)

Qızılcıq meşəsi (Qax) **(Ə.4; s.27)**

Nadir topçası (Oğuz )

Oruc meşəsi (Oğuz)

Soğannaçıq (Soğanlıq açıq) meşəsi (Oğuz)

Selli bağı (qoruq) – (Oğuz) sel düşdüyü üçün belə deyilir.

## YAYLAQLAR (T.30); (Ə.19; s.118)

Ağbulaq yaylağı (Oğuz)
Ağızdar yaylağı (Oğuz), girəcəkdə, ağız hissədə yerləşdiyi üçün
Çuxadurmaz yaylağı (Oğuz)
Qızlar yaylağı (Oğuz)
Qarayataq yaylağı (Oğuz)
Tülkülər yaylağı (Oğuz)
Tayaqoşun yaylağı (Oğuz), - yüksək qayalarda olduğu üçün
Vəngey yaylağı
Yastıdaş yaylağı (Oğuz) və s.

**TALA ADLARI (T.30)**
**(Oğuz rayonunda)**

Hətəm talası
Kotan
Köklük talası
Qanlı yer
Qasım inçəsi
Qızılcıq
Şıxlı
Tütəklik talası
Uzun tala
Yanıqlar

**QƏDİM ABİDƏ YERLƏRİ (S.103; T.30); (Ə.19; s.18-22)**
**(Qəbələ və Oğuz rayonlarında)**

Alban qəbristanlığı (Qəbələ və Oğuzda)

Gorxana - 3 m dərinlikdə yerləşir. Bütpərəstliklə bağlı yaranan abidədir. Kvadrat şəkilli otaqları var. Otaqları işıqlandırmaq mümkün olmadığı üçün bu otaqlar sirr olaraq qalıb. Oraya salınan hər bir işıq sönür.

Govur qala (Oğuz rayonunun Xaçmaz kəndində)

Hacı Qəhrəman qəbristanlığı - Çox müqəddəs yerdir. Bu qəbristanlığa getmək üçün Dəstəmaz çayından keçmək lazım gəlirdi. Bu çayın üzərində təxminən XIV-XV əsrin körpüsü var. Hacı Qəhrəman Həzrə kəndindəki müqəddəs kümbəzlərə gediş-gəliş asan olsun deyə bu körpünü qoydurubmuş. Bu kənddə dörd kümbəz var.

Bu qəbristanlıqlarda ölçüsü 2m, 2m 70sm olan küp qəbirləri mövcuddur.

Hacı qəbristanlığı – Burada Həcc ziyarətinə gedənlər dəfn olunublar.

Duzsuz qəbristanlığı

Maralyalıyan qəbiristanlığı - Deyilənə görə burada bir daş varmış. Bir maral gəlib bu daşı yalayarmış. O qədər bu daşı yalayıbmış ki, orada bir çökək yaranıb. Deyirlər ki, bu maral buraya nəyə görəsə gəlirmiş.

**DÜZƏNLİK YERİ (T.30)**

Dəşmir düzü (Qəbələ) - Dəş-düzənlik yeri deməkdir.
Dəş Vəndam (Qəbələ)

## ÇAY VƏ BULAQ ADLARI (T.30)

Ağ çay – suyu şəffaf olduğu üçün belə adlanır. Şəfalı sudur. Xəstələr üçün əhəmiyyətlidir (Oğuz rayonunda)
Ayvaz bulağı (Oğuzda) – Ayvaz adlı bir nəfərin adı ilə bağlıdır.
Balakənçay
Balışun bulağı (Oğuzda)
Batan çay (Balakəndə)
Bənd dərəsinin çayı (dəmirçilərin) (Oğuzda)
Camı uşağı çayı (Oğuzda)
Dabaxoğlu bulağı (Burada Dabax oğlunun adamları yaşayırdılar) (Oğuzda)
Dəyirman çayı (Oğuzda)
Dəmiraparan çayı (Qəbələ)
Əlican çayı (Oğuzda)
Əyriçay (Qax)
Göyçə bulağı (Oğuzda)
Gögər bulağı (Oğuzda)
Hacı Əziz çayı (Oğuzda)
Hacı Qəhrəman bulağı (Qəhrəman adlı bir nəfər bu bulağı üzə çıxarıb)
Xəlilin bulağı (Oğuzda)
İsa bulağı (Oğuzda)
İsitmə bulağı (İslam bulağı da deyirlər. Adamın isitmə xəstəliyi olduqda müalicə məqsədi ilə bu bulağın suyundan içirlər) (Oğuzda)
İsti bulaq (Balakəndə)
İtyandıran çayı (çox gün düşən, qızğın yer) (Oğuzda)
Qayız bulaq (Oğuzda) – Qayız adlı bir nəfərin adı ilə bağlıdır.
Qayımların bulağı (Oğuzda)
Qala çayı – qalanın yanından axdığı üçün (Oğuzda)
Qamışlı göl (Oğuzda)
Qara su (Oğuzda)
Qara çay (Oğuzda) meşələrdən gələn çay
Qara göl (Oğuzda) – at üçün müalicə yeri
Qobuçayı (Oğuzda) – vaxtilə arx olub, sonra qobulaşıb, dərinləşib.
Quyu bulağı (Oğuzda)
Qumluq çayı (Oğuzda)

Qurd bulağı – qurdlar deyilən oymaq. Bir nəfər bulağı kəlbəndə salıb. O da qurdlardan olduğu üçün qurd bulağı adlanır (Oğuzda)

Katex çayı (Balakəndə)

Keçi bulağı (Oğuzda)

Keşiş bulağı (Oğuzda)

Keşiş çayı (Oğuzda)

Kömür quyu (Oğuzda)

Maqa gölü (Oğuzda)

Mahmudalı çayı (Oğuzda) – Mahmudalı adlı bir nəfər bu çayın üzərinə körpü salıb.

Mazım çay (Balakən)

Mehdi uşağı gölü (Oğuzda)

Məmmədəli bulağı - çeşmə olub. Həmin adamın adı ilə bağlı olub (Oğuzda)

Nazar çayı (Oğuzda) – Nazar adlı oymaq olub. Bu çay onların oymağının yanından axırmış.

Nov bulaq (Qəbələdə) – yaylaqların aşağı hissəsində heyvanlar üçün su içmək çox çətin idi. Ona görə də bulaqdan su götürmək üçün novlar düzəltmişdilər ki, su ora yığılsın və ondan istifadə edilsin.

Nohur gölü (Qəbələdə)

Nəhrə bulağı (Oğuzda) – nəhrə üçün suyu oradan gətirirmişlər.

Pambıq çayı (Oğuzda) – pambıq talasına getdiyi üçün.

Saxsı bulaq (Qəbələ) – bulaqda saxsı tapıldığı üçün.

Soyuq bulaq (Qəbələ) – suyu daima soyuq olduğu üçün.

Sofu bulağı (Oğuzda)

Su dərəsi – Böyük suyun dərəsi (Oğuzda)

Sənəm bulağı (Balakəndə)

Şahlıq bulağı (Oğuzda)

Şor bulaq (Oğuzda)

Şıxuşağı çayı (Oğuzda)

Talaçay (Zaqatala)

Türyançay (Oğuzda)

Ulu çay (Oğuzda) – nəhəng olduğu üçün.

Vahab atılan çay (Oğuzda) – Vahab adlı bir nəfər öldürülüb bu çaya atılıb.

Vəng (kilsə) dərəsinin çayı - Vəngey dərəsindən gələn çay (Oğuzda)

Zəmi çayı (Oğuzda)

Zəmi gölü (Oğuzda) və s.

## KÖRPÜ ADLARI (T.30)

Adıl körpüsü (Oğuzda)
Hacı Əbdürrəhim körpüsü - Daşüzdən Padara keçən yerdə (Oğuzda)
Hacı Əziz körpüsü (Oğuz rayonunda)
Hacı Rəşid körpüsü - Daşüzdən Yevlağa gedən yerdə
Həsən Sofu körpüsü (Oğuzda) və s.

## XALÇA NAXIŞLARI (T.30)

Ala qurd
Alma naxışı
Ayı gözü
Çarpaz
Dilim-dilim
Duvalı
Güzgü
Xırdalı
Konfet
Qodərə (şahmatlı)
Qoçbaşı
Qıca qanadı
Qıyğacı
Mafizli
Müslümət
Naçalnik
Pərpəri
Pişik çöçəsi

## TOXUNMA ƏŞYALARIN ADI (T.30)

Çivək - şətəl
Həbgə - heybə
Şəddə – beşiyin üstünə salınan toxunma və s.

Oğuz raonunun Baş Daşağıl kənd sakinləri Həmidov Surxay, Qafarov Cəfər, Ramazanov Telman – ağac üzərində oyma sənəti ilə məşğuldurlar.

# DİALEKTOLOJİ SÖZLÜK (Tərtib edən: 30)

A

| | |
|---|---|
| adiy (Zaqatala) | - Ana |
| afar (Oğuz, Şəki) | - Qutab |
| Ağnamax (Oğuz, Şəki) | - Tozanaqda sürünmək |
| ala (Oğuz, Qəbələ) | - Göyərti, tərəvəz |
| Alacəhrə (Oğuz) | - quş adı |
| alafa (Şəki, Zaqatala) | - zərif ipək parça |
| alamançı (Oğuz, Şəki) | - Dağıdan, tökən |
| ala - toran (Oğuz, Şəki) | - ala – qaranlıq |
| alatöör (Qəbələ) | - Başdansovdu |
| alatöör (Oğuz) | - Nə yaxşı, nə pis; orta |
| an (Qax) | - Kandar (Oğuz və Şəki dialektində bu cöz «kan» şəklində işlənir |

**B**

| | |
|---|---|
| bada (Zaqatala) | - Əmiarvadı |
| badiy (Qax) | - Bacı |
| balı (Balakən, Qax, Şəki) | - Gilas |
| barı (Oğuz, Şəki, Balakən) | - divar; evtikmə |
| bayda (Balakən; Zaqatala) | - su tökmək üçün qab, piyalə |
| bazburutdu (0ğuz; Şəki) | - Güclü, iri cüssəli |
| bet (Balakən) | - Heç olmazsa |
| bete (Balakən) | - Ata |
| beycə (Oğuz; Şəki) | - bu gecə |
| beyqafil (Oğuz) | - Qəfildən |
| bəlgə (bəlyə) (Oğuz; Şəki) | - Nişan |
| bəyəm (Oğuz) | - Məgər |
| bildir (Oğuz) | - keçən il |
| binə (Zaqatala, Balakən) | - Çobanların məskən saldığı yer |
| birhovur (Oğuz) | - Bir az |
| birsüyün (Oğuz) | - O biri gün |
| bitdiyan (Oğuz) | - Quş adı |
| biycə (Balakən) | - Bu gecə |
| boqon (Balakən) | - Evin küncü; (Oğuz dialektində müşgək) |
| bova (Balakən) | - Ana |

| | |
|---|---|
| bölmə (Şəki, Qax, Zaqatala, Oğuz) | - Nəlbəki; lənbəki |
| budana; budey (Oğuz) | - Budur |
| burjun (Oğuz) | - Belin onurğa sütunu |
| buşalax (Oğuz) | - Pıçalax |
| büvü (Oğuz) | - Bibi |

**C**

| | |
|---|---|
| cadı (Balakən) | - Ayıdöşəyi |
| caqa (caqay) (Şəki, Qax) | - Fındığın yaşıl qabığı |
| cantarax (Oğuz) | - Möhkəm, güclü, enlikürək |
| cılğı (cılxa, cımxır) (Zaqatala, Qax) | - Tamam, lap, xalis |
| cısqana (Oğuz, Şəki) | - Çaytikanı |
| cimcimə (Oğuz) | - 1) lap, tamam, xalis, 2) başdan – ayağa, dırnağının ucuna kimi islanmaq |
| cincər (cincar) (Şəki, Balakən) | - Gicitkən |
| ciyi (Oğuz, Şəki) | - Ana |
| culaz (Oğuz) | - Arıq |

**Ç**

| | |
|---|---|
| çağ (Oğuz) | - Arabanın böyründəki dik ağac |
| Çantay | - Bax: şanta |
| çangal (Balakən, Zaqatala) | - Asılqan |
| çarxlı patava (Oğuz) | - Səliqəsiz geyinən adam |
| çatmaq (Oğuz) | - 1) yetkinləşmək (cavan yaşına çatmaq); 2) yetişmək (meyvə yetişib) |
| çekil (Şəki, Oğuz) | - Cır tut ağacı |
| çengəl (çəngəl) (Şəki, Oğuz) | - Paltarasan |
| çəlləşmax (Balakən) | - Çalışmaq, işləmək |
| çəmirə (Şəki, Oğuz) | - Duman, çən |
| çənbərə (Zaqatala, Balakən, Qax, Oğuz) | - 1) motalın ağzına tikilən çubuq; 2) duman, çən |
| çərrəmax (Oğuz) | - Dərd çəkmək |
| çırçıra (Oğuz, Qax) | - Qığılcım |
| çirtmə (Oğuz) | - Baş yaylığı |
| çoturru (Oğuz) | - Nahamar |
| çöçə (çöycə) (Qəbələ, Zaqatala) | - Mis qab, piyalə |
| çöçə (Oğuz) | - Əlin, ovucun içi |
| çörəkqatığı (Şəki, Oğuz) | - Çörək yavanlığı |

## D

dadaş (Oğuz) - ata
danqaz (Oğuz) - kəllə, baş
darımaq (Oğuz) - nəfs kəsilmək
dəfdər (Oğuz) - ömür kitabı
dəmşalax (Oğuz, Qəbələ) - pinti, səliqəsiz
dənnəməh (Şəki, Oğuz) - meyvə dərmək
dəngi (dəngit) (Qəbələ, Oğuz, Qax) - Səbət
döyran (Şəki, Oğuz) - Toyda pul vermək
dəymək (Qəbələ, Oğuz, Balakən, Zaqatala) - meyvənin yetişməsi
dihri bənövşə (Zaqatala) - bənövşəyi rəngli bənövşə
dikəlip (Şəki, Oğuz) - zillənib (baxmaq)
dirəşmax (Şəki, Oğuz) - məcbur etmək
diyə (Balakən) - ata
diyənə (Şəki, Oğuz) - deyə
durulamax (Şəki, Oğuz) - qabları, paltarı təmiz suya çəkmək
düyməçə (Balakən, Zaqatala) - başa keçirilən xüsusi qadın baş örtüyü

## E

exnaxaş (Qəbələ) - biçin vaxtı
ejgahan (Şəki, Oğuz) - boş – bekar
erçal (Qəbələ, Oğuz, Qax Balakən, Zaqatala) - Tutdan hazırlanmış xüsusi mürəbbə
eşix (Qəbələ, Oğuz, Qax, Şəki, Balakən, Zaqatala) - eyvan

## Ə

əgənəm (əyənəm) (Oğuz) - əgər
əhtəc (Şəki, Oğuz) - əşya (şəxsi)
əngili (Zaqatala) - gəndalaş
ərbəy (Şəki) - çörəkqatığı
ərəsət (Oğuz) - Təəccüblü hadisəni bildirir
ətməngə (Zaqatala) - yüngül xasiyyət
əvlüyən (Balakən) - Ləyən
əyrişməx (Qax) - yaltaqlanmaq

## F

| | |
|---|---|
| fellənmiş (Şəki, Oğuz) | - çoxbilmiş |

**G**

| | |
|---|---|
| gap eləməx (Şəki, Oğuz) | - Söhbət etmək |
| gediyi (Balakən) | - gedir |
| gejdənnən (Şəki, Oğuz) | - Səhər tezdən |
| geyəndə (Balakən) | - gedəndə |
| gəliy (gəliyi, gəlax) (Balakən, Zaqatala) | - gəlir |
| gəmirə (Qax, Oğuz) | - ağıl |
| gənəşmək (Şəki, Oğuz) | - məsləhətləşmək |
| gərmək (Qəbələ) | - yemiş növü |
| gimgə (Oğuz) | - Söhbət eləmək üçün adamların yığıldığı yer |
| girrəməx (Şəki, Oğuz) | - vaxt keçirmək, yola vermək |
| girəvə (Şəki, Oğuz) | - İmkan, fürsət |
| girmək (Oğuz) | - 1) çatmaq (məsələn, o, on yaşına girmişdi)<br>2) gəlmək (yaz gəldi) |
| göbər (köbər) (Oğuz) | - hündür yer |
| götürüm düşmək (Oğuz) | - yorulub əldən düşmək |
| göy (Şəki, Oğuz) | - kürəkən |
| gülbəngi (Balakən, Zaqatala) | - gəlinin başına örtülən, zərif toxunmuş baş örtüyü |

**H**

| | |
|---|---|
| halaf (Şəki, Oğuz) | - heyvana verilən ot, ələf |
| hannan – hana (Şəki, Oğuz) | - nə vaxtdan nə vaxta |
| haşti – huşti (Zaqatala) | - yaş, nəm |
| hayla (Balakən, Zaqatala) | - musiqi ilə oxunan bayatı |
| heç bet (Balakən) | - heç sözünü qüvvətləndirmək üçün; qətiyyən mənasında |
| heləyi (Balakən) | - belədir |
| heykəl (Balakən, Zaqatala) | - Quran qabı |
| həcət (Oğuz) | - alət |
| həkarat (Şəki, Oğuz) | - əkin yeri |
| həncəri (Şəki, Oğuz, Balakən) | - necə |
| hənd (Balakən) | - bostan |

| | |
|---|---|
| həng (Qax, Oğuz) | - 1) musiqi; 2) kimi, təhər |
| həviş (Qax) | - nəm, yaş |
| hincəvara (incəvara) | - Allah tərəfi, xoşbəxtlikdən |
| hindi (Oğuz, Şəki) | - İndi |
| hosamat (Oğuz) | - o dəqiqə |
| hörmçek (Balakən) | - nənni, beşik |
| höyüş (Şəki, Qəbələ, Oğuz) | - yaş, nəm |

## X

| | |
|---|---|
| xapay (Oğuz) | - parçakəsdi |
| xas (Şəki, Oğuz) | - çərşənbə axşamı |
| xasa (xas) (Balakən) | - paltar növü |
| xaşqalam (Qax) | - zəhər |
| xeylax (Şəki, Oğuz, Qax, Balakən) | - xeyli |
| xıdıl (Şəki, Qax) | - nəvə |
| xırda (Oğuz) | - qıza toy əvəzinə edilən yığıncaq |
| xitil (Oğuz) | - bala |
| xon (Şəki, Oğuz, Zaqatala) | - Xonça |
| xonçaçiçəyi (Oğuz) | - novruzgülü |
| xoryad (Balakən) | - çirkin |
| Xuban | - camaat, rəiyyət |

## İ

| | |
|---|---|
| ibaralıx (Oğuz) | - ədabazlıq |
| ibiniy (Qax) | - kiflənmiş |
| ibnə (Oğuz) | - hikkə |
| ici (Zaqatala) | - qardaş |
| ici – qucu (Oğuz) | - xırdaçı |
| içiq (Zaqatala, Balakən) | - qardaşa, əmioğluna, özündən böyüyə müraciət |
| ida (Qax) | - ana |
| idim (Şəki, Oğuz) | - zahiri görkəm |
| idimsiz (Oğuz) | - kifir, idbar |
| ilim (Qax) | - əlim |
| illahkin (Oğuz) | - ələlxüsus |
| imarat (Şəki, Oğuz, Qax, Balakən, Zaqatala) | - qadına məxsus zinət şeyləri |

| | | |
|---|---|---|
| in (Oğuz, Balakən) | - | İy |
| inahat (Oğuz) | - | Lağ, kinayə |
| inçal (Şəki) | - | Tutdan hazırlanmış qatı mürəbbə, riçal |
| incəvara (hincəvara) | - | yaxşı ki, xoşbəxtlikdən, Allah tərəfi |
| inişil (Oğuz) | - | İki il əvvəl |
| intası (Oğuz) | - | ancaq, amma |
| irat (Şəki, Oğuz, Balakən, Zaqatala) | - | kəlağayı |
| irızqı (rızqı) | - | Ruzi |
| irz – rəng (Zaqatala, Oğuz) | - | bəniz |
| ismarış (smarış) (Oğuz, Şəki) | - | Sifariş |
| isrif (isrip) (Şəki, Oğuz, Zaqatala) | - | qənaət |
| işdi (Şəki, Oğuz) | - | əgər |
| iyə (Qax) | - | Sahib (ev) |

**K**

| | | |
|---|---|---|
| kan (Şəki, Oğuz) | - | kandar, astana |
| katda (Oğuz, Qax) | - | 1) çoxbilmiş; 2) süd ölçmək üçün qab |
| kesix (kəsix) (Şəki, Qax, Oğuz) | - | 1) qohum; 2) qız övladı |
| kəbərrənməx (Oğuz) | - | dikəlmək |
| kəfrəm (Şəki, Oğuz) | - | bez, astar |
| kək (Oğuz) | - | ağ |
| kələnmək (Oğuz) | - | kəsilmək |
| kəraxat (karahat) (Balakən) | - | yaraşıqsız, kobud, nəs |
| kibirrih (Oğuz) | - | ədabazlıq |
| kipimək (Oğuz) | - | 1) yaxınlaşmaq; 2) təpinmək |
| kirimək (Oğuz) | - | Sakitləşmək, susmaq |
| kisb (kəsb) (Oğuz) | - | qazanc |
| koğa (Oğuz, Şəki) | - | ucu qarmaq kimi olan ağac |
| kövürmək (Balakən, Oğuz) | - | nəfəsi təngimək, ləhləmək |
| kuvalanmax (Qax) | - | kiflənmək |
| Kümxana | - | barama saxlanan yer |
| küvül (küyül) (Şəki, Oğuz, Qax) | - | xaraba yer, yuva |

## Q

| | | |
|---|---|---|
| qacar (qəcər) (Oğuz, Qax, Zaqatala) | - | Tərs, inadkar, əzazil |
| qaçırmax (Şəki, Oğuz) | - | Söndürmək (işığı, ocağı) |
| qada (Şəki, Zaqatala, Qax) | - | 1) qardaş; 2) aşıq (sümük) |
| qadax (Oğuz, Zaqatala, Balakən) | - | mismar |
| qadar (qədər) (Balakən, Zaqatala) | - | qadın çalması |
| qandax (Şəki, Oğuz, Balakən) | - | xəndək |
| qarıcqay (Oğuz) | - | qarışqa |
| qazaraq (Zaqatala, Qax, Balakən) | - | Fındığıın yaşıl qabığı |
| qərtməx (Oğuz) | - | neçə vaxtın çirki |
| qətrəhim (Oğuz) | - | əzazil, qəddar |
| qıxmıx (Oğuz) | - | ağac doğrananda əmələ gələn yonqar, talaşa |
| qılas (Oğuz) | - | gilas |
| qırçı (qırtçı) (Şəki, Oğuz, Zaqatala) | - | xəsis |
| qırım (Şəki, Oğuz, Qax) | - | görkəm, davranış |
| qırpızmaq (Şəki, Oğuz) | - | Şəkləmək |
| qimil (Oğuz, Qax) | - | 1) qısıla-qısıla gəzən adam, 2) bulanıq |
| qobu (Şəki, Oğuz) | - | quyu, dərə |
| qoxux vaxdı (Oğuz) | - | kasıblıq, imkansızlıq vaxtı |
| qolay (Oğuz, Qax) | - | yaxşı, asan |
| qucur (Qax, Zaqatala Oğuz) | - | 1) budaq; 2) künc; 3) daxilən pis, xain adam |
| quraqsamaq (Balakən, Zaqatala) | - | nəfsi çəkmək |
| quvalanmayan (Balakən) | - | Fərəhlənməyən |
| quzuqarnı (Şəki, Oğuz) | - | göbələk |
| quzuqulağı (Şəki, Oğuz) | - | göbələk |

## L

| | | |
|---|---|---|
| labada (Şəki, Oğuz, Qax, Zaqatala) | - | qısa qollu, üzəri qaytan və bafta ilə işlənmiş qadın paltarı |
| las (Oğuz) | - | 1) nəm, yaş; 2) yorğun, pis əhval - ruhiyyəli |

ləhləmək (Şəki, Oğuz) - Tənginəfəs olmaq
ləlöyün (Şəki, Oğuz) - acgöz
ləmbəki (Şəki, Oğuz) - nəlbəki
ləs (Şəki, Oğuz) - İncə, zərif (parça)
liley (liləy) (Balakən) - bayatı
los (Oğuz, Qax) - Tənbəl

M

mağara (Şəki-Zaqatala) - Sap yumağı
mağag (maha) (Zaqatala, Oğuz) - mənə
mağmun (Şəki, Oğuz) - aciz
mahna (Oğuz) - bəhanə
mahnı (Zaqatala) - bayatı
maşu (Zaqatala, Balakən) - gözəl, növrəstə
mərəz (Şəki, Oğuz) - aciz, fağır (adam)
mənzil armudu (Oğuz) - atlıların yorulub nəfəs dərdiyi yer
məzər (Oğuz) - döşlük
miy – miy (Oğuz) - yavaş – yavaş, ləng, mızıldanan
mumasan (Balakən, Zaqatala) - Sinəbənd
Müğörüs - orada oturanlar
müc olmaq (Oğuz) - çaşıb qalmaq, acizləşmək, büzüşüb qalmaq
müşgək (Oğuz) - künc
müşü (Oğuz) - yəhudi

N

neçə dönə (Oğuz) - neçə dəfə
nəxünək (Oğuz) - görməmiş
nə nayırda (Oğuz) - nə şəkildə, nə vəziyyətdə
nifrin (Şəki, Oğuz) - tufan
nobat (Şəki, Oğuz) - növbə

**O**

Ol - O

**Ö**

öpgə (Oğuz) - ağ ciyər

**P**

| | | |
|---|---|---|
| paytalat (Oğuz) | - | içalat |
| por (Oğuz) | - | kif |

**S**

| | | |
|---|---|---|
| sabaynan (Qəbələ) | - | səhər tezdən, sabah |
| saqqa (Şəki, Oğuz) | - | içi dolu qoz |
| salost (Oğuz) | - | halsız, ləs |
| samı (Şəki, Oğuz) | - | boyundurux |
| sələ (Şəki, Oğuz) | - | malın qarnından hazırlanır, nəhrə ağzına qoyulur |
| səllim (Şəki, Oğuz) | - | boş, bekar |
| sərgəndar (Şəki, Oğuz) | - | boş - bekar, avara |
| sərmək (Şəki, Oğuz) | - | 1) döşəmək, düzmək; 2) ipə paltar asmaq; 3) tökmək (çayı nəlbəkiyə tökmək) |
| sırkolu (Oğuz) | - | ədalı |
| sicim (Şəki, Oğuz) | - | atın yalından, keçi tükündən hörülən kəndir, ip |
| sireyin (Şəki, Oğuz) | - | srağa gün |
| sucax (Oğuz) | - | sulu, nəm yer |
| surfa (Oğuz) | - | süfrə |
| süng eləmək (Oğuz) | - | dağılıb getmək |
| sünək (Oğuz) | - | acgöz |
| sürüstçülük (Zaqatala) | - | malları otarmaq |

**Ş**

| | | |
|---|---|---|
| şahıd (Şəki, Oğuz) | - | dəyirman haqqı |
| şavux salan (Zaqatala) | - | işıq saçan |
| şellənmək (Şəki, Zaqatala) | - | avaralanmaq |
| şilgirlik (Şəki, Oğuz) | - | sıx meşəlik yer |
| şilpim (Zaqatala) | - | şil - küt |
| şiltim (Oğuz) | - | şil - küt |
| şundul (Şəki, Oğuz) | - | axmaq, hərəkətinin yerini bilməyən |

**T**

| | | |
|---|---|---|
| taat eləmək (Oğuz) | - | rişxənd eləmək |

| | | |
|---|---|---|
| tapırğa (Oğuz) | - | narahat (adam) |
| tarax (Şəki, Oğuz) | - | 1) bel; 2) daraq |
| tavar | - | saz növü |
| taytamax (Oğuz) | - | axsamaq |
| təhnə (Oğuz) | - | böyük taxta qab (çörək üçün) |
| təhnəçə (Oğuz) | - | taxta qabın kiçiyi |

**U**

| | | |
|---|---|---|
| urux – turux (Şəki, Oğuz) | - | nəsil, kök |
| urva (Şəki, Oğuz) | - | un |
| urvayı (Şəki, Oğuz) | - | 1) tərif; 2) laqqırtı |

V

| | | |
|---|---|---|
| vaxm eləmək (Oğuz) | - | imkan verilmək |
| vəlahürədən çıxmaq (Oğuz) | - | aşıb – daşmaq |
| vəz (Oğuz) | - | məsləhət |

Y

| | | |
|---|---|---|
| yalanqo (Şəki, Oğuz) | - | azacıq işartı |
| yançı (Balakən) | - | yengə |
| yaraf (Oğuz) | - | görəsən |
| yellər (Zaqatala) | - | ellər |
| yeşirməh (Şəki, Oğuz, Balakən) | - | gizlətmək |
| yəə (yə:) (Şəki, Oğuz) | - | sahib (ev) |
| yügrək (Şəki, Qəbələ, Oğuz) | - | beşik |

Z

| | | |
|---|---|---|
| Zırı (Şəki, Oğuz) | - | gombulun yekəsi (təhərsiz kök) |

## MƏTNLƏRDƏ İŞLƏNƏN ƏRƏB VƏ FARS SÖZLƏRİNİN LÜĞƏTİ (Ə. 6)

**B**

bagpa(y) (f) – cəld yeriyən, sürətlə yeriyən (at)
bədxu(y) (f) – pis xasiyyətli
bəha (f) – 1) gözəllik; 2) parlaqlıq; 3) qiymət, dəyər
bərd (f) – soyuq, soyuqluq, sərinlik; bərdi – əcuz – son qış soyuqları

biça (bica) (f) – 1) nahaq yerə; 2) boş, mənasız
bist (f) - iyirmi
biyabəngərd (f) – avara
buxur (ə) – yandırıldıqda xoş iy verən qətran
buy (f) – qoxu, iy

**Ə**

ərz (ə) – 1) yer; 2) torpaq
əyyar (ə) – 1) hiyləgər; 2) avara

**F**

fariğ (ə) – 1) asudə ; 2) vaz keçmiş

**H**

heykəl (ə) – 1) boyuna salınan dua, 2) quran qabı

**X**

xarzar (f) – tikanlıq
xor (f) – günəş, gün

**L**

laşərik (ə) - şəriki olmayan

**M**

manənd (f) - kimi
mahi – (f)- 1) balıq; 2) aya məxsus, aylı;
(ə) – məhv edən, yox edən
məhək(k) (ə və f) – 1) gümüş və ya qızılın
əyarını yoxlamaq üçün xüsusi daş; 2) meyar
muy (f) – saç, tel
müdəbbir (ə) – tədbirli, uzaqgörən
müğilan (f) – akasiya ağacı
müxalif (ə) – zidd, əks
mükərrəm (ə) – möhtərəm, hörmətli
müqərrər (ə) – 1) qərarlaşdırılmış; 2) söylənilmiş; 3) hazır
münəvvər (ə) – işıqlı, nurlu, parlaq
münqad (ə) – müntəzir, tabe, boyun əyən
müntəha (ə) – son dərəcə, son, nəhayət
müşabih (ə) – oxşar, bənzər
müzəyyən (ə) – bəzəkli, zinətli

**N**

nar (ə) – 1) od; 2) cəhənnəm; 3) dərd

**R**

röyət (ə) – 1) görüş; 2) nəzarət; 3) müzakirə; 4) həll etmə
rüx (ru) (f) –üz, çöhrə

**S**

sədr (ə) – 1) qəlb, könül, 2) başçı
səg (f) – it
sövt (ə) – 1) səs, səda; 2) qamçı, taziyanə
suzan (f) – 1) yandıran; 2) kədərli
süxən (f) – söz, nitq

**T**

taqi (tağı) (ə) – 1) həddini aşan; 2) üsyançı
təhəmmül (ə) – səbr, dözüm
təvaf (ə) – 1) bir şeyin ətrafında dolanma; 2) həcc mərasimi
tir (f) - güllə, yaydan atılan ox, dirək

**Ü**

ünas (ə) - qadınlar, qızlar

**V**

vəs (ə) - və

**Z**

zillullah (ə) – Allahın kölgəsi
ziyadə (ə) - gərəksiz

# SÖYLƏYİCİLƏR VƏ TOPLAYICILAR HAQQINDA MƏLUMAT

## SÖYLƏYİCİLƏR (Tərtib edən: 30)

1. Adil Qımrıyev, Balakən rayonunun Qasbiinə kənd sakini
2. Ağacan Qərib qızı Xələfova, Qəbələ rayonunun Vəndam kənd sakini, 1912-ci il təvəllüdlü, milliyyəti xınalıq
3. Aidə Xəlil qızı Xəlilova, Qax şəhər sakini, 1933-cü il təvəllüdlü
4. Ana Hacıyeva, Yuxarı Tala kənd sakini
5. Anaxanım Əhmədova, Oğuz rayonunun Bayan kənd sakini, 1924-cü il təvəllüdlü
6. Anaxanım Əliyeva, Qəbələ rayon sakini
7. Anaxanım Davud qızı Ağayeva, Qəbələ rayonunun Mirzəbəyli kənd sakini, 1924-cü il təvəllüdlü, milliyyəti ləzgi
8. Allahverdi Əli oğlu Qarayev, Qax rayonunun Almalı kənd sakini, 1930-cu il təvəllüdlü
9. Alməmməd Əlibala oğlu Babayev, Oğuz rayonunun Kərimli kənd sakini, 1949-cu il təvəllüdlü
10. Alışan Fətəliyeva, Oğuz şəhər sakini, 1906-cü il təvəllüdlü, hal-hazırda dünyasını dəyişmişdir.
11. Alimə Müzafəddin qızı Əzizova, Oğuz rayonunun Baş Daşağıl kənd sakini
12. Araz Qədir oğlu İbrahimov, Oğuz rayonunun Baş Daşağıl kənd sakini
13. Arif Adıgözəlov, Oğuz rayonunun Kərimli kənd sakini
14. Asya İsayeva, Zaqatala rayonunun Yuxarı Tala kənd sakini, 1958-ci il təvəllüdlü
15. Aşıq Ərəbiddin, Balakən rayonunun Qazma kənd sakini, 1939-cu il təvəllüdlü
16. Aşıq-şair Əmrah Qax rayonunun Almalı kənd sakini
17. Aşıq Əli, Zaqatala rayonunun Muxax kənd sakini
18. Aşıq Kazımın ev arxivindən. Mərhum aşıq Zaqatala rayonunun Çobankol kəndindən idi.
19. Aşıq Sirac (Həbibullayev), 1930-cu il təvəllüdlü, Şəki rayonunun Baş Layısqı kəndində doğulub. Hal-hazırda Gəncə şəhərində yaşayır.
20. Aşot Udi oğlu (şair), Qəbələ rayonunun Nic kənd sakini, milliyyəti udi

21. Aydın Əhmədov, Oğuz rayonunun Baş Daşağıl kənd sakini, hazırda dünyasını dəyişib.

22. Ayişə Zumrad qızı Rzayeva, Balakən rayonunun Mahamalar kəndində doğulub. Hal-hazırda Bakı şəhərində yaşayır. 1945-ci il təvəllüdlü

23. Ayişə Xəlil qızı Xəlilova, Qax rayonunun Sarıbaş kənd sakini, 1933-cü il təvəllüdlü, müəllim

24. Ayna Aslan qızı Rəcəbova, Qax rayonunun Sarıbaş kənd sakini, 1913-cü il təvəllüdlü

25. Badisəba Şahmar qızı Məhərrəmova, Oğuz rayonunun Şirvanlı kənd sakini, 1913-cü il təvəllüdlü

26. Bayram Qara oğlu Heydərov, Oğuz rayonunun Yaqublu kənd sakini

27. Bayramalı Zakir oğlu Qədirov, Oğuz rayonunun Calud kənd sakini, 1928-ci il təvəllüdlü

28. Bədir Mustafa qızı Cəlilova, Oğuz rayon sakini, 1926-cı il təvəllüdlü, hal-hazırda dünyasını dəyişmişdir.

29. Bəhərçin Gülməmmədov, Oğuz rayonunun Top kənd sakini, 1911-ci il təvəllüdlü, milliyyəti ləzgi

30. Bəsti Səfər qızı Ruşanova, Qax rayonunun Zəyəm kənd sakini, 1952-ci il təvəllüdlü

31. Bəyxan Seyfəliyeva, Qax rayonunun İlisu kənd sakini, 1901-ci il təvəllüdlü

32. Bikə Aslan qızı Qebedova, Balakən rayonunun Poştbinə kənd sakini, 1930-cu il təvəllüdlü

33. Camal Mürvət oğlu Seyidov, Oğuz rayonunun Xaçmaz kənd sakini, 1930-cu il təvəllüdlü

34. Cahandar, Tülü kənd sakini

35. Cahangir Dalğın, Qax rayonunun İlisu kənd sakini

36. Cavanşir Kamil oğlu Məhərrəmov, Oğuz rayonunun Kərimli kənd sakini, 1953-cü il təvəllüdlü

37. Cəfəran Absalam qızı Qıfyeva, Balakən rayonunun Poştbinə kənd sakini, 1901-ci il təvəllüdlü

38. Cəlal Məmmədov, Oğuz rayonunun Baş Daşağıl kənd sakini, 1904-cü il təvəllüdlü

39. Cəmil İsmayılov, Oğuz rayonunun Bucaq kənd sakini

40. Cəmiyyət Qaraxan qızı Qurbanova, Zaqatala rayonunun Qandox kənd sakini, 1935-ci il təvəllüdlü

41. Cəlil Cəlilov, Oğuz rayonunun Kərimli kənd sakini

42. Cəsarət İbrahimova, Qəbələ rayon sakini

43. Cumar Mürsəl oğlu Məmmədov, Oğuz rayonunun Padar kənd sakini, 1952-ci il təvəllüdlü

44. Çeşminaz Rzayeva, Balakən rayonunun Qazma kənd sakini, 1936-cı il təvəllüdlü

45. Çiçək Bəşir qızı Kavazova, Qax rayonunun Sarıbaş kənd sakini, 1929-cu il təvəllüdlü

46. Əhməd Hidayət oğlu Salamov, Oğuz rayon sakini, 1924-cü il təvəllüdlü

47. Əhməd İsmayıl oğlu Qurbanov, Zaqatala rayonunun Közbarox kənd sakini, milliyyəti saxor

48. Əhməd Saat oğlu Məmmədov, Oğuz rayonunun Baş Daşağıl kənd sakini, 1929-cu il təvəllüdlü

49. Əkrəm Soltan oğlu Hacıyev, Qax rayon sakini, 1910-cu il təvəllüdlü

50. Əlәddin Tacəddin oğlu Kərimov, Qəbələ rayon sakini, 1913-cü il təvəllüdlü

51. Əli Abdulsalam oğlu Süleymanov, Balakən rayonunun Katex kənd sakini, 1930-cu il təvəllüdlü

52. Əli Abdullayev, Oğuz rayonunun Yaqublu kənd sakini, 1894-cü il təvəllüdlü, hal-hazırda dünyasını dəyişmişdir.

53. Əli Əhmədov, Qax rayonunun Almalı kənd sakini, baytar həkim

54. Əminə İsmayıl qızı Əsgərova, Oğuz rayonunun Bucaq kənd sakini, 1931-ci il təvəllüdlü

55. Əminət Şəmsəddin qızı Osmanova, Qax rayon sakini, 1913-cü il təvəllüdlü

56. Əminət Nurayeva, Zaqatala rayonunun Muxax kənd sakini, 1903-cü il təvəllüdlü

57. Ənvər Əbdürrəhimov, Oğuz rayonunun Xaçmaz kənd sakini

58. Ərsiyə Cəlal qızı Ağayeva, Oğuz rayonunun Xaçmaz kənd sakini, 1928-ci il təvəllüdlü

59. Əsibə Əliyeva, Şəki rayonunun Kiçik Dəhnə kənd sakini, 1926-cı il təvəllüdlü

60. Əsmayə Abdullayeva, Oğuz rayonunun Yaqublu kənd sakini, 1928-ci il təvəllüdlü

61. Əsmayə Ağayeva, Oğuz rayonunun Sincan kənd sakini, 1926-cı il təvəllüdlü

62. Fatma Məmməd qızı Musayeva, Zaqatala rayonunun Muğanlı kənd sakini, 1910-cu təvəllüdlü

63. Fatma Məhəmməd qızı Hacıyeva, Oğuz rayonunun Xaçmaz kənd sakini, 1923-cü il təvəllüdlü

64. Fatma Ramazanova, Qəbələ rayonunun Mirzəbəyli kənd sakini, 1908-ci il təvəllüdlü
65. Fəridə Cəlal qızı Hacıməmmədova, Oğuz rayonunun Bucaq kənd sakini, 1937-ci il təvəllüdlü
66. Fərrux Daşdəmirov, Oğuz rayonunun Baş Daşağıl kənd sakini, 1930-cu il təvəllüdlü
67. Göyçək Cəbiyeva, Oğuz rayonunun Xaçmaz kənd sakini, 1924-cü il təvəllüdlü
68. Gözəl Rəcəb qızı Mustafayeva, Zaqatala rayonunun Aşağı Tala kənd sakini, 1940-cı il təvəllüdlü
69. Gülarə Hacı qızı Abdullayeva, Oğuz rayonunun Qumlaq kənd sakini, 1926-cı il təvəllüdlü, hal-hazırda dünyasını dəyişmişdir.
70. Güldənə Əziz qızı Hüseynova, Oğuz rayonunun Kərimli kənd sakini, 1945-ci il təvəllüdlü, milliyyəti ləzgi
71. Güldənə Həmid qızı Həmzəyeva, Oğuz rayon sakini, 1945-ci il təvəllüdlü
72. Güldəstə Xəlil qızı Abdullayeva, Oğuz rayonunun Kərimli kənd sakini
73. Güleybət Abdullah qızı İsayeva, Zaqatala rayonunun Əliabad kənd sakini, 1930-cu il təvəllüdlü, milliyyəti ingiloy
74. Güləfruz Əlyarova, Oğuz rayonunun Tayıflı kənd sakini, 1914-cü il təvəllüdlü, milliyyəti ləzgi
75. Güləndam Cəfər qızı Ramazanova, Qax rayonunun İlisu kənd sakini, 1938-ci il təvəllüdlü
76. Gülnaz Hacımurad qızı Nəzirova, Qax rayonunun Sarıbaş kənd sakini, 1939-cu il təvəllüdlü
77. Gülcənnət Məmmədova, Oğuz rayonunun Mollalı kənd sakini, 1930-cu il təvəllüdlü
78. Gülsənəm Hacı qızı Hacıyeva, Oğuz rayonunun Sincan kənd sakini, 1924-cü il təvəllüdlü, hal-hazırda dünyasını dəyişmişdir.
79. Hacı Əhməd oğlu İsayev, Balakən rayonunun Qazma kənd sakini, 1938-ci il təvəllüdlü, milliyyəti avar
80. Hafizat Zəbibulla qızı Muradova, Zaqatala rayonunun Suvagil kənd sakini, 1929-cu il təvəllüdlü, milliyyəti zaxor
81. Havva Məhəmməd qızı Əliyeva, Zaqatala rayonunun Göyəm kənd sakini, 1940-cı il təvəllüdlü
82. Heydər İsmayıl oğlu Heydərov, Zaqatala rayonunun Tala kənd sakini, 1921-ci il təvəllüdlü
83. Həbibət İsa qızı (Ömərova) Dibirova, Balakən rayonunun Hənifə kənd sakini

84. Həmid Əhməd oğlu Aydınov, Oğuz rayonunun Yaqublu kənd sakini, 1910-cu il təvəllüdlü

85. Həmid Əlbənd oğlu İsayev, Oğuz şəhər sakini, 1938-ci il təvəllüdlü, hal-hazırda dünyasını dəyişmişdir.

86. Hikmət Mustafa oğlu Əzimov, Qax şəhər sakini, 1940-cı il təvəllüdlü, fəlsəfə elmləri namizədi

87. Hümmət Mahmudov, Oğuz rayonunun Xaçmaz kənd sakini, 1931-ci il təvəllüdlü

88. Xanad Dadaş oğlu Həmidov, Oğuz rayon sakini, 1936-cı il təvəllüdlü

89. Xanım İsayeva, Oğuz rayonunun Muxas kənd sakini, 1911-ci il təvəllüdlü

90. Xanım Məhərrəmova, Oğuz rayonunun Kərimli kənd sakini, 1917-ci il təvəllüdlü

91. Xanımbala Dibrov qızı İsgəndərova, Zaqatala rayonunun Aşağı Tala kənd sakini, 1909-cu il təvəllüdlü

92. Xacay Məhəmməd qızı Aşırova, Balakən rayonunun Katex kənd sakini, 1916-cı il təvəllüdlü

93. Xatın Abdullayeva, Qax rayonunun İlisu kənd sakini, 1931-ci il təvəllüdlü

94. Xatın Əliyeva, Qax rayonunun Ləıəpaşa kənd sakini, 1930-cu il təvəllüdlü

95. Xatın Həsənova, Qax rayonunun İlisu kənd sakini, 1911-ci il təvəllüdlü

96. Xədicə Qocayeva, Oğuz rayonunun Qumlaq kənd sakini, 1926-cı il təvəllüdlü

97. Xəlil Məmmədtahir oğlu Məmmədtahirov, Qax rayonunun İlisu kənd sakini, 1930-cu il təvəllüdlü

98. Xoşqədəm Fərəc qızı Şirinova, Qəbələ rayonunun Zarağan kənd sakini, 1932-ci il təvəllüdlü,

99. Xozeymət Cəfər oğlu Əliyev, Zaqatala rayonunun Qandax kənd sakini, 1925-ci il təvəllüdlü

100. İbrahim Oruc oğlu Əhmədov, Zaqatala rayonunun Yengiyan kənd sakini

101. İmanəddin Atakişiyev, Oğuz rayonunun Xalxal kənd sakini, 1929-cu il təvəllüdlü

102. İsa Üzeyir oğlu İsayev, Şəki rayonunun Oxud kənd sakini, 1930-cu il təvəllüdlü, hal-hazırda dünyasını dəyişmişdir.

103. İsgəndər Nəbi oğlu Mərahimov, Qəbələ rayonunun Vəndam kənd sakini, 1929-cu il təvəllüdlü

104. İsrafil Cəmaləddin oğlu Gənzəyev, Balakən rayonunun Kortala kənd sakini, 1910-cu il təvəllüdlü

105. Jora Köçari, Qəbələ rayonunun Nic kənd sakini, 1929-cu il təvəllüdlü, milliyyəti udi

106. Kamal Camalov, Oğuz rayonunun Xaçmaz kənd sakini, 1933-cü il təvəllüdlü

107. Kəlimət Hacəhməd qızı Xəlilova, Zaqatala rayonunun Yuxarı Çardaxlar kənd sakini, 1938-ci il təvəllüdlü, milliyyəti saxor

108. Qaraqız Bəşirova, Qax rayonunun Fındıqlı kənd sakini, 1920-ci il təvəllüdlü

109. Qədim Qəni oğlu Əliyev, Qəbələ rayonunun Vəndam kənd sakini, 1929-cu il təvəllüdlü

110. Qədir Əhmədov, Oğuz rayonunun Baş Daşağıl kənd sakini, 1899-cu il təvəllüdlü, hal-hazırda dünyasını dəyişmişdir.

111. Qədir Məmmədov, Oğuz rayonunun Baş Daşağıl kənd sakini, 1921-ci il təvəllüdlü

112. Qəni Əliyev, Oğuz rayonunun Kərimli kənd sakini

113. Qəsidə Cəlal qızı Məmmədsaatova, Oğuz rayonunun Bucaq kənd sakini, 1931-ci il təvəllüdlü

114. Qıztamam Yusifova, Oğuz rayonunun Kərimli kənd sakini, 1934-cü il təvəllüdlü

115. Qurban Əliyev, Şəki rayonunun Turan qəsəbə sakini, 1933-cü il təvəllüdlü

116. Lazer Balasani, Qəbələ rayonunun Nic kənd sakini, milliyyəti udi

117. Lazer Dəmirçari, Qəbələ rayonunun Nic kənd sakini, milliyyəti udi

118. Lütfəli Şirəli oğlu Vahabov, Şəki rayon sakini, 1916-cı il təvəllüdlü, təqaüdçü müəllim

119. Mabud Məsim oğlu Qarayev, Şəki rayon sakini, 1903-cü il təvəllüdlü

120. Mahmud Əzizov, Oğuz rayon sakini, 1926-cı il təvəllüdlü, hal-hazırda dünyasını dəyişmişdir.

121. Mahmud Haşımov, Oğuz rayonunun Dəymədərə kənd sakini, 1924-cü il təvəllüdlü

122. Maral Hacı qızı Allahverdiyeva, Oğuz rayonunun Padar kənd sakini, 1888-ci il təvəllüdlü

123. Maral İlyas qızı Osmanova, Zaqatala rayonunun Qımır kənd sakini, 1914-cü il təvəllüdlü

124. Mariya Habil qızı İsayeva, Zaqatala rayonunun Əliabad kənd

sakini

125. Mayis Koçari , Qəbələ rayonunun Nic kənd sakini, 1936-cı il təvəllüdlü, milliyyəti udi.

126. Mehdi kişi, Oğuz rayon sakini

127. Məcid Adıyev, Oğuz rayonunun Tayıflı kənd sakini, 1939-cu il təvəllüdlü

128. Məhəmməd Məmmədov, Oğuz rayonunun Sincan kənd sakini, 1910-cu il təvəllüdlü

129. Məmməd Mütəllib oğlu Məmmədov, Qax rayonunun İlisu kənd sakini, 1933-cü il təvəllüdlü

130. Məmmədcan İsmayıl oğlu Qocayev, Qəbələ rayonunun Mirzəbəyli kənd sakini, 1921-ci il təvəllüdlü

131. Məhəmməd Məmmədkərim oğlu Əhmədov, Oğuz rayonunun Xalxal kənd sakini, 1907-ci il təvəllüdlü

132. Məhərrəm Məhərrəm oğlu Məhərrəmov, Zaqatala rayonunun Bazar kənd sakini, 1932-ci il təvəllüdlü

133. Məryəm Məhəmməd qızı Allahquliyeva, Zaqatala rayonunun Muğanlı kənd sakini, 1925-ci il təvəllüdlü

134. Məsim Kərimov, Oğuz rayonunun Padar kənd sakini, 1937-ci il təvəllüdlü, müəllim

135. Minaxanım Xəlləyeva, Qax rayonunun Sarıbaş kənd sakini, 1910-cu il təvəllüdlü

136. Minayə Qurban qızı Əhmədova, Zaqatala rayonunun Çobankol kənd sakini, 1928-ci il təvəllüdlü, hazırda dünyasını dəyişmişdir.

137. Möminət Hacımurad qızı Osmanova, Qax rayonunun Sarıbaş kənd sakini, 1922-ci il təvəllüdlü

138. Mövlud Rüstəmov, Oğuz rayonunun Bucaq kənd sakini, 1930-cu il təvəllüdlü

139. Muxnisə Carı qızı Ramazanova, Oğuz rayonunun Xalxal kənd sakini, 1920-ci il təvəllüdlü

140. Muxsa Tahir qızı Şabanova, Balakən rayonunun Qazma kənd sakini, 1930-cu il təvəllüdlü

141. Murtuzəli Ömər oğlu Atayev, Zaqatala rayonunun Çobankol kənd sakini, 1940-cı il təvəllüdlü

142. Müslümət Ağayeva, Balakən rayonunun Katex kənd sakini, 1919-cu il təvəllüdlü

143. Muşek Cökari,Qəbələ rayonunun Nic kənd sakini

144. Nargilə Hüseynova, Oğuz rayonunun Kərimli kənd sakini, 1921-ci il təvəllüdlü

145. Naz Məmmədova, Oğuz rayonunun Muxas kənd sakini,

1920-ci il təvəllüdlü

146. Nərgiz Əhmədova, Oğuz rayonunun Zərrab kənd sakini, 1926-cı il təvəllüdlü

147. Nigar İsgəndər qızı İsmayılova, Zaqatala rayonunun Aşağı Tala kənd sakini, 1920-cı il təvəllüdlü

148. Nikolay Semyon oğlu Poladov, Oğuz rayon sakini, 1922-ci il təvəllüdlü

149. Novruzalı Yusif oğlu Mahmudov, Oğuz rayonunun Şirvanlı kənd sakini, 1916-cı il təvəllüdlü

150. Nübar Həsrət qızı Azaxova, Oğuz rayon sakini, 1937-ci il təvəllüdlü, milliyyəti ləzgi

Pəri Bəhman qızı Mehralı, Qax şəhər sakini

Pəri İsayeva, Oğuz rayonunun Xaçmaz kənd sakini, 1922-ci il təvəllüdlü

153. Rahilə Camal qızı Hacıməmmədova, Oğuz rayonunun Xaçmaz kənd sakini

154. Ramazan Camal oğlu Ramazanov, Zaqatala rayonunun Muxax kənd sakini, 1930-cu il təvəllüdlü

155. Rantiq Qiqinari, Qəbələ rayonunun Nic kənd sakini

156. Rəcəb Cuma oğlu Rüstəmov, Oğuz rayonunun Bucaq kənd sakini, 1927-ci il təvəllüdlü

157. Ruqiyyə Yaqub qızı Musayeva, Zaqatala rayonunun Muğanlı kənd sakini, 1919-cu il təvəllüdlü

158. Ruzi Əhməd oğlu Rəşidov, Qəbələ rayonunun Vəndam kənd sakini, 1943-cü il təvəllüdlü, milliyyəti ləzgi

Sara Bayramova, Balakən rayonunun Qazma kənd sakini, 1948-ci il təvəllüdlü

159a. Sahibə Bəhramova, Qəbələ rayonunun Beyli kəndində anadan olub. Hazırda Bakı şəhərində yaşayır. 1961-ci il təvəllüdlü

160. Saləhəy Məhəmməd qızı Qasayeva, Qax rayonunun Güllük kənd sakini, 1920-ci il təvəllüdlü

161. Sevda Hüseynova, Qəbələ rayon sakini

162. Seyfi Cəlil oğlu Ağakişiyev, Oğuz rayonunun Xaçmaz kənd sakini, 1935-ci il təvəllüdlü

163. Seyid Nurəddin oğlu Ələsgərov, Şəki Zona Elmi Mərkəzinin əməkdaşı, Aşıqlar Birliyinin üzvü, təqaüdçü müəllim, hal-hazırda dünyasını dəyişmişdir.

164. Səbzəli Fərzəliyev, Oğuz rayonunun Xaçmaz kənd sakini, 1914-cü il təvəllüdlü

165. Səkinə Abbasova

166. Səlhə Şamil qızı Maqamedova, Balakən rayonunun Poştbinə kənd sakini, 1932-ci il təvəllüdlü, milliyyəti ərəşdi

167. Sənubər Şirinova, Oğuz rayonunun Bayan kənd sakini, 1929-cu il təvəllüdlü

168. Səfiyyə Muhuma qızı Qurbanova, Zaqatala rayonunun Sumaylı kənd sakini

169. Səfiyyə Murtuzəli qızı Qazilova, Zaqatala rayonunun I Tala kənd sakiniSona Həmzəyeva, Oğuz şəhər sakini, 1924-cü il təvəllüdlü, milliyyəti udi

170. Sona Həmzəyeva, Oğuz rayonunda anadan olub. Nazırda Bakıda yaşayır. 1924-cü il təvəllüdlü, milliyyəti udi

171. Sonbahar Hüseyn qızı Əhmədova, Balakən rayonunun Qazma kənd sakini, 1929-cu il təvəllüdlü

172. Süleyman Harunov, Qax rayonunun İlisu kənd sakini

173. Şahnisə Rəşid qızı Cəfərova, Oğuz rayonunun Xalxal kənd sakini, 1923-cü il təvəllüdlü

174. Şaman Kərim qızı Hasanova, Oğuz rayonunun Yaqublu kənd sakini, 1927-ci il təvəllüdlü

175. Şamay Abdulsalam qızı Alqayeva, Balakən rayonunun Mahamalar kənd sakini, 1913-cü il təvəllüdlü, milliyyəti avar, hal-hazırda dünyasını dəyişmişdir.

176. Şəhla Salam qızı Hüseynova, Zaqatala rayonunun Yengiyan kənd sakini

177. Şəhri Ramazan qızı Cavadova, Zaqatala rayonunun Muğanlı kənd sakini, 1918-ci il təvəllüdlü

178. Şəkurə Musayeva, Şəki rayon sakini

179. Şəmsiyyə Həsənova, Balakən rayonunun Qazma kənd sakini, 1948-ci il təvəllüdlü, milliyyəti ləzgi

180. Şövkət Cavad oğlu Abdullayev, Oğuz rayonunun Bucaq kənd sakini, 1930-cu il təvəllüdlü

181. Şükufə Mustafayeva, Oğuz rayonunun Bayan kənd sakini, 1922-ci il təvəllüdlü

182. Tamara Qasımova, Oğuz rayonunun Xalxal kənd sakini, klub müdiri

183. Telli Mahmudova, Oğuz rayon sakini, 1931-ci il təvəllüdlü, milliyyəti ləzgi

184. Tərlan İsmayıl, Zaqatala rayonunun Tala kənd sakini

185. Tərlan Qurban, Zaqatala rayonunun Tala kənd sakini

186. Tükəzban Haşımova, Oğuz rayon sakini, 1926-cı il təvəllüdlü

187. Tükəzban Muqusova, Qax rayonunun Çinarlı kənd sakini,

1912-ci il təvəllüdlü

188. Ülkər Süleymanova, Oğuz rayonunun Bucaq kənd sakini

189. Vahab Çələbi oğlu Musayev, Oğuz rayonunun Top kənd sakini, 1926-cı il təvəllüdlü

190. Vahid Cavad oğlu Azaxov, Oğuz şəhər sakini, 1935-ci il təvəllüdlü, milliyyəti ləzgi

191. Veysəl Abdulhəmid oğlu Hacıyev, Qax rayonunun Dəymədağlı kənd sakini, 1932-ci il təvəllüdlü

192. Vüqar İdrisov, Oğuz rayonunun Qarabulaq kənd sakini

193. Yaxşıxanım Qurbanzadə, Zaqatala rayonunun Lahıc kənd sakini, 1928-ci il təvəllüdlü

194. Yaqub Arab oğlu Muradov (Ərəboğlu), Zaqatala rayonunun Qandox kənd sakini, 1934-cü il təvəllüdlü

195. Yaqub Hacı oğlu Abdullayev, Oğuz rayon sakini, 1930-cu il təvəllüdlü

196. Yaqub Nurməmmədov, Şəki rayonunun Turan qəsəbə sakini, 1928-ci il təvəllüdlü

197. Yaqub Seyfəddin oğlu Ramazanov, Oğuz rayonunun Xaçmaz kənd sakini, 1934-cü il təvəllüdlü

198. Yengibar Məmmədov, Oğuz rayonunun Mollalı kənd sakini, 1927-ci il təvəllüdlü

199. Yusif Salam oğlu İsayev, Oğuz rayonunun Muxas kənd sakini, 1888-ci il təvəllüdlü, hazırda dünyasını dəyişmişdir.

200. Zalxa Məhəmməd qızı Muradova, Zaqatala rayonunun Qımır kənd sakini, 1924-cü il təvəllüdlü, hazırda dünyasını dəyişmişdir.

201. Zalxay İsmayıl qızı İsayeva, Zaqatala rayonunun Muxax kənd sakini, 1920-ci il təvəllüdlü

202. Zalikə Təmpil qızı Kərimova, Oğuz rayonunun Xalxal kənd sakini, 1922-ci il təvəllüdlü

203. Zeynəb Cəbrayıl qızı Atayeva, Zaqatala rayonunun Qımır kənd sakini, 1930-cu il təvəllüdlü, hazırda dünyasını dəyişmişdir.

204. Zeynəb Əli qızı Mamayeva, Zaqatala rayonunun Aşağı Tala kənd sakini

205. Zeynəb Səmədova, Oğuz rayonunun Bayan kənd sakini, 1920-ci il təvəllüdlü

206. Zəminə Şeyx qızı İsayeva, Zaqatala rayonunun Muxax kənd sakini

207. Zərrintac Zeynalova, Oğuz rayon sakini, 1932-ci il təvəllüdlü

208. Zərxanım Məhəmməd qızı Atayeva, Zaqatala rayonunun Çobankol kənd sakini, 1922-ci il təvəllüdlü

209. Zərixa İbrahim qızı Musayeva, Qax rayonunun İbaxlı kənd sakini, 1920-ci il təvəllüdlü

210. Zərnişan Yunisova, Oğuz rayonunun Calud kənd sakini

211. Zibeydə Şirəli qızı Mustafayeva, Oğuz rayonunun Padar kənd sakini, 1938-ci təvəllüdlü

212. Ziyavəddin Zurnaçı, Balakən rayon sakini

213. Ziyəddin Hümmət oğlu Kərimov, Oğuz rayonunun Qarabulaq kənd sakini, 1937-ci il təvəllüdlü, milliyyəti ləzgi

214. Züleyxa Məmmədova, Oğuz rayonunun Zərrab kənd sakini, 1910-cu il təvəllüdlü

## TOPLAYICILAR (Tərtib edən: 30)

1. Abidət Əmirova, Zaqatala rayonunun Muxax kənd sakini

2. Akif Məmmədli, Balakən rayon sakini, müəllim

3. Arizə Əmirxan qızı Zeynalova, Oğuz rayon sakini, Tarix-diyarşünaslıq muzeyinin direktoru

4. Asudə Şərif oğlu İsmayılov, Zaqatala rayonunun Qımır kənd sakini, müəllim

5. Ayişə Xəlil qızı Xəlilova, Qax rayonunun Sarıbaş kəndində müəllim

6. Azad Ozan (Kərimli), AMEA Folklor İnstitutunun elmi işçisi, Sənətşünaslıq elmləri namizədi, hazırda dünyasını dəyişmişdir.

7. Bayramxatun Vəlixanova, Qax rayonunun Ləläpaşa kənd sakini

8. Balakən rayonunun Katex kənd orta məktəbinin V sinif şagirdləri

9. Camal Hacıbala oğlu, Qax rayonunun Dəymədağlıkənd sakini, 1929-cu il təvəllüdlü

10. Elmira Curey qızı Əliməmmədova, Zaqatala rayonunun Çobankol kənd sakini, müəllim

11. Əminət Şəmsəddin qızı Osmanova, Qax şəhər sakini, 1913-cü il təvəllüdlü

12. Əli Abdulsalam oğlu Süleymanov, Şəki Zona Elmi Mərkəzinin baş elmi işçisi, Pedaqoji elmlər namizədi

13. Əli Şamilov, AMEA Folklor İnstitutunun elmi işçisi

14. Əliyulla Cuma oğlu Şabanov, Zaqatala rayonunun Çobankol kənd sakini, Mədəniyyət evinin işçisi

15. Gülbəniz Qədir qızı Heydərova, Zaqatala rayonunun Qımır kəndində müəllim

16. Gülpəri Baba qızı Mahmudova, Qax rayonunun Fındıqlı kənd

sakini

17. Güllü Yusifova, Qax rayonunun İlisu kənd sakini

18. İfrat Saatov, Oğuz rayonunun Bucaq kənd sakini

19. Jora Koçari, Qəbələ rayonunun Nic kənd sakini, 1930-cu il təvəllüdlü, milliyyəti udi

20. Könül Seyfəliyeva, Qax rayonunun Sarıbaş kənd sakini

21. Qüdrət Əhmədov, Oğuz rayonunun Muxas kənd sakini

22. Lalə Xəlilova, Zaqatala rayonunun Sumaylı kəndi sakini, müəllim

23. Lütfəli Şirəli oğlu Vahabov, Şəki rayon sakini, 1919-cu il təvəllüdlü, təqaüdçü müəllim

24. Mabud Məsim oğlu Qarayev, Şəki rayon sakini

25. Mahirə Aydın qızı Səfərova, Zaqatala rayonunun Yengiyan kənd sakini

26. Mahirə Müslüm qızı Əhmədova, Qax rayonunun Sarıbaş kənd sakini

27. Malikə İsmayılova, Zaqatala rayonunun Qımır kənd sakini

28. Məhəmmədiyyə Mehdi oğlu Muradov, Qax rayonunun Güllük kəndində müəllim

29. Məryəm Abdusalam qızı Hacıyeva, Zaqatala rayonunun I Tala kənd sakini

30. Mətanət Yaqub qızı Abdullayeva, AMEA Folklor İnstitutunun böyük elmi işçisi, filologiya elmləri namizədi

31. Murtuzəli Atayev, Zaqatala rayonunun Muxax kənd sakini

32. Mübariz Lətif oğlu Əbdulov, Zaqatala rayonunun Qımır kəndində müəllim

33. Nazilə Kazım qızı Məmmədova, Zaqatala rayonunun Qandox kənd sakini, Mədəniyyət evinin işçisi

33a. Nazim Hüseynli, Oğuz rayonunda fəaliyyət göstərən «Oğuz yurdu» qəzetinin redaktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü

34. Nəzakət Məhəmməd qızı Abdullayeva, Qax rayonunun İlisu kənd sakini

35. Nəzakət Osmanova

36. Nuriyyə Xəlləyeva, Qax rayonunun Sarıbaş kənd sakini

37. Pəri Bəhmən qızı Mehralı, Qax rayon sakini

38. Rüxsarə Abdullayeva, Şəki rayonunun Oxud kənd sakini

39. Sabir Əhməd oğlu Qurbanov, Zaqatala rayonunun Qandox kənd sakini, müəllim

40. Sahibə Sədnik qızı Paşayeva, AMEA Folklor İnstitutunun elmi işçisi

41. Salatın Hüseynova, Zaqatala rayonunun Lahıc kənd sakini

42. Sevinc Qədirova, Şəki Zona Elmi Mərkəzinin əməkdaşı

43. Seyid Nurəddin oğlu Ələsgərov, Şəki Zona Elmi Mərkəzinin əməkdaşı, Aşıqlar Birliyinin üzvü, təqaüdçü müəllim, hal – hazırda dünyasını dəyişmişdir.

44. Solmaz Muhuma qızı Mamaqayeva, Zaqatala rayonunun Muğanlı kənd sakini, 1925-ci il təvəllüdlü

45. Şəhla Salam qızı Hüseynova, Zaqatala rayonunun Yengiyan kənd sakini

46. Tofiq Şirəli oğlu Daşdəmirov, Oğuz rayon sakini, 1953-cü il təvəllüdlü, müəllim

47. Ulduz Mürşüdova, Şəki Zona Elmi Mərkəzinin «Folklorşünaslıq və el sənətləri» laboratoriyasının rəhbəri, baş elmi işçi, filologiya elmləri namizədi

48. Yasəmən Ramazan qızı Həşimova, Zaqatala rayonunun Qımır kənd sakini

49. Zaqatala rayonunun Əliabad kənd 1□-li kənd Beynəlmiləl orta məktəbinin V-VII sinif şagirdləri

50. Zemfira Əfəndiyeva, Qax rayonunun İlisu kənd sakini

## MİFOLOJİ VƏ FOLKLOR OBRAZLARI (tərtib edən: 30)

Allah
Adəm
Aman bəy
Alan
Aslan
Aşıq Dibrov
Babaxan
Baxışm
Böyük bəy
Bənək
Bilqeyis xanım
Cabbar
Canavar
Cəfər
Cəlil
Cəmşican
Cümşüd
Cərşənbə
Ciçək
Cillə (təbiət hadisəsinin antropomorflaşdırılmış obrazı)
Daşdəmir
Dayça
Div
Dülgər oğlu Aşıq Əvək
Əflatun
Əhməd
Əjdaha
Ələddin
Əlibaba
Əmir dayı
Əmrullah
Ər (Əli)
Ərdov (Ərdoğul)
Ərkinaz
Əsməgül
Fatma
Faqqur – küp qarısı
Fəhrət (Fərhad)
Firon
Görücü
Güldəstə
Gülcahan
Gülmə
Gülpəri
Gülüm
Hacı Pənah
Hacı Pənahın Şamxal nəvəsi
Hacı Mustafa Əfəndi
Hacı Novruz
Hafizat
Hazəl
Heydər
Həlimə
Həlmət
Həmzə
Həvva
Həzrət Cəbrayıl
Həzrət Əli
Hörümçək
Hümbət
Hürü
Xacəstə
Xədicat
Xəlil
Xızır Əleyhüssalam
İmam
İsgəndər
İsmayıl
Kamal
Kazım
Koroğlu
Qaçaq Baxış
Qaçaq İsa
Qaçaq Tapdıq

Qafar
Qaratel
Qarı
Qıxmıx
Qırat
Qodu
Qurd
Leyli
Maral
Məhəmməd Əfəndi
Məhəmməd peyğəmbər
Məmməd
Məleykə
Mələk
Məşədi Güllər
Minasə
Molla Asi
Molla Cuma
Molla Mamay
Molla Nəsrəddin
Murad
Musa peyğəmbər
Narış
Nəmrüd paççah
Nicabət (Nəcavət)
Nizami
Nuh peyğəmbər
Osman Əfəndi
Paşa peyğəmbər
Pəhləvan İsa
Pəri
Püsdə
Rəşid
Rüstəm Zal
Salatın
Soltan Mahmud
Soltan Şıxəmir
Sədayə
Sərkar oğlu Vahab
Sürəyya
Süleyman peyğəmbər
Şaban
Şah Abbas
Şamxal
Şeyx baba
Şeyx Şalbız
Şeytan
Şəmmət
Şəmsi qızı
Şiralı
Şirin
Talan
Teymur Ləng
Tərkisalat Qasım
Toşu Yetim (Xəlil)
Tovuz
Turuş
Umud
Uruz
Usup (Yusif)
Vəzifə
Yel baba
Zeynəb
Zəminə
Zərqələm

**Spesifik toy adətləri (T. 30)**

Bal
Bayda
Çörəkbölmə
Diş toyu
Dizdayağı
Döyrana çağırmaq
Hana üzmək
Xapay
Xırda
Toyuq öldürüb getmək

Yağ

## Toyda gəlin geyimi və bəzək əşyaları (T. 30)

Bafta
Çəpgən
Çutqu
Darayi dizlik
Döşlük bağı
Duvax
Düyməçə
Gülbəngi
Gümüş üzük
Hirat
Kəlağayı
Qanooz
Qarmaq
Labada
Mintənə
Mumasan
Pilək
Sərəndaz
Zərxara

## Toyda ifa olunan mahnı və rəqs adları (T.30)

Ay Maral xanım
Ceyranım
Bağdadur
Böyürtkəni
Dağlı
Daşbulağı, qozağacı
Ənzəli
Gəlin atdandı
Gömrü
Hacnəbiqızı
Havarı
Haylalar
Lileylər
Lili
Maral xanım
Musaxanı
Nanaylar
Pəhləvani
Salamaleyklər
Tala mahnıları
Turullayı
Üsdənaşırma
Yerli hava

## Əşya və predmet adları (T.30)

Çatma
Dəngit
Ərsin
Farmaş (marfaş)
Həybə
Xana
Qadax
Mecbayı
Nehrə
Sacayaq
Sənək
Sini
Şümşad qaşıq
Tabax
Tərəcə

# QEYDLƏR VƏ ŞƏRHLƏR
## (Tərtib edən: 30)

**Abdulla Padarlı** təxminən 1770-1775-ci illərdə İndiki Oğuz rayonunun Padar kəndində, Çayqıraq məhəlləsində anadan olmuşdur. O, Ağdaş mədrəsəsində oxuduqdan sonra təhsilini Dəməşq şəhərində davam etdirmişdir. O, Dəməşqdə tarix, fəlsəfə, məntiq, poetika və nücum elmlərinə yiyələnmişdir.

Abdulla Padarlı ərəb, fars, avar və s. dilləri bilmişdir.

Onun Pəri adlı tək bir qızı olmuşdur ki, nəvə – nəticələri məhz ondan törəmədir.

Abdulla Padarlı 1854-cü ildə vəfat etmişdir. Onun Əlyazmalar İnstitutunun arxivində tibbə aid mükəmməl əsərləri vardır. Onun qorunub saxlanan irsi Salman Mümtazın arxivindədir.

Abdulla Padarlı müqəddəs adam olub. Onun qəbrini hal – hazırda da ziyarətə gedirlər. Ziyarət üçün məqsədəuyğun gün bazar ertəsi günüdür. Onun köynəyi ilə boğaz xəstəliklərini (inağ olanları) müalicə edirlər.

**Abdulməcid Əfəndi** Biləndər Əfəndi oğlu 1873-cü ildə Talada anadan olmuşdur. O, böyük alim və ictimai xadim idi.

**Ağbulaq** – Qax rayonunun Sarıbaş kəndinin şimalında bulaq adı

**Ağbulaq** – Oğuz rayonunun Xaçmaz kəndində şəfalı sudur. Xəstə adamlar üçün xeyirlidir.

**Adəm (ə.s.)** – Bütün insanların ilk babası və ilk peyğəmbəri

**«Al gözəl»** şerinin altında Vəliyevin qarışıq imzası var.

**Ala qapı** – Şəki yolu ilə Oğuz yolu ayrıcı

**Almalı Mahmud Əfəndi** Mahmud Hacı Əfəndi oğlu 1809-cu ildə Qax rayonunun Almalı kəndində doğulmuşdur.

Mahmud Əfəndidən dərs almış böyük alimlər bunlardır:

Talalı Şeyx Əhməd Əfəndi, Hacı Cəbrayıl Əfəndi, Hacı Həmzət Əfəndi, Hacı Həzrət Əfəndi, Hacı İsmayıl Əfəndi, Hacı Məhəmməd Əfəndi, Hacı Baba Əfəndi, Hacı Nurullah Əfəndi

**Armux** – Oğuz rayonunun Baş Daşağıl kəndinin qarşısında olan uca zirvə

**Aşıq Camal** 1830 –cu ildə Qax rayonunun Zəyəm kəndində anadan olmuşdur.

Onun əsl adı İsa, təxəllüsü Camal imiş. Molla Cuma onun şəyirdi olub. İki dəfə sürgünə göndərilib. Birinci dəfə kəndxudaya həcv yazdığı üçün 10 il müddətinə Orta Asiyaya və Sibirə sürgün olunub.

Bu haqda şerlərində də yeri gəldikcə deyib. İkinci dəfə yaxın qohumunu cəzadan xilas etmək üçün günahı öz boynuna alıb 8 il müddətinə yenə sürgün olunub. Cəzasını Ağstafada çəkib. 1908 – ci ildə vəfat edib. Bir neçə dastan müəllifi olub. Onlardan yalnız birindən «Camal şah» və ya «Camal və Şahbaz» dastanından parçalar qalıb.

**Aşıq Dibrov Məhəmməd oğlu Məmmədov** 1875-ci ildə Zaqatala rayonunun Tala kəndində anadan olmuş, 1948-ci ildə vəfat etmişdir.

Üç qızı, üç oğlu olmuşdur: Xanımbala, Rəhmey, Gözəl, Şıxəmir, Musa, Ziyavəddin

(Aşıq Dibrovun qızı Xanımbala da atası kimi sinəsi sözlü, sovludur. Verilən nümunələr də məhz Xanımbalanın dilindən eşidilmişdir.)

Aşıq Dibrov Kamal təxəllüsü ilə qoşmalar yazmışdır. O, ərəb dilini də mükəmməl öyrənmişdir.

Aşıq Dibrov Azərbaycan Aşıqlarının I qurultayında iştirak etmişdir. Aşığın ustadnamələrindən «Azərbaycan dastanları»nda istifadə olunmuşdur. Aşığın şerlərinin bir hissəsi itmişdir. Əldə olan şerləri Nəzakət Osmanova (müəllimə) Məhəmməd Şabanoğluna təqdim etmişdir.

**Aşıq Əli** Zaqatala rayonunun Muxax kənd sakinidir. Ustadı Şişqayalı Aşıq Əli olmuşdur.

**Aşıq Hüseyn** Zaqatala rayonunun Əliabad kəndindəndir.

**Aşıq Sənəm** Balakən rayonunun Gülüzən kəndində doğulub, orada da vəfat etmişdir.

O, 1928-ci ildə I Aşıqlar qurultayında öz tənburu ilə iştirak etmişdir. Bu yerlərdə Muğal adlanan Azəri tayfalarından biri arasında yayılmış «hayla gecələri»nin iştirakçısı olmuşdur. Həm tənburda gözəl çalmış, həm də məlahətli səsi ilə çoxlu hayla - bayatı oxumuşdur.

**Aşıq Sirac (Həbibullayev)** 1930 –cu ildə Şəkinin Baş Layısqı kəndində ziyalı ailəsində anadan olmuşdur.

1947 –ci ildə siyasi şerinə görə Kənd Təsərrüfatı Texnikumundan qovulmuş Sirac o zamanlar Zaqatalanın Əliabad kəndində yaşayan 2 Göyçəli ustada – Şişqayalı Aşıq Rəhim (1873 - 1976) və Aşıq Əli qardaşlarına rast gəlir, onların yanında 5 il şəyirdlik edir. 1960 –cı ildən Gəncə şəhərində yaşayır. Onun bir dastanı və çoxsaylı hekayələri vardır.

**Aşıq Şəmsəddin** Cəlal təxəllüsü ilə yazmışdır. Aşıq Şəmsəddin - Şabanov Şəmsəddin Əli oğlu təxminən 1906-cı ildə Zaqatala rayonunun Tala kəndində anadan olmuşdur.

**Bayda** (badya aşı) (Balakən və Zaqatalada) - qız üzə çıxan gün verilərdi.

**Bəkməzlər** – nəsil adı; bəkməzlərin çılğın bacısı – erkək qızı

**Bilqeyis xatun** – Süleyman peyğəmbərin (ə.s.) zövcəsi

**Cabbar** – Şəkidə yaşamış məzəli adam. Onun adı ilə bağlı çoxlu lətifələr vardır.

**Cahangir Dalğın** 1929 –cu ildə Qax rayonunun İlisu kəndində dünyaya gəlib. Əsl adı Qeyfəddindir.

1962 –ci ildə Cahangir Zaqatalanın Əliabad kəndində yaşayan Göyçəli ustad Şişqayalı Aşıq Rəhimin yanına gəlir və ona şəyirdlik edir.

**Cəbrail (ə.s.)** –vəhy mələyi. Uca Allahın peyğəmbərlərə göndərdiyi vəhyi və əmrləri gətirən mələkdir.

İmanın 6 şərtindən biri də mələklərə imandır ki, bu yerdə də ilk olaraq 4 mələk gəlir (Digər iki mələk Mikail (ə.s.) və İsrafil (ə.s.) dir).

**Cəmil Əfəndi** Oğuz rayonunun Xaçmaz kəndində doğulub. Anadan olduğu və öldüyü il məlum deyil. Ona görə də əlyazmaları itib – batıb.

**Cüt oyun havasında** oğlan əlində bir dənə güllə çıxır və gülü verdiyi qızla oynayır. Oğlan meydanı qızdan əvvəl tərk edə bilməz. Rəqs uzanır. Qız da öz növbəsində gülü digər oğlana verir, onu rəqsə dəvət edir, əvvəlki oğlan meydandan çıxır və beləcə rəqs davam edir.

**Çaydan o tərəf dedikdə** Oğuz rayonundakı Kilsə çayının o biri tərəfində yerləşən qəbristanlıq nəzərdə tutulur.

**Çayqouşan** dağların arası ilə iki dağdan gələn suyun birləşdiyi yer

**Dambur** – eynilə Dədə Qorqudun «tənbur», «qopuz» deyə çaldığı 2, yaxud 3 simli və 6 pərdəli çalğı alətidir. (Zaqatalanın Tala kəndində çalınan dambur Balakəndəkindən fərqlidir. Çalınan aşağı oturacaq (sinəyə oturan hissə), ortaq hissə ovalvari və üç lələyə bənzər çıxıntı ilə başa çatır. Burada oxunanlara Tala mahnıları deyilir.)

(Bəzi fikirlərə görə dambur – tənbur – tən bur, yəni düz köklə deməkdir.)

Qaravəli kəndində özü dambur düzəldib çalan Məhəmməd Rəsul Ramazan oğlu Alqayevin dediyinə görə çar hakimiyyəti dövründən babası İsmayıl kişinin damburda çalıb - oxumağı məşhur idi. Sonra Məhəmməd Rəsulun atası bu sənəti davam etdirmiş, özü ağacdan dambur yonub düzəltmişdir. Tülüdə, Qıraqobada Ata Bilal, Ata Kamal bu sənətin ustadları olublar.

Damburda çalınan oyun havaları:

1) Tək oyun havası – tək oğlan rəqs edir.
2) Cüt oyun havası – oğlan və qız birlikdə rəqs edirlər.
3) Ayaqsirkələmə
4) Yerli oyun havası

Dambur Balakən və Zaqatalada ən qədim el adəti olan iməcilərin yaraşığıdır.

Damburla oxunan mahnıya hayla deyilir.

**Dəngit** – üzüm yığmaq üçün qab

**Dərviş Əhməd** Balakən rayonunun Qodoşbinə kəndində doğulub. 25-26 yaşlarından öz kəndini tərk etmişdir. Dərvişlik etmişdir. Onunla bağlı Zaqatalanın Tala kəndində çoxlu lətifələr yaranmışdır. Çünki ömrünün çox hissəsini Tala kəndində keçirmişdir.

**Döşlük bağı** – xüsusi gümüş pullarla bəzədilən kəmərə bənzər şey

**Düyməçə (təsək ) -** parça, yaxud cunadan tikilmiş, uşaq papağına oxşar baş örtüyüdür. Bağ, rezinlə çənənin altından bağlanırdı. Bu baş örtüyü üstdən tamamilə gümüş zəncir və həlqələrlə örtülürdü. Burada işlənən gümüşün miqdarı 150 qramdan 300 – 350 qramadək olurdu.

**Exnaxaş** – biçin vaxtı (udi dilində)

**El şairi Ərəboğlu** – Muradov Yaqub Arab oğlu 1934 –cü ildə Zaqatala rayonunun Qandax kəndində anadan olmuşdur.

**El şairi Xozeymət Cəfər oğlu Əliyev** 1925-ci ildə Zaqatala rayonunun Qandax kəndində anadan olmuşdur. Mosullu Lahu, Muxaxlı Ramazan, I Taladan Əli, Kəpənəkçidən Qurban (müəllim) Xozeymətin aşıq dostlarıdır. Onlar tez-tez görüşüb aşıq gecələri keçirirlər. Xozeymətin qoşmalarında onların adlarına tez-tez rast gəlmək olur.

**El şairi Murtuzəli Ömər oğlu Atayev** 1940-cı ildə Zaqatala rayonunun Çobankol kəndində anadan olmuşdur.

**Əmrah** el şairidir. O, Qax rayonunun Almalı kəndindəndir.

**Əzrail (ə.s.)** – ölüm mələyi. Dörd əsas mələkdən biridir.

**Firon** – Qədim Misir padşahı, XII sülalədən başlayaraq hökmdarların titulu: Etiqada görə Firon Günəşin oğlu. Qorun yerdəki təcəssümü, Osirisin varisi.

**Göbür** – kəndə gələndə keçilən düzənlik

**Gülbəngi** – gəlinin başına örtülən çox zərif toxunmuş baş örtüyü. Ölçü baxımından daha böyük olur, gəlin köçən qızların başına salınardı.

**Hayla** Balakəndə musiqili oxunan bayatılara deyilir. Məzmununa

uyğun olaraq həm yas, həm də toy mərasimlərində oxunur. Yas mərasimlərində bayatı oxuyanları dil deyənlər adlandırırlar.

«Hayla» sözü burada «çağırmaq», «səsləmək» mənasındadır.

**Həmzə** Aşıq Hüseynin sənət dostu, eyni zamanda keçəçi şagirdi olubmuş.

«Həmzə» qoşması Sarıbaşlı Aşıq Hüseyn tərəfindən məhz bu Həmzəyə həsr olunmuşdur. Bu qoşma Qax rayonunun Sarıbaş kənd sakini Əhmədov Müslüm tərəfindən təqdim olunmuşdur.

**Həşim Əhmədov** el şairidir. O, 1922-ci ildə Qax rayonunun Sarıbaş kəndində anadan olub. 1981-ci ildə vəfat edib.

**Həzrəti Həvva** – Adəm (ə.s.)ın zövcəsi, insanların ilk anası

**İçiq-** böyük qardaşa, əmi oğluna, özündən böyüyə müraciət forması

**İməci** Balakən və Zaqatala ərazisində keçirilən el adətidir. Barı (evtikmə) iməcisi, kəcər (bünövrə) iməcisi, qarğıdalı iməcisi, fındıq iməcisi, yun iməcisi, tütün iməcisi və s. Bu iməcilərin hamısı tənburla, bəzən də qara zurna və ağacla döyülən nağara ilə müşayiət olunardı.

İməcidə oğlanlardan biri dəsmalını oynaya – oynaya qızlardan birinin önünə atar və qız rəqsə qalxardı. Bu iməcilərin özəlliyi onda idi ki, burada gözü – könlü tutanlar görüşə bilir, ürəklərini açmağa fürsət tapırdılar.

İməcilərdə hədik bişirilir, ortaya qoyulurdu.

İməcinin gedişatında hayla söyləyirdilər.

Əslində iməcinin keçirilməsi ev sahibinə yardım etmək məqsədi daşıyır.

**Kəlmeyi – şəhadət** – İslamın beş əsas şərtindən (əsası, rüknü (əsas), taəti (borc) ilk olanı. Bu beş şərti yerinə yetirən şəxs mömin müsəlman olur. Kəlmeyi – şəhadət tam şəkildə belə oxunur: Əşhadu ənla la İlahə İlləllah və Əşhadu ənnə Muhamməddan Abduhu və rəsuluh (u).

**Kürmük** – çay adı, bir qolu Sarıbaşdan keçir.

**Qaysava** – ərik, şəkər tozu, yağdan hazırlanan yemək növü

**Qız qalası** – Qax rayonundakı Ağçay kəndinin üstündədir.

**Qinə** – Dağıstanda kənd adı.

**«Qulfu çıxarmaq»** - keçirilən mərasimə uyğun olaraq Qurandan ayə, surələrin oxunması və zikr edilməsidir.

**Lahu dayı** – Mosul kəndinin ağsaqqalı olub.

**Leyətül – qədr gecəsi** – Qədr gecəsi – Qurani – Kərimin dünya səmasından Peyğəmbərimizə endirilməyə başlandığı gecədir.

* Lütfəli Vahabovun təqdim etdiyi örnəklərin bir qismi f.e.n., dosentlər Ramazan Qafarlının tərtib etdiyi «Lütfəli kişidən folklor nümunələri» Şəki folkloru, «Təhsil» nəşriyyatı, Bakı, 2003 kiptabında nəşr olunmuşdur.

**Gimgə söhbətlərində** adları çəkilmiş şəxslər həmin regionda hazırcavab və baməzə adamlar kimi tanınmışdırlar. **Məhəmməd peyğəmbər** – Muhamməd peyğəmbər (s.ə.s.) – İslam ümmətinin peyğəmbəri və bütün peyğəmbərlərin sonuncusu (Xatəmül - ənbiya)

**Məsim Kərimov** Abdulla Padarlının nəvəsidir. O qeyd edir ki, XIX əsrdə Oğuzda yaşayıb – yaradan şair və mütəfəkkirlərdən Oğuz rayonunun Kərimli kəndindən Mücrim Kərim Vardani, Şeyx Səməd (Salman Mümtaz səhvən onun adını Şah Səməd işlətmişdir), Padar kəndindən Abdulla Padarlı, Paşa Qarağani, Qumlaqdan Hacı Cəbrayıl, Məmməd Rahim İltica, Qarabaldırdan Aşıq Əhməd, Xaçmazdan Manaf Rövşən, Yaqubludan Əsgər Salami, Caluddan Molla Abbasinin adını çəkmək olar. Onlar ərəb, fars, Qafqaz xalqlarının dillərini mükəmməl biliblər. Şərq ölkələrinə səyahət edib, onların mədəniyyətlərinə yiyələnmişlər.

**Mintənə** - belə bağlanan və dizdən aşağıyadək uzanan üst geyimi

**Mövlud gecəsi**- Beş qəndil gecəsi vardır ki, bu mübarək gecələrdən biri də mövluddur. Mövlud Həzrəti peyğəmbərlərimiz (s.ə.s.) in dünyaya göz açdığı gün, yəni təvəllüd tapdığı gündür (Digər 4 qəndil Rəqaib qəndili, Mirac qəndili, Bərat qəndili və Qədr gecəsi).

**Muxaxlı Aşıq Ramazanın «Danış» şerində** demək olar ki, Zaqatalanın bütün kənd adları qeyd edilmişdir.

**Mumasan** – sinəyə taxılan xüsusi qadın bəzəyi

**Murtuzəli Ömər oğlu Atayev** el şairidir. O, 1940-cı ildə Zaqatala rayonunun Çobankol kəndində anadan olmuşdur.

**Murtuza Əli** el şairidir. O, XIX əsrin sonlarından XX əsrin əvvəllərinə qədər yaşamışdır. O, əsasən dini şerlər yazmışdır. Öz şerlərində İslam alimlərini tərənnüm etmişdir.

**Mücrim Kərim Vardani** XIX əsrdə yaşayıb-yaradan el sənətkarıdır. Onun doğum və ölüm tarixi haqqında məlumat yoxdur.

Mücrim Kərim Vardani xalq şeri üslubunda yazan sənətkarlardan biridir. Bu şairin şerlərin mərhum prof. Əzizə Cəfərzadə toplayıb çap etdirmişdir.

**Nasih Əfəndi Məhəmməd oğlu** 1917-ci ildə Zaqatala rayonunun Muxax kəndində anadan olmuşdur. Nasih Əfəndi böyük alim idi.

**Nazlı** - Aşıq Dibrovun həyat yoldaşının adıdır.

**Nuh peyğəmbər (ə.s.)** - ilk peyğəmbərlərdən biri. Qurani – Kərimdə adı keçən peyğəmbərdir.

**Oğlan bulaq, qız bulaq** – Qax rayonunun İlisu kəndinin üst yanındakı dağlardadır.

**«Peşman olarsan» qoşması** Zaqatala rayonunun Çobankol kənd sakini Aşıq Kazımın şəxsi arxivindən tapılmışdır. Bu şeri ŞZEM-nin b.e.i., p.e.n. Əli Süleymanov əldə etmişdir.

Pərdi – evin üst millərinin altından eyvan taxtalarının üstünə köndələn qoyulan mil

**Pəri qalası** – Qax rayonundakı Güllük kəndinin üst tərəfindədir. Pəri kahası isə Zaqatala rayonundakı Əski-bazar adlanan yerdədir.

***Ramazan Canəli oğlu Ramazanov** 1930-cu ildə Zaqatala rayonunun Muxax kəndində dünyaya göz açıb. Daha çox şair kimi tanınıb. Külliyyatına 1968-ci ildən başlayaraq qələmə aldığı şerlər daxildir.

Atası saz çalırmış, şer və dastan bilicisiymiş. Onun özünə isə Aşıq Həsən ustadlıq edib, lakin səsi olmadığından aşıq kimi tanına bilməyib. Hazırda da saz çalır.

Şair Ramazan belə bir xatirə danışır: «1953-cü il idi. O zaman əsgər idim. Özü də Azərbaycan dviziyasında. Dedilər ki, sənə rayondan məktub gəlib. Gördüm ki, şerlə yazılıb. O vaxt bizim poçtalyon da Tələt adında bir oğlan idi, soyadı da Rəhimov, - o, məktubu mənə verdi. Gördüm rəhmətlik qaynatam, - o vaxt qaynatam deyildi, ev tikməklə məşğul olan usta idi. Bir şer yazıb göndərmişdi ki, zarafatla, görüm bu, şerə cavab verəcəkmi? Mən də bilirdim ki, **bu şer Molla Cumanındır. Zarafatla yazılmışdı.** Beləcə **«Olar-olar»** şerini cavab kimi yazıb məktubla göndərdim.»

**Rəcəb Didərgin** 1948 – ci ildə anadan olub. El şairidir.

**Sarıbaşlı Aşıq Hüseyn** keçən əsrin ortalarında yaşamışdır. Keçəçi olduğu üçün o, sənəti ilə əlaqədar olaraq Gürcüstana, Dağıstana, Azərbaycanın kəndlərinə gedərmiş. Belə hallarda sazı da özü ilə aparармış. El arasında ona Hösdü deyərlərmiş. Özü isə Söyün təxəllüsü ilə söz deyərmiş. Özü savadsız olduğundan onun ədəbi irsi saxlanmamış, onu tanıyanların da yaddaşında bir neçə qoşması qalmışdır. Onun bir qoşması səhvən Aşıq Hüseyn Bozalqanlının adına çıxılmışdır.

**82** – Böyük Vətən müharibəsində həlak olan Sarıbaşlılara işarədir.

**Səkinət** adlı bir qız varmış. Muğallardan bir oğlana nişanlanır.

Kəbin kəsərkən qızın kəbinini başqa bir oğlana kəsirlər. Kəbin kəsdirəndə Səkinət deyir ki, məni zorla başqasına verirlər. Mənim istədiyim qapının dalındadır. Ona görə də qızın kəbinini qapının dalındakı oğlana kəsirlər. Sevdiyi oğlan onu avarların geydiyi döşlükdə (gəlin köçəndə qıza narıncı, sarı döşlük qoyardılar) görüb bu bayatı – mahnını oxuyur.

**Sinəbənd** – qadınların sinələrinə taxdıqları gümüş pulların bir-birinə lehimlənərək birləşdirilən, yeriyəndə və oynayanda xoş cingiltili səslər çıxaran bəzəyidir.

**Süleyman peyğəmbər (ə.s.)** – Quranda adı çəkilən 28 peyğəmbərdən biridir. Davud peyğəmbərin (ə.s.) oğludur. Həm hökmdar, həm peyğəmbər olmuşdur.

**«Sünbülüstan»** kitabında verilmiş bu bağlamanın cavabı yoxdur. (Professor Əzizə Cəfərzadənin qeyd etdiyinə görə)

**Tabun** – Balakəndə əvvəllər bir neçə obadan ibarət yaşayış məntəqəsinə deyilirdi.

**Tavat kəmər** – qızıl suyuna salınan bel kəməri

**Uğan** – dağ adıdır.

**Üçdəyən** – dağ adı

**Varxiyanlı Aşıq Məhəmməd** dövrünə görə ruhani təhsili görmüş savadlı adam olmuşdur. Onun Allaha xitabən yazdığı şerlər də olmuşdur.

**Yerli hava** incə rəqs havasıdır. Nə qədər oynaq hava olsa da qızlar bu rəqsi həzinliklə oynayırlar.

**Yuxarı qala** – bu qala həm də Cingöz qala adlanır.

***Zaqatala rayonunun Çobankol kənd sakini Aşıq Kazımın ev arxivindən** bəzi nümunələr tapılmış, ərəb əlifbasından köçürülmüşdür. Bəzi qoşmaların da müəllifi məlum deyildir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1) Abdulla Padarlı, seçilmiş şerlər, (toplayanı və tərtib edəni Əzizə Cəfərzadə), «Gənclik», Bakı, 1979

2) ASE, IX cild, Bakı, 1986

3) Azərbaycanın aşıq və şair qadınları (tərtib edəni: Əzizə Cəfərzadə), Bakı, «Gənclik», 1991

4) Elxan Nuriyev, «Azərbaycan SSR Şəki-Zaqatala zonasının toponimiyası», «Elm», Bakı, 1989

5) Akif Məmmədli, «Balakən – Zaqatala bölgəsi: Tarixi etnoqrafiyası», «Adiloğlu» nəşriyyatı, Bakı , 2001

6) Ərəb və faps sözləri lüğəti, Azərb. SSR EA nəşriyyatı, Bakı, 1985

7) Hasan Arıkan «Muhtasar İlmihal», Forilet nəşr, İstanbul

8) Q.X.İbraqimov «Fonetika üaxurskoqo əzıka», Maxaçkala, 1968

9) Qəmərşah Cavadov, Rauf Hüseynov, «Udilər» (tarixi – etnoqrafik tədqiqat), Bakı, 1999

10) «Qobustan» incəsənət toplusu, □ 3, 1982

11) Lütfü – şəntürk «İslamın inanc əsasları» (Akaid), Diyanət işləri başqanlığı, Ankara, 2000

12) Məhəmməd Şabanoğlu, «Talanın yastı yolu», (Birinci kitab), Bakı, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001

13) Məhəmməd Şabanoğlu, «Talanın yastı yolu», (İkinci kitab), Bakı, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001

14) Mücrim Kərim Vardani, «Sünbülüstan», (toplayıb tərtib edəni Əzizə Cəfərzadə), «Gənclik», Bakı, 1978

15) Ömər Nasihi Bilmen «Büyük İslam İlmihali», Timas yayınları, İstanbul, 1998

16) Şirinbəy Hacıəli oğlu Əliyev, «İngiloylar» (tarixi – etnoqrafik tədqiqat), Bakı, 2001, namizədlik dissertasiyası

17) Ustad aşıqlar, Abdulla Padarlı (seçilmiş şerləri), (toplayanı Əzizə Cəfərzadə), «Gənclik», Bakı, 1979

18) «Yaşayan əfsanələr», (toplayıb tərtib edəni Sədnik Paşayev), Bakı, «Gənclik», 1973

19) Yusif Rzayev, «Bura Oğuzdur», «Mingəçevir Poliqrafiya Müəssisəsi», 2004

# MÜNDƏRİCAT

**Çoxcildli AFA-nın nəşr olunmuş kitabları........................3**
**Ön söz (M.Abdullayeva)....................................................5**

**MİFOLOJİ MƏTNLƏR ....................................................10**
**İNAM VƏ ETİQADLAR**
Andlar ..........................................................................12
İnanclar ......................................................................12
Yuxuyozmalar ...........................................................20
Bednazar ....................................................................22
Alqışlar ......................................................................23
Qarğışlar ....................................................................24

**MÖVSÜM VƏ MƏRASİM NƏĞMƏLƏRİ**
Əmək nəğmələri (holavar və sayaçı sözləri) ...................28
Doğum mərasimi ilə bağlı nəğmə ................................29
Yağış yağdırmaq məqsədilə keçirilən mərasim ..............30
Qodu-qodu ...............................................................31
Yazın gəlişi ilə bağlı inanclar, deyimlər .........................32
Çillələr.......................................................................32
Orucluq bayramı ..........................................................33
Qurban bayramı ..........................................................34
Mövlud mərasimi ..........................................................35
Toy adət-ənənələri, nəğmələri ........................................35
Dəfn mərasimi, oxşamalar, ağılar, şivənlər......................35

**BAYATILAR ...............................................................71**
**LAYLALAR, NAZLAMALAR .........................................142**
**UŞAQ FOLKLORU**
Düzgülər ....................................................................143
Sanamalar...................................................................145
Cırnatmalar, dolamalar, atmacalar...................................146
Təmsillər.....................................................................148
Uşaq oyunları ............................................................148

**YANILTMAC...............................................................153**
**TAPMACALAR ...........................................................154**
**ƏFSANƏ VƏ RƏVAYƏTLƏR .......................................164**

**NAĞILLAR ........................................................................248**
**ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR..................................305**
**LƏTİFƏLƏR .........................................................................223**
**ƏHVALATLAR, GİMGƏ SÖHBƏTLƏRİ .......................353**
**AŞIQLAR VƏ EL ŞAİRLƏRİ .........................................375**
Aşıq rəvayətləri.....................................................................449
**ŞƏKİ-ZAQATALA BÖLGƏSİNDƏ YAŞAYAN AZSAYLI XALQLARIN FOLKLORU ........................................474**
**TÜRKƏÇARƏLƏR .........................................................489**
**BÖLGƏDƏKİ SPESİFİK ADLAR HAQQINDA**
Yemək adları ........................................................................492
Nəsil və tayfa adları ...........................................................493
Ləqəblər.................................................................................493
Unudulmuş obalar ................................................................499
Məhəllə adları.......................................................................500
Müqəddəs yerlər, müqəddəs adamlar ..............................501
Kənd adları ...........................................................................503
Yer, yurd adları haqqında xalq etimologiyası ...............504
Dağ və dərə adları ...... ......................................................505
Bəzi meşə adları ..... ..........................................................506
Yaylaqlar ... .........................................................................507
Qədim abidə yerləri ..... .....................................................507
Düzənlik yeri ..... ...............................................................508
Çay və bulaq adları ........... ...............................................508
Körpü adları .........................................................................510
Xalça naxışları .....................................................................510
Toxunma əşyaların addları................ ...............................510

**DİALEKTOLOJİ SÖZLÜK ...................... ....................511**
**MƏTNLƏRDƏ İŞLƏNƏN ƏRƏB VƏ FARS SÖZLƏRİNİN LÜĞƏTİ.................... ...................521**
**SÖYLƏYİCİLƏR VƏ TOPLAYICILAR HAQQINDA MƏLUMAT... .............................................................523**
**MİFOLOJİ VƏ FOLKLOR OBRAZLARI ................536**

**Qeydlər və şərhlər ...........................................................539**
**İstifadə olunmuş ədəbiyyat ............................................547**

**Azərbaycan folkloru antologiyası,**
**XIII kitab,**
**(Şəki, Qəbələ, Oğuz, Qax,**
**Zaqatala, Balakən folkloru),**
Bakı, "Səda" nəşriyyatı, 2005.

***Nəşriyyat direktoru:***
*Elşən Hətəmzadə*

***Kompüterdə yığdı:***
*Aygün Balayeva,*
*Şəfa Mürsəlova,*
*Ləman Həsənova*

**Korrektor:**
*Tahir Orucov*

***Kompüter tərtibçisi və***
***texniki redaktoru:***
*Baxşəli Süleymanov*

Kağız formatı: 60/84 16/1
Mətbəə kağızı: №1
Həcmi: 35 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab "Səda" nəşriyyatında
ofset üsulu ilə çap olunmuşdur.